# "SİMURQ"
# AZƏRBAYCAN MƏDƏNİYYƏT ASSOSİASİYASININ TARİXİ
# 1990-2015

*25-il*

**“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası**
**Azərbaycan Kulturoloqlar Cəmiyyəti**

***“Cəmiyyət mədəniyyəti müdafiə edərsə,***
***mədəniyyət cəmiyyəti xilas edər!”***

# “SİMURQ” AZƏRBAYCAN MƏDƏNİYYƏT ASSOSİASİYASININ TARİXİ 1990 – 2015

**Bakı – 2015**

**Elmi redaktor:** akademik **Tofiq Nağıyev,**
Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Azərbaycan Milli Ensiklopediyasının direktoru, elm sahəsində Dövlət mükafatı laureatı

**Elmi rəyçi:** akademik **Ömər Eldarov,**
Azərbaycan Respublikasının xalq rəssamı,
Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru

**Tərcüməçi və redaktor:** **Şəlalə Kəsəmənli,**
AR Mədəniyyət və Turizm Nazirliyi
Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki
Mərkəzin əməkdaşı

**"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının tarixi. 1990-2015.**
"OL"npkt. Bakı, 372 səh., 2015.

Respublikanın nailiyyətlərində məlum xidmət, eyni zamanda qeyri-hökumət təşkilatlarına, o cümlədən, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasına da məxsusdur. Hazırkı kitab mövcud olduğu 25 il ərzində "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının yaradılması və inkişafının çətin yolunu əks etdirən orijinal tarixi materiallardan ibarətdir. Bu, özünün işdən azad vaxtını və çoxillik əməyini təmənnasız olaraq yüksək ruhi mədəniyyət ideallarının həyata keçirilməsinə həsr edən Azərbaycan mədəniyyəti fədakarlarının fəaliyyət salnaməsidir. Bu, Azərbaycanın milli-mədəni inkişafına xidmət, müasir sivilizasiyanın mütərəqqi və sülhsevər ölkələrindən biri imicini qazanmış doğma Vətənə xidmət yolunu seçmiş insanların yaradıcı tarixidir.

Kitabda elm, təhsil və maarifin, demokratiya, təşkilat və idarəetmə mədəniyyətinin, fərdi və beynəlxalq münasibətlərin inkişafında, Azərbaycanın milli maraqlarına cavab verən sosial-mədəni siyasətin həyata keçirilməsində "Simurq" AMA-nın dövlətə vətəndaş yardımına yönəldilmiş geniş fəaliyyəti öz əksini tapmışdır. Burada müstəqil Azərbaycan Respublikasının mədəniyyət sahəsində ilk qeyri-hökumət təşkilatının tarixi iş təcrübəsini ümumiləşdirməyə, həyat fəlsəfəsini, ideoloji və psixoloji istiqamətlərini, idarəçilik texnologiyalarını meydana çıxarmağa səy göstərilmişdir. Kitabın müsbət elmi məziyyətlərindən biri, "Simurq" AMA-nın sənədlər və materiallar arxivində saxlanılan çoxsaylı mənbələrdən ilk dəfə istifadə olunmasıdır.

*ISBN 978-9952-494-77-8*

© "Simurq" AMA. 2015
© "OL"npkt. 2015

## KİTABIN İÇİNDƏKİLƏR:


1. **ÖN SÖZ** ........................................................
2. **GİRİŞ** ...........................................................
3. Assosiasiyanın yaradılmasının tarixi şəraiti, ilkin şərtləri və elmi əsasları ..................................................
4. Assosiasiyanın həyat fəlsəfəsi, missiyası və əsas vəzifəsinin formalaşdırılması. Onun tərəfindən "SİMURQ" adının və başlıca prioritet kimi intellektual mədəniyyətin seçilməsi motivləri .............
5. "SİMURQ" AMA-nın ilk, təsis qurultayi, onun fəaliyyət məqsədləri və planlarının formalaşdırılması ........................................
6. Assosiasiyanın yaradıcı fəaliyyətinin başlanğıcı və onun ilkin nəticələri.................................................................
7. Assosiasiyanın ikinci qurultayı. Azərbaycan mədəniyyətin dirçəlişi dövründə..........................................
8. Assosiasiyanın üçüncü qurultayı. Üçüncü minilliyin əvvəlində...........................................................
9. Azərbaycan Kulturoloqlar Cəmiyyətinin təsis edilməsi və onun "SİMURQ" AMA ilə birgə fəaliyyəti........................................
10. "SİMURQ" AMA-nın TASİS proqramının layihəsi ilə əməkdaşlığı.......................................................................
11. Milli kulturologiya elmi və maarifinin inkişafinda Assosiasiyanın rolu..........................................................................
12. Assosiasiyanın dördüncü qurultayı. Yeni vəzifələr, mədəni təşəbbüslər və layihələr ......................................................
13. Assosiasiyanın beşinci qurultayı. İctimai tanınma, yeni təşəbbüslər, yeni nailiyyətlər və yeni ümidlər.................
14. "SİMURQ" AMA-nın son beş ildəki fəaliyyəti. Assosiasiyanın azərbaycançılıq ideologiyası və multikulturalizm dövlət siyasətinin həyata keçirilməsində iştirakı .................

15. **Xülasə**.........................................................................
16. **Ədəbiyyat və mənbələr** ..............................................
17. **Tövsiyə olunan ədəbiyyat**............................................
18. **Elektron mənbələr**.....................................................

**19. Əlavələr:**

*1. CƏDVƏL. "SİMURQ" AMA tərəfindən icra olunan ən mühüm layihələr (sənədlər, konsepsiyalar, monoqrafiyalar, məcmuələr, elmi tövsiyələr, maarifləndirici layihələr, proqramlar, məktəblər, konfranslar, seminarlar, treninqlər, televiziya verilişləri, xarici səfərlər). 1990-2015-ci illər....................*

*2. Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin layihəsindən çıxarış. 1995-ci il...*

*3. Azərbaycanda mədəniyyətin modernləşdirilməsi üzrə tövsiyələr. 2000-2005-ci illər......................................................*

*4. "Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafı" birinci Bakı kulturoloji konfransı iştirakçılarının Bəyannaməsi. 2011-ci il........................................................................*

*5. "Azərbaycan - 2020: gələcəyə baxış" Dövlət Konsepsiyası üçün "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının təklifləri....*

*6. Kitabdakı kulturoloji simvolların izahı....................................*

*7. "Simurq" AMA-nın fəaliyyəti haqqında təbriklər və rəylər .........*

*8. Kosta-Rikanın Mədəniyyət Nazirliyi ilə müqavilə. 1991-ci il......*

*9. Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin təsis edilməsi məsələsi üzrə məktub-dəstəklər ..............................................*

# ÖN SÖZ

2015-ci il - 25 yaşı tamam olan "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası üçün yubiley ili oldu! Bu, Azərbaycan vətəndaş cəmiyyəti tarixində əlamətdar tarixdir, belə ki, SSRİ dağıldıqdan sonra respublika ziyalılarının təşəbbüsü ilə təsis edilmiş "Simurq" AMA, mədəniyyət sahəsində Azərbaycanın ilk qeyri-hökumət təşkilatıdır.

"Simurq" AMA-nın yaradıcı fəaliyyətinə həsr olunmuş bu kitab, iki minilliyin hüdudunda Azərbaycan mədəniyyətinə xidmətin iki on il yarım vaxtı ərzində Assosiasiyasının keçdiyi çətin, lakin səmərəli yolu əks etdirir. Assosiasiyanın əsasını qoyanlar tərəfindən öz yaradıcı fəaliyyətinin predmeti qismində ruhi mədəniyyətin seçilməsi onunla şərtlənir ki, qədim zamanlardan, artıq "Homo sapiens"in ilk addımlarından başlayaraq bizim günlərədək, coğrafiyadan asılı olmayaraq, bütün dünyada mədəniyyət həmişə insanın, ailənin, cəmiyyətin, etnosun, millətin və dövlətin başlıca inkişaf amili olmuş və olacaqdır.

Kitabda elm, təhsil və maarifin, demokratiya, təşkilat və idarəetmə mədəniyyətinin, fərdi və beynəlxalq münasibətlərin inkişafında, Azərbaycanın milli maraqlarına cavab verən sosial-mədəni siyasətin həyata keçirilməsində "Simurq" AMA-nın dövlətə vətəndaş yardımına yönəldilmiş geniş fəaliyyəti öz əksini tapmışdır. Burada müstəqil Azərbaycan Respublikasının ilk qeyri-hökumət təşkilatının mədəniyyət sahəsində tarixi iş təcrübəsini ümumiləşdirməyə, həyat fəlsəfəsini, ideoloji və psixoloji istiqamətlərini, idarəçilik texnologiyalarını meydana çıxarmağa səy göstərilmişdir. Əsərdə təşkilatın missiyasının mahiyyəti, əsas məqsədləri və vəzifələri, çətinlikləri, nailiyyətləri və buraxılmış imkanları, təfəkkür, əmək mədəniyyəti və dövlətin milli maraqlarına cavab verən konkret nəticələri göstərilmişdir.

Müəllif kollektivi Assosiasiyanın yaradılması və fəaliyyət motivlərini, onun təşəkkülü və inkişafının tarixi şəraiti və xüsusiyyətlərini əks etdirməyə, Assosiasiyanın üzvlərinin Azərbaycanda ruhi mədəniyyətin inkişafına və insan kapitalının təkmilləşdirilməsinə verdiyi töhfəni aşkar etməyə nail olmuşdur. Onlar tərəfindən Azərbaycan Respublikasının milyonlarla vətəndaşının təfəkkür və davranış mədəniyyətinə, Azərbaycan xalqının zəngin mədəniyyətinin xaricdə təbliğinə pozitiv təsir göstərən orijinal kulturoloji ideyalar, təşəbbüslər və layihələrin yaradılması və maddiləşdirilməsi tarixi prosesləri tədqiq edilmişdir.

Bu dəyərli kitab, ruhi mədəniyyətin dəyişdirici potensialının dərin sistemli təhlili, toplanan və istehsal edilən qiymətli humanitar biliklər bankı, innovativ

ideyalar və ekspert tövsiyələrinin çoxluğu ilə fərqlənən ciddi kulturoloji əsərdir. O, insanın inkişafının başlıca hərəkətverici qüvvəsi olan elmin hüdudsuz imkanlarına son dərəcə əminliklə, və Azərbaycanda mədəni tərəqqi ideyalarının təntənəsinə sarsılmaz inamla doludur. Burada ifadə olunan kulturoloji biliklərin və ekspert tövsiyələrinin praktik istifadəsi, Azərbaycan xalqının milli inkişafının pozitiv üfüqünü formalaşdıran yeni imkanlara doğru bir vasitədir.

Mövcud olduğu dövr ərzində təşkilatın yaradıcı fəaliyyətinin həqiqi tarixi mənzərəsini yaratmağa çalışaraq, müəllif kollektivi metodologiya qismində tarixilik prinsipini, məntiq və dialektikanı, fənlərarası elmi-tədqiqat vasitələri qismində sistemli kulturoloji təhlil metodları məcmusunu seçmişlər. Tarixi faktlar, orijinal sənədlər və materialların sistemli təhlili əsasında qurulmuş bu ciddi əsərin hazırlanması, cəmiyyət və dövlət qarşısında kollektivin əməyinin aşkar edilməsi və qiymətləndirilməsi üçün monoqrafiyalar, məcmuələr, jurnallar, elmi və qəzet məqalələri, internet materialları, həmçinin "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının zəngin arxivi və onun üzvlərinin xatirələrindən istifadə olunmuşdur.

Belə məsuliyyətli yanaşma - Assosiasiyanın rəhbərləri və üzvlərinin elmi bilikləri, peşəkar səriştəliliyi və yüksək etik mədəniyyət səviyyəsini, fasiləsiz dəyişikliklər və qloballaşma çağırışları şəraitində ölkənin rəqabət qabiliyyəti və təhlükəsizliyinin mühüm şərti kimi, milli mədəniyyətin sosial kapitalının formalaşdırılması və inkişafına verdikləri ciddi töhfəni müəyyən etməyə və obyektiv surətdə, layiqincə qiymətləndirməyə imkan yaratmışdır.

Qeyri-hökumət təşkilatları əsas siyasət iştirakçıları olmasalar da, onlar ölkənin sosial-mədəni, siyasi və iqtisadi inkişafına müsbət təsir göstərirlər. Məlum olduğu kimi, beynəlxalq təşkilatlar yüksək intellektual potensiala malik, dövlətin sosial-mədəni siyasətinin ən mühüm məsələləri üzrə konsultasiya və ekspertiza prosesləri üçün faydalı olan, hökumət üçün elmi əsaslanmış tövsiyələrin və idarəçilik texnologiyalarının işlənib hazırlanmasına yardım edən qeyri-hökumət təşkilatlarına mühüm əhəmiyyət verirlər.

Bununla əlaqədar olaraq, "Simurq" AMA-nın yalnız milli mədəniyyətin inkişafına deyil, həm də Azərbaycanın mütərəqqi xarici siyasətinə müəyyən vətənpərvərlik töhfəsini qeyd etmək az əhəmiyyətli deyil. Bu töhfənin səmərəliliyinin qiymətləndirilməsi üçün Assosiasiyanın ölkəmizin xaricdə pozitiv imicinin formalaşmasına yardım edən fəaliyyətini əks etdirən bir neçə aşkar faktları xatırlatmaq kifayətdir. Onların sırasında: hələ 1991-ci ildə Kosta-Rika tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin tanınmasında "Simurq" AMA-nın rolu, 2000-ci ilin əvvəlində Assosiasiyanın mədəni siyasət üzrə Avropa Şurasının məlumat bazasına daxil edilməsi, 2000-ci ilin payızında BMT-də Millenium

üzrə Beynəlxalq konfransın geniş iclasında Assosiasiyaya çıxış üçün söz verilməsi, 2001-2006-cı illərdə Assosiasiyanın 100-dən artıq üzvünün "Sülh səfiri" beynəlxalq diplomu ilə təltif edilməsi, kulturologiya və idarəetmə mədəniyyəti üzrə Assosiasiyanın monoqrafiyalarının BMT, YUNESKO, ABŞ Konqresinin kitabxanaları, həmçinin Rusiya, Fransa, Almaniya, İtaliya, Qazaxstan, Türkiyə, İran, Yaponiya, Çin və dünyanın digər ölkələrinin kitabxanalarında istifadə edilməsini, 2011-ci ildən başlayaraq, Assosiasiyanın prezidenti, professor Fuad Məmmədovun hər il Azərbaycandan yeganə məruzəçi qismində, ən böyük kulturoloji forumlardan birinə - Sankt-Peterburqda keçirilən "Lixaçov elmi oxumaları"na dəvət olunmasını, 2014-cü ildən isə bu mötəbər forumun Beynəlxalq təşkilat komitəsinin üzvü olmasını göstərmək olar.

"Simurq" AMA-nın xüsusiyyəti, mədəniyyət sahəsində onun elm, təhsil, maarif və bütöv mədəniyyət sisteminin digər sosial institutlarının qabaqlayıcı inkişafı əsasında cəmiyyətin innovativ inkişafının kulturoloji problemləri ilə məşğul olan Azərbaycan Respublikasının ilk, yüksək intellektli qeyri-hökumət təşkilatı olması ilə şərtlənmişdir. O, ölkədə yeganə qeyri-hökumət təşkilatıdır ki, öz məhsuldar tədqiqatçılıq fəaliyyəti ilə Azərbaycan elmində yeni elmi istiqamətin – kulturologiyanın əsasını qoymuşdur.

Assosiasiyanın fəaliyyətinin nəticələri sübut edir ki, Azərbaycan Respublikasında kulturologiyaya həm dövlət səviyyəsində, həm də vətəndaş cəmiyyəti səviyyəsində ciddi diqqət ayrılır ki, bu da bütövlükdə mədəniyyətin inkişafının, və ölkəmizin rəhbərliyi tərəfindən mədəniyyətin inkişafına verilən əhəmiyyətin göstəricilərindən biridir.

Müasir dünyada kulturologiya, insanın kreativ həyat fəaliyyəti, insanın, cəmiyyətin və dövlətin inkişaf texnologiyaları və imkanları haqqında elm kimi aparıcı elmi paradiqma olmuşdur. O, müasir həyatın mürəkkəb problemlərinin təhlili və düzgün həlli üçün, dünya ictimaiyyəti, dövlət, kollektiv, ailə və ayrı-ayrı vətəndaşlar səviyyəsində düzgün qərarların qəbul edilməsi üçün əvəzsiz əhəmiyyətə malikdir. Sosial və humanitar elmlərin nailiyyətləri və metodlarını sintezləşdirərək, kulturologiya cəmiyyət və insan haqqında sistemləşdirilmiş və sosial reallıq mənzərəsini yaradan elmi bilikləri formalaşdırır. Kulturologiyanın inkişafını həddən artıq güclənmiş differensiasiyaya qarşı biliyin inteqrasiyası kimi də nəzərdən keçirmək olar. Mədəniyyət dünyasının elmi mənzərəsi müxtəlif elmlərin nəticələrini cəmləməklə əldə edilə bilməz. Kulturologiya cəmləmir, lakin özünün əsas – humanitar reallıq mənzərəsinin formalaşdırılması vəzifəsini gerçəkləşdirərək, elmi biliyin digər sahələrinin nəticələrini sintezləşdirir. Burada əsas yeri mədəniyyətin strukturu və dinamikasının ümumiləşdirici modelinin yaradılması tutur. Kulturologiyanın strateji əhəmiyyəti, daimi dəyişik-

liklər və qloballaşma çağırışları şəraitində bəşəriyyətin sosial-iqtisadi inkişafı və dünya "biliklər iqtisadiyyatı"nın tərəqqisinin başlıca hərəkətverici qüvvəsi olan insan kapitalının inkişafı kontekstində xüsusilə aydın görünür. Buna görə də Azərbaycan Kulturoloqlar Cəmiyyətinin bu mövzuya müraciət etməsi, zənnimcə, çox vaxtındadır və, praktik olaraq, həddən artıq aktualdır. Bu səbəbdən Azərbaycanda kulturoloji forumlar, konfranslar, seminarların, televiziya verilişlərinin, gənc tədqiqatçıların işlərinin müsabiqəsinin keçirilməsi, elmi jurnalların nəşri, dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsinin müxtəlif məsələləri üzrə çoxlu sayda kitabların və məqalələrin dərc edilməsi, onlarla kulturologiya dissertasiyalarının müdafiəsi bizi sevindirməyə bilməz.

Azərbaycan Mədəniyyət Assosiasiyasının təsisçisi və prezidenti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Fuad Teyyub oğlu Məmmədov haqqında bir neçə söz demək istərdim. Professor özünün, Azərbaycanda və xaricdə yaxşı məlum olan çoxillik tədqiqatları və fundamental əsərləri ilə milli kulturologiyanın inkişafına ciddi töhfə vermiş, Azərbaycan elmində bu yeni istiqamətin əsasını qoymuşdur. Fuad Məmmədov alim və ictimai xadim kimi beynəlxalq tanınma qazanmış, onun əldə etdiyi nəticələr isə milli və beynəlxalq diplomlar və medallarla, onun bir sıra beynəlxalq elmi akademiyalara həqiqi üzv seçilməsi ilə qeyd olunmuşdur. Qeyd etmək kifayətdir ki, "Wikimedia Foundation, Inc." Fondu tərəfindən yaradılmış internet-ensiklopediyada Fuad Teyyub oğlu Məmmədovun adı - Frans Boas, Eduard Taylor, Herbert Markuze, Yohan Heyzinq, Osvald Şpenqler, Karl Yaspers, Nikolay Danilevski, Nal Zlobin, Moisey Kaqan, Konstantin Leontyev, Pitirim Sorokin və başqaları kimi dünya kulturologiyasının korifeyləri ilə bir sırada dayanır. Professor tərəfindən təklif olunan "kulturologiya piramidası" universal metodu, tədqiqat metodologiyaları və metodları idarəetmə elminin təkmilləşdirilməsi üçün paradiqma kimi mühüm əhəmiyyətə malikdir, müxtəlif səviyyələrdə effektiv innovativ idarəetmə modellərinin yaradılması üçün yeni imkanlar açır.

Yubiley ilində Azərbaycan cəmiyyəti və dövlətinin rifahı naminə mədəniyyətin və kulturologiyanın inkişafında "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının kollektivinə yeni böyük yaradıcılıq uğurları arzulayıram!

***Nizami Cəfərov,***
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü,*
*filologiya elmləri doktoru, professor,*
*Azərbaycan Respublikası Milli Məclisinin*
*Mədəniyyət məsələləri üzrə Daimi komissiyasının sədri*

# GİRİŞ

Sürətli sosial-mədəni, o cümlədən iqtisadi inkişaf nəticəsində Azərbaycan Respublikası müasir sivilizasiyanın getdikcə daha çox ən dinamik inkişaf edən dövlətləri və mədəniyyət mərkəzlərindən birinə çevrilir. Buna onun iqtisadiyyat, təhsil, elm, incəsənət, tibb, idman, turizm və bütöv mədəniyyət sisteminin digər sahələrindəki uğurları, düşünülmüş daxili və xarici siyasəti, yüksək şəhərsalma və dövlət idarəçiliyi mədəniyyəti imkan verir.

Respublikanın nailiyyətlərində məlum xidmət, eyni zamanda qeyri-hökumət təşkilatlarına, o cümlədən, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasına da məxsusdur. Hazırkı kitab 25 illik mövcudluğu ərzində "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının yaradılması və inkişafının çətin yolunu əks etdirən orijinal tarixi materiallardan ibarətdir. Bu, özünün işdən azad vaxtını və çoxillik əməyini təmənnasız olaraq yüksək ruhi mədəniyyət ideallarının həyata keçirilməsinə həsr edən Azərbaycan mədəniyyəti fədakarlarının fəaliyyət salnaməsidir. Bu, Azərbaycanın milli-mədəni inkişafına xidmət, müasir sivilizasiyanın mütərəqqi və sülhsevər ölkələrindən biri imicini qazanmış doğma Vətənə xidmət yolunu seçmiş insanların yaradıcı tarixidir.

25 illik həyat yolu - bu olduqca dəyərli qeyri-hökumət təşkilatının mahiyyəti, xüsusiyyətləri, tarixi və nailiyyətlərini izləməyə, bəşəri inkişafa və Azərbaycan Respublikasının milli inkişafına onun töhfəsini qiymətləndirməyə, Azərbaycan xalqının rifahı naminə yaradıcı fəaliyyətindəki çətinlikləri, səhvləri və çatışmazlıqları təhlil etməyə imkan verən ciddi səbəbdir.

Dünya sivilizasiyası tarixi, insanın kreativ inkişaf mənbəyi olan, yalnız yüksək ruhi mədəniyyətin dünyanı xilas edə biləcəyi həqiqətini inandırıcı surətdə təsdiq edir. Yalnız yüksək ruhi mədəniyyət və ona əsaslanan yaradıcı fəaliyyət cəmiyyəti yeni inkişaf və rifah üfüqlərinə çıxarmağa, bəşəriyyətin layiqli həyatını və daha yaxşı gələcəyini təmin etməyə qadirdir. Planetin xalqları və dövlətləri üçün ruhi mədəniyyətin inkişafından daha vacib bir məsələ ola bilərmi? Yüksək ruhi mədəniyyət – düzgün həyat müəllimidir, davamlı ictimai tərəqqinin əsası, millətin iqtisadi və sosial rifah mənbəyi, cəmiyyətin və dövlətin rəqabət qabiliyyəti və təhlükəsizlik mənbəyidir, insanların məhəbbəti, dostluğu və əməkdaşlığına açardır, sülhə və bəşəriyyətin xilasına aparan yoldur.

Cahillik – şər və yoxsulluq (maddi və ruhi anlamda), mədəniyyət isə - bilik, inkişaf və rifahdır. Sosial təzahür olan, ilk növbədə, insanların cahilliyi ilə şərtlənən şəri dəf etmək və azaltmaq, hədsiz eqoizmi, qəzəbi, tamah-

karlığı və rüşvətxorluğu aradan qaldırmaq, - yalnız insanın xarakteri və davranışına müsbət təsir göstərən yüksək ruhi mədəniyyətin inkişaf etdirilməsi və yayılması yolu ilə mümkündür. Mədəniyyət – insanın həqiqi dəyər meyarıdır. Nə milliyyəti, nə dini, nə anadan olduğu yer, nə yaşayış məskəni, nə peşəsidir. Mədəniyyət – insanların rifahı naminə xeyirxahlıq, yüksək etika və yaradıcılıq seçimidir, həyatın, insanın inkişafı və xoşbəxtliyinin tükənməz mənbəyi, biliklərin, xeyrin, məhəbbət və yaradıcılığın səmərəli enerjisidir. Alicənab, yaxşı təhsilli və tərbiyəli insan ictimai tanınmada tələbatını başqalarının zəifliyi, onların alçaldılması yaxud sıxışdırılması hesabına deyil, özünün ağlı, qabiliyyətləri, bilikləri, humanizmi və nailiyyətlərini göstərməklə təmin edir. Mədəni insanın formalaşması daha çox uşaqların və gənclərin düzgün tərbiyə edilməsindən, elmin və praktikanın nailiyyətlərinə əsaslanan məntiqi dəlillər əsasında böyükləri inandırmaq bacarığından, insana elm və təhsilin verdiyi yüksək mədəniyyət dəyərləri və standartları üzərində qurulmuş həyat üstünlüklərinin izah edilməsindən asılıdır.

Lakin mədəniyyətin dünyanı xilas etməsi üçün onu yalnız dəstəkləmək və inkişaf etdirmək deyil, həm də onun humanist ideyalarını tənəzzül və dağılmadan, cahillik, vəhşilik və barbarlıq qalıqlarından müdafiə etmək lazımdır. Xalqını sevən hər bir ziyalı insan, siyasətçi və məmurun borcu - təhsilin, maarifin və informasiyanın imkanlarından istifadə edərək, mədəniyyəti destruktiv proseslərdən qorumaqdan, şəxsiyyətin, cəmiyyətin və dövlətin ruhi mədəniyyətinin daimi təkmilləşdirilməsinə yardım etməkdən ibarətdir.

Mədəniyyət sosial fenomendir, təbiətdən (insandan) başlayan, lakin təbiətə və özünə münasibətdə insanın əqli və onun yaradıcı fəaliyyəti ilə bağlı olan üstbioloji kateqoriya olan ekstrasomatik sistemdir. Mədəniyyətin inkişafı beş obyektiv-tarixi amildən asılıdır. Bu – tarixi-coğrafi şərait, mədəniyyətin genetik kodu, sosial mühit, tarixi şərait və mədəni mübadilədir. Bərabər şərtlərlə, milli mədəniyyətin strukturu, prioritetləri və imkanlarını formalaşdıran sosial mühit, mədəniyyətin həyat qabiliyyəti və effektivliyi üçün təyinedici əhəmiyyətə malikdir.

Bütöv sosial sistem olan mədəniyyəti, obrazlı şəkildə, birlikdə müasir cəmiyyətin sosial strukturunu təşkil edən sosial institutlar və mədəniyyət hadisələrinin öz aralarında üzvi surətdə qarşılıqlı əlaqəli inkişaf etdiyi şar formasında təsəvvür etmək olar. Bunlara: təhsil, maarif və tərbiyə; elm və texnologiya; iqtisadiyyat və maliyyə; ideologiya; təşkiletmə və idarəetmə; hüquq və qanunvericilik; etika; bədii mədəniyyət (incəsənət) və mədəni irs; həyat tərzi; həyat təminatı sistemləri; informasiya və mətbuat; daxili və xarici siyasət; beynəlxalq münasibətlər və din aiddir. Bu istiqamətlərin hər biri

öz məqsədi, strukturu, funksiyaları, texnologiyaları, enerjisi, hərəkət vektoruna, dəyişdirici imkanlarına malikdir. Səmərəli idarəetmə bütöv mədəniyyət sisteminin harmonik inkişafını, cəmiyyətin dinamik tərəqqisini təmin edən əsas istiqamətlər və prioritetlərin düzgün seçimini nəzərdə tutur.

Milli inkişaf vektoru yüksək biliklər mədəniyyəti və əmək mədəniyyətini, idarəçilik nəticələrinə görə məsuliyyət mədəniyyətini, dəyərlər harmoniyası və cəmiyyətin maraqlarının uzlaşmasına əsaslanan yüksək mənəvi prinsipləri özündə birləşdirən ruhi mədəniyyətlə müəyyən olunur. Bunun üçünsə, millətin həyat qabiliyyətini təmin edən, elmi biliklər, humanist etika və yaradıcılıq, qarşılıqlı anlaşma, mədəniyyətlərin harmoniyasına və vətəndaşların maraqlarına, davamlı inkişaf məqsədilə onların həmrəyliyi və qarşılıqlı faydalı əməkdaşlığına əsaslanan sosial-mədəni mühitin daim təkmilləşdirilməsi lazımdır. Bu həqiqətlərin dərk edilməsi, çoxlu sayda ölçülərə malik sosial fenomen olan mədəniyyətin - “insanın ağlı, hissləri və fiziki əməyi ilə yaradılan bütün  pozitivin “ikinci, süni təbiəti” kimi düzgün başa düşülməsini tələb edir.

Mədəniyyətin bir cox tərifləri vardır ki, onların arasında ən çox yayılanı onun kontekstual və dar nöqteyi-nəzərdən izahıdır. Kontekstual mənada mədəniyyət – hər hansı bir hadisənin, fəaliyyət sahəsinin, fərdi və sosial münasibətlərin, yaxud insanın özünün inkişaf səviyyəsinin keyfiyyət xarakteristikasıdır. Bu anlayış insanın, millətin, cəmiyyətin, yaxud ümumilikdə, bəşəriyyətin müxtəlif həyat fəaliyyəti sahələri üzrə tətbiq edilə bilər. Dar və adi anlamda mədəniyyət, başlıca olaraq, incəsənət, folklor, ənənələr, mədəni irs, etik normalardır. Bir çox mədəniyyət konsepsiyaları onunla şərtlənmişdir ki, mədəniyyət - dinamik, daim dəyişən yaradıcı prosesdir və onun əsas motivi insan həyatının qorunması və yaxşılaşdırılması haqqında qayğıdır.

Mədəniyyətin bir çox təriflərini sistemləşdirməyə və birləşdirməyə çalışaraq, biz ona əsaslanırıq ki, qədim zamanlardan insanın fikri, ideyaları və bilikləri maddiləşərək, bizi əhatə edən aləmi kökündən dəyişən, və insan üçün zəruri olan texnologiyalara və istehsala çevrilirlər. Bu gerçək reallıqı nəzərə alaraq, mədəniyyəti yaradıcı proses, insanın həyat fəaliyyəti dəyərləri və texnologiyalarının məcmusu kimi məntiqi cəhətdən ifadə etməyə imkan verən sistemli elmi anlayış tərəfimizdən formulə edilmişdir. Belə anlayışa uyğun olaraq, mədəniyyət – üçlükdür:  təbiətin, insanın özünün və cəmiyyətin dərk edilməsi və  dəyişdirilməsi, nəticədə yaranan ruhi və maddi dəyərlər və normalar, həmçinin onların istehsal, mühafizə, istifadə və ötürülmə texnologiyaları. Mədəniyyət anlayışına belə yanaşma onun tarixi, kreativ fəaliyyətləri, qanunauyğunluqları, texnologiyaları və innovativ imkanlarının

sistemli təhlilinə imkan verir. O, mədəniyyətin mahiyyət və xüsusiyyətlərinin yalnız dəyərlər kimi deyil, həm də insanların ruhi və maddi tələbatlarının təmin edilməsi üçün zəruri olan effektiv həyat texnologiyaları və məhsul istehsalına yönəldilmiş tarixi proses kimi dərk edilməsinə yardım edir.

Bütöv uğurlu milli mədəniyyət sistemində aparıcı həlqə intellektual mədəniyyətdir. İntellekt insanın, cəmiyyətin və dövlətin bərpaedici strateji inkişaf resursudur, ona əsaslanan elm isə təhlükəsiz və firavan həyat üçün zəruri olan müdrikliyə aparıb çıxarır. Humanist mənəviyyatla şərtlənən yüksək intellekt insanın başlıca inkişaf mənbəyi, dünya sivilizasiyasının aparıcı qüvvəsidir. Kəşflər və ixtiraların düzgün anlamı, qiymətləndirilməsi və vaxtında istifadəsi şərtilə, intellektual mədəniyyətin nailiyyətləri planetin milyonlarla insanlarının həyatı üçün əlverişli imkanlar yaradır.

İntellektual mədəniyyətin təyinedici əhəmiyyətini qiymətləndirmək üçün "insan əməyi" anlayışına müraciət etmək kifayətdir. Əmək mədəniyyəti – insanın həyati tələbatlarının təmin edilməsi, qorunması və yaxşılaşdırılması üçün zəruri olan dəyərlərin istehsalına yönəldilmiş biliklər, bacarıqlar, mütəşəkkillik, etika və yaradıcı fəaliyyətdir. Əmək – mədəniyyətin fundamental sosial institutlarından biridir, insanın həyatı, əqli və mənəvi inkişafının zəruri şərtidir ki, onsuz bəşəriyyətin mövcudluğunu təsəvvür etmək çətindir. Bu zaman fiziki əməyin dəyəri "ruhi istehsalın", yəni təhsil, elm, incəsənət, və yalnız insan potensialının formalaşması üçün deyil, eyni zamanda iqtisadi istehsalın inkişafı üçün mühüm əhəmiyyət kəsb edən digər qeyri-iqtisadi kateqoriyalar sahəsində inkişaf üçün fəaliyyətin əsasını təşkil edən əqli əmək payından asılı olaraq artır.

Hiss etmək çətin deyil ki, cəmiyyətin sosial-mədəni tərəqqisi intellektual mədəniyyətin səviyyəsi ilə düz mütənasib, insanların cahillik səviyyəsi ilə tərs mütənasibdir. Surətin kəmiyyətinin artması və məxrəcin azalması ölkədə elm və təhsilin inkişaf səviyyəsindən asılıdır. Hələ XXI əsrdə dahi Nizami özünün "İqbalnamə" əsərində elmin və alimlərin cəmiyyətdəki gücü və üstünlüyü haqqında yazırdı. Bəşəriyyətin yaddaşında fövqəladə ağıl və intuisiya, misilsiz iradə və cəsarət rəmzi kimi qalan Cordano Bruno insan cəmiyyəti üçün elmin inkişafının əhəmiyyətini qeyd edərək deyirdi ki, elmin zirvəsini fəth etmək mütləq deyil, hamının bilməyə, dərk etməyə can atması kifayətdir. İnsanların elmi təhsilinin aparıcı rolunu göstərən bu həqiqət, bugün də öz əhəmiyyətini itirməmişdir. Hamının alim olması vacib deyil, lakin şəxsiyyətin, xüsusən dünyanın müasir inkişaf mərhələsində, intellektual inkişaf prosesinin özü Azərbaycan cəmiyyəti üçün də praktik əhəmiyyətə malikdir.

Bu qanunauyğunluqların dərk edilməsi, dövlətimizin strateji mədəni sərvəti kimi, Azərbaycan xalqının intellektual potensialının əhəmiyyətini başa düşməyə bizə əsas verir ki, onu qiymətləndirmək, hərtərəfli dəstəkləmək, səmərəli istifadə etmək və daim inkişaf etdirmək lazımdır.

İntellektual mədəniyyət elmi-texniki və sosial tərəqqinin yalnız əsası deyil, həm də hakimiyyətə, cəmiyyəti ağılla idarə etməyə vəsiqədir. Əmək məhsuldarlığı, bunun ardınca isə dövlətin beynəlxalq reytinqini müəyyən edən, cəmiyyətin maddi rifahı, həyat keyfiyyəti, ölkənin rəqabət qabiliyyəti elmi və texnoloji nailiyyətlərdən, təhsilin keyfiyyətindən asılıdır. Ruhi mədəniyyətdə yüksək intellektə əsaslanan üstünlük - yaşamanın və inkişafın, hakimiyyətin və qələbənin, məhsuldar istehsal və şüurlu istehlakın, mütərəqqi ideologiya və düşünülmüş siyasətin mütləq şərti olub, şərtidir və olacaqdır.

Biz özümüzə, ruhi mədəniyyətin mahiyyəti və onun inkişafının yüksək əhəmiyyətini kulturoloji baxımdan başa düşməyə oxucunun diqqətini yönəlttmək ixtiyarını verdik, çünki məhz bu mülahizələr bir çox illər bundan əvvəl, "Simurq" AMA-nın yaradılması və fəaliyyətinin məqsədi, bizim sosial həyat yolumuz kimi tərəfimizdən ruhi mədəniyyətin seçim motivlərinin əsasını təşkil edirdi. Assosiasiyanın Azərbaycan cəmiyyətinin ruhi mədəniyyət dəyərləri, həmçinin onun tərəfindən mənimsənilən müasir elmi-nəzəri biliklərlə şərtlənən əsas missiyası, demokratiya mədəniyyətinin formalaşmasında, intellektual, etik, hüquq və idarəetmə mədəniyyətinin inkişafında dövlətə yardım kimi müəyyən edilmişdir. O başlanğıcdan Azərbaycan xalqının mədəni irsinin qorunması və yayılmasına, insanların akkulturasiyası və inkulturasiyasına, şəxsiyyət mədəniyyəti və əmək mədəniyyətinin, fərdi və beynəlxalq münasibətlər mədəniyyətinin inkişafına, həmçinin respublikanın tərəqqisi naminə dünyanın müxtəlif xalqlarının sosial-mədəni inkişaf təcrübəsinin öyrənilməsi və yaradıcı istifadəsinə yardımı nəzərdə tuturdu.

İdeoloji münasibətdə Assosiasiya ehkamçılıqdan və insanların şüur və davranışının neqativ stereotiplərindən qətiyyətlə imtina etmək uğrunda, Azərbaycanın bütün vətəndaşlarının milli həmrəylik, sülh, vəhdət, mədəni dirçəliş və tərəqqi ideyaları ətrafında birləşməsi və möhkəmlənməsi uğrunda çıxış edirdi. Assosiasiyanın konseptual əsasını - dünya birliyinin inkişaf strategiyasına uyğun olan, elmin və mədəniyyətin inkişaf etdirilməsi vasitəsilə gələcəyə yol açan humanist sivilizasiyanın formalaşmasına istiqamətlənmiş könüllülük, mədəni dirçəliş və yaradıcılıq təşkil edirdi.

Bunu nəzərə alaraq, "Simurq" AMA öz işini şəxsiyyətlərarası münasibətlərdə humanizm, inam və könüllülük, iqtisadi azadlıq və cəmiyyətin inki-

şafı naminə insanların yaradıcı və mənəvi potensialını daha tam şəkildə açmağa imkan verən sosial ədalət prinsiplərinə bağlılıq əsasında qurmağa başladı. Bu zaman Assosiasiya demokratik cəmiyyətin ali məqsədinin - güclü dövlətin əsasını təşkil edən insanın azad, mütərəqqi inkişafı və rifahı, elmi əsaslanmış siyasətinin isə bu məqsədə nail olma vasitəsi olduğuna əsaslanırdı.

Ümummilli tələbatlara və maraqlara istiqamətlənərək, Assosiasiya buraya üzvlərinin maraqlarını da daxil edirdi, öz fəaliyyətində onların səriştəliliyi, müstəqilliyi, təşəbbüskarlığı və məsuliyyətinə istinad edirdi. Assosiasiya vətənpərvər ideyaları və prinsipləri əldə rəhbər tutaraq, milliyyəti, dini etiqadı, cinsi, siyasi meylindən yaxud kommersiya maraqlarından asılı olmayaraq, bütün respublika vətəndaşlarını Azərbaycanın sosial-mədəni inkişafında dövlətə yardım etməyə səsləyirdi. O həmçinin, könüllü üzvlərini öz biliyi və nüfuzu, intellektual və istehsal nailiyyətləri, qabiliyyət və bacarıqları ilə Assosiasiyanın nəcib məqsədləri, proqramları və layihələrinin həyata keçirilməsinə mümkün olan köməkliyi göstərməyə çağırırdı.

İnsanın və cəmiyyətin inkişafı üçün mədəni dəyərlərin daimi əhəmiyyətini nəzərə alaraq, sivil ölkələrin sosial-mədəni inkişaf təcrübəsinə əsaslanaraq, Assosiasiya ictimai şüurda və Azərbaycanın inkişafında mədəniyyətin üstünlüyünün, milli mədəniyyətlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı zənginləşməsinin bərqərar olmasına, respublikanın xarici ölkələrlə dostluq və əməkdaşlığının möhkəmləndirilməsi və genişləndirilməsinə səy göstərirdi. O öz fəaliyyəti ilə ölkənin başlıca sərvətinin – insan kapitalının əsasını təşkil edən, universal elmi biliklərə və professional vərdişlərə, mütəşəkkillik və mənəviyyata, humanizm və vətənpərvərliyə malik yüksək mədəniyyətli insanın formalaşmasına; insanlarda Azərbaycan mədəni irsi ilə demokratiya mədəniyyəti dəyərlərinin sintezinə əsaslanan mədəni dünyagörüşünün təkmilləşdirilməsinə yardım edirdi.

"Simurq" AMA həmçinin, mədəniyyət sahəsində struktur dəyişikliklərə, milli inkişaf tələblərinə cavab verən yeni mədəniyyət siyasətinin formalaşmasına vətəndaş yardımını qarşısına məqsəd qoymuşdur. Belə siyasətin həyata keçirilməsi müxtəlif sosial qruplara, milli və dünya mədəniyyəti dəyərlərinə geniş çıxış açmalı, yaradıcılıq üçün onların imkanlarını genişləndirməli, sərbəst təcrübə mübadiləsi və mədəni vərdişlərin inkişafı üçün şərait yaratmalı idi.

Fəaliyyətinin elmi-nəzəri əsası qismində Assosiasiya kulturologiyanı – mədəniyyətin tarixi və nəzəriyyəsi haqqında elmi seçmişdir. Əgər əlkimyada oksidləşən (paslanan) metalları qızıla çevirmək üçün nəzərdə tutulan "iksir" (orta əsr kimyagərlərinin təsəvvürüncə, guya bütün metalları qızıla çevi-

rə bilən, həmçinin bütün xəstəlikləri sağalda bilən ecazkar maddə, daş) arzunu reallığa çevirə bilmədisə də, “mədəniyyət iksiri” mümkün və zəruri sosial təzahürdür. Bu “iksir” – xüsusi tədqiqatlar, təhsil texnologiyaları və müxtəlif yaş, millət, din, sosial mənşə və əqidə insanlarının maarifləndirilməsi vasitəsilə yüksək mədəniyyət “istehsalını” təmin etmək iqtidarında olan kulturologiyadır.

Azərbaycan mədəniyyəti tarixinin təhlilinə dünya mədəniyyəti və sivilizasiyası kontekstində sistemli kulturoloji yanaşma, Azərbaycanın inkişafı üçün onların yaradıcı istifadəsinin faydalılığı nöqteyi-nəzərindən, dünyanın mütərəqqi ölkələrinin texnologiyaları və real nailiyyətlərinin çoxölçülü komparativ təhlilini aparmaqda bizə yardım etmişdir. Bu seçim mədəniyyətin mahiyyəti və xüsusiyyətlərini dərk etmək, onun hərəkətverici qüvvəsi və obyektiv qanunauyğunluqlarını, mütərəqqi texnologiyaları və dəyişdirici imkanlarını aşkar etmək üçün kulturologiya elminin danılmaz üstünlüklərinə əsaslanmışdır. Respublikanın dinamik sosial-mədəni inkişaf maraqları tələb edirdi ki, sosial inkişafa böyük dəyişdirici təsir göstərən, ənənələrin və innovasiyaların balanslaşdırılmış qarşılıqlı əlaqəsini nəzərdə tutan, kulturoloji yanaşma vasitəsilə tənzimlənən mədəni siyasət kulturogenez qanunları əsasında qurulsun. Belə yanaşma cəmiyyətin davamlı inkişafına səbəb olur, zamanın çağırışlarına uyğun şəkildə cavab verməyə, dünya sivilizasiyasındakı daimi dəyişikliklər şəraitində ölkənin rəqabət qabiliyyəti və təhlükəsizliyini təmin etməyə yardım edir.

Atom da daxil olmaqla, kainat külli miqdarda mürəkkəb sistemlərdən ibarətdir. Bunu nəzərə alaraq, tarixin göstərdiyi kimi, təbiət və cəmiyyət təzahürləri və hadisələrinin tədqiqatına, ictimai inkişafın mühüm qanunauyğunluqlarını dərk etməyə məhz sistemli yanaşma ən səmərəli həqiqət axtarışı metodudur. O, şəraiti, zamanı, xalqın milli-mədəni xüsusiyyətlərini, mentaliteti, ənənələri və kreativ imkanlarını nəzərə alan, zamanın sınağından çıxmış nailiyyətlər, metodlar və texnologiyaların selektiv surətdə seçimini həyata keçirməyə imkan verir. Milli mədəniyyətlərdə digər xalqların pozitiv nailiyyətləri və yeniliklərinə adaptasiya, - təfəkkür, dünyagörüşü, həyat tərzində elmi inkişaf səviyyəsinə, müasir dövrün məntiqə uyğun tələbatları və tendensiyalarına uyğun  mütərəqqi dəyişiklikləri təmin edir.

Belə bir seçimin aktuallığı, elmi və praktik dəyəri həm də XX əsrin ikinci yarısından başlayaraq, kulturologiyanın - dinamik, daim dəyişən yaradıcı prosesləri ifadə edən, mədəniyyətin tarixi, nailiyyətləri, inkişaf qanunları, texnologiyaları və yeni imkanları haqqında keyfiyyətcə yeni, interaktiv elm kimi, insanın həyat fəaliyyəti problemlərinin tədqiqi və müvəffəqiyyətli

həlli üçün əvəzsiz əhəmiyyət qazanması ilə əlaqədar idi. Onun strateji əhəmiyyəti - müasir dövrün mürəkkəb problemlərinin sistemli təhlili, ictimai proseslərin obyektiv dərk edilməsi, professional ekspertiza və siyasi qərarların qəbul edilməsi, gənclərin təhsili və tərbiyəsi, kütlələrin elmi maarifləndirilməsi, milli inkişafın innovativ imkanlarının yaradılması və etibarlı gələcək mənzərəsini görməkdə bu elmin əvəzedilməz rolu ilə izah olunurdu.

Kulturologiya dünyanın çoxölçülü görünüşünü verir, insanın yaradıcı həyat fəaliyyətinin bütün sahələrində əsas qanunauyğunluqları və texnologiyaları aşkar edir, milli inkişaf üçün keyfiyyətcə yeni imkanlar açır. XXI əsrin aparıcı elmi paradiqması olmaqla o, həm mövcud siyasi və sosial sistemlər və strukturların təkmilləşdirilməsi və effektivliyinin yüksəldilməsi üçün, həm də dövlət quruculuğu və idarəçiliyinin yeni strateji, rəqabət qabiliyyətli strukturlarının və idarəçilik modellərinin qurulması üçün böyük perspektivlər yaradır.[1]

Mədəniyyət fenomeni anlayışına kulturoloji yanaşma, həyat fəaliyyəti forması və bütöv sosial sistem olan mədəniyyətin hər bir mütərəqqi xalqın inkişafının həm göstəricisi, həm vasitəsi, həm məqsədi olduğunu dərk etməyə imkan verir. Bu yanaşma bizi inandırır ki, milli inkişafın uğurları və pozitiv sosial dəyişikliklərin innovativ imkanları xalqın təbii-coğrafi, tarixi, sosial həyat şəraitindən, onun mədəni kodundan, həmçinin daxili və xarici mədəni mübadilədən asılıdır.

Kulturologiya elminin üstün cəhətləri onunla şərtlənir ki, o, effektiv təhlili yalnız tarix, antropologiya, fəlsəfə, psixologiya, sosiologiya, filologiya, pedaqogika, iqtisadiyyat, hüquq elmi kimi ayr-ayrı elmlərin metodları ilə mümkün olmayan mürəkkəb sistemli məsələləri həll etməyə imkan verir.

---

[1] Kulturologiya – spesifik normalar, qanunlar və onların fəaliyyət xüsusiyyətlərində təcəssüm olunan, qiymətli oriyentirlər və ideallar, elmi əsərlər şəklində nəsildən nəsilə ötürülən, tarix, fəlsəfə, psixologiya, iqtisadiyyat, din, incəsənət, hüququn "mədəni mətnlər"ində şərh edilən, insanların tarixi-sosial təcrübəsi olan mədəniyyət fenomeninin tədqiqini ifadə edir. Məqsədləri və predmet sahələrindən, bilik səviyyəsi və ümumi nəticələrdən asılı olaraq, fundamental və tətbiqi kulturologiya ayrılır. Fundamental kulturologiya bu fenomenin tarixi-nəzəri dərk edilməsi məqsədilə mədəniyyəti tədqiq edir, anlayış-kateqoriya aparatını, sistemli və situasiyalı innovativ yanaşma metodlarını, sosial, humanitar, qismən isə dəqiq elmlərin nailiyyətləri və metodlarının təhlili və yekunlarına əsaslanan xüsusi metodologiya və tədqiqat prinsipləri vasitəsilə fərdi və sosial inkişaf modellərini və proqnozlarını işləyib hazırlayır. Tətbiqi kulturologiya, mədəniyyət və sivilizasiyanın tarixi və nəzəriyyəsi haqqında fundamental biliklərə istinad edərək, insanın həyat fəaliyyəti haqqında universal kulturoloji biliklərin formalaşdırılması, yeni inkişaf imkanları, modelləri, paradiqmaları, texnologiyaları və proqnozları yaratmaq, insan münasibətlərinin tənzimlənməsi məqsədilə, mədəniyyətin – elmi, maarifləndirici, iqtisadi, siyasi, hüquqi, etik, ekoloji, idarəçilik, dini, bədii kimi ayrı-ayrı altsistemlərini öyrənir.

Yalnız sistemli kulturoloji yanaşma insanın həyat fəaliyyətinin təkamül və inqilabi həyat təcrübəsindən götürülmüş, özündə "külü" deyil, "odu" təcəssüm etdirən daha həyat qabiliyyətli ictimai inkişaf texnologiyalarını işləyib hazırlamaq imkanını verir. Bu təcrübənin yalnız sistemli təhlili, düzgün qiymətləndirilməsi və yaradıcı istifadəsi əsasında dövlətin mütərəqqi inkişafını daha yaxşı tərzdə təmin etmək, dünyəvi ölçüdə rəqabət qabiliyyətli milli məqsədlərə nail olma yolunda zamana üstün gəlmək olar. Bu kulturoloji prosesləri və qanunauyğunluqları görməyən yaxud nəzərə almayan, "yenilənən milli resursun – insan kapitalının" effektiv istehsal metodu olan kulturologiyanın elmi və praktik rolunu qiymətləndirməyən ölkələr, dünya inkişafının qloballaşma və çox sürətli tempi əsrində uzunmüddətli effektiv və rəqabət qabiliyyətli inkişafa arxalana bilməzlər.

Baxmayaraq ki, elm kimi kulturologiya yalnız XX əsrin ortalarında formalaşmışdır, sistemli kulturoloji təfəkkür ənənələri antik dünya və orta əsrlərin daha görkəmli alimləri və mütəfəkkirlərinə, o cümlədən tanınmış azərbaycanlılara məxsusdur. Orta əsr filosofları, alim-ensiklopediyaçıları və şairləri, adətən, universal kulturoloji biliklərin daşıyıcıları olmuşlar. Məsələn, ensiklopedik biliyə malik Nizami Gəncəvi ərəb və fars ədəbiyyatını, şifahi və yazılı ənənələri nəinki çox gözəl bilirdi, mütəfəkkirin elmi bilikləri arsenalında riyaziyyat, astronomiya, astrologiya, əlkimya, tibb, botanika da var idi. Buraya – tarix, etika, fəlsəfə, ezoterika, musiqi, təsviri incəsənət, ilahiyyət, Quranın, islam hüququnun, xristianlığın, yəhudu dininin şərhini də əlavə etmək lazımdır.

Dünya mədəniyyəti və sivilizasiyasının inkişaf təcrübəsini nəzərə alaraq, Assosiasiyanın yüksək intellektual potensialı Azərbaycanda davamlı insan inkişafına yardım edən təhsil, tədqiqatlar və informasiyalarla bağlı proqram və layihələrin işlənib hazırlanmasına və reallaşdırılmasına yönəldilmişdir. Bu proqram və layihələr vətəndaş cəmiyyəti və beynəlxalq münasibətlərin qurulması sahəsində düşünülmüş siyasi qərarların qəbul edilməsi üçün ekspert-analitik materialların hazırlanmasını, ictimai inkişaf modelləri və texnologiyalarının, proqnozlar və tövsiyələrin işlənib hazırlanmasını nəzərdə tuturdu.

Dünya mədəniyyəti inkişafının tarixi və qanunauyğunluqları üzrə elmi tədqiqatların nəticələri əsasında, Assosiasiya fəaliyyətinin lap başlanğıcından Azərbaycan cəmiyyətində prinsip etibarilə yeni, dünya inkişaf təcrübəsini əks etdirən universal kulturoloji bilikləri hazırlamağa və yaymağa, elmi-maarifçilik fəaliyyətini həyata keçirməyə, xüsusi təhsil müəssisələri təşkil etməyə başladı. Bu fəaliyyətin motivasiyası - universal kulturoloji biliklərlə və insanların həyat fəaliyyətinin pozitiv tarixi təcrübəsi ilə silahlanmış nəza-

kətli, ədəbli, tərbiyəli insanın - insan kapitalının hərəkətverici qüvvəsini təşkil etdiyini, düzgün məqsədlər qoymağı, prioritetləri müəyyən etməyi, rəqabət qabiliyyətli inkişaf texnologiyalarını seçməyi və milli maraqlara cavab verən zəruri dəyişdirici nəticələrə nail olmağı bacardığını dərk etmək idi.

Yüksək mədəniyyətli insan öz şüurunu, insan kütlələrinə mənəvi cəhətdən pozucu və dağıdıcı təsir göstərən, cəmiyyətin və dövlətin sosial-siyasi təhlükəsizliyi üçün risk doğuran vicdansız manipulyasiyalardan, sosial-siyasi miflərdən, yalançı şüarlar və qara piyardan müdafiə etməyə qadirdir. Bu qanunauyğunluğu nəzərə alaraq, "Simurq" AMA-nın tədqiqatçılıq və maarifçilik fəaliyyəti - Azərbaycan cəmiyyətinin ümumi mədəni səviyyəsinin yüksəldilməsinə, şəxsiyyət və liderlərin, yüksək əmək mədəniyyəti və insan münasibətlərinin formalaşdırılmasına xidmət edir. Bu fəaliyyət əhalinin müxtəlif təbəqələrini fəal surətdə bu prosesə cəlb etmə əsasında intellektual, etik, hüquqi, idarəetmə, istehsal, məişət, millətlərarası, siyasi və sosial mədəniyyət standartlarının müəyyən edilməsinə yardım etməyə yönəldilmişdir. Bu məqsədlə Assosiasiya respublikanın elmi və pedaqoji, hökumət və qeyri-hökumət təşkilatları, işgüzar və diplomatik dairələri ilə əməkdaşlıq edirdi.

"Simurq" AMA-nın həyat fəlsəfəsinin aparıcı konseptual istiqamətlərindən biri – düzgün əməllərin əsasında düzgün təfəkkürün dayandığını təsdiq etmək oldu, o isə düzgün dərketməni, doğru informasiyanı, qarşı tərəfin mədəniyyəti və psixologiyası haqqında bilikləri, sistemli humanitar təhsilə əsaslanan kifayət qədər erudisiyanı tələb edir. Bunu nəzərə almaqla, uşaq bağçasından başlayaraq, dövlət təşkilatları və müəssisələrinədək, bütün Azərbaycan əhalisini kulturoloji təhsil və maariflə əhatə etmək Assosiasiya üzvləri üçün çox vacib idi. Azərbaycanda xüsusi proqram üzrə milli və dünya mədəniyyəti tarixi, nəzəriyyəsi və praktikasının geniş surətdə və hər yerdə öyrənilməsi, – biliklər, bacarıqlar, təşkilatçılıq, mənəviyyat və yaradıcı fəaliyyətin yüksək səviyyəsinə malik insanların keyfiyyətcə və kəmiyyətcə artmasına aparan düzgün yol kimi nəzərdən keçirilirdi. Assosiasiya əmin idi ki, məhz bu cür yüksək mədəniyyətli insanlar başlıca milli sərvəti - Azərbaycanın sosial kapitalını təşkil edir, və respublika vətəndaşlarının intellektual və etik mədəniyyətinin qabaqlayıcı inkişafı olmadan, ölkənin həyat keyfiyyəti və rifahının yüksəldilməsi mümkün deyil. Mədəni inkişaf və kulturologiya metodologiyası problemlərini elmi cəhətdən görməni nəzərə alaraq, "Simurq" AMA-nın bütün departamentləri üzrə praktik fəaliyyət qurulmağa başlandı.

Assosiasiya öz mədəniyyət siyasətini bir tərəfdən akkulturasiyaya, yəni xalqın ümumi mədəni səviyyəsinin yüksəldilməsinə, digər tərəfdən fərdlərin inkulturasiyasına, yəni şəxsiyyət mədəniyyəti səviyyəsinin yüksəldilməsinə

yönəltmişdir. Yüksək ruhi mədəniyyətli cəmiyyət olmasa, mədəniyyət tələbatı və vətəndaşlar tərəfindən onun yüksək dərəcədə mənimsənilməsinin yer aldığı sosial mühitdən xalqın məhrum ola biləcəyi səbəbindən, belə sistemli yanaşma düzgün və səmərəli görünürdü. Eyni zamanda şəxsiyyətin yüksək elitar mədəniyyəti olmadan, xalq "mədəni qəhrəmanlarsız", liderlərsiz qalır və yaradıcılığın deyil, seyretmənin, uyğunlaşmanın və passiv uyğunlaşmanın xarakterik olduğu kütləvi mədəniyyətin təsiri altında yaşayır. Cəmiyyətdə kütləvi mədəniyyətin üstünlüyü isə milli inkişafın keyfiyyət və templərinin aşağı enməsinə aparıb çıxarır.

Sonrakı illərdə mədəniyyət siyasətinin işlənib hazırlanmasına bizim yanaşmamızın düzgünlüyü Avropa İttifaqı mütəxəssisləri tərəfindən təsdiqləndi. 1999-cu ilin noyabrında Norveçdə beynəlxalq kulturoloji konfransda səslənən "Simurq" AMA-nın "Mədəniyyət siyasəti məsələsinə dair" konsepsiyasının Avropa İttifaqı ekspertləri tərəfindən yüksək qiymətləndirməsi sayəsində, 2000-ci ilin fevralında Assosiasiya Avropa Şurasının mədəniyyət siyasəti sahəsində məlumat bazasına[2] daxil edilmişdir. Dövlətin mədəniyyət siyasətinin formalaşdırılması üzrə "Simurq" AMA-nın tövsiyələri sonradan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mədəniyyət siyasəti konsepsiyasının işlənib hazırlanmasında istifadə edilmişdir.[3]

Özünün nailiyyətlərinə görə "Simurq" AMA dəyərli insanlara – alimlərə və müəllimlərə, həkimlərə və diplomatlara, dövlət qulluqçuları və jurnalistlərə, gənclərə və tələbələrə, öz ağlı, qəlbi və əməyi ilə Assosiasiyanın yaradıcı fəallığını təmin edən mədəniyyət fədakarlarına borcludur. Assosiasiyanın mövcud olduğu illər ərzində, haqqında oxucunun kitabın əsas məzmunundan biləcəyi bir çox insanlar özlərinin iştirakı ilə kitablar və jurnalların, elektron materiallar və qəzetlərin hazırlanması və nəşrində, seminarlar və konfransların, mühazirələr və treninqlərin təşkilində, televiziya verilişlərinin aparılması və digər mədəni layihələrin həyata keçirilməsində onun inkişafına və yaradıcı fəaliyyətinə yardım etmişlər. Bu insanların, respublika və xarici dövlətlərin nümayəndələrinin Azərbaycan mədəniyyətinin inkişafına təmənnasız xidməti sayəsində ölkəmizin minlərlə vətəndaşı öz hafizəsini milli

---

[2] International conference on cultural policy research. November, 10-12, Bergen, Norway. Volume 1, 351-358.

[3] Mədəniyyət və Turizm Nazirliyinin Mədəni siyasət şöbəsinin rəhbəri Yaşar Hüseynlinin Avropa İttifaqının Mədəniyyət siyasəti üzrə Beynəlxalq Bakı seminarındakı məruzəsindən. Bakı, 21 iyul 2014-cü il.

insan kapitalının formalaşması və inkişafı üçün zəruri olan universal kulturoloji biliklərlə zənginləşdirmişdir.

Bununla bərabər, təəssüf ki, lazımı maddi-texniki şəraitin olmaması üzündən, Assosiasiya öz potensial imkanlarının tam gücü ilə işləməmiş və özünün bir çox iddialı planları və yaradıcı proqramlarını həyata keçirə bilməmişdir. Buna həm ayrı-ayrı siyasətçilər və məmurlar tərəfindən milli inkişaf üçün kulturologiyanın strateji əhəmiyyətinin başa düşülməməsi, həm də hətta ənənəvi demokratik ölkələrdə belə yer alan yeniliyə müqavimət sindromu mane olmuşdur. Assosiasiya tərəfindən əldə edilən, Azərbaycanda ruhi mədəniyyət və insan kapitalının inkişafında müəyyən pozitiv rol oynayan "ruhi istehsal"ın nəticələri, yaradıcı əməyimizə görə bizdə fəxarət hissi yaratmaya bilməz. Əminik ki, bu əməyimiz gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir.

Assosiasiyanın fəaliyyətinin konkret materialları, onun nailiyyətləri və nöqsanları ilə oxucu kitabın aşağıda şərh edilmiş başlıqlarında tanış ola bilər. Kitab üzərində iş prosesi zamanı müəllif kollektivi Assosiasiyanın missiyasını, əsas məqsədləri və vəzifələrini daha dərindən aşkar etməyə, onun yaranma və fəaliyyət motivlərini, təşəkkülü və inkişafının tarixi şəraiti və xüsusiyyətlərini əks etdirməyə çalışmışdır. "Simurq" AMA-nın yaradıcı fəaliyyətinin əsas nəticələrini əks etdirməyə, Azərbaycanda ruhi mədəniyyətin inkişafı və insan kapitalının təkmilləşdirilməsinə onun üzvlərinin verdiyi töhfəni aşkar etməyə və qiymətləndirməyə cəhd edilmişdir. Mədəni dəyişikliklər prosesinin özünü, kollektiv üzvlərinin təfəkkür mədəniyyəti və əmək mədəniyyətini, işin texnologiyaları və çətinliklərini, buraxılmış imkanları göstərmək də o qədər mühüm idi. Kitab üzərində işləyərkən müəllif kollektivi: *mədəniyyət üçün nə vaxt, necə, kim tərəfindən, hansı şəraitdə, yeni nə yaradılmışdır, yaradılanın elmi və praktik dəyəri necədir və əldə edilmiş nəticələr ölkənin milli-mədəni inkişaf maraqlarında necə istifadə oluna bilər* kimi suallara cavab verməyə çalışmışdır.

Biz həm mədəniyyət haqqında elm tərəfindən yaradılmış universal kulturoloji bilikləri sistemləşdirməyə, həm də insanın həyat fəaliyyəti qanunauyğunluqları və xüsusiyyətlərinin  xüsusi tədqiqatlarının nəticələrinə əsaslanan yeni kulturoloji biliklərin, təriflər, kateqoriyalar və formulların işlənib hazırlanmasına xüsusi diqqət ayırmışıq. Assosiasiyanın orijinal kulturoloji ideyalarının yaranma və maddiləşdirilmə tarixinin, Azərbaycan Respublikasının milyonlarla vətəndaşının təfəkkür və davranış mədəniyyətinə, Azərbaycan xalqının zəngin mədəniyyətinin xaricdə təbliğ edilməsinə pozitiv təsir göstərən təşəbbüs və layihələrinin öyrənilməsi ciddi elmi vəzifə idi.

Bununla bərabər, bizim çoxillik fəaliyyətimizin əsasında, insanın inkişafının başlıca hərəkətverici qüvvəsi olan elmin əvəzolunmaz əhəmiyyəti və hüdudsuz imkanlarına əminlik, Azərbaycanda mədəni tərəqqi ideyalarının təntənəsinə sarsılmaz inam hər zaman olmuşdur. Buna görə kitab yalnız Assosiasiyanın obyektiv tarixi iş təcrübəsini ümumiləşdirmək, həyat fəlsəfəsini, ideoloji və psixoloji istiqamətləri, idarəçilik texnologiyalarını aşkar etmək cəhdindən ibarət deyil. O həmçinin, gələcəkdə milli inkişaf imkanlarını genişləndirən yeni ideyalar və effektiv modellərin yaranmasında açar rolunu oynaya biləcək milli və dünya təcrübəsinin çoxillik sistemli təhlilinə əsaslanan sistemli innovativ kulturoloji ideyaları, bilikləri, təşəbbüsləri və ekspert tövsiyələrini oxucuya ötürmək məqsədini qarşısına məqsəd qoymuşdur.

"Simurq" AMA-nın həyat fəaliyyətində, onun tarixinin müxtəlif illərində müxtəlif insanlar iştirak etmişlər. Bu, Azərbaycanda və xaricdə tanınmış, yüksək, elitar Azərbaycan mədəniyyətini təmsil edən şəxsiyyətlər, əsasən, elmi, pedaqoji, bədii və musiqi sahəsi üzrə ziyalı nümayəndələr, siyasətçilər, jurnalistlər və təcrübəli mütəxəssislərdir. Səmimi və nəcib xarakterləri ilə fərqlənərək, onlar Assosiasiyaya, xalqın ruhi mədəniyyətinin inkişafına xidmətdə vətənpərvərlik, təşəbbüskarlıq və həmrəyliklə hərəkətə gətirilən əqidəyə görə gəlmişdilər. Müvəqqəti "yol yoldaşları" rolunda olan insanlar da vardı. Təəssüf ki, belə insanların iştirakı, heç də Azərbaycan mədəniyyətinin fədakarlarına xas olan Vətənin rifahı naminə yaradıcı fəaliyyətə səmimi cəhdlə əsaslanmırdı. Onların arxasında cəmiyyətdə tanınma qazanmaq və faydalı əlaqələrin qurulması yaxud tanınmış Azərbaycan ziyalıları və xarici diplomatlarla zahiri ünsiyyət görünüşü hesabına öz nüfuz plankasını yüksəltmək arzusu gizlənirdi.

Ümid etmək istərdik ki, kitab oxucu üçün maraqlı və dərkedici olacaq, ruhi mədəniyyətin mahiyyətini və böyük missiyasını düzgün anlamaqda və obyektiv qiymətləndirməkdə, dünyaya, həyatın mənasına və yüksək mədəniyyətli insanın dəyişdirici imkanlarına yeni nəzərlə baxmaqda ona yardım edəcəkdir. Kitabda olan biliklər özünüidarə mədəniyyətinin inkişafı, cəmiyyətdə təfəkkür, məsuliyyət və qarşılıqlı anlaşma mədəniyyətinin təkmilləşdirilməsi, vətəndaşlarımızın əmək və kommunikasiya mədəniyyətinin inkişafı üçün praktik cəhətdən faydalı olsaydı, əgər onlar insanların həyat keyfiyyəti, rifahı və həyat qabiliyyətinin yüksəlməsinə, müdrikliyə, sosial harmoniyaya və xoşbəxtliyə  nail olmağa yardım etsəydi, çox şad olardıq.

Biz həmçinin ümid edirik ki, kitab, "Simurq" AMA-nın və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin çoxsaylı üzvlərinin çoxillik yaradıcı fəaliyyətini və Azərbaycanın milli inkişafına, ölkəmizdə kulturologiya elmi, təhsili və

maarifinin yaranmasına verdiyi əlindən gələn töhfəni obyektiv, layiqincə qiymətləndirməkdə oxucuya yardım edəcəkdir.

"Simurq" AMA-nın rəyasət heyəti adından kitabın müəllif kollektivinə, elmi redaktor, ak. Tofiq Nağıyeva, rəyçi, ak. Ömər Eldarova səmimi minnətdarlığımı bildirirəm. Həmçinin kitabın nəşr olunmasında maliyyə yardımına görə Nazim Abdullayevə səmimi təşəkkürümü ifadə edirəm.

Müəllif kollektivi adından kitabın Azərbaycan dilinə tərcüməsi və redaktə olunmasında çox səbr və diqqət tələb edən, məsuliyyətli və təmənnasız əməyinə görə "Simurq" Beynəlxalq kulturoloji jurnalın redaktoru Şəlalə Kəsəmənliyə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Eyni zamanda Assosiasiyanın yaranması və inkişafında müxtəlif illərdə təmənnasız olaraq iştirak edən, Azərbaycan xalqının sosial-mədəni tərəqqisinə, Azərbaycan Respublikasının davamlı, rəqabət qabiliyyətli və təhlükəsiz inkişafına yönəldilmiş yaradıcı fəaliyyət proqramları və layihələrinin işlənib hazırlanması və həyata keçirilməsinə mənəvi dəstək və praktik yardım göstərən bütün rəhbərlərə və fədakarlara, Assosiasiyanın milli və əcnəbi fəxri üzvlərinə, alimlər, müəllimlər, incəsənət və dövlət xadimlərinə, rəssamlar, fotoqtaflar, dizaynerlərə, diplomatlara və gənclərə öz təşəkkürümü bildirmək itəyirəm.

***Professor Fuad Məmmədov***

## Assosiasiyanın yaradılmasının tarixi şəraiti, ilkin şərtləri və elmi əsasları

Keçən yüzilliyin 80-ci illərinin sonunda Azərbaycan tarixin yeni çağırışı qarşısında qaldı və müstəqil demokratik dövlət kimi inkişaf modeli seçimini etdi. Respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi ərəfəsində, 17 dekabr 1988-ci ildə Bakıda Azərbaycan Elmlər Akademiyasının Ümumi yığıncağı keçirildi ki, burada SSRİ Elmlər Akademiyasının prezidenti Q.İ. Marçuk iştirak edirdi. Yığıncaqda respublika Elmlər Akademiyasının ünvanına tənqidi fikirlər səsləndi. Fundamental elmin mühüm istiqamətlərinin inkişafına lazımınca diqqət ayrılmadığı qeyd olundu. Son dövrdə baxılması üçün ölkə rəhbərliyinə respublikanın sosial-iqtisadi və mənəvi tərəqqisinin yardımına yönəldilmiş bir təklif belə irəli sürülməmişdir. Yığıncaqda ölkənin sosial-mədəni və iqtisadi inkişafında ictimai elmlərin rolunun artırılmasının zəruriliyi haqqında məsələ qoyuldu. Azərbaycan xalqının tarixi və nəzəriyyəsinin gələcək tədqiqatı priorotet məsələlər sırasında idi. Bir yerə yığılan akademiklər qeyd etdilər ki, elmi fikir Azərbaycanın milli inkişaf tələbatlarını təmin etməyə yardım edən aktual problemlərin həllinə yönəldilməlidir[4].

Yaranmış yeni tarixi şəraitdə cəmiyyətin sovet ictimai-siyasi sistemindən demokratik sistemə - formaca demokratik, məzmunca milli olan yeni mədəniyyətin formalaşmasına keçid yolları haqqında ciddi düşünmək məsələsi Azərbaycan alimlərinin qarşısında dururdu. İqtisadi və mənəvi münasibətdə ağır olan həmin keçid dövründə Azərbaycan ziyalılarının hər bir nümayəndəsi düşünürdü ki, hərtərəfli inkişafına və təhlükəsizliyinə yardım məqsədilə öz xalqı üçün, öz vətəni üçün faydalı nə etmək olar? Milli inkişaf tələbatları Azərbaycanın ruhi mədəniyyətinin hərtərəfli tərəqqisinin vacibliyini son dərəcə aktual etdi. Xüsusi mülkiyyət və bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan demokratik cəmiyyət quruculuğu şəraitində, ölkədə mədəniyyət xadimlərinin yüksək sosial statusu və müdafiəsini qorumaq, kütlələrin milli və dünya mədəniyyəti nailiyyətləri və nemətlərinə yol tapmasını təmin etmək lazım idi. Elmin qabaqlayıcı inkişafının, orta və ali məktəblərdə keyfiyyətli təhsilin təmin edilməsi, yeni ixtisaslar üzrə mütəxəssislərin hazırlanması, qabiliyyətləri və istedadlarından asılı olaraq, uşaqların daha erkən selektiv surətdə seçlməsinin həyata keçirilməsi mühüm dövlət vəzifəsi oldu. Milli-mədəni inkişafın başlıca hərəkətverici qüvvəsini təşkil edən

[4] Yenidənqurmaya elmin töhfəsini artırmaq. "Bakinskiy raboçiy" qəzeti, 20 dekabr 1988-ci il.

alimlərin və müəllimlərin effektiv fəaliyyət motivasiyasının təmin edilməsi haqqında məsələ kəskin şəkildə dayanırdı.

Bu tələbatlarla şərtlənən vətənpərvərlik motivi tərəfimizdən edilən seçimi müəyyən etdi. Məlum oldu ki, Azərbaycanda demokratik dövlətin qurulmasına elmi yardım üçün ikiqat vəzifənin həlli həddən artıq vacibdir. Birincisi – XX əsrin ikinci yarısında Qərb ölkələrində və Rusiyada sürətli inkişaf alan dünya kulturologiya elminin nailiyyətlərinə əsaslanan mədəniyyətin yeni, elmi anlayışının cəmiyyətdə yayılmasına yardım etmək. Sovet təfəkkürü stereotiplərini dəf edərək, sovet dövründə mövcud olan, cəmiyyətin və dövlətin inkişafının başlıca hərəkətverici qüvvəsi kimi, mədəniyyətin böyük dəyişdirici imkanlarını görməni və onlardan istifadəni məhdudlaşdıran, "iqtisadiyyat üzərində üstqurum" və "xalq təsərrüfatının bir hissəsi" kimi formullardan uzaq, mədəniyyətin milli anlayışının formalaşmasına vətəndaş yardımı etmək lazım idi. İkincisi – demokratik ölkələrin sosial-mədəni inkişafı və nailiyyətləri təcrübəsinin ciddi komparativ təhlilini və Azərbaycanın rəqabət qabiliyyətli milli inkişafını təmin etmək üçün onun yaradıcı istifadəsini həyata keçirmək lazım idi. Bunun üçün Azərbaycan cəmiyyətinin davamlı inkişafı, rifahı, həyat keyfiyyətini, xalqın fiziki və mənəvi sağlamlığını, dövlətin siyasi və iqtisadi təhlükəsizliyini, müdafiə qabiliyyəti və rəqabətə dözümlülüyünü, onun etibarlı gələcəyini təmin edən strateji əhəmiyyətli innovativ həyat fəaliyyəti modelləri və texnologiyalarının işlənib hazırlanması və vaxtında tətbiq edilməsi üçün münbit şərait yaratmaq lazım idi. Belə strategiyanın mühüm siyasi və idarəçilik vəzifəsi ənənələrin və innovasiyaların permanent sintezini təklif edən kulturogenez olmalı idi. Xalqın çoxəsrlik mədəni irsini, Azərbaycan mədəniyyətinin milli özünəməxsusluğu və dəyərlər sistemini yalnız qorumaq deyil, həm də milli inkişaf və zamanın çağırışı tələbatlarına uyğun olaraq, mədəniyyət sistemi və strukturunun, əsas istiqamətlər və siyasi prioritetlərin yenidən qurulması idi. Bu zaman həm dünya mədəniyyəti, həm də Azərbaycanın XX əsrdə, sovet dövründə mümkün olan sosial-mədəni nailiyyətlərindən "külü deyil, odu" götürmək bacarığı vacib idi.

Bəzən yeni, səmərəli ideyaların yaxşı elmi təchizatdan daha yaxşı olduğu ilə razılaşmamaq çətin ki, mümkün olsun. Bu, elmin bütün sahələri və onun nümayəndələri üçün ədalətlidir. Azərbaycan xalqının ruhi mədəniyyətinin dirçəlişi və tərəqqisinin vətəndaşlıq instrumenti kimi, Azərbaycan Mədəniyyət Assosiasiyasını yaratmaq ideyası ilk dəfə hələ 1989-cu ildə Hamburq və Münhendə elm tarixi üzrə beynəlxalq konqressdə olduğu zaman bu əsərin müəlliflərindən birində baş qaldırmışdır. İkinci dünya müharibəsi nəticəsində dağıdılmış ölkəsi-

ni olduqca tez və çox gözəl bərpa edən alman xalqının ruhi güc mənbəyinin fikrən axtarışı, bu fasiləsiz istehsal olunan enerji resursunun - vətənpərvərliyə və bərabər hüquqa, vətəndaşların demokratik inkişafına artırılmış yüksək ruhi mədəniyyətin olması anlayışına gətirib çıxardı. Xalqın mədəniyyətinin yaradıcı gücünü başa düşmək üçün müharibənin xarabalıqlarından yenidən dirçəlmiş, müharibədən əvvəlki ilə müqayisədə daha da gözəl olan Hamburqa nəzər yetirmək kifayətdir. İntellektual mədəniyyətin prioritet inkişafı və genişləndirilməsi, güclü və sağlam milli ideya və meritokratiya prinsipləri əsasında mədəniyyətin inkişafı sayəsində fantastik dərəcədə qısa vaxt ərzində dünya mədəniyyəti və sivilizasiyasının qabaqcıl hüdudlarına çıxan Yaponiya mədəniyyətinin tarixi haqqında kitablar və məqalələr də belə bir görmənin düzgünlüyünü təsdiqləməyə yardım etmişdir[5].

Özündə cəmiyyətin və dövlətin çiçəklənməsi sirlərini gizləyən Almaniya və Yaponiyanın həcminə və dərinliyinə görə heyranedici tarixi nailiyyətlərinin təsiri altında, bu və dünya sivilizasiyasının digər aparıcı ölkələrinin sosial-mədəni inkişafının mütərəqqi tarixi təcrübəsi tərəfimizdən diqqətlə öyrənilməyə başlandı. Bu tədqiqat prosesində, dünyanın ümumi tarixi ilə yanaşı, Azərbaycanda o zaman hələ inkişaf etməmiş müasir kulturologiyanın (dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi haqqında elmin) mahiyyəti və metodoloji əsaslarının, həmçinin sistemli təhlil, davamlı inkişaf konsepsiyası, həyat fəlsəfəsi, idarəetmə mədəniyyəti xüsusiyyətlərinin tədqiqinə müraciət etdik.

Tarixi təcrübənin və dünya sosial-mədəni tərəqqi təcrübəsi qanunauyğunluqlarının dərk edilməsi - insanın mürəkkəb inkişaf problemlərinin təhlili üçün kulturologiyanın əhəmiyyətini və əvəzsizliyini bizim üçün ilk dəfə olaraq aşkar etdi. Buna görə də məsələnin tarixindən bir qədər uzaqlaşaraq, kulturologiya elminin mahiyyəti və imkanlarını açmağa çalışaq.

Kulturologiya – insanın yaradıcı həyat fəaliyyəti haqqında, onun mahiyyəti, xüsusiyyətləri, tarixi, nailiyyətləri, inkişaf qanunları, texnologiyaları və dəyişdirici imkanlarını meydana çıxaran elmdir. Bu, insanın, cəmiyyətin

---

[5]Azərbaycan konqressdə, Tarix muzeyi Elm tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru Fuad Məmmədov və Geologiya İnstitutunun direktoru, respublika Elmlər Akademiyasının müxbir üzvü Akif Əlizadə (hazırda Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti) tərəfindən təmsil olunurdu. Hamburqda Azərbaycan alimləri elm tarixi və mədəniyyəti sahəsində tanınmış türk mütəxəssisi, prof. Ekmeleddin İhsanoğlu ilə görüşdülər. Azərbaycan alimləri İstanbula, elm tarixi üzrə beynəlxalq simpoziuma dəvət olundular ki, burada 1991-ci ildə Fuad Məmmədov “Məhəmməd Nəsirəddin Tusinin həyat və fəaliyyəti haqqında”, Akif Əlizadə isə “Nizami Gəncəvinin həyat və fəaliyyəti haqqında” mövzu üzrə kulturoloji məruzə ilə çıxış etmişlər.

və dövlətin inkişaf proseslərinin qanunauyğunluqları haqqında müntəzəm olaraq yaradıcı surətdə zənginləşən biliklər sistemidir. O, anlayışlar, metodologiya və universal tədqiqat metodları işləyib hazırlayır, insanın tarixi inkişaf təcrübəsini, dövlət quruculuğu və idarəçiliyi praktikasını öyrənir, nəticələr və ümumiləşdirmələr edir, insanın mükəmməlləşməsinə yardım edən yeni strategiya və modellər, ictimai tərəqqini və dövlətin modernləşməsini təmin edən davamlı, rəqabət qabiliyyətli və təhlükəsiz texnologiyalar yaradır.

Kulturologiya insanın şüurunu dərk etməyə və dəyişməyə yardım edir ki, onsuz insanları effektiv idarə etmək mümkün deyil. Bu səbəbdən dünya mədəniyyəti tarixinin, sivilizasiyanın inkişaf qanunları və texnologiyalarının, fərdi və beynəlxalq münasibətlər mədəniyyətinin, təfəkkürün və ictimai fikrin formalaşması proseslərinin sistemli kulturoloji təhlili - müasir sosial mühəndisliyin, tarixi proseslərin düzgün dərk edilməsi və effektiv idarəçilik qərarlarının qəbul edilməsinin, gələcəyin proqnozlaşdırılması və qurulmasının əsasını təşkil edir. Dünya mədəniyyəti və sivilizasiyasının aparıcı ideoloji və elmi-maarifləndirici inkişaf amilinə çevrilərək, kulturologiya insanların kreativliyini yüksəltməyə yardım edir. Sosial-iqtisadi tərəqqi, rifah və həyat keyfiyyəti mənbəyi olan "biliklər cəmiyyətinin" formalaşması şəraitində, elmi-tədqiqat yolu ilə əldə edilən kulturoloji bilik – insanın, cəmiyyətin və dövlətin getdikcə daha artıq təşkilati inkişaf prinsipi olur, insanın yaradıcı fəallığına pozitiv təsir göstərir. Floridanın Toronto Riçard Universiteti nəzdindəki "Martin Prosperity Institute" Kanada institutunun direktoru və Kanada universitetinin professoru Albertı, kulturoloq Niko Şter əmin idilər ki, bəşəriyyətin gələcəyi "biliklər cəmiyyətinin" və "kreativ sinfin" – "gələcəyi dəyişən insanların" ardıncadır. "Biliklər cəmiyyətində" elmin aparıcı rolunu göstərərək, Niko Şter haqlı olaraq qeyd edir ki, "elmdə və elm vasitəsilə yeni dünya yaranır ki, burada bütün sahələrdə bilik (tərəfimizdən qeyd edilmişdir – F.M.) tam artan ölçüdə insan fəaliyyətinin əsas və rəhbər prinsipinə çevrilir".

Mədəniyyət haqqında elm kimi, kulturologiya dünya sivilizasiyasının müasir inkişaf mərhələsində XXI əsrin aparıcı elmi paradiqması olmuşdur. Özünün universal kulturoloji xarakteri sayəsində kulturologiya, onu "elmlərin şahzadəsi" edən böyük tədqiqat imkanlarına malikdir. Kulturoloji biliklər, səriştəlilik və cavabdehlik uğurlu və davamlı inkişaf üçün şərtdir. Bugün universal kulturoloji biliklər olmadan, elm və texnologiyanın, tibb və ekologiyanın, dövlət idarəçiliyi və hüquq sisteminin inkişaf tələbatlarını təmin etmək üçün təhsilin yüksək keyfiyyətini də təsəvvür etmək çətindir. Kulturoloji biliklər bugün sənaye və kənd təsərrüfatının ehtiyacları üçün ixtisaslı

fəhlə qüvvəsi resurslarının formalaşdırılması, tikinti və nəqliyyat, ticarət və xidmət sahələri üçün də lazımdır. Eyni zamanda əmək bazarının tələbatlarına uyğun olaraq, mütəxəssislərin yenidən hazırlanması müxtəlif peşə və maraq insanlarında universal kulturoloji biliklərin formalaşdırılmasını tələb edir. Bu məsələnin aktuallığı, əsas kapital kimi nəzərdən keçirilməli olan zehni əmək işçilərinin məhsuldarlığının artırılmasının müasir iqtisadiyyat üçün başlıca olduğunu hesab edən Piter Drukerin nəzəriyyəsi ilə də təsdiqlənir. Akademik A.S. Zapesotski qeyd edir ki, “son zamanlar hüquq elmi getdikcə daha böyük nisbətdə kulturologiyanın xüsusiyyətlərini özündə əks etdirir. İqtisadiyyat sahəsində son illərin Nobel mükafatı laureatlarının əksəriyyəti aydın şəkildə ifadə edilmiş kulturoloji aksentlərə görə təltif edilmişlər”.

Kulturologiyanın geniş diapazonu onun fənlərarası xarakteri və öyrənilən obyektlərə sistemli yanaşması ilə şərtlənir. Bu fundamental elm bir çox sosial, humanitar və təbiyyat elmlərinin nailiyyətləri və metodlarını özündə birləşdirir. Bu – tarix və fəlsəfə, antropologiya və psixologiya, arxeologiya və etnoqrafiya, sosiologiya və politologiya, iqtisadiyyat və hüquq elmi, coğrafiya və ölkəşünaslıq, tibb və ekologiya, diplomatiya və dinşünaslıq, filologiya və dilçilik, sənətşünaslıq və pedaqogikadır. Bununla yanaşı kulturologiya - mədəni və sosial antropologiyanı, etnologiyanı, mədəniyyət tədqiqatlarını və qərb ölkələrində yayılan, insanı və cəmiyyəti öyrənən digər qarşılıqlı əlaqəli tədqiqat istiqamətlərini əhatə edir. Buna görə elmin ənənəvi sahələrini dəyişdirmədən, o özünün xüsusi tədqiqat metodologiyası, obyekti və predmetinə malikdir. Mədəniyyətin obyekti – insanın yaradıcı həyat fəaliyyəti, onun tarixi və pozitiv nailiyyətləridir. Kulturologiyanın predmeti – cəmiyyət, dövlət, elm, təhsil, idarəçilik, siyasət, şəxsiyyət, ailə münasibətləri, informasiya və mətbuat, qeyri-hökumət təşkilatları, muzey işi və s. kimi, mədəniyyətin sosial institutları və insanın həyat fəaliyyəti sahələridir. Bununla yanaşı mədəniyyətin arxitektonikası və semantikası, baza arxetipləri və obrazları, mentallıq, dəyər-norma və simvolok məzmun, ənənələr və innovasiyalar, mədəniyyət dinamikasında qoruma və dəyişmə prosesləri, sivilizasiyaların və mədəniyyət dialoqlarının təhlili kimi ənənəvi tədqiqat problemləri müasir kulturologiyanın görüş dairəsində yerləşir.

Kulturologiyanın sistemli yanaşmaya əsaslanan nəzəri və metodoloji instrumentariləri insan mədəniyyətinin dərin qatlarını açmağa, müxtəlif mədəniyyətlərdə ümumi və fərqli olanı müəyyən etməyə, həm eyni bir mədəniyyətdə, həm də dünya mədəniyyəti və sivilizasiyasının polietnik sahəsində insanlar arasında müvəffəqiyyətli strateji kommunikasiyaya daha optimal yollar və yanaşmaları aşkar etməyə imkan verir. Kulturologiya bəşəriyyət

tərəfindən qazanılan tarixi nailiyyətlər haqqında yalnız biliklə zənginləşməkdə deyil, həm də insanın inkişaf vasitəsi və məqsədi olan ruhi mədəniyyətin mahiyyəti, xüsusiyyətləri, inkişaf qanunları, texnologiyaları və yeni imkanlarını düzgün dərk etməkdə insana yardım edir. O, şəxsiyyət, ailə, şəxsiyyətlərarası və beynəlxalq münasibətlərdən başlayaraq, cəmiyyət, dövlətçilik, siyasi və idarəetmə mədəniyyətinədək müxtəlif istiqamətləri işləyib hazırlamağa qadirdir. Bunun sayəsində kulturologiyanın fundamental nailiyyətlərinin öyrənilməsi və şüurlu, yaradıcı istifadəsi – insan təbiətinin, insan cəmiyyətinin, insanların xarakterləri və davranışlarının inkişaf qanunlarının daha yaxşı anlaşılmasına, gələcəyi proqnozlaşdırmağa və insanın xoşbəxtliyi üçün yeni imkanların açılmasına imkan verir. Buna görə təhsil və maarifçilik sistemi vasitəsilə müasir kulturologiya elminin nailiyyətlərinin yayılması obyektiv tələbata çevrilir. Bu tələbatın təmin edilməsi Azərbaycan cəmiyyətinin - insanın həyat fəaliyyətinin mahiyyəti, xüsusiyyətləri, tarixi və müxtəlif sahələrdə nailiyyətləri haqqında biliklərinin inkişaf etdirilməsinə, insanın inkişaf qanunları və texnologiyalarının düzgün dərk edilməsinə, mütəxəssislərin, vətəndaşların, siyasətçilərin və idarəçilərin inkişafı, yeni imkanları görmə və təhlükəsiz gələcəyin qurulması üçün zəruri olan faktlar, hadisələr və insanların elmi əsaslanmış qiymətləndirilməsinə imkan yaradacaqdır.

Kulturologiyanın əsaslarının öyrənilməsi - inkişafın səviyyəsi, vasitələri və məqsədinin göstəricisi olan mədəniyyətin Azərbaycan elmi üçün yeni anlamı ilə biliklərimizi zənginləşdirmişdir. Bu anlayış çərçivəsində aydın oldu ki, “ikinci, süni təbiət” və “həyat tərzi” olaraq, mədəniyyət insanın inkişafı üçün çox böyük potensial imkanlara malikdir. Bu imkanların zaman və məkan daxilində düzgün qiymətləndirilməsi və insanların yüksək həyat səviyyəsini, cəmiyyətin mənəvi sağlamlığını, dövlətin sabit və təhlükəsiz inkişafını təmin edən kulturoloji sosial fəaliyyət texnlogiyalarının işlənib hazırlanması üçün tarixi tələbat meydana çıxmışdır.

Bu problemlərin səriştəli həllinin zəruriliyi, öz növbəsində, zamanın tarixi çağırışına uyğun olan və gələcəyin müsbət obrazını yaratmağı nəzərdə tutan mədəniyyətin inkişafı sahəsində elmi əsaslanmış dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi tələbatını gündəmə gətirdi. SSRİ-nin dağılması şəraitində respublikanın həyat qabiliyyətinin yüksəldilməsi və ölkənin gələcək obrazının pozitiv proqnozlaşdırılması, nəzəri cəhətdən, dövlətin inkişaf templərinin tədricən qabaqcıl ölkələr səviyyəsinə qaldırılmasını, və milli səviyyədə yüksək əmək mədəniyyətinin hər yerdə təmin olunması şərtilə, bu templəri heç olmasa faizin kiçik bir hissəsi qədər ötüb keçməyi ehtimal edirdi. Ölkəyə yeni, rəqabət qabiliyyətli idarəçilik texnologiyaları və

cəmiyyətin sosial-mədəni inkişafının innovativ modelləri lazım idi. Mədəniyyətin köhnə sosial institutlarının islahatı və onun Azərbaycan cəmiyyətinin yeni tarixi inkişaf mərhələsi şəraitinə və tendensiyalarına uyğun olan və Azərbaycanın effektiv modernləşməsini, xalqın həyat fəaliyyətinin qloballaşma şəraitinə uyğunlaşmasını təmin edən yeni sosial institutların yaradılması tələbatı meydana çıxdı. Şübhə doğurmurdu ki, istər unitar, istərsə də federal demokratik ölkələrin daha iş qabiliyyətli modellərini Azərbaycan xalqının mədəni özünəməxsusluğuna və dünya sivilizasiyasındakı dəyişikliklərə uyğun yaradıcı şəkildə istifadə etmək lazım idi.

Assosiasiyanın yaradılması üzrə iş, tərəfimizdən toplanan yeni, kulturoloji biliklərin və BMT və YUNESKO-nun himayəsi altında keçirilən, bəşəriyyətin inkişafında ruhi mədəniyyətin əsas rolunu qeyd edən dünya mədəniyyəti inkişafının Ümumdünya onilliyinin ideyalarının təsiri altında 1989-cu ildə başlandı. Bu vaxt üçün rəqabətə dözümlü "milli inkişaf texnologiyaları" axtarışlarında - Almaniya, Yaponiya, ABŞ, Böyük Britaniya, Rusiya, Fransa, İsveç, Norveç, Daniya, Tayvan, Sinqapur, Honkonq və dünyanın digər inkişaf etmiş ölkələrinin inkişaf təcrübəsi və qanunauyğunluqlarının tanışlıq komparativ-sistemli təhlili tərəfimizdən artıq keçirilmişdir. Təhlil təsdiq etdi ki, güclü dövlətin bütün nailiyyətlərinin əsasında millətin yüksək ruhi mədəniyyəti dayanır. O, milli inkişafın başlıca hərəkətverici qüvvəsi kimi, ruhi, xüsusilə, intellektual mədəniyyətin böyük dəyişdirici imkanlarını göstərdi. Tamamilə aydın oldu ki, insan dəyərinin əsl meyarı – nə milliyyət, nə din, nə yaş, nə cins, nə doğum yeri deyil, lakin onun ruhi – intellektual və etik mədəniyyətidir. Bu səbəbdən vətəndaşlarımızın ruhi, ilk növbədə, intellektual və etik mədəniyyətinin inkişaf etdirilməsi vasitəsilə, Azərbaycanda sosial cəhətdən fəal şəxsiyyətlər və liderlərin formalaşmasına yardım – milli maraqlara xidmətin ən yaxşı forması, ən yüksək xeyriyyəçilik və əsl vətənpərvərlik ola bilərdi. Alınan nəticələr əsasında "Azərbaycanda yeni demokratik mədəniyyətin formalaşmasına dair" kulturoloji konsepsiya işlənib hazırlandı ki, bu da "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının yaranmasının əsasını təşkil etdi.

Milli mədəniyyətin innovativ inkişaf konsepsiyasının hazırlanması zamanı müəllif, ilk olaraq, Lesli Alvin Uayt, Abraham Harold Maslou, Osvald Şpenqler, Arnold Toynbi, Dmitri Lixaçov, Alfred Adler və digər tanınmış kulturoloqların nəzəriyyələri və elmi işləmələrinə əsaslanmışdır. Xüsusilə, kulturologiyanın banisi, məşhur Amerika alim-antropoloqu Lesli Uaytın (1900-1975) "insanın davranışı onun mədəniyyətinin dəyişməsi ilə dəyişir" qanunu onun tərəfindən baza ideyası qismində istifadə edilmişdir.

Bununla yanaşı görkəmli Amerika psixoloqu, transpersonal psixologiyanın banisi Abraham Maslounun (1908-1970) "mədəniyyət və insan" konsepsiyasından da istifadə edilmişdir. A. Maslou mədəniyyətin insanın tələbatlarını ödəmək və şəxsiyyətin potensial imkanlarının sosial reallaşdırılması üçün əlverişli şərait yaratmaq qabiliyyətini onun təkmilləşdirilməsi meyarı kimi müəyyən etmişdir. Maslou tərəfindən işlənmiş "ideal cəmiyyət" modeli - insanın harmoniyası, təhlükəsizliyi, mədəniyyətin sosial institutlarının humanist dəyişdirilməsi vasitəsilə qabiliyyətlərin və özünü reallaşdırmanın maksimal inkişaf imkanları və insanların şüurunun dəyişdirilməsi prinsipləri əsasında qurulmuşdur. "Fərdi psixologiya" məktəbinin banisi, Avstriya psixoloqu Alfred Adler (1870-1937) hesab edirdi ki, insanın psixologiyası əsasən, onun fizioloji və bioloji səbəblərlə deyil, sosial həyat fəaliyyəti şəraiti ilə izah edilməlidir. Adlerə görə, insanın davranışı bir çox cəhətdən onun hakimiyyətə və üstünlüyə can atması ilə əsaslanır. Lakin üstünlük əldə etmək prinsipi müxtəlif mədəniyyətlərdə və müxtəlif sosial mühitdə müxtəlif formalara malik ola bilər. Bu zaman üstünlüyə can atma - mühitdən, insanın məqsədləri və mədəniyyətindən asılı olaraq, həm yaradıcı nailiyyətlər, həm də fərdin antisosial davranış mənbəyi ola bilər.

Milli mədəniyyət konsepsiyasının hazırlanması prosesində müəllif, şəxsiyyətlər və liderlərin inkişafı, professional xarakterli müxtəlif problemlərin sistemli və situasiyalı təhlili üçün kulturologiyanın imkanlarını təsdiqləyən dünya kulturoloji fikri ilə daha geniş surətdə tanış olmağa səy göstərmişdir. Onlar mədəni standartlara və inkişaf tələbatlarına, insanların gözləmələrinə uyğunluq nöqteyi-nəzərindən mədəniyyətin vəziyyətinin verifikasiya olunmuş (yoxlanılmış, təsdiqlənmiş) qiymətləndirilməsini nəzərdə tutan kulturoloji ekspertizanın həyata keçirilməsi üçün də olduqca məhsuldar ola bilərdi. Nəticədə məlum olmuşdur ki, insanın inkişafına və idarəçiliyin konkret və mürəkkəb problemlərinin sistemli təhlilinə kulturoloji yanaşma – cəmiyyətin modernləşməsi, şəxsiyyətin təkmilləşdirilməsi, sosial-siyasi mədəniyyət, effektiv idarəçiliyin innovativ modelləri və paradiqmalarının qurulması üçün böyük imkanlar açır. Q.V.F. Hegel, J.J. Russo, F.M.A. Volter, İ.V. Höte, D. Neru, Ə. Taylor, L. Morqan, F. Boas, L. Uayt, M. Mid, A. Maslou, A. Toynbi, O. Şpenqler, M. Veber, İ. Kant, F. Engels, M. Horkhaymer, Q. Markuze, T. Adorno, H. Rikkert, Y. Habermas, Y. Lippert, K. Yaspers, B. Malinovski, A. Boqdanov, C. Bernal, Lütfi Zadənin, həmçinin T. Parsons, H. Hesse, V. Diltey, İ. Saburo, Ə.Orteqa-i-Qasset, İ. Herder, G. Zimmel, P. Sorokin, A. Veber, D. Bell, A. Berqson, J. Attali, A. Auerbax, V. Vindelband, R. Merton, E. Munye, T. Nakane, V. Ostvald, T. Şarden və di-

gər məşhur alimlər, yazıçılar və maarifçilərin, Frankfurt məktəbi və "Annallar" məktəbinin tədqiqatları ilə tanış olmaqla, buna əmin olmaq çətin deyil. N. Konrad, M. Baxtin, V. Vernadski, Q. Vernadski, L. Qumilev, N. Berdyayev, M. Blok, H. Rerix, V. Muravyev, M. Kaqan, L. Kertman, A. Petrov, Q. Volkov, D. Lixaçov, M. Kim, V. Masson, Y. Jdanov, H. Zlobin, V. Mejuyev və digər rus alimlərinin əsərləri kulturologiyanın elmi və praktik dəyərini dərindən dərk etmək üçün böyük əhəmiyyət daşıyır.

"Simurq" AMA tərəfindən işlənib hazırlanmış mədəniyyət konsepsiyası öz başlanğıcını mədəniyyət haqqında elm olan kulturologiya mənbələrindən götürür ki, bu mənbələr XIX əsrin sonu XX əsrin əvvəlinə aid edilə bilər. Hələ XIX əsrin sonunda Qərbin elmi dairələrində mədəniyyət haqqında elmlərin yolları və məqsədləri barədə gözlənilən nəticələri verməyən diskussiyalar aparılırdı. Bu dövrdə Baden neokantian məktəbinin banilərindən biri, alman mədəniyyət filosofu Henrix Rikkert (1863-1936) mədəniyyət haqqında elmin təyinatının düzgün dərk edilməsinin zəruriliyinə diqqət yetirdi. 1911-ci ildə Sankt-Peterburqda H. Rikkertin "Təbiət haqqında elmlər və mədəniyyət haqqında elmlər" kitabı dərc olundu. Kitabda alman alimi qeyd edir ki, İ. Kant, Q.V.F. Hegel və alman klassik fəlsəfəsinin digər nümayəndələri tərəfindən verilən ümumi anlayışlara baxmayaraq, əvvəlki dövrün cəhdləri "mədəniyyət haqqında elmlərə onların vəzifələrinin müəyyən edilməsi və aydınlaşdırılması üçün yardım etmədi". Henrix Rikkert vahid tam olan gerçəkliyin, həm təbiət haqqında elmlərin, həm mədəniyyət haqqında elmlərin daxil olduğu vahid elm tərəfindən də öyrənilə bilməsi haqqında fikir söylədi. Bu zaman təbiət elmləri tədqiqatı "mədəniyyət" termini altında birləşən obyektlərin tədqiqi ilə tamamlanmalıdır. Beləliklə, gerçəkliyin öyrənilməsi təbiət haqqında elmlər və tarixi metodun xüsusi yer aldığı mədəniyyət haqqında elmlərlə həyata keçirilməlidir.

Henrix Rikkert mədəniyyəti, həm ruhi və maddi həyatın vəhdəti kimi, həm də təbiətə zidd olaraq nəzərdən keçirirdi, o ya bilavasitə insan tərəfindən yaradılmış, onun dəyərləndirdiyi məqsədlərə uyğun hərəkət edir, yaxud da onunla bağlı olan dəyərlər naminə şüurlu olaraq yetişdirilmişdir. Mədəniyyətin dəyişməz mahiyyəti haqqında danışaraq, özünün dəyərli konsepsiyasında o qeyd edirdi ki, "mədəniyyətin bütün təzahürlərində biz həmişə insan tərəfindən qəbul edilmiş dəyərin təcəssümünü tapırıq ki, onun naminə insanlar tərəfindən bu təzahürlər yaradılmışdır... Buna görə də mədəniyyət obyektlərində dəyərlər təməli qoyulmuşdur". Mədəniyyətin cəmiyyətin maraqları naminə yaradılan rifah kimi ali mənasını görərək, alim bununla yanaşı qeyd edirdi ki, "hər bir mədəniyyət təzahürü, əgər onun əsasını təşkil edən

dəyərdən uzaqlaşarsa, o həm də təbiətin tərkib hissəsi kimi, onunla əlaqədə nəzərdən keçirilməlidir".

Mədəniyyəti tədqiq edən elmi qeyd etmək üçün "kulturologiya" terminini 1909-cu ildə ilk dəfə XX əsrin böyük elm və naturfilosofiya (təbiət fəlsəfəsi) islahatçısı, Nobel mükafatı laureatı, görkəmli alman alim-fizik-kimyaçısı və mədəniyyət filosofu, şüuru enerji kimi, mədəniyyətin funksiyasını isə enerjinin saxlanması və qorunması kimi nəzərdən keçirən Vilhelm Ostvald tətbiq etmişdir. Özünün "Mədəniyyət haqqında elmin energetik əsasları" əsərində (1909) V. Ostvald həyat fəaliyyətini transformasiya edilmiş təbii enerji forması kimi müəyyən etdi. Energetizm ideyasını irəli sürərək o, təbiətin və mədəniyyətin əsas fəlsəfi mahiyyətini onunla əlaqələndirirdi, və mədəniyyət vasitəsilə enerjini əbəs yerə sərf etmədən, düzgün istifadə etməyin zəruriliyinə diqqət yetirirdi. Mədəniyyəti bəşəriyyətin tərəqqisinə xidmət edən amillərin vəhdəti kimi nəzərdən keçirərək, V. Ostvald sivilizasiyalarda baş verən real prosesləri öyrənəcək mədəniyyət haqqında elmin yaradılması zəruriliyi haqqında bildirmişdir. Cəmiyyət haqqındakı elmin biologiyanın xüsusi tarixi hadisəsi olmaqla, psixofiziologiyadan az fərqləndiyini hesab edərək, Ostvald 1915-ci ildə XX əsrin elmlər sistemində kulturologiyanın yerini müəyyən etdi.

Elmin inkişafı həmişə çətin yolla gedir. Prof. Q. Qrenevski ədalətli olaraq qeyd etmişdir ki, "Yalnız evin inşası fundamentdən başlanır, elmin inşasında isə onun əsasları adətən çox gec meydana çıxır". İnteqral elm kimi müasir kulturologiyanın banisi Amerika antropoloqu Lesli Alvin Uayt (1900-1975) 1949-cu ildə nəşr edilmiş məşhur "Mədəniyyət haqqında elm" kitabının müəllifidir. Uayt mədəniyyəti insanın enerjisi ilə şərtlənən, texnoloji (başlıca), sosial və ideoloji altsistemlərdən ibarət, cəmdə insanın həyat fəaliyyətini təmin edən bütöv, mütəşəkkil, qarşılıqlı əlaqəli və inteqrasiya edilmiş sistem kimi nəzərdən keçirirdi. Kulturologiyanın təşəkkül tapması və inkişafında L.A. Uaytın əsas töhfəsi mədəniyyət anlayışının yeni konsepsiyasının yaradılması, mədəniyyət təkamülü konsepsiyasının yenidən mənalandırılması və onun bəşəriyyətin mədəniyyətinin təhlili üçün tətbiq edilməsi, həmçinin kulturologiyanın mədəniyyət haqqında elm kimi əsaslandırılması oldu. Amerika alimi ilk dəfə nəinki "kulturologiya" terminini əsaslandırdı, həm də mədəni inkişaf qanunauyğunluqlarını meydana çıxarmağa yardım edən mədəniyyətin tədqiqi üçün sistemli yanaşma təklif etdi. O göstərdi ki, elmlərin inteqratoru kimi kulturologiya yeni tədqiqat məntiqi və yeni tədqiqat keyfiyyətini verir.

Onun tədqiqatlarının pioner xarakteri həm də onunla şərtlənir ki, Luizian, Kolumbiya və Çikaqo universitetlərində etnologiya, antropologiya, tarix,

fəlsəfə, sosiologiyanı, biheviorist psixologiya və psixiatriyanı öyrənərək, sonralar Miçiqan Universitetinin professoru kimi, o bu elmlər tərəfindən əldə edilən bilikləri mədəniyyət probleminin sistemli təhlili məqsədilə ilk dəfə sintezləşdirmişdir. Uayta görə, mədəniyyətin və sivilizasiyanın hər bir mərhələsi əvvəlki tarixi pillə əsasında inkişaf edir. Bu zaman əsası E. Taylor, L. Morqan və digər alimlər tərəfindən qoyulan mədəni antropologiyanı yenidən meydana çıxararaq, L.A. Uayt göstərdi ki, mədəni təkamül nəzəriyyəsi Darvinin bioloji təkamül nəzəriyyəsi ilə bağlı deyil, lakin öz kökləri ilə Horatsiyə və İbn Halduna, Yuma, Kondorsa, Kanta, Herderə, Bahofenə, Konta və biologiyaya aidiyyatı olmayan bir çox digər alimlərə gedib çıxır. O göstərirdi ki, "əgər heyvanlarda davranış təkamülü determinatoru kimi bioloji orqanizm çıxış edirsə, o zaman insanın davranışı ekstrasomatik amilin, yəni onun mədəniyyətinin dəyişməsi ilə birlikdə dəyişir".

Alim, insanın fikirləri, hərəkətləri, əşyaları və işarələri simvolik şəkildə mənimsəmək kimi unikal qabiliyyətinə diqqət yetirmişdir. O göstərmişdir ki, əgər psixologiya simvollaşdırılmış əşyaları "somatik" ölçüdə, yəni insanın bioloji orqanizmi ilə əlaqədə nəzərdən keçirirsə də, kulturologiya ekstrasomatik (üstbioloji – F.M.) obyektiv aləm haqqında elm kimi, insanın həyat fəaliyyəti ilə əlaqəli olan simvolik əşyalar və təzahürlərin bütün vəhdətini öyrənməlidir. Maddi əşyaları mədəniyyət komponenti qismində qəbul etməyən antropoloqların yanaşmalarını, maddi mədəniyyətin inkarını absurd hesab edən etnoqraflar və arxeoloqların yanaşmaları ilə sintezləşdirərək, ruhi və maddi reallıq olan mədəniyyət haqqında tam təsəvvür vermək ilk dəfə Uayta nəsib oldu. Bununla bərabər belə yanaşma, mədəniyyətindən asılı olaraq insanın davranışının mahiyyəti və xarakterini açmaq imkanını verdi.

Təəssüf ki, hətta ABŞ kimi mütərəqqi ölkədə yeni olana qarşı elmi birliyin təfəkkür ətaləti və qısqanc münasibəti səbəbindən, ilk əvvəl alimin kulturoloji tədqiqatlarının nəticələri kolleqaları tərəfindən anlayışla və dəstəklə qarşılanmadı. Bundan başqa kulturologiyanın elm kimi təsis edilməsi müqavimətə və əks təsirə rast gəldi. Bununla belə mədəniyyəti ekstrasomatik kateqoriya kimi nəzərdən keçirərək və insanın davranışının nə ilə müəyyən edilməsi sualına cavab almaq məqsədini qoyaraq, Uayt gözəl bir qanunauyğunluq kəşf etdi. Bu qanunauyğunluğa görə "insanın davranışı onun mədəniyyətinin dəyişməsi ilə dəyişir". Uayt tərəfindən mədəniyyətin düzgün anlamının kəşfi elmdə ciddi addımlardan biri oldu. Onun tərəfindən bu kəşfin - "elm tarixində Kopernikin heliosentrik sistemi yaxud bütün həyat formalarının hüceyrə əsasının kəşfi ilə nə vaxtsa bir sırada dayanacağı" kimi qiymətləndirilmişdir.

Uaytın düşüncələrinin ədalətliliyi və məntiqiliyi sosiologiyanın atası, orta əsrlər müsəlman alimi, haqlı olaraq görkəmli kulturoloq adlandırmaq mümkün olan İbn-Haldunun (1332-1406) baxışları ilə də təsdiq edilir. İbn-Haldun qeyd edirdi ki, "insana düşünmək qabiliyyəti (intellekt – F.M.) verməklə, Allah onu insanın kamilliyinin əsası, nəcibliyinin ən yüksək zirvəsi və hər şeydən üstün etmişdir". Əgər heyvanlar ətraf aləmi istisna olaraq eşitmə, görmə, qoxubilmə, dadbilmə və təmas hissləri vasitəsilə mənimsəyirlərsə də, öz ağlı sayəsində "insan bundan başqa, hissi qavramasının ardınca gələn təfəkkürü vasitəsilə özündən xaricdə olanı mənimsəmək qabiliyyətinə malikdir..." Bu təfəkkür üç növ ola bilər. Birincisi – insan tərəfindən təbii hadisələrin və özünüidarə məqsədilə cəmiyyətdə qoyulan qaydaların dərk edilməsini, yaşamaq üçün vəsait əldə etmək, faydalı və zərərli olanı ayırd etmək bacarığını ifadə edən "fərqləndirici qabiliyyət" (adi təfəkkür - F.M.). İkincisi – insanların həyatına praktik fayda gətirən, sosial təcrübənin mənimsənilməsinə əsaslanan təfəkkür – "təcrübəyə əsaslanan təfəkkür". Üçüncüsü – hissi qavrama ilə birbaşa əlaqəsi olmayan, elmi idrakın və yeni elmi biliklərin işlənməsi sayəsində ümumi və xüsusi təsəvvürlərdə mövcud olan haqqında təfəkkürün kamilliyi ilə xarakterizə olunan - "abstrakt, mücərrəd yaxud "təmiz" təfəkkür". Beləliklə, burada "insanın kamilliyi, nəcibliyi və üstünlüyünün başlanğıcı" kimi onun əqli, intellektual mədəniyyətinin başlıca əhəmiyyəti göstərilmişdir.

Bütöv sosial sistem kimi mədəniyyətin inkişaf problemlərinin kulturoloji təhlili, bu məqsədlə Lesli Uayt tərəfindən təklif olunan sistemli yanaşma olmadan mümkün deyil. Həyat göstərdi ki, qarşılıqlı əlaqəli, qarşılıqlı asılılı və ziddiyyətli dünyaya xas olan fasiləsiz hərəkət və dəyişikliklər – onların vaxtında korrektə edilməsi və obyektiv həyat tələbatlarına uyğun olaraq təkmilləşdirilməsinə imkan verən insan cəmiyyətinin inkişaf proseslərinin zaman və məkan daxilində permanent (daimi) sistemli təhlilini tələb edir. Bütövlük, quruluş iyerarxiyası, strukturlaşdırma, çoxluq və sistemlilik prinsipinə əsaslanan sistemli yanaşmanın dəyəri ondan ibarətdir ki, o, obyekti bütöv, qarşılıqlı əlaqəli sistem kimi nəzərdən keçirməklə, insanın həyat fəaliyyətinin inkişaf problemlərinin daha səmərəli və harmonik həlli məqsədilə, qanunauyğunluqları və qarşılıqlı əlaqələri aşkara çıxarmağa imkan verir. Baniləri - A.A. Boqdanov, L. Fon Bertalanfi, Evard de Bono, Lindon la Ruş, Q. Saymon, P. Druker və başqalarının olduğu hesab edilən sistemli yanaşmanın yaradılması XX əsrin birinci yarısına aid edilir. Keçən əsrin 50-ci illərindən başlayaraq sistemli yanaşma qərb ölkələrinin dövlət idarəçiliyi nəzəriyyəsinin də əsası oldu. Öyrənilən problemə sistemli yanaşmanın üstün-

lüyü ondan ibarətdir ki, o, tədqiqat predmetini - onun bütün ölçüləri, proyeksiyaları, əlaqələri və situasiyalarında müfəssəl, həcmli şəkildə görmə imkanını verir ki, bu da problemin düzgün qiymətləndirilməsi və düzgün həllinə yardım edir. Həmçinin sistemli yanaşmaya alternativ hələlik sadəcə ona görə yoxdur ki, bütün təbiət və insan aləmi, hətta vaxtilə "bölünməz" atom da sistemlərdən ibarətdir.

Tədqiq olunan obyektlərin təhlilinə sistemli kulturoloji yanaşmanın səmərəliliyinin ən parlaq nümunələrindən biri, görkəmli alman alimi Maks Veberin (1864-1920) yaradıcılığının nəticələridir. İdarəçilik nəzəriyyəsi inzibati məktəbinin nümayəndəsi olmaqla o, həm sosioloq, həm iqtisadçı, həm tarixçi, həm filosof, həm kulturoloq, həm hüquqşünas idi. Kulturologiyanın hələ elm kimi yaranmasından xeyli əvvəl Maks Veber idarəetmə mexanizmlərinə kulturoloji baxışı ilə fərqlənirdi və təşkilati proseslərin kulturoloji şərhinə əsaslanırdı.

Kulturologiyanın yüksək elmi və prakrik əhəmiyyətini, hər yerdə mövcudluğunu görkəmli Amerika alimi, kibernetikanın banisi, təfəkkürü və yanaşmasının bizim seçimimizə də təsir etdiyi Norbert Vinerin timsalında da müşahidə etmək olar. Qeyd etmək maraqlıdır ki, 1948-ci ildə, təxminən Lesli Alvin Uayt mədəniyyətin bütöv sosial sistem kimi anlamının əsasını qoymuş "Mədəniyyət haqqında elm" kitabını dərc etdirərkən (1949), Norbert Viner yeni elmin – kibernetikanın yarandığını göstərən "Kibernetika, yaxud heyvanda və maşında idarəetmə" məşhur kitabını dərc etdirmişdir. Universal bilikləri, pozitiv dünyagörüşü və azad yaradıcılığı ilə fərqlənən, geniş profilli "alim-romantik" kimi, Viner – riyaziyyat, biologiya, fiziologiya, tibb, psixologiya, sosiologiya və s. kimi müxtəlif elmlərin nümayəndələrini birləşdirən seminarlarda həvəslə iştirak edirdi ki, bu da onda müasir elmin problemlərinə geniş (kulturoloji – F.M.) yanaşmanın formalaşmasına yardım etmişdir.

Norbert Viner elmlərin sıx birliyi və inteqrasiyasının lazımlığını, tədqiqatlar zamanı sistemli yanaşma və sintezin, universal elmi metodologiyanın, alimlərin qüvvəsinin birləşdirilməsinin vacibliyini başa düşürdü. Şərti olaraq ayrı-ayrı istiqamətlərə ayrılmış elmlərin birliyində dərin inama malik olaraq o, elmləri fundamental və tətbiqi elmlərə bölünməsinin əleyhinə çıxış edirdi. Özünün avtomatlaşdırılmış idarəçilik modellərinin qurulması zamanı Viner təbiətdən öyrənməyə çalışırdı, xaosla mübarizə qaydası şəraitində insanın imkanlarını məhdudlaşdıran stoxastik təbiətşünaslıq fəlsəfəsinə (yəni təbiətdə təsadüflər fəlsəfəsinə – F.M.) üstünlük verərək, canlı varlıqların bir-birindən asılılığını, mahiyyət məntiqini və funksiyalarının xüsusiyyətlərini

istifadə edirdi. Xaosla mübarizədə real qüvvə olan elmi biliklərə əsaslanaraq, daimi həyat dəyişikliklərini və insanın dərketmə və idarəetmə imkanlarının məhdudluğunu nəzərə alaraq, alim tərəqqiyə nail olmağa yardım edən faydalı iş əmsalının yüksəldilməsi və əmək entropiyasının azaldılmasının sabit idarəçilik formalarını inadla axtarırdı. Norbert Viner maşınlarda, canlı orqanizmlərdə və cəmiyyətdə idarəçilik və əlaqə proseslərinin bənzərliyini aşkar etdi. Bu əlaqənin mahiyyəti - məlum ehtimallarla verilmiş iki və daha artıq mənalar arasında düzgün davranış (həll) seçimi kimi nəzərdən keçirilən informasiyanın, yəni müxtəlif siqnalların, bildirişlərin, məlumatların ötürülməsi, qorunması və emalındadır. Kibernetika haqqında, yəni ümumi təşkiletmə, idarəetmə və əlaqə nəzəriyyəsi haqqında fikir buradan meydana çıxmışdır. Bu nəzəriyyədə bilik (informasiya) entropiyanın (xaosun) azaldılması amili kimi çıxış edir. Vinerin sayəsində keçən əsrin 50-ci illərində kibernetika dünyada – informasiyanı qəbul etməyə, saxlamağa və emal etməyə və onu idarə etmək və nizamlamaq üçün istifadə etməyə imkan verən elm kimi tanındı. Bu elmin predmeti həm istehsal fəaliyyəti və təbiət elmlərində, həm də cəmiyyətdə yer alan, mürəkkəb dinamik sistemlərdə baş verən idarəetmə proseslərinin öyrənilməsi, əsas məqsədlərindən biri isə, insan əməyinin səmərəliliyinin yüksəldilməsi üçün mürəkkəb proseslərin elmi idarəetmə metodlarının axtarışı oldu.

"Simurq" AMA-nın mədəniyyət konsepsiyasını işləyib hazırlayan zaman, tərəfimizdən keçən əsrin 80-ci illərində Roma Klubu, Perspektiv Tədqiqatlar İnstitutlarının Beynəlxalq Federasiyası, Sistemli Tədqiqatlar Beynəlxalq İnstitutu və s. kimi nüfuzlu qeyri-hökumət təşkilatlarının tədqiqatlarının mühüm istiqaməti olan, geniş yayılmış davamlı inkişaf konsepsiyası da nəzərə alınmışdır. Roma Klubunun məşhur "Artımın həddi" məruzəsinin müəllifləri – Donella D. Medous, Dennis L. Medous, Jorden Randers və Vilhelm V. Berens, - dünya əhalisi, sənayeləşdirmə, ətraf mühitin çirkləndirilməsi, ərzaq istehsalı və resursların tükənməsi kimi müasir sivilizasiyanın dəyişən kəmiyyətlərini təhlil edərək, təbiət, insan və cəmiyyət arasındakı disbalansları aradan qaldırmağın, və yeni - resursları qoruyan və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiq edilməsi hesabına davamlı inkişafa nail olmanın konkret yollarını təklif etmişlər.[6]

Söhbət, sosial-iqtisadi problemlərin həlli və ətraf mühitin qorunması arasında balansı təmin etmək zəruriliyindən yaranan sivilizasiyanın inkişaf modeli

---

[6] Sonralar bu ideya Dünya mədəniyyəti Beynəlxalq Universiteti "İnsanın və təbiətin ekologiyası" fakültəsinin strukturunun planlaşdırılması zamanı tərəfimizdən istifadə olunmuşdur.

haqqında gedir. İlk dəfə "davamlı inkişaf" termini 1987-ci ildə Qru Harlem Bruntlandın rəhbərliyi altında BMT-nin ətraf mühit və inkişaf üzrə Ümumdünya komissiyası tərəfindən təqdim edilən "Bizim ümumi gələcəyimiz" məruzəsində istifadə edilmişdir. Bu terminlə cəmiyyətin elə inkişaf modeli göstərilirdi ki, burada insanların indiki nəslinin həyat tələbatlarının təmin edilməsi gələcək nəsillərin bu imkandan məhrum edilməsi hesabına əldə edilmir. Fikrimizcə, bu, ruhi mədəniyyətin mühüm rolunu xüsusi nəzərə çarpdırır.

İnsanın və təbiətin inkişaf problemlərinə sistemli yanaşmanı, harmoniyanı, cəmiyyətin həyat təminatı sistemlərinin qorunmasında insanların həyat keyfiyyətinin təmin edilməsinə istiqamətləndirilmiş proseslərin və dəyişikliklərin yekdilliyini və tarazlığını nəzərdə tutan davamlı inkişaf konsepsiyası, tərəfimizdən Azərbaycanın tələbatları və ruhi və maddi mədəniyyətin kulturoloji vəhdəti baxımından nəzərdən keçirilmişdir. Respublikanın davamlı inkişaf problemlərinin kulturoloji ölçüdə diqqətlə dərk edilməsi – milli inkişafın davamlılığı, ilk növbədə, intellektual, (elm, təhsil və maarif), iqtisadi, etik, idarəetmə, ekoloji, hüquq, həmçinin daxili inkişafın qarantı kimi çıxış edən sülh və beynəlxalq münasibətlər mədəniyyəti problemlərinə sistemli yanaşma ilə şərtləndiyini anlamağa yardım etdi.

Şərh edilənləri nəzərə alaraq, hiss etmək çətin deyil ki, insanların yüksək mədəniyyətinin inkişafı cəmiyyət və dövlət üçün nə qədər böyük siyasi əhəmiyyətə malikdir. Əsasən, insanların sosial davranışının bir çox cəhətdən müəyyən edildiyi ruhi mədəniyyət – ictimai münasibətlərin sabitliyi və təhlükəsizliyinin baza amillərindən biri olub, var və olacaqdır. ABŞ-ın Şimal-Qərb Universiteti nəzdində Mürəkkəb şəbəkə sistemləri Tədqiqat Mərkəzinin bir qrup alimləri tərəfindən əldə olunan nəticələrə görə, yaşından, cinsindən, milliyyətindən və sosial statusundan asılı olmayaraq, insanların davranışının əvvəlcədən proqnozlaşdırılması 93% təşkil edir, qalan 7% -i gözlənilməzdir, və iradə azadlığını əldə rəhbər tutaraq, qeyri-adi qərarlar qəbul edə və gözlənilməz hərəkətlər yerinə yetirə bilərlər. Bu nəticələri ictimai maraqlar baxımından nəzərdən keçirərək, biz, sıralarında həm yüksək mədəniyyətli, həm də az mədəniyyətlilərin ola biləcəyi bu 93% insanların ekstremal situasiyalarda özlərini pozitiv aparmasında maraqlılığı aşkar edərik. Və buradan aydın olur ki, insanların mədəni səviyyəsi yüksək olduqca gözlənilməz situasiyalarda onların davranışı sosial baxımdan daha pozitiv ola bilər, çünki mədəni insanın davranışı onun bilikləri, prinsipləri və dəyərləri ilə müəyyən edilir.

Artıq 1989-cu ilin sonunda Azərbaycan ziyalılarının nümayəndələri ilə bizim kulturoloji konsepsiyamızın qeyri-formal müzakirələri başlandı.

Lakin bu proses 20 Yanvar faciəli hadisələri ilə yarımçıq kəsildi. M. Qorbaçov hökuməti tərəfindən sovet qoşunlarının Bakıya daxil edilməsinin ertəsi günü, yaranmış faciəli situasiyadan çıxış yollarını axtarmaq və əhali arasında bundan sonrakı qurbanların qarşısını almaq məqsədilə, alimlərin və ictimai xadimlərin kiçik bir hissəsi Azərbaycan Elmlər Akademiyasında bir yerə yığıldılar. Onların arasında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, akademik İmam Mustafayev, Elmlər Akademiyası "Bilik" Cəmiyyətinin sədri, ak. Maqsud Əliyev, Azərbaycan EA-nın müxbir üzvü Nizami Süleymanov, "Bilik" Cəmiyyəti sədrinin müavini, t. e. doktoru Fuad Məmmədov və başqaları var idi. Fuad Məmmədovun təklifiylə, dini təşkilatların rəhbərləri ilə görüşməyi və onların yardımı ilə stress vəziyyətində olan insanlara, müxtəlif millətlərin və dinlərin nümayəndələrinə pozitiv təsir göstərmək qərarına gəldilər. Respublika üçün faciəvi siyasi nəticələrə səbəb ola bilən xaosun və nəzarət oluna bilməyən miqrasiyanın qarşısını almaq lazım idi. Həmçinin, Rusiyada müəyyən dairələrdə azərbaycanlıların ədalətsiz olaraq uydurulmuş mənfi obrazını ifşa etmək üçün, iki xalq arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsinə, XIX əsrin əvvəlində formalaşan vahid mədəni məkanın qorunub saxlanmasına, Dağlıq Qarabağla bağlı münaqişə haqqında həqiqətin yayılmasına yardım etmək iqtidarında olan Azərbaycan və Rusiya Dostluq Cəmiyyətini yaratmaq təklif olundu.

İştirakçılar tərəfindən qəbul olunan qərara görə F. Məmmədov, Bakıda Rusiya Pravoslav kilsəsinin başçısı Pitirim Ataya Bakıda dinc əhalinin qırğınının qarşısını almaq məqsədilə M. Qorbaçova məktub yazan, Mixaylo-Arxangelsk kilsəsinin başçısı, arximandrit Viktor Lukyanovla görüşdü. Bunun ardınca, sosial-psixoloji gərginliyi aradan qaldırmaq məqsədilə, F. Məmmədov və V. Lukyanov, bir gün əvvəl informasiya boşluğu və psixiloji gərginlik yaratmaq üçün naməlum şəxslər tərəfindən enerji blokunun partladıldığı telestudiyaya gəldilər. Həmin vaxt Azərbaycan televiziyası və radiosunda olan general Ovçinnikovun razılığına nail olaraq, matəm sükutunu pozaraq, hər kəsi təmkinini və soyuqqanlılığını qorumağa, millətlərarası toqquşmalara yol verməməyə çağıraraq, onlar ölkədə ilk dəfə Azərbaycan əhalisinə müraçiətlə çıxış etdilər. Bu, informasiya blokadasının əsl, xilasedici yarılması idi ki, o, əhalinin psixoloji cəhətdən sakitləşməsinə, günahsız qurbanların və siyasi provokasiyaların qarşısının alınmasına yardım edirdi.

Elə həmin gün F.T. Məmmədov Bakı sinaqoqunda (yəhudi məbədində) toplaşanlar qarşısında çıxış etdi və insanları sakitləşdirmək, Bakıda qorxuya, təlaşa və hərc-mərcliyə yol verilməməsi üçün radio ilə Azərbaycan yəhudi-

lərinə müraciət etmək haqqında onun sədri Berdiçevlə razılığa gəldi. Ertəsi gün Bakı sinaqoqunun sədri və Elmlər Akademiyasının müxbir üzvü Nizami Süleymanov da radio ilə əhaliyə müraciətlə çıxış etdilər. Bu çıxışlardan sonra Azərbaycan ziyalılarının bir çox nümayəndələri baş verən hadisələrin qiymətləndirilməsi və sakitliyin qorunmasına çağırışlarla radio ilə çıxış etməyə başladılar. Bütün bu çıxışlar Bakı şəhəri və Azərbaycanın, haqsız olaraq dəhşətli faciə yaşamış sülhsevər və beynəlmiləl sakinlərinə səmərəli təsir göstərdi. Yəqin ki, Azərbaycan ziyalılarının, mahiyyət etibarilə multikultural yanaşması, məlum kədərli sovet tarixində taleyin hökmü ilə Qorbaçov rejiminin hərbi təcavüzü şəraitində olan Azərbaycanın bir çox dinc sakinlərinin həyatının qorunub saxlanmasında önəmli rol oynamışdır**.** Bakıda baş verən, sonradan Azərbaycan xalqının Milli matəm günü olan 20 yanvar 1990-cı il faciəli hadisələri tərəfimizdən seçilmiş "Dünya mədəniyyəti xilas edərsə, mədəniyyət dünyanı xilas edər" şüarının düzgünlüyünə əmin olmağa səbəb oldu. Çünki baş verən hadisələrdən götürülmüş dərs ondan ibarətdir ki, yanlış təfəkkür və qeyri-obyektiv informasiya düzgün olmayan niyyətlərin və yanlış qərarların formalaşmasına səbəb olur ki, bunun da ardınca destruktiv hərəkətlər gəlir.

Yanvar hadisələri, yeni ictimai-siyasi sistemə keçid dövrünün mürəkkəb şəraitində, Azərbaycan cəmiyyətinin yaşaması və inkişafı üçün zəruri olan mütərəqqi sosial-mədəni dəyişikliklər uğrunda mübarizədə səyləri birləşdirməyə hazır olan həqiqi vətənpərvərləri, Azərbaycan mədəniyyətinin fədakarlarını aşkar etməyə imkan verən "lakmus kağızı" oldu.

## Assosiasiyanın həyat fəlsəfəsi, missiyası və əsas vəzifəsinin formalaşdırılması Onun tərəfindən "SİMURQ" adının və başlıca prioritet olan intellektual mədəniyyətin seçim motivləri

Lakin həyat davam edirdi. Bir müddət keçdikdən, Azərbaycan xalqının yaşadığı faciəli yanvar hadisələrindən bir az sonra, 1990-cı ilin yazında Azərbaycan Mədəniyyət Assosiasiyasının yaradılması üzrə iş davam edirdi. Gündəlikdə Assosiasiya üzvlərinin milli maraqlara cavab verən həyat fəlsəfəsinin formalaşdırılması haqqında və onlar tərəfindən kulturologiyanın - elmi dünyagörüşü, sistemli elmi tədqiqat texnologiyaları, təhsil, maarif və sosial idarəetmənin metodoloji əsası kimi seçilməsi məsələsi dururdu.

Dünya mədəniyyəti və sivilizasiyası tarixinin sonrakı öyrənilməsi bizi bir daha inandırdı ki, xalqların zənginliyinə, tərəqqi və hakimiyyətə yol - təhsil və tərbiyədən, elmdən və onunla şərtlənən, ruhi mədəniyyətin qabaqlayıcı inkişafının başlıca hərəkətverici qüvvəsi olan texnologiyalardan keçir. Bəşəriyyətin gələcəyi, onun inkişafı və tərəqqisi elm və mədəniyyətdən keçir. İntellektual mədəniyyətin lazımi qədər qiymətləndirilməməsi cəmiyyətin inkişafına və rifahına mənfi təsir göstərir, bilməmək isə baha başa gəlir. İnsanın intellektində maddi rifah istehsalının başlıca mədəni resursu, cəmiyyətin inkişafı və rifahın yüksəldilməsi vardır. "Qüvvət – elmdədir, başqa cür heç kəs, Heç kəsə üstünlük eyləyə bilməz". Bu sözlər hələ XII əsrdə dahi Nizami Gəncəvi tərəfindən "İqbalnamə" kitabında deyilmişdir. Hələ o vaxt planetin ən yaxşı mütəfəkkirləri dərk edirdilər ki, intellekt və mədəniyyət cəmiyyətin hər bir üzvünün və bütövlükdə dövlətin hərtərəfli inkişafı üçün birinci dərəcəli, həlledici əhəmiyyətə malikdir.

Yüksək incəsənətə malik, lakin intellektual inkişaf prioritetlərini təmin etməyən bir sıra xalqlar həyat rifahı və keyfiyyət səviyyəsinə görə dünya sivilizasiyası çevrəsində qalmışlar. Xalqın rifah səviyyəsi yüksək olan ölkə, hər şeydən əvvəl, yüksək ruhi mədəniyyətli ölkədir ki, onun əsasını intellektual fəaliyyətin prioritet inkişafı, ilk növbədə, sosial-iqtisadi inkişaf uğurunun inkişaf səviyyəsindən birbaşa asılı olduğu təhsil və elm təşkil edir. Və əksinə, ruhi mədəniyyət və "ruhi istehsal" səviyyəsinin aşağı olduğu, cahilliyin üstünlük təşkil etdiyi yerdə biz ictimai inkişafda gerilik, misginlik, zəiflik və mənəvi düşgünlüyün üstünlük təşkil etdiyini görürük.

Bu anlam öz dövlət müstəqilliyinin bərpası və inkişafı yoluna qədəm qoymuş Azərbaycan Respublikasında - intellektual, etik, idarəetmə, hüquq, siyasi, iqtisadi, ekoloji, bədii, məişət, tibbi, şəxsiyyətlərarası və beynəlxalq mədəniyyətin düzgün formalaşdırılmasına daha artıq yardım etməyə qadir olan kulturologiyanın tərəfimizdən seçimini şərtləndirdi.

Kulturologiyanın elmi və praktik dəyərini və milli inkişaf üçün onun tükənməz dəyişdirici imkanlarını ilk dəfə özümüz üçün aşkar edərək və layiqincə qiymətləndirərək, biz bu yeni elmi, qloballaşmaya xas olan sosial-mədəni, siyasi və iqtisadi həyatın daimi dəyişiklikləri şəraitində Azərbaycan Mədəniyyət Assosiasiyasının yaradıcı fəaliyyətinin aparıcı istiqaməti və metodoloji əsası qismində seçdik.

Assosiasiyanı Azərbaycan mifologiyasında Həyatın, Xeyirxahlığın, Qurtuluşun və Yenidən törəmənin (dirçəlmənin, təzələnmənin) qədim sim-

volu olan əfsanəvi Simurq quşunun[7] adı ilə adlandırmaq qərara alındı. ”Simurq” obrazı böyük qartalabənzər quş – səmadan yaxud müqəddəs dağdan ilk dəfə Yerə “həyat ağacının” pöhrəsini gətirmiş quşların şahı haqqında qədim Avrasiya əfsanəsi ilə sıx bağlıdır.[8] “Simurq” həm Şərqdə, həm də Qərbdə yeni, əbədi həyatın ümumdünya simvolu kimi qəbul olunmuş, allahların mərhəməti və ölkənin çiçəklənməsinin qədim simvolu – səkkizguşəli ulduzun məna sinonimlərindən biridir.[9] Azərbaycan xalqının mentalitetində “Simurq” həmçinin, özünü təkmilləşdirməni, yüksək mənəvi ideallara sadiqliyi, qələbə əzmini, mücahidliyi və fədakarlığı, nəcib məqsədlərə nail olma uğrunda mübarizəni simvollaşdırır.[10]

Biz simvolik olaraq, quşun bir qanadını – intellektual, digərini – mənəvi mədəniyyət kimi təsəvvür edərək, “Simurq”u Azərbaycan xalqının ruhi mədəniyyəti ilə eyniləşdirdik. Quşun sərbəst uçması üçün hər iki qanad harmoniyada inkişaf etməlidir. Əgər insanın mənəvi mədəniyyəti üstünlük təşkil edərsə, o zaman xeyirxahlıq daşıyıcısı olmaqla yanaşı o, zəif intellekt və elmi biliklərlə nə özü, nə cəmiyyət, nə dövlət üçün kifayət qədər faydalı ola bilməz. Əgər insan inkişaf etmiş intellektual mədəniyyətə malikdirsə, lakin aprior mənəvi dəyərlərə laqeyd yanaşırsa, onda o, cəmiyyət və dövlət üçün

---

[7] Simurq - Xeyir və Dirçəliş simvoludur, səkkizguşəli ulduzun sinonimlərindən biridir. “Quşların söhbəti”ndə Simurq – həqiqi biliyin alleqorik ifadəsi, yaradanın və xaliqin bənzərlik simvoludur. Sonralar “Simurq” həmçinin, Azərbaycan dünyəvi mədəniyyətində, əsasən, tətbiqi incəsənətdə və Azərbaycan nağıllarında təcəssüm olunmağa başladı: Simurq quşu Məlikməmmədi Qaranlıq dünyadan İşıqlı dünyaya keçirdi və onu həyata qaytardı.

[8] “Simurq” AMA-nın kulturoloji konsepsiyasına uyğun olaraq, Həyat Ağacı həm insan həyatının simvolu, həm insan mədəniyyətinin simvoludur. Ağacın budaqları insanın ağlı, hissi və əməyindən ibarət olan vahid köklə qidalanırlar. Ağıl insana bioloji və sosial varlıq kimi inkişaf etmək imkanı verir. O, hisslərə və əməyə münasibətdə təyinedici əhəmiyyətə malikdir. Hisslər insanın mənəvi və estetik seçimini müəyyən edir. Əmək ruhi və maddi dəyərləri yaradır. Ağacın budaqları – dil, elm, mənəviyyat, insan münasibətləri, təhsil, iqtisadiyyat, incəsənət, din, hüquq, siyasət, informasiya və s. kimi mədəniyyətin müxtəlif sosial institutları və sahələridir. Ağacın meyvələri – insanın həyat fəaliyyətinin mədəni dəyərləri, texnologiyaları, formaları və normalarıdır, biliklərə, bacarıqlara, mütəşəkkilliyə, mənəviyyata və yaradıcı fəaliyyətə malik olan insanın özüdür.

[9] Əcdadlarımız tərəfindən simvol kimi Şumer-Mesopotamiya sivilizasiyasından mənimsənilmiş səkkizguşəli ulduzun fəlsəfəsi onlar tərəfindən hələ Azərbaycan mədəniyyət tarixinin zərdüştlük dövründə formulə edilmişdir, sonralar isə həm Qərbdə, həm də Şərqdə yayılmışdır. “Simurq” – İşığa, Biliyə, Həqiqətə və Xeyirxahlığa doğru yoldur. Bu isə həm dini, həm dünyəvi mədəniyyətin simvollarıdır. Qeyd etmək kifayətdir ki, səkkizguşəli ulduz – həmçinin müasir, demokratik Azərbaycan Respublikasının gerbidir. Beləliklə, “Simurq” Azərbaycan xalqının yalnız milli dəyərlərini deyil, həm də ümumbəşəri humanizm mədəni dəyərlərini özündə təcəssüm etdirir. “Simurq” İnam və Ümid yolunu simvollaşdırır, Dirşəlişə, xalqın inkişafına və mədəni tərəqqisinə doğru yoldur.

[10] Fuad Məmmədov. Kulturologiya. Bakı, 2002, s. 383.

təhlükəli ola bilər. Beləliklə, vətəndaşların və cəmiyyətin ruhi – intellektual və mənəvi mədəniyyətinin davamlı və harmonik inkişafı – üzərində dövlətin rəqabət qabiliyyətli iqtisadiyyatı, sosial rifahı və siyasi sabitliyinin quruldu-ğu bünövrədir.[11]

Özünün praktik fəaliyyətində Assosiasiya - məntiqi (buraya ilk dəfə olaraq Lütfi Zadənin qeyri-səlis məntiqini daxil edərək), tarixilik və dialektika prinsipini, həmçinin cəmdə obyektiv elmi dünyagörüşün formalaşmasına, insanın, cəmiyyətin və dövlətin inkişafını dünya sivilizasiyası məkanı və zamanı daxilində bütöv görməyə imkan verən 12 universal tədqiqat prinsipini daxil edən kulturoloji metodologiyaya əsaslanmağa başladı. Assosiasiyanın rəhbərlərinin dünya inkişaf təcrübəsinin təhlilinə əsaslanan ideyasına görə bu "kulturoloji açar" - siyasi müstəqilliyin yeni şəraiti ilə Azərbaycan Respublikası qarşısında qoyulmuş, məzmun və xarakterinə görə mürəkkəb olan bir çox problemlərin həlli üçün keyfiyyətcə yeni imkanlar açmalı idi.

Tərəfimizdən seçilən elmi metodologiyanın praktik əhəmiyyəti onunla şərtlənmişdir ki, sosial-mədəni həyatda kulturologiyanın, əsasən, Lütfi Zadənin demokratik prinsiplərilə ahəngdə olan baza nəzəriyyələrinin yaradıcı istifadəsi müasir sivilizasiyada keyfiyyətcə yeni situasiyanın yaranmasına imkan verir. Belə yanaşma mədəni inkişafın iki: insan tərəfindən təbiətin dəyişdirilməsinə əsaslanan - qərb, və insanın ona "üzvi surətdə daxil edilməsi"nə istiqamətlənmiş şərq tərzi arasında harmoniyaya nail olmaqda yeni kreativ imkanlar açır. O, humanist dəyərlərin, stsientizm (elm, bilik) və antistsientizm (elmə tənqidi münasibət) mövqelərinin harmonizasiyasının qorunması sayəsində, texnogen sivilizasiyaya xas dağıdıcı proseslərdən mü-

---

[11] "Simurq" AMA-nın diplomları və fəxri fərmanlarında əsas rəsmlər "su işarələri" formatında təsvir edilmişdir. "İnsan və Ulduz" su işarəsi İnsanın və Kainatın ayrılmaz harmonik vəhdətini simvollaşdırır. İnsan -"ikinci, süni təbiət" olan, insanın ağlı, hissləri və fiziki əməyi ilə yaradılan ruhi və maddi mədəniyyətin ayrılmaz vəhdətinin simvoludur.

"Simurq" AMA-nın diplomları və fəxri fərmanlarının daxili çərçivəsinin xətləri, özündə qədim Azərbaycan kainat fəlsəfəsini və alov, od və əbədilik kimi qədim Azərbaycan simvolunu təcəssüm etdirən Simurq quşu və Buta təsvirləri ilə növbələnən şəkildə verilmiş "Yüksək mədəniyyət qapısı"nı simvollaşdırır.

"Simurq" fəlsəfəsinə uyğun olaraq, "Yüksək mədəniyyət qapısı" təsvirli diplomlar və fəxri fərmanlarla - xalqın əqli və mənəvi inkişafı, insanların həyat rifahının yüksəldilməsi, mədəniyyətin, əməkdaşlığın və sülhün harmoniyası naminə yüksək ruhi mədəniyyət dəyərləri və yaradıcılıq prinsiplərinə sadiq olan Azərbaycan və xarici ölkələrin vətəndaşları təltif olunurlar. Belə insanlar qismində özünü yüksək mədəniyyətə xidmət etməyə həsr edən və "Kulturologiya piramidası"nın öyrənmə, dərk etmə və yaratma pillələri ilə irəliləyən, insanı müdrikliyə və daha yaxşı gələcəyə aparan insanlar seçilirlər.

dafiə olunan humanist sivilizasiya yaradılmasına doğru ümumi hərəkatda xalqların mədəni müxtəlifliyinin qorunmasına, milli dövlətlərin mütərəqqi texnoloji inkişafına nail olmağa yardım edir.

Bunu nəzərə alaraq və müasir kulturologiya elminin nailiyyətləri, metodologiyası və imkanlarına əsaslanaraq, "Simurq" AMA Azərbaycan cəmiyyətində elmin, təhsilin, maarifin və demokratiya mədəniyyətinin formalaşmasına vətəndaş yardımını özünün əsas missiyası kimi təyin etdi. Əsas vəzifəsi qismində vətəndaşların intellektual və etik mədəniyyətinin qabaqlayıcı inkişafına yardım müəyyən edildi ki, onun səviyyəsi ilə əmək mədəniyyəti və milli inkişafın effektivliyi təyin olunur. Assosiasiyanın şüarı kimi *"Cəmiyyət mədəniyyəti müdafiə edərsə, mədəniyyət cəmiyyəti xilas edər"* formulu təsdiqləndi. Burada bütöv sosial sistem olan mədəniyyət anlayışının əsasını, mədəniyyəti insanın yaradıcı prosesinin; onun nəticələrinin (əqli, mənəvi, estetik və maddi dəyərlərin) və həyat fəaliyyəti texnologiyalarının (istehsal, qoruma, istifadə və ötürmə) üçlüyü kimi görməni nəzərdə tutan kulturoloji yanaşma təşkil edirdi.

İnsanın və cəmiyyətin inkişafında mədəniyyətin xilasedici rolu haqqındakı devizi əldə rəhbər tutaraq, "Azərbaycan mədəniyyətinin fədakarları" ruhi və maddi mədəniyyətin modernləşdirilməsi və inkişafında, ictimai-siyasi sistemin dəyişməsi şəraitində Azərbaycan xalqının sabit və təhlükəsiz həyatının təmin edilməsində cəmiyyətə və dövlətə ziyalıların vətəndaş yardımı forması kimi, Azərbaycan Mədəniyyət Assosiasiyasının yaradılması ideyası ətrafında birləşdilər.

## "SİMURQ" AMA-nın ilk, təsis qurultayı, onun məqsədləri və fəaliyyət planının formalaşdırılması

Azərbaycan Mədəniyyət Assosiasiyasının yaradılmasının innovativ kulturoloji layihəsi Azərbaycanın onlarla nüfuzlu şəxsiyyətlərinin, elmi, pedaqoji və bədii sahədə tanınmış ziyalıların nümayəndələri, elmi müəssisələr, ali məktəblər, dövlət strukturları, fondlar və ictimai təşkilatların işçiləri tərəfindən nəzərdən keçirilmiş və bəyənilmişdir. Bu təşkilatların arasında: Azərbaycan Elmlər Akademiyası, Azərbaycan Alimlər İttifaqı, Mədəniyyət Nazirliyi, Bədən tərbiyəsi və İdman üzrə Dövlət Komitəsi, Azərbaycan Mətbuat Komitəsi, "Bilik" Respublika Cəmiyyəti, Azərbaycan Mədəniyyət fon-

du, Azərbaycan Dünya fondu, “Dostluq” Cəmiyyəti, “Vətən” Cəmiyyəti və s. vardır.

Azərbaycan Mədəniyyət Assosiasiyasının yaradılmasını dövlət və din xadimləri, diplomatlar, yaradıcı ziyalıların nümayəndələri – müəllimlər və alimlər, memarlar və rəssamlar, ruhi və maddi mədəniyyətin müxtəlif sahələrinin mütəxəssisləri də dəstəkləmişlər. Onların arasında: Azərbaycan Elmlər Akademiyasının prezidenti, ak. E.Y. Salayev, respublika xarici işlər naziri H.M. Sadıqov, Akademiyanın baş akademik-katibi A.A. Nadirov, Azərbaycan Neft və Kimya İnstitutunun rektoru, ak. T.M. Əliyev, EA Memarlıq və İncəsənət İnstitutunun direktoru M.A. Useynov, respublika Mədəniyyət fondunun sədri, ak. B.Ə. Nəbiyev, EA “Bilik” Cəmiyyətinin sədri, ak. M.İ. Əliyev, EA Botanika İnstitutunun direktoru, ak. U.K. Ələkbərov, İncəsənət Muzeyinin direktoru, Azərbaycan xalq rəssamı K.M. Kazımzadə, XİN-nin baş məsləhətçisi T.S. Ağayev, Azərbaycan KP MK-nin məsul işçisi R.D. Məmmədov, Bədən tərbiyəsi və idman Komitəsi sədrinin müavini F. Q. Əliyev, Azərbaycan İncəsənət İnstitutunun prorektoru A. M. Əzizov, Şeyxülislamın müavini H.S. Həsənli, AR Şərqşünaslıq İnstitutunun direktoru R.Y. Əliyev və başqaları vardı.

Simurq” AMA-nın yaradılması layihəsinə Azərbaycan Elmlər Akademiyasının, onun prezidenti, ak. Eldar Salayev tərəfindən 28 fevral 1990-cı ildə imzalanmış resenziyasında qeyd edilirdi: “...F.T. Məmmədovun konsepsiyasında qaldırılmış məsələləri, təhlili və təklif olunan respublikada mədəni quruculuq modelini, əsasən, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin və Azərbaycanın mədəni, sosial-iqtisadi və siyasi inkişafı üçün həyati vacib olan uyğun mədəniyyət institutlarının yaradılması ideyasını dəstəkləyirəm”.

Respublika Xarici İşlər Nazirliyinin 5 aprel 1990-cı ildə Azərbaycan XİN-nin baş məsləhətçisi Tofiq Ağayev tərəfindən imzalanmış rəyində qeyd olunmuşdur: “Biz ictimai tərəqqinin bütün sahələrində mədəniyyətin müəyyənedici rolu haqqında müəllifin fikrini bölüşürük... Fikrimizcə, F.T. Məmmədov tərəfindən təklif olunmuş ideyalar əsasında Azərbaycan Mədəniyyət Assosiasiyasının yaradılması milli mədəniyyətin yüksəlişinə və onun ümumbəşəri dəyərlərlə zənginləşməsinə yardım edəcəkdir”.

“Simurq” AMA-nın ilk, təsis qurultayı 20 aprel 1990-cı ildə oldu. Qurultay Azərbaycan Elmlər Akademiyası Rəyasət heyətinin konfrans zalında, XX əsrin əvvəlində Azərbaycan şəhər mədəniyyətinin ən gözəl memarlıq abidələrindən biri olan “İsmailiyyə” binasında keçirildi. Qurultayın işində: respublika Elmlər Akademiyasının prezidenti, ak. Eldar Salayev, Akademiyanın baş akademik-katibi, ak. Asəf Nadirov, Akademiyanın ictimai elmlər

bölməsinin akademik-katibi, ak. Aslan Aslanov, Mədəniyyət Fondu Azərbaycan şöbəsinin sədri, ak. Bəkir Nəbiyev, Elmlər Akademiyası "Bilik" Cəmiyyətinin sədri, ak. Maqsud Əliyev, mədəniyyət nazirinin müavini Fərəh Şəkinskaya, Bakı Dövlət Universitetinin kafedra müdiri, prof. Abuzər Xələfov, Azərbaycan Tarix Muzeyi Elm tarixi şöbəsinin müdiri, Alimlər İttifaqı sədrinin müavini, t.e.d. Fuad Məmmədov, Muzeyin Numizmatika şöbəsinin müdiri, əməkdar mədəniyyət işçisi, t.e.n. Əli Rəcəbli, Alimlər İttifaqının məsul katibi, f.e.d. Rafiq Y. Əliyev, həmçinin Bədən tərbiyəsi və İdman Komitəsi, Sülh fondu, Xarici ölkələrlə dostluq cəmiyyəti, "Vətən" cəmiyyəti, M. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu, İqtisadiyyat İnstitutu, Kosmik tədqiqatlar QHT-nın nümayəndələri və başqaları iştirak edirdilər.

Qurultayda Azərbaycanın ruhi mədəniyyətinin inkişafına vətəndaş yardımının kulturoloji konsepsiyası müzakirə olundu, onun əsas müddəalarına qiymət verildi, Assosiasiyanın əsas fəaliyyət istiqamətləri, proqramları, layihələri, nizamnaməsi, strukturu, tərkibi və iş formalarına dair təkliflər söylənildi.

Qurultay konsultativ (məsləhətçi) şuranı, rəyasət heyətini və təftiş komissiyasını seçdi, "Simurq" AMA-nın Nizamnaməsini və əsas fəaliyyət istiqamətlərini təsdiq etdi. Qurultay tərəfindən seçilən Assosiasiyanın konsultativ şurasının tərkibinə: Elmlər Akademiyasının prezidenti, ak. Eldar Salayev, ak. Aslan Aslanov, respublika xarici işlər naziri Hüseynağa Sadıqov, Azərbaycan Mədəniyyət fondunun sədri, ak. Bəkir Nəbiyev, Memarlıq və İncəsənət İnstitutunun direktoru, ak. Mikayıl Useynov, Neft və Kimya İnstitutunun direktoru, ak. Tofiq Əliyev, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, prof. Elmira Abbasova, Nəşriyyat üzrə Dövlət Komitəsinin sədri Rəşid Mahmudov, İncəsənət Muzeyinin direktoru, Azərbaycan xalq rəssamı Kazım Kazımzadə, mədəniyyət naziri Polad Bülbüloğlu, Bədən tərbiyəsi və İdman Komitəsinin sədri Yuri Məmmədov, Sovet Sülh fondu Azərbaycan şöbəsinin sədr müavini Namiq Səfərəliyev, "Dostluq" Cəmiyyətinin sədr müavini Furman Qurbanov, Mədəniyyət Fondunun direktor müavini Rafiq Kaşıyev, mədəniyyət nazirinin müavini Zülfüqar Fərzəliyev, respublika "Bilik" cəmiyyətinin sədri Elşad Quliyev, M. Əliyev adına İncəsənət İnstitutunun rektoru, prof. Timuçin Əfəndiyev, "İskra" zavodunun direktor müavini Yaqub Kərimov və başqaları daxil idilər.

Assosiasiyanın Rəyasət heyətinin tərkibinə: akademiklər - Asəf Nadirov, Maqsud Əliyev, xalq rəssamı Kazım Kazımzadə, t.e.d. Fuad Məmmədov, əməkdar mədəniyyət işçisi Əli Rəcəbli, əməkdar incəsənət xadimi, professor Arif Əzizov, i.e.n. Əli Məsimov, həkim Mirhəmzə Əfəndiyev,

memar Aqil Əhmədzadə, menecer Cavid Kərimov, mühəndis Zaur Kəsəmənli, sənətşünas Rafiq Kaşıyev, tex. e. n. Fəqan Əliyev, k.e.n. Heydər Məmmədəliyev və başqaları seçilmişlər. Assosiasiyanın Təftiş komissiyasına tanınmış numizmat, Azərbaycan Tarix muzeyi numizmatika şöbəsinin müdiri, əməkdar mədəniyyət işçisi Ə.M. Rəcəbli başçılıq edirdi.

Təsis qurultayında Mədəniyyət Assosiasiyası kulturoloji layihəsinin müəllifi, tarix elmləri doktoru Fuad Məmmədov "Simurq" AMA-nın prezidenti seçildi. Qurultay "Simurq" AMA-nın 1991-1995-ci illər və gələcək üçün əsas fəaliyyət istiqamətlərini təsdiq etdi. Müəllif tərəfindən işlənib hazırlanmış "Simurq" AMA-nın Nizamnaməsi Ədliyyə nazirliyi, Maliyyə Nazirliyi və respublika Dövlət Plan Komitəsi ilə razılaşdırılmış və respublika Nazirlər Sovetinin 17 avqust 1990-cı il, 374 saylı qərarı ilə qeydə alınmışdır. Təsis qurultayının protokolu akademik Asəf Nadirov tərəfindən imzalanmışdır.

Azərbaycanın milli maraqlarına cavab verən birgə fəaliyyətin həyata keçirilməsi məqsədilə, sonrakı dövrdə: Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu, Azərbaycan Memarlar İttifaqı, İncəsənət Muzeyi, Azərbaycan Tarix Muzeyi, "Baklift" təşkilatı, Bakı Metropoliteni, Toksikologiya Mərkəzi, 5 saylı Doğum evi, "Selen" elmi-istehsalat birliyi, İncəsənət Gimnaziyası, Avropa liseyi, İnşaat Materialları İnstitutu və başqaları könüllü əsaslarla Assosiasiyanın tərkibinə daxil olmuşlar.

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının təsis edilməsi, özünün ictimai-siyasi sisteminin demokratik dəyişiklikləri yoluna qədəm qoymuş Azərbaycan Respublikasının həyatında əlamətdar tarixi hadisə oldu. Assosiasiya özünün layihə və proqramlarını milli inkişafın həyat maraqları və tələbatlarını nəzərə almaqla işləyib hazırlamağa səy göstərirdi. Bu fəaliyyətin başlıca məqsədi ölkənin milli sərvəti olan yüksək ruhi mədəniyyətli insanların hazırlanmasına və tərbiyə edilməsinə yardım etmək idi. Söhbət yüksək səviyyəli universal kulturoloji biliklərə, professional vərdişlərə, mütəşəkkillik və mənəviyyata malik, sosial cəhətdən fəal, yəni keçən yüzilliyin 50-ci illərinin ikinci yarısından insan kapitalı adlandırmaq qəbul edilən insanların formalaşmasına yardım haqqında gedir.

Bu məqsədə uyğun olaraq işlənmiş fəaliyyət proqramı - ruhi mədəniyyətin, hər şeydən əvvəl – intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin prioritet inkişafı, həmçinin dünya mədəni ictimaiyyətinin ölkəyə fasiləsiz inteqrasiyası hesabına Azərbaycan cəmiyyəti və dövlətinin dinamik inkişafını təmin edə biləcək innovativ milli layihələrin həyata keçirilməsini nəzərdə tuturdu. Bu layihələrdə xalqın mədəni irsinin qorunmasına və sərhəd-

lərdən kənarda onun populyarlaşmasına, davamlı milli inkişafa əlverişli şərait yaradan amil kimi, beynəlxalq əməkdaşlığın inkişafına böyük əhəmiyyət verilirdi. Ümumi konsepsiya çərçivəsində təhsil və maarif, ailə və məişət, fərdi və beynəlxalq münasibətlər mədəniyyətinin, tibbi və ekoloji mədəniyyətin, qadınlar, gənclər və uşaqların mədəniyyətinin inkişafına elmi yardım göstərmək planlaşdırılırdı.

Əvvəllər Azərbaycanın ictimai inkişaf yolları və formalarını müəyyən edən marksizm-leninizmdən imtina ilə əlaqədar olaraq, Assosiasiya öz fəaliyyəti üçün yeni metodologiya seçdi. Dünya mədəniyyəti və sivilizasiyasının tarixi, nəzəriyyəsi və praktikasının nailiyyətlərinə əsaslanaraq o, Azərbaycanda ilk dəfə insanın və cəmiyyətin, dövlət quruculuğu və idarəçiliyinin ruhi (əqli və mənəvi) və sosial-iqtisadi inkişafının əsasını və mahiyyətini təşkil edən fenomen kimi, mədəniyyət anlayışına kulturoloji, sistemli yanaşmanı işləyib hazırladı və elmi ictimaiyyətə təqdim etdi.

Proqramın tədqiqat hissəsində Azərbaycan elmi və mədəniyyətində, ölkənin milli maraqlarına cavab verən innovativ istiqamət olan, və keçid dövrü şəraitində cəmiyyətin mədəni həyat fəaliyyətinin təkmilləşdirilməsi instrumenti, respublika vətəndaşlarının akkulturasiya və inkulturasiyasının effektiv üsulu olan kulturologiya elmi, təhsili və maarifinin formalaşdırılması və inkişafına prioritet yer ayrılmışdır.[12] Bununla əlaqədar, Azərbaycanın ruhi və maddi mədəniyyətinin inkişafına, XXI əsrin humanist sivilizasiyası, demokratiya mədəniyyətinə, elm tarixi və incəsənətə, təhsilin və elmin aktual problemləri, əhalinin kulturoloji maarifləndirilməsi, gənclərin inkişafına, sosial ekologiyaya, müasir dinlərə həsr olunan bir sıra kulturoloji konfransların və seminarların keçirilməsi, milli mədəniyyət məclislərinin, xarici ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin, beynəlxalq telekörpülərin, gənclər festivallarının, sərgilərin və bir çox digər tədbirlərin keçirilməsi, o cümlədən beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək nəzərdə tutulmuşdur.

Assosiasiyanın fəaliyyət proqramı kifayət qədər geniş və iddialı idi. Proqramda həmçinin, dünya dövlət quruculuğu və idarəçiliyi təcrübəsinin kulturoloji tədqiqatlarının, ən yeni kompüter texnologiyalarının öyrənilməsi-

---

[12] Rusiya Kulturologiya İnstitutu 1992-ci ildə Rusiya Mədəniyyət Mərkəzinin Muzeyşünaslıq və abidələrin qorunması ETİ-nun bazasında yaradılmışdır. 1993-cü ildə Omskda institutun filialı, 1997-ci ildə - Sankt-Peterburqda şöbə, 2012-ci ildə isə Krasnodarda filial yaradıldı. 2006-cı ildə Rusiya Kulturologiya Cəmiyyəti yaradıldı. (https://ru.wikipedia.org/wiki/Российский_институт_культурологии)

nin, qeyri-ənənəvi enerji növlərinin istifadə imkanlarının həyata keçirilməsi planlaşdırılırdı. Bu məqsədlə monoqrafiyaların, dərsliklərin, metodiki vəsaitlərin hazırlanması və respublikanın orta və ali məktəbləri üçün xüsusi kursların açılması nəzərdə tutulmuşdur. Bununla yanaşı Azərbaycan mədəniyyətinin əlamətdar günlərinin təqvimini, folklor atlasını və Azərbaycan xalq yaradıcılığı sənətkarlarının kataloqunu yaratmaq göstərilmişdir. Sosial məişət mədəniyyəti sahəsində qərb ölkələrinin nümunəsi üzrə ictimai istifadə yerlərinin, zibilin emalı üzrə, kanalizasiya tullantıları və s. üçün müəssisələrin tikintisinə yardım etmək vəzifəsi qoyulmuşdur.

Kulturoloji biliklərin yayılması, milli mədəniyyətin inkişafına və onun nailiyyətlərinin dünyada təbliğinə yardım məqsədilə, təşkilati münasibətdə kulturologiya mərkəzləri və milli mədəniyyət parkları, "Simurq" klubu, milli mədəniyyət klubunun, turist mərkəzləri, xalq yaradıcılığı məktəbləri, Azərbaycanın rayonlarında və xarici ölkələrdə "Simurq" AMA-nın filialları və nümayəndəliklərinin, həmçinin "Simurq" mətbuat orqanının yaradılması ehtimal edilirdi. Milli maraqları nəzərə alaraq, "Simurq" AMA-nın yaradıcı fəaliyyətinə respublikanın, Assosiasiyanın üzvü olmayan aparıcı mütəxəssislərini cəlb etmək nəzərdə tutulmuşdur.

Rəyasət heyətini qərarlarının effektiv reallaşdırılması üçün rəyasət heyəti üzvlərinin rəhbərliyi altında idarəçilik departamentləri və təşkilati-metodiki komissiyalar yaradıldı. Bu, Konsultativ şuranın potensialından istifadə etməklə, həm ekspert, həm də diskresion vətəndaş fəaliyyətini mövcud qanunvericilik çərçivəsində həyata keçirmək və korrektə etmək imkanı verirdi. Azərbaycanda kulturologiyanın inkişafı sahəsində vəzifələrin həyata keçirilməsi üçün ilk olaraq, kulturoloji tədqiqatlar, təhsil və "Simurq" AMA-nın mədəniyyət siyasəti departamenti yaradıldı.

Azərbaycan cəmiyyətində mütərəqqi dəyişiklikləri təmin etmək üçün yeni sosial etika və qanun yaradıcılığı mədəniyyətini yalnız inkişaf etdirmək deyil, həm də ölkənin bütün vətəndaşları tərəfindən qanunların yüksək icra mədəniyyətini yetişdirmək lazım idi. Buna görə də öz proqram və planlarını işləyərkən Assosiasiya, xalqın ümummədəni səviyyəsinin, Azərbaycan cəmiyyəti vətəndaşlarının maraqları və mədəniyyətlərinin və daxili siyasi sabitliyinə, ictimai münasibətlərin humanistliyinə, hüquqi ümumrifah dövlətinin qurulmasına yardım edən sosiumların harmonizasiyasının yüksək dərəcəsinə nail olmaq üçün sosial-mədəni inkişaf proseslərinin tənzimlənməsinə həm etik, həm də hüquqi təsirin zəruriliyini nəzərə alırdı.

## Yaradıcı fəaliyyətin başlanğıcı və onun ilkin nəticələri

Təsis qurultayından sonrakı ilk dövrdə Assosiasiya Azərbaycan Elmlər Akademiyasının Əlyazmaları İnstitutunun binasında – məşhur Azərbaycan mesenatı H.Z. Tağıyevin keçmiş Bakı Müsəlman qızlar məktəbinin tarixi binasında işləyirdi. Akademiyanın rəhbərliyi tərəfindən İstiqlaliyyət küçəsində, Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyəti ilə yanaşı yerləşən bu çox gözəl memarlıq binasında Assosiasiyaya işləmək üçün ikinci mərtəbədə iki otaq ayrılmışdı. İnstitutun direktoru, professor Cahangir Qəhrəmanov Assosiasiyanın məhsuldar işi üçün əlverişli şərait yaratmış, ona mənəvi və texniki dəstək göstərmişdir.

Elmlər Akademiyası Assosiasiyaya təsis haqqı qismində bir qədər pul ayırmışdı. “Simurq” AMA bu pulları proqram təminatlı ilk kompüterin alınması, öz icra aparatının əmək haqqı və Bakı, Naxçıvan, Əli Bayramlı, Lənkəran və Azərbaycanın digər şəhərləri və regionlarında Assosiasiyanın nizamnamə fəaliyyətinin həyata keçirilməsi üçün lazım olan, onun tərəfindən təsis edilmiş bir neçə kiçik müəssisənin təşəkkül tapmasına maliyyə yardımı üçün istifadə edirdi. Milli alətlərin təmiri ilə məşğul olan kiçik müəssisələrin birinə, sonradan Azərbaycan Dövlət Konservatoriyasının prorektoru olan dosent Elxan Babayev başçılıq edirdi.

Kiçik müəssisələr yaratmaqla Assosiasiyanın məqsədi respublika əhalisinin sosial-iqtisadi fəallığının inkişafına yardım etmək və bu təşkilatlar vasitəsilə Bakının və respublikanın rayon əhalisinin akkulturasiyası və inkulturasiyası proseslərinə kömək etmək idi. Eyni zamanda güman edilirdi ki, bu müəssisələr Assosiasiya, təhsil, elm və maarif sahəsində onun məqsədli sosial-mədəni proqramları və layihələrini həyata keçirmək üçün öz gəlirlərinin bir hissəsini ayıracaqdır. Təəssüf ki, bu “utopik” strategiya Assosiasiyanın gözləmələrini doğrultmadı: təşəkkül çətinliklərinə əsaslanaraq, onun kiçik müəssisələrindən heç biri inkişaf üçün ona pul ayırmadı və buna görə də tezliklə bütün kiçik müəssisələri Assosiasiyanın yurisdiksiyasından (tabeliyindən) çıxarmaq lazım gəldi.

Bu dövrdə “Simurq” AMA öz üzvlərinin peşəkarlığına və vətənpərvərlik təşəbbüsünə arxalanaraq, başlıca olaraq, kulturologiya sahəsində məqsədyönlü elmi-tədqiqat, təhsil və maarifçilik fəaliyyətini genişləndirdi. Artıq 1990-cı ildə Assosiasiya tərəfindən 17 maraqlı ictimai-faydalı konsepsiya, plan və layihələrin işlənib hazırlanmasına başlandı.

“Simurq” AMA-nın çağırışına səs verərək, artıq ilk dövrdə istedadlı

alimlər və mütəxəssislər, o cümlədən Azərbaycan EA-nın akademikləri və müxbir üzvləri, professorlar, doktorlar və elmlər namizədləri, tanınmış müəllimlər, əməkdar mədəniyyət və incəsənət xadimləri, həkimlər, diplomatlar, ilahiyyətçilər, tələbə gənclər onun sırasına daxil olurdular. Maarif və təhsilin, elm, tibb, ekologiya, incəsənət, iqtisadiyyat, sosial idarəetmə, informasiyanın, hüququn və Azərbaycanda hərtərəfli fərdi və ictimai inkişafı təmin edən digər mədəniyyət sahələrinin tərəqqisinə yardım etməyə yönəldilmiş birgə fəaliyyət məqsədilə - ali məktəblər, orta məktəblər, elmi təşkilatlar, nazirliklər, qeyri-hökumət təşkilatları, yaradıcı ittifaqlar, fondlar, mərkəzlər, respublikanın istehsal müəssisələri könüllü əsaslarla Assosiasiyaya daxil olurdular.[13]

Bununla yanaşı keçən əsrin 90-cı illərinin əvvəllərində respublikamızın inkişafı mürəkkəb siyasi şəraitdə baş verirdi. Tarixi abidələrimizin, təhsil, elm, sağlamlıq və din müəssisələrinin dağıdılması, torpaqlarımızın əhəmiyyətli hissəsinin itirilməsinə və bir milyona yaxın qaçqınların əmələ gəlməsinə gətirib çıxaran, respublikanın minlərlə vətəndaşının ölümü ilə müşayiət olunan Ermənistanın Azərbaycana qarşı təcavüzü – Azərbaycan xalqı üçün sərt sınaq oldu. Zamanın çətinliklərinə baxmayaraq, Azərbaycanın yaradıcı sosial-mədəni inkişaf və sivil dünya cəmiyyətinə onun inteqrasiyası prosesi güclənirdi. Bu şəraitdə Assosiasiya xalq diplomatiyası metodları ilə beynəlxalq münasibətlər mədəniyyətinə, digər ölkələrlə mədəni əlaqələrin və dostluğun qurulması və inkişaf etdirilməsinə böyük diqqət ayırırdı. Assosiasiya üzvləri vətənpərvər düşüncələri əldə rəhbər tutaraq, digər xalqların nümayəndələri tərəfindən Azərbaycana qarşı maraq formalaşdırmağa və məhəbbət qazandırmağa səy göstərirdilər.

Belə mədəniyyət siyasətinin mühüm nailiyyəti “Simurq” AMA-nın açıq mədəni dialoq, biliklər mübadiləsi, Azərbaycan tarixi və mədəni nailiyyətlərinin San-Xosedə yayılması məqsədilə vətəndaş mədəni təşəbbüsü qismində həyata keçirilən Kosta-Rikaya səfəri oldu.

Moskva şəhərində Kosta-Rika səfirliyi ilə qurulmuş mədəni dostluq əlaqələri sayəsində, “Simurq” AMA-nın dəvəti ilə, onun fəaliyyəti ilə tanış-

---

[13] Assosiasiyanın könüllü təsisçiləri və kollektiv üzvləri arasında: Elmlər Akademiyası, Alimlər İttifaqı, Neft Akademiyası, Bakı Dövlət Universiteti, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Memarlar İttifaqı, İnformasiya və Mətbuat Nazirliyi, Mədəniyyət fondu, Sülh fondu, Gənclər və idman Nazirliyi, Xarici ölkələrlə mədəni əlaqələr cəmiyyəti, Avropa liseyi, Toksikoloji mərkəz, Azərbaycan Mühəndislər Cəmiyyəti, Azərbaycan Kulturoloqlar Cəmiyyəti, “İnsan və mühit” mərkəzi, “Günəş” alimlərin xeyriyyə cəmiyyəti və bir çox digər təşkilatlar vardı.

lıq və mədəniyyət sahəsində əməkdaşlığın qurulması məqsədilə, 1991-ci ilin martında Kosta-Rika Respublikasının Moskvadakı səfirliyinin Baş konsulu Plutarko Ernandes Sanços Bakıya gəldi. Hörmətli qonağı və onun ailəsini, ilk növbədə, Bakının əsas tarixi abidələri və görkəmli yerləri ilə tanış etdilər, "Simurq" AMA-nın konsepsiyaları və iş planları haqqında ətraflı danışdılar. Onun üçün hətta xüsusi olaraq Bakının ali məktəblərindən birinin tələbələrinin böyük sənərkarlıqla və həyəcanlandırıcı ilhamla ifa etdikləri Kosta-Rika rəqsinə baxış təşkil edilmişdir. Plutarko Ernandesin Azərbaycan paytaxtında olması, qonağımızın xoşuna gələn və yaddaşında qalan Novruz Bayramı günlərinə təsadüf edirdi. Kosta-Rika diplomatına Azərbaycan haqqında xatirə olaraq "İçərişəhər" və Bakı buxtasının təsviri olan rəsm bağışlandı. Assosiasiya çoxlu sayda Azərbaycan və Kosta-Rika simvollu nişanlar hazırladı və yaydı, həmçinin Kosta-Rika prezidenti Rafael Kalderonun təsviri olan hədiyyəlik kiçik milli xalça təqdim etdi. Vida şam yeməyində cənab Ernandes "özünü də azərbaycanlı kimi hiss etdiyini" deyərək, hətta kövrəldi. Bu, Assosiasiya üçün Azərbaycan mədəniyyəti və qonaqpərvərliyinin çox riqqətli tərzdə qiymətləndirilməsi idi.

1991-ci ilin avqustunda Kosta-Rikanın Moskvadakı səfirliyinin rəsmi dəvəti ilə "Simurq" AMA-nın prezidenti iki həftəlik vizitlə San-Xosedə - bu gözəl Mərkəzi Amerika ölkəsinin paytaxtında oldu. Səfərin məqsədi Assosiasiya üzvlərinin Kosta-Rikanın alimləri, mütəxəssisləri və mədəniyyət xadimləri ilə əməkdaşlığını nəzərdə tutan sazişlərin hazırlanması, həmçinin iki xalqın mədəni mübadiləsi və mədəniyyətlərinin yayılması idi. Bu səfər çərçivəsində San-Xosedə Kosta-Rikanın mədəniyyət naziri Aida Vayslederlə, SSRİ-nin səfiri V.N. Kalmıkla və SSRİ-nin Kosta-Rikadakı səfirliyinin məsul işçiləri, San-Xosenin bələdiyyə nümayəndələri ilə məhsuldar görüşlər oldu. Bu görüşlərin nəticələrinə görə, 1991-ci il avqustun 1-də Kosta-Rikanın paytaxtı San-Xose şəhərində Kosta-Rikanın Mədəniyyət Nazirliyi ilə "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası arasında 2 illik əməkdaşlıq sazişi imzalandı. Onu nazirlik adından Kosta-Rikanın mədəniyyət naziri Aida Fayngezixt Vaysleder, "Simurq" AMA-nın adından – onun prezidenti Fuad Məmmədov imzaladı. Kosta-Rikanın Mədəniyyət Nazirliyindəki bu tarixi görüş zamanı SSRİ-nin San-Xosedəki konsulu və Sovet səfirliyinin mədəniyyət üzrə attaşesi də iştirak edirdilər.

Sazişə görə 1991-ci ilin dekabrında Kosta-Rikada Azərbaycan mədəniyyəti festifalının keçirilməsi nəzərdə tutulurdu. Festival çərçivəsində Azərbaycan incəsənətinə aid əşyaların satış-sərgisinin, milli musiqi konsertinin, "Simurq" milli mətbəxinin fəaliyyətinin, həmçinin Azərbaycan və

Kosta-Rika alimləri və sahibkarlarının seminarlarının keçirilməsi göstərilmişdir. Göstərilən plana uyğun olaraq, 1991-ci ilin dekabrında San-Xosedə 25 nəfərlik heyətdə Azərbaycan nümayəndələrinin səfəri nəzərdə tutulurdu. Nümayəndə heyətinin tərkibinə: Azərbaycan Elmlər Akademiyasının prezidenti, akademik Eldar Salayev, mədəniyyət nazirinin müavini Fərəh Şəkinskaya, akademiklər – Asəf Nadirov, Maqsud Əliyev, Mikayıl Useynov, Tofiq Əliyev, prof. Cahangir Qəhrəmanov, Fuad Məmmədov, həmçinin bir sıra görkəmli artistlər, mütəxəssislər, incəsənət xadimləri və sahibkarlar daxil olmalı idilər. Həmçinin, Mərkəzi Amerikanın qonşu ölkələrində - Panama, Nikaraqua, Qvatemala və Hondurasda Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi imkanları müzakirə edilmişdir.

Təəssüf ki, Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən vəd edilən dəstəyin olmaması səbəbindən, Azərbaycanın Mərkəzi Amerika ölkələri ilə mədəni-iqtisadi əməkdaşlığı üçün yeni imkanlar açan, siyasi baxımdan bu vacib layihəni reallaşdırmaq mümkün olmadı. Buna baxmayaraq, Assosiasiyanın xalq diplomatiyasının, siyasətçilərin ədalətli qiymətini almayan qeyri-rəsmi səfəri ölkəmizə yüksək siyasi divident (qazanc, mənfəət) gətirdi: Onun tarixi nəticəsi Kosta-Rika tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin tanınması oldu. Bu Mərkəzi Amerika ölkəsi artıq 1991-ci ilin payızında Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dünya ölkələrindən biri oldu. Bu dövrdə Kosta-Rikada, sonralar isə - İspaniyada "Simurq" AMA-nın qeyri-rəsmi nümayəndəliyi açıldı.

Milli maraqları əldə rəhbər tutaraq, Assosiasiya özünün fəaliyyəti prosesində müəyyən mədəni, o cümlədən Azərbaycan diasporu sosial-mədəni inkişafına yönəldilmiş təşəbbüslərlə sistematik olaraq çıxış edirdi. 1990-cı ilin əvvəlində Moskvada yaşayan Azərbaycan diasporu nümayəndələrinin bir qisminin inkulturasiyası və akkulturasiyasına yardım məqsədilə, o cümlədən, ticarətlə və mədəniyyətin qeyri-intellektual sahələrində çalışan insanlar arasında Azərbaycan, rus və dünya mədəniyyəti haqqında, ilk növbədə universal kulturoloji biliklərin yayılması məqsədilə, Assosiasiya Moskvada respublikanın səlahiyyətli nümayəndəliyində Azərbaycan Mədəniyyət mərkəzini yaratmağı təklif etdi. Mərkəz, Rusiyada yaşayan azərbaycanlıların rus mədəniyyətinə inteqrasiyası, onların mədəniyyətinin Moskvanın və Rusiyanın digər şəhər sakinlərinin mədəniyyəti ilə harmonizasiyası üçün zəruri instrument, həmçinin Azərbaycan mədəniyyətinin Rusiyada təbliği vasitələrindən biri kimi düşünülmüşdü.

Keçmiş SSRİ respublikalarında milli mədəniyyətin inkişafı və təbliği üzrə birgə fəaliyyətin həyata keçirilməsi məqsədilə, Assosiasiya 1990-cı ildə

Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun konfrans zalında respublika ərasizində və keçmiş SSRİ şəhərlərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyət mərkəzləri rəhbərlərinin müşavirəsini keçirdi. Kemerevoda mədəniyyət mərkəzinin direktoru, hazırda ABŞ vətəndaşı olan, bu müşavirəyə gələn (sonradan Assosiasiyanın vitse-prezidentlərindən biri seçilmiş) Namiq İsmayılovla, Latviya Mədəniyyət mərkəzinin direktoru Faiq Səfərov və başqaları ilə o vaxtdan əlaqələr qurulmuşdur.

Təəssüf ki, geniş ictimai dəstəklə yanaşı, fəaliyyətinin lap əvvəlindən Assosiasiya konservativ əhval-ruhiyyəli məmurlar tərəfindən "yeniliyə müqavimət sindromu" ilə şərtlənən anlamama və hətta müqavimətlə rastlaşdı. Bu sindrom az və ya çox dərəcədə bütün cəmiyyətlərə xasdır. Nobel mükafatı laureatı Nils Henrik David Borun nəzəriyyəsinə görə, belə laqeydlik yaxud müqavimət, istər bütövlükdə, zamanı bir qədər qabaqlayan elmi və ya ideoloji innovasiyaların dərk edilməsi və mənimsənilməsi üçün vaxtın tələb olunduğu cəmiyyətdə, istərsə də mövcud ənənəvi elmi məktəblərin və kollektivlərin nüfuzunu zəiflətmək təhlükəsini özündə ehtiva edən yeni ideyalara və nailiyyətlərə çox zaman qısqanclıqla yanaşan elmi dairələrdə də yer ala bilər. Belə vəziyyətdə Assosiasiya öz fəaliyyəti üçün əlverişli şəraitin yaranması imkanlarını axtarırdı.

Akademik Maqsud Əliyev xatırlayır ki, "1991-ci ilin noyabrında Fuad müəllim respublikanın dövlət katibi, yüksək mədəniyyətli insan, görkəmli intellektual, prof. Tofiq İsmayılova[14] Assosiasiyanın fəaliyyətinə maddi-texniki dəstək göstərmək xahişi ilə zəng etdi. Tofiq müəllim ona xas vətənpərvərlik və alicənablıqla bu məsələni Dağlıq Qarabağ səfərindən qayıtdıqdan sonra həll edəcəyinə söz verdi. O, münaqişəli situasiyanı həll etmək üçün hökumət nümayəndə heyətinin tərkibində Dağlıq Qarabağa getməyə hazırlaşırdı. Lakin təəssüf ki, bu işıqlı şəxsiyyətə bizim Assosiasiyaya yardım etmək qismət olmadı: 20 noyabr 1991-ci ildə helikopter Azərbaycanın yüksək rütbəli hökumət məmurlarının və Rusiya və Qazaxstandan olan müşahidəçi-generalların həyatına son qoyan erməni separatçıları tərəfindən vuruldu. Bu terrorçuluq aktı nəticəsində baş nazirin müavini Zülfü Hacıyev, respublikanın baş prokuroru İsmət Qayıbov, daxili işlər naziri Məhəmməd Əsədov, Bakı şəhəri Səbail rayon icra hakimiyyətinin başçısı Vəli Məmmədov, Dağlıq Qarabağın prokuroru İqor Plavski və başqaları da həlak oldular."[15]

---

[14] Tofiq İsmayılov – Təbii resursların Kosmik Tədqiqatları İnstitutunun keçmiş baş direktoru, Beynəlxalq mühəndislik Akademiyasının akademiki.
[15] Maqsud Əliyevin xatirələrindən.

Bu dövrdə Assosiasiyanın kollektivinin işi iki əsas: daxili və xarici mədəni siyasət istiqamətində qurulmuşdu. Beynəlxalq münasibətlər sahəsindəki fəaliyyətinin məqsədi, bir tərəfdən – sivil ölkələrin davamlı inkişaf təcrübəsinin öyrənilməsi, digər tərəfdən – Azərbaycan xalqının xaricdə təbliği idi. Beynəlxalq münasibətlər mədəniyyətinin inkişafına və Azərbaycan mədəniyyətinin nailiyyətləri haqqında obyektiv informasiyanın yayılmasına yardım məqsədilə, Assosiasiya əcnəbi ölkələrin, xarici və beynəlxalq təşkilatların alimləri, mütəxəssisləri və diplomatları ilə mədəni əlaqələr qururdu. Burada biz beynəlxalq əlaqələrin inkişafını Azərbaycan mədəniyyətinin xaricdə yayılması və bütün dünyada Azərbaycanın dostlarını qazanmağın mühüm vasitəsi olan xalq diplomatiyası metodlarını nəzərdən keçirirdik.

1991-1992-ci illərdə Avstraliya səfiri K. Houq, Türkiyənin Azərbaycan Mədəniyyəti Cəmiyyətinin sədri Əhməd Qaraca, "Tampaş" türk-ingilis kompaniyasının prezidenti İsmət Çil, "Konkord" alman firmasının direktoru İsmayıl Herirçi, "Azərbaycanın dostları" Madrid cəmiyyətinin sədri Rebato Doleros və başqaları Assosiasiyaya görüşə gəlmişdilər. 1992-ci ilin fevralında Xocalı şəhərindəki faciəli hadisələrlə əlaqədar, Qərbi Almaniyanın "Şpiqel" jurnalının müxbiri, doktor Kristian Neef "Simurq" AMA-ya baş çəkmişdir ki, burada ona erməni-Azərbaycan münaqişəsi haqqında doğru məlumat verilmişdir. Bu vizitlər dialoq və əməkdaşlıq üçün Azərbaycan ziyalılarının açıqlığını, mədəni dəyərlər haqqında bizim təsəvvürlərimizi, sülhə nail olma səyimizi, xalqlar arasında qarşılıqlı anlaşmanı və beynəlxalq əməkdaşlığın müdafiəsini qonaqlara nümayiş etdirirdi.

1992-ci ilin iyulunda "Simurq" AMA-nın təşəbbüsü ilə Leyla Səfərovanın Dağlıq Qarabağ haqqında tarixi həqiqəti açan "Terra inkognita" filminə ictimai baxış təşkil edilmişdir. Dünyanın müxtəlif ölkələrində gələcək nümayişi üçün filmin aprobasiyası (bəyənilməsi, təsdiq edilməsi) məqsədini güdən bu baxışda görkəmli alimlər və incəsənət xadimləri, Milli Məclis, Prezident Aparatı, respublika Nazirlər Kabinetinin əməkdaşları, Azərbaycanın Şeyxülislamı iştirak edirdilər.

Xalq diplomatiyası metodlarından istifadə edərək, "Simurq" AMA Dağlıq Qarabağdakı münaqişə haqqında həqiqətin yayılmasına və respublikanın hüdudlarından kənarda Qarabağ probleminin ədalətli tənzimlənməsinə yardım etməyə səy göstərirdi. 14-15 dekabr 1992-ci ildə Rusiya Sülhü Müdafiə Komitəsində (Moskva) "Rusiya diplomatiyasının Qarabağ sindromu" Beynəlxalq konfransı keçirildi. Konfrans Rusiya gənc işgüzar və siyasi liderlər Assosiasiyası və Sülh və Razılaşma Federasiyası tərəfindən təşkil edilmişdir. Konfransda Azərbaycan tərəfindən "Azərbaycan-Rusiya" Cəmiyyətinin və "Simurq"

AMA-nın nümayəndə heyəti və Moskvada Azərbaycan diasporunun nümayəndələri iştirak edirdilər.

Konfransda Qarabağ münaqişəsi və Azərbaycanda milli azlıqların vəziyyəti haqqında obyektiv danışan "Azərbaycan-Rusiya" Cəmiyyətinin sədri Mixail Zabelinin, cəmiyyətin üzvləri – prof. E. Qorin, L. Morozova,. S. Barinova, V. Boqopolski, Y. Arşav, T. Məcidov, V. Abakumtsev, V. Serqeyeva və başqalarının çıxışları səsləndi. Moskvadakı Azərbaycan diasporunun üzvləri, Azərbaycan Vətəndaş Assambleyasının sədri R. Qocayev, hüquqşünas, prof. Tofiq Qəndilov, yazıçı Çingiz Hüseynov, prof. R. Qurbanov, prof. S. Qasımova və digərləri tərəfindən də Azərbaycanın mövqeyinin ədalətliliyi qızğınlıqla müdafiə edildi.

"Simurq" AMA-nın nümayəndə heyətini onun prezidenti, tarix elmləri doktoru Fuad Məmmədov[16] və vitse-prezident, fəlsəfə elmləri doktoru Əlikram Abdullayev təmsil edirdi. Onlar situasiyanın obyektiv təhlilinin aparılmasını və münaqişənin düzgün həlli yollarının müəyyən edilməsini təklif edirdilər. Fuad Məmmədovun çıxışında səslənən, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərinə əsaslanan, Azərbaycan tərəfinin düşünülmüş və konstruktiv mövqeyi, Dağlıq Qarabağ məsələləri üzrə Rusiya səfiri V.N. Kazimirov və hətta, Rusiya EA-nın müxbir üzvü L.M. Çaylakyan, Y. Pirumyan və b. kimi erməni tərəfin bir neçə nümayəndələri tərəfindən də müsbət qiymətləndirildi. F.T. Məmmədov və A.Z. Abdullayev konfransın nəticələri üzrə uyğun analitik hesabat və tövsiyələri respublikanın Milli Məclisinə təqdim etdilər. 1993-cü ilin fevralında Fuad Məmmədov və Əlikram Abdullayev Amerika professoru Mindelin rəhbərliyi altında Moskva Gənclər İntitutunda konfliktologiya üzrə Beynəlxalq seminar-məktəbin işində iştirak etdilər. Burada onlar Azərbaycan xalqının çoxəsrli və zəngin mədəniyyəti haqqında bilikləri fəal surətdə yayırdılar.

İqtisadiyyatın intensiv inkişafı ilə yanaşı, Azərbaycanın ictimai-siyasi quruluşunun dəyişməsi cəmiyyətin elmi əsaslanmış ruhi mədəniyyətinin yenidən qurulmasını, intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin qabaqlayıcı inkişafını təmin edən dövlət siyasətinin yeni prioritetlərinin işlənib hazırlanmasını və ictimai təşəbbüsün mobilləşdirilməsini tələb edirdi. Heç də sadə olmayan bu məsələnin həlli - respublikada yeni ixtisaslar üzrə yüksək ixtisaslı kadrların hazırlanması və istifadəsini, istehsalını və azad müsabiqə əsasında idarəçi kadrların istifadə edilməsini, əhalinin

[16] "Azərbaycan - Rusiya" Cəmiyyətinin vitse-prezident olaraq, Fuad Məmmədov həmçinin bu Cəmiyyəti təmsil edirdi.

ümumi mədəni səviyyəsinin yüksəlməsini təmin etməklə şərtlənirdi.

Kulturologiya elmi, təhsili və maarifinin inkişaf prosesinə təşkilati dəstək məqsədilə, həmçinin müxtəlif ruhi və maddi mədəniyyət sahələri üçün ekspert-kulturoloqların hazırlanması üçün 1990-cı ildə Azərbaycanda Mədəniyyət İnstitutunun (sonradan – Dünya mədəniyyəti Beynəlxalq Universiteti) yaranması modeli işlənib hazırlandı.

Əslində bu strateji model keyfiyyətcə yeni, bir-biri ilə əlaqəli üç baza institutlarının: Azərbaycan Mədəni Cəmiyyəti, Mədəniyyətin tarixi və nəzəriyyəsi Mərkəzi olmaqla, Mədəniyyət İnstitutu, və Kulturoloji biliklərin yayılması İnstitutunun yaradılmasını nəzərdə tuturdu. Mədəniyyət İnstitutunu Azərbaycan Elmlər Akademiyası, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, respublika Xarici İşlər Nazirliyi və Azərbaycan SSR Nazirlər Kabineti yanında Azərbaycan Xalq Təsərrüfatı İdarəçiliyi İnstitutu ilə birlikdə yaratmaq planlaşdırılırdı. Mədəniyyət İnstitutu Azərbaycanda sosial-mədəni tərəqqiyə və respublikanın xarici ölkələrlə qarşılıqlı faydalı beynəlxalq münasibətlərinin inkişafına yardım etməyə qadir, keyfiyyətcə yeni tipli tədris-elmi-maarifçilik mərkəzi kimi nəzərdə tutulmuşdur.

Ali məktəb kimi Mədəniyyət İnstitutunun əsas vəzifəsi qismində: respublikanın ruhi mədəniyyəti və xalq təsərrüfatı üçün - həm ənənəvi, həm də dünya elmi və mədəniyyətinin müasir inkişaf tendensiyalarına uyğun – kulturoloqlar və elmşünaslardan tutmuş politoloqlar, futuroloqlar və menecerlərədək yüksək ixtisaslı kadrların hazırlanması, həmçinin milli və dünya mədəniyyəti və sivilizasiyası sahəsində tarixi-nəzəri tədqiqatların aparılması müəyyən edilmişdir.[17]

Lakin Mədəniyyət İnstitutunun yaradılması, beynəlxalq konqresslərin hazırlanması və keçirilməsi və digər geniş əhatəli layihələr ciddi hazırlıq, xeyli vaxt, maddi-texniki vəsaitlər və resurslar tələb edirdi ki, qeyri-hökumət təşkilatı olaraq, "Simurq"AMA, təəssüf ki, bunlara malik deyildi. Buna görə də Azərbaycanda ruhi mədəniyyətin yeni görmə və yaradıcı imkanlarının praktik istifadəsinə yardım məqsədilə, "Simurq" AMA-nın əsas fəaliyyət forması lap başlanğıcdan onun nizamnaməsində nəzərdə tutulan kulturoloji tədqiqatlar, elmi-maarifçilik seminarları və böyük xərclər tələb etməyən təsərrüfat hesablı məktəblər oldu.[18]

---

[17] Demokratiya və demokratiya mədəniyyəti. "Vışka" qəzeti, 10 mart, 1990-cı il.

[18] Elmi-maarifçilik fəaliyyətini özünümaliyyələşdirmə məqsədilə, Assosiasiya bir neçə kiçik müəssisə, o cümlədən Naxçıvanda reğional mərkəz yaratdı, bunlar öz kommersiya fəaliyyətindən "Simurq" AMA-ya faiz köçürməli idilər. Təəssüf ki, keçid dövrünün çətinlikləri ilə əlaqədar, bu müəssisələrin heç biri Assosiasiyaya maliyyə yardımı göstərə bilmədilər.

Kulturoloji seminarlar Bakı Politologiya və Sosial İdarəetmə İnstitutu ilə birlikdə, adətən beynəlxalq iştirakla, və demək olar ki, hər həftə keçirilirdi. Keçən əsrin 90-cı illərinin əvvəlində Assosiasiya Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun "Kulturologiya" kafedrası ilə birlikdə ilk dəfə olaraq, daimi fəaliyyət göstərən "Mədəniyyət və cəmiyyət" respublika elmi-praktik seminarını təşkil etdi ki, bu seminarın işində görkəmli Azərbaycan alimləri və xarici alimlər, mütəxəssislər, diplomatlar, din xadimləri, ictimaiyyət nümayəndələri, tələbələr iştirak edirdilər. İntellektual mədəniyyət sahəsində bu yeniliyin yaradılması milli kulturologiyanın təşəkkül tapmasında dəyərli töhfə oldu. O, respublikada, həm müstəqil Azərbaycan Respublikasının milli maraqlarına, həm də BMT və YUNESKO-nun himayəsi ilə keçirilən Mədəniyyətin inkişafının ümumdünya onilliyinin maraqlarına cavab verən xüsusi kulturoloji tədqiqatların, təhsil və maarifin inkişafına yardım edirdi.

Artıq ilk iş illərində Assosiasiya tərəfindən kulturologiyaya, mədəniyyət və sivilizasiya anlayışlarına, mədəni insan, dövlətçilik mədəniyyəti, idarəetmə mədəniyyəti, intellektual və etik mədəniyyət, Azərbaycan mədəniyyətinin tarixi, dünya sivilizasiyası tarixi, tibb mədəniyyətinə, həmçinin Almaniya, ABŞ, İraq və digər ölkələrin mədəniyyətlərinə həsr olunmuş elmi seminarlar keçirilirdi. "Mədəniyyət – tərəqqinin ilkin şərtidir" (17 mart 1993-cü il), "Mədəniyyət və təhsil" (30 aprel 1993-cü il), "Azərbaycanda musiqi mədəniyyəti problemləri" (14 sentyabr 1994-cü il), "Məktəblilərin estetik zövqünün və yaradıcılıq qabiliyyətlərinin inkişafı problemləri" (14 oktyabr 1994-cü il, İncəsənət Gimnaziyası ilə birlikdə), "Mədəniyyət və cəmiyyət: Azərbaycanda mədəniyyəti yeni nəzərlə görmə problemləri" (24 mart 1995-ci il), "Kulturologiya və mədəni siyasət" (4 noyabr 1995-ci il) və digər seminarlar da ciddi dərkedici və maarifçilik dəyərinə malik idi. 90-cı illərin əvvəllərindən – tarixin, dünya və milli mədəniyyətin nailiyyətləri və inkişaf qanunauyğunluqlarının, ictimai inkişafın əsası kimi mədəniyyətin mahiyyətinin sistemli öyrənilməsi, həmçinin respublikada demokratik təfəkkür və demokratiya mədəniyyətinin formalaşdırılması məqsədi olan onlarla belə respublika və beynəlxalq səviyyəli seminarlar təşkil edilmişdir.

Assosiasiyanın seminarları yalnız kulturoloji tədqiqatların inkişafına və elmi maarifçiliyə deyil, həm də milli inkişafa yardım etmək məqsədilə, döv-

lət institutları, qeyri-hökumət təşkilatları və siyasi partiyalarda təmsil olunan ziyalılar arasında açıq mədəni dialoqa və biliklər mübadiləsinə imkan verirdi. Onlar sosial kapital olan ruhi mədəniyyətin imkanlarının dərk edilməsinə, əcnəbi mütəxəssislər və diplomatlarla mədəni əməkdaşlığın inkişafına yardım edirdi. Tezliklə bu seminarlar Assosiasiyanın xeyirxah elmi ənənəsi və kütlələrin maarifləndirilməsi, beynəlxalq münasibətlərin inkişafı və Azərbaycan ziyalıları və tələbələrinin xarici nümayəndələr və mütəxəssislərlə dostluq əlaqələrinin möhkəmləndirilməsinin aşkar amili oldu.

Assosiasiyanın seminarlarında Azərbaycan alimləri və mütəxəssisləri ilə yanaşı, Azərbaycanda BMT-nin rezident-koordinasiyaçısı Paolo Lembo, Ümumdünya federalistlər Assosiasiyasının prezidenti, ABŞ-ın İllarion Universitetinin professoru Con Anderson, Azərbaycanda Norveç Krallığının fövqəladə və səlahiyyətli səfiri Olav Berstad, fövqəladə və səlahiyyətli səfirlər: Stenli Eskureydo (ABŞ), İbrahim-ət-Tayi (İraq), Eliezer Yotvat (İsrail), səfir müavinləri: doktor Yasper Vik (Almaniya), Altan Vural (Türkiyə), "Amoko"nun Baş meneceri Tim Hartnet, həmçinin Con Adams, Kurtis Conson, Maykl Spekhard, Con Vefay, Syuzen Kornel və bir çox digər xarici diplomatlar, alimlər və mütəxəssislər çıxış edirdilər.

Fəaliyyətinin lap əvvəlindən Assosiasiyanın ən mühüm vəzifələrindən biri – Bakıda "Azərbaycan mədəniyyəti XXI əsrin hüdudunda" Beynəlxalq konqresinin keçirilməsi idi. Belə bir konqress vasitəsilə, bir tərəfdən, xarici sosial-mədəni inkişaf təcrübəsini öyrənmək, digər tərəfdən – Azərbaycanın milli inkişafı üçün əlverişli xarici şəraitin formalaşmasına yardım edən görkəmli əcnəbi alimlər, incəsənət xadimləri və siyasi xadimlərin arasında mədəniyyətimizi təbliğ etməklə, bütün dünyada Azərbaycanın dostlarını qazanmaq idi. Konqresə hazırlıq məqsədilə, 26-27 may 1992-ci ildə "Simurq" AMA – BSİPİ (Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu), Milli Məclisin Təhsil, Elm, Din və Mədəniyyət üzrə Komissiyaları və onun Sosial-iqtisadi məsələlər üzrə şöbəsi ilə birlikdə "Azərbaycan mədəniyyəti XXI əsrin hüdudunda" Bakı kulturoloji kofransını keçirdi. Konfrans 28 May – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi gününə həsr olunmuşdur.

Konfransın məqsədi Azərbaycanın siyasi və iqtisadi əsası kimi mədəniyyətin rolunun aşkar edilməsi, bütün dövlət, sosial-iqtisadi və xalqın ictimai-siyasi həyat sahələrində mədəniyyətin primatının (birinciliyinin, üstünlüyünün) təsdiqi mexanizmləri yollarının müəyyən edilməsi və işlənib hazırlanması idi. Konfransda, mədəniyyətin bütöv sosial sistem kimi düzgün anlayışının zəruriliyi və insanın inkişafı və milli inkişafda kulturologiyanın əvəzsiz rolu ilk dəfə xüsusi olaraq qeyd edilmişdir.

Konfransın işində respublikanın görkəmli alimləri, müəllimləri, incəsənət xadimləri və ictimai xadimlər iştirak edirdilər. Ak. Kamal Talıbzadə, ak. Maqsud Əliyev, elmlər doktorları və professorlar – Fuad Məmmədov, Tamilla Musayeva, Nurəddin Həbibov, Əlikram Abdullayev, Nazim İmanov, Rafiq Əliyev, K. Əzimov, elmlər namizədləri – Abbas Vəliyev, Asif Rüstəmli və b. konfransda məruzə ilə çıxış etdilər. Alimlər öz çıxışlarında Azərbaycan xalqının mədəni irs dəyərləri, mütərəqqi ölkələrin sosial-mədəni inkişaf təcrübəsinin yaradıcı istifadəsinin zəruriliyi, xalqın ümumi mədəni səviyyəsinin yüksəldilməsi yollarının, milli mədəniyyətin gələcək inkişafının elmi tövsiyələri və proqnozlarının işlənib hazırlanması və s. kimi mühüm məsələlərə toxundular.

Konfrans iştirakçıları ölkədə milli tərəqqiyə yardım etmək çağırışı ilə Azərbaycan parlamenti, hökuməti və xalqına müraciət qəbul etdilər. Bununla bərabər, Ermənistanın Azərbaycana qarşı təcavüzünə obyektiv qiymət vermək xahişi ilə beynəlxalq təşkilatlara müraciət qəbul olundu. Konfransın sonunda "Azərbaycan mədəniyyəti əsrin hüdudunda: keçmiş, indiki zaman, gələcək" mövzusu üzrə "dəyirmi masa" təşkil edildi. Konfransın nəticələrinə görə "Azərbaycan mədəniyyəti XXI əsrin hüdudunda" məcmuəsinin hazırlanması və nəşri planlaşdırıldı.

13 may 1994-cü ildə "Simurq" AMA Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu, Milli Məclisin Təhsil Komitəsi və "Şell" Beynəlxalq kompaniyası ilə birlikdə "Mədəniyyət və Azərbaycanda bazar iqtisadiyyatının təşəkkülü" mövzusunda beynəlxalq konfrans keçirdi. Konfransın işində respublikada BMT-nin nümayəndəsi Paolo Lembo, "Amoko" neft fondunun nümayəndəsi Tim Hartnet, Azərbaycanda Birləşmiş Krallığın səfiri Tomas Yanq, Rusiya, Türkiyə və digər ölkə səfirliklərinin nümayəndələri, həmçinin alimlər və ali məktəb müəllimləri, ictimai təşkilatların rəhbərləri və KİV-lər iştirak edirdilər.

Respublika konfransları və seminarlarının keçirilməsi ilə yanaşı, Assosiasiyanın rəhbərləri, elmi biliklərin mübadiləsi və Azərbaycan elmi və mədəniyyəti nailiyyətlərinin təbliği məqsədilə, dövri surətdə xarici ölkələrə səfərlər edirdilər. 1991-1994-cü illərdə prof. Fuad Məmmədov, ak. M.İ. Əliyev və başqaları Birləşmiş Krallıq, İran, Kosta-Rikada və Rusiyada beynəlxalq konfranslarda və görüşlərdə çıxışlar etmişlər. Bu illər ərzində "Simurq" həmçinin, Türkiyə, İraq və digər ölkələrə görüşlər və konfranslarda çıxışlar üçün rəsmi dəvət alırdı. 1990-1991-ci illərdə Kosta-Rikada və Türkiyədə Assosiasiyanın prezidenti F.T. Məmmədovun, həmçinin 1994-cü ildə "Simurq"un birinci vitse-prezidenti M.İ. Əliyevin Birləş-

miş Krallığın universitetlərində və İrandakı çıxışları mühüm elmi və siyasi əhəmiyyət kəsb edirdi.

"Simurq" AMA-nın vitse-prezidenti ak. Asəf Nadirov bir sıra beynəlxalq görüşlərdə iştirak etmişdir ki, burada o, Azərbaycan mədəniyyəti haqqında bilikləri yaymış və xarici sosial-mədəni inkişaf təcrübəsini öyrənmiş, müxtəlif ölkələrin alimləri və mütəxəssisləri ilə faydalı mədəni əlaqələr qurmuşdur. 1992-ci ildə onun Təbriz Universitetindəki (İran) çıxışı mühüm əhəmiyyətə malik idi. 1993-cü ildə Ankaradakı çıxışının tezislərinin əsas məzmunu isə "Türk dövlətlərinin dostluğu və işgüzar əməkdaşlığı" qurultayının qərarına daxil edilmişdir.

Bu arada, Əlyazmalar İnstitutunun texniki tələbatları ilə əlaqədar, bir qədər vaxtdan sonra orada ayrılan yeri tərk etmək lazım gəldi. Assosiasiyanın fəaliyyətini qiymətləndirərək, 1992-ci ildə mesenat əsaslarla kiçik kommersiya təşkilatlarından biri onu öz ofisində yerləşdirdi, 1993-cü ildən isə prof. Oqtay Rəcəbovun dəstəyi sayəsində, Assosiasiya bir müddət İncəsənət Gimnaziyasında fəaliyyət göstərdi ki, burada ona iki otaq ayrılmışdır.

Respublikanın sosial-mədəni inkişaf maraqlarını nəzərə almaqla, BMT-nin davamlı insan inkişafı konsepsiyasına uyğun olaraq, 1993-1995-ci illərdə Azərbaycan vətəndaşlarının təhsilinin inkişafına yardım sahəsində ciddi iş görülürdü. "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının nəzdində Yeni və nadir ixtisaslar üzrə kadrların hazırlığı və yenidən hazırlığı Seminariyası yaradıldı ki, onun çərçivəsi daxilində "Şəfqət bacıları məktəbi" və "Menecment və biznes məktəbi" ixtisaslaşdırılmış kursları fəaliyyət göstərirdi. Seminariya, gələcəkdə Dünya mədəniyyəti Beynəlxalq Universitetinin nəzdində fəaliyyət göstərə biləcək Kulturologiya gimnaziyasının ilk pilləsi kimi nəzərdən keçirilirdi. Seminariyanın dinləyicilərində universal kulturoloji biliklərin formalaşdırılması məqsədilə, İncəsənət gimnaziyasının binasında və 20 saylı məktəbdə onlar üçün respublikada ilk dəfə olaraq, "Yerli və dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi" kursu oxunurdu. Seminariyanın yaradılması Assosiasiyanın - Mədəniyyət İnstitutunun reallaşdırılması və ölkədə insan potensialının formalaşırılmasına vətəndaş yardımı ideyalarına istiqamətlənmiş yaradıcı fəaliyyətinin ilk addımlarından biri oldu.

"Şəfqət bacıları məktəbi" və "Menecment və biznes məktəbi" kiçik müəssisə şəbəkələri və bazar iqtisadiyyatının digər strukturları üçün ailə tibb bacısı-ekoloq və paramediklərin (feldşerlərin), biznesmen və menecerlərin bir neçə buraxılışını uğurla həyata keçirmişlər. Burada həkimə qədərki ilkin tibbi yardım göstərilməsi sahəsində, həmçinin menecment, buxalter hesabı

və biznes sahəsində yeni biliklər əldə edən əllidən yuxarı məktəbli, tələbə və ali və orta təhsilli şəxslər hazırlıq keçirdilər. Bu iş təhsil, tibb və iqtisadiyyat departamentləri ilə birgə keçirilirdi.

Tibb departamenti çərçivəsində xüsusi proqram üzrə dosent Sevda Əlizadə, terapevt Səmən İtgin və reanimatoloq Gülnarə Ağayevanın ümumi rəhbərliyi ilə Toksikoloji Mərkəzin və 5 saylı Şəhər Doğum evinin bazasında "Şəfqət bacıları məktəbi"nin bir neçə buraxılışı müvəffəqiyyətlə həyata keçirildi. Azərbaycan əhalisinə həkimə qədərki ilkin tibbi yardım göstərilməsi məqsədilə, S.A. İtgin tərəfindən Bakı qəzetlərində "Təcili yardım gələnədək" ümumi rubrikası altında, respublika vətəndaşlarının sağlamlığı üçün son dərəcə vacib olan onlarla məqalə xüsusi olaraq hazırlanmış və dərc edilmişdir. S.R. Əlizadənin rəhbərlik etdiyi, Assosiasiyanın kollektiv üzvü olan 5 saylı Doğum evi bir neçə beynəlxalq tibbi təşkilatlar, o cümlədən ÜST (Ümumdünya Səhiyyə Təşkilatı), BMT Uşaq Fondu (UNİCEF), Uşaq sağlamlığı Beynəlxalq İnstitutu və digərləri ilə sıx əməkdaşlıq edirdi. Yüksək tibb mədəniyyətinə görə, 14 doğum evi arasındakı müsabiqənin nəticələri üzrə, bu müəssisə yapon hökuməti tərəfindən 2,5 mln. dollar dəyərində yenidən təchiz edilmə üçün seçilmişdir.[19]

Seminariyada yüksək səviyyədə elmi biliklərə və praktik vərdişlərə malik mütəxəssislərin hazırlanması üçün "Simurq" AMA, təlim prosesini bilavasitə müalicə klinikalarında, respublika Səhiyyə Nazirliyi Semaşko adına xəstəxananın Toksikologiya Mərkəzi və 5 saylı Doğum evində həyata keçirərək, əməkdaşlıq haqqında tibb müəssisələri ilə müqavilələr bağlayırdı. Belə yanaşma cəmiyyətdə insanların tibb mədəniyyətinin yüksəldilməsinə, tibbi biliklərin və həkimə qədərki ilkin tibbi yardım vərdişlərinin genişlənməsinə yardım edirdi. Tibb müəssisəsi əməkdaşlarının cəlb olunduğu "Şəfqət bacıları məktəbi" xüsusi kursları – əhalinin professional şəkildə tibblə bağlı olmayan geniş təbəqəsinə ekstremal şəraitlərdə ilkin tibbi yardım və qarşılıqlı yardım metodlarını, xəstələr, böyüklər və uşaqlara, yaralılar, əlillər

---

[19] Dosent S.R. Əlizadə (1996-cı ildən - "Simurq"AMA-nın tibb üzrə vitse-prezidenti) ana südü ilə qidalandırma məsələləri üzrə Milli koordinasiyaçı və perinatologiya məsələləri üzrə ÜST-nın koordinasiyaçısı idi. Bu sahədə onun xidmətləri Uşaq sağlamlığı Beynəlxalq İnstitutunun sertifikatı (Triyest – 1995-ci il), ÜST-nın sertifikatı (Kopenhagen – 1996-cı il), Uşaq sağlamlığı London İnstitutunun sertifikatı (London – 1996-cı il), həmçinin BMT-nin Uşaq Fondunun (UNİCEF) bir sıra sertifikatları ilə qeyd olunmuşdur. Eyni zamanda o, qadınların problemləri üzrə "Simurq" AMA-nın fəaliyyət koordinasiyasını həyata keçirmiş, Pekində Qadınların Ümumdünya konqresində (1995-ci il), Nyu-Yorkda BMT Sessiyasının işində (1996-cı il), Haaqada konfransda (1999-cu il), Pakistanda (1996-cı il) və Türkiyədə (1994-cü il) ailə planlaşdırılması məsələlərində iştirak etmişdir.

və hamilə qadınlara qulluğun əsaslarını öyrətməyi təmin etmək imkanını verirdi. Assosiasiya belə kulturoloji fəaliyyəti - Azərbaycan əhalisinin sosial müdafiəsi və sosial mobilliyinin yüksəldilməsinə yönəldilmiş mühüm ictimai təşəbbüs kimi nəzərdən keçirirdi.

Assosiasiya öz işində bina, avadanlıq və maliyyələşmədə kəskin ehtiyac duyurdu. ABŞ, Fransa və digər demokratik ölkələrin dünya dövlət idarəçiliyi praktikası göstərdi ki, yüksək intellektual potensiala malik və innovativ-kreativ missiya daşıyıcıları olan, milli maraqlara cavab verən qeyri-hökumət təşkilatlarına dövlət tərəfindən ciddi maddi-texniki dəstək göstərilir ki, onsuz mütərəqqi sosial-mədəni layihələri həyata keçirmək mümkün deyil. Bunu nəzərə alaraq, Assosiasiya 1993-cü ildə, Assosiasiyanın yaradıcı fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına yardım etmək xahişi ilə respublikanın dövlət katibi Lalə xanım Şövkətə məktubla müraciət etdi. Bu məktub sayəsində 1993-cü ilin payızında Assosiasiyanın rəhbərləri – tarix elmləri doktoru Fuad Məmmədov, ak. Maqsud Əliyev, ak. Asəf Nadirov, əməkdar incəsənət xadimi Arif Əziz, ilahiyyətçi Hacı Sabir Həsənli, prof. Rafiq Zeynalov, əməkdar elm işçisi Əli Rəcəbli və digərlərinin təmsil etdiyi nümayəndə heyətini dövlət katibi Hidayət Orucov qəbul etdi. "Simurq" AMA-nın missiyası, məqsədləri və işinin nəticələri ilə tanış olaraq, o, Assosiasiyanın yaradıcı fəaliyyətini yüksək qiymətləndirdi və ona dövlət səviyyəsində maliyyə yardımı göstərməyi vəd etdi.

Maddi-texniki çətinliklərə baxmayaraq, Assosiasiya nəzərdə tutulan plan və pqroqramları həyata keçirməyə çalışırdı. Fəaliyyətinin əsas istiqamətlərini nəzərə alaraq, Assosiasiya 90-cı illərin birinci yarısında BSİPİ (Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu) və Azərbaycan EA-nın Memarlıq və İncəsənət İnstitutu ilə birlikdə, respublikanın yaradıcı ziyalıları arasında maraq doğuran "Mədəniyyət və cəmiyyət" adlı iki elmi məcmuəni hazırladı və nəşr etdirdi. BSİPİ-nun kulturologiya kafedrası ilə birgə "Kulturologiya. Nəzəriyyə və tarix məsələləri" monoqrafiyasının hazırlığına başlandı. Monoqrafiyanı respublikanın ali məktəblərində tədris-metodiki vəsait kimi istifadə etmək planlaşdırılırdı.

Kiçik və orta sahibkarlıq mədəniyyətinin inkişafına yardım üçün "Simurq" AMA-nın İnformasiya və mətbuat departamentinin rəhbəri Firudin Əhmədov tərəfindən beş kitab hazırlandı və nəşr edildi: "Biznes mədəniyyəti", "İşgüzar danışıqların aparılması", Müqavilələrin bağlanması", "Qiymətqoyma", "Əməyin qiymətləndirilməsi metodikası", "Biznesdə partnyorluq". Firudin Əhmədov Azərbaycanda ABŞ səfirliyinin nəzdindəki Treninq-mərkəzdə BDU-nin kitabxana işçiləri və tələbələri üçün xüsusi kursların təşkil

edilməsi və keçirilməsində, həmçinin Azərbaycanda Soros Fondu tərəfindən təşkil edilmiş kitabxanaların avtomatlaşdırılması məsələləri üzrə bir neçə beynəlxalq konfranslar və seminarların işində iştirak etmişdir.

90-cı illərin əvvəllərində "Simurq" AMA-nın İnformasiya və mətbuat departamentinin işi ruhi mədəniyyətin inkişaf məsələləri və "Simurq" AMA-nın fəaliyyəti üzrə çoxsaylı nəşrlərə, televiziya və radio çıxışlarına səbəb oldu. Bu fəaliyyət mətn və fotomateriallar şəklində İnternetdə geniş surətdə işıqlandırılırdı. Departament xarici və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, müasir kitabxana işi stilinin tətbiqi üzrə proqramların işlənib hazırlanmasında fəal iştirak edirdi. "Simurq" AMA-nın İnformasiya və mətbuat departamentinin mütəxəssisi Aydın Kazımzadə ABŞ-dan olan kolleqaları ilə aktiv mədəni əməkdaşlıq nəticəsində, informasiya mədəniyyətinin inkişafı sahəsində, əsasən informasiya texnologiyalarının, kompüter texnikasının mənimsənilməsi və bu biliklərin Azərbaycanın ali məktəblərində yayılmasının beynəlxalq tanınmasına nail oldu. Bu sahədə onun xidmətləri 2000-ci ilin aprelində beş beynəlxalq sertifikatla qeyd olunmuşdur. Departamentin üzvü Səbinə Qafarova tərəfindən İnternetdə "Simurq" AMA-nın veb-saytının yaradılması üzrə çox mühüm və faydalı iş görüldü. "Azərveb"də Assosiasiyanın informasiya səhifəsi Assosiasiyanın fəaliyyətinin bir sıra əsas mərhələlərini əks etdirən maraqlı mətn materialları və foto-qalereyadan ibarət idi.

Seminarların təşkili, Assosiasiya üzvlərinin qəbulu, materialların nəşrə hazırlanması, Assosiasiyanın Seminariyasının məhsuldar fəaliyyətinin təşkili üzrə böyük iş - "Simurq" AMA rəyasət heyətinin məsul katibi Valeri Əfəndiyev tərəfindən yerinə yetirilirdi. Sonradan o, Almaniyaya mühacirət edərək, bu Avropa ölkəsində "Simurq" AMA-nın nümayəndəsi oldu ki, burada o, bugünədək Azərbaycan mədəniyyət tarixini fəal surətdə təbliğ edir, Şverin şəhərində "Kontakt" qəzetində, qəzetin şef-redaktoru qismində, Azərbaycan–alman əlaqələri haqqında maraqlı məqalələr dərc etdirir.

Assosiasiyanın mütəxəssisləri milli mədəniyyətin modernləşməsinə yönəldilmiş innovativ kulturoloji işləmələrə ciddi diqqət ayırırdı. Məlum olduğu kimi, proqramlar və planlar, normativ aktlar və idarəçilik qərarları ilə yanaşı idarəetmə mədəniyyətinin vacib forması – cəmiyyətin və dövlətin aktual ideoloji, dəyər, metodoloji və inkişaf məsələlərinə ekspertlərin baxış sistemini ifadə edən konsepsiyaların işlənib hazırlanmasıdır. Burada insanın inkişaf problemini görməyə - həm taktik, həm də strateji xarakterli həyat qabiliyyətli konsepsiyaları işləyib hazırlamağa imkan verən sistemli kulturoloji yanaşma xüsusi dəyərə malikdir.

Dünya mədəniyyəti və sivilizasiyasının tarixi inkişaf təcrübəsinə əsaslanaraq, Assosiasiya dövlət quruculuğu proseslərinin təkmilləşdirilməsində, mədəniyyət sahəsində daxili və xarici siyasətin formalaşdırılmasında hökümətə yardıma yönəldilmiş kulturoloji konsepsiyaların və layihələrin işlənib hazırlanmasını həyata keçirirdi. Azərbaycan cəmiyyətinin maraqları və tələbatlarını nəzərə alaraq, artıq öz fəaliyyətinin ilk beş ilində Assosiasiyanın ekspertləri tərəfindən dünyanın sivil xalqlarının mədəni inkişaf təcrübəsi və tendensiyalarını əks etdirən on kulturoloji konsepsiya işlənib hazırlanmış və uyğun hökumət orqanlarına təqdim edilmiş, qismən tədris prosesinə və praktik fəaliyyətə tətbiq edilmişdir. Onların arasında: "Azərbaycanda yeni demokratik mədəniyyətin formalaşmasına doğru", "Azərbaycanda demokratik cəmiyyət və hüquqi dövlət qurulmasına yardım haqqında" kimi konsepsiyaları, Bakıda "Azərbaycan mədəniyyəti XXI əsrin hüdudunda" ilk Beynəlxalq konqressin keçirilməsi konsepsiyasını, "Simurq" Dünya mədəniyyəti Beynəlxalq Universitetinin konsepsiyasını və ruhi mədəniyyət və "ruhi istehsal" sahəsində təhsil və tərbiyənin, elm və elmi maarifçiliyin qabaqlayıcı inkişafını, mədəniyyət sahəsində insanın inkişaf prioritetlərinə yönəldilmiş yeni dövlət siyasətinin formalaşmasını təmin etmək iqtidarında olan mütərəqqi islahatlara yönəldilmiş digər konsepsiyaları qeyd etmək lazımdır.[20]

Bu konsepsiyaların öyrənilməsi təsdiqləyir ki, onların hamısı milli mədəniyyətin inkişafında, Azərbaycan Respublikasının rifahı, rəqabət qabiliyyəti və təhlükəsizliyinin artırılmasında hökumətə vətəndaş yardımı vətənpərvərlik məqsədləri ilə səfərbər edilmişdir. Assosiasiya əmin idi ki, bu ciddi layihələrin hələ yalnız ikisinin – Dünya mədəniyyəti Beynəlxalq Universiteti və Azərbaycan mədəniyyəti üzrə Beynəlxalq konqressin reallaşdırılması, - Azərbaycan cəmiyyətinin intellektual-ruhi inkişafına güclü təkan verəcək və Azərbaycanda sosial-mədəni tərəqqiyə nail olmaqda yeni mühüm mərhələni qeyd edəcəkdir. Məsələn, ilk Beynəlxalq konqressin "Azərbaycan mədəniyyəti XXI əsrin hüdudunda" konsepsiyası - Azərbaycanın qədim və zəngin mədəniyyəti haqqında konkret biliklərin əcnəbi mütəxəssislər və qonaqlar arasında həm yayılmasını, həm də milli inkişaf maraqlarında praktik istifadə üçün sivil ölkələrin inkişaf təcrübəsinin öyrənilməsini nəzərdə tuturdu. Konqressin işinə müxtəlif ölkələrin alimləri və mütəxəssislərinin, dövlət və din xadimlərinin, təhsil, incəsənət, iqtisadçı və sahibkarların

[20] Fuad Məmmədov. Kulturologiya effektiv həyat fəaliyyətinə doğru yol kimi". Bakı, 2006, səh. 253-261.

geniş dairəsinin cəlb olunması Azərbaycana, ölkənin dövlət müstəqilliyinə doğru yolun hələ lap əvvəlində ciddi siyasi, iqtisadi və sosial-mədəni dividendlər gətirməli idi.

Yaradıcılığının innovativ texnoloji instrumentləri və özünün mütərəqqi elmi və ictimai-faydalı ideyalarını yaymaq vasitəsi qismində Assosiasiya: "Mədəniyyət və cəmiyyət" daimi fəaliyyət göstərən seminar və Seminariyadan istifadə edirdi. O həmçinin, kulturologiya sahəsində özünün elmi tədqiqatlarının nəticələrini jurnallarda və elmi məcmuələrdə müntəzəm surətdə dərc etdirir, respublika qəzetləri, televiziya, radio və digər elmi-maarifçilik formaları vasitəsilə Azərbaycan cəmiyyətində universal kulturoloji bilikləri yayırdı.

Lakin "Simurq" AMA-nın strateji məqsədi – kulturologiya elmi, təhsili və maarifinin inkişaf prosesinə, istehsal, xarici iqtisadi fəaliyyət, informasiya, ekologiya, dövlət quruculuğu və idarəçiliyi, beynəlxalq münasibətlər kimi sahələri daxil etməklə, ruhi və maddi mədəniyyətin müxtəlif sahələri üçün ekspert-kulturoloqların hazırlanmasına yardım etməyə qadir olan kulturoloji elmi-maarifləndirici mərkəzin açılması idi. Azərbaycanda belə bir mərkəzin açılması ilə respublikada kulturologiya sahəsində bütün tədqiqat, təhsil və maarifçilik işini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq, milli inkişaf prosesləri üçün onun nəticəsi və praktik əhəmiyyətini, həmçinin mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın effektivliyini yüksəltmək nəzərdə tutulurdu. Buna görə də respublika həyatının siyasi, mədəni və sosial-iqtisadi obyektiv tələbatlarını nəzərə alaraq, dünya sivilizasiyasının dəyişiklikləri və trendlərini hesaba almaqla, 1993-1994-cü illərdə Mədəniyyət və İnkişaf İnstitutunun ilkin modeli əsasında tərəfimizdən – Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin (DMBU) yeni layihəsi işlənib hazırlandı ki, bu layihənin üzərində ətraflı dayanmağa dəyər.

1994-cü ilin payızı və 1995-ci ilin qışında Assosiasiya Universitetin yaradılması məqsədilə konsultativ proses, və alimlər, mütəxəssislər və diplomatlarla çoxsaylı görüşlər keçirdi. Universitetin layihəsi yüzdən artıq hüquqi və fiziki şəxsin dəstəyini qazandı. BMT-nin Azərbaycandakı rezident-koordinasiyaçısı, cənab Paolo Lembo, səfirlər: Valter Şoniya (Rusiya), Tomas Yanq (Böyük Britaniya), Mixael Şmunk (Almaniya), Eliezer Yotvatt (İsrail), Fərrux əl-Həvari (Misir), nümayəndələr: Dominik Şarpontye (Avropa Şurası), Mete Durdaq (Beynəlxalq Valyuta Fondu), Per Yohan Ulvevadet ("Şell İnterneşnl" kompaniyası), həmçinin respublikanın onlarla elmi müəssisə və dövlət ali məktəbləri, tibbi və dini təşkilatlar, yaradıcı ittifaqlar və muzeylər, nazirliklər, aparıcı qəzetlər, Milli Məclis komissiyalarının rəhbər-

ləri tərəfindən ona yüksək qiymət verilmişdi.

Müzakirələrin gedişində DMBU-nin layihəsi bir çox ekspertlər tərəfindən dünya sivilizasiyasının subyekti kimi, respublikanın sosial-mədəni inkişaf tempini tezləşdirməyə qadir ola biləcək innovativ metod olaraq qiymətləndirildi. Universitetdə Azərbaycan Respublikasının inkişaf tələblərinə və sivil beynəlxalq ictimaiyyətin maraqlarına cavab verən, universal bilikli və professional vərdişli ekspertlərin kulturoloji hazırlığı nəzərdə tutulurdu. Universitetin layihəsində beş əsas fakültənin təməli qoyulmuşdur: kulturologiya və beynəlxalq münasibətlər; beynəlxalq hüquq və idarəetmə; insanın və təbiətin ekologiyası; dünya iqtisadiyyatı və beynəlxalq ticarət; informasiya texnologiyaları və beynəlxalq jurnalistika. Əlavə fakültələr qismində: qeyri-hökumət təşkilatları liderlərinin hazırlanması fakültəsi və müxtəlif profilli mövcud mütəxəssislərə universal kulturoloji biliklərin ötürülməsi sayəsində respublikanın insan və sosial kapitalının inkişafına yardım edən ikinci kulturoloji təhsil fakultəsi nəzərdə tutulmuşdur. Beynəlxalq mədəni mübadilə məqsədilə, universitetin təsis edilməsi dövründə onun nəzdində Birləşmiş Krallıq, Rusiya, Almaniya, İsrail və digər sivil ölkələrin aparıcı universitetlərinin nümayəndəliklərinin müvəqqəti açılışı da nəzərdə tutulmuşdur.

Assosiasiyanın rəhbərliyi Azərbaycanda BMT-nin İnkişaf proqramının nümayəndəsinə universitetin Qəyyumluq Şurasına rəhbərlik etmək xahişi ilə müraciət etdi. Azərbaycanda BMT-nin İnkişaf proqramının nümayəndəsi Paolo Lembonun "Simurq" AMA-nın prezidenti, prof. Fuad Məmmədovun adına ünvanlanan 15 fevral 1995-ci il tarixli, UN/BK/95/7025/PL/ji məktubunda qeyd olunurdu: "Sizin "Simurq" Beynəlxalq Universitetinin Qəyyumluq Şurasına rəhbərlik etmək təklifinizi qəbul etməyi böyük şərəf hesab edirəm. Mən onu iki səbəb üzündən qəbul edirəm: birincisi, bu dəyərli təşəbbüsün yüksək mədəni və akademik səviyyəsinə görə; ikincisi, ona görə ki, bu universitet BMT Nizamnaməsi prinsiplərinin və YUNESKO-nun himayəsi altında keçirilən Mədəniyyətin inkişafının Ümumdünya Onilliyi ideyalarının təsiri altında yaradılır. Mən bu növ ali məktəb müəssisəsinin yaradılmasına yardım etməyə çox şadam. O, şübhəsiz, bir zaman bu ölkəni möhtəşəm edən və ona keçmiş incəsənət, elm və sivilizasiya beşiyi şöhrətini qaytaran əsl Azərbaycan mədəniyyəti dəyərlərini bərpa edəcəkdir. Öz səylərimi ümumi işdə birləşdirərək, Sizə, bu vacib təşəbbüsün bir hissəsi olmaq şərəfinə nail olmuş dostlarımıza və kolleqalarımıza ən xoş arzularımı bildirirəm".

Azərbaycanın keçmiş təhsil naziri, sovet dövrünün tanınmış dövlət və siyasi xadimi Qurban Əliyev yazırdı: "Bakıda Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin yaradılması qərarı çox vaxtındadır və dəstəklənməyə la-

yiqdir. Respublikada belə universitetin olması, beynəlxalq tələblərə cavab verən, gələcəkdə daxili siyasət və beynəlxalq münasibətlər sahəsində ideologiyanın formalaşdırılmasında respublika rəhbərliyinə yardım edə biləcək yüksək səviyyəli mütəxəssislər hazırlamağa imkan verəcəkdir. Bununla əlaqədar olaraq, bu ideyanın həyata keçirilməsinə öz təcrübəmlə yardım etmək üçün Konsultativ Şuranın işində iştirak etməyi arzulayıram".

Azərbaycan Respublikası gənclər və idman naziri Əbülfəs Qarayevin məktubunda qeyd olunurdu: "Müasir müstəqil inkişaf şəraitində respublika, xüsusən mədəniyyət sahəsində, beynəlxalq tələblərə cavab verən yüksək ixtisaslı kadrlara kəskin ehtiyac duyur. Bununla əlaqədar olaraq, Bakıda Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin yaradılması haqqında Azərbaycan Mədəniyyət Assosiasiyasının vaxtında qaldırılmış təşəbbüsü dünya mədəniyyətinin inkişaf qanunauyğunluqlarının dərindən öyrənilməsi, kulturologiya sahəsində dünyanın aparıcı ölkələrinin konkret təcrübələrinin öyrənilməsi əsasında yüksək ixtisaslı mütəxəssislər hazırlamağa imkan verəcəkdir. Universitetin Qəyyumluq Şurasının tərkibinə daxil edilmək təklifinə görə təşəkkürümü bildirirəm, burada iştirakı özümün vətənpərvərlik borcum hesab edirəm".

Universitetin çoxdan gözlənilən təsis iclası, Azərbaycanda BMT nümayəndəliyinin dəstəyi ilə, 10 mart 1995-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda oldu. Onun yaradılması "Simurq" AMA-nın və respublikanın mütərəqqi ictimaiyyətinin həyatında tarixi hadisə oldu. BMT-nin Azərbaycandakı nümayəndəsi Paolo Lembo, Böyük Britaniyanın səfiri Tomas Yanq, İsrailin səfiri Eliezer Yotvatt, Rusiya səfiri Valter Şoniya, "Simurq" AMA- nın vitse-prezidentləri, akademiklər – Maqsud Əliyev və Asəf Nadirov, keçmiş təhsil naziri Qurban Əliyev, ak. Afrand Daşdəmirov, AMEA-nın Tarix İnstitutunun direktoru, ak. İqrar Əliyev, Memarlıq və İncəsənət İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Kərim Kərimov, Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Ağamusa Axundov, BSİPİ-nun rektoru, prof. Rafiq Zeynalov, Bakı Musiqi Akademiyasının rektoru, prof. Fərhad Bədəlbəyli, professorlar – Rafiq Əliyev, İsrail Əfəndiyev, Akif Bayramov, Eldar Qorin, diplomatlar – Rəsul Məlikov, Vəhdət Sultanzadə, ADMİU-nin prorektoru, dosent Aslan Sultanov, İncəsənət Gimnaziyasının direktoru, bəstəkar Oqtay Rəcəbov, din xadimləri – Leonid Miltıx, Boris Vaynqolts və başqaları iclasda iştirak edirdilər.

"Simurq" Universitetinin Konsultativ Şurasına, ciddi intellektual potensialı təmsil edən görkəmli Azərbaycan alimləri və mütəxəssisləri, həmçinin təcrübəli xarici diplomatlar və menecerlər, o cümlədən, keçmiş təhsil naziri Qurban Əliyev, akademiklər - Maqsud Əliyev, Asəf Nadirov, İqrar Əliyev, Kə-

rim Kərimov və bir çox elmi müəssisələr, ali məktəblər, yaradıcı ittifaqların və muzeylərin, tibb və dini təşkilatların rəhbərləri, respublika nazirlikləri və idarələrinin nümayəndələri daxil idilər.

Universitetinin Qəyyumluq Şurasının tərkibinə gənclər və idman naziri Əbülfəs Qarayev, iqtisadiyyat naziri Səməd Sadıqov, maliyyə naziri Fikrət Yusifov, mətbuat və informasiya nazirinin müavini Rafael Məmmədov, "Xəzər" Beynəlxalq Fondunun prezidenti Rəhim Hüseynov, həmçinin xarici dövlətlərin səfirləri və beynəlxalq təşkilatların nümayəndələri daxil idilər. Qəyyumluq Şurasının sədri BMT-nin Azərbaycandakı nümayəndəsi, BMT tərəfindən universitetin təsis edilməsinin maliyyə vəsaitinə yardım etməyi vəd edən Paolo Lembo seçildi. Universitetin rektoru kimi layihə müəllifi, prof. Fuad Məmmədov təsdiqləndi.

Azərbaycanın dünya sivilizasiyasına sürətli inteqrasiyasına yardım edən innovativ layihə kimi, universitetin yaradılmasına böyük əhəmiyyət verən "Simurq" Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin Qəyyumluq və Konsultativ şuralarının üzvləri 10 mart 1995-ci il tarixli birgə qərarda aşağıdakıları qeyd etdilər:

1. "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının təşəbbüsünü dəstəkləmək və BMT Nizamnaməsi prinsiplərinin və YUNESKO-nun himayəsi altında keçirilən Mədəniyyətin inkişafının Ümumdünya Onilliyi ideyalarının təsiri altında təşkil edilmiş, Bakıda ilk Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin yaradılmasını bəyənmək. BMT-nin Azərbaycandakı nümayəndəliyinin "Simurq" Universitetinin təşkili və inkişafına yardım edəcəyini nəzərə almaq.

2. Universitet tərəfindən qoyulmuş ikiqat vəzifənin: dünya mədəniyyətinin bir hissəsi kimi, Azərbaycan xalqının mədəni irsinin tədqiqi, qorunması, inkişafı və yayılmasının və sivil xalqların sosial-mədəni təcrübəsinin öyrənilməsi və Azərbaycanın dövlət quruculuğunda onun yaradıcı istifadəsinin mühüm kulturoloji və akademik əhəmiyyətini xüsusi qeyd etmək.

3. Azərbaycanda demokratik cəmiyyətin qurulması tələblərinə və beynəlxalq sivil cəmiyyətin maraqlarına cavab verən universal bilikli və professional vərdişli mütəxəssislərin geniş kulturoloji hazırlığını həyata keçirməyə qadir olan, keyfiyyətcə yeni tipli ali məktəb müəssisəsi kimi, "Simurq" Universitetinin formalaşması və inkişafında mümkün olan maddi-texniki, maliyyə, intellektual yardım və mənəvi dəstək göstərmək.

4. Beynəlxalq professor-müəllim kollektivinin formalaşmasın-

da, beynəlxalq tələblərə cavab verən tədris-metodiki ədəbiyyatın və elmi tədqiqat proqramlarının işlənib hazırlanmasında, aparıcı xarici tədris müəssisələri və beynəlxalq təşkilatlarla əlaqələrin qurulması və inkişaf etdirilməsində "Simurq" Universitetinə lazımı yardım göstərmək.

5. "Simurq" Universiteti çərçivəsi daxilində Rusiya, Böyük Britaniya, Almaniya, İsrail və dünyanın digər sivil ölkələrinin aparıcı universitetlərinin filiallarının açılması haqqında rektorluğun təklifini dəstəkləmək və bu işə yardım etmək.

6. Azərbaycanda sosial-mədəni tərəqqiyə yardım etmək iqtidarında olan yeni tədris-elmi-maarifçilik mərkəzi kimi, "Simurq" Universitetinə daha əlverişli şəraitin yaradılması barədə Respublika hökumətindən xahiş etmək.

Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin təsis edilməsi haqqındakı qərarı 107 görkəmli dövlət və ictimai xadim, alim, mütəxəssis, müəllim, incəsənət xadimləri, yaradıcı və beynəlxalq təşkilatların rəhbərləri, Azərbaycan və xarici diplomatlar imzalamışlar. Bunlar, AMEA-nın akademikləri və müxbir üzvləri: Asəf Nadirov, Maqsud Əliyev, Ağamusa Axundov, Budaq Budaqov, Teymur Bünyadov, Afrand Daşdəmirov, Kamal Talıbzadə, İsmayıl İbrahimov, Ağasəlim Ələsgərov, Sərvər Aslanov,Teymur Vəliyev, Qədir Sultanov, Yaşar Qarayev, Rəna Məmmədova, Zemfira Verdiyeva; professorlar: Camo Hacınski, Yaqub Mahmudov, Davud Axundov, Tamilla Musayeva, Rəhim Sultanov, Rauf Hüseynov, Arif Əzizov, Rafiq Rəcəbov, Elmira Süleymanova, Rafiq Əliyev, Eldar Qorin; din xadimləri: Hacı Sabir Həsənli, Leonid Miltıx, Boris Vaynqoltsdur. Qərarı imzalayanlar arasında BMT-nin, xarici səfirliklər və beynəlxalq təşkilatların nümayəndələri: Paolo Lembo, Tomas Yanq, Mixael Şmunk, Valter Şoniya, Eliezer Yotvatt, Fərrux əl-Həvari, Per Yohan Ulvevadet, Dominik Şarpontye, Tim Hartnet, Mete Durdaq; Prezident Administrasiyası və Nazirlər Kabinetinin məsul işçiləri: Dilarə Seyidzadə və Rəna İbrahimbəyova; Milli Məclisin məsul işçiləri: Şirin Hacıkərimov, Adilə Abbasova, Gülnarə Qurbanova; Azərbaycan XİN–nin məsul işçiləri: xüsusi tapşırıqlar üzrə səfirlər - Rəsul Məlikov və Ramiz Abutalıbov, XİN-nin idarə rəisləri: Vexted Sultanzadə və İlqar Qurbanov; nazirlik və idarə rəhbərləri: Nazirlər Kabineti sədrinin müavini Səməd Sadıqov, keçmiş təhsil naziri Qurban Əliyev, gənclər və idman naziri Əbülfəs Qarayev, maliyyə naziri Fikrət Yusifov, mətbuat və informasiya naziri Rafael Məmmədov, təhsil nazirinin müavini Rza Zülfüqarzadə, ekologiya və ətraf mühitin qorunması üzrə DK-nin sədri Arif Mansurov, MSK sədri Cəfər Vəliyev; AMEA-nın vitse-prezidenti, ak. Mitət Abbasov; respublika elmi və tibb müəssisələrinin direk-

torları: akademiklər və professorlar – İqrar Əliyev, Kərim Kərimov, Ağamusa Axundov, Əbdülqafur Zərgərov, Qara Əhmədov, Sofiq Hüseynov, Cəmil Əliyev, Oqtay Şirəliyev; ali məktəblər və tibb müəssisələrinin rektorları və prorektorları: professorlar - Rafiq Zeynalov, Fərhad Bədəlbəyli, Qorxmaz Quliyev, Ramiz Məmmədzadə, Timuçin Əfəndiyev, Teymur Vəliyev, İsrail Əfəndiyev, Aslan Sultanov, Arif Əzizov, F. Hüseynov, Rafiq Məmmədhəsənov, Oqtay Seyidbəyov; incəsənət xadimləri, yaradıcı təşkilatların rəhbərləri: Azərbaycan Bəstəkarlar İttifaqının sədri, bəstəkar Tofiq Quliyev, Azərbaycan Yazıçılar İttifaqının sədri, yazıçı Anar Rzayev, "Dostluq" Cəmiyyətinin sədri, şair Nəbi Xəzri, Mədəniyyət Fondunun sədri, professor Kamal Abdulla, Memarlar İttifaqının sədri, memar İlham Əliyev, Ramiz Mustafayev adına İncəsənət Muzeyinin direktoru, heykəltəraş İbrahim Zeynalov, rejissorlar – Oqtay Mirqasımov, Ayaz Salayev və başqaları var idi.

Bakı "Simurq" Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin konsepsiyası və strukturunun işlənib hazırlanması, onun yaradılması haqqında kollektiv qərarın qəbul edilməsi – Assosiasiyanın işinin ilk beş ili ərzində onun yaradıcı fəaliyyətinin ən əhəmiyyətli nəticəsi idi. Universitetin təsis edilməsi respublikanın mədəni həyatında, Azərbaycanda sivil ölkələrin standartlarına cavab verən rifahın və həyat keyfiyyətinin yüksəldilməsi üçün yeni imkanlar açan mühüm və əlamətdar hadisə oldu. O yalnız Assosiasiyanın məhsuldar işini göstərmədi, həm də milli təhsilin və kulturologiya elminin səviyyəsini dünya standartları səviyyəsinə qaldırmaq yolu ilə ölkənin mütərəqqi inkişafına xidmət etməyə səy göstərən respublikanın aparıcı ziyalı nümayəndələri üçün fəxr və ümid predmeti oldu.

Təəssüf ki, Azərbaycan ziyalılarının xarici diplomatlar və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən innovativ birgə qərarını həyata keçirmək mümkün olmadı. Hətta BMT-nin Azərbaycandakı nümayəndəsi, Azərbaycan mədəniyyəti və təhsilinin inkişafında xoş məram nümayiş etdirən Paolo Lemboya belə, universitetə Dünya Mədəniyyəti Beynəlxalq Universiteti dövlət akkreditasiyasını (etimadnaməsini) təqdim etmək istəməyən bəzi Azərbaycan məmurlarının başa düşməməsi və ya istəməməsini aradan qaldırmaq müyəssər olmadı. Öz tərəfindən, universitet təsis edildikdən sonra Assosiasiyanın rəhbərliyi, 17 oktyabr 1995-ci il 415 №-li məktubu ilə təhsil naziri L.H. Rəsulovaya onun yaradılmasına dəstək göstərmək xahişi ilə müraciət etdi. Lakin təəssüf ki, "Simurq" AMA-nın təşəbbüsü nazirlik rəhbərliyinin diqqət mərkəzindən kənarda qaldı. Respublikanın qeyri-hökumət ali məktəblərinin akkreditasiyası üzrə Komissiyanın sədri Fərəməz Maqsudova müraciət də anlaşılma və dəstəklə qarşılanmadı. Respublika hökuməti tərəfindən dəstəyin və uyğun

maddi-texniki şəraitin olmaması səbəbindən, universitetin fəaliyyəti qeyri-müəyyən vaxtadək dayandırıldı.

Bütün çətinliklərə baxmayaraq, üzvlərinin peşəkarlığı və vətənpərvərlik təşəbbüsü sayəsində, "Simurq" AMA özünün innovativ planları və layihələrini həyata keçirməyə çalışaraq, respublikada məqsədyönlü elmi-tədqiqat, təhsil və maarifçilik fəaliyyətini davam etdirirdi.

Birinci qurultaydan sonrakı dövr ərzində Assosiasiyanın işinin müsbət nəticələrindən biri – respublikada ruhi mədəniyyətin inkişafı üçün əlverişli sosial mühitin formalaşdırılmasına onun töhfəsi idi. Milli mədəniyyətə üstünlük verərək, Assosiasiya ona əsaslanırdı ki, xalqın yüksək rifah səviyyəsi olan ölkə - yüksək və dinamik mədəniyyətli, insanın digər insanlarla, cəmiyyətlə qarşılıqlı əlaqədə olaraq, özünün əqli və fiziki qabiliyyətlərinin inkişafı prosesində əldə etdiyi keyfiyyətə malik ölkədir. Ruhi mədəniyyətin başlıca hərəkətverici qüvvəsi və inkişaf təməli "ruhi istehsal" sistemidir və ilk növbədə, elm, təhsil və maarifdir ki, onun səviyyəsi və keyfiyyətindən sosial-iqtisadi inkişaf uğuru birbaşa asılıdır. Bunu nəzərə alaraq, "Simurq" AMA-nın üzvlərinin inamına görə, milli və xarici mədəniyyətin inkişaf tarixi və nəzəriyyəsini, onun nailiyyətləri, texnologiyaları, qanunauyğunluqları və dəyişdirici imkanlarını fərdi və ictimai səviyyədə öyrənmək Azərbaycan Respublikası üçün xüsusi əhəmiyyət kəsb edirdi.

Yuxarıda qeyd olunduğu kimi, kulturologiya sahəsində Assosiasiyanın elmi və elmi-maarifçilik fəaliyyəti əsasən, mədəniyyətin üstqurum kateqoriyası haqqında, milli inkişafın başlıca amili olan ruhi mədəniyyətin aparıcı rolunun lazımınca qiymətləndirilməməsinə səbəb olan sovet təfəkkürü və təsəvvürləri stereotiplərinin aradan qaldırılmasının zəruriliyi ilə diqtə edilmişdir. Respublikanın əsas həyat fəaliyyəti sahələrində praktik iş, əvvəlki kimi, mədəniyyətin "üstqurum təzahürü" və başlıca olaraq, incəsənət və etika sahəsi kimi köhnə, adi anlamında qurulurdu. Bunun nəticəsində elmi-nəzəri, ideoloji, istehsal və maarifçilik problemlərinin bütöv bir sırası diqqət mərkəzindən kənarda qalırdı ki, bunlar olmadan, mədəniyyət sahəsindəki fəaliyyət, keçid dövründə Azərbaycan Respublikasının ən zəruri sosial-iqtisadi və siyasi inkişaf tələbatlarından ayrılmış halda ötüb keçirdi.

90-cı illərin əvvəllərində, bütövlükdə cəmiyyətdə olduğu kimi, hakimiyyətin yuxarı eşelonlarında da mədəniyyət haqqında qalıq məbləğlər prinsipi üzrə maliyyələşən "iqtisadiyyatın üstqurumu" kimi sovet təsəvvürləri hələ də dominantlıq edirdi. İqtisadiyyatın, mahiyyət etibarilə, proses və "ruhi istehsal" məhsullarının maddi təcəssümünün, elmin nailiyyətləri və elmi biliklər əsasında işlənib hazırlanmış texnologiyaların, insan kapitalı və resurslarının idarə

edilməsinin nəticəsi olduğu kulturoloji reallıq nəzərə alınmırdı. İnsan kapitalının başlıca dəyərinin fiziki qüvvə deyil, insanların, elm və təhsilin qabaqlayıcı inkişafı ilə şərtlənən intellektual mədəniyyətinin olması haqqında kulturoloji anlayış yox idi. Bu səbəbdən mədəniyyət, əvvəlkitək, əsasən - incəsənət, dil, ədəbiyyat, mədəni irs, etika normaları kimi dar anlamda qavranılırdı ki, bu lazım idi, lakin cəmiyyətin dinamik inkişafı və rifahının yüksəlməsi üçün kifayət deyildi. Təəssüf ki, mədəniyyətin dar anlamı siyasi həyatda, dövlət idarəçiliyində, parlament, mədəniyyət nazirliyi və respublikanın icra orqanlarının struktur təşkilində, tədris prosesinin təşkili və KİV-lərdə çox zaman çıxış nöqtəsi olurdu. Buna görə də bu və sonrakı dövrdə Assosiasiyasının başlıca məqsədlərindən biri – bütöv sosial sistem kimi mədəniyyətin düzgün, elmi anlamının, eyni zamanda fərdi və milli inkişaf üçün onun böyük dəyişdirici imkanlarının cəmiyyətdə yayılmasına yardım etmək idi. Hər şeydən əvvəl, "Simurq" AMA məhz buna əsaslanaraq, əhalinin ümumi mədəni səviyyəsinin daim artırılmasına, universal elmi biliklərin, professional vərdişlərin, mütəşəkkillik və mənəviyyat səviyyəsinə malik, yüksək mədəniyyət, humanizm və vətənpərvərlik daşıyıcısı olan yeni insanın hazırlanması və tərbiyə edilməsinə nail olmağa çalışırdı.

Assosiasiyanın Azərbaycanda maarifçiliyə və sosial-mədəni tərəqqiyə yardıma yönəldilmiş nəcib fədakar fəaliyyəti, təşkilatın könüllü üzvlərinin sayının artmasına səbəb olurdu. 1996-cı ilin əvvəlində təhsil, elm, incəsənət, tibb və mədəniyyətin digər sahələrinin inkişafına, həmçinin beynəlxalq mədəni əməkdaşlığın inkişafına yönəldilmiş birgə fəaliyyət məqsədilə, Assosiasiya könüllü əsaslarla 30-a yaxın kollektiv və yüzlərlə fərdi üzvləri öz sıralarında birləşdirirdi. "Simurq" AMA-nın təsisçiləri və kollektiv üzvləri arasında - Elmlər Akademiyası, Azərbaycan Alimlər İttifaqı, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Neft Akademiyası, Memarlar İttifaqı, Mətbuat və İnformasiya Nazirliyi, Mədəniyyət Fondu, Gənclər və İdman Nazirliyi, Sülh Fondu, Toksikologiya Mərkəzi, 5 saylı Doğum evi, Avropa liseyi və b. vardı. Biz - Elmlər Akademiyası, Əlyazmalar İnstitutu, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu, Azərbaycan Tarixi Muzeyi, "Selen" elmi-istehsal birliyi, R. Mustafayev adına İncəsənət Muzeyi, Avropa liseyi, Bakı Metropoliteni, 5 saylı Doğum evi, Azərbaycan Dəmir yolu, "Baklift" birliyi, Semaşko adına Toksikologiya Mərkəzi, İnşaat materialları İnstitutu və digərləri tərəfindən Assosiasiyanın təşəkkülü dövründə onun fəaliyyətinə göstərilmiş böyük intellektual, mənəvi və maddi dəstəyi minnətdarlıq hissi ilə xatırlayırıq.

Əgər Assosiasiyanın əsasında yalnız milli mədəniyyətin modernləşməsi təşəbbüskarlarının kiçik bir qrupu dayanırdısa, “Simurq” AMA-nın ikinci qurultayı ərəfəsində onun sıralarında yüzlərlə fərdi üzvlər, o cümlədən tanınmış Azərbaycan və xarici alimlər və mütəxəssislər, təhsil, incəsənət, iqtisadiyyat, din və mədəniyyətin digər sahələrinin nümayəndələri, respublikanın tələbələri vardı. Bu artım Assosiasiyanın innovativ ideyaları və kulturoloji həyat fəlsəfəsinin, “Simurq” AMA-nın mədəni dirçəliş və sosial-mədəni tərəqqiyə doğru tutduğu yolun, ruhi mədəniyyət və ruhi istehsalın qabaqlayıcı inkişafında dövlətə yardımının respublika ziyalıları tərəfindən dəstəklənməsini təsdiqləyirdi.

Cəmiyyətin sosial-mədəni inkişafının kulturoloji əsaslarını işləyib hazırlayaraq, o, şəxsiyyətin inkişafında yalnız mədəniyyətin imkanlarının qiymətləndirilməsinə deyil, həm də dövlət idarəçiliyinin üç başlıca probleminin həllində onun rolunun dərk edilməsinə əsaslanırdı. Bu – dövlət siyasətinin milli inkişafın dəyişən tələbatlarına uyğun əsas istiqamətləri və prioritetlərinin formalaşdırılması və permanent təkmilləşdirilməsi; ruhi və maddi mədəniyyətin müxtəlif sahələri üçün yüksək ixtisaslı mütəxəssislərin hazırlığı və yenidən hazırlığı, və onların həyat fəaliyyəti üçün maddi-texniki şəraitin yaradılması; mövcud mütəxəssislərin və onların fəaliyyətinin nəticələrinin sosial-mədəni inkişaf maraqlarında effektiv istifadə edilməsidir.

İmkanlarının məhdudluğu ilə əlaqədar olaraq, Assosiasiyanın üzvləri mədəniyyət sahəsində dövlət siyasətinə elmi yardıma əlindən gələn intellektual töhfəni vermək üçün səy göstərirdi. Strateji milli maraqlara və tələbatlara əsaslanaraq, Assosiasiya səbrlə və ardıcıl olaraq, Azərbaycan cəmiyyətində öz elmi və elmi-maarifçilik missiyasını yerinə yetirirdi. Əvvəlki kimi, bu fəaliyyətin başlıca məqsədi - yüksək intellektual, etik, hüquqi və idarəçilik mədəniyyətinə malik, professional vərdişli, humanist dünyagörüşlü və vətənpərvər insanların hazırlanması və tərbiyə edilməsi vasitəsilə insan kapitalının inkişafında dövlətə vətəndaş yardımı göstərmək, əhalinin ümummədəni səviyyəsinin yüksəldilməsinə və Azərbaycan mədəniyyəti nailiyyətlərinin xaricdə təbliğ edilməsinə yardım etmək idi.

Bütövlükdə keçən əsrin 90-cı illərinin birinci yarısında Assosiasiyanın fəaliyyəti kulturologiya elmi, təhsili və maarifçiliyinin, beynəlxalq münasibətlər mədəniyyətinin inkişafında və Azərbaycan mədəniyyətinin yayılmasında əhəmiyyətli rol oynamışdır. Bu dövrdə onun fəaliyyətinin ən mühüm nəticələrindən biri o idi ki, Assosiasiya ilk dəfə olaraq, mədəniyyət anlamına bütöv sosial sistem kimi yeni metodoloji yanaşmanı işləyib hazırladı və milii mədəniyyətin inkişafını idarəetmə praktikasında istifadə etmək üçün

təklif etdi. Bu sistemli yanaşma insanın davamlı inkişafı, vətəndaş mədəniyyətinin və cəmiyyətin həyat fəaliyyətinin rəqabət qabiliyyətli kulturoloji texnologiyalara əsaslanan sosial-mədəni tərəqqinin formalaşmasında yeni imkanlar açdı. Bu dövrün daha mühüm nəticələri sırasına – Azərbaycanın dövlət müstəqilliyinin tanınmasına səbəb olan Kosta-Rikaya səfəri, Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin təsis edilməsini, respublikada "Üçüncü sektor"un əsaslarının formalaşdırılmasını da əlavə etmək lazımdır.

Mədəniyyəti bütöv sosial sistem kimi və milli inkişaf üçün kulturologiyanın əhəmiyyətini elmi görmənin tərəfdarları respublikada ildən-ilə daha da artırdı. Fəaliyyətinin ilk illərində Assosiasiyanın inkişaf dinamikası və onun nailiyyətlərinin ictimai tanınması, respublikanın bir çox dövlət, qeyri-hökumət və dini müəssisələrinin, xarici fəxri üzvlərin və beynəlxalq təşkilatların Assosiasiyanın fəaliyyətinin bəyənilməsini ifadə edən çoxsaylı təbrik məktublarında əks olunmuşdur.

## Assosiasiyanın ikinci qurultayı Azərbaycan mədəniyyətin dirçəlişi dövründə

29 may 1996-cı ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda "Simurq" AMA-nın ikinci qurultayı keçirildi. Qurultay ötən dövr ərzində Assosiasiyanın fəaliyyətini bəyəndi və qeyd etdi ki, "Simurq" Azərbaycanda mədəniyyət konsepsiyasının, sovet dövründə qəbul edildiyi kimi, "iqtisadiyyat üzərində "üstqurum" deyil, bütöv sosial sistem kimi qoyuluşu, elmi-nəzəri işləməsi və reallaşdırılmasında novator oldu. Bununla yanaşı milli-mədəni inkişaf üçün strateji əhəmiyyətə malik olan intellektual mədəniyyətin prioritet inkişafına vətəndaş yardımına Assosiasiyanın kursunun düzgünlüyü təsdiqləndi.

Qurultayın işində Prezident Administrasiyası Humanitar şöbəsinin məsləhətçisi, prof. Dilarə Seyidzadə iştirak edirdi. Qurultayda xarici diplomatlar, alimlər və mütəxəssislər, respublikanın ictimai təşkilatlarının nümayəndələri təbrik sözü ilə çıxış etdilər. Azərbaycanda AFR-nın müvəqqəti işlər vəkili, doktor Yasper Vik, İsrailin səfiri Eliezer Yotvatt, Rusiya səfirliyinin mədəniyyət üzrə attaşesi Nikolay Rusak, İraqın Azərbaycandakı səfiri, doktor İbrahim Ət-Tayi, ak. Maqsud Əliyev, prof. Əsədulla Qurbanov, prof. Gültəkin Sultanovanın çıxışlarında Assosiasiyanın fəaliyyətinə yüksək qiymət səsləndirildi.

İkinci qurultay görkəmli siyasi xadim H.Ə. Əliyevin rəhbərliyi altında ölkənin demokratik dəyişikliklər və sivil ölkə və hüquqi dövlət yaradılması yoluna, Azərbaycanın milli-mədəni dirçəliş yoluna qədəm qoyduğu şəraitdə keçirildi.

Məlum olduğu kimi, XX əsrin 90-cı illərinin əvvəlləri müstəqil Azərbaycan Respublikasının yaranması, siyasi qeyri-sabitlik və iqtisadi tənəzzül, Azərbaycan cəmiyyətində beynəlxalq münasibətlərlə gərginləşdirilən qarşıdurma və münaqişələr ilə şərtlənən mürəkkəb və ziddiyyətli dövr idi. 15 iyun 1993-cü ildən, xalqın çağırışı ilə, Azərbaycan Respublikasının dövlət quruculuğu idarəçiliyinə görkəmli siyasi xadim, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev başçılıq edirdi. Azərbaycanda vətəndaş müharibəsinin qarşısının alınması, ölkənin iqtisadi inkişafına güclü təkan verən neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi, milli özünüdərkə azərbaycançılıq ideologiyasının daxil edilməsi, müstəqil Azərbaycan Respublikasının demokratik, hüquqi, rəqabətə davamlı müasir dövlət kimi yaradılması və inkişaf etdirilməsi Heydər Əliyevin xidmətlərinə aiddir. Heydər Əliyevin siyasi uzaqgörənliyi və yüksək dövlət idarəçiliyi mədəniyyəti sayəsində 90-cı illərin sonuna yaxın Azərbaycanın ruhi mədəniyyəti öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu ki, bunu ən yeni tarix Azərbaycan mədəni Dirçəliş dövrü adlandırmaq qəbul edilmişdir. Dünya mədəni məkanında Azərbaycan xalqının mədəni dəyərlərini qayğı ilə qoruyaraq və bacarıqla translyasiya edərək, dünya mədəniyyətinin innovativ nailiyyətlərini yaradıcı surətdə mənimsəyərək və istifadə edərək, mədəniyyətimiz milli inkişaf üçün yeni imkanlar açdı. Bu illərdə Azərbaycanın ruhi və maddi mədəniyyətinin inkişafında yeni nailiyyətlərə səbəb olan mühüm sosial-mədəni dəyişikliklər həyata keçirildi, təhsildə, hüquq sistemi və sosial sistemdə, iqtisadiyyatda, səhiyyədə və digər sahələrdə islahatlar aparıldı.

Bu dövrdə ölkənin inkişafı və hakimiyyət böhranı bir çox cəhətdən zamanın çağırışlarına cavab verən və dünya davamlı inkişaf təcrübəsini nəzərə alan düzgün dövlət strategiyasından, siyasi və iqtisadi istiqamətlərin və dövlət idarəçiliyi sisteminin düzgün seçimindən asılı idi. Azərbaycanda demokratik cəmiyyət quruculuğu - ideoloji və siyasi işin əsaslı surətdə yenidən qurulmasını, demokratik ölkələrin inkişaf təcrübəsinə və dünya sivilizasiyası nailiyyətlərinə əsaslanan yeni dövlət mədəniyyətinin formalaşdırılmasını gündəmə gətirdi. Həyat - düzgün qurulmuş inkişaf istiqamətləri və dövlət siyasəti prioritetlərini, balanslaşdırılmış hüquqi sistemi, vətəndaş həmrəyliyinə, vətəndaşların yüksək etik mədəniyyətinə nail olma əsasında cəmiyyətin və dövlətin həyat fəaliyyəti metodları və formalarının daim təkmilləşdiril-

məsini tələb edirdi. Bu dövrdə milli inkişafda keyfiyyətli nəticələrə istiqamətlənmiş dövlət idarəçiliyi siyasəti xüsusi əhəmiyyət kəsb edirdi.

Bu reallıqları və tələbatları nəzərə alaraq, XX əsrin 90-cı illərinin ikinci yarısında Heydər Əliyevin rəhbərliyi altında ölkədə dövlətçilik mədəniyyətinin demokratikləşdirilməsi, köhnə inzibati-dövlət idarəçiliyi sisteminin islahatı və keyfiyyətcə yenisinin yaradılması üzrə məqsədyönlü fəaliyyət genişləndi. Kulturoloji təhlil göstərir ki, dövlət idarəçiliyi quruculuğunda - strategiya, texnologiya, etika, sosiologiya, estetika kimi beynəlxalq elmi idarəetmə prinsiplərindən bacarıqla istifadə edərək, Heydər Əliyev "hakimiyyət mədəniyyəti", "rol mədəniyyəti", "vəzifə mədəniyyəti" və "şəxsiyyət mədəniyyəti"nin harmonik surətdə təcəssüm olunduğu yeni milli idarəçilik texnologiyası və sisteminin yaradıcısı oldu.

Azərbaycan Respublikasında dövlət quruculuğu prosesi, başlıca olaraq, aşağıdakı sənədlər və təşkilati-siyasi qərarlar əsasında həyata keçirilirdi: Azərbaycan Respublikasının Konstitusiyası (1995); dövlət idarəçiliyi sahəsində islahatlar haqqında ölkə Prezidentinin Fərmanı (1998); Qərb ölkələrinin təcrübəsi əsasında milli dövlət idarəçiliyi sisteminin modernləşdirilməsi üzrə Dövlət Komissiyasının yaradılması (1999); Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması (1999); islahatlar sahəsində Fəaliyyət Planının təsdiq edilməsi (2000); "Dövlət qulluğu haqqında" qanunun qəbul edilməsi və Dövlət Qulluğunu İdarəetmə Şurasının yaradılması (2001).

Milli dövlət idarəçiliyi sisteminin hüquqi əsasları 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında qoyulmuşdur. Ölkə Prezidenti Heydər Əliyevin fərmanı ilə 1998-ci ildə dövlət idarəçiliyi sahəsində islahatlara start verildi. Bunun ardınca dərhal ölkədə dövlət idarəçiliyi sistemində islahatlarla bağlı problemlərin müzakirəsi başlandı. Respublikanın dövlətçilik mədəniyyəti və siyasi sistemindəki dəyişikliklərlə diktə edilmiş obyektiv tələbatla şərtlənən bu müzakirənin məqsədi dövlət aparatının təkmilləşdirilməsi idi. 1999-cu ildə Azərbaycanın dövlət idarəçiliyi sisteminin vəziyyətini öyrənmək və onun effektivliyini artırmaq məqsədilə, xüsusi olaraq, Dövlət Komissiyası yaradıldı. Komissiya qərb ölkələrinin təcrübəsi əsasında milli dövlət idarəçiliyi sisteminin modernləşdirilməsi zəruriliyi haqqında qərar qəbul etdi. Bu prosesə Ümumdünya Bankı, TASİS (Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım) və bir sıra digər beynəlxalq təşkilatlar cəlb olundu. Xarici ekspertlər və təşkilatlar büdcə, audit, dövlət qulluğu və hüquq sisteminin islahatı üzrə tövsiyələr verirdilər.

Başlanmış islahatlar prosesində, 1999-cu ilin yanvarında Bakıda dövlət quruculuğu və idarəçiliyinin müxtəlif sahələri üçün yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına, həmçinin dövlət bürokratiyasının mövcud personalının ixtisasının artırılmasına başlayan - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradıldı. 2000-ci ildə Dövlət qulluğu haqqında və uyğun normativ aktların yaradılması və fəaliyyəti üçün Fəaliyyət Planı təsdiqləndi. 21 iyul 2001-ci ildə, xarici ölkələrin zəngin idarəçilik təcrübəsini nəzərə almaqla, bürokratiyanın fəaliyyətini demokratiya prinsipləri əsasında tənzimləməyə imkan verən "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Eyni zamanda Dövlət Qulluğunu İdarəetmə Şurası yaradıldı. Qanunun icra strategiyası işə qəbul qaydalarını, məmurların hazırlığını, yeni idarəçilik strukturlarının yaradılmasını, o cümlədən, administrasiya problemlərinin tədqiqi və qanunun icrasına nəzarəti, idarəetmə keyfiyyətində özünü büruzə verən qeyri-müəyyənlikləri aşkar və kənar etməni təmin etmək iqtidarında olan intellektual və institusional mərkəzlərin yaradılmasını nəzərdə tuturdu. Sonrakı illərdə dövlət aparatının təkmilləşdirilməsinə yönəldilmiş bir sıra qanunlar və fərmanlar qəbul edildi.

Avropa Bərpa və İnkişaf Bankının 2003-cü il üçün hesabatında qeyd edilirdi ki, "Azərbaycanda iri mülkiyyət müəssisələrinin özəlləşdirilməsi, hüquq və məhkəmə islatatları ilə bağlı əsaslı hüquq və iqtisadi islahatlar həyata keçirilmiş, bələdiyyə hakimiyyəti institutu yaradılmış (1999), "Dövlət qulluğu haqqında" Qanun (2001) qəbul edilmişdir. Hesabatda həmçinin göstərilmişdir ki, nazirliklərin yenidən qurulması, birləşdirilməsi və yenilərinin yaradılmasında, daha rəqabətə davamlı məvacib strukturunu həyata keçirməyə imkan verən, personalın sayının azaldılmasında öz ifadəsini tapan dövlətin rolunun "təminetmə funksiyasından nizamasalma funksiyasına" dəyişilməsinə nail olunmuşdur.

Azərbaycanın dövlət quruculuğu və milli-mədəni dirçəlişində respublikanın nailiyyətlərini yüksək qiymətləndirərək, "Simurq" AMA-nın II qurultayının iştirakçıları görkəmli dövlət xadimi Heydər Əliyevin böyük dövlətçilik fəaliyyətini, onun xalqın ruhi mədəniyyətinin hərtərəfli və qabaqlayıcı tərəqqisinə istiqamətlənmiş kursunu bəyəndiklərini və dəstəklədiklərini ifadə etdilər. Qurultay Azərbaycan Respublikasının Prezidentinə təbriknamə və hökumətə müraciət qəbul etdi.

Qarşıdakı beş il ərzində Assosiasiyanın fəaliyyətinə rəhbərlik etmək üçün qurultay "Simurq" AMA-nın yeni rəyasət heyətini seçdi. Buraya respublikanın tanınmış akademikləri və professorları, elmi təşkilatlar və ali məktəblərin, nazirliklər və idarələrin, tibb müəssisələri və ictimai təşkilatların rəhbərləri və nüma-

yəndələri daxil idilər. Assosiasiyanın vitse-prezidentləri – ak. Maqsud Əliyev (birinci vitse-prezident), ak. Asəf Nadirov (iqtisadiyyat), ak. Urxan Ələkbərov (ekologiya), prof. Arif Əzizov (incəsənət), prof. Əlikram Abdullayev (təhsil), dosent Sevda Əlizadə (tibb), Hacı Sabir Həsənli (din), diplomat Rəsul Məlikov (beynəlxalq münasibətlər), geofizik Rauf Muqimov (təşkilati məsələlər), jurnalist Valeri Əfəndiyev (məsul katib) seçildilər. Assosiasiyanın vitse-prezidentləri və rəyasət heyəti üzvlərinə "Simurq" AMA-nın komissiyalarına rəhbərlik etmə vəzifələri tapşırıldı. Assosiasiyanın prezidenti prof. Fuad Məmmədov seçildi.

BMT-nin Azərbaycandakı rezident-koordinasiyaçısı Paolo Lembo, Azərbaycanda Birləşmiş Krallığın fövqəladə və səlahiyyətli səfiri Tomas Yanq, Rusiya səfirliyinin mədəniyyət üzrə attaşesi Nikolay Rusak, Azərbaycanda Almaniyanın fövqəladə və səlahiyyətli səfiri Mixael Şmunk, Azərbaycanda İsrailin fövqəladə və səlahiyyətli səfiri Eliezer Yotvatt, Azərbaycanda Misirin fövqəladə və səlahiyyətli səfiri Fərrux əl-Həvari, Azərbaycanda Almaniya səfirliyinin mədəniyyət üzrə attaşesi Yasper Vik "Simurq" AMA-nın xarici fəxri üzvləri seçildilər.

Qurultayda Azərbaycan Mədəniyyət Assosiasiyasının üzvlərinə fəxri fərmanlar da təqdim edildi. Assosiasiyanın 1990-1995-ci illərdə Azərbaycanda ruhi mədəniyyətin inkişafına yönəldilmiş yaradıcı fəaliyyətində fəal iştirakına görə, həmçinin elm, təhsil, tibb, incəsənət və mənəvi dəyərlərin inkişafına verdikləri töhfəyə görə "Simurq" AMA-nın 17 üzvü, o cümlədən akademiklər - Maqsud Əliyev, Asəf Nadirov, Urxan Ələkbərov, professorlar - Arif Əzizov, Rafiq Zeynalov, Əlikram Abdullayev, elmlər namizədləri - Sevda Əlizadə, Əli Rəcəbli, Hacı Sabir Həsənli, Faiq Ələsgərov və başqaları fəxri diplomlarla təltif olundular.

Qurultay "Simurq" AMA-nın 1996-2000-ci illər üçün fəaliyyət proqramını təsdiqlədi. Əsas istiqamətlər kimi, əvvəlkitək, aşağıdakılar müəyyən olundu: elm, təhsil, maarif və beynəlxalq mübadilə. Bu srtateji istiqamətlərin seçilməsi onunla şərtlənirdi ki, "Simurq" AMA özünün elmi və maarifçilik fəaliyyəti ilə yeni dövlət quruculucu ilə şərtləndirilmiş yeni tarixi şəraitdə Azərbaycan xalqının kulturogenezinə pozitiv təsir göstərməyə çalışırdı. Vəzifə - maddi və qeyri-maddi mədəni irsə - memarlıq abidələri, milli dəyərlər, incəsənət, folklor, milli tarix və etnoqrafiya, ailə və məişət mədəniyyəti, geyim və mətbəx mədəniyyətinə və s. əsaslanan ənənəvi mədəniyyəti qorumaqla, ruhi mədəniyyətin – milli özünüdərk, həyat tərzi, təfəkkür və davranış mədəniyyəti, istehsal və fərdi münasibətlər mədəniyyəti, intellektual mədəniyyət və insanların sosial məsuliyyət mədəniyyəti kimi sahələrinin təkmilləşdirilməsi və yüksəldilməsinə yardım etməkdən ibarət idi. Dünya təcrübəsi göstərdi ki, belə kulturogenezin ən yaxşı

vasitəsi sistemli kulturoloji təhlil və milli Azərbaycan mədəniyyətində yüksək elmi, texnoloji, hüquq, etik və idarəçilik nailiyyətlərinin və dünya mədəniyyəti standartlarının yaradıcı istifadəsidir.

29 may 1996-cı il qurultayının qətnaməsində qeyd olunmuşdur ki, milli inkişafın başlıca hərəkəverici qüvvəsi və əsası təhsil və elmdir, mühüm şərti – xalq kütlələrinin maarifləndirilməsidir, başlıca məqsədi isə biliklərə, professional vərdişlərə, mütəşəkkilliyə və mənəviyyata malik olan yüksək mədəniyyətli insandır. Qurultayın qərarında respublikada universal bilikli və elmi dünyagörüşlü mütəxəssislərin hazırlanmasının genişləndirilməsi və dərinləşdirilməsi zəruriliyi, həmçinin BSİPİ-nin kulturologiya kafedrasının respublika Təhsil Nazirliyinin baza kafedrasına çevrilməsi də qeyd olunmuşdur.

"Simurq" AMA-nın 1990 -1995-ci illər ərzində fəaliyyətinin təhlili və pozitiv qiymətləndirilməsi əsasında, qurultay Assosiasiyanın fəaliyyətinə dövlət dəstəyi göstərmək və onun ölkənin milli maraqlarına cavab verən innovativ layihələrinin, o cümlədən, yenidən təsis edilmiş, Azərbaycan Respublikasının inkişaf tələbatlarına xidmət etmək iqtidarında olan Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin fəaliyyətinin reallaşdırılmasına yardım etmək xahişi ilə hökumətə müraciət qəbul etdi. Müraciətdə intellektual mədəniyyətin (təhsilin və elmin) ruhi mədəniyyətin və "ruhi istehsalın" qabaqlayıcı inkişafını təmin edən dövlət prioriteti qismində müəyyən edilməsi imkanının nəzərdən keçirilməsi haqqında xahiş ifadə olunurdu. "Simurq" AMA-nın II qurultayının iştirakçıları, Azərbaycanın dirçəlişi və tərəqqisi kursunun həyata keçirilməsində vətəndaş yardımının hazır olduğunu ifadə edərək, ölkə prezidenti H.Ə. Əliyevə təbrik məktubu göndərdilər. II qurultayda Qarabağ probleminin ədalətli həllinə yönəldilmiş hökumət siyasətinin dəstəklənməsi haqqında Müraciət də qəbul edildi.

İkinci qurultaydan az sonra keçirilən yeni rəyasət heyətinin iclasında, 14 iyun 1996-cı ildə "Simurq" AMA-nın 1996-2000-ci illər üçün perspektiv fəaliyyət planı təsdiqləndi. Planda qeyd olunan ən mühüm vəzifələr arasında: 1995-ci ildə təsis edilmiş Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin fəaliyyətinin təşkil edilməsi, aktual milli inkişaf problemlərinin kulturoloji tədqiqatlarının aparılması, kitablar və dərs vəsaitlərinin nəşri, sosial-mədəni siyasətin kulturoloji əsaslarının işlənib hazırlanmasında hökumətə yardım etmək, televiziya və radio ilə kulturoloji biliklərin yayılması, təşkilatlarda və müəssisələrdə səyyar seminarların keçirilməsi, rayonlarda Assosiasiyanın nümayəndəliklərinin təşkil edilməsi, xarici ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi və s. var idi. Göstərilən vəzifələrin həyata keçirilməsi üçün: "elm və təhsil", "iqtisadiyyat və biznes", "incəsənət", "din", "informasiya və mətbuat", ekologiya, tibb və idman", "beynəlxalq əla-

qələr", "hüquq və idarəetmə", "gənclər" və digər komissiyalar yaradılmışdır.

Bu dövrdə "Simurq" AMA ilə sıx əməkdaşlıq edən Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun (BSİPİ) "Kulturologiya" kafedrası qeyri-rəsmi Bakı kulturoloji tədqiqatlar və maarifçilik mərkəzi oldu. Bu kafedranın bazası əsasında "Mədəniyyət və cəmiyyət" ümumi adı altında, beynəlxalq iştirakla, hər həftə kulturoloji seminarlar keçirilirdi. Buna görə də bir faktı başa düşmək çətindir ki, DMBU (Dünya Mədəniyyəti Beynəlxalq Universitei) təsis edildikdən və Assosiasiyanın II qurultayı keçirildikdən az sonra, ümumi dəstək gözləmələri BSİPİ-nin kulturologiya kafedrasının bağlanması ilə dəyişildi. 1996-cı ilin sentyabrında respublika Təhsil Nazirliyinin qərarına istinad edən BSİPİ rəhbərliyinin qərarı ilə, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun "Kulturologiya" kafedrası ləğv edildi.

90-cı illərin ikinci yarısında "Simurq" AMA mədəniyyət üzrə, o cümlədən, Azərbaycan siyasi mədəniyyət tarixinə həsr edilmiş bir sıra məzmunlu konfranslar və seminarlar keçirmişdir. Onların arasında bəzilərinin adlarını çəkmək lazımdır: "Gənclərin etik tərbiyəsi və sağlam həyat tərzi" (26 aprel, 1996-cı il), "Tibb – mədəniyyət fenomeni kimi" (12 mart 1996-cı il), "Dünya mədəniyyəti və Azərbaycan cəmiyyəti" (22 may 1996-cı il), "Azərbaycan Respublikasında "Üçüncü sektor" (12 sentyabr 1996-cı il), "Demokratiya mədəniyyəti və BMT" (13 mart 1997-ci il), "Milli ideologiya və Ümummilli lider" (10 may 1997-ci il), "Mədəniyyət və demokratiya" (25 may 1998-ci il), "Mədəniyyət və Azərbaycan gəncləri" (16 oktyabr 1998-ci il), "Müsəlman aləmində ilk parlament" (7 dekabr 1998-ci il), "Mədəniyyət və hərbi təhsil" (25 may 1999-cu il) və s.

"Demokratiya mədəniyyəti və BMT" seminarının işində BMT-nin Azərbaycandakı nümayəndəsi Paolo Lembo, Ümumdünya Federalistlər Assosiasiyasının prezidenti Con Anderson və Azərbaycanda ABŞ səfirliyinin mədəniyyət attaşesi iştirak etmişlər. "Mədəniyyət və demokratiya" seminarının işində respublikanın bir çox siyasi partiya nümayəndələri iştirak etmişlər. Seminarın əsas vəzifəsi ruhi mədəniyyətin və milli inkişafda onun çox böyük dəyişdirici imkanlarının düzgün anlaşılmasına yardım etmək, o cümlədən, müxtəlif siyasi dəyər nümayəndələri arasında ümummilli maraqlara cavab verən vətəndaş yekdilliyi və həmrəyliyinə nail olmaq idi. Bu dövrdə Assosiasiya tərəfindən beynəlxalq iştirakla, müxtəlif Şərq və Qərb mədəniyyətlərinin dünya sivilizasiyası kontekstində öyrənilməsi üzrə bir sıra seminarlar təşkil edilmişdir. Bunlar – İraq (2 aprel 1996-ci il), Almaniya (12 aprel 1996-cı il), ABŞ (12 fevral 1999-cu il) və Norveç (17 mart 2000-ci il) mədəniyyətlərinə həsr olunmuş seminarlar idi.

10 may 1997-ci ildə Azərbaycan Həmkarlar Konfederasiyasında keçirilən, Azərbaycan xalqının Ümummilli lideri, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin idarəçilik mədəniyyətinə həsr edilmiş ”Milli ideologiya və Ümummilli lider” kulturoloji konfransı xüsusi elmi və siyasi əhəmiyyətə malik idi. Konfrans AR Prezident Administrasiyasının İctimai-siyasi şöbəsi ilə birlikdə hazırlanmış və Ümummilli lider Heydər Əliyevin Ad günü tarixinə salınmışdır. Onun işində Prezident Administrasiyası və Həmkarlar Konfederasiyanın işçiləri, bir sıra nazirliklərin rəhbərləri, Milli Məclis deputatları, alimlər, müəllimlər, diplomatlar, qeyri-hökumət təşkilatları nümayəndələri iştirak edirdilər. Konfransda prof. Fuad Məmmədov (əsas məruzə), gənclər və idman naziri Əbülfəs Qarayev, müdafiə nazirinin müavini Mehman Əliyev, Milli Məclisin Elm və təhsil üzrə daimi komissiyasının sədri Şahlar Əsgərov, Milli Məclis deputatı, prof. Şamil Qurbanov, prof. Vilayət Quliyev, ADU–nin professoru Əsədulla Qurbanov, BSİPİ –nun rektor əvəzi, prof. Əlikram Abdullayev və b. məruzələrlə çıxış etdilər. Seminar ölkənin Prezident Administrasiyası tərəfindən yüksək qiymətləndirilmişdir.

25 may 1998-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu (BSİPİ) və Azərbaycan Dövlət Arxiv İdarəsi ilə birlikdə, Azərbaycan Demokratik Respublikasının yaranmasının 80 illiyinə həsr olunmuş, “Müsəlman aləmində ilk parlament” mövzusunda mötəbər elmi-praktik konfrans keçirildi. Onun işində Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin işçiləri, tanınmış alimlər, məmurlar, diplomatlar və ictimai xadimlər iştirak edirdilər. Konfransda: İctimai-siyasi tədqiqatlar və İnformasiya İnstitutunun direktoru, prof. Ağababa Rzayev, BSİPİ əməkdaşları – prof. Pərvin Dərəbədi, prof. Fuad Məmmədov, dosent Lətifə Məmmədova, AMEA Tarix İnstitutunun elmi işçiləri və başqaları məruzələrlə çıxış etdilər.

90-cı illərin ikinci yarısında respublikanın mədəniyyət sistemi işçilərinin peşə ixtisasını artırmağa yardım məqsədilə, Assosiasiya tərəfindən Azərbaycan Mədəniyyət Nazirliyinin reğional işçiləri – rayon kitabxanalarının, mədəniyyət evlərinin, musiqi məktəblərinin rəhbərləri və əməkdaşları, Azərbaycanın rayon icra hakimiyyətləri mədəniyyət şöbələrinin rəhbərləri üçün dünya və milli mədəniyyətin tarixi və nəzəriyyəsi üzrə onlarla məruzələr edilmişdir.

“Simurq” AMA-nın konfransları, seminarları və məruzələri Azərbaycanda insan kapitalının formalaşmasına imkan yaradırdı. Çoxmənalı funksiyanı yerinə yetirən seminarlar respublikanın mədəni həyatında nəzərə çarpan hadisə oldu. Onlar alimlər və müəllimlər, mütəxəssislər və diplomatlar arasında kulturoloji biliklərin mübadiləsinə, həmçinin respublika gəncləri və əhalisi arasında universal kulturoloji biliklərin yayılması vasitəsilə insanların ümumi mədəni

səviyyəsinin yüksəldilməsinə imkan yaradırdı. Bu və sonrakı illərdə tanınmış Azərbaycan alimləri, mütəxəssisləri, incəsənət xadimləri ilə yanaşı: BMT-nin Azərbaycandakı nümayəndəsi Paolo Lembo, Birləşmiş Krallığın səfiri Tomas Yanq, İraqın səfiri, doktor İbrahim-ət-Tayi, ABŞ səfiri Stenli Eskureydo, Almaniya səfirliyinin mədəniyyət attaşesi, doktor Yasper Vik, Norveç Krallığının səfiri Olav Berstad, Mərakeş Krallığının səfiri, doktor Həsən Hami, Çin Xalq Respublikasının səfirləri Çjan Siyun və Çyan Yanyan, Yaponiya səfirliyinin məsləhətçisi Toşikazo Muto, Macarıstan səfirliyinin məsləhətçisi, prof. Zoltan Baço, Fransa səfirliyinin mədəniyyət attaşesi Lük Obri, AMOCO-nun (ABŞ Neft Kompaniyası) baş nümayəndəsi Tim Hartnet, Ümumdünya Federalistlər Assosiasiyasının prezidenti Con Anderson, Azərbaycanda MDBTY (Müstəqil Dövlətlər Birliyinə Texniki Yardım) proqramı üzrə nümayəndə Ronald Yanq, Türkiyə səfirinin müavini Vural Altan, İtaliya səfirliyinin mədəniyyət attaşesi Karlotta Sartori, İran İslam Respublikası səfirliyinin mədəniyyət attaşesi İbrahim Nuri və başqaları da "Simurq" AMA-nın kulturoloji seminarlarında çıxışlar etmişlər.

Azərbaycanda vətəndaş cəmiyyəti institutlarının inkişafı üçün Assosiasiya tərəfindən bir sıra praktik addımlar atılmışdır. İctimai inkişaf maraqları, pərakəndə ictimai kollektivlərin qüvvə və vasitələrinin parçalanmasının qarşısının alınmasını, bu təşkilatlarda cəmləşmiş ciddi insan potensialının birləşdirilməsini, ölkənin davamlı inkişafı, güclü vətəndaş mədəniyyətli cəmiyyətə malik demokratik, hüquqi dövlətin formalaşdırılması və inkişafı naminə onların birgə fəaliyyətinin koordinasiyasını tələb edirdi. Ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları qüvvələrinin, cəmiyyətin sosial-mədəni inkişafında dövlətə vətəndaş yardımının vahid məcrasına yönəltmək məqsədilə koordinasiyasında (əlaqələndirilməsində) obyektiv zərurilik 90-cı illərin ortalarında aydın görünürdü.

Azərbaycanda bu dövr üçün artıq onlarla yeni tipli qeyri-hökumət təşkilatları fəaliyyət göstərirdi. Onların arasında: Azərbaycan mədəniyyətinin dostları fondu, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası, Müstəqil azərbaycanşünaslar birliyi, Azərbaycan Qadınlar cəmiyyəti, Gənclər Təşkilatları Milli Şurası, Təhsil Şurası, "Bakılı" cəmiyyəti, "Qadınlar və inkişaf", "Həyat", "Tutu", "İnsan və mühit", "Azərbaycan-Finlandiya" Assosiasiyası, "Günar" Təhsil Texnologiyaları Mərkəzi, "AKTAM", "AREAT", "Günəş", Azərbaycan Milli Kulinariya Assosiasiyası, "Azərbaycan-Almaniya" cəmiyyəti, "Azərbaycan-Rusiya" cəmiyyəti, "Azərbaycan-Fransa" cəmiyyəti, "Həmrəylik" cəmiyyəti, Mühəndislər cəmiyyəti, Oxatma Federasiyası, "Təhsil", "Vətəndaş cəmiyyətində debatlar", "Demokratiya və Tərəqqi",

"Mülki islahatlar uğrunda", "Vətəndaş cəmiyyəti uğrunda", "Etibarlı gələcək", "Saniyə", "Sosial Tərəqqi", "İntellekt" elmi-texniki təşkilat və digər QHT-ləri göstərmək olar. Həmçinin, ictimai sektor hələ sovet dövründə yaradılmış: Azərbaycan Mədəniyyət fondu, Azərbaycan Sülh fondu, Azərbaycan elmi-texniki cəmiyyəti, "Vətən" cəmiyyəti, "Bilik" cəmiyyəti, "Dostluq" xarici ölkələrlə əlaqələr cəmiyyəti, Bəstəkarlar İttifaqı, Yazıçılar İttifaqı, Teatr xadimləri İttifaqı, Rəssamlar İttifaqı, Azərbaycan alimləri İttifaqı, Musiqi xadimləri İttifaqı, Gənc hüquqşünaslar İttifaqı kimi və bir çox digər ictimai təşkilatlar və yaradıcı ittifaqlarla təmsil olunurdu.

Mühüm demokratiya institutu olan qeyri-hökumət təşkilatlarının formalaşması, həmrəyliyi və işin səmərəliliyini yüksəltmək yollarının axtarışı prosesinə yardım etmək məqsədilə, 1996-cı ilin sentyabrında mədəni siyasət departamentləri və Assosiasiyanın təşkilati işinin birgə səyləri ilə, respublikada ilk dəfə olaraq, Azərbaycanda "Üçüncü sektorun" əsasını qoyan məşvərətçi proses və kulturoloji seminar keçirildi. Layihə "Çariti Nou Hau" və "Aysar" beynəlxalq fondlarının dəstəyi ilə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda keçirildi. "Simurq" AMA ilə yanaşı burada 15 qeyri-hökumət təşkilatı, o cümlədən, "Həyat", Günəş" "İnsan və mühit" təşkilatları, Gənc Təbiblər Assosiasiyası və digərləri iştirak edirdilər.

Keçirilən konsultasiyaların nəticələrinə görə, respublikanın sosial-mədəni inkişaf maraqlarını nəzərə alaraq, "Üçüncü sektor"un əsas prioriteti qismində, milli insan kapitalı inkişafının başlıca şərtini ifadə edən elm, təhsil və maarif müəyyən edildi. Məşvərətçi prosesin və seminarın tövsiyələrinə uyğun olaraq, "Simurq" AMA-nın prezidenti 1996-cı ilin oktyabrında Plovdivdə (Bolqariya), "Çariti Nou Hau" beynəlxalq fondu tərəfindən təşkil edilmiş QHT-lərin beynəlxalq görüşündə çıxış etdi. "Üçüncü sektor"un inkişafı üzrə Azərbaycan konsepsiyası beynəlxalq görüşün iştirakçıları tərəfindən bəyənildi və bütün Qafqaz üçün prioritet olaraq qəbul edildi. Azərbaycanda "Üçüncü sektor"un yaradılması üzrə aparılan iş haqqında informasiya və uyğun təkliflər respublika Prezident Administrasiyasına təqdim edildi.

Məşvərət prosesi çərçivəsində Assosiasiya tərəfindən ölkənin sosial-mədəni inkişafında qeyri-hökumət təşkilatlarının dövlətə yardımının səmərəliliyini artırmağa qadir olan strukturun təşkili tələbatları, imkanları və texnologiyalarının kulturoloji təhlili aparıldı. Daha fəal QHT-lərin səylərinin birləşdirilməsi üçün "Zəka" (sağlam düşüncə) Azərbaycan qeyri-hökumət təşkilatları Mərkəzinin yaradılması layihəsi işlənib hazırlandı. Mərkəzin bir nömrəli vəzifələri sırasında - yeni, demokratik mədəniyyətin formalaşdırılması, respublikada "Üçüncü sektor"un infrastrukturlarının yaradılması və

təkmilləşdirilməsi, milli maraqlar istiqamətində QHT-lərin fəaliyyət koordinasiyası, ölkənin qeyri-hökumət təşkilatları rəhbərləri və əməkdaşlarının keçid dövrü şəraitində iş vərdişlərinə professional şəkildə öyrədilməsi yer alırdı.[21] Layihə, həmçinin aktual milli inkişaf problemləri və QHT-lərin özlərinin inkişaf problemlərinin kulturoloji tədqiqatlarının həyata keçirilməsi, sosial-mədəni layihələrin işlənib hazırlanmasını nəzərdə tuturdu. Bununla yanaşı QHT-lərin informasiya orqanlarının, o cümlədən, QHT-nin kitabxana ilə informasiya mərkəzinin yaradılması, vətəndaş cəmiyyətinin inkişafına imkan yaradan QHT-lərin fəaliyyətinin maliyyə və qrant dəstəyinin təşkil edilməsi də nəzərdən keçirilirdi. Mərkəzin vəzifəsinə - QHT klubunun yaradılması, QHT-lərin dövlət strukturları, biznes və beynəlxalq təşkilatlarla əməkdaşlığına yardım etmək, Milli Məclisdə baxılmaq üçün QHT-lər haqqında qanun layihəsinin hazırlanması və s. də daxil idi.

Göstərilən struktura uyğun olaraq, Mərkəzdə beş şöbənin fəaliyyəti nəzərdə tutulurdu: təhsil və maarif, qiraətxana ilə; kulturoloji tədqiqatlar və tərçümələr; kitabxana və elektron əlaqə vasitələrini ehtiva edən informasiya; redaksiya-nəşriyyat şöbəsi; respublika daxili koordinasiya və beynəlxalq əlaqələr. 12 sentyabr 1996-cı ildə Mərkəzin əsasnaməsi qəbul edildi. Məşvərət prosesində iştirak edən, respublikanın 16 qeyri-hökumət təşkilatı nümayəndələri – ak. Maqsud Əliyev, Fuad T. Məmmədov, Rövşən Salmanzadə, Fuad A. Məmmədov, İsmayıl İsmayılov, Şahin Pənahov, Tamara Dadaşova, İsmət Əhmədov, Adilə Manafova, Valeri Əfəndiyev, Rövşən Xəlilov, Yusif Bəkirov və b. elə həmin gün onun təsis edilməsi haqqında müqaviləni hazırladılar və imzaladılar.

Azərbaycan Respublikasında "Üçüncü sektor"un inkişaf prosesi AR Prezident Administrasiyası İctimai-siyasi şöbəsinin müdiri, prof. Əli Həsənovun və BMT İnkişaf Proqramı (BMT İP) nümayəndəliyinin rəhbəri Paolo Lembonun dəstəyi sayəsində uğurla davam edirdi. Vətəndaş cəmiyyətinin inkişafı məqsədilə, 1997-ci ildə BMT İP ilə Azərbaycan Respublikası arasında memorandum imzalandı. Memoranduma uyğun olaraq, Azərbaycan QHT-lərinin Resurs və Təlim Mərkəzi yaradıldı. Mərkəzə Cəfər Cəfərli başçılıq edirdi. QHT-lərin Resurs və Təlim Mərkəzinin bazası əsasında, Azərbaycanda BMT İP nümayəndəliyinin dəstəyi ilə, 1999-cu ilin iyulunda Bakıda, "Simurq" AMA-nın fəal iştirakı ilə, Azərbaycanın 95 QHT-nın daxil

[21] Azərbaycanda BMT İP–nın dəstəyi ilə 1995-ci ildə Bakıda təsis edilmiş "Simurq" AMA-nın Dünya Mədəniyyəti Beynəlxalq Universiteti layihəsində qeyri-hökumət təşkilatları fakültəsi də nəzərdə tutulmuşdur (Fuad Məmmədov. Kulturologiya effektiv həyat fəaliyyətinə aparan yol kimi. Bakı: Əbilov, Zeynalov və oğulları. 2006, s. 259).

olduğu Qeyri-hökumət təşkilatlarının Milli Forumu təsis edildi. Forumun prezidenti Azay Quliyev oldu. 29 iyul 1999-cu ildə "Simurq" AMA-nın təqdimatı ilə, Azərbaycan QHT-ləri AR Ədliyyə Nazirliyində qeydiyyatdan keçdi. Onun təsisçiləri qismində "Simurq" AMA, "Qadınlar və inkişaf" qeyri-hökumət təşkilatı və respublikanın digər QHT-ləri çıxış etmişlər. "Üçüncü sektor" yaratmaq üzrə özünün hələ 1996-cı ildə toplanmış təcrübəsindən istifadə edərək, "Simurq" AMA, həmçinin Forumun iş strukturu və planlarının işlənib hazırlanmasında zəruri elmi-konsultativ yardım göstərirdi, Forumun fəaliyyətinin təşəkkülü dövründə - birinci il yarım ərzində isə onun idarəetmə işində fəal iştirak edirdi. Sonrakı illərdə Azərbaycan QHT-ləri üçün onun tərəfindən fandrayzinq üzrə treninqlər keçirilmişdir.

İkinci qurultaydan sonra "Simurq" AMA-nın kulturologiya elmi, təhsili və maarifinin, həmçinin ölkənin ruhi mədəniyyətinin inkişafı üçün Assosiasiya tərəfindən işlənib hazırlanmış universal biliklərin praktik istifadəsinə yönəldilən işi davam edirdi. İş – kulturoloji tədqiqatlar, seminarlar, məruzələr və müxtəlif mədəni təşəbbüslər formasında həyata keçirilirdi.

Assosiasiyanın ən mühüm vəzifələri, əvvəlki kimi, üçüncü minilliyin astanasında Azərbaycan ziyalılarının, onun hansı – hökumət yaxud qeyri-hökumət strukturunu təmsil etməsindən asılı olmayaraq, qarşısında duran ümumi vəzifələrlə sıx əlaqədə nəzərdən keçirilirdi. Bu, Azərbaycan cəmiyyətində şüurlu və xoşbəxt həyatın alternativsiz vasitəsi olan yüksək ruhi mədəniyyətin formalaşmasına yardım; düzgün siyasətin və effektiv idarəçiliyin metodoloji əsası kimi, kulturologiya elmi, təhsili və maarifinin ölkədə formalaşması və inkişafına yardım; siyasi demokratiya mədəniyyətinin, intellektual və mənəvi mədəniyyətin prioritet inkişafına yönəldilmiş yeni sosial-mədəni siyasətin inkişafı; vətəndaşlar arasında sağlam milli ideyanın və humanizm, sülh mədəniyyəti və əməkdaşlıq kimi ümumbəşəri dəyərlərin bərqərar olmasına yardım; yoxsulluğun, rüşvətxorluğun və terrorçuluğun qarşısının alınmasına yardım; yüksək məsuliyyət mədəniyyətinin, təşkilat və idarəetmə mədəniyyətinin, hüquq, iqtisadi, informasiya, məişət, tibb, ekoloji mədəniyyətin, həmçinin istehlak və bölgü münasibətləri mədəniyyətinin möhkəmləndirilməsi; ümummilli maraqlar zəminində dövlət strukturları, qeyri-hökumət təşkilatları və bizneslə əməkdaşlıq və partnyorluq; Azərbaycanın dünya sivil birliyinə gələcək inteqrasiyası üçün beynəlxalq dünyəvi və dini təşkilatlarla, xarici ölkələrin dövlət və qeyri-hökumət strukturları ilə əməkdaşlıq; Azərbaycan diasporunun sosial-mədəni inkişafına, və inteqrasiya əsasında onun mədəniyyətinin yaşadıqları ölkələrin mədəniyyətləri ilə harmonizasiyasına yardım; BMT, YUNESKO, Avropa Şurası və digər

beynəlxalq təşkilatların, müxtəlif xalqların və ölkələrin mədəniyyətləri, dinləri və maraqlarının harmonizasiyası əsasında qlobal vətəndaş cəmiyyəti yaradılmasına yönəldilmiş beynəlxalq mədəni siyasətinin formalaşdırılması üzrə fəaliyyətinə yardımdan ibarət idi.

Prof. Fuad Məmmədov, ak. Maqsud Əliyev, Rəsul Məlikov, Rauf Muqimov və digərlərinin rəhbərlik etdiyi kulturoloji tədqiqatlar, təhsil və mədəniyyət siyasəti, elm, təşkilati iş və beynəlxalq əlaqələr departamentləri birinci onillikdə fəal elmi-tədqiqat, maarifçilik, təşkilati və beynəlxalq fəaliyyəti həyata keçirirdilər. Onlar birgə səylərlə ölkənin dövlət və qeyri-hökumət təşkilatları, xarici alimlər və mütəxəssislər, xarici dövlətlərin nümayəndəlikləri və beynəlxalq idarələrlə mədəni əlaqələri inkişaf etdirir və möhkəmləndirirdilər.

Gənclər departamenti tərəfindən əhəmiyyətli işlər görülmüşdür. Bu departamentin üzvləri Assosiasiyanın bütün tədbirlərində fəal iştirak edirdilər. 16 oktyabr 1998-ci ildə respublikanın Dövlət Müstəqilliyi gününə həsr olunmuş "Mədəniyyət və Azərbaycan gəncləri" Bakı kulturoloji seminarında onların çıxışlarını xüsusi qeyd etmək lazımdır. Seminarda Assosiasiyanın Gənclər departamentinin üzvləri ilə yanaşı, Azərbaycan Cənclər İttifaqı, Azərbaycan Gənclər Təşkilatları Milli Şurası, Azərbaycan gənclərinin sülh və təhlükəsizlik ittifaqının, həmçinin ölkənin 11 ali məktəbinin nümayəndələri iştirak edirdilər. Seminarın iştirakçıları Mədəniyyətin İnkişafının Milli Onilliyinin keçirilməsi haqqında Assosiasiyanın təşəbbüsünü dəstəklədilər və Bakıda "Dünya mədəniyyəti və gənclər" beynəlxalq simpoziumunun keçirilməsi haqqında təşəbbüs irəli sürdülər. Bu seminarın nəticələrinə görə, BSİPİ aspirantı Zarema Manafova, MASU (Moskva Açıq Sosial Universiteti) tələbəsi Nigar Fərəcova, və BSİPİ tələbəsi Namiq Əliyev "Simurq" AMA-nın təşəkkür fəxri fərmanlarını aldılar. Eldar Cahangirov, Elnur Süleymanov, Həmidə Quliyeva, İradə Rəhimli, Ülkər Şahbazova, Şəmsiyə Əliyeva, Nərgiz Atakişiyeva, Lalə Abbasova, Ülviyyə Səfərova, Fəqan Əsgərov, Dilşad Cahangirova, Arif Əsgərov, Seymur Məmmədov və başqaları özlərini Gənclər departamentinin daha fəal könüllüləri qismində göstərirdilər.

Assososiasiya özünün milli maraqlara cavab verən yaradıcı fəaliyyətində hər zaman ölkə hökumətinin dəstəyini əldə etməyə çalışırdı. 25 may 1998-ci ildə "Simurq" AMA-nın rəhbərləri Azərbaycanda Mədəniyyətin İnkişafının Milli Onilliyinin keçirilməsi haqqında Assosiasiyanın təşəbbüsünü nəzərdən keçirmək xahişi ilə Azərbaycan Respublikasının Prezidenti, cənab Heydər Əliyevə müraciət ünvanladılar. Müraciət, akademiklər - Maqsud Əliyev, Asəf Nadirov, Şeyxülislamın müavini Hacı Sabir Həsənli, professorlar – Fuad Məmmədov, Arif Əzizov, Əli

Rəcəbli, diplomat Rəsul Məlikov və Assosiasiyanın digər rəhbərləri tərəfindən imzalanmışdır. Müraciətdə həmçinin, respublikanın dövlət strukturları və qeyri-hökumət təşkilatlarında təmsil olunan aparıcı alimlər və mütəxəssislərin iştirakı ilə, mədəniyyət sahəsində innovativ islahatların həyata keçirilməsi üçün intellektual mədəniyyətin - elm, təhsil və maarifin dövlətin sosial-mədəni siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən edilməsini nəzərdə tutan dövlət komissiyasının yaradılması mümkünlüyünü nəzərdən keçirmək xahişi ifadə olunurdu.

Güclü və qüdrəti siyasi lider kimi, Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən müstəqil Azərbaycanın perspektiv sosial-mədəni, o cümlədən, iqtisadi, siyasi, hüquqi inkişaf prioritetlərini müəyyən edərək, onların həyata keçirilməsində hər zaman son dərəcə uzaqgörənlik və qətiyyət nümayiş etdirmişdir. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə onun qayğısı və diqqəti sayəsində Azərbaycan mədəniyyəti özünün dirçəliş dövrünü yaşayıb. Onun tərəfindən Azərbaycan ədəbiyyatı və incəsənətinin inkişafına və bütün dünyada yayılmasına, fiziki tərbiyə və idmanın, ailə, qadınlar, gənclər və uşaqların inkişafına böyük diqqət yetirilirdi. Azərbaycanın davamlı və təhlükəsiz inkişaf maraqlarını əldə rəhbər tutaraq, Ümummilli lider öz çıxışlarında ölkənin hər bir vətəndaşı tərəfindən yüksək mədəniyyətin və biliklərin mənimsənilməsinin, öz intellektual mədəniyyətinin daim inkişaf etdirilməsi, dünyagörüşünün genişləndirilməsi, peşə hazırlığı səviyyəsinin yüksəldilməsinin vacibliyini xüsusi olaraq qeyd edirdi. O, respublika vətəndaşlarını məsuliyyət mədəniyyətini artırmağa, ictimai-siyasi proseslərin, ölkədə və dünyada gedən dəyişikliklərin, hadisələrin düşünülmüş, dərin situasiyalı təhlilinə, həmçinin – fiziki və mənəvi cəhətdən sağlam olmağa, yüksək tələbkarlıq və prinsipiallıq göstərməyə, qətiyyətli və cəsarətli, Vətənə sədaqətli olmağa səsləyirdi. Ömrünü doğma Azərbaycanına, xalqının rifahına həsr edən Heydər Əliyev, Azərbaycanın ruhi mədəniyyətinin inkişafına yönəldilən təşəbbüslər, təkliflər və layihələrə heç zaman laqeyd qalmamışdır. Görünür, Assosiasiyanın milli maraqlara cavab verən, "Azərbaycanda Mədəniyyətin inkişafının Milli Onilliyi"nin keçirilməsi təşəbbüsü haqqında məlumat Ulu öndərə vaxtında çatdırılmadı və buna görə cavabsız qaldı.

İkinci qurultaydan sonrakı dövrdə Assosiasiyanın, nəticə etibarilə səmərəli fəaliyyət istiqamətlərindən biri, əvvəlki kimi, beynəlxalq əlaqələr idi. Assosiasiya xalq diplomatiyası metodları vasitəsilə qeyri-hökumət təşkilatları və xarici ölkələrin vətəndaşları ilə dostluğun və mədəni əməkdaşlığın möhkəmləndirilməsinə yardım etməyə çalışaraq, Azərbaycanda akkreditasiya olunmuş xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndəlikləri ilə münasibətlər qurur və davam etdirir, onlarla birgə beynəlxalq seminarlar

və görüşlər keçirirdi. Bütün dünyada Azərbaycanın dostlarının əhatə dairəsinin genişlənməsinə səbəb olan bu fəaliyyət nəticəsində - Kosta-Rika, Norveç, Rusiya, Almaniya, ABŞ, Türkiyə, Böyük Britaniya, İspaniya və digər ölkələrdən bir sıra xarici fəxri üzvlər – tanınmış alimlər, publisistlər, diplomatlar, ictimai xadimlər Assosiasiyanın sıralarına qəbul olunmuşdular.

Nəzərdən keçirilən illərdə Assosiasiya üzvləri, alimlər və mütəxəssislər dəfələrlə xarici ölkələrə beynəlxalq konfranslara getmiş, Azərbaycanın elm və mədəniyyət nailiyyətləri haqqında Avropa və Asiya ölkələrinin universitetləri, elmi müəssisələri, beynəlxalq təşkilatlarında elmi məruzələrlə çıxışlar etmişlər. "Simurq" AMA-nın vitse-prezidenti ak. A.A. Nadirov 1996-cı ildə Bonnda, Azərbaycanda iqtisadi islahatlar üzrə alman–Azərbaycan simpoziumunda əsas məruzəçi qismində müvəffəqiyyətlə çıxış etmişdir. O həmçinin, 1996-cı ildə Çin İctimai Elmlər Akademiyasının dəvəti ilə, Azərbaycan nümayəndə heyətinin rəhbəri qismində Çində çıxış etmişdir. 1998-ci ildə Yunanıstanda Qara dəniz iqtisadi əməkdaşlıq üzrə beynəlxalq görüşdə A.A. Nadirov tərəfindən Azərbaycanın elmi potensialı və onun istifadə imkanları haqqında məzmunlu məruzə edilmişdir.[22] 2000-ci ilin martında İraq səfirliyinin dəvəti ilə, "Simurq" AMA-nın prezidenti F. Məmmədov, İraq mədəniyyət xadimləri ilə mədəni əlaqələr və mədəni əməkdaşlığın qurulması üçün Məhəmməd Füzulinin vətəninə - İraq Respublikasına getmişdir.

Assosiasiyanın nailiyyətləri və kulturologiya sahəsində onun tədqiqatlarının nəticələri tədricən xarici alimlərin diqqətini cəlb edirdi. 1999-cu ilin noyabrında "Simurq" AMA Bergendə (Norveç) keçirilən Mədəni siyasət sahəsində tədqiqatlar üzrə I Beynəlxalq konfransda iştirak etmək üçün rəsmən dəvət olundu. Konfransda "Simurq" AMA-nın adından onun prezidenti Fuad Məmmədov "Mədəni siyasət məsələsinə dair" məruzə ilə uğurla çıxış etdi. Bu mötəbər konfransda Assosiasiyanın kulturoloji tədqiqatlarının nəticələri Avropa ölkələri xarici ekspertləri tərəfindən yüksək qiymətləndirildi. Belə ki, İsveç Dövlət Şurası mədəniyyət işləri üzrə tədqiqat departamentinin direktoru, professor Karl-Yoxan Kleberq qeyd etdi ki, "...Assosiasiyanın tədqiqatçılıq, maarifçilik və praktik fəaliyyət ideyaları, metodologiyası və nəticələri bütün postsovet məkanı üçün inqilabi əhəmiyyətə malikdir". Kulturologiya nəzəriyyəsi və praktikasının inkişafında Assosiasiyanın xidmətlərini nəzərə alaraq, 2000-ci ilin fevralında Assosiasiya Mədəniyyət siyasəti üzrə Avropa Şurası ekspertlərinin tərkibinə daxil edildi. Bu hadisə kulturologiya sahəsində "Simurq" AMA-nın

---

[22] Simurq" AMA-nın vitse-prezidenti Asəf Nadirovun xatirələrindən.

yaradıcı xidmətlərinin beynəlxalq təsdiqinin parlaq göstəricisi idi.

Azərbaycan ziyalılarının ruhi mədəniyyətə münasibətini və insanın inkişafında onun rolunun görünməsini ifadə edərək, 21 oktyabr 2000-ci ildə "Simurq" AMA-nın prezidenti Nyu-Yorkda, BMT-də "Vətəndaş cəmiyyətinin cavabı" Milleniumu üzrə BMT-nin Bəyannaməsi" Beynəlxalq konfransının plenar (geniş) iclasında "Mədəniyyət – həyat yolu kimi" kulturoloji məruzə ilə çıxış etdi. Bu çıxışdan sonra, tezliklə "Simurq" AMA-nın prezidenti Fuad Məmmədov, həmçinin Assosiasiya üzvləri - "İrşad" Mərkəzinin direktoru, prof. Rafiq Əliyev və "Xəzər" Beynəlxalq Fondunun prezidenti Rəhim Hüseynov, Azərbaycan vətəndaşları arasında ilk dəfə olaraq, "Sülh səfiri" Beynəlxalq diplomu ilə təltif olundular. "Simurq" AMA-nın mədəniyyət sahəsi üzrə yüksək beynəlxalq nüfuzu sayəsində sonrakı illərdə, həmçinin onun yüzdən artıq fəxri üzvü və fəalları – akademiklər, Milli Məclis deputatları, professorlar, müəllimlər, mədəniyyət xadimləri, həkimlər belə beynəlxalq diplomlara layiq görülmüşlər.

Mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın nəticələrinə görə "Simurq" AMA 2000-ci ildə Bütün dünyada sülh uğrunda Beynəlxalq Dinlərarası Federasiyaya və BMT yanında məşvərət statusuna malik, qeyri-hökumət təşkilatlarının Ümumdünya Fedarasiyasına qəbul edildi. Bu əməkdaşlıq çərçivəsində 23 fevral 2001-ci ildə Fuad Məmmədov Vaşinqtonda (ABŞ) Sülh və İnkişaf mədəniyyəti məsələləri üzrə liderlərin Beynəlxalq seminarında, həmin ilin 20 mayında isə, Moskvada keçirilmiş Sülh və İnkişaf mədəniyyəti məsələləri üzrə liderlərin Beynəlxalq seminarında çıxış etmişdir.

Lakin Assosiasiyanın işindəki aşkar nailiyyətlərlə yanaşı bir sıra çatızmazlıqlar da var idi. Bütün departamentlər heç də eyni dərəcədə səmərəli işləmirdi. "Simurq"un mütərəqqi sosial-mədəni proqramlarının daha tam şəkildə reallaşdırılması maraqlarında, Assosiasiyanın kollektiv və fərdi üzvlərinin birgə fəaliyyəti zəif həyata keçirilirdi. Ən əsası isə - Asssosiasiyanın böyük intekkektual və yaradıcı potensialı Azərbaycanın ruhi və maddi mədəniyyətinin inkişafına yardım üçün tamamilə az istifadə edilirdi. İstifadə olunmayan imkanların əsas səbəbi Assosiasiyanın işi üçün binanın və maliyyələşməsi üçün əlverişli maddi-texniki şəraitin olmaması idi. Əsasən buna görə Assosiasiya, 1995-ci ilin mayında Bakıda təsis edilmiş Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin fəaliyyətini təşkil etməyə, Azərbaycanda Mədəniyyətin inkişafının Milli Onilliyinin təşkili və keçirilməsi üzrə təklifləri reallaşdırmağa, "Mədəniyyət və cəmiyyət" məcmuələrinin ardıcıl nəşrini təmin etməyə, uğurla fəaliyyət göstərən "Tibb bacısı" və "Biznes" məktəblərini saxlamağa, "Dünya mədəniyyəti və Azərbaycan cəmiyyəti" jurnalını yaratmağa, "Mədəniyyət və

cəmiyyət" televiziya proqramını açmağa, ümummilli maraqlara cavab verən digər ictimai-faydalı layihələri reallaşdırmağa müvəffəq olmadı.

Buna baxmayraq, bu dövrün şərhini optimist notda bitirərək qeyd etmək lazımdır ki, keçən əsrin 90-cı illərinin ikinci yarısında öz Vətəninin rifahı və ümumilikdə, dünya mədəniyyəti üçün bir çox faydalı işlər görmək Assosiasiyaya nəsib olmuşdur.

Qurultayın qərarlarını əldə rəhbər tutaraq, Assosiasiyanın üzvləri keçən əsrin 90-cı illərinin ikinci yarısında mədəniyyətin tarixi və nəzəriyyəsi sahəsində tədqiqatlarını əhəmiyyətli dərəcədə genişləndirdilər. Bu dövrdə kulturologiya metodologiyası, din tarixi və nəzəriyyəsi, fəlsəfə, arxitektura, numizmatika, hüquq və s. sahələrdə bir sıra maraqlı əsərlər dərc edilmişdir.

Bu dövrün seçilən əsərlərindən biri, AMEA-nın müxbir üzvü, professor Şamil Fətullayev-Fiqarovun 1998-ci ildə işıq üzü görmüş "Bakının Memarlıq Ensiklopediyası" monoqrafiyası olmuşdur. Mədəniyyətin ilahiyyət sahəsində tanınmış ilahiyyatçı, "Simurq" AMA-nın vitse-prezidenti Hacı Sabir Həsənli tərəfindən məhsuldar tədqiqatlar aparılmışdır. Onun islam mədəniyyətinin tarixi və nəzəriyyəsinə həsr edilmiş – "İslam mədəniyyətində elm", "İman və elm", "Haqqa doğru" və digər məzmunlu monoqrafiyaları ictimaiyyət tərəfindən layiqincə qəbul edilmişdir. Bu dövrdə respublikanın aparıcı numizmatı, Assosiasiyanın rəyasət heyətinin üzvü, respublikanın əməkdar mədəniyyət işçisi Əli Rəcəblinin "Azərbaycan numizmatikası" və tarix elmləri namizədi, respublikanın əməkdar müəllimi, dosent Tahir Behbudovun "Azərbaycanda polis. XIX əsrin sonu – XX əsrin əvvəlində", professor Fərman İsmayılovun "İnsan və dünya", "İdrak nəzəriyyəsi və linqvistik analiz", professor Şahlar Əsgərovun "Keçid dövrünə fəlsəfi baxış", "Birliyin mayası haqq-ədalətdir", professor Kamil Səlimovun "Terrorizmin müasir problemləri", professor Musa Quluzadənin "Dinimiz dünən və bu gün", "Müstəqil Azərbaycan Respublikasının dini münasibətləri", Tahir Əmiraslanovun "Azərbaycan kulinariyası", "Novruz", "Azərbaycan kulinariyası: 222 xörək" və s. kimi məzmunlu monoqrafiyaları Azərbaycan mədəniyyəti və fəlsəfəsi tarixinə dəyərli töhfə oldu. 1998-ci ildə İradə Abbasova tərəfindən Azərbaycanda fəlsəfi fikir tarixi üzrə mətnlərin əsasında (əcnəbi-tələbələr və Azərbaycan bölməsinin tələbələri üçün) rus dili vəsaiti dərc etdirilmişdir. Elə həmin ildə, akademik U.K. Ələkbərovun rəhbərliyi ilə, "Simurq" AMA BMT-nin İnkişaf Proqramı çərçivəsi daxilində insanın inkişafı haqqında Azərbaycanın milli hesabatının hazırlanmasında iştirak etmişdir. Onun tərəfindən "Təhsil, elm, mədəniyyət və infrastruktur insanın inkişaf vasitələri kimi" mövzusu üzrə kulturoloji ekspert təhlili icra edilmişdir.

Bütövlükdə, keçən əsrin 90-cı illərində kulturologiya və digər humanitar elmlər sahəsində həyata keçirilən elmi tədqiqatlar nəticəsində Assosiasiya tərəfindən tarixi, nəzəri və metodoloji xarakterli onlarla əsər dərc edilmişdir. 1990-cı ilin aprelindən 1998-ci ilin avqustunadək “Simurq” AMA-nın üzvləri tərəfindən respublika və xarici jurnallar və qəzetlərdə 148 elmi və elmi-maarifləndirici məqalələr dərc edilmişdir. “Qanun”, “Trend”, “Vozrojdeniye”, “Dirçəliş” kimi jurnallarda, həmçinin Azərbaycan, Türkiyə və Norveçdə keçirilən beynəlxalq konfransların məcmuələrində bir çox işlər dərc edilmişdir. Bununla yanaşı, Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu (BSİPİ) və Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu ilə birlikdə, Assosiasiya tərəfindən Azərbaycan və xarici alimlərin məqalələrindən ibarət “Mədəniyyət və cəmiyyət” adlı iki kulturoloji məcmuə nəşr edilmiş, həmçinin onun tərəfindən, sonradan respublika Təhsil Nazirliyi tərəfindən ali məktəblər üçün dərs vəsaiti kimi təsdiq edilmiş “Kulturologiya. Nəzəriyyə və tarix məsələləri” monoqrafiyasının hazırlığı başa çatdırılmışdır. “Azərbaycan”, Xalq qəzeti”, “Bakinskiy raboçiy”, “Panorama”, “Günay” və digər respublika qəzetlərində mədəniyyət problemləri və Assosiasiyanın öz fəaliyyəti üzrə onlarla məqalə dərc edilmişdir. Respublika televiziyası və radiosu ilə çoxsaylı çıxışlar edilmişdir.

Assosiasiyanın birinci onillik ərzindəki fəaliyyəti Azərbaycan elminin qərargahı – Milli Elmlər Akademiyasının üzvlərinin müsbət rəyini qazanmışdır. 14 fevral 2000-ci ildə Assosiasiyanın prezidenti prof. Fuad Məmmədov və birinci vitse-prezidenti, ak. Maqsud Əliyev Azərbaycan EA-nın Tarix, fəlsəfə və hüquq bölməsinin iclasında məruzə ilə çıxış etdilər. Elmi müzakirə nəticəsində Elmlər Akademiyasının akademikləri və müxbir üzvləri, elmi müəssisələrin rəhbərləri və ali məktəblərin kafedra müdirləri Assosiasiyanın elmi fəaliyyətini bəyənərək, EA Rəyasət Heyətinin üzvlərini onunla tanış etməyi, təmçinin Azərbaycan Elmlər Akademiyasının “İzvestiya” jurnalı və “Elm” qəzetində dərc olunması üçün Assosiasiyanın fəaliyyətinin nəticələri haqqında materiallar hazırlamağı tövsiyə etdilər.

Bununla bərabər, “Simurq” AMA-nın Milli inkişaf kulturoloji konsepsiyası, dolayısıyla Moskva alimləri arasında da qismən qəbul edilmişdir. 5 fevral 2000-ci ildə dünyanın böyük elmi tədris mərkəzində - MDU-də (Moskva Dövlət Universiteti) kecirilən müzakirədə alimlər Rusiya cəmiyyətində bazis və üstqurum haqqındakı sovet təsəvvürlərinin dəyişdirilməsi zəruriliyini etiraf etdilər. Əsasən, Yelena Şestopal və strateji tədqiqatlarla məşgul olan digər tanınmış Rusiya alimləri mədəni dəyərlərin üstünlüyü (primatı), və “bazis” və “üstqurum”un yerlərinin dəyişməsinin marksizm-leninizmdə təsdiq edildiyi kimi

deyil, əksinə, şüurun varlığı təyin etməsi haqqında nəticələrə gəlmişlər. Şüur bazis (əsas, özül) oldu, bazis isə - üstqurum. "Siyasətin əsas bazası – yeni dəyərlərdir, məhz onlar iqtisadi islahatların əsasını təşkil etməlidirlər. Mədəniyyəti, hər şeydən əvvəl, ideyalar sistemi üstəgəl həyat tərzi kimi başa düşmək lazımdır". Bunun ardınca Rusiya mədəniyyət naziri də çıxışında həyat fəaliyyətinin universal əsası olan mədəniyyətin əhəmiyyətini qeyd etmişdir.

İkinci qurultaydan sonra Assosiasiyanın fəaliyyəti üçün yenə də dünya mədəniyyəti və sivilizasiyasının çağırışları və problemli situasiyaları kontekstində mili mədəniyyətin aktual tələbatları və inkişaf problemlərinin real kulturoloji təhlili xarakterik idi. Bu zaman "Simurq" AMA bir çox cəhətdən, ölkənin sosial-mədəni inkişafının dünya inkişaf təcrübəsi, nailiyyətləri və tendensiyalarını nəzərə alan dövlət siyasəti və dövlət idarəçiliyi mədəniyyətindən asılı olmasına əsaslanırdı. Ona görə də onun tədqiqatları və işləmələri əksərən, insanın həyat fəaliyyəti texnologiyalarının inkişafında, Azərbaycan cəmiyyətinin rifahı və həyat keyfiyyətinin yüksəldilməsində mütərəqqi dəyişikliklərə yardım edə biləcək nəticələrə istiqamətlənmiş tətbiqi xarakterə malik idilər. Bu, müstəqil Azərbaycan Respublikasında mədəniyyət və mədəniyyət siyasəti anlayışına prinsip etibarilə yeni yanaşma idi.

Mövcud olduğu ilk on il ərzində Assosiasiyanın yaradıcı fəaliyyət yolunu ümumilikdə qiymətləndirərək, hiss etmək çətin deyil ki, o, milli və dünya mədəniyyəti və sivilizasiyasının təcrübəsi, nailiyyətləri və inkişaf tendensiyaları nəticələrinin kulturoloji təhlili əsasında, cəmiyyətin və dövlətin həyat maraqları və inkişaf tələbatları ilə motivasiya edilmiş Azərbaycan ziyalılarının tanınmış nümayəndələrinin ruh yüksəkliyi üzərində qurulmuşdur. Assosiasiyanın elmi və maarifçilik fəaliyyətinin təsiri altında respublikada ruhi mədəniyyətin rolu və insanın inkişafı üçün kulturologiyanın strateji əhəmiyyətinin dərk edilməsində tədricən müəyyən dəyişikliklər əmələ gəlirdi. Onu qeyd etmək kifayətdir ki, Azərbaycan cəmiyyəti üçün kulturologiya elminin elmi və praktik əhəmiyyətinin artması şəraitində 1995-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin mədəni-maarifçilik fakültəsi kulturologiya fakültəsinə dəyişdirildi.

## Assosiasiyanın üçüncü qurultayı
## Üçüncü minilliyin əvvəlində

10 sentaybr 2000-ci ildə "İrşad" hotelində "Simurq" AMA-nın *"Dünya mədəniyyəti müdafiə edərsə, mədəniyyət dünyanı xilas edər!"* şüarı altında keçirilən üçüncü qurultayı Assosiasiyanın tarixində əlamətdar hadisə oldu. Assosiasiyanın 10-illik yubileyi ilə üst-üstə düşən bu qurultayın xüsusiyyəti - onun üçüncü minilliyin ərəfəsində və Azərbaycanın Avropa Şurasına qəbul edildiyi vaxtda keçirilməsindən ibarət idi. Bu qurultayın arxiv materiallarının kulturoloji təhlili - zamanın ruhunu və təşkilatın psixoloji mühitini hiss etməyə, ölkənin milli maraqlarına cavab verən məqsədləri və proqramlarının formalaşdırılması səbəblərini başa düşməyə, işin metodları və nəticələrini, onun rəhbərləri və üzvlərinin intellektual potensialı və dünyagörüşü istiqamətlərini, vətənpərvərliyi və təşəbbüsünü qiymətləndirməyə imkan verir.

Milli inkişafda mədəniyyətin roluna və əhəmiyyətinə haqq verərək, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yeni əsrin və üçüncü minilliyin başlaması münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: " Bu gün bütün bəşəriyyət, bütün xalqlar və millətlər yaxşı başa düşürlər ki, insanların ən böyük ruhi sərvəti olmaqla, - mədəniyyət, elm və təhsil davamlı inkişafı təmin edən ən mühüm amillərdən biridir. ...Hər bir Azərbaycan vətəndaşı... böyük tarixi keçmişə, zəngin mədəniyyətə, yüksək mənəviyyata malik olan ölkəmizin keçmişinə və indisinə olduğu kimi, gələcəyinə də dərin məsuliyyət hissi ilə yanaşmalıdır".

Üçüncü minilliyin əvvəlində respublikada siyasi, bədii və informasiya, iqtisadi, ekoloji və tibb, intellektual və urbanizasiya, etik, hüquq və idarəetmə mədəniyyətinin, ailə, gənclər və uşaqların mədəniyyəti, fiziki mədəniyyət və idman mədəniyyətin innovativ inkişafında yeni uğurlar əldə edilmişdir.

Bu dövrdə Azərbaycan xalqının həm maddi, həm də qeyri-maddi mədəni irsinin qorunması və inkişafı üzrə dövlət və qeyri-hökumət strukturlarının fəaliyyəti yeni səviyyəyə yüksəlmişdir. 2004-cü ildən başlayaraq, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu işdə aparıcı rol oynamağa başladı. Beləliklə, milli mədəniyyətin inkişafına və onun zamanın çağırışlarına cavab vermək qabiliyyətinin yüksəldilməsinə səbəb olan səmərəli kulturogenez təmin edildi.

Assosiasiyanın üçüncü qurultayı ötən on il ərzində "Simurq" AMA-nın nailiyyətləri və çatışmazlıqlarını, imkanları və çətinliklərini müzakirə etdi, 2001-2005-ci illər və sonrakı dövr üçün Assosiasiyanın geniş fəaliyyət proq-

ramını formulə etdi. Qurultay iştirakçılarının fikir mübadiləsi, Azərbaycan cəmiyyətinin mütərəqqi inkişafının başlıca şərti olan ruhi mədəniyyətin hərtərəfli inkişafı və "ruhi istehsal" üçün Assosiasiyanın əvvəlki istiqamətinə bağlılığını təsdiq etdi.

Bu tarixi dövrdə, üçüncü minilliyin hüdudunda mədəniyyəti fasiləsiz proses və fərdi, ictimai, dövlət və beynəlxalq inkişafın başlıca amili kimi nəzərdən keçirməyin dərk edilməsinin dünyada getdikcə daha da artması müşahidə olunurdu. İnsanların professional və etik, əmək və məsuliyyət mədəniyyətindən və cəmiyyətin hər bir üzvünün konkret töhfəsindən birbaşa asılı olan xalqın həyat keyfiyyətinin - sosial inkişafın başlıca meyarı olması getdikcə daha aydın dərk edilirdi. Azərbaycan cəmiyyətinin yüksək həyat keyfiyyətinə və sabit inkişafına nail olmaq üçün yeni elmi axtarışlar və insanların həyat fəaliyyətinin mövcud strategiyaları və texnologiyalarının müntəzəm surətdə təkmilləşdirilməsi, mədəniyyətin – elmi, istehsal, maliyyə və fərdi kimi bütün resurslarının mobilləşdirilməsi, ətraf mühitin və əhalinin sağlamlığının qorunması və reabilitasiyası, vətəndaşların fəal inkulturasiyası və akkulturasiyası tələb olunurdu.

Qurultayın başlıca ideoloji zəmini qarşıdakı dövrdə Assosiasiyanın əsas ictimai-faydalı fəaliyyət metodunun Azərbaycan cəmiyyəti üçün daha prioritet istiqamətlər üzrə, milli maraqlara cavab verən layihələrin işlənib hazırlanması və reallaşdırılmasında dövlətə yardım olduğunun dərk edilməsi idi. Bu problemləri müzakirə edərək, qurultayın iştirakçıları etiraf etdilər ki, daha yaxşı yaşamaq üçün ənənəvi ruhi mədəniyyəti qoruyub saxlamaq və inkişaf etdirmək azdır, bunun üçün həyat fəaliyyəti sahəsində intellektual mədəniyyətin prioritet inkişafına yönəldilmiş permanent (daimi) islahatlar, müasir dünya dəyişiklikləri və cəmiyyətin dəyişən tələbatları ilə şərtlənən permanent innovativ fəaliyyət lazımdır. Bununla yanaşı dünya təcrübəsi sübut edirdi ki, bu islahatlar mücərrəd olmamalıdır. Onlar ölkənin gələcək "müsbət obrazına" istiqamətlənməli və onun maddiləşməsinin konkret yolları, vasitələri və formalarını müəyyən etməlidir. İnsanların ruhi mədəniyyətinin inkişafında dayanmaq – mütərəqqi ölkələrin və xalqların inkişafından geri qalmaq deməkdir. İqtisadiyyatın inkişafı, ÜMM-un (ümumi milli məhsul) artması inkişaf məqsədi deyil, onlar hələ həyat keyfiyyətinə təminat vermir. Əsas məqsəd insanın özüdür, onun inkişafı və rifahıdır ki, bunlar da əsasən, istehsal mədəniyyətindən, mədəni dəyərlər və normaların qorunması, bölüşdürülməsi və istehlakından asılıdır. Eyni zamanda demokratik ölkələrin ictimai əməyinin yüksək məhsuldarlığı səbəbinin əsasında məcburiyyət deyil, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına cavab verən idraka,

biliklərə, qabiliyyətlərə və dəyərlər sisteminə əsaslanan azad seçimin dayanması şübhəsiz idi.

Bu prinsipləri əldə rəhbər tutaraq, Assosiasiya, əvvəlki illərdə olduğu kimi, millətin ruhi həyat mədəniyyətini Azərbaycan cəmiyyəti və dövlətinin sosial, siyasi, iqtisadi və ekoloji təhlükəsizliyinə nail olmanın müəyyənedici amili kimi nəzərdən keçirirdi. Dünya mədəniyyətinin qanunauyğunluqları və müasir inkişaf tendensiyalarının kulturoloji təhlili əsasında Assosiasiya tərəfindən edilmiş nəticələrə əsaslanaraq, qurultayın iştirakçıları qeyd etdilər ki, respublikanın gələcək tərəqqisi üçün ruhi mədəniyyətin və, ilk növbədə, insanın inkişafına yönəldilmiş "ruhi istehsalın" qabaqlayıcı inkişafı aparıcı əhəmiyyətə malikdir. Azərbaycan cəmiyyətinin bütün digər vəzifələrinin effektiv həlli bu strateji problemin həllindən asılıdır.

Qurultayın işində - BMT İnformasiya Mərkəzinin Azərbaycandakı nümayəndəsi Abdulla Dorani, Norveç səfiri - Olav Berstad, Çin səfiri – Çjan Qo Tsyan, Rusiya, Fransa və İranın mədəniyyət attaşeləri, İslamşünaslıq Tədqiqatlar Mərkəzinin direktoru, prof. Rafiq Əliyev, 5 saylı Doğum evinin direktoru, dosent Sevda Əlizadə, Azərbaycanşünaslar Cəmiyyətinin sədri, prof. Rafiq Rəcəbov, "Xəzər" Beynəlxalq fondunun prezidenti Rəhim Hüseynov, Bakı sinaqoqunun sədri Mixail Bekker, Azərbaycan Mədəniyyət və İncəsənət İnstitutunun prorektorları – Solmina Dadaşova və Arif Əzizov, Mədəniyyət işçilərinin respublika həmkarlar komitəsinin sədri Cəmilə Səttarova, Avropa liseyinin direktoru Rüfət Əliyev, tanınmış alimlər, müəllimlər, mütəxəssislər, qeyri-hökumət təşkilatları nümayəndələri, Azərbaycan televiziyası, radiosu, respublika qəzetlərinin işçiləri, tələbələr iştirak edirdilər.

Qurultayda üçüncü minillikdə mədəniyyət sahəsində, milli maraqlar və Azərbaycan cəmiyyətinin inkişaf tələbatları ilə şərtlənən, elmi əsaslanmış islahatlar və yeni siyasətlə bağlı məsələlər müzakirə olunurdu. "Simurq" AMA-nın rəhbərləri və üzvləri qeyd etdilər ki, Azərbaycana, ilk növbədə, beynəlxalq tələblərə cavab verən müxtəlif bilik sahələri mütəxəssisləri və praktik fəaliyyət üçün yeni mütəxəssislərin hazırlanması lazımdır. İdarəçilər, politoloqlar, diplomatlar, iqtisadçılar, hüquqşünaslar, ekoloqlar, tibb işçiləri, proqramçılar, tarixçilər, filosoflar və digər Azərbaycan mütəxəssisləri milli və dünya mədəniyyəti və sivilizasiaysının tarixi, nəzəriyyəsi və praktikası sahəsində ciddi kulturoloji hazırlıq keçməli, Azərbaycan xalqının və bütün bəşəriyyətin tarixi sosial-mədəni dəyərləri haqqında əsas bilikləri mənimsəməlidirlər. Milli və dünya inkişafının tələbatları və tendensiyalarını nəzərə alaraq, Assosiasiya kulturoloji tədqiqatlar, təhsil və mədəni siyasət sahəsində öz fəaliyyətinin nəticə etibarilə səmərəliliyini artırmalıdır. Dünya

praktikasına əsaslanaraq, ölkədə kulturoloji təhsil və tədqiqatların geniş surətdə inkişafı üçün bütün şəraitlərin yaradılması vacib idi. Mədəni və sosial antropologiya, Azərbaycanın mədəniyyət tarixi, kulturologiyanın metodoloji və tətbiqi problemləri, postsovet mədəniyyətinin gələcəkdə demokratik mədəniyyətə transformasiyası ilə bağlı elmi vəzifələr öz həllini gözləyirdi.

Qurultayda həmçinin, kulturologiya və Azərbaycan mədəniyyəti üzrə monoqrafiyaların və dərsliklərin hazırlanması və nəşri üçün işlərin sürətləndirilməsi barədə arzular səsləndirildi. Azərbaycanın milli inkişafı naminə yaradıcı istifadə məqsədilə, dünya mədəniyyətinin tarixi inkişaf təcrübəsini dərindən öyrənmək Assosiasiyaya tövsiyə olundu. Məcmuələr, monoqrafiyalar, elmi məqalələrin nəşri, tele- və radio verilişlərinin aparılması, həmçinin bu məqsədlə İnternetin istifadəsi, eləcə də Azərbaycan mədəniyyəti haqqında informasiyanın İnternetdə yayılması – Assosiasiyanın Azərbaycan xalqının ruhi mədəniyyətinin inkişafında daha faydalı töhfəsi kimi qəbul edildi. Həmçinin, “Simurq” AMA-nın fəaliyyəti haqqında ölkə ictimaiyyətini və hökuməti, beynəlxalq təşkilatları və xarici nümayəndəlikləri daha yaxşı məlumatlandırmaq, onların nümayəndələrini özünün iclasları və tədbirlərinə tez-tez dəvət etmək zəruriliyi qeyd olundu.

Qurultay iştirakçıları onu da qeyd etdilər ki, dövlətin qarşısında duran ümumi milli problemlərin həllində “Üçüncü sektor”un ciddi yardım göstərə bilməsi üçün hökumət onun inkişafına şərait yaratmalı, qeyri-hökumət təşkilatlarına lazımi maliyyə, maddi-texniki və təşkilati dəstək göstərməlidir. Öz növbəsində Assosiasiya daha prioritet ümumi milli problemlərin həllində müxtəlif dövlət strukturları ilə partnyorluq əlaqələrinin qurulmasına daha inadla nail olmalıdır, çünki yaxşı ideyaları effektiv siyasi mexanizmlər vasitəsilə, intellektual və sosial-mədəni resursların bacarıqlı mobilləşdirilməsi əsasında həyata keçirmək lazımdır. Bununla bərabər qurultay təsdiq etdi ki, catışmazlıqlara və əldən buraxılmış imkanlara baxmayaraq, yaradıcı fəaliyyətinin ilk on illiyi ərzində, lazımi şəraitin və maliyyənin olmaması şərtilə, Azərbaycanda sosial-mədəni maraqlar naminə Assosiasiya tərəfindən görülən işlər bir növ mənəvi qəhrəmanlıq idi.

Qurultayda qeyd olundu ki, Assosiasiya öz üzvlərində elitar mədəniyyəti – elmi bilikləri və peşəkar səriştəliliyi, yüksək etikanı, müstəqilliyi, təşəbbüsü və məsuliyyət mədəniyyətini yüksək qiymətləndirir və o bundan sonra da öz işini bu prinsiplərə və keyfiyyətlərə əsaslanaraq quracaqdır. Qurultay Assosiasiyanın üzvlərinin, öz təşəbbüsləri ilə “Simurq” AMA-nın geniş fəaliyyətini dəstəkləyən və inkişaf etdirən alimlər, müəllimlər, mütəxəssislər, həkimlər, diplomatların, gənclərin yaradıcı əməyini layiqincə qiy-

mətləndirdi. Azərbaycanda yüksək mədəniyyət ideallarına təmənnasız xidmət, “Simurq” AMA-nın planlarının həyata keçirilməsinə və onun beynəlxalq tanınmaya nail olmasına yardım göstərdikləri üçün Assosiasiyanın rəhbərləri və üzvləri fəxri diplomlar və təşəkkür fəxri fərmanları ilə təltif edildilər. Onların arasında akademiklər – Maqsud Əliyev, Asəf Nadirov, Fuad Qasımzadə, Urxan Ələkbərov, prof. Arif Əzizov, dosent Sevda Əlizadə, dosent Solmina Dadaşova, prof. Əli Rəcəbli, Azərbaycan XİN-nin xüsusi tapşırıqlar üzrə səfiri Rəsul Məlikov, ilahiyyatçı Hacı Sabir Həsənli, dosent Firudin Əhmədov, dosent Ağazəki Məlikov, Tariyel Məmmədov, Valeri Əfəndiyev, Aydın Kazımzadə, Rauf Muqimov, Səidə Cəfərova, İsmayıl İsmayılov, Zemfira İsmayılova və bir çox başqaları var idi. Təltif olunanlar arasında gənclər, əsasən, tələbələr də çox idi. Bunlar – Həmidə Quliyeva, Elnur Süleymanov, Arif Əsgərov, Eldar Cahangirov, İradə Rəhimli, Nailə Mehrabova, Fəqan Əsgərov, Səbuhə Quliyeva, Nəsimi İsmayılov, Tural Əliyev, Ruslan Bağırov, Rahib Mustafayev, Anar İsgəndərov, Şəmsiyə Əliyeva və b. idi.

Qurultay həmçinin, anlaşma, mənəvi və maliyyə dəstəyi, dostluq və əməkdaşlığa görə Kosta-Rika, İtaliya, Norveç, Almaniya, Rusiya, ABŞ, Birləşmiş Krallıq, İsrail, İraq, İsveç, Misirin nümayəndələrinə - Plutarko Sanços Ernandes, Artur Robles, Aidə Vaysleder, Paolo Lembo, Per Ulvevadet, Olav Berstad, Steyn İversen, Mixael Şmunk, Yasper Vik, Tomas Yanq, Riçard Braun, Valter Şoniya, Fərrux əl-Həvari, Eliezer Yotvatt, İbrahim ət-Tayi, Karl-Yoxan Kleberq, Qalib Abd-Hüseynə və Assosiasiyanın inkişafına yardım edən digər diplomatlar, alimlər və mütəxəssislərə öz təşəkkürünü bildirdi. Onların bəziləri “Simurq” AMA-nın fəxri üzvlüyünə qəbul edildi. “Aysar”, “Çariti Nou Hau” və Soros Fondu kimi beynəlxalq təşkilatlara təşəkkür ifadə edildi.

Bununla yanaşı qeyd edildi ki, Assosiasiyanın təşəbbüskarlarının vicdanlı əməyinə baxmayaraq, onun tərəfindən planlaşdırılmış məqsədlərin heç də hamısına nail olunmayıb. Maliyyə mənbələrinin olmaması səbəbindən Assosiasiya üzvləri və onların ailələri üçün intellektual görüşlərin, diskussiyaların və asudə vaxtın keçirilməsi üçün klubun yaradılması məsələsi hələ gündəlikdə dururdu. Azərbaycanın ruhi və maddi mədəniyyətinin, beynəlxalq əməkdaşlıq və dostluğun inkişafında böyük xidmətlərə görə “Simurq” mükafatını təsis etmək üçün maliyyə mənbələri axtarmaq lazım idi. Bununla əlaqədar olaraq, qurultayda qəyyumluq şurasının yaradılması haqqında ciddi surətdə düşünməyin zəruriliyi haqqında fikirlər səsləndi ki, buraya insanın inkişafında, planetin xalqları arasında sülh, dostluq və əməkdaşlığın bərqə-

rar olmasında ruhi mədəniyyətin rolunu dərk edən və qiymətləndirən Azərbaycan və xarici biznesmenlər, mesenatlar, yüksək mədəniyyətli insanlar daxil ola bilərdilər. Azərbaycan hökuməti tərəfindən maliyyə dəstəyinə nail olmaq zərurəti əvvəlki kimi aktual olaraq qalırdı.

Milli inkişafın aktual problemləri kontekstində Assosiasiyanın potensial imkanlarının sistemli təhlili əsasında, üçüncü qurultay rəyasət heyətinin yeni tərkibi və departament rəhbərləri qarşısında mədəni quruculuq məsələlərində və xalq diplomatiyası metodları ilə beynəlxalq münasibətlər sahəsində hökumətə vətəndaş yardımına yönəldilmiş bir sıra ideoloji və praktik vəzifələr irəli sürülmüşdür. Fəaliyyət prioritetləri müəyyən edilmiş, qarşıdakı dövrdə milli mədəniyyətin bütün inkişaf sahələrində işin effektivliyini kardinal şəkildə yüksəltməyə qabil olan, təşkilatın missiyasının həyata keçirilməsinin effektiv yolları, vasitələri və formalarının axtarışı qeyd olunmuşdur.

Qurultayın hesabat məruzəsində qeyd edilirdi ki, "sivil ölkələrin sənaye cəmiyyətindən informasiya cəmiyyətlərinə keçidi Azərbaycanın dünya mədəniyyətinin inkişaf tendensiyalarına, bununla bağlı iqtisadiyyatın və ölkənin bütün infrastrukturunun daim modernləşdirilməsinə vaxtında adaptasiyasını tələb edir. Bu vəzifənin həlli insanın inkişafının universal əsası və məqsədi olan ruhi mədəniyyətin qabaqlayıcı tərəqqisi olmadan mümkün deyil. O, xalqın sosial-mədəni kodunun humanist etika ilə zənginləşdirilmiş təhsil, elm və yüksək texnologiyalar prioritetinə oriyentasiyası məqsədilə, onun transformasiyasını tələb edir. İştirakçılar Assosiasiyanın fəaliyyətinin bundan sonra da  yeni milli inkişaf tələbatlarına əsaslanaraq, və qloballaşma şəraitində dünya mədəniyyəti və sivilizasiyasının başlıca qanunauyğunluqları, dəyişiklikləri və tendensiyalarını nəzərə almaqla, sistemli kulturoloji yanaşma əsasında qurulmalı olduğunu etiraf etdilər. Azərbaycanın gələcəyini düzgün şəkildə görmə - insanın inkişafının universal əsası olan mədəniyyətin imkanlarını düzgün şəkildə görməni tələb edir. Azərbaycanın başlıca sərvəti onun insanlarıdır, və hər şeydən əvvəl, ölkənin mədəni potensialıdır. Buna görə də əsas vəzifələrdən biri, insan kapitalına qoyulan investisiyalar üçün, insanın, onun mədəniyyəti və rifahının inkişafı üçün ölkənin iqtisadi resurslarının səmərəli istifadə edilməsidir.  Bu strateji vəzifənin həlli yolu təhsilin və elmin qabaqlayıcı inkişafından keçir.

İştirakçılar tərəfindən bəyənilən məqsədlər və metodoloji postulatların (riyaziyyatda, məntiqdə sübutsuz olaraq əsas götürülən müddəalar, fərziyyələr) əsasını, əvvəlki kimi, insanların yüksək həyat mədəniyyətinin Azərbaycan cəmiyyətinin başlıca sosial prioritetinin olması anlamı təşkil edirdi. Bu

ideoloji problem isə yalnız siyasi qərarlar, qanunlar və dövlət müəssisələrinin funksional fəaliyyəti ilə həll oluna bilməz. O həmçinin, ölkə vətəndaşlarının təfəkkür mədəniyyəti və fəaliyyət mədəniyyətinin yüksəldilməsinə yardıma yönəldilmiş ardıcıl və uzunmüddətli vətəndaş səylərini tələb edir. Bu, respublikada mədəniyyətin ictimai statusunun mütləq dəyərinin yüksəldilməsinə, istehsal və istehlak mədəniyyətinin keyfiyyətli yüksəlişinə, insanların məişət, siyasi, iqtisadi, hüquq, ekoloji və tibb mədəniyyətinin inkişafına yönəldilmiş bir sıra yeni layihələrin işlənib hazırlanması və həyata keçirilməsini nəzərdə tuturdu. Dünya praktikasını nəzərə alaraq, bu kardinal vəzifənin daha məqsədəuyğun təşkilati-hüquqi həll forması – Mədəniyyətin İnkişafının Milli Onilliyinin dövlət səviyyəsində təşkili və keçirilməsi ola bilərdi. Onillik: bir tərəfdən, Azərbaycan xalqının klassik mədəni irsinin müasir kütləvi mədəniyyətin dağıdıcı təbəqələşməsindən təmizlənməsi məqsədilə, Azərbaycan mədəniyyətinin "inventarizasiyası", digər tərəfdən - postsovet mədəniyyətinin sivil ölkələrin yüksək mədəniyyət standartlarına yönəldilmiş demokratik mədəniyyətə gələcək transformasiyası kimi ikitərəfli vəzifənin həllinə yardım edə bilərdi. Bu onillik çərçivəsində məqsədyönlü sistemli təhlil və dünya sivilizasiyasının ən yeni nailiyyətlərinin yaradıcı mənimsənilməsi, dünya təcrübəsi və zamanın dialektik tələbatları ilə şərtlənən, Azərbaycanda elmi, istehsal, texnoloji, idarəçilik, məişət, tibb, ekoloji mədəniyyət, istirahət mədəniyyəti və insan münasibətləri mədəniyyəti sahəsində mütərəqqi yeniliklərə imkan verən mədəni islahatların həyata keçirilməsi mümkün olardı.

Qurultay iştirakçıları öz fəaliyyətlərində, əvvəlki kimi, mədəniyyətin - insanın, cəmiyyətin və dövlətin inkişaf göstərici, vasitəsi və məqsədi olduğuna əsaslanmaq lazım olduğu fikrini yekdilliklə qəbul etdilər. Buna görə də Azərbaycan mədəniyyətinin azad inkişafı, intellektual və insan resurslarının, təbii-coğrafi və tarixi şəraitin, o cümlədən sivil ölkələrlə mədəni mübadilə imkanlarından istifadə üçün yeni sosial mühitin formalaşdırılması yolu ilə milli mədəniyyətin gələcək proqressiv transformasiyasına və hərtərəfli inkişafına yardım etmək lazımdır. Bununla əlaqədar, cəmiyyətin və dövlətin başlıca hərəkətverici qüvvəsi və inkişaf məqsədi olan insanın kompleks inkişafı üzrə yeni konsepsiyalar və layihələrin işlənib hazırlanması və reallaşdırılması əhəmiyyəti artmışdır.

Qurultayda xarici ölkə vətəndaşları və müəssisələri ilə, müxtəlif ölkələrin mədəniyyət assosiasiyaları və beynəlxalq təşkilatlarla mədəni əlaqələri və əməkdaşlığı möhkəmləndirmək və genişləndirmək qərara alındı. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi və "Simurq" AMA-nın Mədəni si-

yasət üzrə Avropa Şurasının məlumat bazasına daxil edilməsi ilə əlaqədar, Avropa Şurasının mədəniyyət və mədəni siyasət proqramları üzrə uyğun təşkilatları ilə partnyorluq əlaqələrinin qurulması lazım idi. Bu zaman Assosiasiya, xalqlar arasında mədəni mübadilənin sivil dövlətlərin ən effektiv xarici siyasət vasitəsi və müasir dünya mədəniyyəti inkişafının xarakterik xüsusiyyəti olduğunu nəzərə alırdı. O, xalqlara və dövlətlərə bir-biri ilə daha yaxşı tanış olmaq, milli, regional və qlobal problemlərin həllində qarşılıqlı anlaşmaya və əməkdaşlığa yardım edən ümumi maraqları və dəyərləri müəyyən etmək imkanını verir. Açıq mədəni dialoq müxtəlif xalqların qarşılıqlı zənginləşməsinə, sülhün qorunmasına və insanın hüquqları və ləyaqətlərinin sabit saxlanmasına, mühüm siyasi-diplomatik və iqtisadi problemlərin həllinə imkan yaradır. Eyni zamanda mədəni dialoqun olmaması bütün - şəxsiyyət, ictimai, beynəlxalq səviyyələrdə ideoloji qarşıdurmaya aparıb çıxarır. Bunu nəzərə alaraq, beynəlxalq münasibətlər sahəsində Assosiasiyanın qarşısında - Qafqaz, MDB, Şərqi və Mərkəzi Avropa ölkələrinin, həmçinin Qərb və Şərq ölkələrinin qeyri-hökumət təşkilatları ilə geniş mədəni mübadiləni təmin etmək vəzifəsi qoyulmuşdur.[23]

Qurultayın iştirakçıları bütün dünyada Azərbaycanın dostlarının qazanılmasının yalnız cəmiyyətdə yüksək mədəniyyətli insanların daim artması ilə şərtlənən aktiv və davamlı milli inkişaf yolu ilə mümkün olması fikrində yekdil idilər. Milli və dünya mədəniyyətinin əsas mədəni-tarixi dəyərlərini dərindən bilmə, müntəzəm surətdə özünü təkmilləşdirmə, müasir dünya mədəniyyətinin yüksək etik-hüquqi və sosial normalarının öyrənilməsi və mənimsənilməsi, öz partnyorlarına qarşı səmimi münasibət - Qərb və Şərq ölkələrinin xalqları ilə sosial-mədəni əməkdaşlığın inkişafı üçün yeni imkanlar açır. Bununla əlaqədar, Azərbaycanın milli maraqlarını nəzərə alaraq, qarşıdakı illərdə xarici dövlətlərin səfirlikləri ilə dostluğu və əməkdaşlığı möhkəmləndirmək və genişləndirmək, onlarla birlikdə müxtəlif xalqların mədəniyyət tarixinə həsr edilmiş beynəlxalq konfranslar və seminarlar keçirmək, həmçinin beynəlxalq təşkilatlarla - Azərbaycanda BMT nümayəndəliyi, Oksfam, Dünya Bankı, müxtəlif öl-

[23] BMT və YUNESKO tərəfindən irəli sürülən davamlı inkişaf, sülh mədəniyyətinin möhkəmləndirilməsi və Qərb və Şərq sivilizasiyaları arasında dialoqun inkişaf etdirilməsi vəzifələrini nəzərə alaraq, qurultaydan sonra Assosiasiya Bakıda Dünya mədəniyyəti İnformasiya-Resurs Mərkəzinin yaradılması üzrə innovativ layihə işləyib hazırladı. Bu ciddi layihənin həyata keçirilməsi üçün Assosiasiya ixtisaslaşmış mütəxəssislərə, müasir metodologiya və texnologiyalara malik idi, özünün fəaliyyəti dövründə onun tərəfindən lazımi kulturoloji təcrübə toplanmışdır. Dünya mədəniyyəti və sivilizasiyasının inkişaf tələbatlarına cavab verən layihə - Ümumdünya Bankı, YUNESKO, və Azərbaycanda akkreditasiya olunmuş xarici dövlətlərin səfirliklərinin maliyyə dəstəyinə hesablanmışdır.

kələrin xeyriyyə təşkilatarı ilə sıx əməkdaşlıq etmək qərara alındı. Xarici ölkələrdə Azərbaycan mədəniyyət günlərinin təşkil edilməsi üçün Assosiasiyaya maliyyə imkanları axtarıb tapmaq da lazım idi.

Qurultayda çıxış edən akademiklər, öz ciddi elmi potensialından istifadə etməklə, Assosiasiyanın təbiyyət və texniki elmlər, texnika və texnologiya, iqtisadiyyat və ekologiya sahəsində dövlətə vətəndaş yardımı göstərməli, bazar iqtisadiyyatı mədəniyyətinin inkişafına imkan yaratmalı, iqtisadi islahatların dərinləşməsinə, əhalinin məşğulluq probleminin həllində mühüm vasitə olan kiçik və orta biznesin inkişafına yardım etməli olduğu haqqında danışdılar. Qeyd olundu ki, Assosiasiya Azərbaycanda məişət, istehsal və istehlak mədəniyyətinin inkişafı, istehsal və xidmət sahəsində yüksək mədəniyyətli müəssisələrin yaradılmasına yardım etmək, Azərbaycanın şəhərləri və rayonlarında yüksək mədəniyyət zonaları yaratmaq üzrə tədbirlərin işlənib hazırlanması və reallaşdırılması haqqında düşünməlidir.

Qurultayın iştirakçıları həmçinin qeyd etdilər ki, Assosiasiyanın fəaliyyət prioritetlərindən biri, BMT-nin Davamlı inkişaf konsepsiyası çərçivəsində qaçqınlara, məcburi köçkünlərə və əhalinin az təminatlı təbəqələrinə humanitar yardım göstərilməsi olmalıdır. Ölkənin tələbatlarını nəzərə alaraq, Assosiasiya beynəlxalq sosial inkişaf proqramları əsasında fəal surətdə yoxsulluğa qarşı mübarizəyə qoşulmalıdır. Bu, hər şeydən əvvəl, mikrokredit və subkontrakt kimi müasir formalardan istifadə etməklə, əhalinin az təminatlı təbəqələrinin təlimi və qazanc gətirən fəaliyyətin təşkili sahələridir. Belə yanaşma fəlsəfəsi yaxşı məlumdur: obrazlı şəkildə desək, insanı müntəzəm olaraq balıqla təmin etməklə, bu tərzdə onda sosial passivlik və köməksizlik yaratmaqdansa, onu balıq tutmağa öyrətmək və ona tilov bağışlamaq daha vacibdir. Bu sahədə Assosiasiya Qaçqınlar komitəsi ilə, Azərbaycana humanitar yardım göstərən səfirliklərlə, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndəliyi və digər beynəlxalq humanitar təşkilatlarla partnyorluq əlaqələri qurmalı, milli və beynəlxalq humanitar layihələrin həyata keçirilməsi işinə qoşulmalı idi.

Qurultayda, həmçinin respublika əhalisinin hüquq mədəniyyəti sahəsində işin aktivləşdirilməsinin, onların insan hüquqları, milli və beynəlxalq hüququn əsaslarına fəal surətdə öyrədilməsi, demokratik ölkələrin hüquq təcrübəsi, o cümlədən QHT-lər haqqında qanunvericilik əsasında ölkə qanunvericiliyinin təkmilləşdirilməsində iştirak etməyin vacibliyi qeyd olundu. Bu istiqamətdə Assosiasiya BMT-nin İnsan hüquqları, konfliktologiya və gender tədqiqatları üzrə Komissarlığının layihələrinin həyata keçirilməsinə qoşulmalı, YUNESKO-nun insan konflikt-

lərinin həlli, sülh və qeyri-zorakılıq mədəniyyətinin bərqərar olması ilə məşğul olan deparatmentləri ilə əməkdaşlıq etməli idi. Assosiasiya demokratik mədəniyyətin formalaşdırılması və inkişafı, vətəndaş cəmiyyəti və hüquqi dövlətin tələblərinə cavab verən yeni mədəniyyət siyasətinin işlənib hazırlanması proseslərinin ictimai monitorinqlərində ön sıralarda olmalı idi. Qurultay iştirakçıları həmçinin, Azərbaycan xalqının inkişafı üçün həyati vacib əhəmiyyətə malik məsələlərdən birinin - Mədəniyyət haqqında Qanunun olmasını, bu qanunun mütəxəssis-kulturoloqların iştirakı ilə qəbul edilməli olduğunu qeyd etdilər. Onun nəzərdən keçirilməsi və ekspertizası müasir kulturologiyanın nailiyyətlərini, beynəlxalq standartları və Azərbaycanın inkişaf tələbatlarını hesaba almaqla aparılmalıdır. Bu qanunun əsasını mədəniyyətin universal sosial fenomen kimi düzgün dərk edilməsi təşkil etməlidir.

Milli mədəniyyətin inkişaf problemlərini nəzərdən keçirərək, qurultay iştirakçıları dünya elmi, texnologiyası, ədəbiyyatı və incəsənətinin ən dəyərli əsərlərinin Azərbaycan dilinə sistematik tərcüməsi, nəşri, Azərbaycan cəmiyyətində yayılması və öyrənilməsinin ciddi vəzifə olduğunu da qeyd etdilər ki, bu vəzifənin həlli ölkənin davamlı tərəqqisinə və rəqabətə dözümlülüyünə yardım edəcəkdir. Assosiasiya bu ümummilli vəzifənin həllində gücü yetən qədər iştirak etməlidir. Assosiasiyanın, ölkənin milli maraqlarına cavab verən mühüm vəzifələri qismində - qadınların, gənclərin və uşaqların, fiziki mədəniyyətin inkişafına, milli və dünya mədəniyyəti abidələrinin öyrənilməsi məqsədilə, mədəni turizmin təşkilinə yardımı vəzifələri də qeyd olunmuşdur. Azərbaycan incəsənətinin inkişafına daha fəal surətdə yardım etmək, o cümlədən xarici partnyorlarla birlikdə, sərgilərin, xeyriyyə konsertləri, festivallar, müsabiqələr və gənclərin idman yarışmalarının təşkilinə daha çox diqqət ayrılması aktual vəzifələr qismində xüsusi olaraq nəzərə çatdırıldı. Həmçinin, qaçqınlar və məcburi köçkünlər arasından istedadlı gənclərin incəsənətin və xalq yaradıcılğının müxtəlif növlərinə öyrədilməsi, Assosiasiya üzvlərinin ölkənin mədəni həyatında iştirakının aktivləşdirilməsi vacibliyi də qeyd olundu.

Gələcək haqqında qayğını əldə rəhbər tutaraq və özünün ciddi elmi potensialını nəzərə alaraq qurultay, "Simurq" AMA-nın 2000-2005-ci illər və gələcək perspektivlər üçün fəaliyyət proqramının hazırlanmasında "Mədəniyyət və cəmiyyət" məcmuəsinin sistematik olaraq hazırlanmasını təmin etməyin, "Dünya mədəniyyəti və Azərbaycan cəmiyyəti" jurnalını təsis etməyin, "Mədəniyyət və cəmiyyət" televiziya proqramlarını təşkil etməyin məqsədəuyğunluğunu xüsusilə qeyd etdi. O həmçinin, milli və

dünya mədəniyyətinin tarixi, nəzəriyyəsi və praktikası, sivilizasiyalar arasında sülh və dialoq mədəniyyəti problemləri üzrə beynəlxalq kulturoloji simpoziumlar və konfransların təşkili və keçirilməsi işini əsaslı surətdə yaxşılaşdırmağın zəruriliyinə diqqət yetirirdi.

Qurultay həmçinin, dövlət quruculuğu problemləri, idarəetmə mədəniyyətinin təkmilləşdirilməsi, mədəniyyət sahəsində yeni dövlət siyasəti üzrə ekspert qərarları və elmi proqnozların hazırlanmasında hökumətə yardımın əhəmiyyətini vurğuladı. Kulturoloji təhsil və maarifin dayaq məntəqələri olmağa, permanent mədəni islahatların həyata keçirilməsində nazirliyə dəstək olmağa qabil yeni tədqiqat və maarifçilik müəssisələrinin, həmçinin Azərbaycanın rayonlarında resurs-mədəniyyət mərkəzlərinin yaradılmasında mədəniyyət nazirliyinə ekspert dəstəyi aktual vəzifə olaraq qalırdı. Azərbaycan xalqının ümumi mədəni rifahının sürətlə yüksəldilməsinə yardım məqsədilə, biblio- və videotekaları, mədəniyyət məlumatlarının kompüter bankını, konfrans-zal, nəşriyyat və "stolüstü" mətbəəni daxil edən, "Simurq" AMA-nın İnformasiya-resurs Mərkəzinin yaradılması üçün maliyyə imkanları axtarıb tapmaq məqsədəuyğun hesab edildi.

Böyük Nizami deyirdi ki, "Elm də Kainat kimi sonsuzdur", dünya səviyyəli görkəmli ingilis alimi İsaak Nyuton isə özünü "dərk edilməmiş həqiqətlər okeanının sahilində oynayan uşaq" hesab edirdi. Dahi Azərbaycan mütəfəkkirinin və dünya elminin görkəmli nümayəndəsinin sözləri, milli inkişafımız üçün ciddi kulturoloji tədqiqatların yeni imkanlar açdığına bizi yenidən və bir daha inandırdı. Belə sistemli tədqiqatlar nəticəsində həyatı yeni görmə, yeni elmi təriflər və formullar, proqnozlar, qərarlar və texnologiyalar, dəyişikliklərin pozitiv dialektikasını təmin edən inkişaf modelləri və fəaliyyət paradiqmaları meydana gəlir ki, onlar da davamlı inkişafı təmin edir. Lakin davamlı inkişaf, elmin nailiyyətlərinin praktikada tətbiq edildiyi halda mümkün olur. Sistemli kulturoloji tədqiqatların nəticələrinin praktik reallaşdırılmasını təmin edən şərtlərdən biri, ölkə vətəndaşlarının kreativ və sosial fəallığına, cəmiyyətin və dövlətin başlıca hərəkətverici qüvvəsi olan yüksək mədəniyyətli insanın formalaşmasına yardım edən – cəmiyyətin yaxşı kulturoloji təhsili və maarifi, əhalinin akkulturasiyası və inkulturasiyasıdır. Cəmiyyətin "vertikal" və "üfqi" mədəniyyəti arasındakı qırılmanı tez bir zamanda aradan qaldırmağa imkan verən bu aktual vəzifənin həlli üçün dövlət qərarlarını qəbul edən məmurların və siyasətçilərin kulturoloji hazırlığı və yenidən hazırlığı xüsusi əhəmiyyət kəsb edir.

Bu anlayışa əsaslanaraq, 2000-ci illərin əvvəllərində hökumət və parlament üçün dünya sivilizasiyasının inkişaf qanunauyğunluqları və tendensi-

yalarının sistemli tədqiqatları əsasında hazırlanmış, sosial-mədəni siyasətin, demokratik idarəetmənin təkmilləşdirilməsinə, Azərbaycan cəmiyyətinin demokratikləşməsi və modernləşməsinə istiqamətlənmiş konsepsiyalar və praktik təkliflər paketi Assosiasiya tərəfindən yenidən təhlil edildi. Onların arasında ölkə üçün öz aktuallığını itirmiş: Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin layihəsi; Mədəniyyətin inkişafının Milli Onilliyinin keçirilməsi haqqında təklif, Mədəniyyət üzrə Dövlət Şurasının yaradılması və s. layihələr vardı. Bu təkliflərin hökumət tərəfindən nəzərdən keçirilməsi və onların mədəniyyət Assosiasiyası ilə birlikdə reallaşdırılması - Azərbaycan Respublikasının davamlı və təhlükəsiz inkişaf maraqlarına cavab verən sistemli kulturoloji tədqiqatlar aparmağa və sosial və dövlət texnologiyalarını işləyib hazırlamağa, sosial-mədəni siyasəti təkmilləşdirməyə, Azərbaycanın daha yaxşı gələcəyini qurmağa və onu effektiv idarə etməyə imkan vermiş olardı.

İrəli sürülmüş vəzifələr nöqteyi-nəzərindən milli mədəniyyətin keyfiyyətcə yeni inkişaf səviyyəsini təmin etməyə qadir olan bir sıra innovativ struktur və mexanizmlərin yaradılması üçün imkanları nəzərdən keçirməyi hökumətdən xahiş etmək qərara alındı: Azərbaycan elmi ictimaiyyəti və xarici diplomatlar tərəfindən bəyənilmiş Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin layihəsi əsasında Mədəniyyət Akademiyasının, həmçinin İctimai Forumun – davamlı sosial-mədəni inkişaf problemləri ilə məşğul olan qeyri-hökumət və dövlət təşkilatlarının, cəmiyyətlər, fondlar, ölkənin yaradıcı ittifaqları, həmçinin uyğun beynəlxalq təşkilatların iştirakı ilə, Azərbaycanın sosial-mədəni inkişaf problemlərinin müzakirəsi və həlli Mərkəzinin yaradılması.

Qurultay tərəfindən formulə edilmiş məqsədlərin həyata keçirilməsi, - Assosiasiyanın nəticə etibarilə səmərəliliyinin artmasını təmin edən, onun təşkilat departamentinin işinin əsaslı şəkildə yenidən qurulmasını tələb edirdi. İnsan resurslarından ağılla istifadə etmək və onları effektiv idarə etmək, konkret layihələr üzrə "Simurq" AMA-nın kollektiv və fərdi üzvlərinin birgə fəaliyyətinin təşkilini aktivləşdirmək, mobil əlaqələr infrastrukturunu yaratmaq, nəzərdə tutulan proqramlar, planlar və qərarların, ümumi fəaliyyət monitorinqinin yerinə yetirilməsinin hesaba alınmasını və ona nəzarəti təşkil etmək lazım idi. İşləmək üçün və idarəetmə aparatının maliyyələşdirilməsi üçün Assosiasiyanı ofislə təmin edən layihənin işlənib hazırlanması və reallaşdırılması, Azərbaycanın rayonlarında və xaricdə Assosiasiyanın nümayəndəliklərinin yaradılması, "Simurq" klubu çərçivəsində Assosiasiyanın üzvləri və qonaqları üçün qeyri-rəsmi görüşlərin və asudə vaxtın təşkil edilməsi ən mühüm vəzifələr qismində irəli sürülmüşdür.

Assosiasiyanın fəaliyyət effektivliyinin artırılması və Assosiasiya üzvləri tərəfindən beynəlxalq təcrübədə qəbul edilmiş strateji planlaşdırma, maliyyə menecmenti, QHT-nin idarə edilməsi, layihələrin yazılması və monitorinqi metodlarının və s. mənimsənilməsi üçün təşkilat departamentinə "Aysar" və digər beynəlxalq fondların treninqləri vasitəsilə fəalların və könüllülərin QHT-lərin müasir iş metodlarına öyrədilməsini təşkil etmək təklif olundu. Mədəniyyət Nazirliyi və digər dövlət strukturları, QHT-lər, xarici nümayəndəliklər və beynəlxalq təşkilatlarla "Simurq" AMA-nın ikitərəfli məhsuldar əlaqələrini qurmaq lazım idi. Azərbaycanın sosial-mədəni inkişafı dövlət layihələrinin işlənib hazırlanması və reallaşdırılmasına, həmçinin beynəlxalq, o cümlədən, Avropa Şurası xətti ilə işlənən layihələrə, xarici ölkələrin qeyri-hökumət təşkilatları ilə olan birgə layihələrə Assosiasiyanın daxil edilməsini təmin etmək vəzifəsi çox aktual idi. "Simurq" AMA-nın ictimai-faydalı layihələrinin reallaşdırılması üçün effektiv fandrayzinq, maliyyə resurslarının bacarıqla formalaşdırılması və idarə edilməsi həyati vacib vəzifələr sırasında göstərildi. İştirakçılar qurultayın yekun sənədlərini Azərbaycan hökumətinə, həmçinin BMT, YUNESKO və Avropa Şurasına göndərməyi qərara aldılar.

## Azərbaycan Kulturoloqlar Cəmiyyətinin təsis edilməsi və onun "SİMURQ" AMA ilə birgə fəaliyyəti

Üçüncü qurultayın qərarlarını əldə rəhbər tutaraq, Assosiasiya 2000-ci illərin əvvəllərindən elmi-tədqiqat və elmi-maarifçilik işində, milli əhəmiyyətli yeni layihələrin işlənməsi və həyata keçirilməsində özünün iştirakını gücləndirdi. Kulturologiya elmi və təhsilinin gələcək inkişafına, milli mədəniyyətin demoratikləşməsi və modernləşməsinə, həmçinin beynəlxalq əməkdaşlığın genişlənməsinə yardım məqsədilə, Assosiasiya tərəfindən Azərbaycan Kulturoloqlar Cəmiyyəti və Vətəndaş Cəmiyyətinin Beynəlxalq Mədəniyyət Forumu təsis edildi.

Assosiasiya tərəfindən təsis edilmiş Azərbaycan Kulturoloqlar Cəmiyyətinin ilk iclası prof. Fuad Məmmədovun sədrliyi ilə, 6 iyun 2001-ci ildə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində keçirildi.[24] İclasda AMEA-nın müxbir üzvü, BDU fəlsəfə kafedrasının müdiri, prof. Fuad Qasımzadə, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin prorektoru, dosent Solmina Dadaşova, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "İncəsənətlərin

---

[24] 2006-cı ildə Rusiyada Elmi-təhsil kulturoloji cəmiyyət yaradılmışdır.

qarşılıqlı əlaqələri" şöbəsinin müdiri, prof. Rəna Məmmədova, ADMİU "Kulturologiya" kafedrasının müdiri, dosent Maral Məmmədova, ADMİU "Tətbiqi kulturologiya" kafedrasının müdiri, dosent Oqtay Sultanov, BDU-nin dosentləri – Fidan Fərəcova, Larisa Ləmbəranskaya, Pedaqoji Universitetin dosentləri – Taliyə Məmmədova, Leyli Quliyeva və b. iştirak edirdilər. ADMİU-nin elm və yaradıcılıq üzrə prorektoru, pedaqoji elmlər namizədi, dosent Solmina Dadaşova - Azərbaycan Kulturoloqlar Cəmiyyətinin sədri, ADMİU "Tətbiqi kulturologiya" kafedrasının müdiri, dosent Oqtay Sultanov isə Cəmiyyətin məsul katibi seçildilər.

İclasda Azərbaycan mədəniyyətinin aktual inkişaf problemləri və milli kulturologiya elmi, təhsili və maarifi sahəsində Kulturoloqlar Cəmiyyətinin vəzifələri nəzərdən keçirildi. Qeyd edildi ki, mütərəqqi ölkələrin sənaye cəmiyyətindən "biliklər cəmiyyəti"nə keçidi şəraitində insanın, cəmiyyətin və dövlətin metodoloji əsası olan kulturologiyanın rolu getdikcə daha da artır. Bu obyektiv proses kulturoloji təhsil və tədqiqatların dövlət dəstəyində, elmi-pedaqoji kadrların və Azərbaycanda kulturoloji maarifçiliyin inkişafında əsaslı dönüş tələb edir. Kulturoloqlar Cəmiyyəti ölkənin fərdi, ictimai və dövlət inkişafının strateji əhəmiyyətli intellektual əsası kimi, kulturologiyanın ictimai və dövlət tanınmasına yardım etməlidir. Milli kulturologiya dövlət quruculuğu və idarəçiliyinin, yeni sosial-mədəni inkişaf texnologiyalarının işlənib hazırlanmasının, milli inkişaf tələbatlarına cavab verən, elmi əsaslandırılmış mədəni islahatların praktik reallaşdırılmasının ən mühüm elmi-nəzəri əsası olmalıdır.

Kulturologiyanın aktual inkişaf problemlərinin müzakirəsi əsasında iclasda iştirak edənlər aşağıdakı qərarları qəbul etdilər:

1. Ölkənin dövlət və qeyri-hökumət təşkilatlarında çalışan ekspert-kulturoloqlardan ibarət, mədəni islahatlar üzrə Müstəqil Milli Koordinasiya Şurasını yaratmaq təklifi ilə Azərbaycan Nazirlər Kabinetinə müraciət etmək;
2. Kulturologiyanın AAK-ın ixtisasları nomenklaturasına daxil edilməsini, həmçinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində kulturologiya üzrə namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış Şuranın təşkil edilməsini Azərbaycan Respublikasının Prezidenti yanında AAK-dan xahiş etmək;
3. Milli Elmlər Akademiyasının rəhbərliyindən Azərbaycanda kulturologiya elmi, təhsili və maarifinin inkişafı, Elmlər Akademiyasının tərkibində Kulturologiya Elmi-Tədqiqat İnstitutunun yaradılması

haqqında məsələnin baxılmaq üçün Akademiyanın Rəyasət heyətində müzakirəyə qoyulmasını xahiş etmək;

4. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində:

- Kulturoloji tədqiqatlar Mərkəzinin;
- Kulturologiya Gimnaziyasının -

yaradılması məsələsini nəzərdən keçirmək xahişi ilə Nazirlər Kabineti və Təhsil Nazirliyinə müraciət etmək;

5. Dövlət Teleradio rəhbərliyindən Azərbaycan əhalisinin milli və dünya mədəniyyətinin tarixi, nəzəriyyəsi və praktikası sahəsində elmi maarifləndirilməsi məqsədilə, "Mədəniyyət və cəmiyyət" kulturoloji proqramının açılmasını xahiş etmək;

6. Azərbaycanın milli maraqlarını nəzərə alaraq, 1995-ci ildə Azərbaycan ziyalıları, BMT nümayəndəliyi, bir sıra xarici və beynəlxalq təşkilatların dəstəyi ilə Azərbaycan Mədəniyyət Assosiasiyasının layihəsi üzrə Bakıda təsis edilmiş Dünya mədəniyyəti Beynəlxalq Universitetinin açılmasına dövlət dəstəyi göstərilməsini Nazirlər Kabineti və Təhsil Nazirliyindən xahiş etmək;

7. Rusiya Kulturologiya İnstitutunun ciddi iş təcrübəsinin öyrənilməsi və yaradıcı istifadəsi, həmçinin onun kollektivi ilə kulturologiya sahəsində əməkdaşlıq və partnyorluğun həyata keçirilməsi məqsədilə, RKİ ilə sıx əlaqə yaradılmasını Kulturoloqlar Cəmiyyətinin təsisçisi – "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasından xahiş etmək;

8. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru, dosent Solmina Dadaşovanı Cəmiyyətin sədri, ADMİU tətbiqi kulturologiya kafedrasının müdiri, dosent Oqtay Sultanovu məsul katib seçmək;

9. 2001-ci ilin sentyabrında baxılması üçün Cəmiyyətin fəaliyyəti haqqında Əsasnamənin, cari ildə və 2001-2006-cı illərdə Cəmiyyətin Əsas fəaliyyət istiqamətləri və proqamının hazırlanması və nəzərdən keçirilməsi üçün Cəmiyyətə təqdim etməyi onun rəhbərliyinə təklif etmək.

Bu dövrdə Azərbaycanda milli mədəniyyətin inkişafı və yeni mədəniyyət siyasətinin formalaşması üçün Assosiasiyanın üçüncü qurultatının qərarlarına uyğun olaraq, hazırlanması və reallaşdırılması 2001-ci ilin aprel-iyul aylarında həyata keçirilən "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım" adı altında "Simurq" AMA-nın layihəsi mühüm əhəmiyyətə malik idi. Layihə demokratik ölkələrin təcrübəsinin

öyrənilməsi, mədəniyyət siyasəti üzrə sosio-mədəni tədqiqatların və beynəlxalq konfransların keçirilməsini, tövsiyələrin işlənib hazırlanmasını, həmçinin praktik fəaliyyətdə istifadə üçün Azərbaycanın dövlət strukturlarına, bələdiyyələrə və qeyri-hökumət təşkilatlarına təqdim edilməsi üçün uyğun materialların nəşrini nəzərdə tuturdu. Bir sıra dövlət və qeyri-hökumət təşkilatları ilə birgə layihəni həyata keçirərək, "Simurq" AMA mədəniyyət və mədəniyyət siyasəti üzrə 17 seminar-treninq və 3 fokus-qrup keçirdi. Treninqlərdə 300-dən artıq insan – respublikanın dövlət strukturları, bələdiyyələr və qeyri-hökumət təşkilatlarının nümayəndələri, həkimlər və jurnalistlər, qadınlar və gənclər iştirak edirdilər. Layihənin nəticələri - ABŞ, Yaponiya, Norveç, Rusiya və Fransa ekspertlərinin iştirakı ilə, 27-29 iyunda Bakıda keçirilən Beynəlxalq kulturoloji konfransda ümumiləşdirildi. Layihə çərçivəsində ilk dəfə Bakı şəhərinin Yasamal və Səbail rayon bələdiyyələrinin, həmçinin Şəki, Qax, Zaqatala və Bərdə rayon bələdiyyələrinin rəhbərləri kulturoloji hazırlıq keçdilər. Layihənin nəticələri, 2001-ci ildə işıq üzü görən "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım" kitabında dərc edilmişdir.

Dosent Solmina Dadaşovanın rəhbərliyi ilə Kulturoloqlar Cəmiyyətinin üzvləri də konfransın işində fəal iştirak edirdilər. "Simurq" AMA ilə sıx əlaqədə işləyərək və milli mədəniyyətin inkişafı sahəsindəki vəzifələri həyata keçirməyə çalışaraq, Azərbaycan Kulturoloqlar Cəmiyyəti, ilk növbədə, Azərbaycan kulturoloqlarının elmi və pedaqoji işlərinin koordinasiyasına yardım etməyə çalışırdı.

4 oktyabr 2002-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ADMİU-nin prorektoru, dosent Solmina Dadaşovanın rəhbərliyi ilə müşavirə keçirildi. Müşavirədə ölkənin davamlı sosial-mədəni inkişafının yeni konsepsiyaları, layihələri və texnologiyalarının, müasir idarəetmə mədəniyyəti modellərinin işlənib hazırlanması, həmçinin informasiya cəmiyyətinə keçidin proqnozlaşdırılması sahəsində Azərbaycan kulturoloqlarının elmi vəzifələri nəzərdən keçirilmişdir.

Müşavirədə iştirak edən alimlər və müəllimlər dövlət quruculuğu və idarəçiliyinin, yeni sosial-mədəni inkişaf texnologiyalarının işlənməsinin, üçüncü minillikdə respublikada vətəndaş cəmiyyətinin inkişaf tələbatlarına cavab verən elmi əsaslandırılmış modellərin praktik reallaşdırılmasının elmi-nəzəri əsası kimi, kulturologiyanın strateji və praktik əhəmiyyətini qeyd etdilər. Onlar "Simurq" AMA-nın 2002-ci ildə dərc edilmiş, respublikanın ali məktəbləri üçün dərs vəsaiti kimi Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş "Kulturologiya. Nəzəriyyə və tarix məsələləri" monoqrafiyasına yüksək qiymət verdilər.

Müşavirədə "Simurq" AMA tərəfindən işlənib hazırlanan və 27-29 iyunda Bakıda keçirilən Beynəlxalq kulturoloji konfransın qərarı ilə bəyənilən – Azərbaycanda milli mədəniyyətin modernləşməsi, və kulturologiya elmi, təhsili və maarifinin inkişafı üzrə tövsiyələr müzakirə olundu. Bununla bərabər ali təhsilli mütəxəssislər və elmi kadrların – təhsil, elm və idarəçilik sahəsi üçün kulturoloqların hazırlanması proseslərinin təkmilləşdirilməsi məsələləri, həmçinin sosial-mədəni tərəqqi perspektivləri nəzərdən keçirildi.

İştirakçılar məmnunluqla qeyd etdilər ki, Azərbaycan cəmiyyəti "Simurq" AMA-nın, Azərbaycanda sosil-mədəni tərəqqiyə nail olmağa, ölkədə vətəndaş cəmiyyətinin inkişaf tələblərinə cavab verən yeni demokratik mədəniyyətin formalaşmasına yardım etməyə yönəldilmiş çoxillik tədqiqat, təhsil-maarifçilik və praktik fəaliyyətini müsbət qiymətləndirir. Onlar qeyd etdilər ki, Assosiasiya tərəfindən işlənib hazırlanmış, çoxillik kulturoloji tədqiqatların nəticələrindən ibarət yeni mədəniyyət siyasəti konsepsiyası - ekspert-kulturoloqların, Azərbaycan cəmiyyətinin müxtəlif dövlət və qeyri-hökumət strukturları nümayəndələri ilə keçirilmiş 20 kulturoloji seminar-treninq iştirakçılarının, həmçinin ABŞ, Rusiya, Yaponiya, Norveç və Fransa nümayəndəlikləri daxil olmaqla, Beynəlxalq kulturoloji konfrans iştirakçılarının rəyləri əsasında təsdiqlənib və bəyənilib.

Assosiasiyanın mədəniyyət və mədəniyyət siyasəti konsepsiyası 2001-ci ilin aprel-may aylarında ölkə əhalisi arasında xüsusi sosial sorğunun keçirilməsi gedişində də öz təsdiqini tapdı. Respublikada ruhi mədəniyyətin vəziyyətinin öyrənilməsi üzrə ilk dəfə Assosiasiya tərəfindən aparılan ciddi sosial tədqiqatlar, ölkə əhalisinin müxtəlif qruplarının mədəniyyət və mədəniyyət siyasəti haqqında rəyini əks etdirən empirik (təcrübi) material əldə etməyə və onu ümumiləşdirməyə imkan verdi. "Simurq" AMA-nın konsepsiyasının hazırlanması zamanı sovet, Qərb və Rusiya kulturologiya məktəblərinin, o cümlədən Rusiya Kulturologiya İnstitutunun konsepsiyaları və nailiyyətləri, Norveç və Yaponiyanın tarixi sosial-mədəni inkişaf təcrübəsi, BMT, YUNESKO, Avropa Şurası və digər beynəlxalq təşkilatların mədəniyyət siyasəti sahəsində sənədləri və müasir fəaliyyət təcrübəsi öyrənilmiş və istifadə edilmişdir. Adı çəkilən materialların kompleks təhlili sayəsində, Assosiasiya tərəfindən, əsas müzakirədə səslənən, Azərbaycanın konkret şəraitinə uyğun yeni mədəniyyət siyasətinin formalaşdırılması üzrə praktik tövsiyələr işlənib hazırlanmış və müzakirə üçün Beynəlxalq kulturoloji konfransa təqdim edilmişdir. Bu zaman Azərbaycanın həm tarixi-mədəni inkişaf spesifikası, həm də dünya sivilizasiyası kontekstində ölkənin sosial-mədəni inkişafının sistemli təhlilinin nəticələri nəzərə alınmışdır. Bununla əlaqədar

iştirakçılar, "Simurq" AMA tərəfindən təklif olunan Azərbaycanın yeni mədəniyyət siyasəti modelini, konkret fəaliyyət planının işlənməsi üçün elmi-nəzəri əsas qismində istifadə predmeti kimi nəzərdən keçirməyin zəruri olduğunu qeyd etdilər.

Çıxış edənlər onu da qeyd etdilər ki, Azərbaycan Kulturoloqlar Cəmiyyəti "Simurq" AMA ilə birlikdə ölkədə hərtərəfli kulturoloji təhsil və kulturoloji tədqiqatların prioritet inkişafına, sosial-mədəni inkişaf və mədəniyyət siyasəti sahəsində demokratik ölkələrin təcrübəsinin dərindən öyrənilməsinə yardım etməlidir. Öz fəaliyyəti ilə o, ölkənin müxtəlif sosial qrupları üçün milli və dünya mədəniyyəti dəyərlərinə geniş çıxışı və onlar tərəfindən demokratik ölkələrin sosial-mədəni inkişaf təcrübəsinin mənimsənilməsi üçün ilkin şərait yaratmalıdır. Eyni zamanda dövlət quruculuğu və idarəçiliyi sistemində istifadə üçün praktik tövsiyələrin işlənib hazırlanması məqsədilə, milli sosil-mədəni inkişaf proseslərinin sistemli kulturoloji tədqiqinin zəruriliyi qeyd olundu.

Alimlər, Azərbaycanda vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılmasına istiqamətlənmiş dövlət fəaliyyəti proqramının qəbulu məqsədilə, Mədəniyyət Nazirliyi və digər hökumət strukturları ilə əməkdaşlığın zəruriliyini təsdiqlədilər. Belə proqram: respublikada mədəniyyət sahəsində dövlət idarəçilik sistemi və strukturunun islahı (dəyişdirilməsi); mədəniyyət sahəsində islahatlar üzrə hökumət, Milli Məclis nümayəndələri, mədəniyyət menecerləri və müstəqil ekspert-kulturoloqlardan ibarət Milli Şuranın yaradılmasını nəzərdə tuturdu. Eyni zamanda Azərbaycan Respublikasının Mədəniyyət haqqında Qanununa, mədəniyyətin düzgün elmi tərifinin daxil edilməsini təmin edən əlavələr və dəyişikliklərin qəbul edilməsi haqqında, həmçinin məktəbəqədər müəssisələrdə və bütün səviyyələrdə məktəblərdə kulturoloji təhsilin, və yaşlı əhalinin müxtəlif qrupları üçün kulturoloji maarifləndirmənin daxil edilməsi haqqında əlavə qanun aktının qəbul edilməsi nəzərdə tutulurdu.

Görüş iştirakçıları Azərbaycanda kulturologiyanın inkişafı üçün müəyyən kadr bazasının – müəllimlər və tədqiqatçıların, müxtəlif bilik sahələri mütəxəssislərinin, o cümlədən, akademiklər, müxbir üzvlər, doktorlar və elmlər namizədlərinin mövcud olduğunu qeyd etdilər. Lakin bütün bu mütəxəssislər digər elmlər – tarix, fəlsəfə, pedaqogika, sənətşünaslıq və s. üzrə alimlik dərəcəsinə malikdirlər. Müxtəlif mütəxəssislərin səylərinin, Azərbaycanın tərəqqi maraqlarına cavab verən vahid kulturoloji proqram və layihələr çərçivəsində birləşməsi vacibdir. Bu vəzifənin yerinə yetirilməsi, "kulturologiya" ixtisası üzrə, sistemli yanaşmaya əsaslanan, müasir kulturoloji

metodologiyaya yiyələnmiş elmi kulturoloq-kadrların məqsədyönlü hazırlığını da tələb edir.

Nəzərdə tutulmuş məqsədlərin həyata keçirilməsi imkanı Azərbaycanda kulturologiyanın elm və tədris fənni kimi institutlaşdırılmasına, kulturologiya kafedraları və mərkəzlərinin açılmasına, xüsusi şuraların yaradılmasına, elmi tədqiqatlar, təhsil, maarifçilik və dövlət, qeyri-hökumət və bələdiyyə idarəçiliyi sistemi üçün yüksək ixtisaslı kulturoloq-kadrların hazırlanmasına yönəldilmiş real addımlarla şərtlənirdi.

Bu səbəbdən iştirakçılar öz qərarlarında aşağıdakıları qeyd etdilər:

1. "Azərbaycanda kulturologiyanın elm və tədris fənni kimi institutlaşdırılması" Qanununun qəbul edilməsi haqqında məsələni nəzərdən keçirməyi Milli Məclisdən xahiş etmək;

2. Azərbaycan AAK-dan:

2.1 Azərbaycan Kulturoloqlar Cəmiyyətinin ekspert qrupu tərəfindən tövsiyə olunan, ADMİU Elmi Şurası və "Simurq" AMA-nın rəyasət heyətinin uyğun qərarı ilə bəyənilən, kulturologiya üzrə ixtisasların yeni siyahısını nəzərdən keçirməyi və təsdiq etməyi;

2.2 Dissertasiyaların müdafiəsi üzrə:

▪ kulturologiya namizədi alimlik dərəcəsi almaq üçün - ADMİU nəzdində;

▪ kulturologiya doktoru alimlik dərəcəsi almaq üçün – Milli Elmlər Akademiyasının nəzdində (tarix, etnoqrafiya, fəlsəfə, sosiologiya və hüquq institutlarının, və digər baza humanitar elmi müəssisələrin iştirakı ilə) ixtisaslaşdırılmış şuraların yaradılmasını xahiş etmək;

3. "Simurq" AMA tərəfindən hazırlanmış "Kulturologiya" dərs vəsaitinin nəşrində göstərdiyi dəstəyə görə Təhsil Nazirliyinə minnətdarlıq ifadə etmək;

Aşağıdakı məsələləri nəzərdən keçirməyi və həll etməyi Təhsil Nazirliyindən xahiş etmək:

3.1 F. Məmmədovun təsdiq edilmiş "Kulturologiya" dərs vəsaitinə uyğun olaraq, Azərbaycanın qeyri-ixtisas ali məktəbləri üçün kulturologiya kursunun həcmini 144 saatdan az olmayaraq müəyyən edilməsini;

3.2 "Mədəniyyətşünaslıq" fənninin Azərbaycanın bütün orta məktəblərində icbari fənn kimi daxil edilməsini;

3.3 Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında və Azərbaycan Pedaqoji Universitetində 1996-cı ildə ləğv edilmiş Kulturologiya kafedrasının bərpa edilməsini;

3.4 ADMİU nəzdində Kulturologiya Gimnaziyasının açılmasını;

3.5 1995-ci ildə Azərbaycanda BMT nümayəndəliyinin və respublikada akkreditasiya olunmuş bir sıra digər diplomatik nümayəndəliklər və beynəlxalq təşkilatların dəstəyi ilə "Simurq" AMA tərəfindən təsis edilmiş Bakı Beynəlxalq Dünya Mədəniyyəti Universitetinin açılmasının dəstəklənməsini.

4. Rusiya Federasiyasının təcrübəsini nəzərə alaraq, Milli EA tərkibində Kulturologiya İnstitutunun yaxud Kulturoloji Tədqiqatlar Mərkəzinin yaradılmasını təşkil etmək məsələsini nəzərdən keçirməyi Nazirlər Kabineti və Milli Elmlər Akademiyasından xahiş etmək;

5. Azərbaycanda Mədəniyyətin inkişafının Milli Onilliyinin keçirilməsi məsələsinin müzakirə edilməsini AR Nazirlər Kabinetindən xahiş etmək;

6. Azərbaycan Televiziyası rəhbərliyindən kanalların birində, əhalinin ümumi mədəni səviyyəsinin yüksəldilməsinə, milli və dünya mədəniyyətinin tarixi, nəzəriyyəsi və praktikası sahəsində cəmiyyətin elmi biliklərini dərinləşdirməyə yönəldilmiş "Mədəniyyət və cəmiyyət" kulturoloji maarifləndirici proqramın açılmasını xahiş etmək.

Müşavirə, Azərbaycan AAK-nın nomenklaturasına daxil edilməsi üçün Cəmiyyətin üzvləri tərəfindən hazırlanan kulturologiya üzrə ixtisasların siyahısını, həmçinin ADMİU kulturoloqlarının istehsalat praktikası planını, Azərbaycanın ali məktəblərinin tipik kulturologiya fakültələri və kafedraları üçün xüsusi və ümumi fənlərin siyahısını, ali məktəblər üçün "Kulturologiya" dərs vəsaitini bəyəndi. Eyni zamanda qanunvericilik təşəbbüsü qismində "Azərbaycanda kulturologiyanın elm və tədris fənni kimi institutlaşdırılması haqqında" qanun layihəsini hazırlamaq Cəmiyyət üzvlərinə tövsiyə olundu. Həmçinin məişət, istehsal, hüquq, millətlərarası, siyasi, sosial mədəniyyətin yüksək standartlarının formalaşdırılmasına yönəldilmiş, bu prosesə yerli özünüidarə orqanlarını cəlb etmə əsasında, əhalinin kulturoloji maarifləndirmə proqramını hazırlamaq təklif olundu.

Milli və dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsinin, demokratik ölkələrin sosial-mədəni inkişaf təcrübəsinin öyrənilməsinə həsr edilmiş "Simurq" elmi-maarifləndirici jurnalın buraxılışını təşkil etmək qarşıdakı ən yaxın vəzifələr sırasında dururdu. Bununla yanaşı iştirakçılar, "Kulturologiya" dərs vəsaiti əsasında Azərbaycanın orta məktəbləri üçün "Mədəniyyətşünaslıq" dərsliyi və digər dərsliklərin hazırlanması; BMT və YUNESKO ilə, xarici ölkələrin kulturoloqları ilə, dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi problemləri ilə məşğul olan elmi, təhsil və maarifçilik mərkəzləri ilə sıx əməkdaşlığın qurulması, kulturoloji şəbəkələrin yaradıl-

ması və inkişaf etdirilməsi; Azərbaycan mədəniyyət tarixinin təbliğatı, eyni zamanda dünya kuturologiya təcrübəsinin öyrənilməsi üçün İnternet imkanlarından səmərəli istifadə etmək zəruriliyini qeyd etdilər.

Assosiasiya və Cəmiyyət respublikanın mümkün qədər daha çox tanınmış alimləri və mütəxəssislərini kulturoloji tədqiqatlara cəlb etmək, ölkənin sosial-mədəni inkişaf proseslərinə onların töhfəsini artırmağa yardım etməyə səy göstərirdilər. 30 dekabr 2002-ci ildə "Azərbaycan" Biznes Mərkəzinin konfrans zalında onlar tərəfindən 31 dekabr – Dünya azərbaycanlılarının həmrəylik gününə həsr edilmiş "Azərbaycan mədəniyyəti dünya sivilizasiyası kontekstində" mövzusunda kulturoloji konfrans keçirildi. Konfransda Azərbaycanın müxtəlif sosial institutlarının tarixi və müasir vəziyyətinə həsr olunmuş 8 elmi məruzə edildi. Bu məruzələr böyük maraqla dinlənildi: "Azərbaycan mədəniyyəti Azərbaycanda vətəndaş cəmiyyətinin və hüquqi dövlətin quruculuğu şəraitində" (prof. Fuad Məmmədov), "Azərbaycan elmi: ənənələr və müasirlik" (ak. Maqsud Əliyev), "Azərbaycan xalqının mədəni irsi və mənəvi tərbiyəsi" (ak. Fuad Qasımzadə), "Azərbaycanın iqtisadiyyatı: problemlər və həllər" (ak. Ziyad Səmədzadə), "Azərbaycan incəsənəti komparativ (müqayisəli) tədqiqatda" (Milli EA-nın müxbir üzvü Rəna Məmmədova), "Azərbaycan siyasəti təhsil sahəsində: problemlər və həllər" (Təhsil İslahatları İnstitutunun direktoru, prof. Abdulla Mehrabov), "Keçid dövründə Azərbaycanda informasiya və mətbuat" (prof. Rafiq Zeynalov), "Azərbaycanın sosial-iqtisadi inkişafında turizmin rolu" (Gənclər, İdman və Turizm Nazirliyi idarəsinin rəisi, iqtisadiyyat doktoru Firudin Qurbanov).

27 fevral 2003-cü ildə Kulturoloqlar Cəmiyyəti "Simurq" AMA və yanvarda yaradılmış Vətəndaş Cəmiyyəti Mədəniyyətinin Beynəlxalq Forumu ilə birlikdə Azərbaycan Respublikasının "Təhsil haqqında" qanun layihəsini müzakirə etdi və bütün səviyyələrdə məktəblərdə kulturoloji təhsilə dair öz təkliflərini ifadə etdi.

25 aprel 2003-cü ildə "Simurq" AMA Ali Attestasiya Komissiyasına kulturologiya sahəsində elmlər namizədi və dokroru dərəcəsinin verilməsi üçün ixtisasların siyahısını təqdim etdi. Bir neçə müddətdən sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəhbərliyi ilə birlikdə respublikada kulturologiya sahəsində namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə Şuranın açılması təşəbbüsü ilə Assosiasiya AR Prezidenti yanında AAK-na məktubla müraciət etdi. Məktub Azərbaycan Kulturoloqlar Cəmiyyətinin üzvləri – dosent Solmina Dadaşova, ak. Fuad Qasımzadə, ak. Maqsud Əliyev, prof. Məmmədəli Zeynalov, prof. İmran Cəfərzadə və prof. Fuad Məmmədov tərəfindən imzalanmışdır. Bu təklifi

müsbət qiymətləndirərək, AR Prezidenti yanında Ali Attestasiya Komissiyası elə həmin ildə ilk dəfə olaraq, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində kulturologiya sahəsində namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə Şura yaratdı.

2000-ci illərin əvvəllərində Assosiasiya beynəlxalq səhnədə Azərbaycanın imicinin gələcək yüksəlişinə, həmçinin demokratik ölkələrin sosial-mədəni inkişaf təcrübəsinin daha dərindən öyrənilməsi və yaradıcı istifadəsinə imkan verən beynəlxalq münasibətlər sahəsində də müəyyən işləri həyata keçirməyə çalışırdı. Assosiasiyanın üçüncü qurultayının qərarına uyğun olaraq, "Simurq" AMA tərəfindən işlənib hazırlanmış, bir sıra QHT-lər, dövlət və biznes strukturlarının dəstəklədiyi kulturoloji konsepsiya əsasında, 31 yanvar 2003-cü ildə "Simurq" Vətəndaş Cəmiyyətinin Beynəlxalq Mədəniyyət Forumu yaradıldı.

Bu ictimai layihənin əsas məqsədi – insanların ruhi kamilliyi, vətəndaşların sosial fəallığı, müstəqilliyi, məsuliyyəti və özünüidarənin inkişafı hesabına, dövlətin ictimai rifahını təmin edən həyat fəaliyyəti kimi, vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşmasında respublika ziyalılarının hökumətə yardımı idi. Forumun gələcək üzvləri, iş yerlərindən və təşkilatlarının sosial statusundan asılı olmayaraq, məhz ziyalıların bu nəcib missiyada öz səylərini birləşdirməli olduqlarına əsaslanırdılar. Təyinatlarına uyğun olaraq, öz tarixi missiyaları ilə ziyalılar xalqın inkişafı, onun daha yaxşı gələcəyi, elmin, təhsilin, maarifin, incəsənətin, iqtisadiyyatın və ruhi və maddi mədəniyyətin digər sahələrinin inkişafı üçün cavabdehdirlər. Bu məqsədi nəzərə alaraq Forum, öz xalqının sosial-mədəni inkişafı, Azərbaycanın demokratik gələcəyi, Azərbaycan cəmiyyəti və dövlətinin ruhi kamilliyi və rifahı, ölkənin sivil beynəlxalq birliyə aktiv inteqrasiyasına yardım naminə qayğı və məsuliyyət hissilə dolub-daşan ziyalılar ittifaqı, bərabərhüquqlu məsləkdaşlar ittifaqı kimi formalaşmışdır.

Forumun təsis edilməsində, Azərbaycan xalqının intellektual və etik cəhətdən mükəmməlləşməsi, onun rifahının yüksəlməsi və təhlükəsiz inkişafına öz yaradıcı fəaliyyəti ilə yardım etmək məqsədi daşıyan 35 nüfuzlu qeyri-hökumət, dövlət, həmkarlar, beynəlxalq, kommersiya və dini təşkilat liderləri iştirak edirdilər. Forumun tərkibinə - "Simurq" AMA, Azərbaycan Kulturoloqlar Cəmiyyəti, "Mir" Dövlətlərarası Teleradio kompaniyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu, Nizami Gəncəvi adına Azərbaycan Dövlət Muzeyi, Azərbaycan İqtisadçılar İttifaqı, Azərbaycan Alimlər İttifaqı, Azərbaycan Rəssamlar İttifaqı, Mədəniyyət işçiləri həmkarlar təşkilatı, Azərbaycan Milli Sülh Komitəsi, Azərbaycan Mədəniyyət Fondu,

“Xəzər” beynəlxalq fondu, Dini Azadlıq Beynəlxalq Assosiasiyası, “Vətəndaş cəmiyyətində debatlar” Mərkəzi, Elmi və mühəndis ictimai təşkilatlar İttifaqı, “Lütfi Zadə irsi və süni intellekt” Assosiasiyası, Avrasiya strateji əməkdaşlıq Fondu, “İntellekt” elmi-texniki müəssisə, “Sülh, demokratiya və mədəniyyət” ictimai birliyi, Kiçik və orta sahibkarlıq İttifaqı, Marketinq Assosiasiyası, Vençur müəssisələr Assosiasiyası, Azərbaycanın dağ rayonlarının inkişafı Assosiasiyası və digər bu kimi təşkilatlar daxil olmuşdular.

Forumun sədri - professor Fuad Məmmədov, onun müavini - akademik Maqsud Əliyev, məsul katibi – “Sülh, demokratiya və mədəniyyət” ictimai birliyinin sədri Rauf Rəcəbov seçildi. Forumun koordinasiyaçıları – prof. Əli Abbasov, “Mir” Dövlətlərarası Teleradio kompaniyasının direktoru İlqar Paşazadə, “Vətəndaş cəmiyyətində debatlar” resurs Mərkəzinin direktoru Şahin Seyidzadə, “Xətt” marketinq təşkilatının direktoru Fərhad Gülümcanov və b. oldular.

Forum xalqın ümumi mədəni səviyyəsinin, Azərbaycan cəmiyyəti vətəndaşlarının və sosiumların daxili siyasi sabitliyə, ictimai münasibətlərin humanistliyinə, ümumrifah dövlətinin qurulmasına yardım edən maraqları və mədəniyyətlərinin harmonizasiyasının yüksək dərəcəsinə nail olmağa yardım etmək məqsədilə, öz üzvləri və partnyorlarının birgə fəaliyyəti və səylərinin koordinasiyasının həyata keçirilməsi haqqında qərar qəbul etdi. O, təhsil və maarifin, elm və yüksək texnologiyaların, effektiv iqtisadiyyat və azad informasiyanın, insan hüquqları və demokratik etikanın, ətraf mühit və təmiz ekologiyanın qorunmasına, bütün ölkə vətəndaşları tərəfindən qanunların yüksək icra mədəniyyətinin inkişafına yardım etmək vasitəsilə, vətəndaş cəmiyyəti mədəniyyətinin davamlı inkişafına nail olmaq vəzifəsini qarşıya qoymuşdur.

Forum həmçinin, əməkdaşlığın ümumi prinsipləri və məqsədlərinin formulə edildiyi, və Azərbaycan xalqına, dünya xalqlarına və xoş məramlı insanlara müraciətin ifadə edildiyi Bəyannamə qəbul etdi. Təəssüf ki, aparılmış fandrayzinqə baxmayaraq, Forum öz fəaliyyətini həyata keçirmək üçün maliyyə mənbələri tapmağa nail olmadı. Buna baxmayaraq, 2003-cü ilin yanvar-may aylarında “Simurq” AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyəti ilə birgə Forum, könüllü əsaslarla, İnternet-şəbəkədə “Vətəndaş cəmiyyətinin inkişafında partnyorluq” adı altında aylıq 5 elektron daycest dərc etdi və yaydı.

## "SİMURQ" AMA-nın TASİS proqramının layihəsi ilə birgə əməkdaşlığı

Üçüncü qurultayından sonra Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin inkişafı sahəsində TASİS proqramının layihəsi ilə Assosiasiyanın əməkdaşlığı "Simurq" AMA-nın fəaliyyət tarixinə mühüm səhifə daxil etdi. Bu əməkdaşlığın əhəmiyyətinin qiymətləndirilməsi üçün məsələnin tarixindən əvvəlki dövrünə müraciət edək.

Azərbaycan Respublikası mədəniyyətinin inkişaf tarixinin bu dövründə dövlət idarəçiyi mədəniyyəti xüsusi əhəmiyyət kəsb edirdi. İdarəetmə mədəniyyəti – ümumi rifahın yüksəldilməsi, ölkələrin və xalqların mütərəqqi və təhlükəsiz inkişafına nail olma maraqlarında, insanın, cəmiyyətin və dövlətin inkişafını idarə etməyə yönəldilmiş elmi biliklər, texnologiyalar, mütəşəkkillik, etika və rəhbər fəaliyyətdir. O qoyulmuş məqsədlərə nail olmaqda və idarə olunan obyektin inkişafında effektivliyin təmin edilməsində zəruri olan düzgün siyasi, iqtisadi yaxud sosial qərarların qəbul edilməsinə imkan verən dərin professional bilikləri, bacarığı, hüquqi savadlılığı, idarəçi personalın məsuliyyətini nəzərdə tutur. Ruhi və maddi istehsalın bütün sahələrində inkişaf tempi və fəaliyyət keyfiyyəti dövlət idarəçiliyinin effektivliyindən həlledici dərəcədə asılıdır ki, dövlət müstəqilliyi, davamlı inkişaf, dövlətin rəqabət qabiliyyəti və təhlükəsizliyi onlarla şərtlənir.

Demokratik ölkələrdə milli maraqları nəzərə alaraq, idarəçilik qərarları obyektiv prinsiplər və meyarlar əsasında qəbul edilir, fəaliyyətin qiymətləndirilməsi isə nəticələrə görə aparılır. Bu zaman idarəetmə mədəniyyətinin tədqiqat prinsipləri qismində, elmdə hamı tərəfindən qəbul edilmiş – analiz və sintez, induksiya və deduksiya, müqayisə və ümumiləşdirmə kimi prinsiplərdən istifadə edilir. Metodoloji cəhətdən, idarəetmə mədəniyyəti problemlərinin nəzəri həlli üçün kulturologiyada tətbiq edilən müxtəlif təhlil metodlarını nəzərdə tutan sistemli yanaşmadan istifadə olunur. Bu metodlar cəmdə siyasi, sosial və iqtisadi xarakterli strateji qərarların hazırlanması və qəbul edilməsində praktik əhəmiyyətə malikdir.

Müasir şəraitdə qərarların qəbul edilməsində və dövlət proqramlarının müstəqil işlənib hazırlanmasında bürokratiya üçün yeni imkanlar açan, elmin nailiyyətlərinə əsaslanan ekspertiza və diskresion fəaliyyət idarəçilik fəaliyyətinin önündə gedir. Siyasətçilərin və idarəçilərin karyera yüksəlişinə təsir göstərən meyar – peşəkarlığı və etikanı, son nəticələrin yüksək effektivliyinə istiqamətlənmiş innovativ fəaliyyəti, insanlarla işləmək bacarığını nəzərdə tutan yüksək dövlət idarəçiliyi mədəniyyətidir. İdarəetmə

elminə əsaslanaraq, dövlət qulluğu cəmiyyətin rifahı və təhlükəsizliyinin, sosial tərəqqi və dövlətin özünün həyat qabiliyyətinin asılı olduğu strateji vəzifələrin həllini təmin edir.

Dünya təcrübəsi təsdiq edir ki, qeyri-məhsuldar dövlət idarəçiliyi bağışlanmaz vaxt itkisinə, səmərəsiz (bəzən isə yerini doldurmaq mümkün olmayan) insan, maliyyə və xammal resurslarının itkisinə gətirib çıxarır. Buna görə də milli, sosial və ümumbəşəri dəyərlərin və ölkə vətəndaşlarının maraqlarının əsas konsolodasiya (birləşmə) forması olan hüquqi dövlətdə dövlətin məqsədləri və iradəsi administrativ-dövlət idarəçiliyi sistemi vasitəsilə reallaşdırılır.

"Administrativ-dövlət idarəçiliyi" termini ilk dəfə 1986-cı ildə, demokratik hökuməti elmi idarəetmə metodlarına malik olmayan səriştəsiz hökumət adlandıran ABŞ-ın Respublika partiyasının proqramına daxil edilmişdir. 1990-cı ildən dövlət administrasiyası ABŞ-ın və Qərbi Avropanın aparıcı ali məktəblərində tədris proqramının bir hissəi oldu.

Azərbaycan Respublikasının milli inkişafında bütün böyük nailiyyətlərin əsasını təşkil etdiyi kimi, Azərbaycanda effektiv dövlət idarəçiliyi sisteminin yaradılması və fəaliyyət göstərməsinin əsasını da Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin yaradıcı fəaliyyəti və idarəçilik mədəniyyəti təşkil edir.

Azərbaycanda dövlət idarəçilik sisieminin uğurlu islahatları və təkmilləşdirilməsi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Qərb ölkələrinin təcrübəsi əsasında dövlət idarəçiliyi sisteminin modernləşdirilməsi haqqında" Fərmanına uyğun olaraq, 1998-ci ildə başlanmışdır. Bu qərarın müdrikliyi və uzaqgörənliyi dünya mədəniyyəti və sivilizasiyasının antik tarixi ilə təsdiqlənir. Sokrat deyirdi ki, "əgər mən fleytanı düzəltmək istəyirəmsə, fleyta ustasının yanına gedirəm, əgər mən gəmini təmir etmək istəyirəmsə, gəmiqayıranın yanına gedirəm, dövlətin düzəldilməsi (idarə olunması) üçünsə, hər kəs yararlı hesab olunur". Professor Rudolf fon Skala hələ XIX əsrdə özünün Yunanıstanın inkişaf tarixinə dair tənqidi təhlilində bu sitatı misal gətirmişdir. Bəşəriyyətin mədəniyyət tarixində unudulmaz xidmətləri olan ölkəsini necə xilas etmək haqqında düşünərək, alim praktik tövsiyələr formulə etdi ki, onların reallaşdırılması Yunanıstanı o dövrdə düşdüyü böhrandan xilas edə bilərdi. Onların sırasında "fəaliyyətə vərdişlər"in, "orta Avropa işinə öyrədilmə"nin, "əkinçiliyə və becərilən torpağın genişləndirilməsinə öyrədilmə"nin tərbiyələndirilməsi zəruriliyi qeyd olunurdu. Bu zaman o, "siyasətdə və jurnalistikada mühüm rol oynayan kəmsavad insanla-

rın əsl savadlılar tərəfindən sıxışdırılmasının", "lovğalığa son qoyulmasının", "bürokratiyada və orduda dəmir intizamın qurulmasının" vacibliyini başlıca vəzifə kimi göstərmişdir. Alman professorunun tənqidi təhlil məntiqi diqqətəlayiqdir, belə ki, o, ayrı-ayrı ölkələrin öz inkişafında Avropa və dünya səviyyəsindən, bugün də əhəmiyyətini itirməyən, xarakterik geriqalma səbəblərini açmışdır.[25]

XX əsrin 90-cı illərinin sonuna yaxın, ölkənin davamlı, rəqabət qabiliyyətli və təhlükəsiz inkişafına əsaslanan dövlət idarəçiliyi mədəniyyəti Azərbaycan Respublikasının uğurlu inkişafı üçün xüsusi əhəmiyyət kəsb etdi. O, milli dövlətçilik mədəniyyətinin və beynəlxalq idarəetmə subyekti kimi respublikanın inkişafının təkmilləşdirilməsi üçün ən mühüm şərtlər qismində nəzərdən keçirilməyə başlandı. Bu mədəniyyət siyasətçilərin və məmurların situasiyanı elmi əsaslanmış surətdə təhlil etmək və "ağacların arxasında meşə"ni görmək, milli maraqlara cavab verən düzgün siyasi və sosial-iqtisadi qərarlar qəbul etmək qabiliyyətinin inkişaf əsası kimi mənimsənilməyə başlandı. Bunu nəzərə alaraq, Azərbaycan dövləti idarəetmə mədəniyyətinin bütün səviyyələrdə inkişafına qanunvericiliklə yardım etmiş və edir, bu strateji sənətin peşəkar təlimini təşkil edir, insanların kulturoloji təhsili və maarifinin təşkilinə, dövlət və sosial idarəçilik problemlərinin sistemli elmi tədqiqatlarının inkişafına yardım edir. O, alimlərin və mütəxəssislərin innovativ fəallığını, elmi müəssisələr və mərkəzlər şəbəkəsinin formalaşması və inkişafını, bu sahədə məhsuldar beynəlxalq əməkdaşlığı dəstəkləyir. Bugün Azərbaycan, demokratik ölkələrin elmi və praktik fəaliyyətini özündə təcəssüm etdirən və eyni zamanda, öz milli maraqlarına, azərbaycançılıq milli ideologiyasına və mədəni dəyərlər siteminə daha çox uyğun gələn xüsusi dövlət idarəçiliyi və inkişaf modelini uğurla inkişaf etdirir.

Yeni demokratik idarəetmə mədəniyyətinin formalaşması müstəqil demokratik Azərbaycan Respublikasının dövlət quruculuğu prosesində baş verirdi. Azərbaycanda sovet ictimai-siyasi sistemindən demokratik cəmiyyət quruculuğuna keçid - ideoloji və siyasi işin əsaslı surətdə yenidən qurulmasını, demokratik ölkələrin inkişaf təcrübəsinə və dünya sivilizasiyası nailiyyətlərinə əsaslanan yeni dövlətçilik mədəniyyətinin formalaşdırılmasını

---

[25] İnkişaf etməkdə olan ölkələrdə bu cür catışmazlıqların aradan qaldırılmasına böyük əhəmiyyət verilir. Məsələn, Azərbaycanda bu problemlərin həllinə 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması, "Dövlət qulluğu haqqında" Qanunun qəbul edilməsi, dövlət idarəçiliyi islahatlar sisteminin həyata keçirilməsi, təcrübəli xarici ekspertlərin bu prosesin elmi əsaslanması prosesinə cəlb edilməsi və digər dövlət tədbirləri.

gündəmə gətirdi. Bu reallıqları və tələbatları nəzərə alaraq, idarəçilik mədəniyyətinin demokratikləşdirilməsi, köhnə dövlət idarəçiliyinin dəyişdirilməsi və administrativ-dövlət idarəçiliyinin keyfiyyətcə yeni sisteminin yaradılması üzrə XX əsrin 90-cı illərində respublikada məqsədyönlü fəaliyyət genişlənməyə başladı.

1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ilə milli dövlət idarəçiliyi sisteminin hüquqi əsası qoyulmuşdur. Ölkə Prezidenti Heydər Əliyevin Fərmanı ilə 1998-ci ildə dövlət idarəçiliyi sisteminin islahatlarına start verildi. Bunun ardınca ölkədə dərhal bu sahədəki islahatlarla bağlı problemlərin müzakirəsi başlandı. Respublikanın dövlətçilik mədəniyyəti və siyasi sistemindəki dəyişikliklərlə diktə edilmiş obyektiv tələbatla şərtlənən bu müzakirə, dövlətçilik aparatının təkmilləşdirilməsi idi. 1999-cu ildə Azərbaycanda dövlət idarəçiliyi sisteminin vəziyyətini öyrənmək və onun effektivliyini artırmaq üçün xüsusi olaraq Dövlət Komissiyası yaradıldı. Komissiya milli dövlət idarəçiliyi sisteminin qərb ölkələrinin təcrübəsi əsasında modernləşdirilməsi zəruriliyi haqqında qərar qəbul etdi. Bu məsələyə Ümumdünya Bankı, TASİS və bir sıra digər beynəlxalq təşkilatlar cəlb olundu. Xarici ekspertlər və təşkilatlar büdcə, audit, dövlət qulluğu və hüquq sisteminin islahatı üzrə tövsiyələr verdilər.

Başlanmış islahatlar prosesində, 1999-cu ilin yanvarında Bakıda, dövlət quruculuğu və idarəçiliyinin müxtəlif sahələri üçün yüksək ixtisaslı mütəxəssislərin hazırlığına, həmçinin dövlət bürokratiyasının fəaliyyətdə olan personalının ixtisasının artırılmasına başlayan - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradıldı.[26] 2000-ci ildə Dövlət qulluğu və uyğun normativ aktlar haqqında Qanunun yaradılması və fəaliyyət göstərməsini nəzərdə tutan Fəaliyyət Planı təsdiqləndi. 21 iyul 2001-ci ildə Azərbaycan Respublikasının "Dövlət qulluğu haqqında" Qanun qəbul edildi. Eyni vaxtda Dövlət qulluğunu idarəetmə Şurası yaradıldı. Qanunun icra strategiyası işə qəbul qaydalarını işləyib hazırlamağı, məmurların hazırlığını, yeni idarəçilik strukturlarının, o cümlədən, administrasiyanın problemlərinin həllini və qanunun icrasına nəzarəti, idarəetmənin keyfiyyətində özünü büruzə verən qeyri-müəyyənlikləri aşkar etməyi və aradan qaldırmağı təmin edə biləcək intellektual və institusional mərkəzlərin yaradıl-

[26] Qərb ölkələrinin tarixi təcrübəsinin öyrənilməsi əsasında milli dövlət idarəçiliyi sisteminin modernləşdirilməsi vəzifəsini əldə rəhbər tutaraq, 2006-cı ildə AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında ilk dəfə olaraq, dövlət idarəçiliyi mədəniyyəti üzrə innovativ kulturoloji kurs daxil edilmişdir.

masını nəzərdə tuturdu. Sonrakı illərdə dövlət aparatının təkmilləşdirilməsinə yönəldilmiş bir sıra qanunlar və fərmanlar qəbul edilmişdir.

Avropa Bərpa və İnkişaf Bankının 2003-cü il üçün hesabatında qeyd edilirdi ki, "Azərbaycanda iri müəssisələrin özəlləşdirilməsi ilə bağlı əsaslı hüquqi və iqtisadi islahatlar, hüquq və məhkəmə islahatları həyata keçirilmiş, bələdiyyə hakiliyyəti institutu yaradılmış (1999-cu il), "Dövlət qulluğu haqqında" Qanun qəbul edilmişdir (2001-ci il)". Hesabatda həmçinin qeyd olunurdu ki, nazirliklərin yenidən qurulması, birləşdirilməsi və yenilərinin yaradılmasında, daha rəqabət qabiliyyətli məvacib strukturunu həyata keçirməyə imkan verən personalın sayının ixtisarında öz ifadəsini tapan dövlətin rolunun "təminetmə funksiyasından nizamlama funksiyasına" doğru dəyişilməsinə nail olunmuşdur.

Dövlət idarəçiliyi sisteminin bundan sonrakı effektivliyinin artırılması və onun inkişaf strategiyasının beynəlxalq standartlara yaxınlaşdırılması məqsədilə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Ölkədə dövlət qulluğunun modernləşdirilməsi haqqında" Fərmanına uyğun olaraq, 2003-cü ildə Azərbaycanda, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən TASİS (*TASİS – Avropa İttifaqı tərəfindən Avropa İttifaqı və bu partnyor ölkələr arasında harmonik və möhkəm iqtisadi və siyasi əlaqələrin inkişafına yardım etmək məqsədilə, MDB ölkələri üçün hazırlanmış proqramdır. Proqramın məqsədi – siyasi azadlıq və iqtisadi tərəqqiyə əsaslanan cəmiyyətlərin yaradılması üzrə partnyor ölkələrin səylərini dəstəkləməkdən ibarətdir*) layihəsinin ekspert-məşvərət fəaliyyəti həyata keçirilməyə başlandı. "Azərbaycan Respublikasında dövlət idarəçiliyi sisteminin islahatları" adlı layihənin əsas vəzifələri qismində aşağıdakılar müəyyən edildi:

- dövlət idarəçiliyi siteminin strateji islahatı və "Dövlət qulluğu haqqında" Qanunun işlənib hazırlanması;
- islahat prosesinə öyrədilmə və dövlət idarəçiliyi sistemində mütərəqqi dəyişiklikləri təmin etməyə qabil struktur şəbəkələrinin yaradılması;
- dövlət qulluğuna qəbul, dövlət qulluqçusu statusunun alınması və daha yüksək vəzifəyə irəli sürülmək üçün lazım olan təlimatların işlənib hazırlanması;
- dövlət qulluğunu idarə etmə üzrə Şuranın fəaliyyətinin təşkil edilməsi;
- dövlət qulluqçularının vahid informasiya bazasının yaradılması və tədris-metodiki materialların hazırlanması.

Birləşmiş Krallıqdan olan ekspert Ronald Yanq tərəfindən işlənib hazırlanmış layihə, Azərbaycanda islahatların uğurla aparılması üçün böyük elmi və praktik əhəmiyyətə malik idi. O, Azərbaycanda dövlət idarəçiliyi

vəziyyətinin - dünya dövlət idarəçiliyi təcrübəsi, əsasən aparıcı demokratik ölkələrin təcrübəsi kontekstində ciddi təhlilini daxil edirdi. Layihədə enerjili və yüksək effektli dövlət və sosial idarəçilik islahatlarının həyata keçirilməsinə məmurların daxili motivasiyasını stimullaşdırmağa qadir, Azərbaycanın davamlı milli inkişafı və sivil dünyaya onun dərin inteqrasiyası üçün yeni imkanlar açan demokratik idarəetmə sisteminin prinsipləri, dəyərləri, texnologiyaları və üstünlüklərinin mahiyyəti açıqlanırdı.

Azərbaycanda dövlət idarəçiliyi vəziyyətinin təhlilinin aparılması gedişatında, hökumətə yardım məqsədilə, TASİS layihəsi tərəfindən bürokratiyanın fəliyyətində əvvəlki dövrdə yığılıb qalan bir sıra nöqsanlar aşkar olundu. Belə nöqsanlar qismində aşağıdakılar sadalanırdı: "...passivlik, təşəbbüsün olmaması, analitik təcrübənin və siyasətin tənqidi qiymətləndirilməsinin olmaması, rəisə xoş gəlməmək qorxusu, qaydalara formal münasibət, vətəndaşlara qarşı laqeydlik, öz fəaliyyətinin strateji qiymətləndirilməsinin olmaması. Məmurların böyük bir hissəsi prioritetlərin qurulması və vəzifələrin həllində imkanları müəyyənləşdirmək əvəzinə, aktual məsələlərin siyahısını tərtib etməklə kifayətlənirdilər".

TASİS layihəsi Azərbaycanda sovet modeli stereotiplərindən azad, yeni dövlət idarəçiliyi sisteminin yaradılması zəruriliyi haqqında nəticəyə gəldi. Yeni sistemin formalaşdırılması prosesində onun əsas parametrləri qismində: "şəffaflıq, elmtutumluluq, mərkəzdənqaçma, bürokratiyanın peşəkar səriştəliliyi, strateji prioritetlərin düzgün seçimi, rəqabətə əsaslanan kadr siyasətinin aşkarlığı, yeni qiymətləndirmə mexanizmləri" müəyyən edildi ki, bunlar bütün səviyyələrdə idarəçilik islahatları gedişatında tətbiq edilməyə başlandı.

Layihənin tövsiyələrində dəyişikliklər tələb edən priorotet fəaliyyət sahələri aydın müəyyən edilmiş, və *"nəyi" dəyişmək lazımdır* və *effektiv dəyişikliklərə "necə" nail olmaq olar* kimi kulturoloji yanaşmanın diktə etdiyi əsas vəzifələr formulə edilmişdir. Həmçinin, siyasət və idarəetmə koordinasiyasının inkişafı, qərarların qəbulu, icrası və nizamlanması proseslərinin təkmilləşdirilməsi, digər xidmətləri idarə etmək üçün orqanların və sistemlərin yaradılması zəruriliyinə dair bir sıra nəticələr edildi. Layihədə demokratik ölkələrin mədəni standartlarının tətbiq edilməsi üzrə tövsiyələr verilmişdir: "vəzifə hakimiyyətindən" "biliklər hakimiyyətinə" keçid, dövlət aparatının sayının azaldılması, məşğulluq proqramının işlənib hazırlanması, vətəndaş cəmiyyəti institutlarına siyasi dəstəyin göstərilməsi.

Milli dövlət idarəçiliyi sisteminin modernləşdirilməsi proqramının həyata keçirilməsi ilə əlaqədar olaraq, 2000-ci illərin əvvəlindən "Simurq"

AMA, elm, təhsil və maarif metodları vasitəsilə, ölkədə dövlət və sosial idarəçilik mədəniyyətinin inkişafına əlindən gələn töhfəni verməyə səy göstərirdi. Bu zaman biz şəxsiyyətin ruhi mədəniyyətinin apriorluğuna və əmək mədəniyyəti ilə idarəetmə mədəniyyəti arasındakı qırılmaz əlaqə mexanizmlərini başa düşməyə əsaslanırdıq. Bu yeni vəzifənin yerinə yertirilməsi, ənənəvi olaraq, "Simurq" AMA-nın fəaliyyəti üçün prioritet olan yüksək intellektual və mənəvi mədəniyyətli şəxsiyyətlər və liderlərin formalaşması effektivliyindən asılı idi. Ona görə də bu istiqamətdə bizim işimizin əsasını insanın universal inkişaf əsası kimi, ruhi mədəniyyətin aparıcı əhəmiyyətinə dəyişməz inam təşkil edir, belə ki, şəxsiyyətin məhz yüksək ruhi mədəniyyəti insanın əməyinə müsbət təsir göstərir, ictimai münasibətlərdə qarşılıqlı anlaşma və sabitlik amili olur, cəmiyyətin mütərəqqi inkişafına yardım edir. Ruhi mədəniyyətin - biliklər, bacarıq, mütəşəkkillik, məsuliyyət və etika kimi səviyyə indikatorları qismində çıxış edən xüsusiyyətlərinin olduğu əmək mədəniyyəti – istehsal edilən məhsulun effektivliyini və keyfiyyətini, ictimai əmək məhsuldarlığının artımını təmin edir. Bu, cəmiyyətin, istisnasız olaraq, dövlət rifahının yüksəlməsinə təsir edən bütün ruhi və maddi mədəniyyət sahələrinə münasibətdə ədalətlidir. Elm və təhsil, idarəetmə və dövlət qulluğu, sənaye və kənd təsərrüfatı, nəqliyyat və rabitə, tikinti və ticarət, incəsənət və xidmət sahəsi – bunlar hamısı insanların yüksək əmək mədəniyyətini, o cümlədən, yüksək idarəetmə mədəniyyətini tələb edir.

Bunu nəzərə alaraq, uyğun hökumət qərarlarını əldə rəhbər tutaraq, 2000-ci illərin əvvəllərində "Simurq" AMA, xarici ölkələrin idarəçilik mədəniyyəti təcrübəsinə həsr olunmuş fundamental monoqrafiyanın hazırlanmasına başladı. Assosiasiya güman edirdi ki, uğurla inkişaf edən Azərbaycan cəmiyyəti və dövləti üçün: dövlət idarəçiliyi şəbəkəsinin modernləşməsi və inkişafı, dövlət qulluqçularının çoxsaylı korpusunun hazırlığı və təkmilləşdirilməsi üçün, respublika tələbələri, gəncləri və vətəndaşları üçün mədəniyyət və idarəetmə və özünüidarə elmi sahəsində universal kulturoloji biliklər vacibdir.

Bu dövrdə respublikada keyfiyyətcə yeni dövlət idarəçiliyi sisteminin yaradılmasına yardım, həmçinin kulturoloji maarifçilik və vətəndaş cəmiyyətinin islahat proseslərinə daha geniş surətdə cəlb edilməsi məqsədilə, "Simurq" AMA TASİS layihəsi ilə əməkdaşlıq yaratdı və layihənin əsas sənədlərini öyrəndi. Dövlət idarəçiliyi problemlərinin sistemli kulturoloji tədqiqatlarını həyata keçirərək, TASİS layihəsi ilə əməkdaşlıq prosesində, özünün peşəkarlığı sayəsində Assosiasiya bu nüfuzlu beynəlxalq təşkilatın etimadını qazandı. "Simurq" AMA-nın bu sahədə elmi nüfuzunun göstəricisi –

TASİS-in xahişi ilə 12 oktyabr 2004-cü ildə TASİS eksperti Ronald Yanqın "Azərbaycan Respublikasında dövlət idarəçiliyi sistemi islahatları" layihəsinə Assosiasiyanın öz rəyini hazırlaması və bu beynəlxalq təşkilata təqdim etməsi oldu.

Respublika üçün layihənin reallaşdırılmasının kulturoloji əhəmiyyətini nəzərə alaraq, 26 noyabr 2004-cü ildə "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası Bakıda, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, "TASİS" proqramı və "Azərbaycanda dövlət idarəçiliyi sisteminin islahat layihəsi" ilə birlikdə "Azərbaycanda dövlət idarəçiliyi sistemi islahatları" mövzusunda kulturoloji seminar keçirdi. Seminarda Özbəkistan Respublikası Prezidenti yanında siyasi və iqtisadi idarəçilik strategiyası sahəsində ekspert, Birləşmiş Krallıqdan olan mütəxəssis Ronald Yanq çıxış etdi. Respublikanın tanınmış alimləri və mütəxəssislərinin iştirakı ilə Azərbaycanda dövlət idarəçiliyi sahəsində islahatların layihəsinin ekspert fəaliyyəti dinlənildi və müzakirə edildi. Respublikada demokratik idarəçilik mədəniyyətinin formalaşmasına fəal yardımına görə Şotlandiya mütəxəssisi Ronald Yanq "Simurq" AMA-nın xarici Fəxri üzvü diplomu ilə təltif olundu.

2000-ci illərin ortalarına yaxın respublikada, demokratik prinsiplərə və islahatlar prosesində xarici ölkələrin təcrübəsinin yaradıcı istifadəsinə əsaslanan keyfiyyətcə yeni dövlət idarəçiliyi sistemi yaradıldı. Bu sistem çərçivəsində hüquqi dövlət quran Azərbaycanın strateji maraqlarına cavab verən, elmi əsaslanmış idarəçilik texnologiyası və innovativ fəaliyyət proqramı istifadə olunmağa başlandı. Bu dövrdə ilk dəfə "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birlikdə işləyib hazırladığı "İdarəetmə mədəniyyəti" fənni tələbələrə, məmurlara və Akademiyada ikinci təhsil alan şəxslərə uğurla tədris edilməyə başlandı.[27] Bu innovativ kurs ABŞ, Birləşmiş Krallıq, Almaniya, Fransa, Yaponiya, Rusiya və digər ölkələrin zəngin dövlət idarəçiliyi və dövlət qulluğu təcrübəsini özündə ehtiva edirdi. Bununla yanaşı qədim və orta əsrlər dövründə Şərq və Qərb ölkələrinin dövlətçilik və dövlət idarəçiliyi mədəniyyəti, kulturologiya, sosial idarəetmə, liderlik mədəniyyəti, ailənin idarə edilməsi mədəniyyəti və özünüidarə

[27] 2009-cu ildə Bakıda ilk dəfə, Azərbaycan və xarici alimlər və mütəxəssislərin, siyasətçilər və Milli Məclis deputatlarının, diplomatların yüksək qiymətini qazanmış "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" monoqrafiyası dərc olundu. Müasir kulturologiya elminin tədqiqatçılıq metodları və nailiyyətləri əsasında hazırlanan bu kitab, 2012-ci ildə Təhsil Nazirliyi tərəfindən respublikanın ali məktəbləri üçün dərs vəsaiti kimi təsdiq edilmişdir.

mədəniyyətinin metodoloji məsələləri kimi milli insan kapitalının inkişafı üçün vacib mövzular burada öz əksini tapmışdır.

Assosiasiya öz fəaliyyətində sülh mədəniyyətinin bərqərar olması maraqlarında qlobal idarəçilik məsələlərinə də diqqət ayırırdı. BMT yanında akkreditasiya olunmuş Bütün dünyada sülh uğrunda Beynəlxalq Federasiya ilə əməkdaşlıqda, 2003-cü ilin avqustunda *"Dünya mədəniyyəti müdafiə edərsə, mədəniyyət dünyanı xilas edər!"* şüarı altında Bakıda "Dönüş mərhələsində qlobal idarəetmə: dəyişən cəmiyyətdə sülhün bərqərar olmasına innovativ yanaşmalar" mövzusunda beynəlxalq seminar keçirildi. Seminarın işində respublika dövlət strukturları, parlament, səfirliklər, qeyri-hökumət və dini təşkilatların yüzdən artıq nümayəndələri, alimlər və mütəxəssislər, jurnalistlər və gənclər iştirak edirdilər. Onların arasında Bütün dünyada sülh uğrunda Beynəlxalq Federasiyanın üzvləri – Cek Korli və Aleksandr Jiqalov, Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Şeyxülislamın müavinləri – Hacı Sabir Həsənli və Hacı Salman, Bakı sinaqoqunun sədri – Mixail Bekker, Cin Xalq Respublikasının fövqəladə və səlahiyyətli səfiri – Çjan Siyun, Azərbaycanda Tatarstanın səlahiyyətli nümayəndəsi – Rafael İlyazov, Türkiyə, Almaniya, İsrail səfirliklərinin, ATƏT-in (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) nümayəndələri var idi. Seminar iştirakçıları arasında həmçinin: "Xəzər" Beynəlxalq fondunun prezidenti Rəhim Hüseynov, Gənclər və İdman Nazirliyinin idarə rəhbəri Firudin Qurbanov, Azərbaycan Rəssamlar İttifaqının katibi Ağaəli İbrahimov, Azərbaycan Həmkarlar Konfederasiyası Mədəniyyət şöbəsinin müdiri, əməkdar mədəniyyət işçisi Namiq Hüseynov, İqtisadi İnkişaf Nazirliyinin məsul işçisi Namiq Heydərov, Təhsil Cəmiyyətinin sədri, prof. Əjdər Ağayev, respublika Mədəniyyət Fondunun birinci müavini, əməkdar mədəniyyət işçisi Rafiq Kaşanlı, professorlar – Rafiq Zeynalov və Kamil Səlimov, dosent Sevda Əlizadə, Təhsil İslahatları İnstitutunun direktoru, prof. Abdulla Mehrabov, İqtisadiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Şahbaz Muradov, politoloq Svetlana Bayramova, tanınmış cərrah Xudayar Mustafayev və b. var idi.

Seminarda sülhü qoruma fəaliyyətinə görə akademik Madsud Əliyevə, Şeyxülislamın müavini, tanınmış ilahiyyətçi Hacı Sabir Həsənliyə və "Sülh və demokratiya uğrunda" QHT-nın rəhbəri, professor Əli Abbasova təntənəli surətdə "Sülh səfiri" beynəlxalq diplomları təqdim olundu. Sülh mədəniyyəti sahəsindəki fəaliyyətdə istifadə üçün seminarın tövsiyələri Bütün dünyada sülh uğrunda Beynəlxalq Federasiyaya və BMT-yə təqdim olundu.

“Simurq” AMA-nın Azərbaycan cəmiyyətinin sosial-mədəni inkişafındakı rolunu qiymətləndirmək üçün Assosiasiyanın dövlət strukturları və QHT-lə birlikdə həyata kecirdiyi daha sosial əhəmiyyətli layihələrindən birini - Azərbaycanda yoxsulluğun azaldılmasına yönəldilmiş layihəni nəzərdən keçirək. Yoxsulluqla mübarizə, - təhsil və səhiyyə, iqtisadi inkişaf, enerji istehsalı və istehlakı, kənd təsərrüfatı və dağ rayonlarının inkişafı, ekologiya və turizm, əhalinin sosial müdafiəsi, investisiya siyasəti, vətəndaşların bələdiyyə özünüidarəsi, insan hüquqları, sosial cəhətdən həssas vətəndaşların dəstəklənməsi, qaçqınlar və məcburi köçkünlərin problemlərinə dövlətin və cəmiyyətin diqqətinin artırılmasını tələb edirdi.

Layihə Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2003-cü il tarixli “*2003-2005-ci illər* üçün *Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf* üzrə *Dövlət Proqramı”* Fərmanına uyğun olaraq, Azərbaycanda yoxsulluğun azaldılması və sosial-iqtisadi inkişaf çərçivəsində, respublika İqtisadi İnkişaf Nazirliyinin Yoxsulluğun azaldılması üzrə katibliyi və “Ümid” qeyri-hökumət təşkilatı ilə birgə yerinə yetirilirdi.

Azərbaycanda yoxsulluğun azaldılması üzrə layihənin həyata keçirilməsi prosesində Assosiasiya, *cahillik – şər və yoxsulluqdur* anlayışına əsaslanırdı, yoxsulluq (maddi və ruhi anlamda) isə vətəndaş həmrəyliyini pozur və ölkəni xarici çağırışlar qarşısında gücsüz edir. Bunu nəzərə alaraq, “Simurq” AMA yoxsulluğun azaldılması probleminin xüsusi kulturoloji təhlilini keçirməyi təklif etdi ki, bu təhlilin nəticələri əhalinin yoxsulluqla mübarizə qabiliyyətinin artırılmasına yönəldilmiş düzgün metodoloji istiqamətlər və təlim metodlarının seçilməsinə yardım etməli idi. Layihənin elmi təminat metodikası: insanların dəyərlər sistemi, psixologiyası və təfəkkür məntiqinin, və davranışının öyrənilməsini nəzərdə tutan mədəni antropologiya sahəsində keyfiyyətcə yeni tədqiqatları; əhalinin sosial vəziyyətini və onun tələbatlarını öyrənmək imkanı verən ənənəvi sosial sorğunu; məşğulluq və həyat təminatı resurslarının axtarışı probleminin həlli ilə bağlı marketinq tədqiqatlarını daxil edən sistemli təhlilin aparılmasını nəzərdə tuturdu.

“Simurq” AMA-nın Azərbaycanda yoxsulluq problemlərinə sistemli kulturoloji yanaşma məntiqi - yoxsul insanın seçim azadlığından məhrum olması və layiqli həyat təminatı və inkişaf üçün məhdud olmasına əsaslanırdı ki, bu da dövlətdə və cəmiyyətdə özünü neqativ şəkildə göstərir. Dünya praktikası təsdiq edirdi ki, yoxsulların təhsil və səhiyyə kimi mədəni nemətlərə məhdud əlyetərliyi, maddi təminatın olmaması, sosial sıxıntı, ekoloji cəhətdən müdafiə olunmaması – ictimai sabitsizlik, böhranlar, münaqişələr və terrorçuluğun potensial mənbəyidir.

Aclıq, xəstəliklər, cinayətkarlıq və digər neqativ sosial təzahürlərin dağıdıcı proseslərə, vətəndaş həmrəylinin pozulmasına aparan və milli təhlükəsizlik üçün təhlükə yaradan antimədəniyyətin sosial bazası olduğu şübhə doğurmurdu. Yoxsullar xəstəliklər və təbii fəlakətlər, iqtisadi və siyasi çətinliklər qarşısında müdafiəsizliyi aşkar edirlər. Yoxsullar sosial-siyasi həyatda tamdəyərli iştirakdan, onların həyatında özünü göstərəcək mühüm qərarların qəbul edilməsinə təsir imkanından məhrumdurlar.

Yoxsulluqdan qurtulmaq və insana layiq həyat tərzinə nail olmaq, göstəriciləri - təhsilin səviyyəsi, gəlirlərin səviyyəsi və uzunömürlülük olan, insanın inkişaf indeksini yüksəltmək – biliklərə, bacarığa, mütəşəkkilliyə, mənəviyyata və məqsədyönlü yaradıcı fəaliyyətə əsaslanan sosial həyat fəaliyyəti texnologiyalarının hazırlanması yolu ilə mümkündür. Buradan, əhalinin, xüsusilə Azərbaycanın regionlarında az təhsilli insanların konkret biliklər və vərdişlər qazanmasına, istehsal, ticarət və istehlak mədəniyyətinin, idarəçilik, etik, hüquq, tibb və ekoloji mədəniyyətin inkişafına yardım edən kulturoloji seminarların və treninqlərin keçirilməsi zəruriliyi haqqında nəticəyə gəlindi. Belə seminarlar təbii, maliyyə, maddi-texniki resurslar və insan kapitalının optimal istehlakına, yoxsul əhali arasında həyat resursları defisitini aradan qaldırmağa yardım edir.

Yoxsulluq problemlərinin həllinə kulturoloji yanaşma üzrə "Simurq" AMA-nın tövsiyələri – Quba, Naxçıvan, Şəki, Masallı, Gəncə, Şamaxı, İmişli, Şəmkir, Qazax, Ağstafa, Salyan, Hacıqabul, Laçın, Ağsu, Saatlı, Tovuz, Neftçala, Qax, Xaçmazda və respublikanın digər rayonlarında keçirilən seminarlar və treninqlərdə nəzərə alınırdı. Yoxsulluğun aradan qaldırılmasına yardım məqsədilə, yerli əhalinin təhsil və ümumi mədəni səviyyəsinin yüksəldilməsinə yönəldilmiş bu görüşlərdə - "Simurq" AMA-nın vitse-prezidenti Namiq Hüseynov, Assosiasiyanın rəyasət heyətinin üzvü Svetlana Bayramova, Assosiasiyanın rəyasət heyətinin məsul katibi Ağazəki Məlikov və "Simurq"un digər üzvləri fəal iştirak edirdilər. 2003-2004-cü illər ərzində Azərbaycanın bir çox rayonlarında maarifləndirici kulturoloji ictimai seminarlar və treninqlər keçirilmişdir ki, burada yüzlərlə kənd əməkçiləri, yoxsul ailələr, icmalar, dövlət və qeyri-hökumət təşkilatlarının, respublika regionlarının qadınlar və gənclər təşkilatlarının nümayəndələri zəruri biliklər və bacarıqlar əldə etmişlər.

Respublika İqtisadi İnkişaf Nazirliyinin Yoxsulluğun azaldılması üzrə katibliyinin rəhbərliyi altında, həmçinin "Ümid" qeyri-hökumət təşkilatı və "Simurq" AMA-nın iştirak etdiyi, Azərbaycanda yoxsulluğun azaldılması üzrə geniş miqyaslı Dövlət Proqramının həyata keçirilməsi nəticəsində, 2005-ci ildə respublikada yoxsulluğun səviyyəsi 2002-ci il ilə müqayisədə 46, 7 %-dən 29, 3%-ə endi.

Sonrakı illərdə bu istiqamətdə uğurlar daha da artdı, və 2007-ci ilin sonuna yaxın yoxsulluq səviyyəsi 15, 8%-dək endi.[28]

2000-ci illərin birinci yarısında Assosiasiyanın yaradıcı fəaliyyətinin beynəlxalq tanınması göstəricilərindən biri, onun beynəlxalq konfranslarda və seminarlarda iştirakı idi. Assosiasiyanın kulturoloji tədqiqatlarının nəticələri ABŞ, Rusiya, Fransa, Tayland, Macarıctan və digər ölkələrdə beynəlxalq konfranslarda məruzə edilirdi. Onların arasında: BMT-də - "Vətəndaş Cəmiyyətinin cavabı: Millenium üzrə BMT-nin Bəyənnaməsi" Beynəlxalq konfransı (Nyu-York, BMT, 21-22 oktyabr 2000-ci il), ABŞ-da - Sülh mədəniyyəti və inkişaf məsələləri üzrə liderlərin Beynəlxalq seminarını (Vaşinqton, 23-25 fevral 2001-ci il), Rusiyada - Sülh mədəniyyəti və inkişaf məsələləri üzrə liderlərin Beynəlxalq seminarını (Moskva, 20-21 may 2001-ci il), Azərbaycanda - Mədəniyyət siyasəti üzrə Beynəlxalq konfrans (Bakı, 27-29 iyun 2001-ci il), YUNESKO-nun iştirakı ilə Rusiyada - "Kulturologiya-Mədəni siyasət-İnkişaf" Beynəlxalq konfransı (Moskva, 1-3 iyul 2001-ci il), Taylandda - Qlobal cəmiyyətin etik və sosial mədəniyyət üzrə BMT-nin Beynəlxalq konfransı (Banqkok, sentyabr, 2003-cü il), Rusiyada - Beynəlxalq fəlsəfi-kulturoloji konqress (Sankt-Peterburq, oktyabr, 2003-cü il), Cənubi Koreyada - "Liderlik və İdarəetmə: Dünyanın Yaxşı İdarə edilməsi Böhrandadır" Ümumdünya Sammiti (Seul, yanvar, 2004-cü il), Fransada - "Azərbaycan bugün: dil, ədəbiyyat və cəmiyyət" Beynəlxalq kollokviumunun (Paris, may, 2004-cü il) və s. adlarını çəkmək olar.

"Simurq" AMA-nın ücüncü qurultayından sonrakı illər ərzində Bakıda onlarla respublika və beynəlxalq konfranslar və seminarlar keçirilmişdir. Bu - təhsil, ekologiya, incəsənət, iqtisadiyyat üzrə, sahibkarlıq və mesenatlıq mədəniyyəti üzrə, Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi və s. üzrə konfranslar və seminarlar idi. Bu və ya digər problem üzrə mütəxəssislərə ən yeni informasiyalarla, fikirlərlə mübadilə etmək imkanı verərək, onların hər biri canlı, aydın, çox maraqlı keçirdi. Seminarlar insanların elmi dünyagörüşü və etik mədəniyyətinin inkişafına yardım edirdilər.

Özünün elmi konsepsiyalarına və kulturoloji tədqiqatlarının nəticələrinə əsaslanaraq "Simurq" AMA, ictimai-faydalı elmi, təhsil və maarifçilik

---

[28] http://csln.info/news/urn:news:1CF1C94. 2013-cü ilin may ayında Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun hər il keçirilən Parlament Şəbəkəsinin konfransında çıxış edərək, Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov, yoxsulluğun ümumdünya səviyyəsinin 21% təşkil etdiyi halda, ölkəmizdə yoxsulluq göstəricisinin 6% olması haqqında məlumat verdi. http://www.trend.az/capital/business/2163863.html

strukturları və mexanizmlərinin, həmçinin milli mədəniyyətin inkişafına yönəldilmiş ekspert tövsiyələrinin müxtəlif formalarını ifadə edən yeni-yeni layihələri işləyib hazırlamağa və sosial-mədəni inkişaf praktikasına tətbiq etməyə səy göstərirdi. Yalnız 2001-2008-ci illərdə onun tərəfindən, milli-mədəni inkişaf, ilk növbədə, insan kapitalının formalaşması və inkişafı tələbatlarına cavab verən 15 ciddi layihə həyata keçirilmişdir.

Üçüncü qurultaydan sonra Assosiasiyanın tam yaxud qismən həyata keçirilmiş layihələri arasında aşağıdakı layihələrin adlarını çəkmək olar:

- ✓ "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım" (2001);
- ✓ "Vətəndaş Cəmiyyəti Mədəniyyətinin Beynəlxalq Forumu" (2001);
- ✓ "Qlobal idarəetmə və sülh mədəniyyətinin bərqərar edilməsinə innovativ yanaşmalar" (2003);
- ✓ "Azərbaycanın orta məktəb trenerləri, qaçqın müəllimləri üçün sülh mədəniyyəti üzrə treninq" (2003);
- ✓ "Tələbə-kulturoloqlar üçün istehsalat praktikası konsepsiyası və proqramı" (2004);
- ✓ "Azərbaycanda yoxsulluğun azaldılmasına yardım" (2003-2004);
- ✓ "Simurq" Beynəlxalq kulturoloji jurnal (2005);
- ✓ "Məhkum qadınlara qarşı münasibətdə etikanın rolu: ailə və cəmiyyət kontekstində" (2006-2007) və s.

## Milli kulturologiya elmi və maarifinin inkişafında Assosiasiyanın rolu

"Simurq" AMA tərəfindən kulturologiya sahəsində ilk dəfə nəşr edilmiş "Kulturologiya. Nəzəriyyə və tarix məsələləri" fundamental monoqrafiyanın təntənəli təqdimatı paytaxtın mədəni həyatının tarixində yadda qalan hadisə oldu. Təqdimat 6 noyabr 2002-ci ildə "Avropa" hotelində oldu. Təqdimatda AR Prezident Aparatı, Nazirlər Kabineti, Milli Məclis, nazirliklərin nümayəndələri, akademilklər, professorlar və müəllimlər, ali məktəb rektorları və kafedra müdirləri, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin üzvləri, Norveç, Çin, Yaponiya, Rusiya, Türkiyə, İraq və digər dövlətlərin səfirliklərinin nümayəndələri, beynəlxalq təşkilatlar və xarici kompaniyaların nümayəndələri, qeyri-hökumət təşkilatları liderləri, tələbələr və aspirantlar, sahibkarlar və jurnalistlər iştirak edirdilər.

Təqdimatı giriş sözü ilə, kitabın elmi və praktik dəyəri, onun novatorluq xarakteri və kulturoloji simvolik mənası haqqında danışan, Assosiasiyanın birinci vitse-prezidenti, akademik Maqsud Əliyev açdı. Tanınmış alim qeyd etdi ki, Assosiasiyanın monoqrafiyası, Azərbaycan Respublikasının mütərəqqi inkişafı xeyrinə yaradıcı istifadəsi məqsədilə, zəngin milli və beynəlxalq tarixi sosial-mədəni inkişaf təcrübəsi üzərində qurulmuşdur. Monoqrafiyanı Assosiasiyanın ciddi elmi nəticəsi kimi nəzərdən keçirərək, akademik qeyd etdi ki, o, dünya və milli mədəniyyət tarixinin, həyat fəlsəfəsi, insanın inkişaf texnologiyaları və sosial inkişaf texnologiyalarının, dövlət quruculuğu, mədəniyyət siyasəti və idarəetmənin bir çox aktual suallarına cavab verən ciddi əsərdir. Əsərdə qoyulan və tədqiq edilən məsələlər yalnız tələbələr, müəllimlər və tədqiqatçı-kulturoloqlar üçün deyil, həm də dövlət idarəçiliyi sahəsi mütəxəssisləri, mədəniyyət menecerləri, siyasətçilər, yaradıcı və sosial işçilər, qeyri-hökumət təşkilatları liderləri, həmçinin geniş oxucu dairəsi və gənclər üçün elmi və praktik əhəmiyyət daşıyır. Alim qeyd etdi ki, monoqrafiyada görkəmli Amerika alimi, əslən azərbaycanlı Lütfi Zadənin baza nəzəriyyələri, müasir elmin, məntiqin nailiyyətlərinə və qloballaşma şəraitində zamanın tələblərinə cavab verən kulturologiyanın düzgün metodoloji əsasının formalaşdırılması üçün ilk dəfə uğurla istifadə edilmişdir.

Maqsud Əliyev qeyd etdi ki, "Simurq" AMA tərəfindən hazırlanmış monoqrafiya Azərbaycanda və xarici ölkələrdə bir çox ünvanlara göndərilmişdir. O, respublika kitabxanalarına, o cümlədən ali məktəblərin və Elmlər Akademiyasının, nazirliklər və idarələrin, Azərbaycanın idarə orqanlarının, səfirliklər, bir sıra beynəlxalq təşkilatlar və fondların kitabxanalarına, müəllimlər və tələbələrə, qeyri-hökumət təşkilatları liderlərinə və jurnalistlərə çatdırılmışdır. Nəşrin müəyyən hissəsi Rusiya, Almaniya, Fransa, Böyük Britaniya, Avstriya, İtaliya, Çin, Yaponiya, Türkiyə, Ukrayna, Polşa, Gürcüstan, Rumıniya, Bolqariya, Yunanıstan, Özbəkistan, Misir, İran, İraq, Hindistan, Pakistan, Səudiyyə Ərəbistanı, Tatarstan kimi ölkələrin milli kitabxanalarına göndərilmişdir. Ünvan sahibləri arasında – ABŞ Konqressi kitabxanası, BMT, YUNESKO, Roma Klubu, Avropa Şurası, ATƏT, Qeyri-hökumət təşkilatlarının Ümumdünya Assosiasiyası, Bütün dünyada sülh uğrunda Ümumdünya Fedarasiyası, Rusiya Kulturologiya İnstitutu, "Deutschland" jurnalı, Almaniyanın Höte İnstitutu, "İntellektual inkişaf problemləri" Beynəlxalq Elmlər Akademiyası da vardı. Kitab, həmçinin dünya mədəniyyətinin inkişafına Lütfi Zadə kimi ciddi töhfə vermiş ayrı-ayrı şəxsiyyətlərə, "Simurq" AMA-nın xarici fəxri üzv-

ləri - Norveç, ABŞ, Çin, Rusiya, Böyük Britaniya, Türkiyə və digər dünya ölkələrinin mütəxəssisləri və diplomatlarına verilmişdir.

Kitabın elmi, maarifləndirici və sosial əhəmiyyətini, Milli EA-nın akademikləri - Fuad Qasımzadə, Ziyad Səmədzadə, Azərbaycanda Çinin fövqəladə və səlahiyyətli səfiri Çjan Siyun, Milli Məclis üzvü, general Vladimir Timoşenko, "İntellektual inkişaf problemləri" Beynəlxalq Elmlər Akademiyasının akademiki Namiq İsmayılov, Azərbaycan Elektrotexnika Elmi-Tədqiqat İnstitutunun elmi iş üzrə direktor müavini, dosent Ağazəki Məlikov, BDU-nin professoru Əsədulla Qurbanov və başqaları da öz çıxışlarında qeyd etdilər.

Cəmiyyətin inkişafı üçün kulturologiyanın strateji əhəmiyyətini, və Assosiasiya tərəfindən hazırlanan "Kulturologiya" monoqrafiyasının üstün cəhətlərini açıqlayaraq, akademik Fuad Qasımzadə, Azərbaycanda ilk dəfə belə ciddi novator əsər yaradan istedadlı tədqiqatçı kimi, onun müəllifi Fuad Məmmədovun xidmətlərini qeyd etdi. Alim qeyd etdi ki, sistemli kulturoloji təhlil əsasında hazırlanan kitab, müasir şəraitdə Azərbaycan cəmiyyəti və dövlətinin universal inkişaf əsası kimi, ruhi mədəniyyətin sosial əhəmiyyəti, funksiyaları və imkanlarını geniş şəkildə açıqlayan, metodoloji cəhətdən düzgün yanaşma ilə seçilir. Akademik qeyd etdi ki, onun rəhbərlik etdiyi ekspert komissiyası Azərbaycan Təhsil Nazirliyinə kitabı ölkənin ali məktəbləri üçün dərs vəsaiti qismində təsdiq etməyi tövsiyə etmişdir, özü isə kitabın elmi redaktoru və ön sözün müəllifi öhdəliyini öz üzərinə götürdü.

Azərbaycanda Çinin fövqəladə və səlahiyyətli səfiri Çjan Siyun monoqrafiyanın böyük intellektual və humanist xarakterini qeyd etdi. O, qloballaşma şəraitində sülh mədəniyyəti və beynəlxalq əməkdaşlığın inkişafına yardım edən belə əsərlərin yaradılmasının zəruriliyini və aktuallığını xüsusilə nəzərə çatdırdı. Səfir dedi: "Mən cənab Fuad Məmmədovun kitabını ay yarım ərzində dərindən öyrəndim. O, cahanşümul, beynəlxalq əhəmiyyətə malikdir. Bu, insanın düzgün təfəkkürünü və düzgün həyat və fəaliyyət texnologiyalarını unikal formalaşdırma cəhdidir. Müəllif müxtəlif xalqların mədəni inkişaf təcrübəsini obyektiv surətdə və ehtiramla nəzərdən keçirir və onların qarşılıqlı anlaşma və əməkdaşlıq yolunu göstərir. Bu daha yaxşı, münaqişəsiz, firavan gələcəyə aparan yoldur".

Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə Azərbaycan cəmiyyəti qarşısında ciddi elmi xidmətləri olan Fuad Məmmədovun vətəndaş mövqeyinin düzgünlüyünü qeyd etdi. O, müəllifin Azərbaycanda xüsusi kulturoloji tədqiqatların əsasını qoyan çoxillik novator yaradıcı fəaliyyəti haqqında danışdı. O həmçinin qeyd etdi ki, dünya və milli mədə-

niyyətin tarixi və nəzəriyyəsi sahəsində müəllifin əsərləri elmi ictimaiyyət tərəfindən yalnız Azərbaycanda deyil, xaricdə də yüksək qiymətləndirilir.

"İntellektual inkişaf problemləri" Beynəlxalq Elmlər Akademiyasının akademiki Namiq İsmayılov monoqrafiyanı qiymətləndirərək, öz çıxışında məlumat verdi ki, onun təmsil etdiyi təşkilatın rəyasət heyəti "Kulturologiya" kitabını sosial və humanitar elmlərin inkişafına qiymətli töhfə kimi dəyərləndirmiş və Fuad Məmmədovun bu Beynəlxalq Akademiyaya akademik seçilməsi haqqında qərar qəbul etmişdir. O həmçinin Akademiyanın, kitabın təkrar nəşrinin və İnternet vasitəsilə beynəlxalq istifadəsi üçün onun elektron variantının hazırlanması və yayılmasını tövsiyə etməsi qərarı haqqında məlumat verdi.

Milli Məclis deputatı, general Vladimir Timoşenko monoqrafiyaya yüksək qiymət verdi. Öz çıxışında o qeyd etdi ki, "Simurq" AMA-nın "Kulturologiya" kitabı mühüm beynəlxalq əhəmiyyətə malikdir, çünki müxtəlif xalqların sosial-mədəni inkişaf nümunələrini göstərir və oxucunu inandırır ki, daha yaxşı gələcəyə yol yalnız yüksək ruhi mədəniyyətdən keçir.

Tələbələr və gənclər üçün dərs vəsaiti kimi təsdiq olunmuş monoqrafiyanın maarifçilik dəyərini, Bakı Dövlət Universitetinin professoru Əsədulla Qurbanov da layiqincə qiymətləndirdi. O qeyd etdi ki, Azərbaycanda kulturologiya elmi və maarifinin inkişafı üçün bütün şəraitləri yaratmaq zəruridir.

Assosiasiyanın rəyasət heyətinin ünvanına səfirlər, nazirlər, Azərbaycan və xarici alimlər və mütəxəssislərdən kitab haqqında çoxlu sayda müsbət rəylər daxil olmuşdur. Bu rəylərdə Assosiasiyanın işi kulturologiya elmi və maarifinin inkişafına, müxtəlif xalqların proqressiv sosial-mədəni inkişaf təcrübəsinin öyrənilməsi və yayılmasına ciddi töhfə kimi qiymətləndirilirdi. Rəylərdə həmçinin kitab, intellektual və idarəetmə mədəniyyətinin, vətəndaş cəmiyyətinin formalaşdırılması, qarşılıqlı anlaşma və beynəlxalq əməkdaşlıq, sülh mədəniyyətinin humanist dəyərlərinin inkişaf problemləri üzrə ciddi mənbə kimi nəzərdən keçirilirdi. Kitabın yayılması prosesində, onun azərbaycan, ingilis, rus və digər dillərdə yenidən nəşr edilməsi üçün coxlu sayda arzu və istəklər daxil olmuşdur.

Bu dövrdə Assosiasiyanın fəaliyyətinin kulturoloji nəticələri yalnız "İntellektual inkişaf problemləri" Beynəlxalq Elmlər Akademiyasının deyil, eyni zamanda Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyası tərəfindən tanınmışdı. Onların ictimai və beynəlxalq qiymətləndirməsi "Kulturologiya" monoqrafiyasının, Azərbaycan Respublikasının "Humay" Milli İctimai mükafatı ilə təltif olunmasında, Assosiasiyanın Avropa Şurasının Mədəniyyət siyasəti üzrə ekspertlərin məlumat bazasına daxil edilməsində də əks olun-

muşdur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutunun məzunlarının – onlarla kulturoloqların "Simurq"AMA-da istehsalat praktikası keçməsi də kulturologiya sahəsində "Simurq" AMA-nın nailiyyətlərinin tanınması idi.

"Kulturologiya" monoqrafiyası kulturologiya sahəsində Assosiasiyanın fundamental novator elmi nəticəsi olsa da, o bu dövrdə Assosiasiya üzvləri tərəfindən dərc etdirilən bir çox dəyərli işlərdən yalnız biri idi. Qurultaydan sonrakı dövr ərzində "Simurq" AMA-nın üzvləri fəal surətdə elmi tədqiqatlar həyata keçirirdilər. 2000-ci ildə Azərbaycanda və xaricdə çoxlu sayda ciddi monoqrafiyalar, kitablar, məcmuələr və dərs vəsaitləri dərc edilmiş, milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi, insanın davamlı inkişafı, sosial-mədəni siyasət, idarəetmə mədəniyyəti, sülh, beynəlxalq münasibətlər mədəniyyəti və digər problemlər üzrə onlarla elmi və elmi-maarifləndirici məqalələr nəşr edilmişdir. Dərc edilmiş əsərlər arasında – "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşmasına yardım" (2001), "Norveç mədəniyyəti dünya sivilizasiyası kontekstində" (2002), "Dönüş mərhələsində qlobal idarəetmə" (2003) və s. kimi kollektiv kitablar, dərsliklər, dərs vəsaitlərini və məcmuələri qeyd etmək lazımdır.

Ayrı-ayrı müəlliflərin, Assosiasiyanın və Kulturoloqlar Cəmiyyəti üzvlərinin monoqrafiyaları: Fərman İsmayılovun - "XX əsr Qərb fəlsəfəsi" (2000), "Dilin metafizikası" (2002), "Klassik psixoanalizin əsasları" (2003); Əli Abbasovun – "İdrakın tarixi, nəzəriyyəsi və metodologiyası problemləri" (2001); Ramiz İsgəndərovun – "Elmi-texniki tərəqqi və yeniliklər bazarı" (2000), "Əmək bazarı", "Məşğulluq", "İşsizlik və əhalinin sosial müdafiəsi", "Sosial tərəfdaşlıq", "Beynəlxalq əmək təşkilatı: tarixi, strukturu və Azərbaycan ilə əlaqələri" (2001), "İstehsal texnologiyaları və texnoloji inkişafın proqnozlaşdırılması", "Elmi-texniki tərəqqi və bazar dəyişikliklərinin sosial aspektləri", "Əmək bazarı və əhalinin sosial müdafiəsi" (2002), "İslahatlar dövründə elmi-texniki tərəqqi və sosial-iqtisadi problemlər" (2005); Nizami Cəfərovun – "Azərbaycanlılar: etno-mədəni inkişafın siyasi-ideoloji üfüqləri" (2001); Niyazi Mehdinin – "Çətin və dolaşıq durumların kulturologiyası" (2001); Şamil Fətullayev-Fiqarovun – "Abşeron memarlığı" (2003); Rəna Məmmədovanın – "Azərbaycan muğamları", "Musiqili türkologiya" (2002); Şahlar Əsgərovun – "Milli birliyə fəlsəfi baxış" (2001), "Təhsilimiz: dünən, bugün və sabah" (2003); Namiq Hüseynovun (həmmüəllif) – "Kamandan oxatma" (2002); Nəriman Həsənzadənin – "Kulturologiya" (2005); Tahir Behbudovun – "Daxili işlər orqanlarının tarixi", "İngilis polisləri Bakıda, 1918-1919" (2003), "Polis etiketi" (2005); Solmina Dada-

şova və Yeganə Əliyevanın – “Tarixi mədəniyyətlərin modelləşdirilməsinin əsasları” (2005); Mübariz Süleymanlının – “Muzey işinin idarə olunması və iqtisadiyyatı” (2002); Musa Quluzadənin – “Azərbaycanda dövlət və din münasibətləri” (2002); Fidan Fərəcovanın – “Mədəni antropologiyada gender problemləri” (2005); Vüqar Kərimlinin – “Ozanların söyləmələri” (2005); Çingiz Abdullayevin – “Alman –Azərbaycan münasibətləri”, “Bakı-Hamburq: dünyaya açılan qapılar” (2000); Kamil Səlimovun – “Sifarişli qətllərin araşdırılmasında kriminalistik metodun əsasları” (2004); Oqtay Əfəndiyevin - “Hərbi cinayətlər: Nürnberqdən Qarabağadək (beynəlxalq-hüquqi analiz)” (2000); “Müasir beynəlxalq iqtisadi münasibətlərdə istifadə olunan 700 termin (xarici-iqtisadi biliklərin Azərbaycan-rus-ingilis sorğu-lüğəti; yenidən işlənmiş və tamamlanmış nəşr) (həmmüəllif)” (2004): Mərkəzi Qafqazda silahlı münaqişələr və hərbi cinayətlər (beynəlxalq-hüquqi aspekt) (2006); Tahir Əmiraslanovun – “Novruz süfrəsi” (2000), “Azərbaycan kulinariyası ensiklopediyası” (2007); Minaxanım Əsədlinin – “Abdulla Şaiq” (2001); “Abdulla Şaiq Arazdan Turana”, “Abdulla Şaiq və teatr” (1910-1958), (2003), “Yusif Ziya Talıbzadənin həyatı və mühiti” (1877-1923), (2005) və s. böyük elmi əhəmiyyətə malik idi. Bu və digər nəşrlər tələbələr və yuxarı sinif şagirdləri, qeyri-hökumət təşkilatları, bələdiyyələr və həmkarlar təşkilatlarının liderləri və üzvləri üçün, respublikanın geniş oxucu auditoriyası üçün dərs vəsaiti idi. 2007-ci ildə “Simurq” AMA-nın və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin gənc üzvləri Ceyhun Rzayev və Vüqar Kərimli kulturologiya sahəsində ən yaxşı tədqiqat işlərinə görə Mədəniyyət və Turizm Nazirliyinin birinci və ikinci mükafatlarına layiq görülmüşlər.

Göstərilən illərdə “Simurq” AMA eyni zamanda öz üzvlərinin “Üçüncü sektorda” iş metodlarına öyrədilməsini həyata keçirirdi. “Simurq” AMA-nın könüllüləri Soros və “Aysar” fondlarında ingilis dili və kompüterdə iş texnikasını öyrənir, Böyük Britaniyada və Gürcüstanda təçrübə keçirdilər.

Bununla bərabər Azərbaycan Respublikasında “biliklər cəmiyyəti”nin formalaşması - yüksək ruhi mədəniyyətə malik yeni nəsil şəxsiyyətlər və liderlərin hazırlanması standartlarına yeni tələblər irəli sürdü. Vətəndaşların intellektual və etik mədəniyyəti - fiziki, tibbi və ekoloji mədəniyyətin, məişət, şəxsiyyətlərarası və millətlərarası mədəniyyətin inkişafında olduğu kimi, eynilə istehsal və istehlak mədəniyyətinin inkişafında getdikcə daha da artan rol oynayırdı. Bu, informasiya cəmiyyətinə keçid şəraitində milli mədəniyyətin kulturoloji ekspertizasının permanent (daimi) aparılmasının, onun həyat qabiliyyəti, rəqabətə davamlılığı və təhlükəsiz inkişafının qiymətləndirilməsinin əhəmiyyətini aktuallaşdırırdı. Bu problemin həllinin əhə-

miyyətini nəzərə alaraq, "Simurq" AMA tərəfindən 8 konseptual vəzifə formulə edildi ki, onların reallaşdırılması Azərbaycan cəmiyyəti və dövlətinin gələcək tərəqqisinə yardım edə bilərdi. Bu vəzifələr qismində müəyyən edilmişdir:

- dünya sivilizasiyasının inkişaf nailiyyətləri, təcrübəsi və tendensiyalarını nəzərə alaraq, ümumi sosial-mədəni tərəqqi strategiyasının işlənib hazırlanması;
- keyfiyyətinə və templərinə görə davamlı milli inkişaf texnologiyalarının işlənib hazırlanması;
- bütün səviyyələrdə təşkilat və idarəetmə mədəniyyətinin yüksək standartlarına nail olunması;
- yüksək ixtisaslı kadrların, o cümlədən, ekspert-kulturoloqların hazırlanması və düzgün istifadə edilməsi.

Eyni zamanda konseptual vəzifələr sırasına aid edilmişdir:

- ruhi mədəniyyət sistemində struktur islahatlarının aparılması;
- müəyyən edilmiş həyat fəaliyyəti istiqamətlərinin mütərəqqi inkişafını təmin edən hüquq və etik normalarının təkmilləşdirilməsi;
- məqsədli strateji maliyyələşdirmənin həyata keçirilməsi;
- prioritet istiqamətlərin maddi-texniki inkişaf şəraitinin təmin edilməsi.

Milli-mədəni inkişafın bu və digər aktual problemlərinin müzakirəsi üçün 4 fevral 2005-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, universitetin rəhbərliyi, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin iştirakı ilə Kulturoloqların növbəti müşavirəsi keçirildi.

Müşavirədə ADMİU, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası, Bakı Musiqi Akademiyası, Memarlıq və İnşaat Universiteti, Azərbaycan Tarix Muzeyi və respublikanın digər elmi müəssisələri və ali təhsil məktəblərinin elmi işçiləri və müəllimləri, həmçinin Milli Məclis nümayəndələri iştirak edirdilər. İştirakçılar qloballaşma və Azərbaycanda demokratik cəmiyyət və hüquqi dövlət quruculuğu şəraitində kulturologiyanın inkişafı və milli mədəniyyətin modernləşdirilməsi üzrə "Simurq" AMA-nın və respublika Kulturoloqlar Cəmiyyətinin konsepsiyasının əsas müddəalarını nəzərdən keçirdilər.

Müşavirə iştirakçıları "Simurq" AMA tərəfindən işlənib hazırlanmış, milli mədəniyyət və mədəniyyət siyasəti, tarixi dövrün tələbatlarına uyğun olaraq, onun demokratikləşdirilməsi və modernləşdirilməsi sahəsində mütərəqqi islahatlara yönəldilmiş kulturoloji layihələri və praktik tövsiyələri bə-

yəndilər və dəstəklədilər. Onlar qeyd etdilər ki, alim-kulturoloqlar keyfiyyət, effektivlik və Azərbaycanın milli maraqlarına uyğunluq məqsədilə, islahatlar monitorinqinin həyata keçirilməsində hökumətə daha fəal surətdə vətəndaş yardımı göstərməlidirlər.

İştirakçılar, insanın həyat fəaliyyətinin nəzəri problemləri və sosial inkişaf texnologiyalarının öyrənilməsi, cəmiyyətin sosial terapiyasının həyata keçirilməsi, dialektik ziddiyyətlərin həlli və dəyişən dünyanın tələblərinə uyğun qərarların qəbul edilməsi üçün kulturologiyanın əhəmiyyətini bir daha təsdiqlədilər. Onlar Azərbaycan mədəniyyətinin sistemli tədqiqi, onun ənənəvi irsi və milli özünəməxsusluğunun qorunub saxlanması, nailiyyətlərinin və milli inkişaf məqsədilə mədəniyyətin yeni dəyişdirici imkanlarının qiymətləndirilməsi üçün kulturologiyanın əhəmiyyətini yüksək qiymətləndirdilər. Müstəqil Azərbaycan Respublikasının milli-mədəni inkişafının universal nəzəri-metodoloji əsası və elmi-informasiya bazası kimi, onun rolu xüsusilə nəzərə çatdırıldı. Bunu nəzərə alaraq, ölkənin sosial-mədəni siyasətinin kulturologiyanın nailiyyətləri əsasında qurulmasına, siyasi və sosial qərarların isə uyğun kulturoloji ekspertizadan keçirilməsinə yardım etməyin vacibliyi qeyd olundu.

KİV üçün yayılan press-relizdə milli mədəniyyətin aktual problemlərinin sistemli tədqiqatlarının həyata keçirilməsi, həmçinin cəmiyyətdə universal kulturoloji biliklərin yayılması məqsədilə respublika kulturoloqlarının səylərinin birləşdirilməsinin vacibliyi qeyd olunmuşdur. Orada göstərilirdi ki, qloballaşma milli mədəniyyətlərə, o cümlədən Azərbaycan mədəniyyətinə çağırış etmişdir. O, tarixi inkişaf prosesində bəşəriyyətin əldə etdiyi mədəniyyət sərvətlərinin, ilk növbədə, mütərəqqi xalqların fəlsəfə, məntiq və inkişaf texnologiyalarının ciddi öyrənilməsi və yaradıcı istifadəsinin zəruriliyini şərtləndirmişdir. Bu çağırışa cavab, dövlətin siyasi prioriteti olan yüksək ruhi mədəniyyətin qabaqlayıcı inkişafı və modernləşməsi olmalıdır ki, bu da sosial həyatda yoxsulluq, cahillik, etik və hüquqi savadsızlıq və ictimai tərəqqini ləngidən digər neqativ təzahürlərlə daha səmərəli mübarizə aparmağa imkan verir.

Bununla bərabər, müşavirə iştirakçıları tərəfindən Azərbaycanda kulturologiyanın vəziyyətinin ekspert qiymətləndirilməsi verildi. Müstəqilliyin on beş illiyi ərzində, elmin və təhsilin digər sahələri ilə yanaşı, Azərbaycanda milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsinin tədqiqatı sahəsində müəyyən nailiyyətlər əldə edilmişdir. Onlarla monoqrafiyalar, dərsliklər, məcmuələr, elmi məqalələr dərc edilmiş, çoxlu sayda kulturoloji seminarlar, dəyirmi masalar, treninqlər və konfranslar keçirilmiş, televiziya, radio və

respublika mətbuatında onlarla çıxışlar edilmişdir. “Simurq” AMA-nın və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin təşəbbüsü ilə “Mədəniyyətin tarixi və nəzəriyyəsi” ixtisasının Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tərkibinə daxil edilməsi böyük nailiyyət olmuşdur ki, 2003-cü ildən bu ixtisas üzrə kulturologiya elmləri namizədləri və doktorları alimlik dərəcələri almaq üçün dissertasiyaların müdafiəsinin keçirilməsinə başlanmışdır.

Keçən əsrin 90-cı illəri – 2000-ci illərin əvvəllərində milli kulturologiyanın inkişafına “Simurq” AMA ilə yanaşı bir sıra dövlət strukturlarının alimləri və müəllimləri yaradıcı töhfə vermişlər. Bu – AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Milli Elmlər Akademiyasının institutları, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının və bir sıra respublika ali məktəblərinin kollektivləri idi. Azərbaycanın ruhi mədəniyyəti və mədəniyyət siyasətinin inkişafında dövlət strukturları ilə yanaşı, Azərbaycan Mədəniyyətinin Dostları Fondu (AMDF), Azərbaycan Mədəniyyət Fondu və digər nüfuzlu qeyri-hökumət təşkilatlarının elmi-maarifçilik fəaliyyəti ciddi rol oynamışdır. Ölkədə və xaricdə Azərbaycanın milli mədəniyyətinin qorunması və geniş yayılmasında böyük xidmət - artıq uzun illərdir ki, Azərbaycan Mədəniyyətinin Dostları Fondu tərəfindən nəşr olunan “İrs” jurnalına məxsusdur.

Azərbaycan kulturoloqları razılıqla qeyd etdilər ki, Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu 2004-cü ildən respublikanın sosial-mədəni, o cümlədən iqtisadi həyatında aparıcı rol oynamağa başlamışdır. Azərbaycan xalqının mədəni irsinin qorunması və inkişafında, milli dövlətçilik və “azərbaycançılıq” fəlsəfəsi ideyalarının inkişafında və yeni nəslə ötürülməsində Fondun rolunu qiymətləndirmək çətindir. Heydər Əliyev Fondu yeni cəmiyyətin mədəni quruculuğunda yalnız fəal iştirakla deyil, həm də ölkənin sosial-iqtisadi inkişafına böyük töhfə verən, milli mədəniyyətin seçilən təşkilatı oldu. Tezliklə onun fəaliyyəti təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial həyat sahəsi və cəmiyyətin digər həyat fəaliyyəti sahələrində milli miqyasda iri layihələrin reallaşdırılması sayəsində ümummilli əhəmiyyət qazandı.

Mədəniyyətin və kulturologiyanın inkişaf uğurlarını müzakirə edərək, müşavirə iştirakçıları milli kulturologiyanın inkişafında məlum nailiyyətlərlə yanaşı, eyni zamanda bir sıra çatışmazlıqlar və çətinliklərin olması haqqında qayğını ifadə etdilər. Onlar hər şeydən əvvəl, bütöv sosial sistem kimi mədəniyyət fenomeninin yanlış dərk edilməsi və fərdi, ictimai inkişafda,

həmçinin Azərbaycan dövlətinin inkişafında ruhi mədəniyyətin və kulturologiyanın strateji rolunun lazımınca dərk edilməməsi ilə bağlıdır. Belə ki, 1996-cı ildə - Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda, Tusi adına Pedaqoji İnstitutda kulturologiya kafedraları, eyni zamanda Bakı Dövlət Universitetində Etika kafedrası bağlanmışdır. Son illərdə ölkənin ali məktəblərində "mədəniyyətin nəzəriyyəsi və tarixi"nin (kulturologiyanın) adı, elm kimi kulturologiyanın bir hissəsi olan "mədəniyyətşünaslığa" dəyişdirilmişdir, bu fənn üzrə saatların həcmi isə (milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi üzrə imtahanın və referatların ləğv edilməsi ilə) 72 saatdan 18 saata endirilmişdir. 2004-cü ildə Təhsil Nazirliyinin sərəncamı ilə mütəxəssis-kulturoloqlarla müzakirə edilmədən, Azərbaycanın bir sıra ali məktəblərində kulturologiya fənni ləğv edilmişdir. Elə həmin ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aspiranturasına "kulturologiya" ixtisası üzrə qəbul bağlanmışdır. 2005-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kulturologiya fakültəsində 14 humanitar fənn, o cümlədən, "mədəniyyətin fəlsəfəsi" və "mədəniyyətin sosiologiyası" kimi fundamental fənnlər ləğv edilmişdir. Tezliklə kulturologiya fənni Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında da ləğv olundu.

İştirakçılar qeyd etdilər ki, kulturologiyanın yetərincə qiymətlədirilməməsi yaxud kimlərinsə şəxsi maraqları ilə əlaqədar olub-olmamasından asılı olmayaraq, təhsil sistemindəki belə "mədəniyyət siyasətini" başa düşmək çətindir və buna Azərbaycanın milli maraqları nöqteyi-nəzərindən haqq qazandırmaq mümkün deyil. Bununla əlaqədar, düzgün olmayan qərarlar respublikanın aparıcı ekspert-kulturoloqlarının iştirakı ilə yenidən baxılmalıdır. Kulturologiyanın ləğv edilməsi, həmçinin Azərbaycanda fəlsəfə, sosiologiya, psixologiya, politologiya, etika, mədəni antropologiya və digər ictimai fənlərin azaldılması milli maraqlara cavab vermir və məhsuldar tarixi və fəlsəfi təfəkkür qabiliyyəti olmayan "mütəxəssislərin" hazırlanmasına gətirib çıxara bilər.

Həyat dialektikası belədir ki, zaman daxilində həm inkişaf məqsədi, həm də təbiət və cəmiyyət haqqında bizim təsəvvürlərimiz daim dəyişir. Buna uyğun olaraq düzgün sosial-mədəni siyasət, beynəlxalq kulturogenez təcrübəsi və bəşəriyyətin qlobal dəyişikliklər dialektikasını nəzərə almaqla, elmin ən yeni nailiyyətləri və dünya və milli inkişaf tendensiyalarının kulturologi proqnozlaşdırılması əsasında qurulmalıdır. Bunu nəzərə alaraq müşavirə iştirakçıları qeyd etdilər ki, Azərbaycan xalqı və dövlətinin bugünü və gələcəyi, əsasən, milli mədəniyyətimizin hansı dəyərlər və idarəçilik priori-

tetləri, hansı sosial-mədəni siyasət vasitəsilə, hansı kulturoloji strategiyalar və innovativ sosial texnologiyalar, hansı əmək keyfiyyəti əsasında inkişaf edəcəyi ilə şərtlənir.

Onlar qeyd etdilər ki, milli inkişafda gələcək tərəqqinin və Azərbaycanda sənaye cəmiyyəti və "biliklər cəmiyyəti"nin paralel quruculuğu üçün insanların kulturoloji təhsili, maarifi və mənəvi tərbiyəsinin keyfiyyətini yüksəltmək lazımdır. Ekspert-kulturoloqlar mümkün qədər qısa tarixi vaxt ərzində ölkəni dünya inkişaf səviyyəsinə çatdırmağa imkan verən sosial-mədəni inkişaf yolları və texnologiyalarını seçməli, işləyib hazırlamalı və hökumətə təqdim etməlidirlər. Bu reallığı dərk etmə - qloballaşma şəraitində Azərbaycan cəmiyyətinin milli–mədəni irsinin qorunması və modernləşməsini təmin edən, respublikanın mədəniyyət və təhsil sistemi və strukturlarının səmərəli islahatının həyata keçirilməsini tələb edir. Bu islahat çərçivəsində mədəniyyətin inkişafının idarə edilməsi sahəsində çalışan kadrların seçimi, yerləşdirilməsi və təlimi sistemini permanent (daim) təkmilləşdirmək, həmçinin mövcud strukturların yenidən qurulması və zamanın tələblərinə və Azərbaycanın milli maraqlarına cavab verən yeni strukturların yaradılmasını həyata keçirmək lazımdır.

Bunu nəzərə alaraq iştirakçılar təhsil, mədəniyyət, xarici işlər, gənclər, idman və turizm, Milli Məclis, uyğun dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələri və respublikanın ekspert-kulturoloqlarının iştirakı ilə mədəniyyətin inkişaf problemləri üzrə Milli Şuranın yaradılmasının aktuallığını qeyd etdilər. Eyni zamanda onlar Azərbaycan Mədəniyyətinin inkişafının Milli Onilliyinin keçirilməsi vacibliyini bir daha qeyd etdilər. Bununla bərabər milli mədəniyyətin inkişaf proseslərinin səmərəliliyini artırmaq məqsədilə, innovativ qərar kimi, təhsil və mədəniyyət nazirliklərinin vahid Sosial-Mədəni İnkişaf Nazirliyində birləşməsi məqsədyönlülüyü imkanı və hesablanmasının öyrənilməsi haqqında təklif irəli sürüldü.

Müşavirə iştirakçıları onu da etiraf etdilər ki, milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsini öyrənmədən və yaradıcı surətdə istifadə etmədən, bugün Azərbaycanda dövlət quruculuğu və vətəndaş cəmiyyətinin bütün sahələrində hərtərəfli inkişaf etmiş şəxsiyyət və liderlərin hazırlığı mümkün deyil. Bunu nəzərə alaraq, mədəni dəyişikliklər çərçivəsində, Azərbaycanda Kulturologiya Elmi-Tədqiqat İnstitutunun və Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin açılması, ölkənin ali məktəblərində kulturoloji təhsil proqramının dərinləşdirilməsi, ibtidai və orta məktəb proqramına "mədəniyyətşünaslıq" fənninin daxil edilməsi, Bakıda və respublikanın rayonlarında ixtisaslaşmış kulturologiya məktəblərinin yaradılması məqsədəuyğun olardı.

Təhsil Nazirliyinin kulturologiyanın sıxışdırılmasına yönəldilmiş səmərəsiz tendensiyasını nəzərə alaraq, müşavirə iştirakçıları, sənətşünaslıq sahəsində biliklər çərçivəsi ilə məhdudlaşmayan kulturoloq elmlər namizədləri və doktorlarının hazırlanması üçün Bakıda milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi üzrə sahələrarası Dissertasiya Şurasının yaradılmasının vacibliyini qeyd etdilər. Belə bir Şura - tarix, fəlsəfə, psoxologiya, mədəni antropologiya, sosiologiya, politologiya, məntiq, pedaqogika, etika, hüquq, iqtisadiyyat, estetika, filologiya, dilçilik, sənətşünaslıq və digər humanitar fənlər sahəsində milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi üzrə uyğun əsərləri olan ekspertləri daxil etməli idi. Müvafiq olaraq, kulturoloq-kadrların attestasiyası üçün də Azərbaycan Respublikasının Prezidenti yanında AAK-nın kulturologiya üzrə fənlərarası Ekspert Şurası olmalıdır.

Aparılan müzakirə nəticəsində, aşağıda qeyd olunan, Azərbaycanın maraqlarına və Azərbaycan mədəniyyətinin modernləşməsinə, onun daha yaxşı gələcəyinə yönəldilmiş elmi tövsiyələrin nəzərdən keçirilməsini respublika hökumətindən xahiş etmək qərara alındı:

λ Ölkənin əsas sosial-mədəni mədəniyyət prioritetləri qismində intellektual, etik, hüquq idarəetmə mədəniyyətinin müəyyən edilməsi haqqında.

λ Milli-mədəni irsin qorunması haqqında qanun layihəsinə Azərbaycanda elmi və tədris fənni kimi kulturologiyanın institutlaşdırılması və inkişafını təmin edən bölmənin daxil edilməsi haqqında.

λ Təhsil, mədəniyyət, xarici işlər, gənclər, idman və turizm nazirliklərinin, Milli Məclisin, respublikanın uyğun dövlət və qeyri-hökumət strukturları və ekspert-kulturoloqlarının iştirakı ilə, Azərbaycanın milli-mədəni inkişafının strateji proqramları, layihələri və modellərinin müzakirəsi üçün Mədəniyyət üzrə Milli Şuranın yaradılması haqqında.

λ Mədəniyyətşünaslıq fənninin orta məktəblərin, ibtidai və məktəbəqədər təhsilin tədris proqramına daxil edilməsi haqqında.

λ Bakıda və Azərbaycanın rayonlarında tipik Kulturologiya məktəbləri yaratmaq haqqında.

λ "Mədəniyyətin tarixi və nəzəriyyəsi (kulturologiya)" fənninin, 72 saat həcmindən az olmayaraq, Azərbaycanın bütün ali məktəblərinin tədris fənninə daxil edilməsi haqqında.

λ Respublikanın aparıcı ali məktəblərində Milli və dünya mədəniyyətinın tarixi və nəzəriyyəsi kafedralarının açılması haqqqında.

λ Kulturoloq elmlər namizədləri və doktorlarının hazırlanması üçün - tarix, fəlsəfə, psixologiya, məntiq, filologiya, antropologiya,

etnoqrafiya, pedaqogika, iqtisadiyyat, dilçilik, sənətşünaslıq, sosiologiya, politologiya sahəsində ekspertləri birləşdirən - Milli və dünya mədəniyyətinın tarixi və nəzəriyyəsi üzrə fənlərarası Dissertasiya Şurasının və AR Prezidenti yanında fənlərarası kulturologiya üzrə uyğun Ekspert Şurasının yaradılması haqqında.

λ Bütün səviyyələrdə məmurlar üçün idarəetmə mədəniyyəti üzrə kulturoloji treninqlərin təşkil edilməsi haqqında.

λ "Simurq" AMA tərəfindən təsis edilmiş "Simurq" kulturoloji jurnala dövlət dəstəyi haqqında.

λ Dövlət televiziyasında "Dünya mədəniyyəti və Azərbaycan cəmiyyəti" yaxud "Mədəniyyət universiteti" aylıq proqramın açılması haqqında.

λ Mədəniyyətin inkişafının Milli Onilliyinin hazırlanması və keçirilməsi haqqında.

λ Bakıda Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin yaradılması haqqında.

λ Demokratik ölkələrin sosial-mədəni inkişaf təcrübəsinin öyrənilməsi və onun Azərbaycanda tətbiq edilməsi instrumenti kimi, Milli Elmlər Akademiyasının tərkibində Kulturologiya İnstitutunun yaradılması haqqında.

λ Təhsil və mədəniyyət nazirliklərinin vahid Sosial-mədəni İnkişaf Nazirliyində birləşməsi imkanı və məqsədyönlülüyünün öyrənilməsi haqqında.

λ Azərbaycanın rayonlarında demokratik mədəniyyət mərkəzlərinin yaradılması haqqında.

λ Ekspert-kulturoloqların iştirakı ilə Azərbaycan mədəniyyətinin demokratikləşdirilməsi və modernləşdirilməsi proseslərinin milli monitorinqinin hazırlanması və keçirilməsi haqqında.

λ Milli maraqlar zəminində dövlət strukturları və qeyri-hökumət mədəniyyət təşkilatlarının fəaliyyətlərinin koordinasiyası və səmərəli əməkdaşlığı məqsədilə, təhsil və mədəniyyət üzrə milli hesabatların surətlərinin kulturologiya və mədəni siyasət problemləri ilə məşğul olan aparıcı qeyri-hökumət təşkilatlarına göndərilməsi haqqında.

Bununla bərabər Təhsil Nazirliyinin kollegiyasında milli inkişaf üçün kulturologiyanın əhəmiyyəti haqqında məruzənin dinlənilməsi üçün nazirliyə müraciət etmək təklif olundu. Fransa və digər demokratik ölkələrin təcrübəsini nəzərə alaraq iştirakçılar, həmçinin respublika ali məktəblərinin qəbul imtahanları proqramına mədəniyyətin tarixi və nəzəriyyəsi üzrə testlərin daxil edilməsinin məqsədəuyğunluğu haqqında respublikada geniş müzakirə-

nin zəruriliyi haqqında fikir söylədilər.

Respublikada kulturologiya elmi və maarifinin inkişafına yardım məqsədilə, kulturoloqların müşavirəsindən az sonra, 2005-ci ilin aprel ayında Assosiasiya, milli və dünya mədəniyyəti sivilizasiyasının tarixi və nəzəriyyəsini əks etdirən aktual məqalələr və materialların dərc edilməsi üçün "Simurq" kulturoloji jurnalın dövlət qeydiyyatını həyata keçirdi. Jurnalın redaksiya heyətinə akademiklər – Mahmud Kərimov, Maqsud Əliyev, Asəf Nadirov, A.S. Zapesotski (Rusiya), Tofiq Nağıyev, Urxan Ələkbərov, Rasim Əfəndiyev, Ziyad Səmədzadə, Bəkir Nəbiyev, Teymur Bünyadov, Nailə Vəlixanlı, prof. Denis Roze (ABŞ), prof. Zoltan Baço (Macarıstan), prof. Olqa Astafyeva (Rusiya) və b. daxil idilər.

Assosiasiyanın nailiyyətləri onun müxtəlif dövlət və qeyri-hökumət təşklilatları ilə əməkdaşlıq etməsi ilə şərtlənirdi. Assosiasiya – Azərbaycan Milli Elmlər Akademiyası, "İrşad" Tədqiqat Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi, Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Katibliyi, Azərbaycan Mədəniyyət Fondu, Azərbaycan Sülh Fondu, Azərbaycan Kulturoloqlar Cəmiyyəti, Vətəndaş Cəmiyyəti Mədəniyyətinin Beynəlxalq Forumu, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, "Günar" maarifləndirici texnologiyalar Mərkəzi, Azərbaycanşünasların Müstəqil Birliyi, Azərbaycan Qadınlar Cəmiyyəti, Bakı Oksford Məktəbi, "İntellekt" elmi-texniki müəssisə, "Təhsil" Cəmiyyəti, Sülh və sivilizasiyaların dialoqu Cənubi Qafqaz Mərkəzi, Qərb Universiteti nəzdində Gender tədqiqatları Mərkəzi, "İntellektin inkişafı" təşkilatı, "Etibarlı gələcək" təşkilatı və digərləri ilə əməkdaşlıq edirdi.

Beynəlxalq əməkdaşlığa böyük diqqət ayrılırdı. "Simurq" AMA TASİS proqramı layihəsi, Rusiya Sosial və Pedaqoji Elmlər Akademiyası, Rusiya Kulturologiya İnstitutu "İntellektual inkişaf problemləri" Beynəlxalq Elmlər Akademiyası, Ümumdünya Qeyri-Hökumət Təşkilatları Assosiasiyası (The World Association of Non-Governmental Organizations - WANGO), Bütün dünyada sülh uğrunda mübarizə Beynəlxalq Federasiyası və digər təşkilatlarla əməkdaşlıq edirdi. Axırıncı bir neçə il ərzində Assosiasiya Bergen, Nyu-York, Vaşinqton, Moskva, Sankt-Peterburq, Budapeşt, Paris, Seulda beynəlxalq konfransların işində iştirak etmişdir. 2004-cü ildə "Simurq" AMA-nın nümayəndə heyətinin tərkibində Azərbaycanın 14 qeyri-hökumət təşkilatının, o cümlədən, "Simurq", Bakı Oksford Məktəbi, Azərbaycan Rəssamlar İttifaqı, respublika Mədəniyyət işçiləri həmkarlar ittifaqı Komitəsi, Futuroloqlar Cəmiyyətinin, Kiçik və orta biznes Assosiasiyasının və s. rəhbərləri Budapeştdə Beynəlxalq konfransda iştirak etdilər.

Elə həmin ildə “Simurq” AMA-nın prezidenti Paris Şərq dilləri və sivilizasiyaları İnstitutunda “Azərbaycan mədəniyyəti dünya sivilizasiyası kontekstində” mövzusunda Paris institutunda Beynəlxalq kollokviumda, həmçinin Seulda Qlobal idarəçilik üzrə Ümumdünya Sammitində çıxış etmişdir. “Simurq” AMA tərəfindən kulturologiya üzrə nəşr olunan kitablar Rusiya, ABŞ, Birləşmiş Krallaq, Türkiyə, Fransa, Almaniya, Çin, İsrail, Yaponiya, Avstriya, Estoniya və dünyanın digər ölkələrinin kitabxanalarında oxucular tərəfindən istifadə olunurdu.

Əvvəlki illərdə olduğu kimi, 2000-ci illərin ortaları üçün Assosiasiyanın fəaliyyətində başlıca motivasiya - insanın, dövlətin və cəmiyyətin inkişafının əsasını və mahiyyətini təşkil edən fenomen kimi, mədəniyyətin düzgün, sistemli anlayışını təşkil edən, inqilabi dəyişdirici imkanların yaradıcı istifadəsini nəzərdə tutan, ölkənin daxili və xarici sosial-mədəni siyasətinin formalaşdırılmasına yardım etmək cəhdi idi. Buna görə də milli inkişaf maraqları və tələbatlarını nəzərə alaraq, “Simurq” AMA, əvvəlki kimi, həm xüsusi elmi innovasiyaların, həm də dünya mədəniyyəti və sivilizasiyasının mütərəqqi inkişaf nailiyyətləri və tendensiyalarının dövlət quruculuğunda praktik istifadəsinə yönəldilmiş kulturoloji konsepsiyalar və layihələrin işlənib hazırlanmasını davam etdirirdi.

Konsepsiyalarımızın hazırlanması zamanı biz cəmiyyətdə və dünyada daimi dialektik dəyişiklikləri – məqsədlər, vəzifələr, strukturlar və texnologiyaların qoyuluşu ilə əlaqədar olan, həm daxili dəyişən kəmiyyətləri, həm də siyasi proses, elmi-texniki tərəqqi, iqtisadi inkişaf, sosial-mədəni dəyişikliklər, qrup maraqlarının təsiri və digər sosial indikatorlarla şərtlənən xarici dəyişən kəmiyyətləri nəzərə almağa çalışmışıq. Bu vəzifənin həllinə “yuxarıdan” yardımın mühüm şərti, əvvəlki kimi, Azərbaycan xalqı və dövlətinin həyati maraqlarına cavab verən səmərəli mədəni innovasiyalara qarşı yüksək qavrama qabiliyyətli milli insan kapitalının formalaşması və inkişafına yardım edən - insanların akkulturasiyası və inkulturasiyası, əhalinin kulturoloji maarifləndirilməsi, cəmiyyətdə universal kulturoloji biliklərin yayılması kimi, “aşağıdan” olan vəzifə qalırdı.

Bu dövr üçün “Simurq” AMA-nın, bürokratik maneələri yarıb keçə bilməyən bir sıra ictimai-faydalı innovativ layihələri, elmi əsaslanmış kulturoloji tövsiyələri və təşəbbüslərinin qanunvericiliklə dəstəklənməsinə çoxdan artan tələbat daha kəskin şəkildə hiss olunmağa başladı. Assosiasiya üzvləri üçün sosial-mədəni tərəqqini müəyyən edən intellektual, etik, idarəçilik və Azərbaycanın ruhi mədəniyyətinin digər istiqamətlərinin prioritet inkişafına qanunvericiliklə yardım etmək son dərəcə vacib idi. Kulturologiyanın elm

və tədris fənni kimi institutlaşdırılması, alimlər, müəllimlər və digər əqli əmək işçilərinin yaradıcılıq məhsuldarlığının artırılması üçün əlverişli şərait yaradan intellektual mədəniyyət haqqında qanunun qəbul edilməsi olduqca zəruri idi.

Milli maraqlara cavab verən bir sıra qanunverici mədəni təşəbbüslərin praktik olaraq həyata keçirilməsi üçün, 2005-ci ilin payızında "Simurq" AMA professor Fuad Məmmədovun Milli Məclisə seçkilərdə iştirakını məqsədəuyğun hesab etdi. Bu qərara uyğun olaraq, Fuad Məmmədovun namizədliyi Bakı şəhəri Yasamal rayonu 17-ci dairə üzrə Milli Məclisə seçilmək üçün səsə qoyuldu. Respublika Milli Elmlər Akademiyasının rəhbərliyi ilə dəstəklənən bu seçici kompaniyanın nəticələri, Azərbaycan Mədəniyyət Assosiasiyasının milli maraqlara vətəndaş vətənpərvərliyi xidməti ilə motivasiya edilən yaradıcı fəaliyyətinin mütərəqqi həyat fəlsəfəsi, konsepsiyaları və elmi nəticələrinin vətəndaşlar tərəfindən ciddi dəstəkləndiyini bilavasitə nümayiş etdirdi.

Milli mədəniyyətin inkişaf tələbatlarını nəzərə alaraq, 2005-ci ildə "Simurq" AMA respublikada onillik müddət üçün "Azərbaycanda mədəniyyətin inkişafı" milli tədqiqat proqramının elmi cəhətdən işlənib hazırlanması və reallaşdırılması kimi yeni təkliflə çıxış etdi. Bu proqram çərçivəsində dünya mədəniyyəti kontekstində Azərbaycan mədəniyyətinin tarixi, nəzəriyyəsi, praktikası və yeni inkişaf texnologoyalarının fundamental tədqiqini aparmaq təklif olunurdu. Proqram müasir mədəniyyətin hərəkətverici qüvvələri və inkişaf qanunauyğunluqlarının, destruktiv proseslər, böhranlar və fəlakətlərin qarşısını almağa yardım edən, mədəniyyətlərin dialoqu və harmonizasiyasının yeni imkanlarının öyrənilməsinin müqayisəli təhlilini nəzərdə tuturdu.

Bu zaman keçid dövrünün həm optimal, həm də ekstremal şəraitlərində mədəniyyətin inkişaf və transformasiya dinamikası, mədəniyyətin sosial institutlarının sinergetikası, strukturu və mürəkkəbliyinə görə idarə oluna bilməsi üzrə sistemli kulturoloji tədqiqatların həddən artıq vacibliyi qeyd edildi. Güman edilirdi ki, belə tədqiqatlar nəticəsində əldə olunan universal kulturoloji biliklər, məlumatların informasiya bazası və ictimai inkişaf texnologiyaları sosial-siyasi mədəniyyət və dövlət idarəçiliyi sisteminin effektivliyinin artırılmasına, qloballaşma şəraitində Azərbaycanın davamlı və rəqabət qabiliyyətli yüksək effektli inkişaf modellərinin yaradılmasına yardım edəcəkdir.

## Assosiasiyanın dördüncü qurultayı
## Yeni vəzifələr, mədəni təşəbbüslər və layihələr

29 oktyabr 2006-cı ildə "İrşad" hotelində *"Gələcəyə yol yüksək ruhi mədəniyyətdən keçir"* şüarı altında "Simurq" AMA-nın dördüncü qurultayı keçirildi. Onun işində tanınmış alimlər, incəsənət xadimləri, həkimlər, jurnalistlər, elmi müəssisələr, ali məktəblər, nazirliklər və idarələr, həmkarlar ittifaqları, qeyri-hökumət təşkilatları nümayəndələri, həmçinin mesenatlar və sahibkarlar, istedadlı gənclər iştirak edirdilər. Akademiklər – Maqsud Əliyev, Asəf Nadirov, Fuad Qasımzadə, professorlar – Arif Əziz, Rafiq Y.Əliyev, Əli Rəcəbli, Fuad Salayev, Abdulla Mehrabov, Əjdər Ağayev, Elmira Süleymanova, Nəriman Həsənzadə, Rafiq Zeynalov, əməkdar mədəniyyət işçiləri – Namiq Hüseynov, Ağaəli İbrahimov, Rafiq Kaşanlı və bir çox başqaları iştirakçılar arasında idilər.

Azərbaycan Milli Elmlər Akademiyası, Əmək və Sosial münasibətlər Akademiyası, Mədəniyyət Fondu, Azərbaycan Rəssamlar İttifaqı, "Kitab" Cəmiyyəti, "Azərbaycan-Finlandiya" Assosiasiyası və digər təşkilatlardan qurultayın ünvanına təbriklər daxil olmuşdur. Ombudsman, professor Elmira Süleymanova Assosiasiyaya xatirə xalça və hüquq məsələləri üzrə kitablar hədiyyə etdi. "Simurq" AMA-nın prezidenti Fuad Məmmədovun 60 illik yubileyi ilə əlaqədar, "Azərbaycan-Almaniya" Cəmiyyətinin sədri Çingiz Abdullayev Cəmiyyətin "Dostluq" medalını, "Azərbaycan-Finlandiya" Assosiasiyasının prezidenti Yaqub Kərimov isə - "Qızıl Arzu" medalını professora təqdim etdilər. Çelyabinskdə fəaliyyət göstərən "Ozan" Azərbaycan mədəniyyət Mərkəzi adından qurultayın nümayəndələrini və qonaqları onun prezidenti Rafael Quliyev salamladı, o məhz bu missiya ilə Bakıya qurultaya gəlmişdir.

Əvvəlki illərdə olduğu kimi, Assosiasiya öz üzvlərinin, həmçinin respublikada yüksək ruhi mədəniyyətin inkişafına yardım üçün gücünü və vasitələrini əsirgəməyən Azərbaycan ziyalılarının daha qabaqcıl nümayəndələrinin mənəvi motivasiyasına böyük diqqət ayırırdı. Assosiasiya müntəzəm olaraq öz rəhbərləri və fəal üzvlərinin yubileylərini qeyd edirdi. Özünü yüksək mədəniyyətə xidmətə həsr etmiş daha məhsuldar alimlər, müəllimlər, mütəxəssislər, incəsənət xadimləri, sahibkarlar, dövlət, ictimai və din xadimlərinin yaradıcı fəaliyyətinin ictimai tanınması və mənəvi dəstəklənməsi üçün Assosiasiya tərəfindən xüsusi mükafatlar təsis edilmişdir.

*"Dünya mədəniyyəti müdafiə edərsə, mədəniyyət dünyanı xilas edər!"* şüarı haqqında inamı nəzərə alaraq, və insanların intellektual və etik mədə-

niyyətinin inkşafına böyük əhəmiyyət verərək, özünün insanın inkişafı konsepsiyasında Assosiasiya ilk dəfə, müasir dövlətlərin "Homo culturalis" tipli yeni insanın formalaşmasına tədrici keçid kulturoloji ideyasını irəli sürdü. Azərbaycanda və dünyanın digər ölkələrində bu prosesin inkişafının stumullaşdırılması üçün "Azərbaycan Mədəniyyət Assosiasiyasının fəxri üzvü" və "Simurq" AMA-nın Təşəkkürnamə fərmanı ilə yanaşı, Assosiasiyanın rəyasət heyətinin qərarı ilə, 2005-ci ildə "Simurq" Beynəlxalq medalı və "Mədəniyyət səfiri" Milli ictimai fəxri adı təsis edildi.

"Simurq" AMA-nın rəyasət heyətinin qərarı ilə ilk dəfə Azərbaycanda stolüstü xatirə "Simurq" medalı ilə təltif edilməklə, "Mədəniyyət səfiri" İctimai Fəxri adı dövlət başçısı, cənab İlham Əliyevə və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri Mehriban xanım Əliyevaya verilmişdir. Bu mükafatla milli mədəniyyətin inkişafı və onun xaricdə təbliği, mədəni irsin qorunması, səmərəli sosial-mədəni siyasətin həyata keçirilməsi və istedadlı gənclərin və uşaqların dəstəklənməsində onların böyük rolu qeyd edilmişdir.

Qurultayda milli mədəniyyətin inkişafına verdikləri töhfəyə və "Simurq"un yaradıcı fəaliyyətinə vətəndaş yardımına görə Azərbaycanın daha çox tanınmış ziyalı nümayəndələri və istedadlı gənclərinə mükafatların – fəxri adlar, diplomlar, fəxri fərmanlar və medalların təqdimatı oldu. Qurultay Azərbaycan mədəniyyətinin rifahı naminə təmənnasız və vicdanlı əməyinə görə - Maqsud Əliyev, Asəf Nadirov, Fuad Qasımzadə, Arif Əziz, Solmina Dadaşova, Əli Rəcəbli, Namiq Hüseynov, Ağazəki Məlikov, Hafiz Osmanova və Assosiasiyanın inkişafında böyük xidmətləri olan onun digər rəhbərləri və rəyasət heyəti üzvlərinə öz təşəkkürünü bildirdi. Həmçinin, Rafiq Y. Əliyev, Tariyel Məmmədov, Fərhad Abbasəli, Elzad İzzətdüst, Natiq Ağazadə, Rafael Quliyev, Tofiq Rzayev, Akif Kərimov, Ağadaim Ələkbərov, Rauf Muqimov, Adil Abdullayevə və Assosiasiyanın yaradıcı fəaliyyətini könüllü əsaslarla maddi cəhətdən dəstəkləyən bir çox digər üzvlərinə Assosiasiya tərəfindən təşəkkür ifadə edildi. Eyni zamanda gənc təşəbbüskarlar və könüllülərə - Lalə Məmmədsalahova, Samirə Abdullayeva, Anar Cəfərov, Rza Əliyev, Elqar Bağırov, Xəyalə Məmmədova, Timur Süleymanzadə, Rizvan Əliyev, Nurulla Novruzlu, Mehman Kərimov, Marta Novruzova, Aygün Cabbarzadə, Natiq Quliyev və başqalarına təşəkkür ifadələri çatdırıldı.

Cəmiyyətdə insan münasibətləri mədəniyyətinin formalaşması və sabit inkişafında dini mədəniyyətin roluna lazımi əhəmiyyət verərək, "Simurq" AMA-nın rəyasət heyətinin qərarı ilə: Şeyxülislam Allahşükür Paşazadə,

Bakıda Pravoslav Kilsəsinin başçısı, arximandrit Aleksandr, Dağ yəhudiləri icmasının rəhbəri Semyon İxiilov "Simurq" Beynəlxalq medalı ilə təltif edildilər. Bu mükafat, üç din nümayəndələrinin Azərbaycan xalqının ənənəvi tolerantlığına, Azərbaycanın titul mədəniyyətinə daxil olan müxtəlif milli və etnik mədəniyyətlərin multikultural inkişafına töhfəsinin qiymətləndirilməsi oldu.

"Simurq" AMA-nın beynəlxalq nüfuzu sayəsində, onun 15 illik yubileyi ilə əlaqədar, Assosiasiyanın rəyasət heyətinin təqdimatı ilə qurultay ərəfəsində "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının yüzdən artıq nüfuzlu və fəal fəxri üzvləri Ümumdünya Sülh Federasiyası tərəfindən təsis edilmiş, BMT-də konsultativ (məsləhətçi) statusa malik "Sülh səfiri" beynəlxalq diplomu ilə təltif olundular. Onların arasında tanınmış alimlər və müəllimlər, akademiklər və professorlar, incəsənət xadimləri, Milli Məclis deputatları, dövlət, ictimai və din xadimləri, məmurlar, qeyri-hökumət təşkilatları liderləri, sahibkarlar və jurnalistlər, "Simurq" AMA-nın xaricdəki nümayəndələri var idi.

Assosiasiya həmçinin, Azərbaycanda mədəniyyətin inkişafına və bütövlükdə dünya mədəniyyətinə, eyni zamanda beynəlxalq sosial-mədəni əməkdaşlığa yardıma görə müxtəlif ölkələrin nümayəndələrinin fəaliyyətini yüksək qiymətləndirdi. Dünyanın müxtəlif ölkələrində Azərbaycanın dostlarını "qazanmaq" məqsədilə, xalq diplomatiyası və beynəlxalq əməkdaşlığın inkişaf metodları vasitəsilə bir sıra xarici alimlər, ictimai xadimlər və diplomatlar "Simurq" AMA-nın xarici fəxri üzvləri seçildilər.

Onların arasında Paolo Lembo (İtaliya), Per Ulvevadet (Norveç Krallığı), Tadeuş Svyatixovski (ABŞ), Odri Olştadt (ABŞ), Mixael Şmunk (Almaniya), Tomas Yanq (Birləşmiş Krallaıq), Valter Şoniya (Rusiya), Olav Berstad (Norveç Krallığı), Fərrux əl-Həvari (Misir), Naira Tohidi (ABŞ), Eliezer Yotvat (İsrail), Çjan Siyun (Çin), Marqarita Kosta (İtaliya), Tac Həmad (ABŞ), Ronald Yanq (Birləşmiş Krallıq) və digər tanınmış alimlər, mütəxəssislər, diplomatlar və ictimai xadimlər var idi. Qurultayda Assosiasiyanın fəxri üzvü, "Simurq" Beynəlxalq medalı ilə təltif olunmuş dünya şöhrətli Amerika alimi, azərbaycanlı, professor Lütfi Zadənin xidmətləri də xüsusi olaraq qeyd edildi.

Assosiasiyanın fəaliyyətinin mənəvi dəstəklənməsinə görə onun əsas təsisçisi – Azərbaycan Milli Elmlər Akademiyasına, bütün partnyorlara, həmçinin "Simurq" AMA-nın layihələrinin sponsorları – "İrşad" Mərkəzi, Yoxsulluğun azaldılması üzrə Dövlət Komitəsi, YUNESKO, "Açıq Cəmiyyət – Azərbaycan" İnstitutu, "Aysar" Fondu, "Katolik relyef servis" Fondu, "Avrasiya" Fondu, Norveç səfirliyi, Azərbaycanda "Şell" kompaniyasının nümayəndəliyi, "Lu-

koyl"un nümayəndəliyinə, "Azərbaycan" Biznes Mərkəzinə, Azərbaycanda Atatürk Mərkəzinə və digər sponsorlara təşəkkür ifadə edildi.

Eyni zamanda yüksək ruhi mədəniyyətin bundan sonrakı inkişafına yardım məqsədilə, intellektual, etik, idarəetmə və hüquq mədəniyyəti, demokratiya, sülh və vətəndaş cəmiyyəti mədəniyyətinin inkişafına verilən böyük töhfəyə görə Azərbaycan və xarici xadimlərə təqdim etmək üçün qurultay ərəfəsində Assosiasiyanın Rəyasət Heyəti tərəfindən "Simurq" İctimai Milli mükafatı təsis olundu.

Qurultay hesabat dövrü ərzində Assosiasiyanın işinin nəticələrini müzakirə etdi və bəyəndi, rəyasət heyəti və təftiş komissiyasının hesabatını, 2006-2010-cu illər üçün əsas fəaliyyət məqsədləri və istiqamətlərini və iş planını təsdiqlədi, yeni idarəetmə orqanlarını seçdi. Həmçinin, konkret milli fəaliyyət proqramının işlənib hazırlanması üçün elmi-nəzəri əsas kimi, Azərbaycanda yeni mədəniyyət siyasətinin modeli bəyənildi, Azərbaycanın sosial-mədəni inkişaf prioritetləri üzrə elmi tövsiyələr qəbul olundu. Qloballaşma şəraitində davamlı inkişaf və təhlükəsizlik amili olan dünya mədəniyyəti və sivilizasiyasının inkişafında həmrəyliyin zəruriliyi haqqında rəyasət heyəti tərəfindən əvvəlcədən hazırlanmış beynəlxalq təşkilatlara müraciət də bəyənildi. "Simurq" AMA tərəfindən bəyənilən, respublikanın modernləşməsinə, Azərbaycanda intellektual və etik cəmiyyətin qurulmasına vətəndaş yardımına yönəldilmiş praktik tövsiyələri nəzərdən keçirməyi hökumətdən xahiş etmək qərara alındı.

2006-2010-cu illər ərzində "Mədəniyyət və cəmiyyət" problemi üzrə kulturoloji seminarlar, konfransalr, diskussiyalar, dəyirmi masalar və treninqlərin, o cümlədən Bakı və Azərbaycanın regionlarının müxtəlif təşkilatlarına səyyar seminarların işini davam etdirmək nəzərdə tutulurdu. Eyni zamanda beynəlxalq təşkilatların qrantları əsasında mədəniyyət sahəsində layihələrin hazırlanması və reallaşdırılmasında iştirak etmək, mədəniyyətin inkişaf problemləri üzrə televiziya və radio ilə çıxışlar təşkil etmək planlaşdırılırdı.

Yaxın beş il ərzində Assosiasiya, əhalinin inkulturasiyası və akkulturasiyası və müxtəlif profilli mütəxəssislərin professional və etik mədəniyyətinin yüksəldilməsi mərkəzi kimi, "Kulturologiya məktəbi"nin yaradılması, "Simurq" Beynəlxalq kulturoloji jurnalın nəşri planlaşdırılırdı. Eyni zamanda qarşıdakı illərdə Assosiasiya tərəfindən "İdarəetmə mədəniyyəti", "Azərbaycan mədəniyyətinin tarixi" monoqrafiyaları və dərs vəsaitlərinin hazırlanması və dərc edilməsi planlaşdırılır, Azərbaycanın mədəniyyət xəritəsinin işlənib hazırlanmasında və "Azərbaycan mədəniyyətinin nailiyyətləri" kulturoloji ensiklopediyasının hazırlanmasında Milli Elmlər Akademiyası və

Milli Ensiklopediya ilə əməkdaşlıq, "Azərbaycan vətəndaşının etik kodeksi"nin hazırlanması nəzərdə tutulurdu. Bütün bu layihələr Azərbaycan mədəniyyətinin inkişafı üçün yüksək innovativ dəyərə malik idi.

Qurultay hökumətlə, müxtəlif səviyyəli dövlət strukturları ilə əməkdaşlığın və partnyorluğun qaydaya salınmasını, səfirliklər, xarici universitetlər, elmi təşkilatlar, BMT, YUNESKO və digər beynəlxalq təşkilatlarla, həmçinin Azərbaycan diasporu ilə beynəlxalq əməkdaşlığın təşkil edilməsini Assosiasiyanın yeni rəyasət heyətinin mühüm vəsifəsi qismində irəli sürdü. Müxtəlif din nümayəndələrinin mədəni tərbiyəsi, humanistliyi və mədəniyyətlərinin harmonizasiyası işində dini təşkilatlarla məhsuldar qarşılıqlı əlaqələr qurmaq vəzifəsi də qarşıda dururdu.

Planlaşdırılan dövrdə ailə mədəniyyətinin, gənclərin və uşaqların tərbiyəsinin inkişaf etdirilməsi, Azərbaycanın ali və orta təhsil müəssisələrinin müəllimləri və şagirdləri ilə əlaqələrin qurulması və inkişafı üzrə xüsusi işin təşkil edilməsinə ayrıca diqqət ayırmaq nəzərdə tutulurdu. Yaxın gələcəkdə Assosiasiya istedadlı gənclərin və gənc ailələrin inkulturasiyası və akkulturasiyası üzrə xüsusi iş təşkil etməli idi. Bu məqsədlə gənclər və idman işləri üzrə nazirliklə və qadınlar və ailələrlə iş üzrə komitə ilə birlikdə respublikanın ali və orta təhsil müəssisələrinin dərs əlaçıları, həmçinin etik-mədəni münasibətdə daha nümunəvi gənc ailələr seçilməli və xüsusi sertifikatlarla təltif olunmalı idilər.

Assosiasiya ilk dəfə, Azərbaycan mədəniyyətinin "inventarlaşdırılması", Azərbaycan və dünya mədəniyyəti nailiyyətlərinin müqayisəli təhlili təşəbbüsü ilə çıxış etdi. Qurultay milli-mədəni inkişaf prioritetləri tələbatlarının aşkar və korrektə edilməsi məqsədilə, əhalinin sosio-mədəni sorğusunun keçirilməsini, ölkənin modernləşməsi üzrə hökumət üçün təkliflər paketinin hazırlanmasını da məqsədəuyğun hesab etdi. Onun bir çox planlarında və iş nəticələrində "ilk dəfə" qeydini yazmaq olardı.

Həmçinin, dövlət strukturlarının dəstəyi ilə respublikanın regionlarında resurs mədəniyyət mərkəzləri təşkil etmək, "Simurq" interaktiv maarifləndirici klubunu, ictimaiyyətlə əlaqə üçün "Simurq" AMA-nın mətbuat mərkəzini, "Simurq" kompüter mətbəəsini və milli mədəniyyətin inkişafı üzrə innovativ fəaliyyət üçün digər strukturlar və instrumentlər yaratmaq planlaşdırılırdı.

Bununla bərabər yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə, reallaşdırılmasında Assosiasiya tərəfindən artıq müsbət təcrübənin toplandığı dövlət proqramlarında "Simurq" AMA-nın iştirakının davam etdirilməsi, intellektual potensialın formalaşmasına yardım edən xüsusi seminarların keçirilməsi nəzərdə tutulurdu.

Yüksək intellektual potensiala baxmayaraq, bu planların praktik surətdə həyata keçirilməsi maddi-texniki şəraitdən, ilk növbədə, uyğun iş binası və maliyyələşmədən həlledici dərəcədə asılı idi. Bununla əlaqədar olaraq, təşkilat departamenti qarşısında yenə də ofisin yaradılması və maliyyə fondu üçün imkanlar axtarmaq vəzifəsi qoyuldu. Qurultayın qərarları və Assosiasiyanın rəyasət heyətinin sonrakı qətnamələrinin icrası üçün dəqiq nəzarətin təşkili zəruriliyi departamentin iş planında xüsusi qeyd olundu. Eyni zamanda Azərbaycan mədəniyyətinin inkişafının Milli Onilliyi konsepsiyası və proqramının müzakirəsi və keçirilməsi üçün qurultaydan dərhal sonra alimlərlə, nazirliklər, idarələr, həmçinin beynəlxalq təşkilatlar və biznes rəhbərləri ilə konkret görüşlər planını tərtib etmək qərara alındı.

Qurultay 2000-ci illərin birinci yarısı üçün Assosiasiyanın işində çatızmazlıqların və nöqsanların da olduğunu qeyd etdi ki, bunun nəticəsində heç də nəzərdə tutulan bütün planları həyata keçirmək mümkün olmamışdır. Lakin bu zaman qeyd olundu ki, onlar əsasən, həm iş üçün maddi-texniki şəraitin olmaması və təşkilatın nəticələri və nailiyyətlərinin mədəniyyətin inkişafında maraqlı olan ölkə nazirlikləri və idarələri tərəfindən uyğun qiymətləndirilmənin olmaması ilə əlaqədardır ki, bu da Assosiasiyanın kollektivinə demotivasiyaedici təsir göstərməyə bilməzdi. Assosiasiyanın potensial imkanları və layihələrinin reallaşdırılmasına, əvvəlki kimi, tam gücü ilə işləmək üçün lazım olan ofisin, ştatlı işçilərin və pul vəsaitinin olmaması mane olurdu, hərçənd ki, bir sıra demokratik ölkələrdə statusuna və potensialına görə "Simurq"a bənzər qeyri-hökumət təşkilatları 70% hökumət tərəfindən maliyyələşdirilirlər. Bununla bərabər qəbul edilən qərarların icrasına, onun işinin ümumi monitorinqinə nəzarət kifayət qədər deyildi. Bununla bahəm, iş üçün lazımi şəraitin olmamasına baxmayaraq, özünün mədəni dəyərlərinə, Azərbaycan Respublikasının mədəniyyətinin inkişafına və tərəqqi maraqlarına xidmət prinsiplərinə bağlılığı, üzvlərinin və dostlarının təşəbbüsü sayəsində Assosiasiya özünün yaradıcı fəaliyyətində mühüm nəticələrə nail olmuşdur.

Çıxış edənlər qeyd etdilər ki, Azərbaycanda kulturoloji tədqiqatların əsasını qoyan "Simurq" AMA-nın fəaliyyəti Azərbaycanda mədəniyyətə xidmətə və milli maraqlara cavab verən beynəlxalq mədəni əməkdaşlığın inkişafına yönəldilmişdir. Assosiasiyanın ötən illər ərzində fəaliyyətini qiymətləndirərək, qurultay iştirakçıları: "Yeni mədəniyyət siyasətinin formalaşmasına yardım" və "Azərbaycanda yoxsulluğun azaldılması" kimi uğurla yerinə yetirilən layihələrini onun kollektivinin ən vacib nəticələri hesab etdilər. Onlardan - Yaponiya, ABŞ, Norveç, Fransa, Rusiyadan olan ekspertlərin iştirakı ilə işlənib hazırlanan birinci layihə, nəzərdən keçirilməsi üçün

Mədəniyyət Nazirliyinə təqdim olunmuşdur, Yoxsulluğun azaldılması üzrə Dövlət Katibliyi və "Ümid" qeyri-hökumət təşkilatı ilə birlikdə hazırlanan ikinci layihə ölkə hökuməti tərəfindən bəyənilmişdir.

Qurultayda həmçinin qeyd edilmişdir ki, ötən illər ərzində "Simurq" AMA müxtəlif yaş və peşə insanlarının mədəniyyətinin inkişafında, sosial-mədəni siyasətin təkmilləşdirilməsində, kulturologiya elmi, təhsili və maarifinin, demokratiya, sülh və vətəndaş cəmiyyəti mədəniyyətinin inkişafında əhəmiyyətli rol oynamışdır. Onun tərəfindən aparılan tədqiqatlar, nəşrlər, seminarlar, dəyirmi masalar və treninqlər respublikada şəxsiyyətlər və liderlərin formalaşmasına, intellektual, etik və hüquq mədəniyyətinin, idarəetmə, fərdi və beynəlxalq münasibətlər mədəniyyətinin inkişafına yardım etmişdir. Bu fəaliyyət aktualdır, tələb olunandır, o, zamanın çağırışlarına, dövlətin, insanın inkişafına və hər şeydən əvvəl, ölkənin intellektual potensialına yönəldilmiş strateji kursuna cavab verir. Assosiasiyanın sistemli kulturoloji tədqiqatlarının nəticələri qloballaşma şəraitində Azərbaycanın rəqabət qabiliyyətli inkişaf texnologiyaları və strategiyalarının təkmilləşdirilməsinə yardım edə bilər.

Assosiasiyanın rəhbərləri və üzvlərinin vətənpərvərliyinə və məqsədyönlülüyünə haqq qazandıraraq, qurultay iştirakçıları qeyd etdilər ki, Azərbaycan üçün çətin olan, mədəniyyətin tənəzzülü ilə müşayiət olunan keçid dövrü illərində Azərbaycanın ruhi mədəniyyətinin inkişafına vətəndaş yardımı məqsədilə, Azərbaycan ziyalılarının görkəmli nümayəndələri yeni tipli ilk qeyri-hökumət təşkilatını – "Simurq" AMA-nı yaratdılar. Məhdud resurs imkanlarına baxmayaraq, öz gücünə istinad edərək və respublikada ilk dəfə olaraq işlənib hazırlanmış milli inkişaf kulturoloji konsepsiyasına əsaslanaraq, Assosiasiya ildən-ilə, addım-addım ardıcıl surətdə özünün nəcib missiyasını həyata keçirmiş, milli mədəniyyətin inkişafına yardım edən ideyaları və yaradıcı layihələrini gerçəkləşdirmişdir.[29]

Qurultay Assosiasiyanın yeni vəzifələrini təhlil edərək, qloballaşma şəraitində Azərbaycanın rəqabət qabiliyyətli yeni inkişaf imkanlarının yaradılması məqsədilə, "Simurq"un uyğun dövlət müəssisələri ilə əməkdaşlığı üzrə layihənin işlənib hazırlanmasının vacibliyini qeyd etdi. Sistemli kulturoloji təhlilin üstünlükləri və dünya təcrübəsindən istifadə edərək, ciddi sistemli ölçmələri, hesablamaları və Azərbaycanın milli inkişaf templəri və keyfiyyətinin yüksəldilməsini təmin edən həyat qabiliyyətli milli modelin işlənib hazırlanmasını həyata keçirmək lazım idi. Belə layihənin praktik reallaşdı-

---

[29] "Bakı fəhləsi" qəzeti, 16 noyabr 2006-cı il.

rılması Azərbaycan Respublikasının dünyanın daha çox inkişaf etmiş ölkələri səviyyəsinə rəqabət qabiliyyətli yüksəliş müddətini əhəmiyyətli dərəcədə azalda bilərdi.

Belə bir əməkdaşlıq üçün respublikada əlverişli şərait yaranmışdı. 2006-cı ilin əvvəlindən respublikanın dövlət quruculuğu və idarəçiliyində ciddi dəyişikliklər baş verdi. 30 yanvar 2006-cı ildə ləğv olunmuş: Mədəniyyət Nazirliyi və Gənclər, İdman və Turizm Nazirliyinin bazası əsasında Bakıda Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yaradıldı. Bu - mədəniyyət, incəsənət, turizm, mədəniyyət abidələrinin tarixi və qorunması, mətbuat və kinematoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edən yeni icra hakimiyyəti orqanı idi. Nazirliyə, kulturologiya sahəsində fəlsəfə doktoru Əbülfəs Qarayev başçılıq edirdi ki, o, respublikada kulturologiyanın inkişafına ilk dəfə dövlət dəstəyi göstərməyə başladı.

Beləliklə, dövlət başçısı, cənab İlham Əliyevin düzgün sosial-mədəni siyasəti sayəsində keçmiş Mədəniyyət Nazirliyinin rəhbərliyinin əvəz edilməsi və strukturunun dəyişdirilməsindən sonra yeni mühüm dövlət orqanı – Mədəniyyət və Turizm Nazirliyi tərəfindən kulturologiyaya diqqət ayrılmağa başlandı. 2006-cı ilin yanvar ayından nazirlik tərəfindən kulturologiya forumları, gənc alimlər və aspirantlar arasında kulturologiya üzrə müsabiqə işləri təşkil edilməyə başlandı, nazirliyin nəzdində Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz yaradıldı. Azərbaycanda kulturologiyanın inkişafına dövlət dəstəyinə görə Azərbaycan Mədəniyyət Assosiasiyası rəyasət heyətinin qərarı ilə 2006-cı ildə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev "Simurq" AMA-nın dördüncü qurultayında "Simurq" Beynəlxalq medalı ilə təltif olundu.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən milli kulturologiyanın inkişafına dəstəyi nəzərə alaraq, ölkənin sosial-mədəni siyasətinin təkmilləşdirilməsi üzrə tövsiyələrinin nəzərdən keçirilməsi üçün Assosiasiya onları yeni nazirliyə bir daha təqdim etdi. Bu tövsiyələrin hazırlanması zamanı o, mədəniyyət siyasətinin aşağıdakıları nəzərdə tutan konkret nəticələrə istiqamətləndirilməsi zəruriliyinə əsaslanırdı:

- mədəniyyətin "vertikalının" "üfqiyə" effektiv şəkildə və sürətlə çevrilməsi üçün mexanizmlərin yaradılması, xalq mədəniyyəti arasında elitar mədəniyyətin nailiyyətlərinin yayılması.
- qabiliyyətlərin inkişafı, xidmətlərin qiymətləndirilməsi və mütəxəssislərin motivasiyasını nəzərdə tutan milli mədəniyyətin inkişafı ilə, idarəetmə sisteminə meritokratik demokratiya prinsiplərinin geniş tətbiqi.
- gənclərin peşəkarlıq mədəniyyətinin beynəlxalq standartlara uyğunluğu məsələlərinə KİV-lərin diqqətinin artırılması.

- sistemli kulturoloji yanaşma kontekstində sosial-mədəni siyasətin həyat tərzinə, vətənpərvər tərbiyə, reklam, moda, əyləncəyə və s. müsbət təsirinin artmasının təmin edilməsi.
- uşaq kitabları, oyunlarının, həmçinin uşaqların təhsili və tərbiyəsi ilə bağlı olan bütün proqramlar və tədbirlərin ”elmtutumluluğu” və ”mədəniyyət tutumluluğu”nun formalaşdırılması.
- ruhi mədəniyyətin inkişaf proseslərinin sistemli kulturoloji monitorinqi və kulturoloji ekspertizasının təmin edilməsi.

Bununla bərabər dördüncü qurultayın qərarlarını əldə rəhbər tutaraq, Assosiasiya 2000-ci illərin ikinci yarısında yeni kulturoloji layihələri yerinə yetirməkdə davam edirdi. Bu dövrdə 2006-2007-ci illərdə “Avrasiya” Fondunun dəstəyi ilə “Məhkum qadınlara qarşı münasibətdə etikanın rolu” layihəsi və Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə dəstək Fondunun maliyyə yardımı ilə 2008-ci ildə keçirilmiş “Azərbaycan gəncləri üçün interaktiv mədəniyyət məktəbi” layihəsi nəticələrinə görə fərqlənirdi. Assosiasiyanın bu və digər sosial əhəmiyyətli layihələri onun kulturoloji ideyaları, elmi və yaradıcı yanaşmaları, elmi tədqiqatlarının praktik təcəssümü oldu. 2007-ci ildə Assosiasiya tərəfindən Bakıda Kulturologiya Mərkəzinin yaradılması layihəsi də işlənib hazırlanmışdır.

Dördüncü qurultaydan sonra Assosiasiyanın və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin üzvləri tərəfindən elmi ictimaiyyətin müsbət qiymətini qazanmış məzmunlu yeni elmi əsərlər və dərs vəsaitləri dərc edilmişdir. Bu dövr fəlsəfə, musiqi mədəniyyəti, dinşünaslıq, hüquqşünaslıq, milli və dünya mədəniyyəti tarixi üzrə bir sıra fundamental əsərlərin işıq üzü görməsi ilə xatırlanır. Onların arasında - Azərbaycan Kulturoloqlar Cəmiyyəti sədrinin müavini, dosent Mübariz Süleymanlının “Əhməd Ağaoğlunun ilk elmi işi” (2007) və “Ə. Ağaoğlunun “Qadın islama görə və islamda” əsərinin elmi-tənqidi təhlili” (2008) monoqrafiyalarını, Cəmiyyətin sədr müavini, respublikanın əməkdar müəllimi, dosent Tahir Behbudovun “Kulturologiya: albom-sxem” (2006), “Bakı polisinin tarixi. 1910-1914-cü illər” (2009), “Kulturologiya: qısa kurs” (2009) monoqrafiyaları və dərs vəsaitlərini qeyd etmək lazımdır. Azərbaycanın humanitar və sosial elmləri: professor Əli Abbasovun - “Müasirliyin sosio-mədəni problemləri”, “Müasir Azərbaycanda gender siyasəti” (2006); AMEA-nın müxbir üzvü, professor Rəna Məmmədovanın – “Azərbaycan musiqili teatr tarixinin səhifələri” (2007), ”Rusiya və Qafqaz” (2008); professor Şahlar Əsgərovun - “Düşüncə tərzi” (2008); professor Fərman İsmayılovun - “Rene Dekart” (2008), “Qlobal problemlər” (2009); professor Rafiq Əliyevin – “Dövlət və din” (2005),

“İslamda ailə-nigah münasibətləri” (2006), “Hakimiyyət, cəmiyyət və din” (2008), “Səmimi söhbət” (2009); professor Kamil Səlimovun – “ABŞ-ın mühakimə üsulu sisteminin təşkili və fəaliyyətinin xüsusiyyətləri”, “Hüquqşünas rəyi: Xocalı soyqırımı (sənədlər, faktlarda və mətbuatda)” (2006), “Operativ-axtarış fəaliyyəti” (2007); professor Oqtay Əfəndiyevin – “Müasir Azərbaycanın xarici iqtisadi fəaliyyəti” (həmmüəllif) (2007); “Nəqliyyat sahəsində dövlətlərin iqtisadi əməkdaşlığının beynəlxalq-hüquqi tənzimlənməsi” (2011); professor Çingiz Abdullayevin – “Azərbaycan – odlar yurdu” (alman dilində) (2006); professor Musa Quluzadənin – “Bu da bir ömürdür” (2009) monoqrafiyaları ilə zənginləşdirilmişdir. Elə həmin illərdə dosent Minaxanım Əsədlinin iştirakı ilə “XX-XXI əsrlərdə Amerika mədəniyyəti” (2006), “Mədəniyyətin tipləri və formaları, kulturologiya məktəbləri” (2008), “Cəmiyyətin və şəxsiyyətin siyasi mədəniyyəti. Mədəniyyətlərin dialoqu” (2009) kollektiv monoqrafiyaları dərc edilmişdir. Qurultay ərəfəsində, 2009-cu ildə, “Simurq” AMA tərəfindən uzun müddət ərzində hazırlanan, Azərbaycan və xarici elmi ictimaiyyətin yüksək qiymətini qazanmış “İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi” fundamental monoqrafiyası qurultaya özünəməxsus hədiyyə oldu.

Dördüncü qurultaydan sonra Bakıda 60-a yaxın, o cümlədən beynəlxalq iştirakla, kulturoloji seminar keçirilmişdir. Onların arasında kulturologiya, təhsil, intellektual, etik, hüquq, informasiya, siyasi və parlament mədəniyyəti məsələlərinə həsr edilmiş məzmunlu seminarları qeyd etmək olar. Maraqlı diskussiyaların predmeti seminarlarda alimlər tərəfindən edilən - tibb, kulinariya, gender, din, gənclər mədəniyyətinə, ekoloji sivilizasiya və davamlı inkişafa həsr olunmuş məruzələr idi.

Bu illərdə Lütfi Zadənin elmi irsinə, nano-, bio- və informasiya texnologiyalarına, gələcəyin enerjisi, mədəni müxtəliflk, terrorçuluq, Qərb və Şərq sivilizasiyalarına, numizmatika, lazer texnikasına, poeziyaya, musiqi, təsviri və ədəbi incəsənətə, müsəlman mədəniyyətinin ruhi dəyərləri, uşaqların yaradıcılığına həsr olunmuş seminarlar respublika ictimaiyyətində böyük marağa səbəb olurdu. Bununla bərabər nəzərdən keçirilən dövrdə Assosiasiya və Azərbaycan Kulturoloqlar Cəmiyyəti tərəfindən: İtaliya, Fransa, Yaponiya, Rusiya, Macarıstan, İran, Çin, Mərakeş, Misir və digər ölkələrin mədəniyyətləri üzrə seminarlar təşkil edilmişdir. “Simurq” AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyəti tərəfindən, Milli Məclisin mədəniyyət məsələləri üzrə Daimi komissiyası və Azərbaycanda BMT nümayəndəliyi ilə birlikdə Bakı Atatürk Mərkəzində mədəni müxtəliflik üzrə seminar ziyalıların və beynəlxalq təşkilatların yüksək qiymətini qazanmışdır. Elə bu illərdə

respublika televiziyası, radiosu və “Mir” dövlətlərarası tele-radio kompaniyasının müxtəlif kanalları ilə Assosiasiya üzvləri tərəfindən onlarla çıxışlar edilmişdir.

Elə həmin dövrdə respublikanın müxtəlif dövlət və ictimai təşkilatlarında “Simurq” AMA-nın səyyar kulturoloji seminarları keçirilirdi. Belə təşkilatlar arasında - AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası, Polis Akademiyası, Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Ombudsman Aparatı, İqtisad Universiteti, Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Qərb Universiteti, Turizm İnstitutu, Təhsil Problemləri İnstitutu və b. var idi. Səyyar mühazirələr həmçinin, “Azərbaycan” Biznes Mərkəzi, ”Təhsil” Cəmiyyəti, “İrşad” hoteli və bir çox digər təşkilatlarda keçirilmişdir. Eyni zamanda Gəncədə və Lənkəranda Avropa Şurasının himayəsi altında keçirilən seminarlarda Kulturoloqlar Cəmiyyəti üzvləri tərəfindən kulturoloji mühazirələr edilmişdir.

“Simurq” AMA-nın nailiyyətləri xarici ölkələrdə də maraq doğururdu, onun beynəlxalq nüfuzunun artmasına səbəb olurdu. 2007-ci ilin iyun ayında Assosiasiyanın prezidenti Almaniyaya dəvət olundu. Burada o, tanınmış alman alimləri və mütəxəssisləri ilə, həmçinin Almaniyada Azərbaycan incəsənət xadimləri, Azərbaycan və türk icmalarının nümayəndələri ilə görüşdü. O, Almaniyanın 5 şəhərində - Bonn, Frankfurt, Maynts, Köln və Koblentsdə oldu.

Almaniyada olarkən, 2006-cı ildə “Simurq” AMA-nın “Kulturologiya effektiv həyat fəaliyyətinə doğru yol kimi” monoqrafiyasının işıq üzü görməsi ilə əlaqədar, Fuad Məmmədov Bonnda “Alman dalğası” radiosunun redaksiyasına dəvət olunmuşdur ki, burada onunla “Siyasətçilərin mədəniyyəti haqqında” mövzusu üzrə müsahibə aparılmışdır. Həmin müsahibə ilə bu gün də internetdə tanış olmaq mümkündür.

Bakı ilə qardaşlaşmış Maynts şəhərində Assosiasiyanın prezidenti, Sosioloji Tədqiqatlar İnstitutunun alimləri qarşısında Azərbaycanın kulturologiya və mədəniyyət məsələləri üzrə çıxış etdi. Öz çıxışında Fuad Məmmədov Azərbaycan mədəniyyətinin tarixi haqqında, Azərbaycan kulturologiya elminin nailiyyətləri haqqında danışdı, idarəetmə mədəniyyəti, qloballaşma şəraitində mədəniyyətlərin və sivilizasiyaların harmonizasiyası məsələlərini müzakirə etdi. Mayntsda “Feniks” Rusiya Mədəniyyət Mərkəzinin üzvləri ilə də görüş keçirildi.

Frankfurt-Maynda Azərbaycan mədəniyyət cəmiyyəti və türk diasporunun üzvləri, həmçinin Kölndə yaşayan Azərbaycan yaradıcı ziyalılarının nü-

mayəndələri ilə maraqlı görüşlər təşkil olundu. Frankfurt-Maynda "Simurq" AMA-nın prezidenti Frankfurt elitar Alman-türk klubunun eks-prezidenti, Bakıda yaxşı tanınan, Almaniyada Azərbaycan və türk diasporları arasında xüsusi hörmətə malik olan Əbdülqədir Qaraoğlanın qonağı oldu. Ə. Qaraoğlanın yaraşıqlı villasında Azərbaycan mədəniyyət cəmiyyəti və türk diasporunun nümayəndələri ilə görüş keçirildi. Görüş zamanı Azərbaycan mədəniyyətinin nailiyyətləri və inkişaf perspektivləri, 2008-ci ildə Almaniyada Azərbaycan ilinin keçirilməsinin əhəmiyyəti müzakirə olundu.

Koblentsdə azərbaycanlı kulturoloq Bonn Universitetinin professoru Yeva-Mariya Aux, alman mütəxəssisi, "Azərbaycan-Almaniya" Cəmiyyətinin üzvü Paulo-Lüdviq Qlaesner, istedadlı gənc Azərbaycan müsiqiçiləri, Essen şəhərindən - skripkaçı Anar İbrahimov, Köln şəhərindən - dirijor Fuad İbrahimovla görüşdü. Xalq diplomatiyası metodları ilə Avropa ölkələrində Azərbaycan mədəniyyətinin təbliğinin genişləndirilməsi problemləri Koblentsdə Azərbaycan mədəniyyət xadimləri Avropa Cəmiyyətinin prezidenti, Azərbaycanın əməkdar rəssamı Əşrəf Heybətovla müzakirə edildi.

19 yanvar 2008-ci ildə "İrşad" hotelində "Simurq" (Dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi) kulturoloji jurnalın birinci sayının prezentasiyası oldu.[30] Prezentasiyada alim-kulturoloqlar, redaksiya heyətinin üzvü, jurnalın işçi və müəllif kollektivi, Azərbaycan Mədəniyyət Assosiasiyasının rəhbərləri, Milli Məclis üzvləri, respublika ziyalılarının nümayəndələri və jurnalistlər iştirak edirdilər.

Akademiklər – Maqsud Əliyev, Fuad Qasımzadə, Parlamentin İqtisadiyyat üzrə daimi Komissiyasının sədri, akademik Ziyad Səmədzadə, İslamşünaslıq Tədqiqatları Mərkəzinin direktoru, professor Rafiq Əliyev, Azərbaycan Mədəniyyət Cəmiyyətinin prezidenti, prof. Fuad Məmmədov, general Vladimir Timoşenko, Azərbaycan Kulinarlar Assosiasiyasının prezidenti Tahir Əmiraslanov, həkim Aytəkin Əsgərova və başqaları təqdimatda çıxış etdilər. Çıxış edənlər kulturologiya elmi, təhsili və maarifçiliyinin inkişafı, Azərbaycanın milli mədəniyyəti və xarici ölkələrlə beynəlxalq mədəni əməkdaşlığının inkişafı üçün "Simurq" jurnalının əhəmiyyətini qiymətləndirərək, onun birinci sayının işıq üzü görməsini respublikanın sosial-mədəni həyatında mühüm tarixi hadisə kimi qiymətləndirdilər.

Sonda jurnalın baş redaktoru, professor Fuad Məmmədov "Simurq" AMA-nın elmi-nəzəri mətbuat orqanının hazırlanması və nəşrində gərgin

---

[30]2010-cu ildə Rusiya elmi-maarifləndirici kulturoloji cəmiyyətinin "Almanax" – elmi, təhsil, maarifləndirici jurnalı təsis edildi.

əməyinə görə jurnalın redaksiya şurasına, kollektivinə və birinci sayın müəlliflərinə ürəkdən təşəkkür etdi. O həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimova, Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayevə, Rusiya Kulturologiya İnstitutunun direktoru professor Kirill Razloqova və onun Sankt-Peterburq bölməsinin direktoru Dmitri Spivaka, Çinin Qazaxstandakı fövqəladə və səlahiyyətli səfiri Çjan Siyuna jurnalın ünvanına göndərdikləri təbriklərinə görə səmimi təşəkkürünü bildirdi. Jurnala göstərdiyi maliyyə və təşkilati dəstəyə, həmçinin çoxillik əməkdaşlığa və "Simurq" AMA-nın işində təmənnasız yardımına görə professor Rafiq Əliyevə xüsusi minnətdarlıq ifadə olundu.

Təqdimat iştirakçıları qeyd etdilər ki, çoxdan gözlənilən bu jurnalın işıq üzü görməsi "Simurq" AMA-nın fəaliyyətində yeni mərhələni ifadə edir. O, Azərbaycanda kulturologiya elmi, təhsili və maarifinin gələcək inkişafına, mədəni siyasətdə yeni prioritetlərin – intellektual, etik, hüquq və idarəetmə mədəniyyətinin qabaqlayıcı inkişafına, kulturologiya sahəsində beynəlxalq əməkdaşlığın inkişafına Azərbaycan ziyalılarının elmi cəhətdən yardımı üçün zəmin yaradır. Jurnala beynəlxalq status verilməsi və onun Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilməsinin nəzərdə tutulması haqqında məlumat məmmuniyyətlə qarşılandı.

Jurnal Azərbaycanda kulturologiyanın inkişafında mühüm rol oynamağa başladı. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə 2010-cu ildən "Simurq" jurnalı kulturologiya elmləri namizədləri və doktorları alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların nəticələrini dərc etmək hüququ olan elmi nəşrlər reyestrinə daxil edildi. Bu - milli kulturologiyanın, həmçinin ölkədə intellektual və etik mədəniyyətin inkişafında Assosiasiyanın xidmətlərinin tanınmasının əsaslı dəlillərindən biri idi.

Tezliklə, bunun ardınca, 2010-cu ildə dünya mədəni-informasiya məkanında Assosiasiyanın yaradıcı fəaliyyəti haqqında informasiyanın yayılmasına imkan verən, "Simurq" AMA-nın saytı yaradıldı. Saytda daycestlər, elmi və elmi-maarifçilik məqalələri, dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi məsələlərini əks etdirən "Simurq" Beynəlxalq kulturoloji jurnalın elektron formatı dərc edilməyə başlandı. Bununla yanaşı nəzərdən keçirilən dövrdə "Simurq" AMA-nın fəaliyyəti və nailiyyətləri, kulturoloji seminarlar, televiziya verilişləri, məqalələr və kitablar respublika qəzetlərinin saytında, həmçinin Azərbaycan və xarici jurnalla-

rın səhifələrində dövri olaraq işıqlandırılırdı.

"Simurq" AMA-nın intellektual və etik mədəniyyətin qabaqlayıcı inkişafına yönəldilmiş kursunun düzgünlüyü dəlillərindən biri - 2009-cu ilin sonunda respublika Prezidenti tərəfindən dövlət siyasətində yeni prioritetlərin irəli sürülməsi, bunlara uyğun olaraq, insan kapitalının başlıca strateji milli inkişaf resursu qismində müəyyən edilməsi idi. Bu dövrdə siyasi sistemin uğurlu modernləşdirilməsi və dövlət quruculuğunda demokratik inzibati-dövlət idarəçiliyi mədəniyyətinin real şəkil alması sayəsində, ötən onillikdə Azərbaycan iqtisadiyyatda keçid dövrünü əsasən başa çatdırmışdır ki, bu da yeni məqsədlərə - intellektual mədəniyyət və insan kapitalının prioritet inkişafı məqsədlərinə diqqəti cəmləşdirməyə imkan vermişdir.

Bu paradiqmaya uyğun olaraq, iqtisadi, idarəçilik, hüquq və etik mədəniyyətin inkişaf əhəmiyyətini saxlamaq şərtilə, getdikcə daha çox intellektual mədəniyyət başlıca inkişaf istiqaməti olurdu. Bu prinsipin həyata keçirilməsi məqsədilə, respublikada uyğun dövlət proqramları, o cümlədən, ölkədə və xaricdə yüksək ixtisaslı kadrların hazırlanması sahəsində, getdikcə daha fəal surətdə işlənib hazırlanmağa və həyata keçirilməyə başlandı.

İnsan kapitalının inkişafı strateji vəzifəsinin praktik reallaşdırılması, qloballaşma şəraitində siyasi və iqtisadi qeyri-sabitliklə, dünya sivilizasiyasının daimi dəyişiklikləri və çağırışları ilə müşayiət olunan Azərbaycanın davamlı inkişafı üçün yeni imkanlar açdı.[31] Bununla bərabər o, vətəndaşların məsuliyyət mədəniyyətinə, məmurların idarəetmə mədəniyyətinə, mütəxəssislərin hazırlanması və istifadəsi problemlərinə, gənclərin intellektual və etik mədəniyyətinin inkişafı məsələlərinə artan tələbləri şərtləndirirdi.

Ölkənin sosial-mədəni siyasətinin yeni tendensiyaları istiqamətində, respublikada insan kapitalının inkişafına yardım məqsədilə, 2010-cu ilin əvvəlindən "Simurq" AMA Azərbaycan dövlət televiziyası ilə birlikdə birinci kanalda ilk dəfə olaraq, "İdrak" stasionar kulturoloji elmi-maarifləndirici veriliş aparmağa başladı. Onun vəzifəsi respublika əhalisinin geniş təbəqələri və xaricdə Azərbaycan diasporu arasında universal kulturoloji bilikləri fəal surətdə yaymaq oldu. "İdrak" verilişində Azərbaycanda insan kapitalının aktual prob-

[31]Dövlət başçısı tərəfindən irəli sürülmüş strateji vəzifələri əldə rəhbər tutaraq, 2011-ci ilin dekabrında Azərbaycan Milli Elmlər Akademiyasında "Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafı" birinci Bakı kulturoloji konfransı keçirildi. Onun işində tanınmış Azərbaycan alimləri, mütəxəssisləri və dövlət məmurları, o cümlədən, Azərbaycan Milli Elmlər Akademiyasının akademikləri və professorları, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimləri, Mədəniyyət və Turizm Nazirliyinin, Ailə, Qadın və Uşaqların problemləri üzrə Dövlət Komitəsinin məsul işçiləri iştirak etmişlər.

lemləri, innovativ kulturoloji texnologiyaları və imkanları müasir kulturologiya elmi, milli və dünya mədəniyyəti və sivilizasiyasının nailiyyətləri prizmasından təhlil edilməyə başlandı. "İdrak" kulturoloji verilişi ölkədə və xaricdə yüksək reytinq qazanmışdır.

## Assosiasiyanin beşinci qurultayı İctimai tanınma, yeni təşəbbüslər, yeni nailiyyətlər və yeni ümidlər

15 noyabr 2010-cu ildə "Həyat Recinsi" hotelində "Simurq" AMA-nın, Assosiasiyanın 20 illik yubiley vaxtına salınmış beşinci qurultayı keçirildi. Bu dövr üçün Assosiasiyanın sıralarında yüzlərlə üzvlər var idi. Onların arasında onlarla professor və dosentlər, Azərbaycan Milli Elmlər Akademiyası və beynəlxalq elmlər akademiyalarının otuza yaxın akademiki və müxbir üzvləri, tanınmış müəllimlər, mütəxəssislər, incəsənət xadimləri, diplomatlar, istedadlı gənclər vardı. Assosiasiyanın Almaniya, Fransa, Birləşmiş Krallıq, ABŞ, Kanada və Norveçdə fəxri üzvləri və özünün şəxsi mədəniyyəti və fəaliyyəti ilə Azərbaycan mədəniyyətinin yayılmasına və xaricdə Azərbaycanın dostlarının əhatə dairəsinin genişlənməsinə yardım edən könüllü qeyri-formal nümayəndələri var idi.

Qurultayda respublikanın ötən 20 illik müstəqilliyi ərzində pozitiv dəyişikliklərin kuturoloji panoraması təhlil edilmişdir. Qurultay iştirakçıları, bugün milli mədəniyyətin permanent inkişafı, Azərbaycan mədəniyyətinin müxtəlif beynəlxalq sahələrdə layiqli təmsil olunması və onun dünya sivilizasiyasına gələcək inteqrasiyası üçün ölkə Prezidenti, cənab İlham Əliyev başda olmaqla, Azərbaycan rəhbərliyi tərəfindən çox işlərin görülməsi haqqında yekdil rəydə idilər. Onlar dövlət tərəfindən intellektual mədəniyyətin, o cümlədən, kulturologiyanın inkişafına ayrılan ciddi diqqəti razılıqla qeyd etdilər. Ölkədə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu yaradılmış, Milli Elmlər Akademiyası və respublikanın ali məktəblərinin strukturu və əsas istiqamətləri təkmilləşdirilmiş, yüksək ixtisaslı mütəxəssislərin yalnız Azərbaycanda deyil, həm də xarici dövlətlərin qabaqcıl elm və təhsil mərkəzlərində məqsədyönlü hazırlığı aparılmışdır. Milli mədəniyyətin dirçəldilməsi və inkişafında ölkənin birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın başçılıq etdiyi Heydər Əliyev Fondu aparıcı rol oynamışdır. Fond Azərbaycan xalqının mədəni irsinin qorunması və respublikanın sosial-mədəni tərəqqisinə yönəldilmiş

çoxlu sayda iri həcmli innovativ layihələr həyata keçirmişdir.

Yubileylə əlaqədar olaraq, qurultayda təşkilatın fəal üzvlərinə "Simurq" Beynəlxalq yubiley medalı, "Sülh səfiri" diplomu, "Simurq" AMA-nın fəxri üzvü və fəxri fərmanların təntənəli təqdimatı oldu. Təltif olunanlar arasında Azərbaycan ziyalılarının nümayəndələri, siyasətçilər və məmurlar, ali məktəb rektorları və elmi müəssisələrin direktorları, artistlər və jurnalistlər, xarici diplomatlar və gənclər var idi.

Bunlar Assosiasiyanın veteranları – akademiklər Maqsud Əliyev və Asəf Nadirov, Albert Salamov, Yaqub Kərimov, Tariyel Məmmədov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri, professor Hicran Hüseynova, ombudsman Elmira Süleymanova, akademiklər – Urxan Ələkbərov, Ömər Eldarov, Ziyad Səmədzadə idi.

Professorlar – Ağacan Əbiyev, Fuad Salayev, Nəriman Həsənzadə, Arif Əziz, Şahlar Əsgərov, Cəfər Cəfərov, Siyavuş Kərimli, Ertekin Salamzadə, Röya Tağıyeva, Rafiq Zeynalov, Musa Quluzadə, Azad Abbaszadə, Eldar Abbaszadə, Çingiz Abdullayev, Namiq Axundov təltif olunanlar arasında idi.

Həmçinin, Milli Məclis deputatları – Nizami Cəfərov, Asim Mollazadə, Əli Məsimov, Qənirə Paşayeva, Azərbaycanın keçmiş xarici işlər naziri Hüseynağa Sadıqov, Azərbaycanın xalq rəssamı, professor Ağaəli İbrahimov, respublikanın xalq artisti Vasif Babayev, istefada olan general Vladimir Timoşenko medallar və diplomlarla təltif olundular.

Televiziya kompaniyaları və aparıcı KİV-lərin rəhbərləri – Arif Alışanov, Vaqif Mustafayev, Samir Qurbanov, Elçin Şıxlinskiyə, tanınmış mesenantlar - Nazim Abdullayev, Ağadaim Ələkbərova, musiqiçilər – Rafiq Seyidzadə, İsfar Sarabski, Teymur Süleymanbəyli və başqalarına bir sıra mükafatlar təqdim olundu.

Eyni zamanda xarici diplomatlar – "Simurq" AMA-nın mədəni əməkdaşlığı həyata keçirdiyi bir sıra səfirliklərin səfirləri və mədəniyyət attaşeləri: Mario Baldi (İtaliya), Çjan Yanyan (Çin), Həsən Hami (Mərakeş), Yeno Boroş (Macarıstan), Serik Primbetov (Qazaxstan), Toşikazo Muto (Yaponiya), Ənvər Şeyxov (Rusiya), Caber Mansur (Misir), Lük Obri (Fransa), Adel Dərviş (Misir), İbrahim Nuri (İran), Zoltan Baço (Macarıstan) beynəlxalq yubiley medalları və fəxri üzv diplomları ilə təltif olundular.

Qurultay rəyasət heyətinin hesabat məruzəsi ilə tanış oldu. Məruzədə cəmiyyət, ölkə vətəndaşları və Azərbaycan dövləti üçün səmərəliliyi və faydalılığı baxımından iyirmi illik fəaliyyəti ərzində Assosiasiyanın keçdiyi yol öz əksi-

ni tapmışdır. Assosiasiyanın keçdiyi yolun kulruroloji nöqteyi-nəzərdən təhlili - toplanmış müsbət təcrübəni ümumiləşdirmək və istifadə etməyə, gələcək dövr üçün yeni yaradıcılıq fəaliyyəti imkanlarını aşkar etməyə imkan verirdi.

Assosiasiya özünün 20-illik yubileyinə əliboş gəlməmişdir. Qurultaya yaxın o, yeni "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" monoqrafiyasını dərc etdirmişdir. Bu dəyərli monoqrafiya (dərs vəsaiti) xarici ölkələrin təcrübəsi əsasında dövlət idarəçiliyi sisteminin modernləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanında əksini tapmış, Azərbaycanda dövlət idarəçiliyi sisteminin islahatları tələbatlarına uyğun olaraq hazırlanmışdır. Sistemli təhlilin əsas anlayışları, kateqoriyaları, metodologiya və metodları ilə yanaşı, monoqrafiyada ilk dəfə olaraq, Şərq və Qərb ölkələrinin dövlət idarəçilik mədəniyyəti tarixinin göstərilməsi, effektiv dövlət və sosial idarəçiliyin, liderlik mədəniyyətinin rəqabət qabiliyyətli texnologiyalarının, ailənin idarə edilməsi və özünüidarə mexanizmlərinin aşkar edilməsi monoqrafiyanın fərqləndirici xüsusiyyəti idi.

İyirmi il ərzində təşkilatın nailiyyətlərini əks etdirən "Azərbaycan Mədəniyyət Assosiasiyası. 20 il" kitabı, kulturologiya sahəsində onlarla elmi və elmi-populyar məqalələr, o cümlədən, "Simurq" Beynəlxalq kulturoloji jurnalın ikinci nömrəsi də qurultayın keçirilməsi vaxtına uyğunlaşdırılmışdır. Qurultayın işi zamanı ötən illər ərzində Assosiasiyanın yaradıcı nailiyyətlərini əks etdirən saytın və slayd-filmin prezentasiyası oldu. Qurultayın sonunda istedadlı Azərbaycan musiqiçiləri İsfar Sarabski və Cavan Zeynallı, Akif Süleymanbəyli və Teymur Süleymanbəyli, Rafiq Seyidzadə və Natavan Şeyxova, Natavan Həbibi və başqaları Azərbaycan estradası və dünya caz müsiqisinin ən gözəl nümunələri ilə hər kəsə unudulmaz xoş təəssüratlar bəxş etdilər.

Qurultay iştirakçıları ötən dövr ərzində "Simurq" AMA-nın fəaliyyəti haqqında razılıq ifadə etdilər, Azərbaycanın intellektual və etik mədəniyyətinin inkişafına verdikləri çoxillik yaradıcı töhfə, öz vətəninə təmənnasız xidmət, xalqının və bütün bəşəriyyətin yüksək ruhi mədəniyyətinin inkişaf ideyalarına sadiqliyə görə Assosiasiyanın bütün rəhbərləri və üzvlərinə, alimlər, müəllimlər, mütəxəssislər və istedadlı gənclərə minnətdarlıqlarını bildirdilər.

Onlar üç qarşılıqlı əlaqəli monoqrafiyadan ibarət – "Kulturologiya. Nəzəriyyə və tarix məsələləri" (2002), "Kulturologiya effektiv həyat fəaliyyətinə doğru yol kimi" (2006) və "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" (2009) monoqrafiyalarından ibarət kulturoloji trilogiyanı yüksək qiymətləndirdilər. Qeyd olundu ki, 2002-2009-cu illər ərzində "Simurq"

AMA tərəfindən respublikada ilk dəfə dərc edilən və Azərbaycan və xarici alimlərin, siyasətçilər və diplomatların yüksək qiymətini almış bu trilogiya, yalnız “Simurq” AMA üçün deyil, həm də bütövlükdə Azərbaycan Respublikası üçün qurur predmetidir. O, Azərbaycan və dünya kulturologiya elminin inkişafına fundamental innovativ töhfəni ifadə edir. Qeyd etmək kifayətdir ki, “Wikimedia Foundation, Inc.” Fondu tərəfindən yaradılmış internet-ensiklopediyada Fuad Teyyub oğlu Məmmədovun adının - Frans Boas, Eduard Taylor, Herbert Markuze, Yohan Heyzinq, Osvald Şpenqler, Karl Yaspers, Nikolay Danilevski, Nal Zlobin, Moisey Kaqan, Konstantin Leontyev, Pitirim Sorokin və digər dünya kulturologiyasının korifeyləri ilə bir sırada çəkilməsi bunun sübutlarından biridir.[32] Professor Fuad Məmmədovun Azərbaycanda elmin, təhsilin və maarifçiliyin inkişafındakı xidmətlərini, onun Azərbaycan mədəniyyətinə və öz dövlətinə çoxillik təmənnasız və sədaqətlə xidmət etməsini nəzərə alaraq, “Simurq” AMA-nın ağsaqqalları ona “Əməkdar elm xadimi” fəxri adının verilməsi haqqında hökumət qarşısında vəsatət qaldırmağı qərara aldılar. Bu qərar bütün iştirakçılar tərəfindən yekdilliklə bəyənildi.

Bununla bərabər qurultay iştirakçıları qeyd etdilər ki, əgər özünün fəaliyyəti üçün uyğun maddi-texniki şəraiti olsaydı, eyni zamanda Mədəniyyət və Turizm Nazirliyi ilə fəal partnyorluq əlaqələrini həyata keçirə bilsəydi, Assosiasiya daha da məhsuldar isləyə bilərdi, ilk dəfə “Simurq” AMA tərəfindən əsası qoyulmuş kulturologiya elmi və maarifçiliyinin formalaşması və inkişafı prosesi isə daha yüksək templərlə inkişaf edərdi. Onlar Mədəniyyət və Turizm Nazirliyi, həmçinin digər dövlət strukturları tərəfindən Assosiasiyaya lazımı dəstəyin göstərilməsi haqqında arzularını ifadə etdilər.

Lakin maddi-texniki şəraitin olmaması, ümumilikdə Assosiasiya üzvlərinin optimizmini azaltmırdı. Assosiasiyanın prezidenti, prof. F.T. Məmmədovun məruzəsində qeyd olunurdu: “Ümid edirik, o gün uzaqda deyil ki, cəmiyyətin həyat fəaliyyəti, dövlət quruculuğu və idarəçiliyinin əsası kimi kulturologiya hakimiyyət və xalq tərəfindən tam ölçüdə qiymətləndiriləcək, davamlı milli inkişaf üçün kulturologiyanın strateji əhəmiyyətinin cəmiyyətdə və hakimiyyətdə getdikcə artan anlayışı – Azərbaycanda Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin açılmasına yaxud Kulturologiya Akademiyasının təsis edilməsinə xidmət edəcək, ölkəmizdə bütün səviyyələrdə məktəblərdə kulturologiya təlim proqramlarına daxil edicələk, ali məktəblərdə kafedralar, orta məktəblərdə isə kulturologiya kabinetləri açılacaqdır. Biz həmçinin ümid edi-

[32] http://ru.wikipedia.org/wiki/Категория: Культурология

rik ki, ölkə hökuməti milli maraqlar baxımından Assosiasiyanın çoxillik yaradıcı fəaliyyətini layiqincə qiymətləndirəcək, Azərbaycanın milli maraqlarına cavab verən elmi-maarifçilik fəaliyyəti, beynəlxalq əməkdaşlığın həyata keçirilməsi üçün nəhayət ki, "Simurq" AMA-ya uyğun ofis, bina və minimal maliyyə yardımı etməklə ona dövlət qayğısı göstərəcəkdir".

Qurultay iştirakçıları milli mədəniyyətin daimi inkişafının zəruriliyi ideyasına bağlılıqları haqqında bildirdilər və Vətənin, ümumilikdə dünya mədəniyyətinin sosial-mədəni inkişafına "Simurq" Mədəniyyət Assosiasiyasının xidməti kimi nəcib missiyasını bundan sonra da yerinə yetirəcəyinə öz inamlarını ifadə etdilər.

Assosiasiyanın ağsaqqalları, qurultayın qonaqları və xarici diplomatlar "Simurq" AMA-nın ünvanına bir çox xoş sözlər söylədilər. Qurultayda iştirak edənlər – Azərbaycan Respublikasının ombudsmanı, professor Elmira Süleymanova, Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, Mərakeş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Həsən Hami, Azərbaycanda İran İslam Respublikası yanında Mədəniyyət Mərkəzinin direktoru İbrahim Nuri, Milli Kulinariya Mərkəzinin Baş direktoru Tahir Əmiraslanov və başqaları Assosiasiyanın Azərbaycanın milli-mədəni tərəqqisinə yardıma yönəldilmiş yaradıcı fəaliyyətinə yüksək qiymət verdilər. Azərbaycan xalqının intellektual və etik inkişafında, elm və təhsilin inkişafında, yaradıcı fəaliyyətin, mədəni irsin, o cümlədən, Azərbaycan ailəsinin, qadınlar, gənclər və uşaqların mədəniyyətinin inkişafının stimullaşdırılmasında, digər xalqlarla dostluq əlaqələri və əməkdaşlığın inkişafında Assosiasiyanın mühüm rolu onlar tərəfindən qeyd olundu.

Assosiasiyanın fəaliyyətini qiymətləndirərək, prof. Elmira Süleymanova dedi: "Bugün biz Azərbaycanın intellektual həyatında daha bir hadisəni – "Simurq" AMA-nın 20 illiyini, yüksək səviyyədə keçən beşinci qurultayı qeyd edirik. ...Bu situasiyada intellektualları ətrafında birləşdirən və onlar üçün özünəməxsus kompas rolunu oynayan, yalnız bugünkü dəyərlərə yönəltmək deyil, həm də perspektivlər üzərində düşünməyə vadar edən struktura malik olmaq çox vacibdir. Çox əhəmiyyətlidir ki, Assosiasiyaya Fuad Məmmədov kimi, bir çox xarici akademiyalara üzv seçilmiş, professional və tanınmış alim rəhbərlik edir. Lakin o yalnız buna görə deyil, nüfuzlu alim olaraq, eyni zamanda gənclərin, qadınların və s. inkişafına çox diqqət ayırmaqla da hörmətə layiqdir. ...Düşünürəm ki, "Simurq" adı altındakı bütün böyük ailə - fədakar və "Simurq"un ideyalarına – Azərbaycanın mədəni və intellektual inkişafına, sülh mədəniyyəti vərdişlərinin aşılanması və inkişafına sadiq insanlardır. Və bu planda

ölkəmiz üçün Assosiasiyanın fəaliyyəti olduqca dəyərlidir".

Mərakeş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Həsən Hami: "Parlaq şəxsiyyət, professor Fuad Məmmədovun rəhbərlik etdiyi "Simurq" Assosiasiyası, bugünkü reallıqlar nöqteyi-nəzərindən, xalqlar və dövlətlər arasında mədəni körpülər yaratmaq üzrə əhəmiyyətli və aktual fəaliyyəti həyata keçirir. Mən sivilizasiyalar arasında dialoqa yönəldilmiş bu işi alqışlayıram. Sizin ölkəniz Qərb və Şərq mədəniyyətlərini birləşdirən mərkəzdə yerləşir, və bu planda bugünkü tədbir çox böyük hadisədir. "Simurq" Assosiasiyası çox yüksək statusa və burada iştirak edən, və "Simurq"un rəhbərliyi tərəfindən əməyi layiqincə qiymətləndirilən insanların tərkibinə görə ciddi reputasiyaya malikdir. Belə təşəbbüsləri yalnız alqışlamaq və dəstəkləmək olar".

Assosiasiyanın fəaliyyəti haqqında rəylər onun real fəaliyyət nəticələrinə əsaslanmışdır. Özünün iyirmi illik inkişaf tarixinə nəzər salaraq, Assosasiyanın qürur duymaq üçün səbəbi var idi. Öz nəcib missiyasını həyata keçirmək məqsədilə, ötən onilliklərdə o, beynəlxalq iştirakla, bir sıra ictimai-faydalı milli layihələri yerinə yetirmiş, yüzlərlə stasionar və səyyar elmi və elmi-maarifçilik kulturoloji konfranslar və seminarlar keçirmişdir. Çox güman ki, "Simurq" AMA-nın ən əhəmiyyətli sosial-siyasi nəticələrindən biri, onun tədqiqat və elmi-maarifçilik fəaliyyətinin Azərbaycan xalqının milli özünüdərki və elmi dünyagörüşünə, intellektual, etik, hüquq və idarəetmə mədəniyyətinə pozitiv təsiri idi.

Assosiasiyanın ictimai tanınması hər şeydən əvvəl, onun Azərbaycan cəmiyyətində yüksək ruhi mədəniyyətli insanların "istehsalına" yönəldilmiş azalmayan, daimi işi idi. Kulturoloji metodologiyaya əsaslanaraq, sistemli yanaşma, məntiq və psixoanalizin nailiyyətlərindən istifadə edərək, Assosiasiya üzvləri: *vətəndaşlarımızın həyat qabiliyyəti, gəlirləri və maddi durumunun səviyyəsini necə yüksəltməli, yoxsulluğa, münaqişələrə, cəmiyyətin qeyri-sabitliyinə aparan riskləri necə azaltmalı; mədəniyyətlərin və maraqların münaqişəsi ilə şərtlənən, insan həyatına xas destruktiv proseslərlə neçə mübarizə aparmalı; insan münasibətlərinin qarşılıqlı anlaşma və harmoniyasını təmin edən, şəxsiyyətin ədalətli qiymətləndirilməsi və cəmiyyətin və dövlətin davamlı inkişafına yardım edən düzgün qərarlar üçün yeni imkanları necə yaratmalı?* kimi fəlsəfi suallara cavabaların axtarışına təkrar-təkrar səy göstərirdilər. Bu suallara cavab əvvəlki kimi, yeganə idi: insanların keyfiyyətli təhsili və tərbiyəsi, elmin və maarif sisteminin möhkəmləndirilməsi vasitəsilə onların ruhi mədəniyyətinin permanent inkişaf etdirilməsi yolu ilə.

Əvvəlki illərdə olduğu kimi, bu illərdə də şəxsiyyətin formalaşması, vətəndaşlarımızın akkulturasiyası və inkulturasiyası məsələlərinə yanaşmada, Assosiasiya öz fəaliyyətinin əsas prioritetlərinin seçimində irsi və qazanılmış şəxsiyyət mədəniyyəti haqqında təsəvvürləri daxil edən xüsusi mədəni insan konsepsiyasından çıxış edirdi. Mədəniyyət fenomeni və onun yaradıcısı – insan fenomeni iki qarşılıqlı əlaqəli və bir-birinə təsir göstərən həyat təzahürləridir. Hər bir insan xoşbəxtliyə can atır. Xoşbəxtliyi anlama dünyagörüşündən, mənəviyyat, Xeyir və Şər haqqında təsəvvürlərdən, dəyərlər sistemi və əqidədən asılıdır. Burada insanın müəyyən genetik-mədəni amilləri, sosial-mədəni mühit, dəyərlər sistemi, insanın mənəvi seçimini müəyyən edən vicdanı və xarakteri də rol oynayır.

Mədəni insanın davranışı və insanın mədəni davranışı arasındakı əsas fərq ondan ibarətdir ki, birinci insan istənilən situasiyada daxili mədəniyyəti, dəyərləri, əqidələri və ləyaqətinə uyğun surətdə özünü aparır, ikinci isə daxili maraqlarını nəzərə alaraq, etiketdən istifadə etməklə, bu zaman daxilən "özü olaraq" qalmaqla, yalnız müvəqqəti olaraq, situasiyaya köklənir. Mədəni insanın davranışının əsasında biz – bilik, məhəbbət, vicdan, düzgünlük, ədalət, yaxşılıq, qayğıkeşlik, empatiya, məsuliyyət, iradə, inam, humanizm, vətənpərvərlik, şəxsiyyətə hörmət, insanlara xidmət kimi keyfiyyətləri və şəxsiyyətin xarakterik xüsusiyyətlərini görürük. Antimədəni təzahürlər və destruktiv proseslərin ifadəsinin əsasında – qəddarlıq, zor, hiyləgərlik, təkəbbür, şöhrətpərəstlik, həyasızlıq, dikbaşlıq, eqoizm, yaltaqlıq, ikiüzlülük, aldatma, vicdansızlıq və s. kimi xarakterik xüsusiyyətlərini və təzahürləri görürük.

Əlbəttə ki, burada insanın xarakteri mühüm rol oynayır. Məlumdur ki, xarakter insanın dayanıqlı, nisbətən daimi psixi xüsusiyyətlərinin strukturu kimi, ailədə, kollektivdə və cəmiyyətdə onun davranışını və digər insanlarla münasibətlərini müəyyən edir. Bununla yanaşı xarakter əməyə, öz öhdəliklərinə, təbiətə, əşyalara, mədəni dəyərlərə və s. münasibətdə özünü göstərir.

İnsanın davranışında özünü göstərən xarakter və mədəniyyətin qarşılıqlı əlaqəsi insanın həyat fəaliyyəti mədəniyyətinin ən anlaşılmaz məsələlərindən biridir. Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi bu qarşılıqlı əlaqəni başa düşməyə imkan verir. Xarakter şəxsiyyətin mədəniyyətinin ayrılmaz xüsusiyyətidir. İnsanın davranışı, həyat tərzi və taleyi bir çox cəhətdən onun xarakteri ilə formalaşır. Xarakter – şəxsiyyətin, onun təşəkkülünə yardım edən ruhi mədəniyyət ilə qırılmaz əlaqəli xüsusiyyətləri və keyfiyyətlərinin toplusudur. Eyni zamanda hər bir insanın mədəniyyətində, onun mədəniyyətinin formalaşmasında mühüm rol oynayan və ayrılmaz hissəsi olan xarakteri mütləq özünü göstə-

rir. Konformizm (insanın həyat şəraitinə uyğunlaşması) dərəcəsi xarakterin prinsipləri (əgər onlar varsa) və möhkəmliyindən asılıdır. Xarakterin formalaşmasında temperament, mədəniyyətin genetik kodu, tərbiyə, sosial mühit kimi daimi və dəyişən amillər müəyyən rol oynayır. Bunun sayəsində uşağın xarakterik xüsusiyyətləri, hər şeydən əvvəl, insanlara, əməyə və təbiətə münasibətinin formalaşmasını nəzərə almaqla, bir çox cəhətdən onun tərbiyəsinə yanaşmadan asılıdır.

Bu qarşılıqlı əlaqəni başa düşmək üçün biz, aşağıdakı sualları verməklə, təbiət və cəmiyyət, heyvan və insan kimi kateqoriyalara müraciət etdik: insanın və heyvanın davranışı arasında hansı fərq var, heyvanın davranış mənbələri hansılardır, və insanın davranışı necə formalaşır? Bu suallara cavab verərək, hiss etmək çətin deyil ki, heyvanın davranışı onun təbiəti ilə müəyyən olunur və onda bünövrəsi aprior olaraq qoyulmuş instinktlərlə tənzimlənir. Təbiətin universal təkamül prinsiplərinə uyğun olaraq, heyvanların instinktiv davranışı irsən determinə olunmuş və stereotipdir. Anadangəlmə, irsi şərtlənmiş tendensiyalar və cəhdlərin toplusu kimi, instinkt heyvanların şüursuz davranışında özünü aydın şəkildə göstərir. O əsasən, daxili və xarici amillərin - orqanizmin uyğun funksional mərkəzlərini oyadan qıcıqlandırıcılar və stimulların (hərəkətəgətirici səbəblər) təsiri ilə şərtlənmişdir. Alimlər tərəfindən sübut edilmişdir ki, heyvanın instinktiv davranışı, təlimdən asılı olmayaraq, heyvanın təbii orqanizmi və məkan şəraiti ilə sıx əlaqəlidir. Jan Batist Lamarka görə, heyvanın təkamülü davranış vasitəsi ilə ifadə olunan ətraf mühitin təsiri ilə baş verir. Heyvanların instinkti fikir yaxud iradə ilə şərtlənən, müəyyən situasiyada xarakterdən və orqanizmin tələbatlarından doğan hisslərlə törəyən hərəkətlərə meyllilik deyildir. Burada hər şey adi müşahidə zamanı aydın olur. Şir yaxud ceyran, fil yaxud tülkü, it yaxud çaqqal, qartal yaxud ilan, - heyvanların hər bir növü öz xarakterinə malikdir, təbiət və yaşama şəraiti ilə onda əsası qoyulmuş instinktlərə uyğun olaraq özünü aparır.

İnsan ilə iş başqa vəziyyətdədir. Bioloji varlıq olaraq insanlar müəyyən instinktlərə malikdirlər. Bu instinktlər insanın ya əqidəsinə, ya yaşayış mühitinə uyğunlaşması məqsədilə seçdiyi müəyyən mədəni formalar libasına bürünmüşdür. Tərəfimizdən öyrənilən və yuxarıda nəzərdən keçirilən məsələlərdən belə nəticə çıxır ki, insan mahiyyətinin müəyyən indikatoru - onun instinkti, psixologiyası və xarakteri, əqidələri, psixoloji istiqamətləri, təfəkkür və davranış stereotipləri, ruhi mədəniyyəti bütün hallarda onun özünün mənəvi seçimidir.

İnsanın davranışı həm onun təbiəti (instinktləri), həm də onun təfəkkürü, nitqi, şüurlu davranışı və fəaliyyətində özünü büruzə verən mədəniyyəti ilə müəyyən olunur. İnsanlara qida və valideynlik instinktləri, özünümüdafiə, qorxu, qəzəb və digər instinktlər məxsusdur. Bu zaman insanlar müxtəlif xarakterə və, həm mədəniyyətin irsi genetik kodunun (anadangəlmə mədəni keyfiyyətlərin – öz valideynləri və yaxın qohumlarının psixologiyası, xarakteri və sosial təcrübəsinin), həm də təhsil və tərbiyə, sosial mühitin təsiri nəticəsində qazanılmış keyfiyyətlərin birgə məhsulu olan müxtəlif mədəniyyətə malik olurlar. İnsanın instinkti onun mədəniyyətinin təsirinə düçar olur, onun bilikləri, tərbiyəsi, ənənələr və dəyərlər sistemi ilə tənzimlənir. İnsanın mədəniyyəti və davranışına maddi həyat şəraiti, tarixi və siyasi vəziyyət təsir edir. İnsanın mədəniyyətinin inkişafında kulturogenez və mədəni mübadilə mühüm rol oynayır. Mədəni irsi və mədəni yenilikləri ifadə edən kulturogenez prosesini düzgün idarə etmək, cəmiyyətin sosial mədəniyyətinin inkişafına müsbət təsir göstərir. Burada istifadə olunan texnologiyalarda, adi məişətdə və ölkənin ideologiyasında spontan (daxili səbəblərdən törəyən, öz-özünə əmələ gələn), stimullaşdırılmış transformasiya və birbaşa mənimsəmə kimi innovasiyalar mənbəyinin yaradıcı istifadəsi, diffuziya və konvergensiya kimi yenilik tiplərinin selektiv tətbiqi rol oynayır.

Şəxsiyyətin formalaşmasında mədəniyyətin rolunu qiymətləndirmək çətindir. O, insanın həyatı və taleyinə neqativ təsir göstərən, xarakterin dəyişkənlikləri, qeyri-müəyyənlikləri və ziddiyyətlərini aradan qaldırmağa imkan verən başlıca sistemyaradıcı amildir. Sosial motivasiya, özünü təkmilləşdirməyə və xoşbəxtliyə can atma, məhəbbət və dostluq, cəmiyyətdə layiqli yer tutmaq, yaxınların və ətrafdakıların inamı, hörməti və məhəbbətini qazanmaq arzusu insanın instinktinə böyük təsir göstərir. Pozitiv amillər sırasında vicdan, düzgünlük, doğruluq, inam və səbr, iradə, prinsipiallıq və məsuliyyət kimi mənəvi keyfiyyətləri də sadalamaq lazımdır.

İnsanın könüllü olaraq seçdiyi mədəni standartlar, zaman və məkanla dəyişikliklərə uğrayan irsi və qazanılmış mədəniyyətin sintezləşdiyi mürəkkəb ekstrasomatik (üstbioloji) kompleksə malikdir. Bu seçim cəmiyyət qarşısında insanın üzərinə mənəvi məsuliyyət qoyur. "*Xeyirlə Şər hər zaman çarpışmağa məhkumdur, və bu əbədi döyüşdə Şər onunla güclüdür ki, Xeyir üçün bütün vasitələr yararlı olmadığı halda, Şər heç nədən iyrənmir*". Mirzə Şəfi Vazehin bu dahi sözləri insanın və cəmiyyətin həyatında mənəvi mədəniyyətin rolunu aydınlaşdırır. Kulturologiya prizmasından baxanda aydın olur ki, hiyləgərlik ağlın əlaməti olsa da, hiylənin tətbiq edilməsi vicdan məsələsidir. Mədəni insan ictimai maraqlara zidd olmayan arzularının həyata

keçirilməsinə can atır. Lakin insanın mədəniyyət səviyyəsi nə qədər aşağıdırsa, onun həyatın mənası və məqsədlərini, seçimin düzgünlüyünü və dəyişdirici imkanları görməsi bir o qədər məhduddur, cəmiyyətin yaradıcı həyat fəaliyyətinin passiv seyrçisi, bəzən isə sosial-mədəni həyat proseslərinin aqressiv iştirakçısı və pozucusu olmaqla, özünü bir o qədər öz instinktlərinə, təbii xarakterinə uyğun aparır.

Kulturologiyada istifadə olunan psixoanalizdə də insanın davranışının ilkin bioloji şərtinin rolu təsdiqlənir. Burada onlar insanın mürəkkəb davranış modellərinin motivasiya qüvvələri rolunu oynayan irsi (qazanılmış deyil) tendensiyalar kimi nəzərdən keçirilir. Bununla bərabər, Ziqmund Freyd və Abraham Maslou insanın psixikasında instinktlərin mövcudluğunu inkar edirdilər. İnsanın fərdiliyini qeyd edərək, Freyd instinktlər nəzəriyyəsini – şövqlər (həvəs, meyl) nəzəriyyəsinə qarşı qoydu. Humanist psixologiyanın yaradıcısı Abraham Maslou insanda instinktlərin olmamasını onun öz arzularının qarşısını almaq bacarığı ilə izah edirdi. Onun nəzəriyyəsinə görə, əgər başlanğıcdan insanlar instinktlərin təsirinə uğrayırdılarsa da, mədəniyyətin inkişafı ilə instinktlər davranış motivlərinə çevrildilər və şüurla sıxışdırılıb çıxarıldılar. Bu yanaşmaları kulturoloji cəhətdən qiymətləndirərkən, görünür ki, burada həm şəxsiyyətin "iradə amilini", həm də dünya mədəniyyəti və sivilizasiyasının zaman və məkanında bəşəriyyətin mədəni inkişafının dialektik qeyri-müntəzəmliyini nəzərə almaq lazımdır. Unutmayaq ki, müasir "Homo Sapiens" insan tipi çərçivəsində həm vəhşilk, həm barbarlıq mədəniyyəti, həm feodalizm, həm kapitalizm, həm sosializm mədəniyyəti, həm texnogen mədəniyyət, həm humanist sivilizasiya mədəniyyəti, – həm təmiz halda, həm də inteqrasiya halında yer almaqda davam edir.

Əgər insan mədəniyyətini "irsi" və "qazanılmış" mədəniyyətin cəmi kimi nəzərdən keçirsək, hiss etmək çətin deyil ki: irsi mədəniyyət, adətən, insanın xarakteri və davranışında meydana çıxaraq, onda üstünlük təşkil edir. İnsanın təhsili, tərbiyəsi və sosial mühitlə şərtlənən qazanılmış mədəniyyət, onun həyat fəaliyyətini tənzimləyən, mədəni standartlara təsir göstərən psixoloji istiqamət funksiyasını yerinə yetirir.

Şəxsiyyətin əqidələrində, təbii davranışında ifadə olunan qazanılmış mədəniyyət onun mahiyyəti olur. İnsanın qazandığı biliklər və tərbiyə mədəniyyətdə böyük rol oynayır. Mədəni insanın davranışı, hiss orqanlarından gələn informasiyadan asılı olmayaraq, əsasən həyat və dünya mənzərəsini yaratmaq iqtidarlı intellekt səviyyəsi ilə müəyyən olunur. O həmçinin, mədəni inkişaf səviyyəsi ilə bağlı olan, insan həyatının iqlim və sosial şəraiti ilə şərtlənən təsəvvürlər, təfəkkür stereotipləri, dünyagörüşü, ənənələr, stan-

dartlardan asılıdır. Bununla yanaşı insanın qazanılmış mədəniyyəti, mənəviyyata zəmanət verməyən, yalnız zahiri etiket xarakteri daşıya bilər. Belə etiket arxasında, pərdə arxasında olduğu kimi, “mədəniyyət libası” geymiş, müəyyən mikro- yaxud makrososiumun uyğun “mədəniyyət dili ilə” ətrafdakılar tərəfindən manipulyasiya edilən insanın əsl mahiyyəti gizlənir.

Bəzən yaxın qohumların, bir ailənin üzvlərinin xarakterindəki heyrətedici fərqi şəxsiyyətin hansı formalaşma mexanizmləri hesabına aid etmək lazım olduğu sualına hələ cavab tapılmayıb. Həyatda elə hallar olur ki, eyni bir tərbiyə almış iki qardaş, onların şəxsiyyət mədəniyyətini əks etdirən həyat prinsipləri və hərəkətlərinə görə tamamilə bir-birinin əksi olur. Ehtimal etmək olar ki, burada sosial mühit – yoldaşlar, qonşular, KİV və s. başlıca təsir amilidir. Belə ehtimal şəxsiyyət mədəniyyətinin inkişaf əsası kimi, cəmiyyətin ruhi mədəniyyətinin inkişafı və təkmilləşdirilməsinin vacibliyini göstərir. Aydın olur ki, şəxsiyyətin formalaşmasında sosial mühit aparıcı rol oynayır, çünki o, şəxsiyyətin həm anadangəlmə, həm də qazanılmış mədəniyyətinə müəyyənedici təsir göstərir. Bu isə insanın uyğun sosial-mədəni inkişaf mühitinin formalaşdırılması, insanların məqsədyönlü akkulturasiyası və inkulturasiyası, onların xaosdan nizama və harmoniyaya aparan yol ilə yüksək həyat fəaliyyəti mədəniyyəti dəyərləri və standartlarına qoşulmasının həyati vacibliyini bir daha təsdiq edir.

Kulturologiyaya bu nəzəri ekskursiya və motivasiya məntiqinin təhlilindən sonra, yenidən Assosiasiyanın real fəaliyyət tarixinə qayıdaq. Bu ərəfədə “Simurq” AMA özünün beşinci qurultayından sonra, şəxsiyyət və cəmiyyət mədəniyyətinin inkişafına yardım etməyə istiqamətlənmiş bir sıra ictimai-faydalı layihələri həyata keçirirdi. Bu zaman Assosiasiya öz intellektual fəaliyyətini Azərbaycanın sosial-mədəni dövlət siyasətinin məqsədləri və vəzifələrinə, hökumət tərəfindən həyata keçirilən proqramlar və layihələrə uyğun olaraq qurmağa çalışırdı.

Assosiasiya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Azərbaycanın tükənməz milli inkişaf resursu olan insan kapitalının hərtərəfli inkişaf etdirilməsi çağırışına ilk səs verənlərdən biri olmuşdur. Bu çağırış ölkə siyasətində yeni prioritetləri şərtləndirir və cəmiyyəti idarə etmə mədəniyyətinə yüksək tələblər irəli sürürdü. Ölkə başçısının strateji kursunun düzgünlüyü heç bir şübhə doğurmurdu, çünki dünya sivilizasiyasının qabaqcıl ölkələrinin inkişaf təcrübəsi göstərirdi ki, demokratiyanın dəyərlər sisteminə uyğun olaraq, inkişaf məqsədi və vasitəsi iqtisadiyyat deyil, insandır, onun mədəniyyətidir. Demokratik ölkələrin əsas mədəniyyət prinsipi bu məntiq üzərində qurulmuşdur ki, buna uyğun olaraq, cəmiyyətin başlıca

strateji inkişaf resursu – yüksək mədəniyyətə malik insan kapitalıdır. Söhbət siyasətçilər və məmurların, alimlər və diplomatların, istehsalçılar və sahibkarların, gənclərin, bütün ölkə vətəndaşlarının intellektual inkişafı, peşəkarlığı və sosial etikasından gedir. Bu tezis başlıca məqsədi – ölkənin tərəqqisi və onun vətəndaşlarının ümumi rifahına nail olmağı özündə ehtiva edirdi. Elmi biliklər və praktik vərdişlər, qabiliyyətlər, təcrübə, hüquq mədəniyyəti və innovativ kreativ fəaliyyət, təfəkkür mədəniyyəti və idarəçilərin davranışı, onların digər insanlarla münasibətlər etikası - inkişaf və təkmilləşmə, resursların düzgün istifadəsi, çətinliklərin aradan qaldırılması və dövlətin və onun vətəndaşlarının həyat qabiliyyətinin yüksəldilməsi üçün qeyri-məhdud imkanlar mənbəyidir.

Dövlət idarəçiliyinin mürəkkəb problemlərinin elmi əsaslanmış və zamana adekvat (tam uyğun) qərarlarının kulturoloji axtarışı - ənənəvi problemlər və anlayışların yaxşı düşünülmüş təhlilini və innovativ görməni, dünya sivilizasiyasının tarixi inkişaf təcrübəsinin tənqidi istifadəsini tələb edir. Demokratiya prinsiplərinə əsaslanan milli idarəçilik, müasir ümumrifah dövlətinin qurulması və rəqabət qabiliyyətli inkişaf məqsədinə xidmətə çağırır. Bu, sözsüz ki, dövlət siyasətinin düzgün qurulmuş inkişaf istiqamətləri və prioritetləri, balanslaşdırılmış siyasi sistem, vətəndaşların yüksək etik mədəniyyəti və bütün səviyyələrdə idarəetmə mədəniyyəti əsasında cəmiyyətin və dövlətin həyat fəaliyyəti metodları və formalarının daimi təkmilləşdirilməsini tələb edir.

Düzgün qərarların qəbul edilməsi bacarığı hər bir insan taleyi üçün böyük əhəmiyyətə malikdir. O bir çox cəhətdən şəxsiyyətin intellekti və təcrübəsindən, onun xarakterinin pozitivliyi və möhkəm iradəsindən, kulturoloji təfəkkür və sistemli təhlil etmək qabiliyyətindən asılıdır. Effektiv idarəetmə yalnız xoşbəxtliyə nail olmağa yardım etmir, həm də şəxsiyyətin digər insanlara faydalı təsir imkanını açır, onları idarə etməyə mənəvi haqq verir, sosial, dövlət və beynəlxalq idarəçiliyin təkmilləşməsinə yardım edir. Yüksək ruhi mədəniyyətin inkişafı ilə, biliklər və bacarıqların, mütəşəkkillik, mənəviyyat və xoş məramın təkmilləşdirilməsi vasitəsilə özündə belə bir qabiliyyətin yetişdirilməsinə hər bir vətəndaş, hər bir ailə, dünya sivilizasiyasının hər bir mütərəqqi xalqı can atır.

## “SİMURQ” AMA-nın son beş ildəki fəaliyyəti Assosiasiyanın azərbaycançılıq ideologiyası və multikulturalizm dövlət siyasətinə yardımı

Regionların inkişafı dövlət proqramına yardım, insanların ruhi mədəniyyət səviyyəsinin yüksəldilməsi, milli və dünya mədəniyyəti nailiyyətlərinə qoşulmaq məqsədilə, 2011-ci ilin iyun ayında Sabirabad rayonunda “Simurq” AMA-nın regional nümayəndəliyi açıldı. Bu nümayəndəliyin yaradılması Assosiasiyanın Azərbaycanda insan kapitalının inkişafına yardım məqsədli ciddi vətəndaş layihələrindən biri idi. Onun həyata keçirilməsi “Simurq”la əməkdaşlıqda əhalidə, həmçinin müxtəlif dövlət və qeyri-hökumət təşkilatları strukturlarında maraq doğuran, Azərbaycanın regionlarında ruhi mədəniyyətin inkişafı üçün onun tərəfindən toplanan kulturoloji biliklərin istifasəsində tələbat, Mədəniyyət Assosiasiyasının respublikada nüfuzunun artmasına səbəb oldu.

Nümayəndəliyin təntənəli açılışına gələn “Simurq” AMA-nın nümayəndə heyətinin tərkibində: prof. Fuad Məmmədov, Assosiasiyanın təşkilati iş üzrə vitse-prezidenti, Azərbaycan Həmkarlar Konfederasiyasının Mədəni-məişət problemlərinin analitik tədqiqatlar şöbəsinin müdiri Namiq Hüseynov, “Yeni Azərbaycan” Partiyası Siyasi Şurasının üzvü, politoloq Svetlana Bayramova, Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tədris hissəsi üzrə prorektoru, professor Oqtay Abasquliyev, AR Rəssamlar İttifaqının katibi, xalq rəssamı Ağaəli İbrahimov, Beynəlxalq informasiyalaşdırma Akademiyasının üzvü Maya Bədəlbəyli, AR Milli Məclis katibliyinin məşvərətçisi Rafiq Seyidzadə, Azərbaycan yaradıcılıq fondunun sədr müavini, əməkdar mədəniyyət işçisi Rafiq Kaşanlı, Assosiasiyanın Gənclər departamentinin rəhbəri Anar Cəfərov, “Simurq” AMA-nın rəyasət heyətinin məsul katibi, H. Əliyev adına Ali Hərbi Məktəbin “Elektronika və radiotexnika” kafedrasının professor vəzifəsinin icraçısı, texnika sahəsində fəlsəfə elmləri doktoru Ağazəki Məlikov, Dövlət Neft Şirkətinin Rabitə və informasiya texnologiyaları şöbəsinin keçmiş müdir müavini Faiq Abbasov, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun böyük elmi işçiləri - Samirə Mirbağırzadə və Fəridə Mirbağırzadə, Azərbaycan Dövlət Respublika Elmi Tibb kitabxanası həmkarlaq ittifaqının sədri İradə Əliyeva və başqaları iştirak edirdilər. Nümayəndə heyətinin üzvləri Ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül qoydular, onun adını daşıyan muzeylə maraqla tanış oldular, Qonaq kitabında xatirə qeydləri etdilər.

İcra hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi, “Zülfü Mərkəzi Studiya”, “İrəli” İctimai gənclər birliyi və Sabirabad şəhər yerli ziyalılarının təşkilati dəstəyi ilə “Simurq” AMA-nın regional nümayəndəliyinin təntənəli açılışı 3 iyun

2011-ci ildə oldu. Assosiasiyanın Gənclər departamentinin rəhbəri Anar Cəfərov, Sabirabad ziyalılarının nümayəndələri Zülfü Rzayev və Nadir Quliyevin dəstəyi ilə nümayəndəliyin hazırlanması və açılışı üzrə böyük təşkilati iş görülmüşdür. Sabirabad rayon Gənclər Mərkəzində nümayəndəlik üçün ayrıca otaq ayrılmışdır ki, burada "Simurq" AMA-nın yaradıcı fəaliyyətinin tarixini əks etdirən kiçik ekspozisiya (sərgi) yerləşdirilmişdir.

Sabirabad rayon Gənclər Mərkəzində Assosiasiyanın nümayəndələrini Sabirabad icra hakimiyyəti başçısının sosial-iqtisadi məsələlər üzrə birinci müavini B. Həsənov, icra hakimiyyəti aparatının şöbə müdiri İ. Əsgərov, təhsil və mədəniyyət işçiləri, Sabirabad rayon Ağsaqqallar Şurası və Ziyalılar Cəmiyyətinin nümayəndələri, ictimaiyyət qarşıladı. Sabirabad rayon Gənclər və İdman İdarəsinin rəisi Nadir Quliyev tədbiri açaraq və qonaqları salamlayaraq, qeyd etdi ki, elmi ictimaiyyət arasında bu qədər geniş populyarlığa malik və ciddi çoxşaxəli qeyri-hökumət təşkilatı işini icra edən nümayəndəliyin açılması yalnız Sabirabadın deyil, həm də ətraf rayonların ziyalı nümayəndələri üçün böyük əhəmiyyətə malikdir.

Elə həmin gün şəhərin Gənclər Mərkəzində "Kulturologiya və milli inkişaf" mövzusu üzrə kulturoloji konfrans keçirildi. Assosiasiyanın əsas fəaliyyət istiqamətləri, fəlsəfəsi, metodologiyası və nailiyyətləri ilə konfrans iştirakçılarını prof. Fuad Məmmədov tanış etdi. Konfransda həmçinin, "Simurq" AMA-nın üzvləri, auditoriyanın suallarına cavab verən Svetlana Bayramova, Rafiq Seyidzadə, Ağaəli İbrahimov çıxış etdilər. Sabirabad ziyalıları adından N. Gəncəvi adına 5 saylı orta məktəbin müəllimi Üzeyir Abbasov, Sabirabad Dövlət Sosial-İqtisadi kollecinin müəllimi Səidə Hüseynova, şair Fikrət Məmmədli və başqaları danışdılar. Çıxış edənlər ölkə regionlarının kənd ziyalıları və gəncləri üçün bu cür aksiyaların həyata keçirilməsinin zəruriliyini və vaxtında olduğunu qeyd etdilər.

Konfransda insan kapitalının inkişafında kulturologiyanın rolu təhlil olundu, həmçinin nümayəndəliyin fəaliyyət proqramı müzakirə olundu. O, gənclərin və yaşlı əhalinin intellektual, etik, hüquq və idarəetmə mədəniyyətinin yüksəldilməsinə yardım edən xüsusi kulturoloji kursların təşkil edilməsini, yerli kitabxananın kulturoloji ədəbiyyatla zənginləşdirilməsini, gənclər üçün kulturoloji seminarlar və müsabiqələrin keçirilməsini nəzərdə tuturdu. Həmçinin, istedadlı gənclərin meydana çıxarılması və dəstəklənməsi, qloballaşma şəraitində insanın aktual inkişaf problemləri üzrə dəyirmi masaların, Azərbaycanın görkəmli elm və incəsənət xadimləri ilə görüşlərin keçirilməsi, universal kulturoloji biliklərin formalaşması mərkəzi kimi, kulturologiya "məktəblərinin" açılmasının təşkili və s. nəzərdə tutulurdu. "Simurq" AMA-nın təşəbbüsü sabirabadlılar tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılandı.

"Simurq" AMA-nın rəyasət heyətinin qərarı ilə Yeni Azərbaycan Partiyası Sabirabad rayon təşkilatının sədri, Sabirabad rayon Gənclər və İdman İdarəsinin rəisi Nadir Quliyev, "ZMS" MMC-nin ("Zülfü Mərkəzi Studiya" MMC-nin) direktoru, Sabirabadda "Simurq" AMA-nın regional nümayəndəliyinin rəhbəri Zülfü Rzayev şəhər və rayonun yaradıcı fəaliyyəti və ictimai-mədəni həyatındakı fəal iştirakına görə təşəkkür fəxri fərmanları ilə təltif olundular.

Regionda ruhi mədəniyyətin inkişafı maraqlarını nəzərə alaraq, konfrans iştirakçıları 2011-ci ilin payızında Sabirabadda, Gənclər Mərkəzi və "İrəli" qeyri-hökumət gənclər təşkilatı ilə birlikdə keçirilməsi nəzərdə tutulan, "Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafı" mövzusunda respublika kulturoloji konfransının təşkili haqqında razılığa gəldilər. Belə konfransın məqsədi Sabirabadın və yaxınlıqda yerləşən rayonların gələcək inkişafına və şəhər mədəniyyətinin intellektuallaşdırılmasına yardım, həmçinin digər ölkələrin alim-kulturoloqları arasında Azərbaycan xalqının mədəni irsinin, milli mədəniyyətimizin populyarlaşdırılması idi.

Konfransın sonunda onun iştirakçıları, "ZMS" MMC-nin nəzdində yaradılmış, yenicə açılmış "S" Radio ilə tanış oldular. Bakıdan gələn qonaqlar Sabirabad Gənclər Mərkəzinin binasında yerləşən, lazımi aparatlar və avadanlıqla təchiz olunmuş "Simurq" AMA-nın regional nümayəndəliyinin ofisinə, 120 nəfərlik konfrans zalına baxış keçirdilər, Qonaq kitabını imzaladılar. Açılış mərasimindən sonra simurqçular Şəhidlər Xiyabanına baş çəkdilər, Olimpiya kompleksinə və Sabirabad Diyarşünaslıq muzeyinə baxdılar.

Nümayəndəliyin açılışından az sonra "İrəli" İctimai birliyinin rəhbəri, Milli Məclisin deputatı Ceyhun Osmanov və Yaponiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri, cənab Vatanabe Sabirabadda mədəniyyət mərkəzinin yaradılmasına görə məmmunluqlarını ifadə edərək, oraya baş çəkdilər. Həmin günlərdə nümayəndəliyin açılışını işıqlandıran "Ayna" qəzeti yazırdı:"...Assosiasiyanın tədbirləri əhalinin ən müxtəlif təbəqələrinin nümayəndələrində mədəniyyət, elm, müasir texnologiyaların ən müxtəlif sahələrində onların bilikləri və təsəvvürlərini genişləndirərək, reallaşdırılmamış daxili potensialın aşkar edilməsinə yardım edir. "Simurq"un rəhbərliyi və fəalları yalnız alimləri və diplomatları deyil, həmçinin həm tanınmış, həm də yeni başlayan incəsənət xadimlərini cəlb edərək, daim tədbirlərin keçirilməsinin yeni forma və metodlarını axtarıb tapırlar".

Azərbaycanda insan kapitalının inkişafı strateji milli vəzifəyə ciddi əhəmiyyət verərək, 2011-ci ilin sentyabrında Assosiasiya «Azərbaycanda insan kapitalının inkişaf Mərkəzi" innovativ kulturoloji layihəni işləyib hazırladı. Mərkəzin yaradılmasının səbəbi - ölkə başçısının milli insan kapitalını

inkişaf etdirmək çağırışının respublika ziyalıları, bütün səviyyələrdə vətəndaş cəmiyyəti tərəfindən eşidilməli və reallaşdırılmalı olması idi. Bu zaman Assosiasiya ölkənin davamlı və rəqabət qabiliyyətli inkişafı, effektiv dövlət və sosial idarəçiliyi üçün universal kulturoloji biliklərin yüksək elmi və praktik əhəmiyyətini nəzərə alırdı.

Layihə milli inkişaf tələbatlarının təmin edilməsinə yönəldilən sistemli kulturoloji tədqiqatların və insanın inkişafı məqsədilə kulturoloji təhsil və maarifin inkişaf etdirilməsi kimi ikiqat vəzifənin həllini nəzərdə tuturdu. Elmi vəzifələr kontekstində layihə sistemli kulturoloji tədqiqatların aktual inkişaf istiqamətlərinin dəstəyini nəzərdə tuturdu. Mərkəz müasir tədqiqat metodlarını işləyib hazırlamaq, aparıcı milli və xarici alimləri, istedadlı gəncləri diskussiyalara, insanın həyat fəaliyyətinin müxtəlif problemlərinin fənlərarası və müqayisəli tədqiqatlara cəlb etmək üçün innovasiya sahəsi olmaq istəyirdi. Əsasən, respublikada insan kapitalının inkişaf effektivliyi və milli mədəniyyətin gələcək qurulmasının instrumenti kimi ruhi mədəniyyətin qiymətləndirilməsi metodologiyasının işlənməsi və tətbiqi nəzərdə tutulurdu. Elmi blok həmçinin, milli inkişaf problemləri üzrə mühüm proqramların kulturoloji ekspertizasını, Azərbaycan Respublikasının vətəndaşları üçün qaydalar toplusu kimi, yüksək mədəniyyətli insanın etik kodeksinin işlənməsini həyata keçirməyi nəzərdə tuturdu.

İkinci vəzifə - respublikanın yüksək ruhi mədəniyyətə malik vətəndaşlarının, xüsusilə, ölkə gənclərinin formalaşması və inkişafının əsası kimi, kulturoloji təhsil və maarifin gələcək inkişaf ideyasından ibarət idi. Onun reallaşdırılması üçün şəxsiyyət mədəniyyəti, ailə mədəniyyəti, idarəetmə mədəniyyəti və liderlik mədəniyyətinin təşkil edilməsi, "Yüksək mədəniyyət siması" respublika kulturoloji müsabiqəsinin təşkili və keçirilməsi nəzərdə tutulurdu. Eyni zamanda bu istiqamətdə Bakı və Azərbaycanın regionlarının məktəbləri və məktəbəqədər müəssisələrində kulturologiya və mədəniyyətşünaslığın təlim texnologiyalarının yayılması, gənclərin və uşaqların kulturoloji təhsili və tərbiyəsinə, həmçinin Azərbaycanın regionlarında gənclər üçün kulturologiya mərkəzlərinin təşkil edilməsində hökumətə yardım nəzərdə tutulurdu. Birgə fəaliyyəti həyata keçirmək üçün layihə, uyğun resurslara malik olan "İrəli" İctimai birliyinə təklif olunmuşdur.

Dövlətin yeni siyası trendini əldə rəhbər tutaraq, 2011-ci ildə Assosiasiya, milli insan kapitalının inkişafı məsələlərinə həsr olunmuş elmi konfransın hazırlanması üçün ciddi iş aparırdı. Bu iş nəticəsində 24 dekabr 2011-ci ildə Milli Elmlər Akademiyası Rəyasət heyətinin binasında "Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafı" birinci Bakı kulturoloji konfransı keçirildi.

Konfransın əsas məqsədi Azərbaycanda uzunmüddətli perspektiv kimi ölkənin davamlı və təhlükəsiz inkişafının əsas resursu olaraq, insan kapitalının inkişaf texnologiyalarının məqsədlərini görməyə və təkmilləşdirilməsinə daha effektiv yanaşmaların mütəxəssislər tərəfindən müzakirə edilməsi idi.

Konfransın proqramı kulturologiyanın məzmunlu və metodoloji məsələləri: intellektual, etik, məişət və hüquq mədəniyyəti; Azərbaycanın bədii mədəniyyəti, siyasi mədəniyyəti, incəsənəti və mədəni irsi ilə əlaqədar geniş problemlər dairəsinə baxışı nəzərdə tuturdu. Alimlərin qarşısında: ənənələr, adətlər və bayramların qorunması, iqtisadi, siyasi və idarəetmə mədəniyyəti, jurnalistika və beynəlxalq münasibətlər, tibb, ekoloji və dini mədəniyyət, ailə, qadınlar, gənclər və uşaqların mədəniyyəti, həmçinin fiziki, idman mədəniyyəti və turizm mədəniyyətinin inkişafı ilə əlaqədar məsələləri təhlil etmək vəzifəsi dururdu.

Konfrans Azərbaycanın mədəniyyət tarixi və mədəni irsinin öyrənilməsi, ölkənin qanunları, texnologiyaları və yeni kreativ milli-mədəni inkişaf imkanlarının dərk edilməsi və yaradıcı istifadəsi, alimlər, mütəxəssislər, müəllimlər və incəsənət xadimləri arasında daha sıx kulturoloji əməkdaşlıq, həmçinin dövlət və ölkənin qeyri-hökumət strukturları arasında partnyorluğun inkişafı üçün yeni imkanların aşkar edilməsinə yardım etməli idi.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Mahmud Kərimov, Azərbaycan Mədəniyyət və Turizm Naziri Əbülfəs Qarayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövət Komitəsinin sədri Hicran Hüseynova,"Simurq"AMA-nın birinci vitse-prezidenti, akademik Maqsud Əliyev, Sankt-Peterburq Humanitar Həmkarlar İttifaqı Universitetinin rektoru, akademik A.S. Zapesotski konfransa təbrik məktubları ünvanlamışdılar.

Görkəmli Rusiya alim-kulturoloqu, Rusiyanın əməkdar elm xadimi, Peterburq Ziyalılar Konqressi İcraiyyə Komitəsinin sədri, akademik A.S. Zapesotski "Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafı" birinci Bakı kulturoloji konfransına təbrik məktubunda yazırdı: "İcazə verin, Azərbaycan Respublikasında kulturologiyaya həm dövlət, həm də vətəndaş cəmiyyəti səviyyəsində ciddi diqqət yetirilməsi ilə əlaqədar məmnunluğumu ifadə edim ki, bu, ümumilikdə, mədəniyyətin inkişaf göstəricilərindən biri, və ölkənizin rəhbərliyi tərəfindən mədəniyyətin inkişafına verilən əhəmiyyətdir. Azərbaycanda kulturoloji forumlar, konfranslar, seminarlar, televiziya verilişləri, gənc tədqiqatçıların işlərinin müsabiqələrinin keçirilməsi, dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsinin müxtəlif məsələləri üzrə elmi jurnalların nəşri, çoxlu sayda kitabların və məqalələrin dərc edilməsi, kulturologiya elmi üzrə alimlik dərəcəsi almaq üçün

dissertasiyaların müdafiəsi üzrə Şuranın fəaliyyət göstərməsi Rusiya alimlərini sevindirməyə bilməz. Müasir dünyada insanın kreativ həyat fəaliyyəti, insanın, cəmiyyətin və dövlətin inkişaf texnologiyaları və imkanları haqqında elm kimi kulturologiya aparıcı elmi paradiqma olmuşdur. O, müasir həyatın mürəkkəb problemlərinin təhlili və düzgün həlli, dünya ictimaiyyəti, dövlət, kollektiv, ailə və ayrı-ayrı vətəndaşlar səviyyəsində düzgün qərarların qəbul edilməsi üçün əvəzsiz əhəmiyyətə malikdir. Daimi dəyişikliklər və qloballaşma çağırışları şəraitində bəşəriyyətin sosial-mədəni inkişafı və dünya "biliklər iqtisadiyyatı"nın tərəqqisinin başlıca hərəkətverici qüvvəsi olan insan kapitalının inkişafı kontekstində kulturologiyanın strateji əhəmiyyəti daha aydın görünür."[33]

Konfransda ölkədə insan kapitalının inkişafı problemlərinə həsr olunmuş məzmunlu elmi məruzələr edilmişdir. Akademik Urxan Ələkbərov, professorlar – Fuad Məmmədov, Nəriman Həsənzadə, Şahlar Əsgərov, Əli Abbasov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova və başqaları məruzələrlə çıxış etmişlər. Texniki imkanların olmaması ilə əlaqədar, konfrans insan kapitalı, intellektual, etik, ekoloji, hüquq mədəniyyəti, bədii mədəniyyət, elm, təhsil, iqtisadiyyat, ailə, şəxsiyyət, cəmiyyət mədəniyyəti, şəxsiyyətlərarası və beynəlxalq münasibətlər mədəniyyəti məsələlərinin müzakirəsi ilə kifayətləndi. Konfrans iştirakçılarının bir sıra məruzələri "Simurq" Beynəlxalq kulturoloji jurnalda dərc edildi.[34]

Alimlər və mütəxəssislər tərəfindən, dövlətin Azərbaycanın sosial-mədəni inkişafına – elm, təhsil və səhiyyənin maddi bazasının möhkəmləndirilməsi, mədəni irsin qorunması, şəhərsalma mədəniyyəti, yoxsulluğun aradan qaldırılması, informasiya, bədii, iqtisadi və ekoloji mədəniyyət, ailə, qadınlar, gənclər və uşaqların mədəniyyəti, fiziki, idman, turizm mədəniyyətinə və mədəniyyətin digər sahələrinə ciddi diqqət yetirdiyi qəbul olundu. Bununla bərabər konfransda çıxış edənlər qeyd etdilər ki, dünya inkişafının ümumi tendensiyaları kontekstində, hər bir ölkədə sülh, davamlı inkişaf və beynəlxalq təhlükəsizliyin - əqli, mənəvi, hüquq, idarəetmə və iqtisadi mədəniyyət səviyyəsindən birbaşa asılı olması qanunauyğunluğunu görməmək mümkün deyil. "Biliklər cəmiyyəti" və "biliklər iqtisadiyyatı"nın inkişafı dövründə Azərbaycan Respublikasının modernləşməsi üçün elm, təhsil və maarif xüsusi əhəmiyyət kəsb edir. "Biliklər iqtisadiyyatı" əqli əmək işçilərinin əsas kapitala çevrilməsini nəzərdə tutur. Bu şəraitdə insan kapitalının

---

[33] "Simurq" Beynəlxalq kulturoloji jurnal. № 3, 2012, səh.. 13-14.
[34] SİMURG İnternational Culturological magazine. № 3, 2011.

inkişaf etdirilməsi vəsifəsi - insanın başlıca inkişaf amili olan intellektual mədəniyyətin qabaqlayıcı inkişafına daha fəal yardım etmək məqsədilə, respublika ziyalıları qarşısında ənənələr və innovasiyalar problemlərini yenidən düşünmək zərurətini irəli sürür.

Effektiv həyat fəaliyyəti, istehsal və idarəetmə texnologiyalarına elmi əsaslanmış tələbatların artmasını nəzərə alaraq, qurultay iştirakçıları qeyd etdilər ki, qloballaşma şəraitində XXI əsrin aparıcı elmi paradiqması olan, insanın həyat fəaliyyəti haqqında elm – kulturologiya, Azərbaycanın milli inkişafı üçün yeni imkanlar açır. Onlar dünya sivilizasiyasında baş verən dialektik dəyişikliklərdən asılı olaraq, daim təkmilləşmə və korrektə tələb edən sosial-siyasi mədəniyyətin - dünya və milli kulturologiya elminin nailiyyətlərinə, lokal, milli və qlobal səviyyələrdə sistemli kulturoloji təhlillərin nəticələrinə əsaslandığı halda daha effektiv olduğunu təsdiqlədilər. Bununla yanaşı Azərbaycan kulturoloqlarının kitabları və elmi nailiyyətlərinin beynəlxalq tanınma qazanması və xarici ölkələrin dövlət kitabxanaları fonduna daxil edilməsi razılıqla qeyd edildi.

Çıxış edənlər alimləri və siyasətçiləri insan kapitalının inkişafı, ölkənin modernləşdirilməsi, vətəndaşlarımızın rifahı və həyat keyfiyyətinin yüksəldilməsi, dövlətin davamlı və təhlükəsiz inkişafı üçün kulturologiyanın qeyri-məhdud imkanlarından, o cümlədən, milli kulturologiyanın nəticələrindən istifadə etməyə çağırdılar. Bununla yanaşı sosial-mədəni və iqtisadi inkişaf sahəsində səmərəli işinə görə ölkə rəhbərliyinə minnətdarlıq ifadə etməklə, qurultay iştirakçıları, onun diqqətini Azərbaycanda elm və tədris fənni kimi kulturologiyanın gələcək inkişaf problemlərinə yönəltməyin zəruriliyini qeyd etdilər. Onlar hökuməti ali məktəblərdə kulturologiya kafedralarının açılması, orta məktəblərdə və məktəbəqədər müəssisələrdə mədəniyyətşünaslıq fənninin daxil edilməsi, Bakıda və Azərbaycanın rayonlarında yeni kulturologiya mərkəzlərinin açılması, respublikada Dünya Mədəniyyəti Beynəlxalq Universiteti və ya Kulturologiya Akademiyasının açılmasının məqsədəuyğunluğu haqqında məsələni nəzərdən keçirməyə çağırdılar. [35] Kulturoloqlar, tarixçilər, filosoflar, ekoloqlar, politoloqlar, fiziklər, ədəbiyyatşünaslar və digər mütəxəssislər ümid etdiklərini bildirdilər ki, kulturologiya elmi, təhsili və maarifinin yayılması, insanın həyat fəaliyyətinin yeni kulturoloji texnologiyaları və milli inkişafın sistemli kulturoloji modellərinin işlənib hazırlanması Azərbaycanda ruhi və maddi mədəniyyətin gələcək

---

[35] "Simurq" Beynəlxalq kulturoloji jurnal (Dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi məsələləri) .
№ 3, 2012, səh.. 125-128.

tərəqqisinə yardım edəcəkdir.

Azərbaycanda insan kapitalının inkişafı proseslərinə elmi və administrasiya dairələrinin, o cümlədən, geniş ictimaiyyətin daha artıq surətdə cəlb edilməsi məqsədilə, konfrans iştirakçıları, insan kapitalını uzunmüddətli perspektiv üçün Azərbaycanın davamlı və təhlükəsiz inkişafının əsas resursu kimi qəbul edən bəyannamə qəbul etdilər. Bəyannamədə "biliklər cəmiyyəti" və "biliklər iqtisadiyyatına" keçid dövründə ruhi, ilk növbədə, intellektual mədəniyyətin qabaqlayıcı inkişafının xüsusu rolu qeyd olunmuşdur.

Sonda iştirakçılar, Azərbaycanda intellektual mədəniyyətin qabaqlayıcı inkişafına və onun nailiyyətlərinin milli maraqlarda istifadəsinə yardım edən sosial-mədəni inkişafın milli və dünya təcrübəsini öyrənməyə imkan verən milli və beynəlxalq kulturoloji konfranslar, simpoziumlar və forumların müntəzəm surətdə keçirilməsi zəruriliyinə inam ifadə etdilər.

Assosiasiyanın digər intellektual layihəsi ölkənin gələcək inkişaf konsepsiyası ilə əlaqədar olan təkliflərin işlənib hazırlanması oldu. "Azərbaycan 2020: gələcəyə baxış" dövlət konsepsiyasının hazırlanması ilə əlaqədar, demokratik ölkələrin inkişaf təcrübəsinin təhlili və dövlət idarəçiliyi sahəsində çoxillik tədqiqatları əsasında, "Simurq" AMA-nın və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin ekspertləri hökumətə təqdim etmək üçün kulturoloji tövsiyələr hazırladılar. Tövsiyələr bu tarixi mühüm problemə həsr edilmiş "Mədəniyyət və Azərbaycanın gələcəyi" xüsusi kulturoloji seminarda müzakirə olundu və bəyənildi. Seminar 28 yanvar 2012-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, "Simurq" AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyəti tərəfindən AMEA-nın konfrans zalında keçirildi.

"Elm və Azərbaycanın gələcəyi", "İqtisadi mədəniyyət və sosial inkişaf", "Kulturologiya, idarəetmə mədəniyyəti və Azərbaycanın gələcəyi", "Gələcəyin fəlsəfəsi", "Təhsil və millətin gələcəyi", "Dəyişən dünyada intellektual inkşaf problemləri", "Mədəniyyətlərin sublimasiyası və Azərbaycanın gələcəyi", "Azərbaycan mədəniyyəti – keçmişdən gələcəyə" kimi mövzular üzrə Azərbaycan alimləri və mütəxəssislərinin mühazirələri seminara təqdim olundu və qismən müzakirə edildi.

Seminar iştirakçıları qeyd etdilər ki, qloballaşma şəraitində davamlı inkişaf və beynəlxalq təhlükəsizlik hər bir ölkədə əqli, mənəvi, hüquq, idarəetmə və iqtisadi mədəniyyətin inkişaf səviyyəsindən birbaşa asılıdır. Bu şəraitdə Azərbaycanda elmi əsaslanmış effektiv həyat fəaliyyəti, istehsal və idarəetmə texnologiyalarına tələbatın artması müşahidə olunur. Azərbaycan Respublikasının modernləşməsi, ölkədə "biliklər cəmiyyəti" və "biliklər iqtisadiyyatı"nın qurulması, sistemli milli inkişaf modellərinin təkmilləşdirilməsi elm, təhsil və

maarifin qabaqlayıcı inkişafını, respublikanın mövcud intellektual potensialının qiymətləndirilməsi və milli tərəqqi maraqlarında daha səmərəli istifadəsini tələb edir. Bu zaman Azərbaycanın milli inkişafı üçün qeyri-məhdud imkanları, əvvəlki kimi, kulturologiya özündə ehtiva edir.

XXI əsrin aparıcı elmi paradiqması olan, Azərbaycan elmində bu nisbətən gənc istiqamət, insan kapitalının inkişafı, şəxsiyyət və liderlərin hazırlanması, ölkənin modernləşdirilməsi strateji problemlərinin həlli üçün əvəzsiz elmi, metodoloji və praktik əhəmiyyətə malikdir. Ona görə də Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev tərəfindən irəli sürülən, milli resurs olan insan kapitalının inkişaf etdirilməsi vəzifəsini əldə rəhbər tutaraq, vətəndaşlarımızın rifahı və həyat keyfiyyətinin yüksəldilməsi, dövlətin sabit və təhlükəsiz inkişafı üçün kulturologiyanın dəyişdirici imkanlarından səmərəli istifadə etmək lazımdır.

Eyni zamanda iştirakçılar, demoktarik ölkələrin inkişaf təcrübəsi və Azərbaycanın milli inkişaf tələbatlarının çoxillik kulturoloji tədqiqatlarının "Simurq" AMA-ya və Azərbaycan Kulturoloqlar Cəmiyyətinə, Azərbaycanın daha yaxşı gələcəyinin qurulmasına yönəldilmiş, aşağıda qeyd olunan təklifləri formulə etməyə imkan verməsi barədə razılıqlarını ifadə etdilər:

- Dövlətin sosial-mədəni siyasətində intellektual, etik, hüquq və idarəetmə mədəniyyəti prioritetlərinin müəyyən edilməsi.
- Mədəniyyətin İnkişafının Milli Onilliyinin keçirilməsi.
- İnsanın həyat fəaliyyətinin tarixi, nailiyyətləri, qanunauyğunluqları, texnologiyaları və yaradıcı imkanları haqqında, insan kapitalının inkişafı, şəxsiyyət və liderlərin hazırlanması, ölkənin modernləşməsi strateji problemlərinin həlli üçün əvəzsiz elmi, metodoloji və praktik əhəmiyyətə malik innovativ elm kimi, kulturologiyanın qabaqlayıcı inkişafının təmin edilməsi.
- Respublikada intellektual əməyin nüfuzunu artırmaq və intellektual mədəniyyətin qabaqlayıcı inkişafını təmin etmək, əqli əmək işçilərinin, ilk növbədə, alimlər, müəllimlər, mütəxəssislərin qiymətləndirilməsi və daha səmərəli istifadəsi məsələlərinə diqqətin artırılmasına yardım etmək iqtidarında olan "İntellektual mədəniyyət haqqında" qanunun qəbul edilməsi.
- Kulturologiya, tarix, psixologiya, fəlsəfə, iqtisadiyyat, hüquq, pedaqogika, sosiologiya, politologiya, sənətşünaslıq, filologiya, dilçilik, ilahiyyət və digər sosial və humunitar elmləri cəlb etməklə, fənlərarası Dissertasiya Şurasının yaradılmasının məqsədəuyğunluğu.
- Bütün ali məktəblərdə kulturologiya kafedralarının, Bakıda və Azərbaycanın regionlarında kulturologiya mərkəzlərinin açılması, mədəniyyətşünaslıq fənninin ölkənin bütün orta məktəbləri və məktəbəqədər müəssisələ-

rində tədris proqramına daxil edilməsinin məqsədəuyğunluğu.

- Respublikada Dünya Mədəniyyəti Beynəlxalq Universiteti yaxud Milli Kulturologiya Universitetinin (İnstitutunun, Akademiyasının) yaradılmasının qanunauyğunluğu.
- "Homo sapiens" tipli insandan "Homo culturalis" tipli insana keçid beynəlxalq proqramının işlənib hazırlanması və həyata keçirilməsi təşəbbüsünün Azərbaycan tərəfindən BMT-də irəli sürülməsinin məqsədəuyğunluğu.

31 yanvar 2012-ci ildə ölkənin milli maraqlarına cavab verən bu tövsiyələr AR Prezident Administrasiyasına təqdim olundu. Seminar iştirakçıları ümid etdiklərini bildirdilər ki, 2020-ci ilədək dövlət milli inkişaf konsepsiyasına onların daxil edilməsi – intellektual, etik, istehsal, iqtisadi, hüquq, idarəetmə, informasiya, bədii, tibb, ekoloji mədəniyyətin gələcək inkişafına, Azərbaycanın davamlı inkişaf, rəqabət qabiliyyəti və təhlükəsizlik səviyyəsinin yüksəldilməsinə yardım edəcəkdir.

"Simurq" AMA-nın elmi tədqiqatlarının nəticələri respublikanın elmi-pedaqoji ictimaiyyəti tərəfindən qəbul edilirdi. Azərbaycan elminin inkişafında professor F.T. Məmmədovun çoxillik xidmətlərini qeyd edərək, 2012-ci ilin martında AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurası özünün yekdil qərarı ilə, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvlüyünə seçilməsi üçün onun namizədliyini irəli sürdü. Qərar A.A. Bakıxanov adına Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Şurası, "İntellektual İnkişaf Problemləri" Beynəlxalq Akademiyası, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyası və Sankt-Peterburq Kulturologiya İnstitutu tərəfindən dəstəklənmişdir. Bu, Azərbaycan və xarici elmi ictimaiyyəti tərəfindən yalnız Fuad Məmmədovun yaradıcı töhfəsinin deyil, həm də Azərbaycan elmində yeni istiqaməti – kulturologiyanı yaradan "Simurq" AMA-nın çoxillik fundamental tədqiqatlarının qiymətləndirilmə forması idi.

Respublika ictimaiyyətinin diqqətini kulturologiyaya və milli inkişaf üçün onun strateji əhəmiyyətinə cəlb etmək məqsədilə, 6 aprel 2013-cü ildə Qərb Universitetində "Kulturologiya və milli inkişaf" mövzusu üzrə kulturoloji seminar keçirildi. Seminar Qərb Universiteti, Atatürk Mərkəzi və Azərbaycan Kulturoloqlar Cəmiyyəti ilə birlikdə "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən təşkil edilmişdir. Seminarı giriş sözü ilə AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin sədri Fuad Məmmədov açdı. Tanınmış kulturoloqlar: Milli Aviasiya Akademiyasının kafedra müdiri, Azərbaycanın xalq şairi, professor Nəriman Həsənzadə, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin sədr müavini, BDU-nin dosenti, tarix sahəsində fəlsəfə doktoru,

respublikanın əməkdar müəllimi Tahir Behbudov, Azərbaycan Yaradıcılıq Fondunun (keçmiş Azərbaycan Mədəniyyət Fondu) vitse-prezidenti, əməkdar mədəniyyət işçisi Rafiq Kaşanlı, BDU-nin dosenti, respublika Kulturoloqlar Cəmiyyətinin sədr müavini, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin dosenti Mübariz Süleymanlı, Oksford Məktəbinin departament rəhbəri, kulturoloq Ceyhun Pzayev və başqaları seminarda məruzələrlə çıxış etdilər.

Professor Nəriman Həsənzadə kulturologiyaya insanın həyat fəaliyyəti haqqında strateji elm kimi qiymət verdi, Azərbaycan cəmiyyəti və dövlətinin inkişafı üçün onun rolu və əhəmiyyətini açıqladı. Öz çıxışında o, yaradıcı fəaliyyətin ruhi mədəniyyət səviyyəsindən asılılığını da göstərdi ki, onun rəqabət qabiliyyətli inkişafı kulturoloji tədqiqatların genişləndirilməsini tələb edir. Nəriman Həsənzadə milli kulturologiyanın inkişafına professor Fuad Məmmədovun ciddi töhfəsini qeyd etdi.

Dosent Tahir Behbudov milli inkişaf üçün kulturologiyanın strateji əhəmiyyətindən və kulturologiyanın institutlaşdırılması, respublikada uyğun kulturoloji mərkəzlərin yaradılması məsələlərində Avropa hüquq sisteminə uyğunlaşmanın zəruriliyi haqqında danışdı. Eyni zamanda o, kulturologiya sahəsində ekspert fəaliyyətinin həyata keçirilməsinin vacibliyini, Azərbaycanda qabaqcıl Kulturologiya Tədqiqatları İnstitutunun yaradılması və bu məsələlər üzrə Mədəniyyət və Turizm Nazirliyinə müraciətin zəruriliyini xüsusi qeyd etdi.

Azərbaycan Yaradıcılıq Fondu sədrinin birinci müavini, əməkdar mədəniyyət işçisi Rafiq Kaşanlı Azərbaycanın qeyri-hökumət təşkilatlarının ruhi mədəniyyətin inkişafına töhfəsi haqqında danışdı. O, Azərbaycan xalqının mədəni irsinin qorunması və inkişafında Heydər Əliyev Fondunun xüsusi rolunu qeyd etdi, Yaradıcılıq Fondunun nailiyyətləri və milli mədəniyyətin təşəkkül tapması və inkişaf etdirilməsində "Simurq" AMA-nın xidmətlərindən danışdı.

Oksford Məktəbinin departament rəhbəri Ceyhun Pzayev Azərbaycan xalqının ruhi mədəniyyət flaqmanı kimi, intellektual mədəniyyətin inkişafı və milli təhsilin təkmilləşdirilməsi üçün kulturoloji tədqiqatların əhəmiyyətini açıqladı.

Azərbaycan Kulturoloqlar Cəmiyyətinin sədri, professor Fuad Məmmədov dünya kulturologiyası və milli kulturologiyanın yaranma tarixi haqqında qısa məlumat verdi, onun tədqiqat metodologiyası və metodlarını, əsas mədəniyyət anlayışlarını aydınlaşdırdı. Dünya təcrübəsinə əsaslanaraq o, idarəçilik problemlərinin sistemli təhlili, universal kulturoloji bilikli si-

yasətçilər və məmurların hazırlanması, məqsədlərin formalaşdırılması və təkmilləşdirilməsi, düzgün dövlət qərarlarının qəbulu, ölkənin rəqabət qabiliyyətli modelləri və texnologiyalarının yaradılması üçün kulturologiya elminin strateji əhəmiyyətini aydınlaşdırdı. O həmçinin, milli kulturologiyanın inkişafına dəstək göstərən Mədəniyyət və Turizm Nazirliyinin müsbət rolunu qeyd etdi.

Eyni zamanda kulturologiyanın aktual problemlərinin müzakirəsi gedişində: Kuba Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Ömər Medina, "Simurq" AMA-nın birinci vitse-prezidenti, AMEA-nın akademiki Maqsud Əliyev, Bakı Dövlət Universitetinin professorları – İzzət Rüstəmov, Şahlar Əsgərov, Əsədulla Qurbanov, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, siyasi elmlər sahəsində fəlsəfə doktoru Mustafa İsgəndərzadə, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun baş elmi işçisi, fəlsəfə elmləri doktoru Əhməd Qəşəmoğlu, tibb kibernetikası sahəsində mütəxəssis Adil Şamilov çıxış etdilər.

Seminar iştirakçıları – tanınmış kulturoloqlar, tarixçilər, filosoflar, filoloqlar və psixoloqlar, fiziklər və sənətşünaslar milli kulturologiyanın aktual inkişaf problemlərini müzakirə etdilər. Onlar Azərbaycanda dövlət quruculuğu və idarəçiliyi, insan kapitalının inkişafı üçün kulturologiyanın əvəzsiz əhəmiyyətini qeyd etdilər. Milli kulturologiyanın inkişafı, onun elm və tədris fənni kimi institutlaşdırılması, kulturologiya sahəsində dissertasiya işlərinin keyfiyyətinin yüksəldilməsi, kulturologiya institutunun yaradılmasının dəstəklənməsinə yönəldilmiş təkliflərin işlənib hazırlanması zəruriliyi ilə əlaqədar fikirlər bildirildi. Eyni zamanda iştirakçılar bütün səviyyələrdə dövlət qulluqçularının xüsusi kulturoloji maariflənməsinin həyata keçirilməsinin vacibliyini qeyd etdilər.

Bununla bərabər alim-kulturoloqlar kulturologiyaya qeyri-peşəkar yanaşmanı və Azərbaycan Dövlət Mədəniyyət və Turizm Universitetinin rəhbərliyi tərəfindən onun lazımınca qiymətləndirilməməsini tənqid etdilər. Dərk olunmayan məntiqə və "elmi prinsiplərə" görə, əvvəlcə bu ali məktəbdə tamamilə əsassız olaraq, Kulturologiya kafedrasının adı Mədəniyyətşünaslıq kafedrasına dəyişdirildi, hərçənd ki, yaxşı məlumdur ki, mədəniyyətşünaslıq fundamental elm olan kulturologiyanın bir hissəsidir, və orta məktəb səviyyəsində tədris etmək üçün nəzərdə tutulmuşdur. Bunun ardınca ADMİU-də "kulturologiya" ixtisası "incəsənət" ixtisasına dəyişdirildi. Bununla yanaşı tələbə-kulturoloqları uyğun nazirliklər və idarələrə deyil, nə üçünsə kitabxanalara və mədəniyyət şöbələrinə göndərirdilər. Tanınmış kulturoloq, professor Solmina Dadaşovanın təşəbbüsü ilə Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tələbə-kulturoloqları

bir neçə il ərzində "Simurq" AMA-da praktika keçmişlər. Bu praktika göstərdi ki, tələbə-kulturoloqlar ADMİU-də tədris zamanı, onların peşəkarlığının əsasını təşkil edən baza universal kulturoloji bilikləri əldə etmirlər.

Professor Nəriman Həsənzadə AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və "Simurq" AMA-nın Azərbaycan dilində dərc edilmiş, respublikanın Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiqlənmiş "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" birgə monoqrafiyasının təqdimatını etdi. O geniş profilli yüksək ixtisaslı mütəxəssislərin hazırlanması, insan kapitalının inkişafı və respublika əhalisinin kulturoloji maariflənməsi üçün bu monoqrafiyanın elmi və praktik əhəmiyyətini qeyd etdi. İştirakçılar da bu əsərə yüksək qiymət verdilər. Monoqrafiyanın Dövlət mükafatına layiq görülməsi təklifi irəli sürüldü.

Seminarda yubilyarlara: "Simurq" AMA-nın vitse-prezidenti Ağadaim Ələkbərova, Assosiasiya üzvləri, dosentlər – Firudin Əhmədov və Fidan Fərəcovaya ünvanlar və "Simurq" Beynəlxalq medalı təqdim olundu. Onların Azərbaycanın ruhi mədəniyyətinin inkişafına istiqamətlənmiş fəal işləri və "Simurq" AMA-nın fəaliyyətində iştirakı qeyd olundu.

Assosiasiyanın beşinci qurultayından sonrakı dövr "Simurq" AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin üzvləri – akademiklər, doktorlar və elmlər namizədləri, professorlar və dosentlər, həmçinin gənc kulturoloqların bir sıra yeni monoqrafiyaları və dərs vəsaitlərinin yaradılması ilə qeyd edilmişdir. Onların arasında: Maqsud Əliyev və b. - "Fizika üzrə ingilis-Azərbaycan terminologiya lüğəti" (2010); Urxan Ələkbərov – "Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları" (2013); Ramiz İsgəndərov – "Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər" (2010), İqtisadiyyat və elmi-texniki tərəqqi" (2012); Mübariz Süleymanlı – "Azərbaycanın kulturoloji fikir tarixindən" (XX əsrin əvvəlləri) (2011), "Kulturoloji irsin tədqiqi problemləri" (XX əsrin əvvəllərinin mənbələri əsasında) (2011), "Sosial-mədəni sahənin idarə olunması" (Mədəniyyət kontekstində) (2011); Oqtay Sultanov – "Mədəniyyət sahəsində sosial tədqiqatlar" (2011); "Vüqar Kərimli – "Türklər Gürcüstanda" (2011); Fərman İsmayılov – "Seçilmiş əsərləri", 6 cilddə (2011), "İnsan "Mən"inin fenomenologiyası (2013); Əli Rəcəbli - "Azərbaycan sikkələri" (2012); "Azərbaycan Səfəvilər dövlətinin məskukat (sikkə) işi". XVI-XVIII əsrlər. (2014); Hacı Sabir Həsənli – "Peyğəmbərlər tarixi" (2012); "Tahir Behbudov – "Azərbaycan polisi: tarix, nəzəriyyə, praktika" (2012), "Müstəqillik qəhrəmanları" (2013); Şahlar Əsgərov – "Dəyərlərin qiymətləndirilməsinin yeni meyarı" (2012), "Mükəmməlləşən təfəkkür" (2013); Çingiz Abdullayev – "Azərbaycan-alman münasibətləri". Qədim və müasir dövr (2011); "Neft bumu və fut-

bol" (ingilis dilində) (2013), "Azərbaycan-alman əlaqələri" (2014); Kamil Səlimov – "Kriminalistika" (2010), "Daxili işlər orqanlarının axtarış fəaliyyəti" (2011); "Kriminal aləm. Leksikanın təsviri və vasitələri" (2012); "Kriminalistika üzrə məşğələlər kursu" (2013); Mustafa İsgəndərzadə - "Seçilmiş əsərləri" (2012), "Politologiyanın əsasları" (2013), "Siyasət nəzəriyyəsi" (2013), "Bədii tərcümə sənəti" (2013), "Əbədiyyət müsafiri" (2014); Tahir Əmiraslanov – "Kulinarnaya kleptomaniya" (2012), "Mətbəx haqqında dastan" (2013), "Söz mətbəxi" (2013); Tamerlan Dəmirbəyli – "Akkulturasiya" (2013), Musa Quluzadə - "Xatirələrdən boylanan ömür" (2014); Şəlalə Kəsəmənli – "Nəriman Həsənzadə: "Ömür – yarı sual, yarı – imtahan" (2014), "Lal sükut" (2014); İradə Abbasova – "Rus dilinin inkişafı üzrə tələbə-memarlar üçün dərs kitabı" (2014) kimi məzmunlu monoqrafiyaları və dərs vəsaitlərini göstərmək olar.

Bununla yanaşı təəssüflə qeyd etmək lazım gəlir ki, son dövrdə Assosiasiyanın fəaliyyəti, onun üzvlərinin milli insan kapitalının inkişafı üçün kulturologiya elmi və təhsilinin strateji əhəmiyyətinin ayrı-ayrı təhsil və elm işçiləri tərəfindən lazımınca qiymətləndirilməməsi haqqında qayğısı şəraitində həyata keçirilirdi. Xarakterinə görə belə qiymətləndirilməmə, müəyyən elmi dairələrin elmdə yeni, perspektiv istiqamətlərə qısqanc münasibəti ilə əlaqədar, dünya praktikasında yaxşı məlum olan "elmdə yeniliyə müqavimət sindromu" ilə izah oluna bilərdi.

Lakin "Simurq" AMA yalnız öz çətinliklərini görmürdü. Ölkənin milli-mədəni inkişafındakı nailiyyətlər onu sevindirir və fəal məqsədyönlü işə ruhlandırırdı ki, Assosiasiyanın kollektivi də bu nailiyyətlərin vətəndaş iştirakçılarından biri olmuşdur. Assosiasiyanın mühüm fəaliyyət stimulu dünya sivilizasiyasının inkişaf kontekstində ölkəmizin artan uğurları idi.

Məlumdur ki, ruhi və maddi mədəniyyət insanın ağlı, hissləri və fiziki əməyi vasitəsilə təbii enerjinin transformasiyası nəticəsində yaradılır. Xatırlatmaq kifayətdir ki, Nobel Mükafatı laureatı Vilhelm Ostvalda görə, həyat fəaliyyəti transformasiya olunan təbii enerjidən ibarətdir, Lesli Uayta görə isə o, bütöv, mütəşəkkil və inteqrasiya olunmuş sistemdir ki, onu həyat tələbatlarını təmin etmək üçün istifadə olunan maddə və enerji anlayışları baxımından nəzərdən keçirmək lazımdır.

2013-cü ilin mayında Bakıda iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 21 illiyinə həsr olunmuş "Gələcəyə baxış" Azərbaycan-Amerika forumu keçirildi. Forumun açılışında çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev bir daha qeyd etdi ki, biliklər və insan potensialına əsaslanan innovativ inkişaf həm milli, həm də qlo-

bal səviyyədə əsas fəaliyyət prioritetidir.[36] Forumda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxış etdi. O, davamlı inkişaf proseslərinin planlaşdırılması və idarə edilməsi sahəsində Azərbaycanın uğurlarını xarakterizə edən təhlilin nəticələrini misal gətirdi. Müstəqil ekspertlərin təhlili əsasında beynəlxalq sənədlərə əsaslanaraq, alim, davamlı inkişaf sahəsində ölkəmizin uğurlarını müsbət xarakterizə etdi. Bu qiymətləndirmənin təsdiq edilməsi üçün o, son dərəcə vacib, xarakterinə görə kulturoloji, diversifikasiya olunmuş və innovativ inkişaf indikatorunun adını çəkmişdir ki, ölkəmiz burada çox böyük nəticələr əldə etmişdir. Bu - beynəlxalq statistikada mövcud olan, hər bir sərf olunan enerji vahidi üçün istehsal olunan əmtəə və xidmətlərin dəyər göstəricisidir, XXI əsrin ən mühüm prioriteti və yaşıl iqtisadiyyata keçidin vacib mərhələsi olan davamlı inkişaf indikatorlarından biridir.[37]

Davamlı inkişaf proseslərini xarakterizə edərək Urxan Ələkbərov, milli prioritetlərdən biri və sosial siyasətin nəticəsi kimi, bu siyasətin bir sahəsinin ölkədə yalnız yoxsulluğun azaldılması deyil, həm də insanların rifahının daim yaxşılaşdırılması olan, Azərbaycanda yoxsulluqla mübarizənin uğurları üzərində dayandı. Qısa tarixi vaxt ərzində ölkədə yoxsulluğun təxminən 50%-dən 6%-ə enməsini elan edən Respublika Prezidentinin çıxışına əsaslanaraq, alim bunu həm də Ümumdünya Sammiti tərəfindən tövsiyə edilmiş və BMT tərəfindən qəbul olunmuş "Minilliyin inkişaf məqsədləri"nə cavab verən çox böyük nailiyyət kimi xarakterizə etdi.[38]

Kulturologiya elminin və müasir şəraitdə Azərbaycanın srtateji inkişaf prioriteti qismində dövlət başçısı tərəfindən səsləndirilmiş insan kapitalının inkişafına "Simurq" AMA-nın yeni töhfəsi – 2013-cü ilin oktyabr-dekabr aylarında Bakıda "Simurq" AMA-nın Beynəlxalq münasibətlər departamentinin rəhbəri, Kulturologiya Mərkəzinin eksperti Tamerlan Dəmirbəyli tərəfindən həyata keçirilmiş yeni "Akkulturasiya və inkulturasiya" innovativ layihəsi oldu. Layihə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər fondunun maliyyə dəstəyi, "Simurq" AMA, Mədəniyyət Mərkəzi və "Xəzər" Universitetinin "Best Friends" Təhsil və Karyera Mərkəzinin təşkilati dəstəyi ilə həyata keçirilmişdir.

"Mədəni inkişafla – işıqlı gələcəyə" şüarı altında keçirilən bu layihənin başlıca məqsədlərindən biri - "Biliklər cəmiyyəti"nin əsasını təşkil edən intellektual mədəniyyətin inkişafı üçün lazım olan universal kulturoloji bi-

---

[36] http://br.az/politics/20130531112229199.html
[37] "Bakı fəhləsi" qəzeti, 16 oktyabr 2014-cü il.
[38] http://br.az/politics/20130531112229199.html

liklərin yayılması idi. İnkişaf edən "iqtisadi biliklər", biznesdə, sahibkarlıqda innovasiyaların dinamik inkişafı, ekspertizanın həyata keçirilməsində elmi kulturoloji metodlar və vərdişlərin mənimsənilməsi, ali məktəblərdə "elm parkları" və "biznes-inkubatorların" inkişafı üçün gənc menecerlərin hazırlanmasına vətəndaş yardımı göstərmək mühüm vəzifə idi.

Tamerlan Dəmirbəyli tərəfindən keçirilən, ideya və formasına görə unikal interaktiv kulturoloji seminarlar, iştirakçıların biliklərinin səviyyəsini aşkar etməyə imkan verən – video-təqdimatlar, işgüzar oyunlar, beyin həmlələri, debatlar və diskussiyalar, master-klasslar, fokus-qruplar, kulturoloji sorğuları özündə ehtiva edirdi. Beynəlxalq sosial-mədəni inkişaf təcrübəsini əks etdirən məşğələlər: "Kulturologiya və milli inkişaf", "Kulturoloji layihələrin hazırlanması və idarə edilməsi", "Kulturoloji inkişaf və xidmət mədəniyyəti", "Biliklər menecmenti", "İntellektual kapital", "Sosial-mədəni siyasət", "Biliklər iqtisadiyyatı", "Ailə mədəniyyəti", "Şəxsiyyət mədəniyyəti", "Biliklər cəmiyyəti" nin formalaşmasında gənclər siyasəti və gənclərin rolu" və digər mövzuları əhatə edirdi.

Layihənin həyata keçirilməsi prosesində 100-ə yaxın gənc müxtəlif profilli mütəxəssislərin hazırlanması, "intellektual mədəniyyət", "idarəetmə mədəniyyəti", "işgüzar münasibətlər mədəniyyəti", "liderlik mədəniyyəti", "sülh mədəniyyəti" kimi mövzular üzrə kulturoloji bilikləri mənimsəmək üçün kulturoloji təhsilin zəruriliyini dərk etməyə nail olmaq imkanı qazandılar.

T. Dəmirbəylinin bu layihəsinin nəticələri üzrə, Azərbaycan gəncləri arasında idarəetmə sistemi biliklərinin qurulması üçün əldə rəhbər olan "Akkulturasiya"[39] kitabı dərc olundu. Azərbaycanda insan kapitalının inkişafı üçün "Akkulturasiya" kitabının yüksək elmi və praktik dəyəri – universal kulturoloji və xüsusi bilikli müxtəlif profilli menecerlərin formalaşdırılması, Azərbaycan gəncləri arasında Azərbaycan xalqının davamlı və təhlükəsiz gələcəyini qurmaq, qloballaşma şəraitində dünya sivilizasiyasının çağırışlarına cavab vermək iqtidarında olan şəxsiyyətlər və liderlərin hazırlanması üçün onun innovativ əhəmiyyəti ilə şərtlənmişdir.

Kitabda müəllifin sistemli kulturoloji tədqiqatlarının nəticələri öz əksini tapmış, ilk dəfə onun tərəfindən işlənib hazırlanmış "tərs piramidal effekt" formulu – tələbatların artım indikatoru təqdim olunmuş, yeni "Homo culturalis" tipli insanın formalaşması prosesində akkulturasiya və inkulturasiyanın rolu göstərilmiş, həmçinin layihə iştirakçılarının - tələbə gənclərin kulturoloji məqalələri verilmişdir. Müəllifin kitabdakı orijinal kulturoloji iş-

---

[39] Tamerlan Dəmirbəyli. "Akkulturasiya" . Bakı, "Print", 2013. 160 s.

lələri və formulları cəmiyyətin kulturoloji inkişafının üstünlüyünü, həyat qabiliyyətliliyi və prioritetliyini, siyasi və iqtisadi inkişafa münasibətdə onun müəyyənedici əhəmiyyətini göstərdi.

"Akkulturasiya"[40] kitabının nəzəri hissəsində insanın mürəkkəb inkişaf problemlərinin həllində kulturologiyanın əvəzsiz rolu əsaslandırılmış, akkulturasiyanın konseptual modelləri, "biliklər menecmenti" və "biliklər iqtisadiyyatı"nın əsasları, kreativ sinfin və gələcəyi qurmaq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün ceneralist idarəetmə metodunun üstünlükləri göstərilmişdir. Burada idarəetmə effektivliyinin yüksəldilməsi məqsədilə kulturoloji tədqiqat metodlarının qiymətləndirilməsi həyata keçirilmiş, koorporativ mədəniyyət, xidmət mədəniyyəti, orta sinfin mahiyyəti, gələcəyin ssenariləri və strategiyaları, gələcəyin inkişaf indeksi, delfi metodu təsvir edilmişdir.

21 dekabr 2013-cü ildə "Atropat" hotelində Tamerlan Dəmirbəylinin, ölkə gəncləri üçün bu sosial əhəmiyyətli layihənin ciddi elmi və praktik nəticəsi olan "Akkulturasiya" kitabının uğurlu təqdimatı oldu. Təqdimat zamanı layihə iştirakçılarına Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər fondu və "Simurq" AMA tərəfindən Mədəniyyət siyasəti üzrə vətəndaş ekspertləri sertifikatları verildi. Layihə respublikanın kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır.

Bu dövrdə "Simurq" AMA-nın yaradıcı fəaliyyət göstəricilərindən biri, 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birlikdə, Azərbaycan və rus dillərində dərc edilmiş "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" monoqrafiyasının ikinci, tamamlanmış nəşrinin geniş ictimai dəstəyi oldu. Əsər milli dövlət idarəçiliyi sisteminin gələcək təkmilləşdirilməsi üçün gərəkli olan, dövlət tərəfindən irəli sürülmüş, respublikada qərb ölkələrinin dövlət idarəçiliyi təcrübəsinin öyrənilməsi və yayılması vəzifəsinin uğurlu icrasına yardım məqsədilə hazırlanmışdır. O, Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiqlənmiş və Azərbaycan və xarici ölkə alimləri, mütəxəssisləri, siyasətçiləri, diplomatları, incəsənət xadimlərinin yüksək qiymətini qazanmışdır.

Kitabın yüksək elmi və praktik əhəmiyyətini nəzərə alaraq, bu fundamental əsər 2014-cü ilin mart ayında Dövlət İdarəçiliyi Akademiyasının Böyük Elmi Şurası tərəfindən yekdilliklə Azərbaycan Dövlət Mükafatına layiq görüldü. Kitab 30 nəfər tanınmış alim, incəsənət xadimi, respublika hökuməti üzvü, Milli Məclis deputatı və diplomatları tərəfindən qiymətləndi-

---

[40] Elmi məsləhətçi prof. Fuad Məmmədov, elmi redaktor Tahirə Dəmirbəyli.

rilmiş və dəstəklənmişdir. Təqdimat Mədəniyyət üzrə Milli Məclis Komitəsi, Milli Elmlər Akademiyasının Tarix, Fəlsəfə və İqtisadiyyat institutları, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və respublikanın digər təşkilatları tərəfindən xüsusilə dəstəklənmişdir. “Simurq” AMA-nın monoqrafiyasının Azərbaycan Dövlət Mükafatına təqdim olunması RF Prezidenti yanında Xalq təsərrüfatı və Dövlət qulluğu Rusiya Akademiyası və onun Sankt-Peterburq filialı, Sankt-Peterburq Humanitar Həmkarlar Universiteti, Komparativ tədqiqatlar üzrə YUNESKO kafedrası, “İntellektual İnkişaf Problemləri” Beynəlxalq Elmlər Akademiyası, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyası, “Avropa-Asiya” Beynəlxalq Humanitar Akademiyası tərəfindən də dəstəklənmişdir. 2014-cü ildə monoqrafiya və onun Dövlət Mükafatına təqdim olunması haqqında informasiya respublika ictimaiyyəti tərəfindən, o cümlədən, dövri mətbuat səhifələrində, həmçinin internet-saytların minlərlə istifadəçiləri tərəfindən geniş müzakirə olunmuşdur. Monoqrafiya haqqında çoxsaylı müsbət rəylər və onun Bakı Qərb Universitetində diplomatlar və Milli Məclis deputatlarının iştirakı ilə, tanınmış Azərbaycan alimləri ilə müzakirəsi haqqında reportaj: “Azərbaycan”, “Yeni Azərbaycan”, “Zerkalo”, “Səs”, “Respublika”, “Xalq qəzeti”, “Vışka” qəzetlərinin səhifələri, həmçinin Facebook səhifələrində və Azərbaycanın internet-saytlarında ös əksini tapmışdır.

Bütövlükdə qurultaydan sonrakı illər ərzində Assosiasiyanın fəaliyyətinin tədqiqi göstərir ki, o öz yaradıcı fəaliyyətini fəal surətdə davam etdirmişdir. Assosiasiyanın yüksək beynəlxalq elmi və humanitar fəaliyyətinin, onun milli və dünya kulturologiyasının inkişafındakı xidmətlərinin göstəricisi kimi, YUNESKO-nun Sülh Mədəniyyəti İnstitutunun direktoru, “Avropa-Asiya” Beynəlxalq Humanitar Akademiyasının prezidenti, akademik Engel Tahirovun və Peterburq Ziyalıları Konqressi İcraiyyə Komitəsinin sədri, akademik A.S. Zapesotskinin 2013-cü ildə “Simurq” AMA, Azərbaycan Kulturoloqlar Cəmiyyəti və “Simurq” Beynəlxalq kulturoloji jurnalın qonağı olduqlarını qeyd etmək olar ki, onun iştirakı ilə Bakı Atatürk Mərkəzində beynəlxalq kulturoloji seminar və kulturologiya üzrə “master-klass” keçirilmişdir. Eyni zamanda bu illərdə “Simurq” AMA Bakıda Sankt-Peterburq Dövlət İdarəçilk İnstitutunun dekanı, iqtusadiyyat doktoru A.A. Lixtin ilə, Sankt-Peterburq “Braxma Kumaris” Universitetinin rektoru Didi Santoşla, Avstriya, Hollandiya və Kubanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri ilə dünya mədəniyyəti və kulturologiya məsələləri üzrə görüşlər və konsultasiyalar keçirmişdir. 2013-cü ilin dekabrında “Simurq” AMA Bakıda, Qeyri-maddi mədəni irsin qorunması

üzrə YUNESKO-nun Hökumətlərarası Komitəsinin 8-ci Sessiyasının işində iştirak etmişdir.[41]

Ümumiyyətlə, 2011-2013-cü illərdə Assosiasiya Bakıda 13 kulturoloji seminar keçirmişdir. Onların arasında Milli Elmlər Akademiyası, Qərb Universiteti və Atatürk Mərkəzində keçirilmiş: "Kulturologiya və milli inkişaf", "Azərbaycan mədəniyyəti dünya sivilizasiyası kontekstində", "Kulturologiya və etik mədəniyyət", "Qədim Azərbaycanın mədəniyyət tarixi", "Azərbaycanın bədii mədəniyyəti", "Kulturologiya və insanın inkişafı" və digər seminarları xüsusi qeyd etmək lazımdır. 2013-cü ilin iyun ayında "Simurq" AMA Milli Məclisin Mədəniyyət üzrə Komitəsi və "Avropa-Asiya" Beynəlxalq Humanitar Akademiyası ilə birlikdə Bakıda "Kulturologiya, mədəniyyətlərin dialoqu və beynəlxalq əməkdaşlıq" mövzusunda beynəlxalq seminar keçirdi. Seminarda YUNESKO-nun Sülh Mədəniyyəti İnstitutunun direktoru, akademik Engel Tahirov çıxış etdi. Bu seminarda dünya kulturologiyasının inkişafına verdiyi töhfəyə görə prof. Fuad Məmmədova "Avropa-Asiya" Beynəlxalq Humanitar Akademiyasının həqiqi üzvü diplomu təqdim edildi.

Bununla bərabər Assosiasiyanın üzvləri Sankt-Peterburqda Beynəlxalq Lixaçov elmi Oxumalarında, Azərbaycan Kulturoloqlarının II Forumunda, Azərbaycan Gənclər Forumunda, Bakının Qaradağ rayonunda seminarda, Polis Akademiyasında, "Azərsu" Səhmdar Cəmiyyətində və digər təşkilatlarda çıxışlar etmişlər. Bütövlükdə, 2009-cu ilin yanvarından 2013-cü ilin noyabrınadək olan müddət ərzində "Simurq"AMA tərəfindən – Milli Elmlər Akademiyası, Milli Ensiklopediya, AMEA-nın Geologiya İnstitutu, İqtisad Universiteti, Qərb Universiteti, "Qafqaz" Universiteti, Azərbaycan Konstitusiya Məhkəməsi, Daxili Qoşunlar İdarəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Qadınlar Cəmiyyəti, Uşaq klubu, Tofiq Quliyev adına məktəb, Memarlıq və İnşaat Universiteti, Texniki Universitet, Azərbaycan Müəllimlər İnstitutu, Turizm İnstitutu, Polis Akademiyası, Ədliyyə Akademiyası, "Azərsu" Səhmdar Cəmiyyəti, Sərhəd Qoşunları Akademiyası, Rusiya Mədəniyyət Mərkəzi, Misir Mədəniyyət Mərkəzi, "Həmrəylik" Cəmiyyəti və s. keçirilən 40-dan artıq stasionar və səyyar kulturoloji elmi-maarifçilik seminarları keçirilmişdir. Onların arasında Azərbaycanın mədəniyyət tarixi, elmi dünyagörüşü problemləri, insan kapitalı, etik mədəniyyət, mədəniyyətlərin dialoqu, gələcəyin problemləri, Azərbaycan dekorativ-tətbiqi incəsənətinə, məhəbbət mədəniyyətinə, Ferents Listin yaradıcılığına,

[41] http://www.azpress.az/index.php?sectionid=news&id=31281

ərəb ədəbiyyatına və s. həsr olunmuş seminarları qeyd etmək olar.

2010-2014-cü illər ərzində "Simurq" AMA tərəfindən Azərbaycan Dövlət Televiziyası ilə birlikdə 200-ə yaxın "İdrak" kulturoloji elmi-maarifçilik televiziya verilişləri keçirilmişdir. Onların arasında – "Kulturologiya və Azərbaycanın dövlət simvolları", "Azərbaycanda liderlik mədəniyyəti", "Kulturologiya və tərbiyə", "Azərbaycanda informasiya mədəniyyəti", "Kulturologiya və biliklər cəmiyyəti", "Kulturologiya və etik mədəniyyət", "Azərbaycan və Fransa: beynəlxalq münasibətlər mədəniyyəti", "Mərakeş mədəniyyəti", "Kuba mədəniyyəti", "Şəki mədəniyyəti", "Kulturologiya və Azərbaycanda hüquq mədəniyyəti" və bir çox başqalarının adlarını çəkmək olar. Elə həmin dövrdə "Ovqat", "Səhər ovqatı", "Qadın dünyası", "Mühazirə", "Yeni gün" verilişlərində, həmçinin milli televiziya və radiosunun müxtəlif kanallarında, jurnallar, qəzetlər və internet səhifələrində kulturologiya problemlərinə aid çoxlu sayda elmi-maarifçilik çıxışları edilmişdir.

Öz maarifçilik fəaliyyətini həyata keçirərək, 2014-cü ildə "Simurq" AMA, Azərbaycanda ruhi mədəniyyətin inkişafı məsələlərinə həsr olunmuş bir sıra yeni stasionar və səyyar seminarlar və mühazirələr təşkil edirdi.

2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev tərəfindən, sosial-mədəni dövlət siyasətinin aparıcı istiqamətlərindən biri kimi, multikulturalizm siyasətinin elan edilməsi ilə kulturologiyanın əhəmiyyəti və sistemli kulturoloji tədqiqatlara tələbat daha da artdı. 2013-cü ildə Bakı Humanitar Forumun açılışında çıxış edərkən, respublika Prezidenti İlham Əliyev qeyd etmişdir ki, Azərbaycan, müsəlmanların burada çoxluq təşkil etməsinə baxmayaraq, bütün dünya üçün etnik və dini tolerantlıq nümunəsi kimi çıxış edir. Kulturoloji təzahür kimi, multikulturalizm cəmiyyətin sosial mədəniyyət və siyasi sabitlik katalizatorudur. O, ənənələr və innovasiyaların fəal kulturogenezinə, sintezinə imkan verir, cəmiyyətin və dövlətin mütərəqqi inkişafına aparan etnik və milli mədəniyyətlərin rəqabət ruhunu və qarşılıqlı zənginləşməsini yaradır. 28 fevral 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə tanınmış alim-filoloq, akademik Kamal Abdulla millətlərarası məsələlər, multikulturalizm və din məsələləri üzrə dövlət müşaviri təyin edildi. 15 may 2014-cü ildə Prezident İlham Əliyev Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sərəncam imzaladı. Assosiasiya Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması və inkişafı ilə bağlı dövlət sosial-mədəni siyasətində yeni müsbət istiqamətə ruh yüksəkliyi ilə münasibət bildirdi.

15 mart 2014-cü ildə "Simurq" AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyəti, Qərb Universitetinin kollektivi ilə birlikdə "Elm, humanizm və multikulturalizm" mövzusunda kulturoloji seminar keçirdilər. Seminarın işində alimlər, müəllimlər, mütəxəssislər, incəsənət xadimləri, həkimlər, məmurlar, sahibkarlar, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının üzvləri, QHT, yaradıcı və həmkarlar ittifaqları, gənclər, qadınlar və KİV nümayəndələri iştirak edirdilər.

Seminarda intellektual mədəniyyət sahəsində mütəxəssis, Amerika vətəndaşı, İntellektual İnkişaf Problemləri Beynəlxalq Elmlər Akademiyasının akademiki, "Simurq" AMA-nın beynəlxalq əlaqələr üzrə vitse-prezidenti Namiq İsmayılov "Mədəniyyət fenomeni olan elmin inkişafına kulturoloji baxış" mövzusunda məruzə ilə çıxış etdi. Onun məruzəsi bütövlükdə müasir sivilizasiyada, o cümlədən, Azərbaycanda da elmin inkişafı haqqında "Simurq" AMA-nın başladığı kulturoloji diskussiyaların davamı idi. Namiq İsmayılov qeyd etdi ki, "Azərbaycan 2020: gələcəyə baxış" milli inkişaf konsepsiyasına uyğun olaraq, elmin inkişaf prioritetləri ölkəmizdə elmin inkişaf tarixi və onun dünyada tarixi tendensiyaları əsasında qurulacaq, həmçinin mütərəqqi dünya elminə effektiv inteqrasiya prosesi davam edəcəkdir. Mədəni insan kulturoloji formuluna gəlincə, məruzəçi qeyd etdi ki, milli inkişaf kontekstində birinci yerdə bilik durur ki, onun ən mühüm mənbəyi elm və təhsildir. Elm – ruhi və intellektual mədəniyyətin müəyyən formanı ifadə edən ən vacib və dinamik komponentidir. Bu formada dünyanın ən mühüm qanunauyğunluqlarının dərk edilməsi əsasında, onun səmərəli surətdə yenidən qurulması kimi konkret məqsəd reallaşır.

Elmin başlıca sosial funksiyaları haqqında danışaraq, o qeyd etdi ki, müasir cəmiyyətdə elm olmadan, onun intellektual və istehsal gücü, dövlətin təhlükəsizliyi mümkün deyil. Elm xalqların sivilliyi və mədəniliyinin mühüm komponenti olmuşdur. Elmi-texniki inkişaf XXI ərsdə tarixi tərəqqinin əsas tendensiyasını təşkil edir. Müasir texnogen sivilizasiyanın yeni tipinin formalaşması şəraitində hazırkı qlobal problemlərin aradan qaldırılmasında elmin rolu mühazirəçi tərəfindən xüsusi vurğulandı, bu problemlərin elmi tədqiqat predmetinə çevrilməsi və praktik tövsiyələrin işlənib hazırlanması zəruriliyi göstərildi. Qeyd olundu ki, yeni elmi rasionallıq özündə humanist istiqamətləri və dəyərləri ehtiva etməlidir.

Məruzədə həmçinin, nanosənaye, alternativ enerji, İKT, ekologiya, biotexnologiya və s. kimi elmin inkişafının başlıca prioritet istiqamətləri nəzərdən keçirildi, eyni zamanda: "beyin axını", fundamental elmlərin böhranı, yalançı elm, qlobal layihələri idarəetmə mədəniyyətinin olmaması, bazar fundamenta-

lizmi kimi, elmin əsas inkişaf problemləri və XXI əsrin çağırışları formulə edildi. Məruzədə müxtəlif klassik və yeni, müasir idarəetmə formaları və elmin inkişafında əməkdaşlıq təhlil edildi, və multikulturalizmin ən vacib nümunəsi kimi, əməkdaşlığın beynəlxalq xarakterini və elmlərin beynəlmiləlləşdirilməsini nəzərə alaraq, sivilizasiyanın sadalanan problemlərinin həllində bütün ictimai qüvvələrin birləşməsi zəruriliyi qeyd olundu. Sonda məruzənin əsas müddəalarını təsdiqləyən aydın əyani təqdimatlar nümayiş etdirildi.

Prof. Fuad Məmmədov öz çıxışında həyat tərzi və ideoloji paradiqma olan multikulturalizm mövzusuna toxundu. O qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti elan edib. Multikulturalizm – humanist dünyagörüşü və ona uyğun olan, eyni bir ölkədə yaşayan müxtəlif xalqların nümayəndələrinin mədəniyyət hüququnu tanıyan siyasətdir. O ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərdən və dinlərdən olan insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların digər dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə yaxud ideya kimi, multikulturalizm tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı zənginləşmə mümkün deyil.

Müasir multimədəni cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan düşünülmüş multikulturalizm siyasəti olmadan davamlı inkişaf edə bilməz. Belə strategiyalar eyni bir dövlət sərhədləri daxilində birgə yaşayan müxtəlif xalqların nümayəndələrinin davamlı inkişafı və rifahı məqsədilə, qarşılıqlı anlaşma, hörmət, sosial həmrəylik və əməkdaşlıq üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Belə bir strategiyanın müvəffəqiyyətlilik sübutlarından biri, Azərbaycanın milli mədəniyyətinə uğurla inteqrasiya edən müxtəlif xalqların mədəniyyətlərinin harmonik inkişaf etdiyi Azərbaycan Respublikasının tərəqqisidir.

Mədəniyyətlərin və dinlərin harmonizasiyası ənənəvi siyasəti sayəsində, Azərbaycan hər zaman müxtəlif etnos nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiyası üçün məkan olmuşdur. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasında tolerantlıq və dostluq münasibətləri Azərbaycan xalqının humanist ruhi mədəniyyəti üçün həmişə xarakterik olmuşdur.

Fuad Məmmədov Prezident İlham Əliyev tərəfindən elan edilmiş, Azərbaycanda insan münasibətləri mədəniyyətinin qorunması və inkişafına yönəldilmiş multikulturalizm siyasətinin həyata keçirilməsinə yardım edən tədbirlər, proqramlar və layihələrin işlənib hazırlanması və reallaşdırılması-

na “Simurq” AMA-nın daxil edilməsinin əhəmiyyətini qeyd etdi. O həmçinin, multikulturalizm dövlət siyasətinin “Simurq” AMA-nın “Homo sapiens” tipli insandan “Homo culturalis” tipli insana keçid konsepsiyasının düzgünlüyünü daha artıq təsdiqlədiyini qeyd etdi.

Seminar iştirakçıları multikulturalizmin inkişafı dövlət siyasətini dəstəklədiklərini yekdilliklə ifadə etdilər. Onlar qeyd etdilər ki, multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların zəruri dialoq vasitəsidir. Digər mədəniyyətlərin mahiyyəti, xüsusiyyətləri, tarixi və nailiyyətlərini öyrənmədən, onlara tolerant münasibət bəsləmək, onların nümayəndələrinə hörmət etmək, mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı anlaşmasını, dialoqunu qurmaq mümkün deyil. Avropa və Qərbin bəzi dövlətləri multikulturalizmin idarə edilməsinin olduqca mürəkkəb siyasi vəzifə olması ilə əlaqədar, ondan imtina etmişlər. Ola bilsin ki, bəzi xalqların nümayəndələri bu və ya digər dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya olunmağı, nə inteqrasiya etməyi arzulamırlar. Lakin multikulturalizmdən imtina etmək yaxşı heç nə vəd etmir, çünki bu, anlaşılmazlığa, fobiyaya, müqayisə olunmaya və qarşıdurmaya, milli və dini münaqişələrə aparan yoldur, təəssüf ki, bunlar bütün dünyada artır. Bu münasibətdə ənənəvi multikulturalizm siyasətinin ən yaxşı modeli Azərbaycandır. Seminar iştirakçıları multikulturalizmin bütün dünyada inkişaf şərtlərdən biri kimi, “Homo sapiens” tipli insandan “Homo culturalis” tipli insana keçid beynəlxalq proqramının işlənib hazırlanması və tətbiq edilməsi üzrə “Simurq” AMA-nın ideyasını praktik surətdə reallaşdırmağın məqsədəuyğun ola biləcəyi haqda fikir söylədilər.

Seminarda həkim-psixoloq Ramazan Əsgərli də “Şəxsiyyətin mənəvi inkişafında elmin və dinin rolu” məruzəsi ilə çıxış etdi. Məruzəçilərin və iştirakçıların çıxışları “Kulturologiya və Azərbaycanda ruhi mədəniyyətin inkişafı” mövzusu ətrafında dəyirmi masada yekunlaşdırıldı. Qeyd edildi ki, Azərbaycan Respublikası intellektual və etik mədəniyyətin, sosial-mədəni tərəqqi və sülhün prioritet inkişafı yolu ilə qətiyyətlə addımlayır, multikulturalizmin Azərbaycan modeli isə zamanın sınağından çıxmışdır və davamlı inkişaf üçün beynəlxalq model kimi istifadə edilə bilər.

2014-cü ildə “Simurq” AMA-nın rəhbərliyinin tərkibində dəyişikliklər oldu. Görkəmli Azərbaycan alimi, Dövlət Mükafatı Laureatı, Milli Ensiklopediyanın direktoru və Azərbaycan Milli EA-nın vitse-prezidenti, akademik Tofiq Nağıyevin qeyri-maddi mədəni irs üzrə vitse-prezident seçilməsi sayəsində Assosiasiyanın rəhbərliyi möhkəmləndirildi. Eyni zamanda akademik Tofiq Nağıyev “Simurq” Beynəlxalq kulturoloji jurnalın redaksiya şurasının sədri seçildi.

15 noyabr 2014-cü ildə "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası və Azərbaycan Kulturoloqlar Cəmiyyəti (AKC) Azərbaycan Milli Ensiklopediyasında "Mədəniyyət və cəmiyyətin inkişafı" mövzusunda kulturoloji seminar keçirdilər. Seminarın işində Milli Elmlər Akademiyasının akademikləri və müxbir üzvləri, ali məktəblərin professorları və dosentləri, dövlət qulluqçuları, diplomatlar və incəsənət xadimləri, rəssamlar, musiqiçilər, istedadlı gənclər iştirak edirdilər.

Seminarda: prof. Fuad Məmmədov, Azərbaycanın xalq şairi, Milli Aviasiya Akademiyası Dil və ədəbiyyat kafedrasının müdiri, professor Nəriman Həsənzadə, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin (AKC) sədr müavinləri – BDU-nun dosenti, Azərbaycanın əməkdar müəllimi Tahir Behbudov, ADMİU-nin dosenti Mübariz Süleymanlı, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) professorları - Musa Quluzadə, Oqtay Əliyev, DİA-nın dosenti Mustafa İsgəndərzadə, BDU-nun professorları – İzzət Rüstəmov, Əsədulla Qurbanov, Kuba Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri, cənab Ömər Medina, Azərbaycan Dram Teatrının direktoru, professor İsrafil İsrafilov, "Uşaqların xoşbəxt gələcəyi" QHT-nin prezidenti Nərgiz Babayeva-Kərimova, "Loqos" Uşaqların inkişafı Mərkəzinin direktoru Təranə Məmmədova və başqaları çıxış etdilər.

Öz məruzələrində alimlər Azərbaycanın qeyri-maddi mədəni irsi, tarix, kulturologiyanın əsas anlayışları və kateqoriyaları, Azərbaycanda kulturoloji fikir tarixi, həmçinin beynəlxalq münasibətlər mədəniyyəti ilə bağlı məsələlərə toxundular. Azərbaycanın sosial-mədəni siyasətini təhlil edərək çıxış edənlər, respublikanın, beynəlxalq tanınma qazanmış və dünya sivilizasiyasının qloballaşma, münaqişələr və qeyri-sabit inkişafı şəraitində həyat keyfiyyətinə, davamlı və təhlükəsiz inkişafına çox böyük təsir göstərən ruhi və maddi mədəniyyət sahəsindəki mütərəqqi nailiyyətlərinə yüksək qiymət verdilər. Azərbaycanın qeyri-maddi mədəni irsinin qorunub saxlanması və inkişafı sahəsində işin dəyəri qeyd edilmiş, bu istiqamətdə Milli Ensiklopediyanın fəaliyyəti və onun rəhbəri, yüksək mədəniyyətli insan, AMEA-nın akademiki, Dövlət Mükafatı Laureatı Tofiq Nağıyevin xidmətlərinin böyük töhfəsi xüsusi olaraq nəzərə çatdırılmışdır.

Azərbaycanın həm maddi, həm də qeyri-maddi mədəni irsin qorunub saxlanması və inkişaf etdirilməsi nailiyyətləri ilə yanaşı, incəsənətin, idmanın, intellektual, etik, hüquq və idarəetmə mədəniyyətinin inkişafında sosial-mədəni siyasətin yeni istiqamətinin – multikulturalizmin formalaşmasında innovativ fəaliyyət də qeyd olundu. Multikulturalizmin aktuallığı - müxtəlif xalqların və dinlərin nümayəndələrinin zəngin, çoxəsrlik Azərbaycan mədə-

niyyətinə inteqrasiyası əsasında Azərbaycanda münaqişəsiz, harmonik yaşayış üçün bərabər imkanlarla təmin edən, Azərbaycan üçün ənənəvi olan mədəni mühitin, mədəni müxtəlifliyin qorunub saxlanması və inkişafının zəruriliyi ilə şərtlənir.

Belə fikir söylənildi ki, multikulturalizm siyasətinin aparılması - qloballaşma şəraitində insanın həyat fəaliyyətinin və milli insan kapitalının inkişafının səmərəli elmi əsası kimi, bir daha kulturologiya elminin vacibliyini göstərir. Dövlət quruculuğu və idarəçiliyi üçün kulturologiyanın sistemli yanaşmaya əsaslanan strateji əhəmiyyəti, bir çox strateji və taktiki milli inkişaf problemlərinin qoyulması və həlli üçün onun elmi və praktik dəyəri ilə şərtlənmişdir. Dünya sivilizasiyasının qeyri-müəyyənlikləri və dəyişiklikləri şəraitində mürəkkəb milli inkişaf problemlərinin ekspertizası, fəaliyyətin müxtəlif sahələri və müxtəlif səviyyələrində düzgün qərarların qəbulu üşün kulturologiyanın kreativ imkanlarını qiymətləndirmək çətindir.

Seminar iştirakçıları Azərbaycanın ruhi mədəniyyətinin inkişafına, xüsusilə, milli kulturologiyanın, insan kapitalının inkişafına və akkulturasiya və inkulturasiya metodları ilə cəmiyyətin kulturoloji maarifləndirilməsinə "Simurq" AMA-nın və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin ciddi töhfəsini qeyd etdilər. Özünün 25 illik yaradıcı fəaliyyət dövrü ərzində Assosiasiya onlarla monoqrafiyalar və dərsliklər dərc etdirmiş, mütəxəssislər və gənclər üçün 300-dən artıq seminarlar, dəyirmi masalar və treninqlər keçirmiş, "Simurq" Beynəlxalq kulturoloji jurnalını təsis etmişdir. Onlar həmçinin, bir çox ictimai-faydalı kulturoloji layihələr həyata keçirmiş, bir sıra qeyri-hökumət mədəniyyət təşkilatlarının formalaşmasına yardım etmiş, kulturologiya sahəsində elmi kadrların hazırlanmasının təşəbbüskarları və iştirakçıları olmuş, onlarla "İdrak" kulturoloji maarifləndirici televiziya verilişlərini aparmış, bir çox xarici forumlarda və dövri mətbuat səhifələrində çıxışlar etmişlər.

Bununla bərabər iştirakçılar qeyd etdilər ki, elm, təhsil və mədəniyyətin hərtərəfli inkişafı dövlət siyasətinə baxmayaraq, ayrı-ayrı təşkilatlarda Azərbaycanın milli maraqları nöqteyi-nəzərindən çətin başa düşülən qərarlar yer almışdır. Belə ki, on il ərzində kulturologiya sahəsində namizədlər və doktorların uğurla hazırlanmasından sonra, 2012-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kulturologiya fənni əsassız olaraq ləğv edildi və "sənətşünaslıq" fənninin tərkibinə daxil edildi. Bununla yanaşı respublika Ali Attestasiya Komissiyası tərəfindən, məsələni alim-kulturoloqlarla müzakirə etmədən, Azərbaycan AAK-nın reyestrinə daxil olan elmlərin təsnifatında "kulturologiya" çıxarılmış, kulturoloji məzmunlu dissertasiyaları müdafiə edən şəxslərə isə sənətşünaslıq çərçivəsi daxilində sənətşünaslıq, ta-

rix yaxud fəlsəfə sahəsində “62.19.01” (“Kulturologiya və onun ümumi problemləri”) ixtisası üzrə elmi dərəcələr verilməyə başlanmışdır.

Seminarda elan olundu ki, “Simurq” AMA-nın rəyasət heyəti üzvlərinin qərarı ilə, Assosiasiyanın fəxri üzvü, AMEA-nın akademiki Tofiq Nağıyev Azərbaycan Mədəniyyət Assosiasiyasının qeyri-maddi mədəni irs üzrə vitse-prezidenti və “Simurq” Beynəlxalq kulturoloji jurnalın redaksiya şurasının sədri seçilmişdir. Assosiasiya tanınmış rəssam, Azərbaycanın əməkdar incəsənət xadimi İsmayıl Məmmədovun müəllif işləri kolleksiyasını Azərbaycan Milli Ensiklopediyasının fonduna bağışladı.

Seminarda yubilyarların – tanınmış alimlər, müəllimlər, maarifçilərin təltif edilməsi oldu. İştirakçılar “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının ağsaqqalı, onun birinci vitse-prezidenti, akademik Maqsud Əliyevi 90 illik yubileyi münasibətilə təntənəli surətdə, ürəkdən təbrik etdilər. “Simurq” AMA-nın təsis edilməsi və inkişafında çoxillik təmənnasız əməyinə, Assosiasiyanın Azərbaycanda insan kapitalının inkişafına hədəflənmiş kulturoloji maarifçilik fəaliyyətində, layihələri və tədbirlərində fəal iştirakına görə, Assosiasiyanın rəyasət heyəti adından Maqsud Əliyevə dərin təşəkkür ifadə edildi.

Yubileylər münasibətilə və Azərbaycanın intellektual və etik mədəniyyətinin inkişafındakı xidmətlərinə görə: AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Musa Quluzadə, DİA-nın professoru Oqtay Əliyev, Azərbaycan Dram Teatrının direktoru, professor İsrafil İsrafilov, “Simurq” Beynəlxalq kulturoloji jurnalın redaktoru, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin məsul katibi Şəlalə Kəsəmənli, həmçinin “Uşaqların xoşbəxt gələcəyi” qeyri-hökumət təşkilatının prezidenti Nərgiz Babayeva-Kərimova “Simurq” Beynəlxalq medalı ilə təltif olundular. “Loqos” Uşaqların İnkişaf Mərkəzinin direktoru Təranə Məmmədovaya “Simurq” AMA-nın Fəxri fərmanı təqdim edildi.

Seminarda AR Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin əməkdaşı, “Simurq” Beynəlxalq kulturoloji jurnalın redaktoru Şəlalə Kəsəmənlinin iki yeni: xalq şairi Nəriman Həsənzadənin aforizmləri və kəlamlarının daxil edildiyi “Nəriman Həsənzadə: “Ömür- yarı-sual, yarı – imtahan” kitabı, və “Lal sükut” şeirlər kitabının təqdimatı oldu. Seminarın iş vaxtı ərzində və ondan sonra iştirakçılar tanınmış və yeni başlayan Azərbaycan rəssamlarının - əməkdar incəsənət xadimi İsmayıl Məmmədovun, Suğra Bağırzadənin və Bakı şəhəri 23 saylı məktəbin ikinci sinif şagirdi Həsən Bayramovun bir neçə sayda müəllif işlərinin sərgisi ilə tanış oldular. Seminarın sonunda ustad və gənc Azərbaycan mu-

siqiçiləri və gənclərinin, o cümlədən, tanınmış cazmenlər Rafiq Seyidzadə, Cavan Zeynallı, Leyla Nəzərlinin iştirakı ilə kiçik kamera və estrada konserti səsləndi. Həmçinin, BDU-nin tələbəsi Lalə Ağazadə və Bakı Musiqi Akademiyasının tələbələri Şəms Əlizadə və Zəhra Salamova öz ifaları ilə seminar iştirakçılarını sevindirdilər.

2014-cü il kulturologiya sahəsində elmi-tədqiqat işləri barədə Assosiasiya üçün məhsuldar olmuşdur. Bu ildə "Simurq" AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin üzvləri tərəfindən üç kulturoloji dissertasiya müdafiə edilmişdir. Azərbaycan Kulturoloqlar Cəmiyyətinin sədr müavini, dosent Mübariz Süleymanlı fəlsəfə sahəsində elmlər doktoru alimlik dərəcəsi almaq üçün "XIX əsrin əvvəlində Azərbaycanda kulturoloji fikir" mövzusu üzrə dissertasiyanı uğurla müdafiə etmişdir. Azərbaycan tarixi sahəsində elmlər doktoru dərəcəsini almaq üçün Cəmiyyətin üzvü Minaxanım Əsədli "Yusif Talıbzadənin ictimai-siyasi və elmi-publisistik fəaliyyəti Azərbaycan mədəniyyəti kontekstində" mövzusu üzrə dissertasiyanı eyni uğurla müdafiə etmişdir. Tarix sahəsində elmlər doktoru dərəcəsini almaq üçün gənc iddiaçı Ceyhun Rzayev "Azərbaycanın sosial-mədəni inkişafında ali təhsilin rolu" mövzusu üzrə dissertasiya müdafiə etmişdir. Əməkdar incəsənət işçisi Rafiq Kaşanlı "Azərbaycanın ruhi mədəniyyətinin inkişafında qeyri-hökumət təşkilatlarının rolu" dissertasiyasını müdafiə üçün təqdim etmişdir.

2014-cü ildə Assosiasiyanın prezidenti Sankt-Peterburqda Beynəlxalq Lixaçov elmi Oxumalarının işində iştirak etmiş, bir sıra nazirliklər və idarələrdə, o cümlədən, Gənclər və İdman, Mədəniyyət və Turizm, Təhsil nazirlikləri tərəfindən təşkil edilmş "dəyirmi masa"da, Ədliyyə Akademiyası, Azərbaycan Milli Ensiklopediyası, Azərbaycan Dövlət İqtisad Universitetində, Azərbaycan Müəllimlər İnstitutunda, Əmək və Sosial Münasibətlər Akademiyasında, Müəllimlərin İxtisasartırma İnstitutunda, "Loqos" Uşaqların İnkişaf Mərkəzində və s. insan kapitalının inkişafında kulturologiyanın rolu haqqında mühazirələrlə çıxışlar etmişdir. "Simurq" AMA-nın beynəlxalq nüfuzunun göstəricilərindən biri – 2014-cü ildə Assosiasiyanın prezidenti, prof. Fuad Məmmədovun Sankt-Peterburqda alimlər və siyasətçilərin mötəbər beynəlxalq konfransının - Beynəlxalq Lixaçov elmi Oxumalarının təşkilat komitəsinin tərkibinə daxil edilməsi idi.

Elə həmin ildə Assosiasiya "Mədəniyyət" kanalında, respublikanın tanınmış elm, təhsil, incəsənət xadimlərinin, həmçinin siyasətçilər, deputatlar və ictimai xadimlərin, tələbələr, müəllimlər və məktəblilərin iştirakı ilə 10-dan yuxarı "İdrak" kulturoloji televiziya verilişləri hazırlamış və aparmışdır. Eyni zamanda "Səhər", "Yeni gün" və digər televiziya kanallarında

intellektual, etik mədəniyyət və insan kapitalının inkişafı məsələləri üzrə bir sıra kulturoloji çıxışlar həyata keçirilmişdir. Assosiasiya üzvləri Bakı Beynəlxalq Humanitar Forumu, Bakı Beynəlxalq Ombudsmanlar Konfransı, YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə Komitəsinin VIII sessiyası, Avropa Şurasının Mədəni Marşrutlar üzrə Məşvərət Forumunun və s. işində iştirak etmişdir.

İnsan kapitalının inkişafı, yüksək mədəniyyət standartlarının formalaşdırılması, ictimai əməyin məhsuldarlığı və keyfiyyətinin yüksəldilməsi kimi dövlət siyasətinin reallaşdırılmasına bundan sonrakı yardım məqsədilə, əhalinin akkulturasiyası və inkulturasiyasına istiqamətləndirilmiş ənənəvi mühazirələr və seminarlarla yanaşı, 2014-cü ilin yazından “Simurq” AMA respublikanın müxtəlif dövlət strukturlarının işçiləri üçün əmək mədəniyyəti üzrə xüsusi treninqlər keçirməyə başladı. Ölkənin sosial-mədəni siyasətinə uyğun konfranslar, seminarlar və televiziya verilişlərini hesaba almadan, yalnız 2014-cü ildə “Simurq” AMA nazirliklər və idarələrin dövlət qullqçuları, həmkarlar ittifaqları işçiləri, həmçinin akademiyalar, ali və orta məktəblərin müəllimləri, qadınlar və gənclər üçün 40-a yaxın treninqlər keçirmişdir.

2013-cü ildən ölkədə ilk dəfə, ölkənin dövlətçilik tarixində parlaq hadisə olan, Azərbaycan Pespublikasının Prezidenti yanında vətəndaşlara və sosial innovasiyalara xidmət göstərilməsi üzrə “ASAN xidmət” Dövlət Agentliyi fəaliyyət göstərməyə başladı. Agentlik – dövlət sisteminin bazar şəraitinə yaxınlaşdırılması və dövlət adminisrtasiya xidmətlərində mülki əhalinin tələbatlarının daha tam ödənilməsi hesabına, idarəetmə mədəniyyəti və effektivliyinin artırılması kimi mühüm siyasi məsələnin həllinə yardım edirdi.

Siyasi-etik ölçüdə “ASAN xidmət”in fəaliyyəti - yüksək vətəndaş mədəniyyətinin formalaşdırılması, şəxsiyyətlərarası və beynəlxalq münasibətlər mədəniyyəti, insanların vətənpərvərlik ruhunda tərbiyə edilməsi, milli mədəni dəyərlərin, o cümlədən, yüz illər mədəniyyət tarixi boyu Azərbaycan xalqına xas ənənəvi multikulturalizm dəyərlərinin qorunması və inkişafına hədəflənmiş azərbaycançılıq ideologiyası istiqamətində həyata keçirilməyə başlandı. Agentliyin strategiya və texnologiyaları mənəvi mühitə, ictimai münasibətlər mədəniyyəti, cəmiyyətin siyasi və sosial sabitliyi, “şəffaflığın” artırılması və korrupsiyanın səviyyəsinin azaldılmasına eyni zamanda dövlət qulluqçuları, siyasətçilər və məmurların özlərinin mədəniyyətinə çox böyük təsir göstərməyə başladı.

Azərbaycan Respublikası Prezidentinin dünya təcrübəsində analoqu olmayan bu çox dəyərli innovativ layihəsi, təxirəsalınmaz sosial-hüquqi məsələlərin həllinə vəsait və vaxt sərfini əhəmiyyətli dərəcədə azaltmaq, demok-

ratiya mədəniyyətini və xalqın dövlət strukturlarına inamını möhkəmləndirmək hesabına, Azərbaycan vətəndaşları və ailələrinin həyat rahatlığını yüksəltməyə imkan vermişdir. "ASAN xidmət" vətəndaşlarla ünsiyyət prosesində dövlət qulluqçularının yüksək etik mədəniyyət milli standartlarının bərqərar olmasına səbəb olan ən nümunəvi dövlət strukturlarından biri oldu. Dövlət idarəçiliyinin yüksək effektivliyini təmin etmək üçün belə mədəniyyətin əhəmiyyətini Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır.

Dövlət başçısı tərəfindən irəli sürülmüş insan kapitalının inkişafı strateji vəzifəsini nəzərə alaraq, 2014-2015-ci illərdə "Simurq" AMA, dövlət qulluqçularının bilikləri, bacarıqları, mütəşəkkilliyi və etik səviyyəsinin permanent yüksəlişini təmin edən "ASAN xidmət" Dövlət Agentliyi ilə işçi heyətinin müasir xidmət metodlarına öyrədilməsi sahəsində sıx əməkdaşlıq etmişdir. Treninqlərin keçirilməsi vasitəsilə, yalnız Bakıda deyil, həm də Gəncə, Sumqayıt və respublikanın digər rayonlarında "ASAN xidmət" təşkilatlarının fəal inkişaf edən şəbəkəsi üçün kadrların kulturoloji hazırlığı və yenidən hazırlığı həyata keçirilmişdir.

Treninqlərin əsas məqsədi respublika əhalisinə xidmətdə dövlət qulluqçularının ustalığını təkmilləşdirmək, onların yüksək əmək mədəniyyəti standartlarına istiqamətlənmiş peşəkarlıq və etik səviyyəsini artırmaq olmuşdur. Bu hazırlıq prosesində Agentlik əməkdaşlarına insan münasibətləri, əmək, xidmət, liderlik və idarəetmə mədəniyyəti haqqında, hüquq mədəniyyəti, peşə etikası və məsuliyyət mədəniyyəti haqqqında universal kulturoloji biliklərin ötürülməsi təmin edilmişdir. İşçilərdə, onlar tərəfindən nizam və intizamın gözlənilməsi, qoyulmuş qaydalara riayət edilməsi, xeyirxahlıq və nəzakət, şəxsiyyətə hörmət, insanlara xidmətdə düzgünlük və ədalət, həmçinin pozitiv xarakterin formalaşması və kompromisə getmək bacarığını nəzərdə tutan "şəxsiyyət mədəniyyətinin" formalaşmasına böyük diqqət yetirilmişdir. Treninqlər dövlət qulluqçularının intellekti, texnoloji yaraqlanması və praktik təcrübəsinin inkişafına, onlarda əməyə və öz peşəsinə məhəbbət hissinin formalaşmasına, milli adətlər, vətəndaşların xarakterləri, psixologiyası və temperamenti haqqında biliklərin yayılmasına, insanlarla işləmək bacarığına yardım etmişdir. Onlar müsbət energetikanın və özünüidarə mədəniyyətinin yetişdirilməsinə, yüksək əmək mədəniyyəti standartlarına uyğun xidmət texnologiyaları və peşəkar ustalığın təkmilləşdirilməsinə səbəb olmuşdur. Treninq keçən dövlət qulluqçuları müştərilərə sosial-məişət problemlərinin həllində yardım etməyə çalışaraq, iş prosesində onlarla daha artıq diqqət, səbr, təmkin və qayğı nümayiş etdirməyə başlamışlar.

Treninqlərə həmçinin, milli mədəniyyət dəyərlərinə əsaslanan həyat fəlsəfəsinin formalaşmasına yardım edən Azərbaycan və dünya mədəniyyəti və sivilizasiyasının tarixi, azərbaycançılıq ideologiyası, insan kapitalının inkişaf imkanları və multikulturalizmin əsasları haqqında biliklər uyğun şəkildə daxil edilirdi. Bu biliklərin yayılması, Agentlik işçilərində xüsusi peşə etikası, cəmiyyət və dövlət qarşısında sosial və siyasi məsuliyyət mədəniyyətini ehtiva edən yüksək professionallıq və korporasiya mədəniyyətinin yetişdirilməsinə yardım edirdi. Kulturoloji treninqlərin keçirilməsi "ASAN xidmət" kollektivlərində yüksək əmək məhsuldarlığını təmin edən ciddi idarəçilik resursları olmuşdur. O, yaradıcı fəaliyyət və respublika əhalisinə xidmət mədəniyyətinin yüksəldilməsi üçün əlverişli şəraitin formalaşmasında pozitiv əks olunmuşdur. İnteraktiv treninqlər, Agentlik əməkdaşlarına hər zaman "formada olmağa", öz xüsusi və universal bilik səviyyələrini artırmağa, meydana çıxan problemlərin sistemli təhlilini həyata keçirməyə, konkret situasiyalarda vaxtında və düzgün qərarlar qəbul etməyə imkan verən, intellektual cəhətdən zəngin işgizar oyunlarla və beyin həmlələri ilə müşayiət olunurdu. Bu zaman bütün daxili və xarici amilləri, daimi və dəyişən kəmiyyətləri səmərəli şəkildə nəzərə almağa və nəzarət etməyə imkan verən, xidmət mədəniyyətinin nəticəsinə təsir göstərən strategiya, texnologiya, etika, sosiologiya və estetika kimi elmi idarəetmə prinsiplərinin istifadəsinə sistemli kulturoloji yanaşmanın işçi heyəti tərəfindən mənimsənilməsi hesabına, dövlət qulluqçularının idarəetmə mədəniyyəti səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilirdi.

Məşğələlər əməkdaşların səriştəliliyinin artmasına, önların özünə inamına, inandırmaq və maraqları harmonizasiya etmək bacarığının inkişafına, kollektivdə komanda ruhunun, sağlam mənəviyyat və psixoloji ab-havanın formalaşmasına imkan yaradırdı. Onlar vətəndaşların tələbatları və maraqlarının təmin edilməsi, sosial və məişət problemlərinin həllində onlar üçün rahat şəraitin yaradılması imkanlarını genişləndirirdi. Bununla yanaşı məşğələlər "ASAN xidmət" işçilərini, əhaliyə xidmət göstərilməsində qanunları yerinə yetirmək və qanunla şərtlənən məqsədlərə uğurla nail olmaq üçün zəruri olan diskresion fəaliyyətə cəlb edilməsinə imkan verirdi. Bu fəaliyyət prosesində "ASAN xidmət"də akkreditasya olunmuş respublikanın digər nazirlikləri və idarələrinin nümayəndələri də öz professional və etik mədəniyyət səviyyəsini yüksəldirdilər.

Əvvəlki illərdə olduğu kimi, Assosiasiya, yüksək ruhi mədəniyyət dəyərlərinin qorunması və inkişafı ilə əlaqədar olan müxtəlif yerli və xarici tədbirlərdə fəal iştirak etməyə səy göstərirdi. 2014-cü ilin okyabrında o, Ru-

siya KİV tərəfindən təşkil edilmiş, müasir humanizm problemlərinə həsr olunmuş "Rusiya–Azərbaycan–Almaniya" beynəlxalq telekörpüdə uğurla iştirak etmişdir.

19 dekabr 2014-cü ildə Assosiasiyanın rəhbərləri və fəxri üzvləri, akademiklər – Maqsud Əliyev, Tofiq Nağıyev, Urxan Ələkbərov, prof. Fuad Məmmədov və başqaları respublika Milli Elmlər Akademiyasının əsas binasında keçirilən, Azərbaycan alimlərinin Birinci qurultayında çıxış etdilər. Qurultayda "Simurq" AMA-nın milli-mədəni inkişaf konsepsiyası ilə həmahəng olan, Assosiasiyanın Azərbaycan xalqı və dövlətinin ruhi mədəniyyətinin yüksəldilməsinə istiqamətlənmiş əsas ideyalarının düzgünlüyünü və çoxillik fəaliyyətinin səmərəliliyini təsdiqləyən bir çox maraqlı fikirlər və faktlar səsləndirildi.

Müqayisəli təhlil göstərir ki, son illərdə Azərbaycanda olduğu kimi, postsovet məkanının digər ölkələrində də, ruhi mədəniyyətin inkişafı məsələlərinə artan diqqət müşahidə olunur. Bu zaman mədəniyyət fenomeni cəmiyyətdə daha geniş anlayışla xarakterizə olunur ki, bu da mədəniyyət və mədəniyyət siyasəti sahəsində permanent islahatlara imkan verir. Belə ki, 2014-cü il Rusiyada Mədəniyyət ili elan edilmişdir. 24 dekabr 2014-cü ildə Moskvada RF Dövlət Şurasının mədəniyyət və incəsənət üzrə iclası keçirildi. İclasda Rusiyanın yeni mədəniyyət siyasətinin əsasları qəbul edildi. Bu sənəddə mədəniyyət anlayışı yalnız tarixi irs, dəyərlər və mənəvi ideallar sistemi kimi deyil, həm də "ictimai təyinat, missiya, ictimai rifah" kimi öz əksini tapmışdır. Mədəniyyətin hər şeyi əhatə edən belə anlayışı, həm də Rusiyanın dövlət siyasəti prioritetlərinin özünün əsas dəyişikliyini göstərir. Rusiya dövlətinin başçısı V.V. Putin mədəniyyət sahəsində əsas dövlət sənədini – Dövlət mədəniyyət siyasətinin Əsaslarını təsdiq etdi ki, burada mədəniyyət hər şeyi əhatə edən mənasında başa düşülür, maarifləndirməyə və bütün ölkə ərasizində mümkün mədəni nemətlərin yaradılmasına isə xüsusi əhəmiyyət verilir. Sənəddə yaradıcılıq azadlığının təmin edilməsi və mədəniyyətin inkişafının vacib şərti kimi, Rusiyanın mədəni təsirinin dünyada möhkəmləndirilməsi zəruriliyi xüsusi olaraq nəzərə çatdırılır. İclasda həmçinin, sahədən asılı olmayaraq koordinasiyaedici strukturun yaradılması, mədəniyyət siyasətinin resurs təminatı üçün mövcud idarəetmə sisteminin təcrübəsi və imkanlarından maksimum istifadəsinin zəruriliyi qeyd olundu. Bu məqsədlə Rusiya Mədəni İnkişaf Fondunu təsis etmək məqsədəuyğun hesab edildi.[42]

[42] http://ria.ru/trend/state_counsil_culture_24122014/

2015-ci il “Simurq” AMA-nın VI - yubiley qurultayına hazırlıq nişanı altında keçirdi: iş planları, prioritetlər, qurultayın hazırlanması və keçirilməsi formatı müzakirə edilir, Assosiasiyanın Azərbaycan Respublikasının sosial və iqtisadi inkişafında mühüm rol oynayan ruhi mədəniyyətin inkişafına yönəldilmiş çoxillik fəaliyyətinin sistemli kulturoloji təhlili aparılır və qiymət verilirdi. Xüsusilə, “ruhi istehsalın” – elm, təhsil, tərbiyə, incəsənət, həmçinin akkulturasiya və inkulturasiya metodları ilə ölkə əhalisinin kulturoloji maarifləndirilməsi vasitəsilə insan kapitalının inkişafına yönəldilmiş fəaliyyət təhlil edilir və qiymətləndirilirdi. 25 illik fəaliyyəti ərzində Assosiasiyanın təsis edilməsi, inkişafı və nailiyyətlərində xüsusi xidmətləri olan üzvləri aşkar edilirdi. Cari ildə Assosiasiya, onun çoxillik yaradıcı fəaliyyətini əks etdirən bu yubiley kitabının yekunlaşdırılması, həmçinin “Simurq” Beynəlxalq kulturoloji jurnalın növbəti, yubiley nömrəsinin hazırlanması üzərində fəal surətdə işləyirdi. Eyni zamanda ilin əvvəlindən Assosiasiyanın maarifçilik fəaliyyəti – kulturoloji seminarlar, o cümlədən müxtəlif dövlət strukturları və respublika müəssisələrində mühazirələr və treninqlər davam etdirilirdi.

12 mart 2015-ci ildə qarşıdan gələn “Novruz” Milli bayramı münasibətilə, “Simurq” AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyəti Bakıda Rusiya İnformasiya və Mədəniyyət Mərkəzi ilə birlikdə “Azərbaycanın müasir musiqi incəsənəti” mövzusunda musiqili seminar keçirdi. Seminarda Azərbaycanın xalq artisti, professor Musa Mirzəyev, əməkdar incəsənət xadimi Cavan Zeynallı, “Humay” mükafatı laureatı Rafiq Seyidzadə və digər gənc istedadlı musiqiçilər iştirak edirdilər. Respublikanın tanınmış incəsənət xadimləri, Azərbaycanda Tatar icmasının nümayəndələri, həmçinin “Simurq” AMA-nın fəxri üzvü, Kuba Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri, cənab Ömər Medina dəvət olunan qonaqlar arasında idi.

Yubiley ilində ən maraqlı və praktik cəhətdən vacib kulturoloji seminarlardan biri, 21 aprel 2015-ci ildə “Simurq” AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin Azərbaycan Milli Ensiklopediyası ilə birlikdə “Mədəniyyət, kulturologiya və multikulturalizm” mövzusunda keçirdiyi seminar oldu.

Azərbaycan Milli Ensiklopediyasının direktoru, akademik Tofiq Nağıyev, “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası və Azərbaycan Kulturoloqlar Cəmiyyətinin rəhbərləri və üzvləri, Milli Elmlər Akademiyasının əməkdaşları və Azərbaycanın ali məktəb müəllimləri – akademik Maqsud Əliyev, professorlar – Fuad Məmmədov, Fərman İsmayılov, Şahlar Əsgərov, Əsədulla Qurbanov, Elmira İlyazova, tarix elmləri doktoru Minaxanım Əsədli, dosentlər Tahir Behbudov, Fidan Fərəcova, Ağazəki Məlikov, Taliyə

Məmmədova, Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri Aynur Bəşirli, Azərbaycanın xalq artisti, rejissor Vasif Babayev, əməkdar mədəniyyət işçisi, Azərbaycan Yaradıcılıq Fondunun birinci vitse-prezidenti Rafiq Kaşanlı, əməkdar incəsənət xadimi İsmayıl Məmmədov, "Simurq" AMA-nın mətbuat katibi Şəlalə Kəsəmənli, "Simurq" AMA-nın ekspertləri – dosent Fərzanə Qasımova, Faiq Abbasov, respublika Tatar İcmasının nümayəndələri, Bakıda Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin əməkdaşları, jurnalstlər və ali məktəb tələbələri seminarın işində iştirak edirdilər.

Seminarda: AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, "Simurq" AMA-nın prezidenti Fuad Məmmədov, Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakultəsinin Politologiya kafedrasının dosenti, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin sədr müavini, respublikanın Əməkdar müəllimi Tahir Behbudov və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri Aynur Bəşirli məruzələrlə çıxış etdilər.

"Kulturologiya və multikulturalizm: səmərəli siyasət üçün elmi metodologiyanın əhəmiyyəti" mövzusunda əsas məruzədə (prof. Fuad Məmmədov) dünya sivilizasiyasının qlobal çağırışları və dəyişiklikləri şəraitində Azərbaycanda multikulturalizm dövlət siyasətinə elmi yardım məsələləri nəzərdən keçirildi. Məruzəçi multikulturalizmin elmi tərifini, onun mahiyyəti, xüsusiyyətləri və imkanlarını açıqladı, ictimai münasibətlərin gələcək harmonizasiyası və ölkənin davamlı inkişafı üçün, Azərbaycanın milli maraqlarına cavab verən vətəndaş mədəniyyətinin və dövlətin titul mədəniyyəti identikliyinin formalaşması üçün bu cür siyasətin əhəmiyyətini göstərdi. Professor qeyd etdi ki, multikulturalizm - Azərbaycanın müasir dövlət siyasətinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən formulə edilmiş və azərbaycançılıq ideologiyası çərçivəsində həyata keçirilən aparıcı istiqamətlərindən biridir. Belə müdrik yanaşma həm ölkəmizin tarixinin hələ qədim dövründə ən yaxşı multikulturalizm modeli olan tarixi inkişaf reallıqları ilə, həm də müasir dünya sivilizasiyasının məkan və zamanında Azərbaycanın davamlı inkişaf tələbatları ilə əsaslanmışdır. Mədəniyyətlərin və dinlərin harmonizasiyası ənənəvi siyasəti sayəsində, Azərbaycan hər zaman müxtəlif etnos nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiyası üçün məkan olmuşdur. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasında tolerantlıq və dostluq münasibətləri Azərbaycan xalqının humanist ruhi mədəniyyəti üçün həmişə xarakterik olmuşdur. Və bu, zamanın sınağından çıxmış düzgün, məntiqə uyğun münasibətlərdir, çünki insanın həqiqi dəyər meyarı - milliyyəti, dini, doğulduğu yer, yaşadığı yer yaxud peşəsi deyil, onun mədəniyyətidir.

Fuad Məmmədov hər bir Azərbaycan vətəndaşının, multikulturalizm siyasətini əldə rəhbər tutaraq, bu siyasətin nəcib məqsədləri, proqramları və layihələrinin həyata keçirilməsinə şüurla və məsuliyyətlə əlindən gələn töhfəni verməsi, öz bilikləri və nüfuzu, xoş məramı, intellektual və istehsal nailiyyətləri, bacarığı və ustalığı ilə onların gerçəkləşməsinə yardım etməsi arzusunu ifadə etdi. O qeyd etdi ki, hərəkətlərin (fəaliyyətlərin) əsasını düzgün təfəkkür təşkil edir ki, o, düzgün anlamanı, dürüst məlumatı, qarşı tərəfin mədəniyyəti və psixologiyası haqqında bilikləri, bünövrəsini universal biliklərin təşkil etdiyi, yaxşı təhsilə əsaslanan kifayət qədər erudisiyanı tələb edir. Buna görə də uşaq bağçalarından başlamış dövlət təşkilatları və müəssisələrinədək, əhalini, milli insan kapitalının özəyini təşkil edən - biliklər, bacarıqlar, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyətin lazımi səviyyəsinə malik mədəni insanların keyfiyyət və kəmiyyət artımına imkan verən sistemli kulturoloji bilik və maariflə əhatə etmək lazımdır. Milli və dünya mədəniyyəti və sivilizasiyasının tarixi, nəzəriyyəsi və praktikasının geniş və hərtərəfli öyrənilməsi, Azərbaycan Respublikasının mili maraqlarına cavab verən düzgün strategiya kimi nəzərdən keçirilməlidir.

Bu reallığı nəzərə alaraq alim, elmi əsaslanmış multikulturalizm siyasətinin formalaşdırılması və reallaşdırılması, bu sahədə proqramlar və layihələrin müvəffəqiyyətlə işlənməsi və həyata keçirilməsi üçün kulturologiyanın metodologiyası və metodlarının fundamental əhəmiyyətinə diqqət yetirdi. Kulturologiya – mədəniyyətin mahiyyəti, xüsusiyyətləri, tarixi, nailiyyətləri, inkişaf qanunları, texnologiyaları və dəyişdirici imkanları haqqında elm kimi, müxtəlif xarakterli insanların qarşılıqlı anlaşmasına əsaslanan səmərəli davranış modellərinin işlənib hazırlanması üçün əvəzsiz əhəmiyyətə malikdir. Sistemli kulturoloji yanaşma müxtəlif mədəniyyətlər və etnosların nümayəndələrinin davranış motivləri, qanunauyğunluqları və xüsusiyyətlərini dərk etmək, daha həyat qabiliyyətli ictimai inkişaf texnologiyalarını yaratmaq və gələcəyi uğurla proqnozlaşdırmaq imkanını verir.

Kulturologiya elminin müsbət cəhətləri və danılmaz üstünlükləri hər şeydən əvvəl onunla şərtlənmişdir ki, o, effektiv həllinin yalnız – tarix, antropologiya, fəlsəfə, filologiya, pedaqogika, psixologiya, sosiologiya, politologiya, iqtisadiyyat, hüquqşünaslıq və digər bu kimi ayrı-ayrı elmlərin metodları ilə mümkün olmayan mürəkkəb vəzifələri həll etməyə imkan verir. O, xüsusi tədqiqatlar, təhsil və maarifçilik texnologiyaları vasitəsilə müxtəlif yaş, millətlər, dinlər, sosial mənşə və etiqadlardan olan insanların yüksək mədəniyyət "istehsalını" təmin etməyə qadirdir. Müəyyən sosial şərait və uyğun mədəniyyət siyasəti şəraitində sistemli kulturoloji yanaşma bə-

zi mənfi xüsusiyyətli insanların, ölkənin insan kapitalının əsasını təşkil edən pozitiv düşünən və dərk edən xeyirxah vətəndaşlara çevrilməsinə səbəb olur. Belə yanaşma müxtəlif səviyyəli şəxsiyyət və liderlərin peşəkar və etik mədəniyyəti, və vətəndaşların əmək mədəniyyətinin formalaşmasına yardım edir ki, onsuz müasir dövlət fəaliyyət göstərə bilməz. İnsanın pozitiv həyat fəaliyyətinin tam görünüşünü açan universal elm kimi, kulturologiya digər xalqların təfəkkürü, dünyagörüşü, həyat tərzindəki elmi inkişaf səviyyəsinə, məntiqli tələbatlara və müasir dövrün tendensiyalarına uyğun mütərəqqi dəyişiklikləri təmin edən pozitiv nailiyyətlərin və yeniliklərin milli mədəniyyətlərə uyğunlaşması prosesini asanlaşdırır. Buna görə də kulturologiyanın dəyişdirici imkanlarından istifadə etməklə, zamanın tələblərinə uyğun, müxtəlif etnos və dinlərin nümayəndələri tərəfindən tanınan və bəyənilən, baza mədəni dəyərləri kimi, universal xarakterli ümummədəni standatrtları bundan sonra da formalaşdırmaq, təkmilləşdirmək və yaymaq lazımdır. Biz mədəniyyətlərin mütərəqqi dəyişdirilməsi və bir-birinə yaxınlaşdırılması, universal mədəni standartların hazırlanması və identiklik, azərbaycançılıq ideologiyasına və ölkəmizin milli maraqlarına cavab verən tolerantlıq, həmrəylik və vətənpərvərliyin inkişafı yolu ilə getməliyik.

Multikulturalizm siyasəti sahəsində düzgün diskresion qərarların qəbul edilməsi, sabit və münaqişəsiz yaşama texnologiyalarının işlənib hazırlanması üçün kulturoloqlar, psixoloqlar, filoloqlar, tarixçilər, etnoqraflar, sosioloqlar, pedaqoqlar, hüquqşünaslar, iqtisadçılar, politoloqlar və digər mütəxəssislərin iştirakı ilə uyğun kulturoloji ekspertizanı həyata keçirmək zəruridir. Alimlər və mütəxəssislər tərəfindən lazımı qiymətləndirmələr verilməli və insanların həyat fəaliyyəti və dünyagörüşünə, dəyərlər sisteminə təsir edən amillərin uyğun ölçmələri aparılmalıdır. Multikulturalizmin uğurları bir çox cəhətdən, xüsusi təhsili, interaktiv treninqləri və mədəni insanların tərbiyə edilməsini, ekspert-analitik materialların hazırlanmasını, innovativ ictimai inkişaf modelləri və texnologiyalarının işlənməsini, ictimai münasibətlər mədəniyyəti sahəsində düşünülmüş siyasi qərarların qəbul edilməsi üçün lazım olan proqnozlar və tövsiyələri nəzərdə tutan kulturoloji proqramlar və layihələr ilə bağlıdır. Ekspertlərin tədqiqatçılıq və maarifçilik fəaliyyəti xalqın ümumi mədəni səviyyəsinin yüksəldilməsinə, yüksək əmək mədəniyyəti və insan münasibətləri mədəniyyətinin formalaşmasına xidmət etməlidir. O, müxtəlif etnoslar, dinlər və əhalinin sosial qruplarını fəal surətdə cəlb etmə əsasında - intellektual, etik, hüquq, idarəetmə, istehsal, məişət, millətlərarası, siyasi və sosial mədəniyyətin yüksək standartlarının yaradılması prosesinə yardım etməlidir.

“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən əvvəllər irəli sürülmüş ölkə əhalisinin akkulturasiyası və inkulturasiyası üzrə təklifin reallaşdırılması - multikulturalizm milli mədəniyyətinə yardım vasitələrindən biri ola bilərdi. Söhbət “Homo sapiens” tipli insandan, yüksək intellektual və etik mədəniyyətin, empatiya və altruizmin xarakterik olduğu “Homo culturalis” tipli insana keçid proqramının işlənməsi və tətbiq edilməsindən gedir. Qloballaşmış proseslərin qeyri-sabitliyi şəraitində Azərbaycanda belə insanların ardıcıl “istehsalı” və yayılması – mədəni identikliyin, çoxəsrli tolerantlıq ənənələrinin qorunması və saxlanması, Azərbaycan cəmiyyətinin davamlı və münaqişəsiz inkişafı üçün əlverişli mühitin formalaşmasına yardım edəcəkdir.

Bu proqramın həyata keçirilməsi çərçivəsində inkişaf resursları, texnologiyaları, riskləri və yeni imkanlarının təhlilini nəzərdə tutan milli və dünya mədəniyyətinin inkişaf problemlərinin komparativ təhlili lazımdır. Bu məqsədlə Bakıda və Azərbaycanın regionlarında xüsusi ədəbiyyat, mühazirələr, seminarlar və interaktiv treninqlər vasitəsilə hər yerdə universal kulturoloji biliklərin yayılmasını həyata keçirmək məqsədəuyğundur. Akkulturasiya və inkulturasiyaya belə yanaşma, vətəndaşlarımızın həyat fəaliyyəti üçün yeni imkanlar açan mədəniyyətin inkişaf qanunları və texnologiyalarının mahiyyəti, xüsusiyyətləri, tarixi və nailiyyətlərini dərk etməyə səbəb olacaqdır. O, ruhi mədəniyyətin  mahiyyətini və böyük missiyasını, azərbaycançılıq ideologiyasının müdrikliyini düzgün qavramağa və obyektiv qiymətləndirməyə, dünyanı və gələcəyimizi, həyatın mənasını və yüksək mədəniyyətli insanın dəyişdirici imkanlarını pozitiv şəkildə görməyə, Azərbaycan cəmiyyəti və dövlətinin gələcək sabitliyi və təhlükəsiz inkişafını təmin edən mədəni identikliyi əldə etməyə yardım edəcəkdir.

Professor Fuad Məmmədov multikulturalizmin aktual problemlərinin tədqiqatında auditoriyanın diqqətini “kulturologiya piramidası” universal metodu və 12 tədqiqat metodunun mühüm metodoloji roluna cəlb etdi ki, bu prinsiplərin arasında antropoloji, psixoqrafik və demoqrafik yanaşmalar xüsusi əhəmiyyətə malikdir.  Bu yanaşmalar: həyat tərzi, ənənələr və adətlər, sosial münasibətlər sistemi, mədəniyyətin inkişaf dinamikasını və nəsil vasitəsilə onun ötürülməsi mexanizmləri kimi etnoloji xarakterin xüsusiyyətləri və qanunauyğunluqlarını aşkar etməyə imkan verir.  Onlar həmçinin, sosial-mədəni mühit, mədəni dəyərlər sistemi, insanların anadangəlmə mədəni keyfiyyətləri ilə şərtlənən motivlər və üstünlükləri müəyyən etməyə, müxtəlif mədəniyyət nümayəndələrinin yaşı, cinsi, təhsili, gəlir mənbəyi, uzunömürlülüyü və digər parametrləri haqqında informasiya almağa imkan verir.

Belə təhlildə "davranış", "sistemli" və "situasiyalı" yanaşmaların, Piter Çeklandın "yumşaq təfəkkür" və Lütfi Zadənin "qeyri-səlis məntiq" nəzəriyyələrinin tətbiqi, milli tarixin müasir mərhələsində Azərbaycanın milli mədəniyyətinin inkişaf proseslərinin situasiyalı dəyişən idarəçiliyini daxil etməklə, bütün amillərin hesaba alınmasına imkan verəcəkdir.

Yekunda Fuad Məmmədov qeyd etdi ki, multikulturalizm siyasətinin səmərəliliyi bir çox cəhətdən Azərbaycan cəmiyyətinin ruhi mədəniyyət səviyyəsindən, onun vətənpərvərliyi və xoş məramından asılıdır. O, alimlərimizin milli maraqlara cavab verən yaradıcı fəaliyyəti, xalqımızın etibarlı gələcəyini formalaşdırmaq üçün onların hazırlığı, sosial-mədəni və siyasi qərarların düzgünlüyü ilə, sülh mədəniyyətini, Azərbaycan cəmiyyəti və dövlətinin harmonik, davamlı və təhlükəsiz inkişafını təmin edən innovativ kulturoloji strategiyalar və texnologiyaların işlənib hazırlanması və həyata keçirilməsi ilə həlledici dərəcədə şərtlənir. Bunu nəzərə alaraq, Azərbaycanda multikulturalizm siyasətinin uğurlu reallaşdırılmasına yardım məqsədilə, Fuad Məmmədov Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə, insanın fundamental həyat fəaliyyəti problemlərinin tədqiqində çoxillik təcrübəsi olan "Simurq" AMA və Azərbaycan Kulturoloqlar Cəmiyyəti ilə birlikdə multikulturalizm sahəsində səyləri birləşdirməyi və birgə tədqiqatçılıq və ekspert fəaliyyətini həyata keçirməyi təklif etdi.

Dosent Tahir Behbudovun "Qərb ölkələrində multikulturalizm problemləri" məruzəsində Qərb ölkələrində multikulturalizmin tarixi və müasir vəziyyətinin maraqlı müəllif təhlili təqdim edildi. Bu təzahürün mahiyyəti və xüsusiyyətlərini açıqlayaraq, Tahir Behbudov qeyd etdi ki, XX əsrin sonlarından başlayaraq, multikulturalizm Qərbi Avropa ölkələrində yeni ideologiya kimi nəzərdən keçirilməyə başlandı. Lakin bu ideologiya öz fundamentallığını qazanmadı, o, siyasətə çevrildi.

Mühacirlərin Qərbin dominant mədəniyyətinə uyğunlaşacağına hesablanmış Qərbin "açıq qapı" siyasəti özünü doğrultmadı. Qərb alimləri və siyasətçilərinin fikrincə, "mədəni dözümlülük" siyasətinin öldüyü kimi, ənənəvi anlamda multikulturalizm "ölür". Qərbin aparıcı ölkələrində paralel cəmiyyətlər – öz qanunları ilə yaşayan, öz dillərində danışan, onların ikinci vətəni olan ölkələrin tarixi, mədəniyyəti və dəyərlərindən tam ayrılmış milli, etnik və mədəni-dini icmalar yarandı. Bu proses üçün xarakterik cəhət odur ki, mühacirlərin milli mədəniyyətləri inteqrasiya prosesində ya itir, ya da mövcud mədəniyyətə münasibətdə əks mədəniyyətə çevrilən müxtəlif submədəniyyətlərə inteqrasiya olunurlar. Belə şəraitdə sosial-psixoloji və milli-mədəni ziddiyyətlər asanlıqla siyasi münaqişələrə transfor-

masiya olunurlar. Asiya, Afrika, Şərqi Avropa və digər ölkələrin nümayəndələrinin sənaye istehsalına cəlb edilən əməyi – az qiymətləndirilən, ucuz və az effektli hesab olunur. Qərbi Avropa ölkələrinin vətəndaşları ilə müqayisədə onların sosial həyatına münasibətdə sosial ayrı-seçkilik siyasəti buradan yaranmışdır. Əmək miqrantlarının narazılığı multikulturalizm siyasətinin böhranına gətirib çıxardı. Bugün bu etnik icmalar daha möhkəm, daha güclüdür. Etnik həmrəylik dini, icma, kriminal birliklərin ətrafında cəmləşir. Musiqi, din, dil, adətlər, və hətta ritual cinayətlər onları qərb dəyərlərindən güclü surətdə ayırır. Qərbi Avropada son 10 ilin hadisələrinin təhlili etnik əmək cəmiyyətləri tərəfindən izhar olunan təcavüzkarlıq və ekstremizmi göstərdi. Sosial-siyasi prosesin zəhmətkeşlərin həmrəyliyindən, faktik olaraq, istismardan və məcburi assimilyasiyadan (qarışmasından) azad olmaq uğrunda mübarizədə mühacirlərin həmrəyliyinə transformasiyası baş verir.

Məruzəsinin yekununda qərb multikulturalizminin təhlili və proqnozlaşdırılmasına əsaslanaraq, Tahir Behbudov Qərbi Avropada dözümün sıfır dərəcəsi və məcburi mədəni inteqrasiya dövrünün başlanması haqqında fikrini bildirərək, qeyd etdi ki, demokratiya dəyərlərinin əsaslarını təbliğ edən, bütün millətlərin və etnik qrupların hüquqlarının carçısı olan Avropa, iddialı mədəni uyğunluq və identiklik siyasətinin qurbanı olmuşdur.

"Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin vəzifələri və strukturları haqqında" məzmunlu məruzəsində Aynur Bəşirli Mərkəzin məqsədləri, proqramları və ölkəmizdə və xaricdə aktiv fəaliyyəti haqqında danışdı.

14-15 may 2015-ci ildə Sankt-Peterburqda "Qlobal çağırışlar və milli maraqlar" probleminə həsr edilmiş Beynəlxalq Llixaçov Elmi Oxumalarında "Simurq" AMA yenidən Azərbaycanı təmsil etmişdir. Oxumalarda Azərbaycan Kulturoloqlar Cəmiyyətinin sədri, Beynəlxalq Lixaçov elmi Oxumaları Təşkilat komitəsinin üzvü, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü Fuad Məmmədov "Qlobal çağırışlar şəraitində milli maraqlara kulturoloji yanaşma haqqında" mövzusu üzrə çıxış etmişdir. Sankt-Peterburqda olduğu zaman Fuad Məmmədov Rusiya EA-nın Fəlsəfə və hüquq bölməsinin rəhbəri, görkəmli Rusiya filosofu, akademik V.S. Stepinlə görüşdü və müxtəlif xalqların nümayəndələrinin mədəni identikliyinin formalaşdırılması beynəlxalq proqramının işlənib hazırlanmasında onunla əməkdaşlıq imkanlarını müzakirə etdi. Tanınmış Rusiya kulturoloqu, RF Prezidenti yanında Rusiya Xalq təsərrüfatı və dövlət qulluğu Akademiyasının professoru O.N. Astafyeva ilə kulturologiya sahəsində əməkdaşlıq haqqında məsələlər müzakirə edildi.

Rusiya Federasiyasının şimal mədəni paytaxtında Fuad Məmmədov həmçinin, Sankt-Peterburq Dövlət Mədəniyyət və İncəsənət Universitetində konfransda çıxış etdi. Oz çıxışında o, vətəndaşların innovativ fəaliyyəti üçün yeni imkanlar açan mədəniyyətin cəmiyyətdə düzgün elmi anlamının yayılması zəruriliyi haqqında, insan kapitalının inkişafı üçün kulturologiyanın strateji əhəmiyyəti haqqında, həmçinin Böyük Vətən müharibəsində SSRİ-nin tarixi qələbəsində Azərbaycanın rolu və respublikada müsbət multikulturalizm təcrübəsi haqqında məsələlərə toxundu. Universitetin Mədəniyyətin tarixi və nəzəriyyəsi kafedrasının müdiri S. N. İkonnikova ilə kulturologiya sahəsində qarşılıqlı əməkdaşlıq maraqları müzakirə edildi.

12-28 iyunda Azərbaycanın paytaxtında, Bakı şəhərində, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkinin "Avropanın idman tarixində ən böyük hadisələrdən biri" adlandırdığı birinci Avropa Oyunlarının keçirilməsi (milli və dünya mədəniyyəti tarixində ilk dəfə olaraq), 2015-ci ilin möhtəşəm mədəni hadisəsi oldu. Oyunlarda Avropanın hər tərəfindən altı mindən artıq idmançı iştirak edirdi. Azərbaycan, ölkəmizdə Avropada və dünyanın digər hissələrində geniş surətdə translyasiya edilən oyunların yüksək təşkilat və idarəetmə mədəniyyəti standartlarını nümayiş etdirdi. Qonaqlar Bakı şəhərinin gözəlliyinə, onun sakinlərinin yüksək mədəniyyəti və qonaqpərvərliyinə, həmçinin Oyunların heyranedici təşkilat səviyyəsinə valeh olmuşdular. İsrail jurnalisti Mark Kriçevski Bakıda birinci Avropa Oyunlarının açılış mərasimini, Qərblə Şərqin rəqabət etdiyini deyil, bir-birini tamamladığı əsl şah əsər adlandıraraq, onu superfantastik kimi qiymətləndirmişdir.

Oyunların təşkilat komitəsinə, Azərbaycan MOK (Milli Olimpiya Komitəsi) İcraiyyə Komitəsinin üzvü, YUNESKO və İSESKO-nun xoş məramlı səfiri, Azərbaycanın müasir tarixi dövründə onun mədəniyyətinin inkişafında çox böyük xidmətləri olan Mehriban xanım Əliyeva rəhbərlik edirdi. Rəsmi açılış mərasimində çıxış edərkən, Azərbaycanın birinci xanımı bu hadisəni Avropa olimpiya hərəkatı tarixində yeni səhifə kimi xarakterizə etdi: "Bu səhifəni Azərbaycan xalqı yazır. Qoy Tanrı hər zaman Azərbaycanı qorusun. Azərbaycan fəxr edir ki, ilk Avropa Oyunları Bakıda keçirilir. Atəşgahda alovlanan ruh hər birimizi bir araya gətirir". Mehriban xanım mədəniyyətlərarası dialoqun inkişafında Azərbaycanın rolunu, respublikanın iqtisadi sabitliyi və davamlı inkişafını, Bakıda Oyunların təşkilatçılarının işə sadiqliyini, coşqun ruhunu və yorulmaz fəaliyyətini yüksək qiymətləndirdi.

Azərbaycan yarışlarda 56 medal (21 qızıl, 15 gümüş və 20 bürünc) qazanaraq, Avropa qitəsinin ikincisi oldu. 79 qızıl medal qazanmış Rusiya birinci, 18 qızıl medal əldə edən Böyük Britaniya isə üçüncü yeri tutdu. Oyunlar bit-

dikdən sonra dövlət başçısı İlham Əliyev "Bakı – 2015" birinci Avropa Oyunlarının keçirilməsində xüsusi xidmətləri olan təşkilatçıları, idmançıları, məşqçiləri mükafatlandırdı. Mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə, həmçinin birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban xanım Əliyeva "Heydər Əliyev" ordeni ilə təltif edildi.

Bakı Avropa Oyunları Azərbaycan və dünya mədəniyyəti tarixində əlamətdar hadisə və Azərbaycan Respublikasının səmərəli dövlət siyasəti və yüksək beynəlxalq nüfuzunun inandırıcı dəlillərindən biri oldu. Oyunların Bakıda keçirilməsi – dünya mədəniyyəti və beynəlxalq sosial-mədəni əməkdaşlığın inkişafında yalnız Azərbaycan xalqının xidmətlərinin tanınması deyil, həm də Azərbaycanın tədricən dünya mədəniyyəti və sivilizasiyası mərkəzlərindən birinə çevriləcəyini təsdiqləyən daha bir ciddi addım oldu.

Qeyd etmək xoşdur ki, Oyunların loqotipinin əsas simvollarından biri - "Feniks" quşu - Azərbaycan xalqının Xeyirxahlıq və Dirçəliş simvolu olan "Simurq"un sinonimidir. Möhtəşəm bağlanış mərasiminin bir hissəsi Simurq haqqındakı əfsanəyə həsr olunmuşdur. Tamaşaçılar səhnədə görünən əzəmətli və möhtəşəm, yanar Simurq quşunu böyük coşqu hissi ilə qarşıladılar...



## *XÜLASƏ*

Artıq əsrin dörddə biri qədər müddət ərzindədir ki, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası təhsil, elm və maarifçilik metodları ilə Azərbaycanın intellektual və etik mədəniyyətinin inkişafına özünün vətəndaş xidməti tarixi missiyasını yerinə yetirir. 25 il ərzində ruhi mədəniyyətin və kulturologiyanın inkişafına yardım sahəsində "Simurq" AMA-nın üzvlərinin yaradıcı fəaliyyəti, qloballaşma şəraitində Azərbaycan cəmiyyəti və dövlətinin yüksələn sosial-mədəni tərəqqisi məqsədi ilə motivasiya edilmiş Azərbaycanın gözəl ziyalı nümayəndələrinin – alimlər, müəllimlər, incəsənət xadimləri və milli mədəniyyətin digər fədakarlarının şərəfli yaradıcılıq yoludur. Assosiasiyanın fəaliyyəti yalnız milli nəşrlərdə, dövri mətbuatın səhifələrində, Azərbaycan Respublikası milli radio və televiziyasında deyil, həm də tanınmış şəxsiyyətlərin çoxsaylı məktubları və rəylərində, "İnternet", "Google", "Facebook", "Youtube" və s. kimi dünya kommunikasiya şəbəkələrində geniş işıqlandırılmışdır.

Ümumdünya Qeyri-hökumət Təşkilatları Assosiasiyasının (The World Association of Non-Governmental Organizations - WANGO) 2004-cü ildə WANGO tərəfindən "Simurq" AMA-nın ünvanına göndərdilən məktubda qeyd edilirdi: "...Biz sevinirik ki, Siz WANGO liderlərindən birisiniz. Biz Sizin dəyərli işlərinizdən çox məmnunuq və Sizinlə uzun illər əməkdaşlıq etməyi gözləyirik".[43]2014-cü ilin yayında Ümumrusiya Azərbaycan Konqressinin "Azərbaycan konqressi" həftəlik Rusiya ictimai-siyasi qəzeti yazırdı: "Azərbaycan mifologiyası, nağılları və rəvayətlərində Simurq quşu qədimdən gözəlliyin, xeyirxahlığın və ədalətin dirçəliş simvolu olmuşdur. Simurq qartalabənzər quş haqqında avrasiya əfsanəsi ilə bağlı olsa da, onu milli bənzərliyin (oxşarlığın, eyniliyin) ənənəvi hissəsi də hesab etmək olar – o, Azərbaycan xalçaları, miniatürləri, poeziyasında həyat ağacını poetik şəkildə təcəssüm etdirərək, xüsusi yer tutur. Simurq – unudulmuş köhnənin dirçəlişi və, tərəqqi və rifah gətirə biləcək hər bir yeniliyin təşəkkülüdür. Və 1990-cı ildə, respublika müstəqilliyinin qəbul edilməsi ərəfəsində ikən, Azərbaycan mədəniyyətinin öz həyat ağacının dirçəldilməsinə ehtiyac duyulduğu qısa, lakin mürəkkəb tarixi zaman kəsiyində, Azərbaycan Mədəniyyət Assosiasiyasının təşkilatçıları özlərinin cəmiyyətini təsis etməklə, adını dəqiq seçmişdilər. Bu, mədəniyyət üzrə dar profilli təşkilat deyildi, lakin ilk çoxsahəli qeyri-hökumət təşkilatı idi ki, onun məqsədi Azərbaycanda demokratik cəmiyyə-

[43] "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası. XX il. Bakı, 2010, c.82.

tin və hüquqi dövlətin formalaşmasına vətəndaş yardımı idi. Demokratiya, hüquq, mədəniyyət – bu və ya digər tarixi dövrdə respublikada yeri olan anlayışlar, yeni, müasir məzmunla doldurulmanı tələb edirdi ki, bu da mədəniyyətin, onun ənənələrinin yenidən canlanmasını, yenilənməsini nəzərdə tuturdu. "Simurq" AMA milli mədəniyyətin, təhsilin demokratikləşdirilməsi və modernləşdirilməsinə yardım etmək, beynəlxalq əməkdaşlıqda iştirak etmək missiyasını öz üzərinə götürmüşdür.[44]

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası öz vətəndaşları, xalqı və dövlətinin yüksək mədəniyyətinin inkişafına xidmət üçün düzgün məqsəd və düzgün yol seçmişdir. Bəşəriyyətin tarixi inkişaf təcrübəsinə diqqətlə nəzər salmaqla, bu yolun düzgünlüyündə əmin olmaq çətin deyil. Müdriklərin həm nüfuzu, həm ağlı, həm həyat təcrübəsi - mədəniyyətin insan həyatının başlanğıcının başlanğıcı olmasına bizi təkrar-təkrar inandırır. Qədim yunan fəlsəfəsi və daha erkən dövrlərdən başlayaraq, bütün dünya elmi, fizika və biologiyanın ən yeni kəşflərinə qədər bəşəriyyətin tərəqqisini müəyyən edən inanılmaz nailiyyətləri ilə öz başlanğıcını insanların ruhi mədəniyyəti kimi sosial fenomendən götürür.

Xatırladaq ki, mədəniyyət fenomeninin əsasını insan həyatının, intellektlə şərtlənən, qorunması, saxlanması və yaxşılaşdırılması haqqında qayğı təşkil edir. Buna görə də bəşəriyyətin ən yaxşı mütəfəkkirləri insanın və cəmiyyətin inkişafını mədəniyyətdə görürdülər. Müəyyən mədəni həyat və yaradıcılıq standartları, etika, estetika, əqidələr, hüquq, ailə, cəmiyyət, dövlət, elm, incəsənət, istehsal və idarəetmə, uzunluq və zaman ölçülərinin, enerji və məkan ölçmələrinin işlənib hazırlanması və təkmilləşdirilməsi olmadan, mədəniyyətin mahiyyətini təşkil edən, xaosdan nizama aparan yol mümkün idimi? Cəmdə qədim yunanların klassik mədəniyyət paradiqmasını təşkil edən, elmin məqsədinə xidmət edən həm mədəniyyət, həm gözəllik, həm xeyirxahlıq - yüksək ruhi mədəniyyət komponentləridir. Bunlar olmadan, nə insan kapitalının inkişafını, nə Azərbaycan xalqının çoxillik mədəniyyətinin çox dəyərli tarixi modeli olan multikulturalizmin humanist konsepsiyasının uğurlu reallaşdırılmasını təsəvvür etmək mümkün deyil.

Mədəniyyətin inkişaf prosesinin əsasında onun yaradıcısı, daşıyıcısı və istehlakçısı olan insan dayanır. Şübhəsiz, mədəni insan özündə biliyin və etikanın, əmək mədəniyyəti və həyat mədəniyyətinin, humanist dünyagörüşü və dəyərlər sisteminin, pozitiv xarakter və hərəkətlərin, qabiliyyətlər və nailiyyətlərin harmonik surətdə birləşməsinə səy göstərməlidir. Özünə fik-

[44] http://azcongress.info/cat/102-maj-2006/6642-2006_5_25

rən üç sual verməklə, insanı obyektiv qiymətləndirmək olar: *1. İnsan nə istəyir, və hansı məqsədləri izləyir? 2. Onun hansı qabiliyyətləri və cəmiyyətin inkişafına nə kimi töhfəsi vardır? 3. "Şəxsiyyət" olaraq (xarakteri və mədəni dəyərlər sistemini nəzərə alaraq) o kimdir*? İnsanın hər zaman mükəmməlləşməsi, olduğundan daha yaxşı olması üçün mütləq onun ruhi mədəniyyətini inkişaf etdirmək, təfəkkürü, intellekti və dəyərlər sistemini təkmilləşdirmək lazımdır.

Xatırlatmaq maraqlı olardı ki, həm Qərbdə, həm də Şərqdə ruhi mədəniyyətin mühüm əsası kimi, insanların vaxtında olan təhsili və tərbiyəsinə hər zaman böyük diqqət ayrılmışdır. Uşaqların nəcib tərbiyə edilməsinin yüksək əhəmiyyətini qeyd edərək, özünün məşhur IX əsr Şərq aristokrat mədəniyyəti abidəsi "Qabusnamə"də Key Kavus yazırdı: "...əgər ağac əyri bitibsə və budaqları da əyri bitib və boy atıbsa, onu yalnız mişarlamaq və yonmaqla düzəltmək olar". "Qazanılmış alicənablıq" adlandırdığı biliklərə xüsusi əhəmiyyət verərək, və cəmiyyətdə yüksək mədəniyyətin inkişafı üçün əlverişli şəraitin formalaşdırılmasının vacibliyini nəzərə alaraq, bu məşhur mütəfəkkir deyirdi: "Bizi bəxtin dönüklüyü ilə danlayana de ki, məgər tale qiyməti yüksək olanlardan başqa kimsə ilə çarpışırmı?..göydə ulduzlar var, onların sayı-hesabı yoxdur, lakin tutulma yalnız günəşdə və ayda olur!".

*"Cəmiyyət mədəniyyəti müdafiə edərsə, mədəniyyət cəmiyyəti xilas edər!".* Müasir dünya sizilizasiyasının humanist formulu ola biləcək "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının bu şüarı zamanın sınağından çıxmışdır. Cahilliyin şər və yoxsulluq (maddi və mənəvi anlamda) olduğu halda, mədəniyyətin yalnız dəyərlər, normalar və standartlar sistemi deyil, həm də hər şeydən əvvəl, bilik, inkişaf və rifah olduğunun saysız-hesabsız təsdiqinə biz bütün dünyada rast gəlirik. İnsan xoşbəxtliyinin açarının pul deyil, ruhi mədəniyyətin əsasını təşkil edən yüksək əqli və mənəvi mədəniyyətin olması tezisi bir çox alimlər tərəfindən və elmi konsepsiyalarla təsdiqlənir. Yalnız yüksək eqoizmdən imtina etməklə, şüurumuzu pozitiv dəyişdirmək lazımdır. Burada ayrı-ayrı ölkələrin konkret şəraitinə uyğunlaşdırılmış və razılaşdırılmış, mədəniyyətlərin harmonizasiyasına və maraqların balansına əsaslanan məhsuldar həyat fəaliyyəti üçün əlverişli şərait formalaşdıran beynəlxalq kulturoloji təhsil və maarifçilik sistemi həlledici rol oynaya bilər.

Dövlətin mütərəqqi, rəqabət qabiliyyətli inkişaf tələbatlarını təmin etmək üçün qabaqcıl ölkələr, ilk növbədə, dünya elmi və texnologiyasının ən yeni nailiyyətlərinə əsaslanan keyfiyyətli təhsilə, həmçinin müəssisə və təşkilatların kollektivlərinin, ölkə əhalisinin müxtəlif kateqoriyalarının

permanent kulturoloji maariflənməsinə istinad edirlər. Elmi biliklər üzərində qurulan təhsil və maarif, humanist tərbiyə ilə birləşmədə insanın inkişafı, daha yeni-yeni həyat mənbələrinin axtarılması və tapılması, insanların həyat rifahının yüksəldilməsi, dövlətin sosial-siyasi və iqtisadi sabitliyi üçün böyük imkanlar açır. Bunun sayəsində qloballaşmanın daxili və xarici dəyişiklikləri və çağırışları şəraitində hər bir mütərəqqi ölkə üçün, o cümlədən, Azərbaycan Respublikası üçün universal kulturoloji biliklərə malik və innovativ həyat fəaliyyəti texnologiyalarına yiyələnən şəxsiyyətlər və rəhbərlərin yaxşı təhsili və yenidən hazırlığı böyük əhəmiyyət kəsb edir. Kulturologiya elminə əsaslanan kulturoloji təhsil bu gün şəxsiyyətin və cəmiyyətin, o cümlədən müxtəlif səviyyəli rəhbərlərin intellektual, etik və idarəetmə mədəniyyətinin ən effektiv inkişaf vasitəsidir.

Əgər düzgün, həyat qabiliyyətli kulturoloji ideyalar və layihələr hökumətin ekspert qiymətini alırsa və vaxtında həyata keçirilirsə, onlar insanların şüurunun pozitiv dəyişməsinə, intellektual və mənəvi cəhətdən təkmilləşməsinə yardım edir. “Biliklər cəmiyyətinin” qurulması şəraitində yüksək hakimiyyət eşelonunu ifadə edən və ölkənin taleyinə görə məsuliyyət daşıyan siyasətçilər və məmurlar - yüksək ruhi mədəniyyət daşıyıcıları, yaxşı ideoloqlar, dövlətin dəyərlər sistemi, milli idealları və maraqlarının ifadəçiləri ola bilməzlər, cəmiyyətin təhlükəsiz inkişafını, xalqın həyat keyfiyyətinin daimi tərəqqisi və yüksəlişini təmin edən səmərəli fəaliyyəti həyata keçirə bilməzlər. Bu, əsasən, Piter Çeklandın “yumşaq təfəkkür” və Lütfi Zadənin “qeyri-səlis məntiq” nəzəriyyəsini daxil etməklə, milli və dünya inkişaf proseslərinin, müasir sistemli və kulturoloji təhlil metodologiyaları və metodlarının keyfiyyətcə yeni mənzərəsini açan universal kulturoloji biliklərin onlar tərəfindən mənimsənilməsi və səmərəli istifadə olunması səviyyəsindən asılıdır.

Əmin olmaq çətin deyil ki, milli inkişafın uğurları, effektivliyi və keyfiyyəti cəmiyyətin ruhi mədəniyyətinin inkişaf strukturu və inkişaf prioritetləri ilə şərtlənmişdir. Dünya mədəniyyəti və siviliasiyasının tarixi təsdiqləyir ki, maddi rifah istehlakçılarının, iqtisadiyyat və sosial tərəqqinin effektiv inkişafının başlıca resursları – təbii resurslardan deyil, insanın intellektindən ibarətdir. Bu, Böyük Britaniya, və Yaponiya kimi ada dövlətlərinin, həmçinin ABŞ, Almaniya, İsrail, Honqkonq, Sinqapur və, iqtisadiyyatı insan kapitalının məğzini təşkil edən, intellektual mədəniyyətə əsaslanmış bir sıra digər dövlətlərin təcrübəsi ilə təsdiqlənir. Mədəniyyəti və inkişafı müxtəlif səviyyəli ölkələrin müqayisəli təhlili göstərir ki, ölkənin intellektual potensialının lazımınca qiymətləndirilməməsi və intellektual fəaliyyətin və kulturoloji innovasiyaların praktik istifadəsinin kifayət etməyən tempi, zamanını qabaqlayan mütərəqqi

alimlərin şəxsiyyətinin və işlərinin qiymətləndirilməsinə qeyri-obyektiv münasibət elmin nailiyyətlərinin aktuallığının itirilməsinə aparıb çıxarır. Bu isə cəmiyyətdə inamın itməsi, milli və sosial həmrəyliyin pozulması ilə nəticələnə bilən vaxtın, insan əməyinin, ölkənin maliyyə və maddi ehtiyatlarının itkisi deməkdir. Belə "məsariflər" cəmiyyətin ümumi sosial-mədəni tərəqqi templərində, son nəticədə isə dövlətin rifahı, rəqabət qabiliyyəti və təhlükəsizliyində özünü göstərməyə bilməz.

Toxunulan problemlərin, dövlətin davamlı inkişafının zəruri instrumenti olan idarəetmə mədəniyyəti kimi ruhi mədəniyyətin strateji sahəsinə birbaşa aidiyyatı vardır. Elə həmin dünya təcrübəsi təsdiqləyir ki, yüksək dövlət idarəçiliyi mədəniyyəti planlaşdırılmış istehsalı, maddi və ruhi nemətlər istehsalının başlıca resursu olan alimlər, müəllimlər və mütəxəssislərin düzgün qiymətləndirilməsi, motivasiyası və istifadəsini nəzərdə tutur. Dövlət idarəçiliyinin elmi ekspertiza kimi optimal idarəçilik qərarlarını qəbul etməyə yardım edən belə mühüm funksiyasının yerinə yetirilməsində alimlərin və mütəxəssislərin rolu danılmazdır. Ekspertiza dünya mədəniyyəti və sivilizasiyasının tərəqqisi ilə bağlı olan dəyişikliklərə vaxtında reaksiya verməyə, ən yeni elmi nailiyyətləri, innovasiyaları və kəşfləri qiymətləndirməyə, milli səviyyədə onların tez praktik istifadəsi üçün şərait yaratmağa imkan verir. Mütərəqqi texnoloji dəyişiklikləri təmin edən dünya və milli elmi-texniki nailiyyətlərinin vaxtında qiymətləndirilməsi və istifadə edilməsi bacarığının olmaması, milli inkişafın bu zəruri idarəçilik resursunun itkisinə aparıb çıxarır.

Deyilənləri nəzərə alaraq, sivil ölkələrdə dövlət idarəçiliyinin səmərəliliyi, dövlət fəaliyyətinin müxtəlif sahələrinə məsul olan mütəxəssislərin elmi biliklər və etik mədəniyyət səviyyəsinin yüksəldilməsi ilə sıx şəkildə əlaqələndirilir. Güclü dövlət fəaliyyətinin təmin edilməsi üçün bu ölkələrdə hakimiyyət hər yerdə, özündə yüksək intellektual və etik mədəniyyəti, eqoizmlə altruizmin şüurlu balansını təcəssüm etdirən "Homo culturalis" tipli insanlara məxsusdur. Çünki sivil cəmiyyətdə "ən güclü" olan – biliklər, bacarıqlar, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyətin yüksək səviyyəsinə malik mədəni insandır. Məhz belə insanlar cəmiyyətin "qurtuluş xadimləri"dirlər. Con Adair, Piter Druker və digər tanınmış qərb alimlərinin nəzəriyyəsinə görə, effektiv dövlət, sosial yaxud iqtisadi idarəetmə üçün vəzifə hakimiyyəti deyil, insanın anadangəlmə mədəni keyfiyyətləri və intellektual mədəniyyəti ilə şərtlənən, elmi əsaslanmış biliklər hakimiyyəti həlledici əhəmiyyətə malikdir. Əqli əmək işçilərinin əsas kapitala çevrildiyi müasir "biliklər iqtisadiyyatı"nın inkişafı da intellektual mədəniyyətə əsaslanır.

Milli mədəniyyətin başlıca resursu olan intellektual mədəniyyətin əhəmiyyəti, müxtəlif inkişaf səviyyəli ölkələrin komparativ kulturoloji təhlili ilə təsdiqlənir. Yüksək intellektual mədəniyyət, daxili və xarici çağırışlara zəruri cavab vasitəsi, dünya sivizasiyasının dialektik inkişaf qanunlarına uyğun olaraq, ölkənin dinamik inkişafını təmin edən şərtdir. İnsanların aşağı intellektual səviyyəsi mümkün obyektiv və subyektiv sosial ziddiyyətlərin həllini çətinləşdirir ki, bu da çox zaman milli mədəniyyətin tənəzzülünə səbəb olan mövhumatların, xurafatların, dini fanatizm və aqnostisizmin (obyektiv aləmin dərk edilə bilməsini inkar edən idealist fəlsəfi nəzəriyyə) yayılmasına səbəb olur. Belə proseslərin profilaktikası və qarşısının alınması, - universal kulturoloji biliklərə malik, yüksək ixtisaslı mütəxəssislərin peşəkar hazırlığı və yenidən hazırlığını tələb edir. Belə mütəxəssislərin olması və onların sosial idarəetmə proseslərinə cəlb edilməsi – milli inkişafın strateji və taktiki problemlərinin sistemli və situativ təhlili üçün kulturologiyanın metodoloji imkanları və ən yeni nailiyyətlərindən effektiv istifadə etməyə imkan yaradır.

Nəzərdən keçirilən, cəmiyyətin və dövlətin dinamik inkişafı üçün intellektual və etik mədəniyyətin inkişaf etdirilməsinin prioritet aktuallığını aşkar edən məsələlər, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının təşkili və fəaliyyətinin tarixi əsaslarını daha yaxşı başa düşməyə imkan verir. Ölkənin bu ilk qeyri-hökumət təşkilatının yaradılması yalnız ruhi mədəniyyətdə mütərəqqi dəyişikliklərin zəruriliyi ilə deyil, həm də respublikanın siyasi müstəqilliyinin qurulması şəraitində milli tərəqqinin həyati tələbatları ilə diktə edilmişdir. Assosiasiyanın təşəkkülü ölkənin qanunlarına uyğun, milli və ümumbəşəri mədəniyyət dəyərləri əsasında, dünya sivilizasiyası təcrübəsini nəzərə almaqla, iki yüzilliyin hüdudunda Azərbaycan xalqının milli-mədəni inkişaf əlaməti olan azərbaycançılıq ideologiyası prinsiplərinə istiqamətlənərək baş tutmuşdur. Assosiasiyanın intellektual qüvvələrinin tətbiqi nöqtəsi insanların təhsili, tərbiyəsi və maarifləndirilməsi, "yenilənən milli resursu" təşkil edən və Azərbaycan cəmiyyətinin inkişafı və güclü dövlət quruculuğu üçün dəyişdirici imkanlara malik, yüksək səviyyəli biliklər, bacarıqlar, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyətli fəal şəxsiyyətlər və liderlərin formalaşmasına yardım olmuşdur.

"Simurq" AMA-nın keçdiyi çoxillik yaradıcı yolunu qiymətləndirərək, qeyd edək ki, onun fəaliyyət dövrü ərzində elmi konsepsiyalar, milli-mədəni inkişaf layihələri və modelləri işlənib hazırlanmış və qismən reallaşdırılmış, yüzlərlə elmi-maarifçilik seminarları və konfransları keçirilmiş, kulturoloji televiziya verilişləri aparılmışdır. Assosiasiyanın "ruhi istehsal" nəticələrinin fərqləndirici cəhəti – Azərbaycan cəmiyyəti və dövlətinin modernləşdirilməsi və sosial

tərəqqisinə istiqamətlənmə, innovativlik və Azərbaycanda insan kapitalının inkişafına müsbət təsir göstərməsi idi. Assosiasiya üzvlərinin – akademiklər, professorlar, dosentlər və gənc alimlərin, - kulturologiya, tarix, fəlsəfə, psixologiya, ədəbiyyat, poeziya, pedaqogika, ekologiya, iqtisadiyyat, hüquqşünaslıq, sənətşünaslıq, politologiya, sosiologiya, beynəlxalq münasibətlər mədəniyyəti, elm və təhsilin, praktika və incəsənətin digər sahələrinə həsr edilmiş çoxsaylı monoqrafiyaları, kitabları, məcmuələri və elmi məqalələri milli mədəniyyətin inkişafı və təbliğinə ciddi töhfə olmuşdur.

Müqayisəli təhlil göstərdi ki, elmi əsaslanmış inkişaf strategiyası və milli maraqlara istiqamətlənmə sayəsində, 25 illik mövcudluğu ərzində "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası özünün tarixi missiyasının həyata keçirilməsində mühüm addımlar atmağa nail olmuşdur. Sistemli yanaşma "Simurq" AMA-nın fəaliyyətinin ümumi inkişaf qanunauyğunluqları və əsas texnologiyalarını aşkar etməyə, Assosiasiyanın missiyasının həyata keçirilməsi effektivliyini qiymətləndirməyə imkan verdi.

"Simurq" AMA-nın tarixinin tədqiqi zamanı tərəfimizdən Assosiasiyanın inkişaf prosesini xarakterizə edən daimi və dəyişən kəmiyyətlərin kulturoloji ölçülərini aparmaq cəhdi edilmişdir. Əsasən, həm nisbi daimi, həm də dəyişən kəmiyyətlər nəzərdən keçirilmişdir. Nisbi daimi kəmiyyətlərə Assosiasiyanın kollektivinin fəaliyyət məqsədləri, vəzifələri, texnologiyaları, əmək və təşkilat mədəniyyəti, idarəçilik üsulu aid edilmişdir. Kollektivin intellektual, etik mədəniyyəti, peşəkarlıq səriştəliliyi və vətənpərvərlik motivasiyası daimi kəmiyyətlər kimi xarakterizə olunurdu. Zaman, resurslar, motivasiya, xarici mühitin dəyişməsi və s. dəyişən kəmiyyətlərə aid edilirdi. Siyasi proses, kulturologiya sahəsində elmi nailiyyətlər, ölkənin iqtisadi inkişafı, respublikada sosial-mədəni dəyişikliklər, həmçinin qrup maraqlarının təsiri bizim görüş dairəmizdə idi.

Təhlil Assosiasiyanın kollektivinin fəaliyyət məqsədləri, vəzifələri, texnologiyalarını, əmək və təşkilat mədəniyyətini, idarəçilik üsulunun nisbi daimiliyini, kollektivin intellektual, etik mədəniyyətini, peşəkarlıq səriştəliliyi və vətənpərvərlik motivasiyasının sabitliyi kimi amillərin müsbət rolunu göstərdi. Tarixin müxtəlif dövrlərində müxtəlif əhəmiyyət kəsb edən, permanent surətdə dəyişən siyasi, iqtisadi, sosial, müvəqqəti amillər Assosiasiyanın fəaliyyətininin effektivliyinə böyük təsir göstərmişdir. Bu zaman daimi kəmiyyət xarakteri daşıyan kulturoloji indikatorlar da xarici şəraitin dəyişməsi ilə qismən dəyişirdi.

Biz inkişaf prosesinin statikası və dinamikasını aşkar etməyə, insan münasibətlərinin gerçək məğzini, fikirlər, ideyalar və konsepsiyaları, Assosiasiyanın

daha tam və obyektiv fəaliyyət mənzərəsini yaratmağa yardım edən, düşünülmüş və yerinə yetirilmiş proqramlar və layihələrin əhəmiyyətini göstərməyə, Azərbaycanın ruhi mədəniyyətinin inkişafına onun verdiyi töhfəni layiqincə qiymətləndirməyə çalışmışıq. Bunun üçün tarixi, keyfiyyət, kəmiyyət, məntiqi, situativ, funksional, struktur, psixoqrafik, antropoloji, demoqrafik, komparativ və məkan təhlili metodlarından istifadə edilmişdir.

Tarixi yaxud genetik-tarixi təhlil, "Simurq" AMA-nın 25 illik mövcudluğu ərzində zəngin arxiv materiallarından istifadə edərək, ardıcıllıqla, mərhələ-mərhələ, müstəqil Azərbaycan Respublikası ilə həmyaşıd olan bu ilk qeyri-hökumət mədəniyyət təşkilatının təşəkkülü və inkişafı prosesini öyrənməyə imkan verdi.

"Simurq" AMA-nın fəaliyyətinin, kəmiyyət analizi və tədqiqatın etibarlılığını gücləndirən komponent kimi tətbiq edilən keyfiyyət təhlili, müəyyən tarixi zaman kəsiyində bu qeyri-hökumət təşkilatının məqsədlərini aydın və tam başa düşmək və yaradıcı fəaliyyətinin nəticələrini qiymətləndirmək imkanını verdi. O, təşkilatın işinin xarakterik xüsusiyyətləri və işinin səmərəliliyini göstərdi.

Əgər keyfiyyət tədqiqatı bizə müəyyən hadisələr və nəticələrin – seminarlar, konfranslar, kitablar, televiziya verilişləri, diskussiyalar, konsepsiyalar, həmçinin cəmiyyət tərəfindən Assosiasiyanın işinin qiymətləndirilməsi imkanını verdisə, keyfiyyət təhlili isə onun fəaliyyətinin bu və ya digər məzmunlu elementlərinin olması dərəcəsini müəyyən etməyə, bu təşkilatın keyfiyyət xarakteristikalarına, onun effektiv fəaliyyət qabiliyyətinə qiymət verməyə yardım etdi. Bu iki metodun vəhdəti bütöv tarixi hadisə kimi, Assosiasiyanın fəaliyyətinin ikiölçülü qiymətləndirilməsini verdi.

Funksional təhlil "Simurq" AMA-nın fəaliyyətinin mənasını, kredosunu (məslək, əqidə) və onun konseptual (ümumi baxışlar sistemi) görmə qabiliyyəti ilə, insanın həyat fəaliyyəti fəlsəfəsi ilə müəyyən olunan başlıca funksional vəzifələrini, əsas missiyasını, təşkilat mədəniyyətini, təşkilatın mahiyyət xarateristikalarını aşkar etməyə imkan yaratdı.

Struktur təhlil təşkilatın strukturunu, onun əsas komponentlərini, onların daxili əlaqəsini müəyyən etmək və qiymətləndirmək, onların keyfiyyət və kəmiyyət xarakteristikasını aşkar etmək, təşkilatın prinsipləri və fəaliyyət effektivliyi meyarlarını, nailiyyətləri və nöqsanlarını, çətinlikləri və gələcək təkmilləşmə imkanlarını müəyyən etmək imkanını verdi.

Antropoloji təhlil, canlı orqanizm kimi və ölkənin ilk qeyri-hökumət təşkilatı kimi, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının, onun fəaliyyət nəticələrinin, həmçinin "Simurq" AMA-nın mədəni-maarifçilik fəa-

liyyətinin əsasını qoyanları, müəllifləri və təşkilatçıları olan şəxsiyyətlərin, onların qabiliyyətləri, imkanları və Vətən qarşısındakı xidmətlərinin öyrənilməsi, dərk edilməsi və qiymətləndirilməsinə yardım etdi. O həmçinin, təşkilatın mədəni ənənələrini və onların gənclərə ötürülməsi mexanizmlərini, Assosiasiya üzvlərinin dünyagörüşünün inkişaf məğzini, dinamikasını və insan münasibətləri etikasını aşkar etməyə imkan verdi.

Psixoqrafik təhlil Assosiasiya üzvlərinin maraqlarını, onların fikirlərini və cəmiyyətdə davranış mədəniyyətini düzgün anlamağa yardım etdi. O, Assosiasiya üzvlərinin, respublikanın sosial-mədəni mühiti, Azərbaycan xalqının mədəni dəyərlər sistemi, insanların həyat tərzi, ənənələri, anadangəlmə mədəni keyfiyyətləri ilə şərtlənən motivləri və üstünlüklərini meydana çıxarmağa imkan yaratdı.

Situasiya təhlili "Simurq" AMA-nın fəaliyyətində güclü və zəif tərəfləri, imkanları və riskləri öyrənməyə, həmçinin təşkilatın işinin effektivliyinə təsir göstərən konkret situasiyalar və ya dəyişən şəraitlərin düzgün başa düşülməsinə imkan yaratdı.

Demoqrafik təhlil Assosiasiyanın fəaliyyətinin statikası və dinamikasını onların demoqrafik ardıcıllığında və bu və ya digər şəraitin təsiri altında bu göstəricilərin dəyişməsini öyrənmək, Assosiasiya üzvlərinin yaşı, cinsi, təhsili, gəlir səviyyəsi, uzunömürlülüyü və digər indikatorları haqqında məlumat əldə etmək imkanını verdi.

Analoji qeyri-hökumət mədəniyyət strukturlarının fəaliyyəti kontekstində "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının xarakteri, xüsusiyyətləri, nailiyyətləri, nöqsanları, oxşarlıqları və fərqləri, fəaliyyət şəraiti və nəticələrinin nəzərdən keçirilməsi və daha yaxşı başa düşülməsi üçün tərəfimizdən komparativ (müqayisəli) təhlildən istifadə edilmişdir.

Məkan təhlili Assosiasiyanın vəziyyəti, cəmiyyətdə mövqeyi, əlaqələrini və Azərbaycanın regionları və beynəlxalq təşkilatlarla məkan münasibətlərini müəyyən etməyə yardım etdi.

"Simurq" AMA-nın fəaliyyətinin sistemli kulturoloji tədqiqi və onun daxili inkişaf qanunauyğunluqlarının düzgün başa düşülməsi məqsədilə, tərəfimizdən obyektiv nəticələrə aparıb çıxaran ardıcıl mühakimələrə əsaslanan məntiqi təhlildən də istifadə olunmuşdur.

Motivasiya amillərinin təhlili təsdiq edir ki, Assosiasiyanın bütün fəaliyyətinin əsasını: bir tərəfdən - milli mədəniyyətin ənənəvi inkişafının qorunması və yayılması, digər tərəfdən - dünyanın aparıcı ölkələrinin innovativ sosial-mədəni inkişaf təcrübəsinin sistemli kulturoloji təhlili və milli inkişaf praktikasında yaradıcı istifadəsi kimi ikiqat bir motiv təşkil edirdi.

Bu zaman həm Azərbaycanın milli-mədəni inkişaf tələbatları, həm də Qərbin və Şərqin qabaqcıl ölkələrində müharibədən sonrakı sosial-mədəni inkişaf uğurları, dünya kulturologiya elminin nailiyyətləri və dəyişdirici imkanları "Simurq" AMA-nın yaradılması üçün güclü stimul olmuşdur. Dünya mədəniyyəti və sivilizasiyası kontekstində Azərbaycan cəmiyyətinin inkişaf maraqları və tələbatlarının əsas elmi təhlil mühakimələrindən biri – 1988-ci ildə BMT və YUNESKO tərəfindən Mədəniyyətin inkişafının Ümumdünya Onilliyinin elan edilməsi oldu ki, bu, bəşəriyyətin inkişafında ruhi mədəniyyətin başlıca rolunun əhəmiyyətinin parlaq sübutu idi.

Bugün Assosiasiyanın fəaliyyəti, əvvəlki kimi, onun tərəfindən işlənib hazırlanmış tarixilik, məntiq və dialektika elmi prinsipləri, eyni zamanda 12 tədqiqat metodunun cəmini ehtiva edən sistemli yanaşma əsasında qurulur. Kulturologiyada ilk dəfə "Simurq" AMA tərəfindən Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi metodoloji innovasiya qismində istifadə edilmişdir.

Kulturoloji metodologiya və metodlardan istifadə edərək "Simurq" AMA, kulturoloji tədqiqatları, əhalinin təhsili və maarifini, mütəxəssislər üçün seminarlar, treninqlər, dəyirmi masalar və konfransları, dərs vəsaitləri, kitablar, broşürləri, "Simurq" Beynəlxalq kulturoloji jurnalını, televiziya və radio çıxışlarını daxil edən elmtutumlu layihələri həyata keçirir. Assosiasiyanın elmi nəticələri arasında – "kulturoloji piramida" universal metodu, "mədəniyyətin elmi tərifi", "mədəni insan", "mədəni inkişaf amilləri", "mədəniyyət sosial sistem kimi", "mədəniyyətin effektivliyi", "idarəetmə effektivliyi", "sosial-mədəni tərəqqi effektivliyi", "insan kapitalı inkişaf edən sistem kimi" və digər bu kimi innovativ formullar və anlayışları qeyd etmək lazımdır.

Assosiasiyanın kulturoloji metodologiyası və onun tərəfindən yaradılmış "kulturologiya piramidası" universal metodu, davamlı inkişaf maraqlarında insanın həyat fəaliyyəti mədəniyyətinin müxtəlif sahələrinin həm vəziyyətinin, həm də imkanlarının tədqiqi üçün effektiv oldu. Onlar tədqiqat predmeti, onun mahiyyəti, xüsusiyyətləri və inkişaf qanunları haqqında daha dolğun məlumat almağa, qoyulmuş vəzifələrin daha yaxşı həllinə, gələcəyin müsbət obrazı və proqnozlarının işlənib hazırlanmasına yardım edən tədqiqat metodları və idarəçilik texnologiyalarının cəmini seçməyə imkan verirdi. Universal metodun yüksək effekti, tarixən inkişaf etmiş dinamik, qarşılıqlı əlaqəli sosial sistem kimi, mədəniyyətin müxtəlif təkamül və inqilabi komponentlərini öyrənməyə imkan verən sistemli yanaşmanın üstünlüklərindən istifadə etmək sayəsində əldə edilir. Bu metod funksiyaların, daxili və xarici əlaqələrin, bir-birindən asılı məqsədlərin və ümumi inkişaf vektorunun, sis-

temin yüksək keyfiyyətini və davamlılığını təmin edən resurslar və texnologiyaların aydın şəkildə müəyyən edilməsinə səbəb olur. O, sosial-mədəni prosesin daimi və dəyişən kəmiyyətlərinin ölçülməsinə, ictimai tərəqqi maraqlarında innovativ inkişaf imkanlarının aşkar edilməsinə və mədəniyyətin tədqiq olunan sahəsində istifadəsinə yardım edir.

Mövcud olduğu bütün dövr ərzində "Simurq" AMA cəmiyyətdə universal elmi biliklər, dəyərlər və insanın həyat fəaliyyəti texnologiyalarının təkmilləşdirilməsi və milli insan kapitalının inkişafı üçün mühüm əhəmiyyət kəsb edən yüksək ruhi mədəniyyət standartlarının istehsalı və yayılması tarixi prosesinin fəal iştirakçısı olmağa səy göstərmişdir. Onun tərəfindən hazırlanan, ölkədə və xaricdə yayılan nəşrlər, keçirilən mühazirələr və seminarlar respublikada yüksək mədəniyyətli insanların "istehsalı" və "təkrar istehsalı"na, təhsilli və şüurlu vətəndaşların formalaşmasına, "biliklər cəmiyyəti" və "üçüncü sektor"un inkişafına yardım etmişdir. "Simurq" AMA-nın işləyib hazırladığı kulturoloji konsepsiyalar, formullar, təriflər və terminlər, innovativ kulturoloji tədqiqat metodologiyası və metodları Azərbaycan cəmiyyətinin "ruhi istehsalı" və mədəni sərvətinin bir hissəsi olmuşdur.

"Simurq" AMA-nın tədqiqat nəticələrinin yayım coğrafiyası onunla təmin edilir ki, onun nəşr etdirdiyi monoqrafiyalar – BMT, YUNESKO, ABŞ, Rusiya, Almaniya, Fransa, Yaponiya, Çin, Birləşmiş Krallıq, Norveç, Bolqariya, Avstriya, Macarıstan, Estoniya və digər ölkələrin kitabxanalarında istifadə olunur. Assosiasiya tərəfindən formulə edilmiş və beynəlxalq konfranslarda bəyənilmiş – qloballaşma, sürətli dəyişikliklər və zamanın çağırışları şəraitində mədəniyyətlərin dialoquna, "Homo Sapiens" tipli insandan "Homo culturalis" tipli insana keçidə yardım edən effektiv metod kimi, insanların akkulturasiyası və inkulturasiyası beynəlxalq proqramlarının işlənib hazırlanması və reallaşdırılması ideyası dünya mədəniyyəti üçün innovativ xarakterə malikdir.

Assosiasiyanın fəaliyyətinin nəticə etibarilə səmərəliliyi peşəkarlıqla, qoyulmuş məqsədlər, vəzifələr, istiqamətlər və iş prioritetləri ilə, eyni zamanda Vətənin rifahı naminə vicdanlı və təmənnasız yaradıcı əməklə şərtlənirdi. Gələcəyin müsbət obrazını və Azərbaycanın ruhi mədəniyyətinin xüsusiyyətlərini əldə rəhbər tutaraq, kulturologiya elminin sistemli yanaşması və nailiyyətlərinə əsaslanaraq, bütün bu illər ərzində Assosiasiya bilik, dərrakə, gözəl hisslər və güclü iradə ilə zənginləşmiş yüksək mədəniyyətli insanların formalaşmasına yardım etməyə çalışmışdır. O, müxtəlif profilli mütəxəssislərin, yaşlı əhalinin, gənclərin və uşaqların həyat fəaliyyəti texnologiyaları və proseslərinin təkmilləşdirilməsi, dünya sivilizasiyasının qlobal-

laşma və permanent çağırışları şəraitində respublikanın sosial-mədəni inkişaf motivasiyası üçün yeni energetik imkanlar açan şüurun mütərəqqi dəyişikliyinə yardım etməyə səy göstərmişdir. Assosiasiyanın mühüm dinamik inkişaf gücü, onun mədəni təşəbbüslərinin daşıyıcısı və təşkilatçısı, yaşlı nəsil nümayəndələri ilə yanaşı, universal kulturoloji biliklərin inkişaf etdirilməsi və yayılmasında fəal iştirak edən və cəmiyyətin geniş təbəqələrinin ruhi mədəniyyətinə pozitiv təsir göstərən gənclər idi.

"Simurq" AMA-nın fəaliyyəti üçün xarakterik olan mühüm xüsusiyyət, həll olunan problemlərin təhlilinə Azərbaycanın sosial-mədəni inkişaf tələbatları kontekstində sistemli elmi yanaşma idi. Bu innovativ yanaşma, zamanın çağırışları ilə diktə olunan və sivilizasiyanın inkişaf qanunauyğunluqları və dünya kulturoloji fikir nailiyyətlərinin hesaba alınmasına əsaslanan konsepsiyaların işlənib hazırlanmasında, məqsədlərin qoyuluşunda, strategiyaların hazırlanması və qərarların qəbulunda öz təcəssümünü tapırdı. O, mövcud resursların, müsbət və mənfi amillərin və fəaliyyət nəticələrinin təhlilini, hadisələr, faktlar və qərarların elmi şərhini, həmçinin qoyulmuş məqsədlərə nail olunması və "Simurq" AMA-nın missiyasının həyata keçirilməsini təmin edən daha effektiv fəaliyyət formalarının situativ seçimini özündə ehtiva edirdi. Bu zaman intellektual yaradıcılıq məhsulları, Assosiasiyanın, bir qayda olaraq, novator xarakterə malik monoqrafiyaları və dərs vəsaitləri yalnız respublika alimləri, siyasətçiləri, müəllimləri və tələbələri tərəfindən geniş surətdə istifadə edilmirdi, həm də xarici ölkələrdə müsbət mənimsənilirdi. Belə ki, 2000-ci illərdə strukturuna və məzmununa görə ilk dəfə "Simurq" AMA tərəfindən hazırlanmış, cəmdə "kulturoloji üçlüyü" təşkil edən fundamental kulturoloji əsərlər üç beynəlxalq akademiya tərəfindən tanınmışdır. Eyni zamanda bu əsərlər BMT, YUNESKO, Avropa Şurası, Rusiya, Almaniya, Fransa, Avstriya, Çin, Yaponiya, Kuba və dünyanın digər ölkələrinin kitabxanalarında istifadə olunmağa başlanmışdır.

"Simurq" AMA-nın bir çox layihələri innovativ xarakter daşıyır və "ilk dəfə" nişanəsi ilə həyata keçirilirdi. Assosiasiya tərəfindən ilk dəfə Azərbaycanda Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin yaradılması modeli işlənib hazırlanmış, milli və dünya mədəniyyəti və sivilizasiyasının tarixi və nəzəriyyəsi məsələlərinə həsr olunmuş "Simurq" Beynəlxalq kulturoloji jurnalı respublikada ilk dəfə nəşr olunmağa başlanmışdır. Respublikada intellektual və etik mədəniyyətin inkişafına yardım məqsədilə, alimlər, müəllimlər, tələbələr, mütəxəssislər, incəsənət xadimləri, siyasətçilər və məmurlar, həmçinin əhalinin müxtəlif kateqoriyaları və "Simurq" AMA-nın gəncləri üçün respublikada ilk dəfə "Mədəniyyət və cəmiyyət" ümumi adı altında respublika və

beynəlxalq konfranslar və seminarlar keçirilməyə başlandı. Assosiasiyanın mövcud olduğu zaman ərzində Azərbaycan Milli Elmlər Akademiyası, ali məktəblər, muzeylər, respublika nazirlikləri və idarələrinin istehsal resurslarından istifadə etməklə, elm, təhsil, incəsənət və iqtisadiyyatın müxtəlif sahələrinin ekspertləri, həmçinin xarici mütəxəssislər və diplomatların iştirakı ilə 300-dən artıq kulturoloji seminarlar, konfransalr, dəyirmi masalar hazırlanmış və keçirilmişdir. Alimlər, müəllimlər, mütəxəssislər, incəsənət xadimlərinin, məmurların, KİV, QHT, yaradıcı ittifaqların üzvləri və istedadlı gənclərin iştirak etdiyi bu seminarlar haqqında informasiya, respublika və xarici ölkələrin əhalisinin geniş əhatə edilməsi ilə, kütləvi informasiya vasitələri və internet səhifələrində yayılırdı.

Respublikanın çoxmilyonlu televiziya tamaşaçıları və diaspor üçün Azərbaycan dövlət televiziyasında 2010-2014-cü illərdə ilk dəfə, elm, təhsil, idarəetmə, incəsənət, iqtisadiyyat, siyasət, turizm, beynəlxalq münasibətlər sahəsində və insanın həyat fəaliyyəti mədəniyyətinin digər sahələrində ekspertlərin iştirakı ilə "İdrak" stasionar kulturoloji verilişi aparılmışdır. Respublikada və xaricdə yüksək reytinqə malik bu verilişlər, cəmiyyətin və Azərbaycanın ayrı-ayrı vətəndaşlarının akkulturasiyası və inkulturasiyasına, xalqın intellektual və etik mədəniyyətinin tərəqqisinə, başlıca milli sərvətin – insan kapitalının formalaşması və inkişafına ciddi töhfə olmuşdur. Özünün 20 ildən artıq yaradıcı fəaliyyəti dövründə Assosiasiya, milli mədəniyyətin modernləşdirilməsi, kulturologiya elmi, təhsili və maarifinin inkişafına yönəldilmiş mədəni təşəbbüslər və elmi əsaslanmış kulturoloji tövsiyələrlə dəfələrlə çıxış etmişdir. Respublikada kulturologiya sahəsində namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə Şuranın yaradılması təşəbbüsü də ona məxsusdur.

Azərbaycan cəmiyyəti tərəfindən mədəniyyət fenomeninin getdikcə artan elmi anlamı, onun strukturu, funksiyaları, xüsusiyyətləri, qanunauyğunluqları, texnologiyalarını, başlıca hərəkətverici qüvvələri və qeyri-məhdud kreativ imkanlarını bilmə – insanların həyatının effektivliyini və keyfiyyətini dəfələrlə artırır, Azərbaycan xalqının intellektual və etik mədəniyyətinin səviyyəsini, beynəlxalq nüfuzunu yüksəldir. "Simurq" AMA fəxr edə bilər ki, 2000-ci illərdə özünün kulturoloji tədqiqatalrı ilə o, Azərbaycan Respublikasının milli dövlət idarəçiliyi sisteminin formalaşdırılması ilə bağlı strateji dövlət vəzifəsinin həllinə layiqli töhfə vermişdir.

Assosiasiyanın elmi nüfuz və beynəlxalq mədəni əlaqələr arealı (yayılma sahəsi) bizi sevindirməyə bilməz. Xatırlatmaq kifayətdir ki, Assosiasiya nümayəndələrinin 1991-ci ildə Kosta-Rikaya səfəri, onlar tərəfindən Azərbaycan xal-

qının zəngin ruhi mədəniyyət nailiyyətləri və dəyərlərinin təbliği, - bu uzaq Mərkəzi Amerika ölkəsinin Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkələrdən biri olmasına yardım etdi. "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının üzvləri fəxr etməyə bilməzlər ki, xalqımızın və dövlətimizin tarixi nailiyyətlərinin bu beynəlxalq tanınmasında Assosiasiyanın, xalq diplomatiyası sahəsində onun vətənpərvər səylərinin də müəyyən rolu olmuşdur.

"Simurq" AMA-nın elmi strategiyasının hazırlanması və reallaşdırılmasında Assosiasiyanın rəyasət heyəti üzvləri, ekspertləri və fəallarına, həmçinin Azərbaycan Kulturoloqlar Cəmiyyətinin üzvlərinə – alimlər, müəllimlər, mütəxəssislər, incəsənət xadimləri, həkimlər, jurnalistlər, artistlərə, tələbə gənclərə məxsusdur. Müxtəlif illərdə Milli Elmlər Akademiyasının akademikləri və müxbir üzvləri – Eldar Salayev, Asəf Nadirov, Maqsud Əliyev, Tofiq Əliyev, Fuad Qasımzadə, Urxan Ələkbərov, Mikayıl Useynov, Bəkir Nəbiyev, Aslan Aslanov, İqrar Əliyev, Kərim Kərimov, Rasim Əfəndiyev, Mahmud Kərimov, Cəmil Quliyev, Tofiq Nağıyev, Ziyad Səmədzadə, Nizami Cəfərov, Rəna Məmmədova, beynəlxalq elmlər akademiyalarının akademikləri – Arif Əziz, Fuad Salayev, Namiq İsmayılov, Ramiz İsgəndərov, Şahlar Əsgərov, diplomat Rəsul Məlikov, ilahiyyatçı Hacı Sabir Həsənli, politoloq Svetlana Bayramova, əməkdar mədəniyyət işçiləri – Namiq Hüseynov, Rafiq Kaşanlı, əməkdar müəllim Tahir Behbudov, xalq rəssamları – Kazım Kazımzadə, Ağaəli İbrahimov, xalq şairləri – Nəriman Həsənzadə, Nəbi Xəzri, xalq artisti Vasif Babayev, professorlar – Əli Rəcəbli, Solmina Dadaşova, Əli Abbasov, Faiq Ələsgərov, Rafiq Y. Əliyev, Rəfael Məmmədov, Hüseynağa Hüseynov, Rafiq Zeynalov, Cahangir Qəhrəmanov, Rəhim Rəhimov, Camo Hacınski, Azad Abbaszadə, Rövşən Salmanzadə, Hicran Hüseynova, Elmira Süleymanova, Həbib Zərbəliyev, Bəhruz Abdullayev, İsrafil İsrafilov, Tofiq Rzayev, Fərman İsmayılov, Eldar Abbaszadə, Kamil Səlimov, Oqtay Əfəndiyev, Fəqan Əliyev, Əsədulla Qurbanov, Elman Nəsirov, Oqtay Əliyev, Musa Quliyev, Oqtay Abasquliyev, dosentlər – Sevda Əlizadə, Əli Məsimov, Firudin Əhmədov, Fidan Fərəcova, Mübariz Süleymanlı, Taliyə Məmmədova, Firdövsiyə Əhmədova, Mustafa İsgəndərzadə, Assosiasiyanın departament rəhbərləri – Anar Cəfərov, Tamerlan Dəmirbəyli, "Simurq" AMA-nın mətbuat katibi Şəlalə Kəsəmənli, gənc kulturoloqlar – Vüqar Kərimli, Ceyhun Rzayev və b. Assosiasiyanın təsis edilməsi, təşəkkülü və inkişafında pozitiv rol oynamışlar. Assosiasiyanın yaradılmasının təşəbbüskarları arasında – Cavid Kərimov, Əli Rəcəbli, Aqil Əhmədzadə, Heydər Məmmədəliyev, Mirhəmzə Əfəndiyev, Zaur Kəsəmənli, Namiq Səfərəliyev, Asif Əliyev, Rəfael Ələkbərov var idi.

“Simurq” AMA-nın yaradıcı fəaliyyətini qiymətləndirərkən, onun vitse-prezidentləri – Maqsud Əliyev, Asəf Nadirov, Arif Əziz, Kazım Kazımzadə, Urxan Ələkbərov, Sevda Əlizadə, Fuad Qasımzadə, Tofiq Nağıyev, Rəsul Məlikov, Hacı Sabir Həsənli, Namiq Hüseynov, Rafiq Y. Əliyev, Oqtay Rəcəbov, Rauf Muqimov, Namiq İsmayılov və b. xidmətlərini xüsusi qeyd etmək istərdik. Assosiasiyanın təşəkkül tapmasında və onun işinin təşkilində - Cavid Kərimov, Yaqub Kərimov, Valeri Əfəndiyev, Fərid Məmmədov, Etibar Dəmirov, Sevda Əlizadə, Vladislav İqnatyev, Gülnarə Ağayeva, Səmən İtkin, Leonid Muzıkantski, Aydın Kazımzadə, Namiq Hüseynov, Ağazəki Məlikov, Anar Cəfərov, Tamerlan Dəmirbəyli, Şəlalə Kəsəmənli, Həmidə Quliyeva, Elqar Bağırov, Timur Süleymanzadə, Arif Əsgərov, Elnur Süleymanov, Lalə Məmmədsalahova, Samirə Abdullayeva və b. daha fəal rol oynamışlar.

Yüksək ruhi mədəniyyət - ictimai tərəqqinin kompleks sosial gücü və mahiyyəti, dünyanın mütərəqqi xalqları və dövlətlərinin yaradılması vasitəsi və inkişaf məqsədidir. Bu - bəşəriyyətin sosial fəallığının artması, həyat rifahı və keyfiyyəti, demokratik yeniləşmə, Qərb və Şərq sivilizasiyalarında humanist ənənələrin zənginləşməsi və həyat tərzinin təkmilləşdirilməsi üçün yeni imkanların universal mənbəyidir.

XXI əsrin humanist sivilizasiyasının formalaşması şəraitində, dünya xalqlarının demokratiya, azadlıq və mədəni plüralizm əsasında mədəni əməkdaşlıq üçün daha artıq səy göstərdiyi bir zamanda, dünya mədəniyyəti və sivilizasiyasının inkişaf tarixi, nəzəriyyəsi və praktikasının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Kulturologiyanın əsaslarını bilmək ətraf mühit haqqında insanların təsəvvürlərini müqayisə edilməz dərəcədə genişləndirir, təfəkkür tərzi və davranışı müəyyən edən dəyər oriyentasiyalarının düzgün formalaşmasına yardım edir, obyektiv həyat fəaliyyəti qanunları və *Homo sapiens* növünün yaranmasından bizim günlərədək insanın inkişafının dərk edilməsi ilə yaraqlandırır. Bu biliklərin nəticələri ruhi və maddi istehsalın, idarəetmə və beynəlxalq münasibətlər mədəniyyətinin, həmçinin müxtəlif millətlər və mədəniyyətlərin qarşılıqlı anlaşması, psixoloji uyğunluğunun artmasını təmin edən mədəni universallar, etalonlar, ideallar və dəyərlərin yeni üsullarının əldə edilməsinə imkan yaradır. Bu vəzifənin praktik həyata keçirilməsi zamanın çağırışlarına uyğun olaraq milli mədəniyyətlərin modernləşməsi, onların düzgün harmonizasiyasına, həmçinin səmərəli beynəlxalq əməkdaşlıq, müasir dövrün bir çox iqtisadi, siyasi və beynəlxalq problemlərinin effektiv həlli üçün yeni imkanlar açır.

*Universitetin baza ideyaları* – muxtariyyət, təhsil, tədqiqat və maarifin vəhdəti, demokratiya və vətəndaş cəmiyyəti mədəniyyəti, ictimai həyata fəal surətdə daxil olma, ruhi və maddi istehsalın əsası kimi, bilik və savadlılıq keyfiyyətlərinin etik əsaslandırılması, həyat rifahı və keyfiyyətinin yüksəldilməsi.

*Universitetin məqsədi və vəzifələri*

Universitetin əsas məqsədi – Azərbaycan Respublikası, xarici ölkələr və beynəlxalq təşkilatların inkişaf tələbatlarını təmin etmək üçün, beynəl-

xalq tələblər səviyyəsində universal kulturoloji bilikli, peşəkar vərdişli və dünyagörüşlü yüksək ixtisaslı ekspertlərin hazırlığı, tərbiyəsi və yenidən hazırlığıdır.

Universitet yüksək intellektual və mənəvi dəyərlərin istehsalı, istifadəsi və ötürülməsini, mədəniyyətlərin harmonizasiyası və birləşməsinə yardım, tələbələrin təlim prosesində həm milli, həm də ümumbəşəri mədəni dəyərlər əsasında tərbiyə olunmuş şəxsiyyətlər "istehsal" edən dünyanın aparıcı universitetləri ilə dialoqlara və əlaqələrə nail olmağı planlaşdırır. O:

- Tarixi zamanın tələbatları və çağırışlarına uyğun olaraq, dövlət sisteminin idarəetmə və istehsal strukturunun, insanların həyat fəaliyyəti texnologiyaları və beynəlxalq münasibətlər infrastrukturlarının modernləşdirilməsinə;
- Mədəniyyətlərin və sivilizasiyaların münaqişəsinin qarşısının alınması və aradan qaldırılmasına;
- Beynəlxalq sosial-mədəni əməkdaşlığın inkişafına;
- Zaman və məkan daxilində insanın inkişafının proqnozlaşdırılmasına -

qabil ekspert-kulturoloqların hazırlığını həyata keçirmək iqtidarındadır.

Universitetin əsas vəzifələri:

λ dünya elmi, təhsili və mədəniyyətinin nailiyyətləri əsasında müasir mütəxəssislərin hazırlanması;

λ dünyanın demokratik ölkələrinin mədəni dəyərlər sistemi və inkişaf təcrübəsinin yaradıcı istifadəsi əsasında milli mədəniyyətin modernləşməsinə yardım etmə;

λ demokratik ölkələrin nailiyyətləri və beynəlxalq normalara uyğun olaraq, intellektual, etik, hüquq, siyasi, idarəetmə, iqtisadi, tibbi və ekoloji mədəniyyətin inkişafına yardım;

λ davamlı sosial-mədəni inkişafa, yoxsulluğun və rüşvətxorluğun aradan qaldırılmasına, sənaye və informasiya cəmiyyətinə keçidə nail olunması;

λ sülh mədəniyyətinin qurulması və sivilizasiyaların dialoqunun inkişafı, münaqişələrin həlli və terrorçuluğun qarşısının alınması;

- λ vətəndaş cəmiyyəti mədəniyyətinin inkişafı;
- λ milli, regional və qlobal sosial-mədəni inkişafın mühüm proqramları üzrə kulturoloji ekspertizaların həyata keçirilməsi;
- λ milli və beynəlxalq xarakterli düzgün siyasi, sosial, etik-hüquqi və iqtisadi qərarların elmi təminatı məqsədilə kulturoloji tədqiqatların aparılması;
- λ dövlətin davamlı və təhlükəsiz inkişaf maraqlarına cavab verən effektiv təhsil və səhiyyənin inkişafına yardım;
- λ anadangəlmə qabiliyyətlərinə uyğun olaraq, professional təlimi üçün istedadlı uşaqların kulturoloji hazırlığı və selektiv seçimi.
- λ xalqın ümumi mədəni səviyyəsinin artmasına yardım edən müasir sivilizasiyanın nailiyyətləri və tendensiyalarına uyğunluqda kulturoloji maarifçiliyin inkişafı.

*Universitet özünün məqsədləri və vəzifələrinin reallaşdırılması üçün:*

- ➢ Azərbaycan Respublikası və demokratiya yolunu tutmuş digər ölkələrin inkişaf maraqlarında demokratik ölkələrin proqressiv inkişaf təcrübəsinin məqsədyönlü sistemli öyrənilməsi və yaradıcı istifadəsi;
- ➢ müxtəlif ölkələrin və xalqların mədəni irsinin öyrənilməsi və mədəniyyətlərin qarşılıqlı zənginləşməsi və harmonizasiyasına, beynəlxalq qarşılıqlı anlaşma və mədəni-iqtisadi əməkdaşlığa yardım edən mədəniyyətlərin yayılması;
- ➢ XXI əsrin humanist sivilizasiyasının formalaşması tələbatlarına cavab verən, ümumbəşəri dəyərlər və maraqlara yönəldilmiş mədəni universallar, etalonlar və inkişaf modellərinin işlənib hazırlanması;
- ➢ İnsanların ümumi mədəni səviyyəsinin fəal surətdə yüksəldilməsinə yönəldilmiş maarifçilik fəaliyyəti, elitar və kütləvi mədəniyyət arasındakı uyğunsuzluğun aradan qaldırılması, intellektual, etik, hüquq və idarəetmə mədəniyyətinin inkişaf prioritetləri əsasında Azərbaycan cəmiyyətinin modernləşməsinə yardım edən elmi dünyagörüşün yetişdirilməsi.

*Avropa universitetlərinin fəaliyyət təcrübəsini nəzərə alaraq, Dünya Mədəniyyəti Beynəlxalq Universiteti nəzərdə tutur:*

λ humanitar və ictimai elmlər sahəsində novator işləmələr üçün müsabiqələrin təşkil edilməsi;

λ müxtəlif ölkələr və xalqların nümayəndələrinin birgə həyatı, təlimi və yaradıcı fəaliyyətinin təşkil edilməsi;

λ aspiranturada təhsil zamanı aspirantların dərs verməsi;

λ Qərbin və Şərqin aparıcı ali məktəblərinə təcrübə keçməsinin təşkil edilməsi;

λ birbaşa müqavilələr əsasında ayrı-ayrı tələbələrin xarici ali məktəblərdə bilavasitə təhsil alması;

λ Alimlik dərəcələrinin və beynəlxalq tələblərə cavab verən mütəxəssislərin hazırlanması effektivliyinin yüksəldilməsinin digər formalarının dünyanın aparıcı ali məktəbləri ilə birlikdə verilməsi.

- *Təlimin metodoloji əsası:*

Təlimin metodoloji əsası – insanın və bəşəriyyətin yaradıcı həyat fəaliyyəti haqqında elm – kulturologiyadır. Tarixilik prinsipini məntiq, dialektika, qnoseologiya və ontologiya metodları ilə özündə birləşdirən və bütöv sosial sistem olan mədəniyyətin strukturu, arxitektonikası və daxili əlaqələrini aşkar etməyə imkan verən sistemli kulturoloji yanaşma, onun fəaliyyət prosesi və genezisini izləməyə şərait yaradır.

Universal metodoloji meyarların istifadəsi mədəniyyətin tələbələr tərəfindən, müasir elmin ən effektiv üsulu olan problemli yanaşma əsasında kompleks öyrənilməsi imkanını verir. Kulturoloji metodologiya ictimai və dövlət həyatının, həmçinin beynəlxalq əməkdaşlığın müxtəlif sahələri üçün yüksək təşkiletmə və idarəetmə mədəniyyətinə malik şəxsiyyətlər və ekspertlərin düzgün formalaşmasına imkan yaradır.

- *Universitetin fəaliyyət prinsipləri*

1. Elmi dərketmə
2. Sistemli kulturoloji yanaşma, fənlərarası yaxınlaşma
3. Təlim, tədqiqatlar, praktika və maarifin vəhdəti
4. Demokratiya və şəxsiyyət azadlığı
5. Xalqların humanizmi, qarşılıqlı hörməti, bərabərliyi və həmrəyliyi
6. Vətənpərvərlik və beynəlmiləlçilik
7. Yeniliklər uğrunda mübarizə
8. Kollektiv üzvlərinin psixoloji və maddi rahatlığı
9. Təlimin muxtariyyəti

- *Yenilik*

Universitet, dünya mədəniyyəti və sivilizasiyasının tarixi, nəzəriyyəsi və praktikasının dərindən və kompleks şəkildə öyrənilməsi, mədəniyyətin müasir sistemli təhlil metodlarına yiyələnmə, hüquqi demokratik dövlətin uyğun institutlarının praktik təşkili və idarəçiliyinin elmi əsaslarının mənimsənilməsi əsasında, ilk dəfə olaraq, müxtəlif profilli ekspertlərin geniş kulturoloji hazırlığını nəzərdən keçirir.

- *Universitetin əsas struktur komponentləri*

Universitet kulturoloji təhsil, tədqiqat və maarif Beynəlxalq Mərkəzini ifadə edir. O özündə ehtiva edir:

1. Məktəbəqədər təhsil departamenti
2. Dünya mədəniyyəti gimnaziyası
3. Universitetə daxil olanlar üçün kurslar
4. Ali universitet təhsili (bakalaviatura)
5. Magistratura
6. Aspirantura
7. Kulturoloji tədqiqatlar mərkəzi
8. Kulturoloji maarifləndirmə mərkəzi

- *Universitetin tədris fakultələri:*

1. Kulturologiya və beynəlxalq münasibətlər fakultəsi
2. Beynəlxalq hüquq və idarəçilik fakultəsi
3. Dünya iqtisadiyyatı və beynəlxalq ticarət fakültəsi
4. İnsanın və təbiətin ekologiyası fakültəsi
5. Beynəlxalq jurnalistika və informasiya texnologiyaları fakültəsi
6. Qeyri-hökumət təşkilatları fakültəsi
7. İkinci kulturoloji təhsil fakültəsi

- *Gözlənilən nəticələr və ekspertlərin istifadə sahələri.*

Gözlənilən nəticələr universitetin mədsədyönlülüyü ilə şərtlənir:

✓ Qloballaşma şəraitndə dünyanın inkişaf tendensiyaları və tələbatlarını, həmçinin Azərbaycanın milli-mədəni inkişaf xüsusiyyətlərini nəzərə alan, Azərbaycan üçün qeyri-ənənəvi olan kulturoloji təlim, ixtisaslar və tədris fənləri kompleksinin interaktiv formalarının seçilməsi əsasında təhsilin yeni keyfiyyətinə nail olmağa;

✓ Tədris prosesinin yeni təşkiletmə və idarəetmə formaları-

nın axtarışına, bu prosesə ən yaxşı Azərbaycan və xarici alimlərin və mütəxəssislərin cəlb edilməsinə.

Ehtimal olunur ki, universitetin fəaliyyəti, onun layihələri və proqramlarının reallaşdırılması sosial-mədəni sahədə, o cümlədən, ruhi mədəniyyətdə, iqtisadiyyat və idarəçilk sistemində struktur cəhətdən yenidənqurmaya, bazar prinsiplərinə əsaslanan yeni təsərrüfat mexanizmlərinin təkmilləşdirilməsinə, dövlətin demokratik və hüquqi təşkilat və idarəçilk prinsiplərinin bərqərar olmasına, beynəlxalq mədəni-iqtisadi əməkdaşlığın genişlənməsi və dərinləşməsinə yardım edəcəkdir. Universitetin məzunları, beynəlxalq tələblərə cavab verən ekspertlər, Azərbaycanın dövlət və qeyri-hökumət institutlarında, həmçinin xarici ölkələr və beynəlxalq təşkilatlarda - təhsil, elm, maarif, incəsənət, mədəni irs, hüquq, idarəetmə, iqtisadiyyat, ekologiya, beynəlxalq əlaqələr, informasiya texnologiyaları və mətbuat sahəsində işləmək üçün istifadə oluna bilər.

Layihənin reallaşdırılması mütərəqqi dövlətlərin inkişafı, sosial sabitliyi və təhlükəsizliyinin əsasını təşkil edən intellektual və etik mədəniyyətin qabaqlayıcı inkişafını təmin etməyə səbəb olacaqdır.

λ *Layihə 1990-cı ildə hazırlanmış, yenidən işlənmiş, 1995-ci ildə tanınmış alimlər, mütəxəssislər və diplomatlar tərəfindən dəstəklənmiş və bəyənilmişdir. Bakıda "Simurq" Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin təsis edilməsi haqqında 10 mart 1995-ci il tarixli qərarı 107 tanınmış dövlət və ictimai xadimlər, alimlər, mütəxəssislər, müəllimlər, incəsənət xadimləri, yaradıcı təşkilatların rəhbərləri, Azərbaycan və xarici diplomatlar imzalamışlar.*

## Azərbaycanda mədəniyyətin modernləşdirilməsi üzrə tövsiyələr 2000-2005-ci illər

*Qloballaşma şəraitində Azərbaycan Respublikasının milli maraqlara cavab verən Azərbaycan cəmiyyətinin modernləşdirilməsi məqsədilə, dünya inkişaf təcrübəsinin sistemli təhlili əsasında, 90-cı illərin ortalarında "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası, Azərbaycanın ruhi mədəniyyət sistemində intellektual, etik, idarəetmə və hüquq mədəniyyətinin prioritet inkişafına yardım edən, və milli qanunvericilikdə uyğun innovasiyalarla dəstəklənməni tələb edən sosial-mədəni layihələr və tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsini nəzərdə tutan aşağıdakı tövsiyələri formulə etdi.*

- Hökumət, Milli Məclis, qeyri-hökumət təşkilatları, yaradıcı və həmkarlar ittfaqları, bələdiyyələr və müstəqil ekspert-kulturoloqların nümayəndələrindən ibarət Mədəniyyət üzrə Dövlət Şurasının yaradılması.
- Azərbaycanda kulturologiyanın elm və tədris fənni kimi institutlaşdırılması, bütün səviyyələrdə məktəblərdə ümumi və xüsusi kulturoloji təhsilin inkişafı üçün şəraitin və prioritetlərin hüquqi şərtləri.
- Ziyalıların, ilk növbədə, müəllimlərin və həkimlərin ictimai statusunun və sosial təminat səviyyəsinin yüksəldilməsi.
- Bakıda Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin açılması.
- Milli Elmlər Akademiyasının tərkibində Kulturologiya İnstitutunun yaradılması.
- Bakıda kulturologiya üzrə namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üzrə fənlərarası Dissertasiya Şurasının yaradılması.
- Mədəniyyətin inkişafının Milli Onilliyinin hazırlanması və keçirilməsi.
- Ölkənin ali məktəblərinin qəbul imtahanlarına mədəniyyətin tarixi və nəzəriyyəsi üzrə testlərin daxil edilməsi.
- Azərbaycanın bütün ali məktəblərinin tədris proqramlarına "Mədəniyyətin tarixi və nəzəriyyəsi" (kulturologiya) fənninin, 72 saat həçmindən az olmayaraq, daxil edilməsi.
- Respublikanın ali məktəblərində milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi kafedraları, laboratoriyaları və kabinetlərinin açılması.
- Orta məktəblərin və ibtidai təhsil sisteminin tədris proqramı-

na mədəniyyətşünaslıq fənninin daxil edilməsi.

- Bakıda və Azərbaycanın regionlarında ixtisaslaşdırılmış Məktəblərin yaradılması.
- Bütün səviyyələrdə dövlət qulluqçuları üçün əmək və idarəetmə mədəniyyəti üzrə kulturoloji treninqlərin təşkil edilməsi.
- Məişət, istehsal, etik, hüquq, millətlərarası, siyasi və sosial mədəniyyətin yüksək standartlarının formalaşmasına yardım edən, əhalinin akkulturasiyası və inkulturasiyası xüsusi proqramının işlənib hazırlanması və reallaşdırılması.
- Respublika televiziyasında, əhalinin ümumi mədəni səviyyəsinin artırılmasına, milli və dünya mədəniyyəti tarixi, nəzəriyyəsi və praktikası sahəsində cəmiyyətin elmi biliklərinin artırılmasına yönəldilmiş "Mədəniyyət və cəmiyyət" xüsusi kulturoloji maarifləndirici proqramın açılması.
- Azərbaycanın rayonlarında demokratik mədəniyyət mərkəzlərinin yaradılması.
- Fəaliyyətlərin koordinasiyası və dövlət strukturları və qeyri-hökumət təşkilatlarının ümummilli maraqlarda səmərəli əməkdaşlığının həyata keçirilməsi məqsədilə, təhsil və mədəniyyət üzrə milli hesabatların surətlərinin kulturologiya və mədəni siyasət problemlərinin işlənib hazırlanması ilə məşğul olan aparıcı qeyri-hökumət təşkilatlarına göndərilməsi.
- Azərbaycan mədəniyyətinin modernləşməsi proseslərinin permanent kulturoloji ekspertizası və milli monitorinqinin aparılması.

*2000-2005-ci illərdə tövsiyələr ABŞ, Rusiya, Norveç, Fransa, Yaponiya ekspertlərinin iştirakı ilə, bir sıra respublika və beynəlxalq kulturoloji seminarlar və konfranslarda, Milli Elmlər Akademiyasının Rəyasət heyəti və ictimai elmlər şöbəsinin, Azərbaycan Kulturoloqlar Cəmiyyətinin, Vətəndaş cəmiyyəti mədəniyyətinin iclaslarında müzakirə edilmiş və bəyənilmişdir.*

**“Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafı”**

**Bakı kulturoloji konfransı iştirakçılarının**

## BƏYANNAMƏSİ
## 2011- ci il

Biz, 24 dekabr 2011-ci ildə Bakıda keçirilmiş “Kulturologiya və Azərbaycanda insan kapitalının inkişafı” Bakı kulturoloji konfransının iştirakçıları, – Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev tərəfindən irəli sürülmüş milli strateji resurs olan insan kapitalının inkişafı məsələsini əldə ***rəhbər tutaraq*** və qloballaşma şəraitində onun tam düzgün və vaxtında olduğunu ***təsdiq edərək***;

- Azərbaycanda iqtisadiyyatın inkişafında keçid dövrünün başa çatmasını və ruhi mədəniyyətin, ilk növbədə - intellektual, etik, hüquq və idarəetmə mədəniyyətinin qabaqlayıcı inkişafına istiqamət alınmasını ***qeyd edərək;***

- dövlətin Azərbaycanda sosial-mədəni quruculuğa – elmin, təhsilin və səhiyyənin maddi bazasının möhkəmləndirilməsinə, mədəni irsin qorunması, urbanizasiya və şəhərsalma mədəniyyətinə, yoxsulluğun aradan qaldırılmasına, informasiya, bədii, iqtisadi və ekoloji mədəniyyətin, ailə, qadın, gənclər və uşaqların mədəniyyəti, fiziki tərbiyə, idman, turizm və mədəniyyətin digər sahələrinin inkişafına ciddi diqqət ayırdığını məmnunluq hissi ilə ***təsdiq edərək;***

- dünyanın inkişaf etmiş ölkələrinin “biliklər cəmiyyətinə” keçidi dövründə Azərbaycan Respublikasının modernləşdirilməsi üçün elmin, təhsilin və maarifin xüsusi əhəmiyyət kəsb etdiyini ***nəzərə çarpdıraraq;***

- insan kapitalının inkişafı milli məsələsinin, intellektual mədəniyyətin qabaqlayıcı inkişafına daha fəal yardım məqsədilə, ənənələr və innovasiya problemlərinin yenidən qiymətləndirilməsi zərurətinin respublika ziyalıları qarşısında irəli sürüldüyünü ***qeyd edərək;***

- dünyanın ümumi inkişaf tendensiyaları kontekstində sülhün, sabit inkişafın və beynəlxalq təhlükəsizliyin hər bir ölkədə əqli, ruhi, hüquq, idarəetmə və iqtisadi inkişaf səviyyəsindən birbaşa asılılıqda olması qanunauy-

ğunluğunu görməməyin mümkün olmadığını ***etifaf edərək;***

- effektiv həyat fəaliyyətinin, istehsal və idarəetmənin elmi əsaslanmış texnologiyalara tələbatının atrmasını ***nəzərə alaraq;***

- Azərbaycanın milli inkişafı üçün, qloballaşma şəraitində XXI əsrin aparıcı elmi paradiqması olan, insanın yaradıcı həyat fəaliyyəti haqqında elmin – kulturologiyanın yeni imkanlar açdığını ***qeyd edirik;***

- dünya sivilizasiyasında baş verən dialektik dəyişikliklərdən asılı olaraq, daimi təkmilləşdirilmə və korreksiya tələb edən müasir sosial-mədəni siyasət, dünya kulturologiya elminin nailiyyətlərinə lokal, milli və qlobal səviyyələrdə sistemli kulturoloji tədqiqatların nəticələrinə əsaslanmırsa, effektiv ola bilməyəcəyini ***təsdiqləyirik;***

- sosial və humanitar elmlərin sintezatoru olaraq, eyni zamanda, sistemli təhlilə əsaslanmış kulturoloji yanaşma əsasında ən mürəkkəb problemləri həll etməyə imkan verən, özünün universal metodologiyası və tədqiqat metodları və prinsiplərinin məcmusunu yaradaraq, kulturologiyanın onların nailiyyət və metodlarından istifadə etdiyinə ***diqqəti yönəldirik;***

- Azərbaycan kulturoloqlarının kitabları və elmi nailiyyətlərinin beynəlxalq tanınma qazandığını və xarici ölkələrdə istifadə edildiyini ***qeyd edirik;***

- insan kapitalının inkişafı, ölkənin modernləşdirilməsi, vətəndaşlarımızın rifahı və həyat keyfiyyətinin yüksəldilməsi, dövlətin davamlı inkişafı və təhlükəsizliyi üçün alimləri və siyasətçiləri kulturologiyanın qeyri-məhdud dəyişdirici imkanlarını bir daha təhlil etməyə və effektiv istifadə etməyə ***çağırırıq;***

- diskussiyalar və geniş fikir mübadiləsi çərçivəsində aşağıda qeyd olunan:

- Kulturologiyanın məzmunlu və metodoloji problemləri.
- İntellektual, etik, məişət və hüquq mədəniyyəti.
- Bədii mədəniyyət, mədəniyyət siyasəti, incəsənət və Azərbaycanın irsi mədəniyyəti. Ənənələr, adətlər və bayramlar.
- İdtisadi, siyasi və idarəetmə mədəniyyəti, jurnalistika və beynəlxalq münasibətlər mədəniyyəti.
- Tibbi, ekoloji, və dini mədəniyyət.

- Ailə, qadın, gənclər və uşaqların mədəniyyəti.
- Fiziki mədəniyyət, idman mədəniyyəti və turizm mədəniyyəti –

kulturoloji problemlərə toxunaraq və ya onları ***nəzərdən keçirərək,*** hazırkı kulturoloji konfransın Azərbaycanda insan kapitalının inkişafına daha effektiv yanaşmaları, ölkənin uzunmüddətli perspektivi üçün davamlı və təhlükəsiz inkişafın əsas resursu olan insan kapitalının inkişaf maraqlarına cavab verən həyat fəaliyyətinin prioritet istiqamətləri və texnologiyalarını nəzərdən keçirməyə imkan verəcəyini ***güman edirik.***

Konfransın:

- ✓ Azərbaycanın mədəniyyət tarixinin və mədəni irsinin öyrənilməsi, ölkənin milli-mədəni inkişaf qanunları, texnologiyaları və yeni kreativ imkanlarının başa düşülməsinin öyrənilməsi;
- ✓ Alimlər, mütəxəssislər, müəllimlər və incəsənət xadimləri ilə, həmçinin ölkənin dövlət və qeyri-hökumət strukturları arasında əməkdaşlığın inkişafı üçün yeni imkanlar açacağına ***ümid edirik***.

- Ölkənin sosial-mədəni və iqtisadi inkişafı sahəsində səmərəli fəaliyyətinə görə ölkə rəhbərliyinə minnətdarlığımızı ifadə edərək, Azərbaycanda insan kapitalının inkişafı üçün xüsusi əhəmiyyət kəsb edən elm və tədris fənni kimi, kulturologiyanın gələcək inkişaf problemlərinə hökumətin diqqətini cəlb etməyi ***zəruri hesab edirik.***

- hökuməti ali məktəblərdə kulturologiya kafedralarının açılması, orta məktəblərdə və məktəbəqədər müəssisələrdə mədəniyyətşünaslıq fənninin tədris olunmasının daxil edilməsi, Bakıda və Azərbaycanın regionlarında yeni kulturoloji mərkəzlərin açılması, respublikada Dünya Mədəniyyəti Beynəlxalq Universiteti və Kulturologiya Akademiyasının yaradılmasının məqsədəuyğunluğuna diqqət yetirməyə ***çağırırıq;***

- kulturologiya elmi, təhsili və maarifinin inkişafı, insanın həyat fəaliyyətinin yeni kulturoloji texnologiyaları və milli inkişafın sistemli kulturoloji modellərinin işlənib hazırlanması, Azərbaycanda ruhi və maddi mənəniyyətin tərəqqisinə, intellektual, etik, istehsal, iqtisadi, hüquq, idarəetmə, informasiya, bədii, tibbi, ekoloji mədəniyyətin gələcək yüksəlişinə, ölkənin rəqabətə davamlılıq və təhlükəsizlik səviyyəsinin artırılmasına

yardım edəcəyinə ***ümid edirik;***

- Azərbaycanda milli və dünya mədəniyyətinin sosial-mədəni inkişaf təcrübəsinin öyrənilməsinə yardım edən intellektual mədəniyyətin qabaqlayıcı inkişafına və onun nailiyyətlərinin ölkənin milli maraqlarında praktik istifadəsinə imkan verən milli və beynəlxalq kulturoloji konfranslar, simpoziumlar və forumların müntəzəm olaraq keçirilməsi zəruriliyinə ***inamımızı ifadə edirik***.

Bu bəyannamənin bəyənilməsini və Azərbaycanda insan kapitalının inkişafına yardım məqsədilə ondan istifadə edilməsini ***zəruri hesab edirik***.

**“Azərbaycan 2020: gələcəyə baxış” Dövlət Konsepsiyası üçün ”Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının TƏKLİFLƏRİ 2012-ci il**

*(28 yanvar 2012-ci ildə “Mədəniyyət və Azərbaycanın gələcəyi” kulturoloji seminarında qəbul edilmişdir)*

Qloballaşma şəraitində davamlı inkişaf və beynəlxalq təhlükəsizlik hər bir ölkədə əqli, mənəvi, hüquq, idarəetmə və iqtisadi mədəniyyətin inkişaf səviyyəsindən birbaşa asılıdır. Effektiv həyat fəaliyyəti, istehsal və idarəetmənin elmi əsaslanmış texnologiyalara tələbatlarının artması respublikamız üçün də qanunauyğundur.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev tərəfindən irəli sürülən, strateji milli resurs olan insan kapitalının inkişaf etdirilməsi vəzifəsini əldə rəhbər tutaraq və dünyanın mütərəqqi ölkələrinin “biliklər cəmiyyəti” və “biliklər iqtisadiyyatı”na keçid dövründə Azərbaycan Respublikasının modernləşdirilməsi üçün elmin, təhsilin və maarifin xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, respublikanın mövcud intellektual potensialının milli inkişaf maraqlarında daha effektiv istifadəsinə xüsusi diqqət yetirmək məqsədəuyğundur.

Azərbaycanın milli inkişafı üçün Azərbaycan elmində yeni istiqamət – insan kapitalının inkişafı, şəxsiyyətlər və liderlərin hazırlanması, ölkənin modernləşməsi strateji problemlərinin həlli üçün əvəzsiz elmi, metodoloji və praktik əhəmiyyətə malik olan kulturologiya yeni imkanlar açır. XXI əsrin aparıcı elmi paradiqması olan bu elmin qabaqlayıcı inkişafına gələcək yardım – vətəndaşlarımızın həyat rifahı və keyfiyyətinin yüksəldilməsinə, dövlətin davamlı və təhlükəsiz inkişafı üçün onun qeyri-məhdud dəyişdirici imkanlarından effektiv istifadə etməyə imkan verər.

Demokratik ölkələrin inkişaf təcrübəsinin çoxillik kulturoloji tədqiqatları “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının, aşağıda qeyd olunan, Azərbaycanın daha yaxşı gələcəyinin qurulmasına istiqamətlənmiş təklifləri formulə etməyə imkan verir:

- Azərbaycanda Milli Mədəniyyətin inkişafı Onilliyinin keçirilməsi; ölkənin sosial-mədəni dövlət siyasətində intellektual, etik, hüquq və idarəetmə mədəniyyəti prioritetlərinin yaradılması imkanının nəzərdən keçirilməsi. Ölkədə əmək mədəniyyətinin nüfuzunun təmin edilməsinə və intellektual mədəniyyətin qabaqlayıcı inkişafına yardım etmək

iqtidarında olan “İntellektual mədəniyyət haqqında Qanun”un qəbul edilməsi.

- İnsanın yaradıcı həyat fəaliyyəti nailiyyətləri, qanunları, texnologiyaları və imkanları haqqında elmin - kulturologiyanın qabaqlayıcı inkişafının təmin edilməsi. Bütün ali məktəblərdə kulturologiya kafedralarının, Bakıda və Azərbaycanın regionlarında kulturologiya mərkəzlərinin açılması, orta məktəblər və məktəbəqədər müəssisələrdə mədəniyyətşünaslıq fənninin daxil edilməsi, respublikada Dünya mədəniyyəti Beynəlxalq Universitetinin yaradılması məqsədəuyğunluğuna diqqət yetirilməsi. Kulturologiyanın kompleksli, sistemli xarakterini nəzərə alaraq, kulturologiya, tarix, psixologiya, fəlsəfə, iqtisadiyyat, hüquq, pedaqoqika, sosiologiya, politologiya, mədəniyyətşünaslıq, filologiya, dilçilik, ilahiyyət və digər sosial və humanitar elmlər sahəsində aparıcı mütəxəssislərin cəlb olunması ilə, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Kulturologiya” və “İdarəetmə mədəniyyəti” ixtisasları üzrə dissertasiyaların müdafiə olunması məqsədilə Dissertasiya Şurasının yaradılması imkanının nəzərdən keçirilməsinin məqsədəuyğunluğu.

- Ölkəmizin, - sülhün qorunmasına, münaqişələr, müharibələr və terrorçuluğun qarşısının alınmasına yönəldilmiş sülhsevər xarici siyasətinin gələcək inkişafı məqsədilə, “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası “Homo sapiens” tipli insandan “Homo cultural” tipli insana keçid beynəlxalq proqamının işlənib hazırlanması və həyata keçirilməsi təşəbbüsünün Azərbaycan tərəfindən BMT-də irəli sürülməsini məqsədəuyğun hesab edir (təşkilat nəzərdən keçirilməsi üçün proqramın konsepsiyasını daxil etməyə hazırdır).

*“Azərbaycan 2020: gələcəyə baxış” milli Konsepsiyası üçün təkliflərin hazırlanmasına həsr olunmuş “Mədəniyyət və Azərbaycanın gələcəyi” kulturoloji seminarın iştirakçıları ümid edirlər ki, kulturologiya elmi, təhsili və maarifinin gələcək inkişafı, insanın həyat fəaliyyətinin yeni kulturoloji inkişaf texnologiyaları və milli inkişafın sistemli kulturoloji modellərinin işlənib hazırlanması - intellektual, etik, istehsal, iqtisadi, hüquq, idarəetmə, informasiya, bədii, tibbi, ekoloji mədəniyyətin gələcək yüksəlişinə, Azərbaycanın davamlı, rəqabətqabiliyyətli və təhlükəsiz inkişaf səviyyəsinin artırılmasına yardım edəcəkdir.*

### *Kulturoloji simvollar üçün açarlar*

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının həyat fəlsəfəsi və dəyərlərini əks etdirən kulturoloji simvollar.

🕮 **"Simurq"** - Azərbaycan mifologiyasında Həyat, İşıq, Biliklər, Həqiqət və Xeyirxahlıq simvoludur, Xilasa və Dirçəlisə aparan yoldur. Simurq surəti göydən yaxud Müqəddəs dağdan "həyat ağacının" pöhrəsini Yer üzünə ilk dəfə gətirən böyük qartalabənzər quş – quşların şahı haqqında qədim avrasiya əfsanəsi ilə sıx bağlıdır.

Azərbaycan xalqının mentalitetində "Simurq" – özünü təkmilləşdirmə, yüksək mənəvi ideyalara sadiqlik, qələbə əzmi, mücahidlik və fədakarlığı, xalqın inkişafı və mədəni tərəqqisi üçün nəcib məqsədlərə nail olma uğrunda mübarizəni simvollaşdırır. "Quşların söhbəti"ndə Simurq - həqiqi biliyin alleqorik ifadəsi, yaradanın və yaradıcılığın simvoludur. Sonralar Simurq simvolu Azərbaycanın dünyəvi mədəniyyəti, əsasən, tətbiqi incəsənətdə və Azərbaycan nağıllarında təcəssüm edilmişdir: Simurq quşu Məlikməmmədi Qaranlıq səltənətdən İşıqlı səltənətə keçirmiş və onu həyata qaytarmışdır.

Eyni zamanda Simurq, Azərbaycan xalqının yalnız milli dəyərlərini deyil, həm də ümumbəşəri humanizm mədəni dəyərlərini də özündə təcəssüm etdirir. Simurq həm Şərqdə, həm də Qərbdə yeni, əbədi həyatın ümumdünya simvolu kimi qəbul edilmiş, allahların mərhəməti və ölkənin çiçəklənməsinin qədim simvolu – səkkizguşəli ulduzun məna sinonimlərindən biridir.

🕮 **"Həyat ağacı"** – həm insan həyatının başlanğıc simvolu, həm də insanı bütün heyvanat aləmindən fərqləndirən və, onun təfəkkürü, davranışı və fəaliyyətini müəyyənləşdirən, millətlərin və xalqların sivil inkişaf yolu, dəyərləri və nailiyyətlərini təyin edən insan mədəniyyətinin simvoludur. Ağacın budaqları insanın ağlı, hissləri və əməyindən ibarət vahid köklə qidalanırlar. Ağıl bioloji və sosial varlıq kimi, insana inkişaf etmək imkanı verir. O, hisslərə və əməyə qarşı münasibətdə müəyyənedici əhəmiyyətə malikdir. Hisslər insanın mənəvi və estetik seçimini müəyyən edir. Əmək ruhi və maddi dəyərləri yaradır. Ağacın budaqları – dil, elm, mənəviyyat, insan münasibətləri, təhsil, iqtisadiyyat, incəsənət, din, hüquq, siyasət, informasiya və s. kimi mədəniyyətin müxtəlif sosial institutları və sahələridir. Ağacın meyvələri – mədəni dəyərlər, insanın həyat fəaliyyəti texnologiyaları, formaları və normaları,




“Simurq” AMA-nın loqosu. 1990-cı il.




“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının emblemi. Qoz ağacından əl işi. 1990-cı il.



Həyat ağacı, Simurq quşunun simvollarından biri



*Simurq quşunun Həyat ağacının pöhrəsi ilə kiçik heykəli*



*“Simurq” AMA-nın qobeleni. 1990-cı il.*




*“Simurq” AMA-nın öyrənmə və yaratma kulturologiya piramidası*







*"Simurq" AMA-nın ruhi mədəniyyətin inkişafındakı xidmətlərə görə verilən medalı*




*"Simurq" AMA-nın nişanı. 1990-cı il.*




*1991 г. Kosta-Rikada Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi üçün hazırlanmış nişan. 1991-ci il.*



*1990-cı ildə "Simurq" AMA-nın öz fəaliyyətinə başladığı Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunun binası*



*"Simurq" AMA-nın ofisi: Fuad Məmmədov və Yaqub Kərimov türkiyəli qonaq ilə. 1990-cı il.*



*"Simurq" AMA-nın rəhbərləri və fəalları. Soldan sağa: ak. Maqsud Əliyev, prof. Əli Rəcəbli, Fuad Məmmədov, Rauf Muqimov, Leonid Muzıkantski. 1991-ci il.*



*"Simurq" AMA-nın rəhbərləri və fəalları. Soldan sağa: Leonid Muzıkantski, Fuad Məmmədov, Fərid Məmmədov, ak. Maqsud Əliyev, Tahirə Kərimova. 1991-ci il.*



*Kosta-Rika prezidenti Rafael Anxel Kalderon Furnyenin təsviri olan xalça. 1991-ci il.*



*Kosta-Rika. Kosta-Rikanın mədəniyyət naziri Aida Vaysleder ilə əməkdaşlıq haqqında müqavilənin imzalanması. Avqust, 1991-ci il.*







*Assosiasiyanın "Norveç mədəniyyəti dünya sivilizasiyası kontekstində" kitabı. Bakı, 2000-ci il.*

*Assosiasiyanın "Azərbaycanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım" kitabı. Bakı, 2001-ci il.*




*Assosiasiyanın "Kulturologiya. Nəzəriyyə və tarix məsələləri" kitabı. Bakı, 2002-ci il.*




*Assosiasiyanın "Kulturologiya effektiv həyat fəaliyyətinə doğru yol kimi" kitabı. Bakı, 2006-cı il.*




*Assosiasiyanın "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təçrübəsi" kitabı. Bakı, 2009-cu il.*




*Assosiasiyanın "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" kitabı. Bakı, 2013-cü il.*




*"Azərbaycan Mədəniyyət Assosiasiyası. 20 il" kitabı. Bakı, 2010-cu il.*




*"Simurq" AMA-nın "Akkulturasiya" kitabı. Bakı, 2013-cü il.*




“Simurq” Beynəlxalq kulturoloji jurnalın ilk sayı. 2008-ci il.




“Simurq” Beynəlxalq kulturoloji jurnal, №2.




“Simurq” Beynəlxalq kulturoloji jurnal, №3.







Azərbaycanda yoxsulluğun azaldılması üzrə layihə proqramının üz qabığı. Bakı, 2003-2004 cü illər.




*“Simurq” Azərbaycan  Mədəniyyət Assosiasiyasının ikinci qurultayı.*
*Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu. 1995-ci il.*



*Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin təsis edilməsi.*
*Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu. Bakı, 1995-ci il.*



*Azərbaycanda "Üçüncü sektor"un yaradılması üzrə Məsləhətçi prosesi və seminar.*
*Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu. Bakı, 1995-ci il.*



*"Milli ideologiya və ümummilli lider" kulturoloji seminarı.*
*Bakı, Həmkarlar Konfederasiyası, 1997-ci il.*



*"Milli ideologiya və ümummilli lider" kulturoloji seminarının iştirakçıları.*
*Bakı, Həmkarlar Konfederasiyası, 1997-ci il.*



*BMT-nin Azərbaycandakı nümayəndəsi Paolo Lembo və Ümumdünya Federalistlər Assosiasiyasının prezidenti, prof. Con Andersonun iştirakı ilə "Demokratiya mədəniyyəti və BMT" beynəlxalq kulturoloji seminar. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu. Bakı, 1997-ci il.*



*ADR yaranmasının 80 illiyinə həsr olunmuş konfrans.*
*Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu. Bakı, 1998-ci il.*




*“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının üçüncü qurultayı.*
*Bakı “İrşad” hoteli, 2000-ci il.*



“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının üçüncü qurultayı.
Azərbaycanda Norveç Krallığının səfiri Olav Berstatın “Simurq”
AMA-nın fəxri üzvü seçilməsi. Bakı, “İrşad” hoteli, 2000-ci il.




“Simurq” AMA-nın prezidentinin Millenium üzrə beynəlxalq konfransda çıxışı
(soldan – Turizm İnstitutunun prorektoru, dosent Eldar Aslanov).
Nyu-York, 2000-ci il.




*Qlobal idarəetmə üzrə Beynəlxalq seminarın iştirakçıları.*
*Bakı, "Həyat recinsi" hoteli, 2003-cü il.*



*Milli Aviasiya Akademiyasında kulturoloji konfrans.*
*Bakı, 2003-cü il.*



*“Simurq” AMA-nın nümayəndə heyəti Macarıstanda qeyri-hökumət təşkilatlarının Ümumdünya Assosiasiyasının beynəlxalq konfransında. Budapeşt, 2004-cü il.*



*“Simurq” AMA-nın üzvləri Macarıstanda beynəlxalq konfransda.*
*Budapeşt, 2004-cü il.*



*Azərbaycanın mədəniyyət tarixi üzrə beynəlxalq kollokviumunun iştirakçıları Fransada Azərbaycan Respublikasının səfiri Elyanora Hüseynova ilə. Paris, İNALKO, 2004-cü il.*



*"Simurq" AMA-nın etik mədəniyyət üzrə seminarının iştirakçıları. Bakı, "İrşad" hoteli, 2006-cı il.*



“İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi” monoqrafiyasının təqdimat mərasimi iştirakçıları. Bakı, “Həyat recinsi” hoteli, 2009-cu il.



“Simurq” AMA-nın beşinci qurultayının iştirakçıları və qonaqları. Bakı, “Həyat recinsi” hoteli, 2010-cu il.



*"Simurq" AMA-nın rəhbərləri: birinci vitse-prezident Maqsud Əliyev, vitse-prezident Asəf Nadirov, vitse-prezident, əməkdar incəsənət xadimi Arif Əziz. Bakı, "Həyat recinsi" hoteli, 2010-cu il.*



*İlk "İdrak" televiziya verilişinin iştirakçıları. Azərbaycanın xalq şairi Nəriman Həsənzadə, professor Bəhruz Abdullayev və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri. Bakı, 2010-cu il.*



*İnsan kapitalının inkişafına həsr olunmuş kulturoloji seminar. Xalq şairi Nəriman Həsənzadənin 80 illik yubileyi münasibəti ilə təbrik etmə.*
*Bakı, Qərb Universiteti, 2011-ci il.*



*"Simurq" AMA-nın rəyasət heyəti və ekspert-məşvərət şurasının üzvləri.*
*2014-cü il.*



*Azərbaycan Dövlət mükafatına təqdim olunmuş "İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi" monoqrafiyasının müzakirəsinin iştirakçıları. Bakı, Qərb Universiteti, 2014-cü il.*



*"Simurq" AMA-nın rəhbərləri. Soldan sağa: əməkdar incəsənət xadimi Arif Əziz, ak. Tofiq Nağıyev, prof. Fuad Məmmədov, ak. Maqsud Əliyev, əməkdar mədəniyyət işçisi Namiq Hüseynov. Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2015-ci il.*



*“Simurq” AMA-nın Konstitusiya Məhkəməsində səyyar mühazirəsi.*
*Bakı, 2010-cu il.*



*“Simurq” AMA-nın Azərbaycan Milli Ensiklopediyasında səyyar mühazirəsi.*
*Bakı, 2011-ci il.*



*"Simurq" AMA-nın "Qafqaz" Universitetində səyyar mühazirəsi.*
*Bakı, 2011-ci il.*



*"Simurq" AMA-nın Müəllimlər İnstitutunda səyyar mühazirəsi.*
*Bakı, 2012-ci il.*



*"Simurq" AMA-nın Polis Akademiyasında səyyar mühazirəsi.*
*Bakı, 2013-cü il.*



*"İdrak" televiziya verilişi: Kulturologiya və mədəniyyətlərin dialoqu.*
*2013-cü il.*



*Azərbaycan televiziyasında tələbələr üçün kulturologiya üzrə mühazirə.*
*"Mühazirə" verilişi. 2013-cü il.*




*Layihə iştirakçıları və "Akkulturasiya" kitabının təqdimatı.*
*Bakı, 2013-cü il.*



*Azərbaycan Vergilər Nazirliyinin əməkdaşları üçün kulturoloji treninq. 2014-cü il.*




*Simurq" AMA-nın AR Prezidenti yanında Bilik Fondunda səyyar mühazirəsi.*
*Bakı, 2014-cü il.*



*“ASAN xidmət” əməkdaşları üçün kulturoloji treninq. 2014-cü il.*



*“Simurq” AMA-nın 220 saylı ümumtəhsil məktəbində səyyar mühazirəsi.*
*Bakı, 2014-cü il.*



*"Simurq" AMA-nın Dövlət İqtisad Universitetində səyyar mühazirəsi.*
*Bakı, 2015-ci il.*



*"Simurq" AMA-nın Bakı şəhəri Notariat İdarəsində səyyar mühazirəsi.*
*Bakı, 2015-ci il.*

biliklər, bacarıqlar, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyətə malik olan mədəni insanın özü, həmçinin onun tərəfindən yaradılan və təkmilləşdirilən sivilizasiyalardır.

"Simurq"un həyat fəlsəfəsinə uyğun olaraq, yalnız vicdanlı əməyə artırılmış yüksək ruhi (intellektual və etik) mədəniyyət cəmiyyətin davamlı inkişafı, rifahı və həyat keyfiyyəti mənbəyidir. Və, dünya mədəniyyəti destruktiv proseslərdən qoruyarsa, yalnız o, dünyanı xilas edə bilər.

🕮 **"Xeops piramidası",** simvolik olaraq, insanın cahillikdən – dərk etməyə və dəyişilməyə, kamilləşməyə və yüksək ruhi mədəniyyətə əsaslanan etibarlı gələcəyi təmin edən yeni inkişaf imkanlarına aparan səkkiz pillə ilə qalxmasıdır.

🕮 **"Yüksək mədəniyyət qapıları"** simvolik olaraq, Assosiasiyanın yüksək ruhi mədəniyyətə malik və öz yaradıcılıqları ilə onun inkişafına yardım edən insanları birləşdirməsini, meritokratik (bacarıqlara əsaslanan) qiymətləndirməsini ifadə edir. Bu, özünü təkmilləşdirməyə və milli və dünya mədəniyyəti nemətlərinin yaradılmasına doğru aparan - "öyrənmə", "dərk etmə", "yaratma" kimi üç səviyyəni daxil edən mütərəqqi hərəkatın onlar üçün xarakterik olduğu insanlardır. Bu - elmi biliklər, gözəl hisslər və möhkəm iradəylə, humanizm və vətənpərvərliklə zənginləşmiş ağla, güclü ruha malik insanlardır.

🕮 Yuxarıya qalxan **"Yeddi pillə" ağıllı,** "Homo sapiens" tipli ağıllı insanın kamilləşməsi və elm, təhsil, tərbiyə və kulturoloji maarifləndirmənin əsas rol oynadığı, insanların akkulturasiyası və inkulturasiyası vasitəsilə onun "Homo kulturalis" tipli mədəni insana çevrilməsi yolunu göstərir. İnsanın biliklərin, humanizm və quruculuğun zirvəsinə doğru qalxdığı yeddi pillə müxtəlif xalqların və dinlərin – zərdüştlük, hinduizm, yəhudilik, buddizm, xristianlıq və islam nümayəndələri üçün ümumdünya mənaya malikdir. 7 rəqəmi – zaman və məkanın hakimi, Yaradanın, sirrin, müdrikliyin, gözəlliyin və əbədi həyatın simvoludur. Bu, təfəkkür, intuisiya, istedad, yaxşılıq, kamilləşmə, düzgün qərarlar uğrunda mübarizədir. Bu, həmçinin Yerin və Yerdən görünən yeddi planetin mənasıdır, həm göy qurşağının yeddi rəngi, həm dünyanın yeddi möcüzəsi və yeddi sərbəst incəsənət, həm yeddi əsas not, həm Nizami Gəncəvinin əsərində yeddi müdrikdir.

🕮 Cəmdə "mədəni insan formulu"nu və insan kapitalının mahiyyətini *təşkil edən - "biliklər", "bacarıqlar", "mütəşəkkillik", "mənəviyyat" və "yaradıcı fəaliyyət"* sözləri - cəmiyyətin "xaosdan nizama doğru" hərəkəti olan sosial mədəniyyətin inkişaf yollarını simvolizə edirlər.

🕮 Su işarələri görünüşündə **"İnsan və Ulduz"** – tamın və onun bir hissəsi kimi, İnsanın və Kainatın qırılmaz vəhdətini, materiyanın və ruhun ayrılmazlığını simvollaşdırır. Burada İnsan kreativ, dəyişdirici başlanğıcı – onu əhatə edən aləmi pozitiv surətdə dəyişən mədəniyyəti simvollaşdırır. Burada İnsan simvolu - Kainatın dərk edilməsi, təbiətin və insan həyatının dəyişdirilməsi vasitəsi olan elmin köməyi ilə onun xüsusi rolunu və intellektinin inkişafının əhəmiyyətini qeyd edir. Ulduz Kainatı və yüksək insani ideallara cavab verən "yeni, əbədi", xoşbəxt həyatı ifadə edir. Əcdadlarımız tərəfindən Şumer-Mesopotamiya sivilizasiyasında mənimsənilmiş səkkizguşəli ulduz fəlsəfəsi onlar tərəfindən hələ Azərbaycan mədəniyyət tarixinin zərdüştlük dövründə formulə edilmişdir, sonralar isə həm Qərbdə, həm də Şərqdə yayılmışdır. Səkkizguşəli ulduz – həm müasir, demokratik Azərbaycan Respublikasının gerbi, həm də onun mükəmməl cəmiyyətə doğru yolu simvollaşdıran bayrağının əsas elementlərindən biridir.

# “SIMURQ” AMA-nın 25 İLLİK FƏALİYYƏTİ HAQQINDA TƏBRİKLƏR VƏ RƏYLƏR

## *“SİMURQ” AZƏRBAYCAN MƏDƏNIYYƏT ASSOSİASİYASININ IV QURULTAYININ İŞTİRAKÇILARINA*

***Təbriklər:***

***Əbülfəs Qarayev,***
*Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri*

**Hörmətli qurultay iştirakçıları!**

Sizi, - “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının VI qurultayının iştirakçılarını və qonaqlarını ürəkdən salamlayır və təbrik edirəm.

Azərbaycanda elmin, mədəniyyətin, təhsilin və maarifin inkişafına xidmət edən “Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyası 25 ildir ki, fəaliyyət göstərir. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Assosiasiyanın respublikada kulturologiya elminin inkişafına yönəldilmiş mədəni təşəbbüslərini, elmi-tədqiqat və maarifçilik fəaliyyətini yüksək qiymətləndirir.

“Simurq”Assosiasiyası Azərbaycan cəmiyyətinin və dövlətçiliyinin inkişafı naminə apardığı yaradıcı fəaliyyəti ilə yalnız respublikamızın elmi və mədəni dairələrində deyil, xarici ölkələrdə də tanınmışdır. Assosiasiyanın təşkil etdiyi kulturoloji seminarlar, nəşr etdirdiyi “Simurq” beynəlxalq kulturoloji jurnalı cəmiyyətimizdə və xarici mütəxəssislər arasında böyük nüfuza malikdir. Assosiasiyanın kulturologiya üzrə monoqrafiyaları, dərs vəsaitləri və topluları respublikanın ali məktəblərində, habelə xarici ölkələrin elmi cəmiyyətlərində və kitabxanalarında müvəffəqiyyətlə istifadə edilir.

Qərb və Şərq ölkələrinin keçirdiyi beynəlxalq konfrans və sammitlərdə Assosiasiya üzvlərinin aktiv iştirakı Azərbaycan elminin və mədəniyyətinin nailiyyətlərinin beynəlxalq aləmdə təbliği baxımından böyük əhəmiyyət kəsb edir və dünyada Azərbaycanın dostlarının artmasına şərait yaradır. “Simurq” Assosiasiyasının yaradıcı fəaliyyəti Azərbaycan əhalisinin kulturoloji cəhətdən maariflənməsinə, vətəndaşlarımızda yüksək etik, intellektual, idarəetmə, hüquq mədəniyyəti standartlarının formalaşmasına xidmət edir. O eyni zamanda hökumət və qeyri-hökumət strukturlarının fəaliyyətinə yardım etməklə Azərbaycan Respublikasının sosial-mədəni inkişafına da öz töhfəsini vermiş olur.

“Simurq” Azərbaycan Mədəniyyət Assosiasiyasının VI qurultayının bütün iştirakçılarına Azərbaycan mədəniyyəti naminə fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıram.

***Hicran Hüseynova,***

*professor, AR Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri*

“SİMURQ” Azərbaycan Mədəniyyət Assosiasiyasını salamlamağa və onun tanınmış respublika ziyalılarının nümayəndələrini və istedadlı gəncləri birləşdirən çoxsaylı kollektivini 25-illik yubileyi münasibətilə təbrik etməyə şadam.

1990-cı il aprelin 20-də “Simurq” AMA-nın təsis edilməsi Azərbaycanın ictimai həyatında əhəmiyyətli hadisə oldu. Bütün bu illər ərzində Assosiasiyanın çoxillik yaradıcı fəaliyyəti kulturologiya elmi və təhsilinin inkişafına, Azərbaycan cəmiyyətinin müxtəlif sosial kateqoriyaları arasında universal elmi biliklərin yayılmasına, həmçinin xalqımızın etik dəyərlərinin qorunub saxlanmasına, qədim və zəngin Azərbaycan mədəniyyətinin xaricdə təbliğinə yönəldilmişdir.

Assosiasiyanın monoqrafiyaları, kitabları, məcmuələri və jurnalları, proqramları, layihələri, kulturoloji seminarları, televiziya verilişləri və elmi tövsiyələri Azərbaycanın ruhi mədəniyyətinin inkişafına ciddi töhfə olmuş, insan kapitalının inkişafı dövlət siyasətinin inkişafına, o cümlədən ailə, qadınlar, gənclər və uşaqların mədəniyyətinin inkişafına yardım etmışdir. Assosiasiyanın səmərəli sosial-mədəni fəaliyyəti həm də beynəlxalq tanınma qazanmışdır.

Cəmiyyətin intellektual, etik və estetik inkişafı üzrə Assosiasiyanın zəngin iş təcrübəsi, onun elmi tədqiqatları və maarifçilik fəaliyyətinin nəticələri Azərbaycan xalqının yalnız bugünkü deyil, həm də gələcək nəsillərinin mədəni inkişafı üçün şərtsiz əhəmiyyətə malikdir.

Assosiasiyanın qurultayının iştirakçılarına uğurlu iş və Azərbaycanın sosial-mədəni tərəqqisinə yardım edən yeni proqramlar və layihələr işləyib hazırlamasını arzu edirəm.

***Cəmilə Səttarova,***

*Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin sədri, Azərbaycanın əməkdar mədəniyyət işçisi*

Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsi, Azərbaycanda ruhi mədəniyyətin və “üçüncü sektorun” inkişafında əhəmiyyətli rol oynayan, ölkənin ilk qeyri-hökumət təşkilatının - “Simurq” Azərbaycan Mədəmiyyət Assosiasiyasının 6-cı, yubiley qurultayının iştirakçılarını salamlayır.

Özünün yaradıcı fəaliyyəti sayəsində Assosiasiya kulturologiya elmi və maarifinin inkişafında ciddi uğurlara nail olmuşdur. O, demokratiya mədəniyyəti və insan kapitalının inkişafına, əhalinin ümumi mədəni səviyyəsinin yüksəlməsinə, respublikada azərbaycançılıq ideologiyasının möhkəmlənməsinə yardım edən bir sıra novator layihələr, o cümlədən beynəlxalq iştirakla konfranslar, seminarlar, treninqlər və dəyirmi masalar həyata keçirmişdir.

Assosiasiyanın sosial-mədəni nailiyyətləri, onun tərəfindən hazırlanan, yalnız ölkəmizdə deyil, eyni zamanda xaricdə elm və təhsil sahəsində istifadə olunan elmi monoqrafiyalar və dərs vəsaitləri Azərbaycan mədəniyyətinin Şərq və Qərb ölkələrində təbliği dövlət siyasətinə yardım edir.

Azərbaycan Mədəniyyət Assosiasiyasının rəhbərliyi və çoxsaylı üzvlərinə Azərbaycanın əmək mədəniyyətinin, əqli, mənəvi, idarəçilik və estetik mədəniyyətinin inkişafında yeni elmi və praktik nailiyyətlər əldə etməyi arzulayırıq.

***Rauf Zeyni,*** *Azərbaycan Milli QHT Forumu*

Azərbaycanın Milli Qeyri-hökumət Forumu mədəniyyət sahəsində ilk qeyri-hökumət təşkilatını - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasını Azərbaycan Respublikasının sosial-mədəni tərəqqisinə yönəldilmiş yaradıcı fəaliyyətinin 25-illik yubileyi münasibətilə ürəkdən təbrik edir.

Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin formalaşması və inkişafında, o cümlədən, QHT Milli Forumunun yaradılmasında "Simurq" AMA-ya həqiqi xidmət məxsusdur.

Elm, təhsil, maarifçilik və sosial inkişaf sahəsində işlənib hazırlanan və həyata keçirilən layihələr nəticəsində Assosiasiya tərəfindən Azərbaycanın ruhi mədəniyyətinin inkişafına əhəmiyyətli töhfələr verilmişdir. Kulturologiya sahəsində özünün elmi-maarifçilik fəaliyyəti ilə, monoqrafiyalar və dərs vəsaitlərinin, jurnallar və elmi məqalələrin nəşri və yayılması ilə, treninqlərin keçirilməsi və televiziya verilişlərinin aparılması ilə Assosiasiya yalnız intellektual və etik mədəniyyətin inkişafına deyil, həm də ümumilikdə, gənclərin və ölkə əhalisinin sosial fəallığının yüksəlməsinə yardım edir. Xalq diplomatiyası sahəsində "Simurq" AMA-nın məlum uğurları, ictimaiyyətlə, bir sıra Qərb və Şərq ölkələrinin elmi və diplomatik dairələri ilə beynəlxalq mədəni əlaqələrin qurulması və inkişaf etdirilməsi – Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun artmasına yardım etmişdir.

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasına Azərbaycanın ruhi mədəniyyətinin inkişafı sahəsində yeni yaradıcılıq nailiyyətləri arzulayıram.

***Омар Эльдаров,***

*академик, ректор Азербайджанской Государственной Академии Художеств, почетный член АКА «Симург»*

Сердечно поздравляю президиум и многочисленных членов Ассоциации культуры Азербайджана «Симург» - ровесника независимой Азербайджанской Республики с 25-летним юбилеем ее творческой деятельности! За время своего существования Ассоциация, объединяющая в своих рядах видных представителей азербайджанской интеллигенции, выполнила множество ценных проектов в области науки, образования и просвещения, заслуживающих самой высокой оценки. Культурологические исследования, монографии и книги, журналы и семинары, конференции и телевизионные передачи Ассоциации способствовавшие росту уровня интеллектуальной и этической культуры наших граждан, явились достойным вкладом в развитие национального человеческого капитала и «общества знаний» в республике. Международные культурные инициативы и выступления АКА «Симург» в Коста-Рике, России, США, Франции, Норвегии, Тайланде, Венгрии и других странах, использование методов народной дипломатии и отправка культурологических монографий Ассоциации в зарубежные библиотеки, сыграли немаловажную роль в повышении рейтинга Азербайджана, как демократической страны, активно развивающей гражданское общество, культуру человеческих и международных отношений. Желаю Ассоциации культуры Азербайджана «Симург» - первой неправительственной организации страны в области культуры, новых творческих достижений в ее благородной деятельности, отвечающей жизненным интересам азербайджанского общества и государства!

***Ağacan Əbiyev,***

*professor, Bədən tərbiyəsi və İdman Akademiyasının rektoru, AR Milli Məclisinin üzvü, Assosiasiyanın fəxri üzvü*

Azərbaycanın ilk qeyri-hökumət təşkilatı – "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasını 25 illik Yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm!

Azərbaycan beynəlxalq sivil cəmiyyətdə yüksək siyasi və mədəni reytinq qazanmış, fəal surətdə inkişaf edən demokratik dövlətdir. Burada respublikanın dövlət orqanları ilə yanaşı, qeyri-hökumət təşkilatlarının, o

cümlədən, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının da məlum xidməti vardır. Assosiasiya özünün fəal elmi-tədqiqat və maarifçilik, xüsusilə, kulturologiya, fəlsəfə və incəsənət, etik, idarəetmə və iqtisadi mədəniyyət sahəsindəki fəaliyyəti ilə ölkəmizdə və xaricdə yaxşı tanınır. Azərbaycanın milli maraqlarına və bütün dünyada mədəni tərəqqi ideallarına xidmət məqsədilə, 1990-cı ildən bu günədək "Simurq" AMA dövlət strukturları, elmi müəssisələr, ali və orta məktəblər, yaradıcı ittifaqlar və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir.

Assosiasiyanın təsis edilməsi və nailiyyətləri, akademiklər - Maqsud Əliyev, Asəf Nadirov, Mikayıl Useynov, Tofiq Əliyev, Urxan Ələkbərov, Fuad Qasımzadə, Tofiq Nağıyev, AMEA-nın müxbir üzvləri – Nizami Cəfərov, Rəna Məmmədova, professorlar və dosentlər, xalq rəssamları və xalq artistləri, əməkdar mədəniyyət işçiləri və incəsənət xadimləri – Fuad Məmmədov, Əli Rəcəbli, Kazım Kazımzadə, Arif Əziz, Namiq Hüseynov, Sevda Əlizadə, Solmina Dadaşova, Rafiq Zeynalov, Hacı Sabir Həsənli, Rafiq Y.Əliyev, Svetlana Bayramova və bir çox başqaları kimi, onun əsasını qoyanlar və rəhbərlərinin səyi və yaradıcılıq enerjisi ilə çox bağlıdır.

Xalqın kulturoloji tərəqqisi, ölkənin həyat potensialını təşkil edən insanların – ziyalılar, dövlət qulluqçuları, gənclər və uşaqların şüuru və davranışına müsbət təsir məqsədilə, universal elmi biliklərin işlənib hazırlanması və yayılması üzrə Assosiasiyanın çoxillik məqsədyönlü yaradıcı işi - cəmiyyətin davamlı inkişafına, Azərbaycanın indiki və gələcək zamanına hiss ediləcək töhfə olmuşdur.

Azərbaycan Respublikasının rifahı naminə çoxillik əməyinə və Assosiasiyanın çoxillik yaradıcı fəaliyyətinin qiymətli elmi, maarifçilik və təşkilati-idarəçilik təcrübəsini ilk dəfə əks etdirən və respublika tarixi üçün şübhəsiz, elmi və praktik əhəmiyyətə malik çox maraqlı kitabın ərsəyə gətirilməsi üçün "Simurq" AMA-ya təşəkkürümü bildirirəm.

Assosiasiyanın kollektivinə Azərbaycan mədəniyyətinin inkişafına vətəndaş yardımında tərəqqi, tükənməyən enerji və yeni yaradıcılıq uğurları arzulayıram!

***Maqsud Əliyev,***
*akademik, "Simurq" AMA-nın birinci vitse-prezidenti*

Müstəqil Azərbaycan Respublikasının mədəniyyət sahəsində ilk qeyri-hökumət təşkilatı – "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası özünün 25 illik Yubileyini qeyd edir. Bu – elmin və elmi dünyagörüşün,

təhsilin və incəsənətin, Azərbaycan xalqının kulturoloji maariflənməsinin inkişafına yönəldilmiş yüzlərlə dəyərli ziyalı nümayəndələrimizin şüurlu yaradıcı həyatının 25 ilidir. Bu, entuziastların (bütün qüvvəsilə, böyük şövq və həvəslə işləyən adamların) - insan potensialının, vətəndaşlarımızın intellektual və etik mədəniyyətinin inkişafına, müxtəlif xalqların mədəniyyət nümayəndələri ilə beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə istiqamətlənmiş vətənpərvərlik işinin 25 ilidir. Mən bu yaradıcı prosesin bütün iştirakçılarına – təmənnasız maarifçilik fəaliyyətini ölçmək və qiymətləndirmək çətin olan akademiklər və müxbir üzvlərə, professorlar və dosentlərə, dövlət qulluqçuları və diplomatlara, rəssamlar və şairlərə, jurnalistlərə və bizim gözəl gənclərimizə təşəkkürümü bildirmək istəyirəm. Müəllif kollektivinə və ruhi mədəniyyətimizin inkişafına verdikləri çoxillik töhfəyə, Vətənə və işıqlı gələcəyə xidmətə görə Assosiasiyanın bütün üzvlərinə minnətdarlığımı bildirirəm!

***Hacı Sabir Həsənli,***
*Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini,*
*Bakı İslam Universitetinin rektoru*

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası – milli ziyalıları və xarici ölkələrin tanınmış mədəniyyət xadimləri nümayəndələrini öz sıralarında birləşdirən yüksək Azərbaycan mədəniyyətinin parlaq simvollarından biridir.

Assosiasiyanın rəhbərlərindən biri kimi, uzun illər ərzində, Azərbaycanda mədəni tərəqqiyə və insan kapitalının inkişafına vətəndaş yardımı məqsədilə "Simurq" AMA tərəfindən yerinə yetirilən çoxlu sayda humanitar layihələrin şahidi və iştirakçısı olmuşam.

Yüksək humanist məqsədlərin daşıyıcısı olaraq, Azərbaycan xalqının mədəni irsinə arxalanaraq və mütərəqqi bəşəriyyətin sosial-mədəni təcrübəsini yaradıcı surətdə istifadə edərək, artıq 25 ildir ki, Assosiasiya gənclər, uşaqlar, mütəxəssislər və Azərbaycan əhalisinin geniş dairələri arasında elmi biliklər, yüksək etik standartlar və mənəvi dəyərlərin istehsalı və yayılması vasitəsilə Vətəninə sədaqətlə xidmət edir, Azərbaycan mədəniyyətini xaricdə uğurla təbliğ edir.

Özünün "insanın yüksək ruhi mədəniyyət vasitəsilə xilasına" yönəldilmiş fəaliyyəti sayəsində, Assosiasiya nəinki Azərbaycan ictimaiyyəti arasında yüksək nüfuza malikdir, həm də beynəlxalq tanınma qazanmışdır.

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasını şanlı 25-illik yubi-

leyi münasibətilə ürəkdən təbrik edərək, Assosiasiyanın kollektivinə, Azərbaycan xalqı və dövlətinin davamlı sosial-mədəni inkişafına yönəldilmiş nəcib fəaliyyətində yeni yaradıcılq uğurları arzulayıram.

***Həsən Hami,***
*Mərakeş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri*

Mədəniyyət ünsiyyətin hərəkətverici qüvvəsidir. Və mədəniyyət yaxşı ötürülməzsə, yaxşı təqdim edilməzsə, ünsiyyətin dəyəri olmaz. Lakin dialoq yaratmaq üçün onların hər ikisi nəzərdə tutulmuşdur.

Odur ki, biri-birini anlamaqda mövcud catışmazlıqların aradan qaldırılmasına yönəldilən təşəbbüslər həmişə alqışlanır. İntuisiyanın əksinə olaraq, bu təşəbbüslər həqiqəti və sağlam düşüncəni əks etdirir, və onlar tərəqqi və insanın inkişafı istiqamətində əhəmiyyətli irəliləyişə nail olur.

"Simurq", beynəlxalq və sivilizasiyalararası dialoq müzakirələrinin real ünsiyyət olmadan həyata keçirilə bilməyən dolaşıq situasiyaların yaratdığı bu vəzifəni zəruri biliklərlə gücləndirir.

Onun işini nəzərə alaraq, və mədəniyyət, sivilizasiya və ünsiyyətin birlikdə inkişaf etdityini müəyyən edərək, bu qənaətə gəlirik. Mən "Simurq"un yaranmasının 25 illiyi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm!

Tərəqqiyə və insanın inkişafına doğru təntənəli yürüş davam edir. Və professor Fuad Məmmədovun simasında müdrik insanlar çətinliklərə və anlaşılmazlıqlara meydan oxuyanadək, bu davam edəcəkdir!

***Ömər Medina,***
*Azərbaycanda Kuba Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri,*
*"Simurq" AMA-nın fəxri üzvü*

Əziz dostlar!

İcazə verin, "Simurq" AMA-nın VI qurultayının keçirilməsi və yaradıcılıq fəaliyyətinin 25-illik yubileyi münasibətilə Sizi salamlayım və təbrik edim!

Mədəniyyət – insan həyatının əsasının əsasıdır. Mədəniyyət olmadan heç bir insan cəmiyyəti mövcud ola bilməz. O, pozitiv təfəkkürü, ruhi dəyərlər və normaları, dil, ədəbiyyat və mədəni irsi, rəqabət qabiliyyətli texnolo-

giyaları və insan tərəfindən yaradılan maddi vəsaitlər və dəyərləri ehtiva edir. Buna görə də bu qədər nəcib məqsədin seçilməsi və 25 il insanların maariflənməsinə, Azərbaycan xalqının milli mədəniyyətinin inkişafına yönəldilmiş səmərəli yaradıcı fəaliyyəti Assosiasiyanızın hörmətini daha da artırır.

"Simurq" AMA-nın nəşr etdirdiyi, biri Kubanın Milli Kitabxanasında istifadə olunan, elmi monoqrafiyalar və dərs vəsaitləri, həmçinin jurnallar və məqalələr, televiziya verilişləri və beynəlxalq iştirakla kulturoloji konfranslar və seminarlar, sözsüz ki, milli müstəqilliyin möhkəmlənməsinə, cəmiyyətin sosial kapitalının inkişafına və Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun yüksəlməsinə dəyərli töhfədir.

"Simurq" AMA-ya tərəqqi və Azərbaycan cəmiyyəti və dövlətinə, həmçinin dünya mədəniyyəti və sivilizasiyasına xidmətdə yeni yaradıcılıq uğurları arzulayıram!

## *Rəylər:*

***Arif Əziz,***

*"Simurq" AMA-nın vitse-prezidenti, YUNESKO yanında Dünya Rəssamlar Akademiyası və "Yeni era" Bynəlxalq İncəsənət Akademiyasının həqiqi üzvü*

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının əsasını qoyanlardan biri və onun Loqosunun müəllifi kimi, beynəlxalq tanınma qazanmış, innovativ inkişafın çətin yaradıcılıq yolunu keçmiş Assosiasiyanın 25-illik yubileyi münasibətilə aşkar sevinc hissi keçirirəm. "Simurq" AMA-nın 1990-cı ilin əvvəlində mürəkkəb siyasi şəraitdə keçən yaradılmasının əsasını elmi biliklərin inkişafı və əhalinin yüksək vətəndaş mədəniyyətinin inkişafında dövlətə ziyalıların yardımı vətənpərvər ideyası təşkil edirdi. Belə ki, bu nüfuzlu qeyri-hökumət təşkilatının ən mühüm xidmətlərindən biri – Azərbaycan xalqının, ölkə üçün tamamilə yeni olan kulturoloji maarifləndirilməsi və Azərbaycan elmində yeni istiqamətin – kulturologiyanın əsasını qoyan, milli və dünya mədəniyyəti problemlərinin sistemli tədqiqatlarının nəticələridir. Assosiasiyanın çoxillik fəaliyyətini qiymətləndirərkən, qeyd etmək kifayətdir ki, respublikanın ağır günlərində o, sistemli yanaşma əsasında aparıcı Qərb və Şərq ölkələrinin inkişaf təcrübəsini, xüsusilə, "Meydzi" yapon bərpa təcrübəsini tədqiq etmiş və Azərbaycanın sürətli, davamlı və rəqabət qabiliyyətli milli inkişaf maraqlarında elmi əsaslanmış kul-

turoloji modellər və onun yaradıcı istifadə texnologiyalarını yaratmışdır.

Özünün şərəfli 25-illik yubileyini qeyd edən Assosiasiyanın bütün rəhbərlərinə və üzvlərinə möhkəm can sağlığı və Azərbaycanın ruhi mədəniyyəti naminə yeni yaradıcılıq uğurları arzulayıram!

***Nəriman Həsənzadə,***

*Azərbaycanın xalq şairi, professor, Milli Aviasiya Akademiyasının "Dil və ədəbiyyat" kafedrasının müdiri*

Əfsanələrdə Simurq quşu " elm, bilik ağacı"nda yuva quran, gələcəkdən xəbər verən çox nəhəng və qüdrətli bir quş kimi təsvir edilir. O, 700 ildən 2000 ilədək ömür sürür, balaları böyüdükdən sonra özünü oda atıb yandıraraq fəda edir, sonra isə küldən dirçələrək, yeni həyata başlayır. Azərbaycan mifologiyasında Simurq - xeyirxahlığın, dirçəlişin və yeni həyatın qədim rəmzidir. "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının adının mənası ilə fəaliyyətinin məzmunu üst-üstə düşür. 25 ildir ki, bu cəmiyyət Azərbaycan dövlətinə sədaqətlə, fədakarlıqla, böyük vətənpərvərlik əzmi ilə xidmət edir.

Respublikada ilk qeyri-hökumət təşkilatı və müstəqil Azərbaycan dövləti ilə yaşıd olmaqla yanaşı, Assosiasiya, yarandığı ilk gündən cəmiyyətdə intellektual, etik, hüquq, idarəetmə mədəniyyəti və bir çox digər sahələr üzrə kulturoloji dünyagörüşün formalaşmasında, milli-mənəvi dəyərlərimizin, kulturoloji maarifçiliyin təbliğində geniş və rəngarəng yaradıcılıq fəaliyyətinə görə hər zaman seçilmiş və ön sıralarda olmuşdur. Azərbaycanın tanınan, dəyərli, qabaqcıl ziyalıları bu cəmiyyətdə birləşərək, onları düşündürən, narahat edən məsələləri, problemləri müzakirə etmək, onların həlli yollarını tapmaq üçün öz fikirlərini bildirmək, geniş auditoriyalarda çıxış etmək imkanı əldə etmişlər. Bununla da onlar müstəqil dövlətimizin sosial, mədəniyyət, innovasiyalar, informasiya, gənclər siyasəti və s. bu kimi bir sıra digər sahələrdə yürütdüyü düşünülmüş və uğurlu daxili və xarici siyasətinə əsl vətəndaş yardımı nümayiş etdirmiş və bu gün də etdirirlər.

Şübhəsiz, Assosiasiyanın uğurlarında onun sıralarında uzun illər çalışan dəyərli ziyalıların, Maqsud Əliyev, Asəf Nadirov və onlarla digər gözəl ziyalılarımızın, ilk növbədə, onun prezidenti, fəal ictimai xadim, dünya səviyyəli kulturoloq, professor Fuad Məmmədovun xidmətləri danılmazdır, əvəzsizdir. Uzun illərdir Fuad Məmmədovla yaxın münasibətimiz var, onu əsl ziyalı, kulturologiya sahəsində istedadlı, yorulmaz, fədakar alim,

mütəxəssis, eyni zamanda dostluğa sədaqətli və olduqca alicənab bir insan kimi tanıyıram. Fuad müəllim gənc yaşlarından başlayaraq, özünün böyük və fədakar əməyi, zəhməti, iradəsi sayəsində bugünkü mərhələyə çatmışdır. Onun rəhbərliyi ilə bu cəmiyyətin daha yeni, böyük uğurlara imza atacağına əminəm. Mən Assosiasiyanın 25 illik yubileyi münasibətilə Fuad müəllimi, cəmiyyətin rəyasət heyəti üzvlərini və bütün digər çoxsaylı üzvlərini təbrik edirəm.

Və sonda ürəyimdən gələn çox səmimi bir istəyimi də bildirmək istəyirəm. "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, üç beynəlxalq akademiyanın akademiki, professor Fuad Məmmədovun xalq, dövlət, Vətən qarşısındakı danılmaz xidmətlərinin dövlətimiz tərəfindən layiqincə qiymətləndirilməsini arzu edirəm. O həm bir pedaqoq, həm də fəal ictimai xadim, yüksək mədəniyyətli bir şəxsiyyət kimi buna çox layiqdir. Və mən əminəm ki, mənim bu arzum onu tanıyan və sevən hər bir kəsin ürəyindən keçən arzudur.

***Musa Quluzadə,***
*tarix elmləri doktoru, professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü, əməkdar müəllim*

### ***"Simurq"a Simurq ömrü arzulayıram***

Azərbaycan müstəqillik qazandıqdan sonra respublikada onlarla, yüzlərlə ictimai-siyasi partiyalar, müxtəlif yönlü təşkilatlar, cəmiyyətlər, mərkəzlər, akademiyalar, institutlar, assosiasiyalar... yarandı.

Hər təşkilat da xalqı, xüsusən də ziyalıları, gəncləri öz "cadırına" dəvət edirdi...

Bu cəmiyyət və təşkilatların bir çoxu tezliklə, necə deyərlər, acılmadan soldular, tarix səhnəsindən biryolluq çıxdılar.

Ancaq o zaman yaranan ictimai təşkilatlardan, cəmiyyətlərdən bu günə kimi gəlib çıxanlar da az olmadı. Bunlar o təşkilatlar oldular ki, onlar öz yollarından ayrılmadılar, öz mövqe və maraqlarını, məramlarını müstəqil Azərbaycanın mənafeyinə xidmətdə gördülər.

Belə ictimai təşkilatlardan biri - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasıdır. "Simurq" Assosiasiyasının təsisçisi və rəhbəri görkəmli kulturoloq, professor Fuad Məmmədovdur. Professor F. Məmmədov nəinki ölkəmizdə, ölkəmizin hüdudlarından çox-çox uzaqlarda tanınan, seçilən, qiy-

mətləndirilən kulturoloq-alimdir. İlk gündən Fuad müəllim "Simurq" Mədəniyyət Assosiasiyasının ətrafına tanınmış alim və ziyalıları topladı. Çox keçmədi qabaqcıl dünya təcrübəsi ilə özümüzün zəngin milli-mənəvi dəyərlərdən bəhrələnən "Simurq" Mədəniyyət Assosiasiyası qeyri-hökumət təşkilatı olsa da, respublika ictimaiyyəti arasında geniş hörmət qazandı.

"Simurq" ilk gündən Azərbaycan mədəniyyətini, incəsənətini dünyada daha da yaxşı tanıtmaq üçün mütəmadi iş aparan ictimai təşkilatlardan biridir.

Təşkilatın keçirdiyi elmi-praktik konfranslar və seminarlar həmişə yüksək qarşılanır. Belə konfranslar və seminarlarda çox zaman xarici qonaqlar, ölkəmizdə fəaliyyət göstərən xarici səfirlərin özləri, yaxud onların məsul işçiləri məruzə və çıxışlar edirlər.

"Simurq" Mədəniyyət Assosiasiyası ildən-ilə öz sıralarını daim artırır. Bir həqiqəti xüsusən vurğulamaq istəyirəm ki, bu təşkilat yarandığı gündən Azərbaycan dövlətçiliyinə, dövlətimizin əsas ideologiyası olan "azərbaycançılıq" ideologiyasına xidmət edir.

Bu yolda "Simurq"a daha böyük uğurlar diləyirəm. Arzu edirəm ki, "Simurq"un qanadları daha geniş açılsın və onun sorağı daha uzaqlardan eşidilsin.

***Mustafa İsgəndərzadə,***
*filologiya və siyasi elmlər üzrə fəlsəfə doktoru, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti*

Simurq xalqımızın həm xəyal, həm amal, həm də həyat eşqinin simvolu olduğu üçün tarixən bütün əfsanə, nağıl, dastan qəhrəmanlarımızın pənahvəndinə çevrilmişdir. O ilahi, yenilməz könül quşu bugün də misli fədakar tariximizin müasir dünya dönüm-döngələrində od qılıncı, söz atəşi, əqidəməslək daşıyıcısı – cəngavəridir. O bu eşqlə-şövqlə xalqımızı gecə-gündüz bütün əlçatmazlıqlara, ünyetməzliklərə səsləməkdə, haylamaqdadır!

25 il öncə "Simurq" adında rəmzi təşkilat yaradan və millətin Simurq ürəkli övladlarını öz başına yığan şəxslərin də bir əqidəsi, bir məqsədi olmuşdur: milli birlik və bütövlük uğrunda bütün ölkə vətəndaşlarını maarifləndirib ayağa qaldırmaq və bununla da yenə cəmiyyət və dövlət quruculuğunda gənc dövlətimizə yardımçı olmaq!

Heç şübhəsiz, bu əqidə-məslək yolunda "Simurq" təşkilatının elmi-nəzəri və praktik əməyi az olmamışdır.

Vətənə, millətə xidmət üçün 25 il nədir ki?!

Biz bu mükəmməl ideya, əqidə və əzm sahibinə - "Simurq"a tutduğu və inamla getdiyi bütöv Vətən və bütöv millət yolunda yüz, min belə 25-illiklər arzulayırıq!

***Октай Алиев,***
*профессор Академии государственного управления при Президенте АР*

Мы все знаем вклад этого общества и лично его председателя проф. Фуада Мамедова в развитие культуры в нашей республике.

Я не перестаю удивляться той творческой энергии, которая ежедневно озаряет профессора Фуада Мамедова – этого очень талантливого и светлого человека, так много сделавшего для развития культуры в нашей стране.

Азербайджан сделал очень серьезный рывок в развитии своей экономики и вошел в число стран мира, характеризующихся устойчивым развитием всего народнохозяйственного комплекса.

Также как в экономике и социальной жизни, изменились и культурные ценности и устои в нашей жизни.

Общечеловеческие и национальные культурные ценности могут пропагандировать и внедрять в практику люди, чья повседневная жизнь характеризуется верой в лучшие качества людей и убежденностью в том, что непреходящие ценности – гуманизм, толерантность, образованность и вообще, культура жизни являются в наше беспокойное время особыми ценностями, присущие представителям народов мира с особой судьбой.

Проф. Фуад Мамедов посвятил этому светлому делу всю свою сознательную жизнь.

Человек с очень широким мировоззренческим кругозором и видением всей сложной панорамы мира, проф. Фуад Мамедов, как много лет назад, так и сегодня продолжает свою благородную и бескорыстную миссию – пропаганду культурологии и способствует тем самым реальному движению нашего народа по пути культурного развития.

Написанные им интересные книги и статьи, его горячие и убедительные выступления в различных коллективах, ассоциациях, обществах в Азербайджане и зарубежных странах по вопросам культурологии, роли культуры в развитии общества и ее значения для интеграции в международное сообщество народов – все это и другое яв-

ляют собой реальный вклад в культуру.

Но точка еще далеко не поставлена. Как крупная знаковая фигура в исследовании культурологических феноменов, их значения для духовного развития человека и социума, проф. Мамедов продолжает свои активные исследования, показывая нам то, на чем держатся моральные, нравственно-традиционные устои азербайджанцев.

Мне кажется, что ведя свои уникальные исследования и неизменно пропагандируя их результаты, проф. Ф. Мамедов способствует обогащению концепции и практики идеологии азербайджанизма.

И мы одобряем такой подход, когда исследования проф. Мамедова приобретают универсальный и национальный характер.

Я желаю проф. Ф. Мамедову и коллективу «Симурга» дальнейших успехов в исследовании и распространении культурологических знаний на благо нашего народа и народов мира.

***Севда Ализаде,*** *доктор философии в области медицины, доцент*

Уважаемый профессор Фуад Мамедов, огромное спасибо и благодарность Вам за идею и создание АКА "Симург". На протяжение 25 лет Вы сплотили вокруг себя лучших сынов и дочерей Азербайджана. Ваш вклад в развитие культурологии в нашей стране огромен и должен быть оценен по-достоинству. Будьте здоровы, живите долго, принося пользу своему народу. С юбилеем Ассоциации культуры Азербайджана «Симург!»

***Fərman İsmayılov,***
*fəlsəfə elmləri doktoru, professor, BDU-nun Sosial Elmlər və Psixologiya fakültəsinin Fəlsəfə kafedrasının müəllimi*

Tarix elmləri doktoru, professor F.T.Məmmədovun səyi nəticəsində Azərbaycanda ilk dəfə "Simurq" mədəniyyət təşkilatı yaranmışdır. Azərbaycan Respublikası gənc olduğundan qeyri-hökümət təşkilatının yaradılması, fəaliyyəti, məqsəd və vəzifələri və s. kimi məsələlər öz praktik həllini tapmamışdı və əslində ölkədə belə bir praktika da yox idi. Lakin professor Məmmədov orijinal təfəkkür tərzinə malik, böyük təşkilatçı bir alim olduğundan bu məsələlər onu heç də qorxutmadı. O, təşkilatı yaratdıqdan sonra dərhal böyük ölkələrin QHT-lər sahəsində praktikasını öyrənməyə başladı,

bu istiqamətdə xüsusilə ABŞ-ın, Fransanın, Rusiyanın praktikasını öyrəndi. Az bir müddət ərzində o, Bakıda olan bir neçə səfirliklərin əməkdaşları ilə birbaşa əlaqə yaratdı, "Simurq"un ətrafında Azərbaycan ziyalılarının ən görkəmli nümayəndələrini topladı. Bir çoxlarımızın gözləmədiyimizin əksinə olaraq, professor Məmmədov cəmiyyətin aylıq toplantılarını keçirməyə başladı və bu sahədə ölkəmizdə təsadüf olunmayan uğurlar qazandı. "Simurq" gündən-günə genişləndi, hər toplantısına mütləq bir və bir neçə ölkənin səfirlərini və ya səfirliklərin əməkdaşlarını dəvət etdi. Fransa, Çin, Kuba, ABŞ, Rusiya və b. ölkələrin səfirlikləri həmin təşkilatla doğmalaşdı. Bununla da bir QHT kimi "Simurq"un coğrafiyası olduqca genişləndi. "Simurq"un rəhbəri bununla da kifayətlənmədi; o ara-sıra cəmiyyətin məcmuələrini, bukletlərini, broşürlərini dərc etdirdi ki, bunlar əhali tərəfindən çox dəyərləndirildi və dəyərləndirilir. "Simurq" mədəniyyət cəmiyyətinin xətti ilə və başqa mümkün vasitələrlə, o cümlədən televiziya vasitəsilə Fuad müəllim yorulmaq bilmədən Azərbaycanın mədəniyyətinin çiçəklənməsinə mümkün olan töhfəni verir. Lakin o, çox görkəmli alim, Azərbaycanda kulturologiya elminin yaradıcısı kimi anlayır ki, ölkəmiz dünya mədəniyyətinə inteqrasiya istiqaməti götürmüşdür; buna görə də əlahiddə mədəniyyətdən söhbət gedə bilməz. Mədəniyyətlərin inteqrasiyası qloballaşma prosesinin mahiyyətindən irəli gəlir. Bunun nəzəri məsələlərini öz kitablarında, xüsusilə kapital "İdarəetmə mədəniyyəti" kitabında çox anlaşıqlı bir dildə ifadə etmişdir. Bu səbəbdən də cənab Məmmədov Azərbaycan mədəniyyəti ilə dünya ölkələri xalqlarının mədəniyyətlərini nəzəri və praktik cəhətdən qovuşdurmağa çalışır ki, bu da "Simurq"un ali məqsədlərindən biridir. O, ölkəmizin mədəniyyətini müxtəlif simpoziumlarda, konfranslarda çox ləyaqətlə təmsil edir. Onun kulturologiya elmi haqqında orijinal ideyaları xarici ölkə alimləri tərəfindən yüksək qiymətləndirilir. Bu onu deməyə əsas verir ki, professor Məmmədov "Simurq"la mədəniyyətimizə yeni çalarlar gətirmişdir. Qərbdə deyərlər, fəlsəfəni, mədəniyyətinizi göstərin, deyək siz necə xalqsınız. Bunu o, çoxlarına nümayiş etdirmiş və etdirməkdədir. F.T. Məmmədov böyük şəxsiyyət, yorulmaz tədqiqatçı, ictimaiyyət tərəfindən sevilən və təqdir edilən bir simadır. Tarix onun üzərinə böyük missiya qoymuşdur: böyük bir xalqın mədəniyyətinin SİMURQU olmaq! Professor Məmmədov "Simurqun" əhatə dairəsini genişləndirə-genişləndirə özü də bizim üçün Simurqa çevrilmişdir! Mədəniyyətə xidmət çox böyük işdir, böyük işlər isə həmişə böyükdən başlanır.

***Ağaəli İbrahimov,***

*Azərbaycanın xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının katibi, əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru*

Yarandığı ilk gündən "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası öz qarşısına kulturologiya elmi və maarifçiliyinin, milli mədəniyyətimizin inkişafına, onun modernləşməsinə, dünya mədəni birliyinə inteqrasiyasına yardım etmək və s. kimi nəcib məqsədlər qoymuşdur. 25 illik fəaliyyəti ərzində Assosiasiya bu istiqamətdə bir sıra layihələr irəli sürmüş, tədbirlər keçirmiş, bir çox xarici ölkələrdə Azərbaycanı layiqincə təmsil etmişdir.

"Simurq" AMA akademiklər, professorlar, incəsənət xadimlərini, diplomatlar və jurnalistləri öz ətrafında birləşdirərək, böyük bir ziyalı ordusu yaratmışdır. Keçirilən tədbirlərdə hər bir yaradıcı ziyalı cəmiyyətin fəaliyyətinə öz töhfəsini vermişdir. Bunlar Azərbaycanın tanınmış elm və incəsənət xadimləri, musiqiçilər, sənətşünaslar, ədəbi publisistlər, səfirlik nümayəndələri, həmçinin istedadlı tələbə gənclərdir. Müxtəlif bilik sahələrinin nümayəndələri - kulturoloqlar, filosoflar, rəssamlar, iqtisadçılar, hüquqşünaslar, politoloqlar, mühəndislər, həkimlər və digər təcrübəli mütəxəssislər öz yüksək intellektual və mədəni səviyyəsi ilə respublikada və onun hüdudlarından kənarda cəmiyyətin nüfuzunun yüksəldilməsinə xidmət etmiş, bir sıra beynəlxalq diplomlara və fəxri adlara layiq görülmüşlər.

Mən "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti Fuad Məmmədovun fəaliyyətinin, qazandığı nailiyyətlərin və uğurlarının şahidi olmuşam. Onun rəhbərliyi ilə Assosiasiya uzun və şərəfli bir yol keçmişdir. Azərbaycan cəmiyyətinə böyük töhfələr verən bu cəmiyyəti 25 illik yubileyi münasibəti ilə təbrik edirəm, bütün simurqçu dostlarıma can sağlığı və uğurlar arzulayıram!

***Vasif Babayev,***

*Azərbaycan xalq artisti, Prezident təqaüdçüsü, Beynəlxalq Televiziya və Radio Akademiyasının həqiqi üzvü, kino və televiziya rejissoru*

Tanınmış kulturoloq, təəssübkeş ziyalı Fuad Məmmədov barədə bir neçə kəlmə ilə öz fikirlərimi bölüşmək istərdim. Hər şeydən öncə mən Fuadı yaxşı insan, qayğıkeş dost kimi tanıyıram. Məhz insani keyfiyyətləri səbəbindən bu dostluq uzun illərdir ki, istər işgüzar, istərsə də şəxsi müstəvidə

davam edir. Fuad Məmmədovun təsisçisi və rəhbəri olduğu “Simurq” Cəmiyyətində keçirilən nüfuzlu tədbirlərdə bir ziyalı olaraq mütəmadi iştirak edir, öz fikirlərimi bölüşür, təkliflərimi irəli sürürəm. Nəinki mənim, eləcə də digər ziyalıların təkliflərinə qarşı Fuad həmişə həssas və liberal mövqe nümayiş etdirir ki, bu da onun birlik, vahidlik prinsipləri ilə uyğunluq təşkil edir.

Fuad - alim, dünya səviyyəsində tanınan, sayılıb-seçilən kulturoloqlardan biri olduğu kimi, təvazökarlıqdan kənar səslənsə də mən də kino və televiziya sahəsində öz sözünü demiş və bu gün də fəaliyyətini davam etdirən incəsənət nümayəndəsiyəm. Lakin Fuadı həm də televiziya sahəsi ilə bağlayan tellər var ki, bu da onun Mədəniyyət kanalında uzun müddət kulturoloq kimi aparıcılıq etməsi ilə izah olunur. Bu gün öz fəaliyyətini dayandırsa belə, bir zamanlar hər kəsin maraqla izlədiyi “İdrak” televiziya verilişinin bərpası və ona yenidən Fuad Məmmədovun aparıcılıq etməsinə ehtiyac var. Fuad Məmmədova yəqin ki, televiziya verilişinin istehsalı prinsipləri azdan-çoxdan tanışdır. Pavilyonu  işıqlandıran cihazlar göz qamaşdırsa da, Fuad Məmmədovun qəlbində qaynayan işıq gözləri qamaşdırmaq üçün yox, onları bəşəriyyətin bir parçası olaraq əbədi nura qərq etməyə iddialıdır. Fuad Məmmədovun əsas missiyası da məhz bununla bağlıdır. Bəşəriyyətin sülhə qovuşması yolları ziyalıların işığından keçir. Bu dəyərli və çətin yolda, dostum Fuad Məmmədov başda olmaqla, onun bütün komandasına – doğma “Simurq” ailəsinin üzvlərinə uğurlar diləyirəm!

***Валерий Эфендиев,*** *Германия*

Идеи Ассоциации «Симург» нашли свой отклик в сердцах и душах его сподвижников - высококультурных людей. И они - эти сподвижники, а ныне соратники продолжают высоко нести факел интеллекта и гуманизма, который на рубеже XX и XXI веков зажёг бессменный руководитель первой неправительственной организации - Фуад Тейюбович Мамедов. Всё вижу перед глазами, как будто это было вчера. Мы верили в торжество тех идей, которые ныне изо дня в день, из месяца в месяц, из года в год претворяются в жизнь. И ярким доказательством всех этих побед и свершений является очередной съезд АКА "Симург", который не только подведёт итоги, но и нацелит на новые задачи этой первой неправительственной организации Азербайджанской Республики.

К своему четвертьвековому юбилею Ассоциация идёт окрепшей

физически, но больше духовно богатой теми многочисленными мероприятиями, которые она во главе с её президентом - профессором Фуадом Мамедовым проводила, проводит и я уверен - будет проводить в последующие годы.

Это великое счастье передавать и свои знания, и свой богатый интеллект подрастающему поколению. Проделана колоссальная работа, но это ещё не предел. Уверен в том, что и в будущем у АКА "Симург" будут поистине замечательные исследования, которые наверняка будут оценены как нынешными, так  и последующими поколениями. И это вполне закономерно.

АКА "Симург" была организована в нужное время , т.е. в такое, когда интеллигенция Азербайджана в этом остро нуждалась. Берущая своё начало вскоре после известных каждому бакинцу январских событий 1990 года, Ассоциации культуры Азербайджана "Симург" прошла поистине тяжёлый и тернистый путь, но что самое интересное как её президент, так и члены президиума и её рядовые члены не сдавались, а шли твёрдой поступью к намеченной цели. Спрашивается, а почему? А потому, что каждый из них твёрдо верил, что наступит такое время, что концепция АКА, заложенная в её Уставе, рано или поздно найдёт отклик в душах и сердцах своих приверженцев. И ныне, оглядываясь назад, хочу констатировать, что мы шли правильным путём и об этом красноречиво говорят все те достижения, которые достигла Ассоциация за 25 лет своей повседневной, поистине титанической деятельности.

Хоть нас  друг от друга отделяют тысячи километров, от Германии до Азербайджана, можете смело считать меня и по сей день - членом АКА "Симург". И я очень горжусь этим, потому что быть даже рядовым членом в этой организации для меня очень почётно!

"АКА "Симург", день за днём, год за годом, - какая плодотворная деятельность! И какие разносторонние проекты. Оглядываясь назад, хочется воскликнуть: «Как же много нами сделано!» И это, бесспорно Ваша заслуга, Фуад Тейюбович, и заслуга всех искренних, высококультурных и преданных интересам высокой азербайджанской культуры симурговцев – подвижников!

...Уникальность человека определяется двумя факторами - глубоким интеллектом и высоким гуманизмом и должен отметить, что эти два высоких качества присущи моему другу, соратнику и единомышленнику - Фуаду Тейюбовичу Мамедову. Я безмерно счастлив от того,

что на моём жизненном пути встретился этот высококультурный и содержательный человек, и я это чувствую всё время. Спасибо Вам, дорогой Фуад Тейюбович, что вы есть!

От всей души желаю всем, кто в той или иной степени был и ныне связан с АКА "Симург» - всего самого наилучшего и продолжать идти той дорогой, которая выведет мой родной Азербайджан на самую высокую орбиту мировой цивилизации.

АКА прошла тяжёлый и тернистый путь. Но несмотря на свой, довольно-таки молодой возраст, ею проделана колоссальная работа. Дальнейших тебе успехов, АКА «Симург», на этом замечательном поприще!

***Тахир Амирасланов***,

*Генеральный директор Центра национальной кулинарии Азербайджана, президент Ассоциации национальной кулинарии Азербайджана, председатель Комитета традиционного питания, член организации международного народного творчества UNESKO*

Уважаемые дамы и господа!

От имени Центра Национальной Кулинарии и Национальной Ассоциации Кулинаров Азербайджана, всех носителей кулинарной культуры, поздравляю вас с 25-летним юбилеем Ассоциации культуры Азербайджана «Симург».

За 25 лет своей творческой деятельности Ассоциация «Симург» оказала огромное влияние на становление и развитие азербайджанской культуры в новых исторических условиях – в условиях независимости Азербайджанской Республики.

Результаты многолетних научных исследований, фундаментальные монографии и учебные пособия, организация и проведение Ассоциацией научных конференций, семинаров и диспутов ученых и специалистов, представляющих различные области знания, способствовали становлению нового направления в науке Азербайджанской Республики - культурологии, имеющей большое историческое, теоретическое и прикладное значение для национального развития. Огромная работа по распространению универсальных культурологических знаний среди населения и молодежи, в том числе при помощи нацио-

нального телевидения и других СМИ, расширяет научный кругозор, интеллектуальные способности, организованность, ответственность, профессиональную, этическую и гражданскую культуру представителей различных областей нашего общества.

Плодотворная работа членов Ассоциации в области международного научного и культурного сотрудничества, умелое использование методов народной дипломатии способствовали пропаганде достижений азербайджанской науки и культуры во многих зарубежных странах, расширению круга друзей Азербайджана в современном мире.

Успехи Ассоциации культуры Азербайджана во многом обусловлены серьезной научной, организационной и общественной деятельностью создателя и руководителя «Симург» Фуада Мамедова, которого можно считать основоположником культурологической науки в Азербайджане. Получившие международное признание фундаментальные труды этого ученого, особенно труды в области культурологии и культуры управления, значительно расширили горизонты этой универсальной науки, имеющей стратегическое значение.

Часто бывая за рубежом на научных конференциях, конгрессах, я не раз слышал высокую оценку трудов и личности Фуада Мамедова от ведущих зарубежных ученых-культурологов, испытывая гордость за азербайджанского ученого.

Уверен, что Ассоциация культуры Азербайджана «Симург» и ее руководитель, профессор Фуад Мамедов способны сделать и сделают еще больше полезного для развития духовной культуры нашей страны и всего мира.

Желаю процветания и новых творческих успехов руководству и членам АКА «Симург».

***Анар Джафаров,*** *руководитель молодежного департамента Ассоциации*

Сердечно поздравляю Вас, уважаемый Фуад Тейюбович Мамедов, и всех Ваших сподвижников со знаменательной датой - 25-летием со дня создания Ассоциации Культуры Азербайджана «Симург». 25 лет – это возраст мудрости, расцвета, профессионализма и творчества. Вы по праву можете гордиться яркими страницами биографии Ассоциации, именами тех, кто стоял у истоков его создания, кто обеспечивает его

авторитет и востребованность сегодня.

Являясь первой неправительственной организацией (НПО), созданной в годы независимости страны, АКА «Симург» внесла уникальный вклад в развитие отечественной и мировой культурологии, совершенствовании системы подготовки кадров-управленцев нового мышления, формировании интеллектуального потенциала страны. Сегодня АКА «Симург» по праву является одной из ведущей просветительской и инновационной организацией в Азербайджане.

Широкая научная, практическая и инновационная направленность, предложенный универсальный метод «культурологической пирамиды», дающий возможность построения инновационных моделей эффективного управления, новаторские проекты, которые реализует Ассоциация, позволяют уверенно идти в ногу со временем, заниматься глубокой исследовательской работой.

Благодаря целеустремленности, огромной созидательной энергии, творческому поиску, высокому профессионализму, умению бережно хранить заложенные традиции, наш коллектив неизменно добивается успехов в осуществлении самых смелых планов и идей.

Мы гордимся многолетним плодотворным сотрудничеством с Вами, тем, что можем назвать себя Вашими единомышленниками.

В этот праздничный день от всей души желаю Вам крепкого здоровья, счастья, радости, добра, неиссякаемого энтузиазма, вдохновения, благополучия и дальнейшего процветания!

***Tamerlan Dəmirbəyli,***

*"Simurq" AMA-nın Beynəlxalq Əlaqələr departamentinin rəhbəri*

## "Sabah bugünümüzdən daha mədəni olaq!"

Mən istərdim ki, bu yazıda "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının Beynəlxalq Əlaqələr departamentinin rəhbəri kimi yox, "Simurq" AMA-nın sıravi üzvü kimi öz fikirlərimi bildirim. Artıq 8 ildir ki, "Simurq" AMA mənim həyatımdadır. "Simurq" AMA öz fəaliyyəti ilə tərəqqipərvər və mədəniyyətsevər gəncləri bir araya toplamağı bacarmış, onlara kulturologiya elminin sirlərini öyrətməklə gənclərin mədəni, sağlam düşüncə, ətraf mühitə qayğıkeş yanaşma və vətənpərvərlik xüsusiyyətlərinin inkişaf etdirilməsi prosesinə öz dəstəyini göstərmişdir.

Təşkilat mədəniyyət sektorunun inkişaf etdirilməsi və mədəniyyət sahəsində maarifləndirmə işinin əsaslı şəkildə həyata keçirilməsi üçün böyük addımlar atmış və Azərbaycan mədəniyyəti tarixində özünəməxsus iz qoymuşdur. "Simurq" AMA yorulmadan Azərbaycan mədəniyyətinin təbliğatçısı olmuş və mədəniyyət sahəsində çox böyük uğurlara imza atmış, mədəniyyətimizin inkişafına istiqamətlənən çoxsaylı yerli və beynəlxalq tədbirlərin, layihə və proqramların təşkilatçısı olmuşdur.

Təşkilat həm də öz fəaliyyəti vasitəsi ilə dünya azərbaycanlılarına mədəni və həmrəylik mesajları göndərmiş və onların daha mütəşəkkil təşkilatlanması işinə öz töhfəsini vermişdir. Hər bir azərbaycanlının mədəni inkişafında oynadığı rol "Simurq" üçün bir şərəf işi olmuşdur və təşkilat bu yolda daim irəliləməyə, daha böyük müvəffəqiyyət zirvələrini aşmağa çalışmışdır.

"Simurq" AMA-nın prezidenti, professor Fuad Məmmədov bu illər ərzində öz işi ilə hamıya sübut etməyə çalışmışdır ki, mədəniyyət dünyanı xilas edəcək və bununla da, Azərbaycan mədəniyyətinin təbliğində və inkişaf etdirilməsində "Simurq" AMA-nın danılmaz rolunu siyasi və mədəni arenada təsdiq etməyi bacarmışdır.

Fuad Məmmədov mənim həyatımda əvəzedilməz rol oynayan həyat müəllimim olub. Bugün nail olduğum nailiyyətlər üçün, qazanmış olduğum sosial mövqe üçün Fuad müəllimə, onun rəhbəri olduğu "Simurq" AMA-ya borcluyam. "Simurq" AMA-nın Beynəlxalq əlaqələr departamentinin işinin mənə həvalə olunması ilə mən Azərbaycan mədəniyyətinin inkişafı üçün böyük məsuliyyəti hiss edirəm və bu etimada layiq olmaq üçün əlimdən gələni əsirgəməməyə çalışıram.

Arzu edərdik ki, gələcək illərdə "Simurq" AMA-nın nəzərdə tutduğu bütün mütərəqqi ideyalar həyata keçsin və Azərbaycanımızın çiçəklənməsində daha neçə-neçə böyük layihələrə imza atsın. Çox hörmətli Fuad müəllimin bir yaxşı sözü var: "Gəlin, bugün dünənimizdən, sabah isə bugünümüzdən daha mədəni olaq". Fuad müəllimin bu sözündə böyük məna var. Əgər sabahımızı daha firavan, daha abad görmək istəyiriksə, mədəniyyətimizi günü-gündən inkişaf etdirməliyik. Bu yolda dayanmadan fəaliyyət göstərən və mədəniyyət sektorunda Azərbaycanın ilk qeyri-hökumət təşkilatı olan "Simurq" AMA-ya bir azərbaycanlı gənc olaraq, öz dərin təşəkkürümü ifadə edir və 25 ildir ki, "Simurq" AMA-ya böyük əzmkarlıqla başçılıq edən əziz rəhbərimiz Fuad müəllimi, onun gözəl ziyalı kollektivini, gənc üzvlərini təşkilatın yaradılmasının 25-ci ildönümü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm!

***Фарзана Касимова,***

*доцент, член правления Нью-Йоркской Ассоциации азербайджанцев «ANA”, врач-кардиолог, член Всемирной Ассоциации кардиологов «Друзья сердца вокруг мира», член европейской, российской и азербайджанской ассоциаций кардиологов*

*«Культуру надо насаждать! Даже силой…*
*Иначе нас всех ждёт крах».*
***Сергей Капица***

В этих словах гениального ученого звучит истина, которая вместе с призывом к действию, выражает обеспокоенность и тревогу, страх за будущее целого поколения огромной страны. Отрадно отметить, что все чаще и чаще во все сферы нашей жизни внедряются принципы мировой культурологии, как в бытовой сфере, в искусстве, в педагогической деятельности, так и в управленческих структурах, средствах массовой информации, журналистике и т. д. И в этом огромная заслуга 25-летней Ассоциации культуры Азербайджана «Симург».

Мое знакомство с Ассоциацией состоялась около пяти лет назад. Счастливая случайность, а по неписанным законам Вселенной, скорее, закономерность свела меня с одной из самых активных членов этой Ассоциации, обаятельной Шелалой ханум Кесеменли. Талантливая, трудолюбивая и неутомимая, она очаровала меня с первой встречи. Ее проникновенные умные речи, интересные, содержательные беседы не могли не привлечь внимание собеседника. С большой любовью и вдохновением она рассказывала о многогранной и плодотворной деятельности АКА «Симург», охватывающей все сферы нашего общества.

С особым почтением и уважением она рассказывала о президенте АКА - профессоре Фуад Мамедове, пообещав познакомить меня с ним. Еще до знакомства с этим незаурядным, необыкновенным человеком, у меня в вооброжении сложился его образ, который можно было бы охарактеризовать как восходящую звезду в области новой для нас науки – культурологии. И действительно, профессор Фуад Мамедов, основатель и президент АКА «Симург» - пионер в области развития и внедрения культурологии как науки, талантливый ученый, известный не только в республике, но и далеко за ее пределами, олицетворяет кладезь знаний и мудрости, поистине звездную личность, чья неутомимая, многогранная деятельность была направлена на повыше-

ние роли культурологии во всех сферах жизни нашего общества и включала просветительскую, педагогическую, научно-исследовательскую, общественно-полезную познавательную программу внедрения основ культурологии в нашей стране.

Пожалуй, с этой целью и была создана «АКА «Симург», которая вот уже 25 лет успешно осуществляет свою деятельность, затрагивая самые широкие аспекты нашей жизни с использованием многогранных способов популяризации основ культурологии. Это и семинары и конференции на различные темы человеческого развития, и издание монографий, учебно-методических пособий, брошюр, и организация и проведение весьма популярной телевизионной передачи программы «Идрак», с привлечением видных ученых, деятелей искусств, известных представителей общественности, молодых специалистов и студентов. Это также организация культурно-просветительных программ, посвященных различным знаменательным датам, событиям и юбилеям. Это также выездные семинары в районах республики для различных слоев общества – работников культуры, просвещения, управленческих структур, сферы обслуживания и многое-многое другое. Это лишь небольшой перечень многогранной, неутомимой деятельности АКА «Симург» и ее президента, Фуада Мамедова, свидетелем или участником которой мне посчастливилось стать. Пожалуй, даже все основные мероприятия и достижения Ассоциации «Симург» трудно перечислить, настолько многогранна и всеобъемлюща ее деятельность.

В канун 25-летнего юбилея этой замечательной организации хочется пожелать огромных успехов в ее плодотворной, творческой деятельности, еще больших достижений в реализации ее гуманитарных целей. И, как птица Симург, пусть Ассоциация многие и многие годы сеет всюду «разумное, светлое, вечное» - универсальные културологические знания, позволяющие нашему обществу самосовершенствоваться, постепенно поднимаясь на все более высокие ступени гармоничного развития.

Дорогой Фуад муаллим! Мы черпаем знания, духовную силу и вдохновение от общения с Вами. Вы - гордость и слава нашей нации! Спасибо за Вашу неутомимую и столь необходимую общественную деятельность. Еще раз – со славным юбилеем замечательный коллектив АКА «Симург»!

***Şəlalə Kəsəmənli,***
*“Simurq” Beynəlxalq kulturoloji jurnalın redaktoru,*
*Azərbaycan Kulturoloqlar Cəmiyyətinin məsul katibi*

Deyirlər, İNAM möcüzələr yaratmağa qadirdir. İnsan üçün kiminsə ona inanması çox vacibdir. Əgər insana inanarlarsa, o çox şey bacarar. İnsanı ruhlandırmaq əqli gücün üzə çıxmasına yardım edir, sən uğur qazanmağa başlayırsan, hər bir uğur səni yeni əməllərə ruhlandırır. Tanışlığımızın tam mənası ilə ilk günündən başlayaraq bu günədək, - parlaq şəxsiyyət, yüksək mədəniyyətli insan Fuad Məmmədov özünün inamı və dəstəyi ilə hər zaman mənə (və yalnız mənə deyil) istənilən maneələri aradan qaldırmağa, Kulturologiya piramidasının üç – Öyrənmə, Dərk etmə və Yaratma (Quruculuq) səviyyəsinin səkkiz pilləsi ilə yuxarı qalxaraq, yaradıcı insana çevrilməyə kömək etmiş və edir. Quruculuq və Yaradıcılıq isə ictimai fayda gətirir və insana yeni qüvvə verir.

Hər bir insanın həyatında onun etməli olduğu işlər vardır, bu onun missiyası hesab olunur. Fuad Məmmədovun missiyası aydındır: əhalinin müxtəlif kateqoriyalarının kulturoloji maarifləndirilməsi; cəmiyyətin layiqli üzvlərini, güclü ruha – ağla, gözəl hisslərə və möhkəm iradəyə malik şəxsiyyətlərin, liderlərin formalaşdırılması; kulturoloji təfəkkürü inkişaf etdirmək; universal kulturoloji bilikləri yaymaq; insanın inkişafında kulturologiyanın rolunu açıqlamaq və s. və i. Fuad Məmmədov – bizim milli sərvətimizdir, fəxrimizdir! O, milli kulturologiyanın, əsasən, kulturologiya elmi, təhsili və maarifinin inkişaf etdirilməsində əsl fədakardır. Onun fədakarlığı, öz işinə sədaqəti, yorulmaz əməyi və elmə məhəbbəti məni həmişə heyran etmişdir. Milli kulturologiyaya onun töhfəsi – çox böyük, səmərəli, məzmunludur. Alim-kulturoloq kimi Fuad Məmmədovun ən böyük xidməti – Yeni İnsan Təfəkkürünün formalaşdırılmasına və düzgün həyat və fəaliyyət texnologiyalarını yaratmağa unikal cəhddən ibarətdir.

Və o buna nail olur!

Əziz, doğma Fuad müəllim! Mənə bu gözəl Assosiasiyanın sıralarında olmaq və nəinki yanaşı, həm də Sizinlə birlikdə işləmək imkanı yaratdığınıza görə Sizə hədsiz minnətdaram! Burada çox dəyərli, Azərbaycanın bir çox tanınmış, hörmətli ziyalı nümayəndələri ilə tanış olmaq imkanı qazandığım üçün Sizə qəlbən təşəkkür edirəm. Şübhəsiz, “Simurq” AMA-nın inkişaf yolu asan olmamışdır, bu yolda hər cür çətinliklər olmuşdur. Assosiasiyanın təsis edilməsi və daimi fəaliyyəti üçün güclü iradə, çox böyük, gərgin zəhmət, işləmək üçün yer, maddi dəstək və s. lazım idi. Və əgər bugün Assosia-

siya özünün 25 illik yubileyini qeyd edirsə, bu o deməkdir ki, o öz iradəsi, məqsədyönlü, yaradıcı fəaliyyəti ilə bütün bu çətinliklərə sinə gərmişdir. Yeni, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının tarixi. 1990-2015" kitabının işıq üzü görməsi ilə respublikamızın vətəndaşları və xaricdə yaşayan həmvətənlərimiz üçün, 1990-cı ildən başlayaraq bugünədək, müstəqil Azərbaycan Respublikasının bu ilk qeyri-hökumət təşkilatının tarixi yaranma şəraiti və sonrakı yaradıcı fəaliyyəti ilə hərtərəfli və dərindən tanış olmaq imkanı yaranmışdır. Assosiasiyanın keçdiyi çətin yolu nəzərə alaraq, bu yubileyin bayram edilməsi əlamətdar tarixi hadisədir. Sizi və bütün simurqçuları Assosiasiyanın 25 illik Yubileyi münasibətilə ürəkdən təbrik edirəm! Fədakar, nəcib fəaliyyətinizdə, xalqın maraqlarına, dövlətə, Vətənə sadiq, yüksək, qüsursuz xidmətinizdə Sizə tükənməyən yaradıcılıq enerjisi və gələcək uğurlar arzu edirəm!

***Mir-Teymur Məmmədov,***
*Azərbaycan Rəssamlar İttifaqının üzvü, Gürcüstan Rəssamlar İttifaqının fəxri üzvü, rəssam-qrafik, heykəltəraş, karikaturaçı, jurnalist-yazıçı*

